İSSN 2708-955X

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ
CONFERENCE PROCEEDINGS

2020 № 4

SDU
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

SUMQAYIT - 2020

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2020 № 4

SUMQAYIT – 2020
СУМГАИТ – 2020
SUMGAYIT – 2020

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV *prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ *проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV *prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV *prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

İQTISADİ TƏHLÜKƏSİZLİK: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR

BEYNƏLXALQ ELMİ KONFRANS

(08-09 iyul 2020-ci il)

ЭКОНОМИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ: СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ

МЕЖДУНАРОДНАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ

(08-09июля 2020-го года)

ECONOMIC SECURITY: CURRENT SITUATION AND PERSPECTIVES

INTERNATIONAL SCIENTIFIC CONFERENCE

(08-09 July 2020)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

İQTİSADİ TƏHLÜKƏSİZLİK: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR

BEYNƏLXALQ ELMİ KONFRANSIN

MATERİALLARI

8-9 iyul 2020-ci il

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

МАТЕРИАЛЫ

МЕЖДУНАРОДНОЙ НАУЧНОЙ КОНФЕРЕНЦИИ

ЭКОНОМИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ: СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ

8-9 июля 2020

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAIT STATE UNIVERSITY

MATERIALS

INTERNATIONAL SCIENTIFIC CONFERENCE FOR THE

ECONOMIC SECURITY: CURRENT SITUATION AND PERSPECTIVES

8-9 July 2020

TƏŞKİLAT KOMİTƏSİ
ОРГАНИЗАЦИОННЫЙ КОМИТЕТ
ORGANIZING COMMITTEE

SƏDR

Elxan Hüseynov rektor, professor

SƏDR MÜAVİNİ

Ramazan Məmmədov Elm və innovasiyalar üzrə prorektor, professor

ÜZVLƏR

Natiq Talıbov	Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent
Qafar Atayev	Beynəlxalq əməkdaşlıq üzrə prorektor, dosent
Ramiz Hüseynov	Humanitar məsələlər üzrə prorektor, dosent
Naib Hacıyev	İqtisadi məsələlər üzrə prorektor
Aynurə Yəhyayeva	İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent
Qalib Hüseynov (məsul katib)	Biznesin təşkili və menecment kafedrasının müdiri, dosent
Məlahət Pənahəliyeva	Dünya iqtisadiyyatı və marketinq kafedrasının müdiri, dosent
Loğman Abdullayev	Maliyyə və mühasibat uçotu kafedrasının müdiri, dosent
Lalə Mahmudova	İqtisadiyyat kafedrasının müdiri, dosent
Sabir Xəlilov	Doktorantura və magistratura şöbəsinin müdiri, dosent
Samir Orucov	Elmi hissənin müdiri, dosent
Samirə Məmmədova	Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, t.f.d.

PROQRAM KOMİTƏSİ
ПРОГРАММНЫЙ КОМИТЕТ
PROGRAM COMMITTEE

Mirkişili Tahir Famil oğlu	Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq komitəsinin sədri, Azərbaycan
Səmədzadə Ziyad Əliabbas oğlu	Akademik, Milli Məclisin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Azərbaycan
Bayramov Vüqar İbad oğlu	Milli Məclisin deputatı, Azərbaycan
Hüseynov Qalib Sirac oğlu	SDU-nun Biznesin təşkili və menecment kafedrasının müdiri, dosent, Azərbaycan
Pənahəliyeva Məlahət Ömər qızı	SDU-nun Dünya iqtisadiyyatı və marketinq kafedrasının müdiri, dosent, Azərbaycan
Abdullayev Loğman İmran oğlu	SDU-nun Maliyyə və mühasibat uçotu kafedrasının müdiri, dosent, Azərbaycan
Mahmudova Lalə Fəqail qızı	SDU-nun İqtisadiyyat kafedrasının müdiri, dosent, Azərbaycan
Əliyev Şəfa Tiflis oğlu	SDU-nun Dünya iqtisadiyyatı və marketinq kafedrası, professor, Azərbaycan
Özdemir Yahya Celal oğlu	Yalova Universiteti, professor, Türkiyə
Осипов Михаил Алексеевич	Sankt-Peterburq Dövlət İqtisad Universiteti, professor, Rusiya
Мамателашвили Ольга Владимировна	Ufa Dövlət Neft Texniki Universiteti, dosent, Rusiya

PLENAR İCLAS

ПЛЕНАРНОЕ ЗАСЕДАНИЕ

PLENARY SESSION

ECONOMICS AND MANAGEMENT OF DIGITALIYED AGRICULTURAL PRODUCTION SYSTEMS AND VALUE CHAINS

Ibrahimov Muslum Azad
Visiting Professor of Siegen University. Germany.

Summary: *Digitalization in our lives became a major trend during the lockdown period caused by CORONA-19. The quarantine recession had a major impact on our lives. But, unfortunately, it has always happened that mankind, just in the face of the danger of extinction, actively began to apply various innovative technologies everywhere. Innovations quickly spread around the world, and have been the main driver of the world economy for the past 20 years. In the face of fierce competition, large global corporations and multinational companies have made large venture capital investments, and their desire for high returns has influenced the development of innovative products for a growing proportion of the world's population. The pandemic has completely changed the approach, and now the use of digital technologies has become an integral part of social and economic development. In this article, we would like to address important areas of digital governance in agriculture.*

Key words: *Lockdown, Digital Farming, Precision agriculture, Digitalization, Digital Agriculture, Data science, Responsible research and innovation, Agricultural - 4.0, Innovation systems*

To date, there are a sufficient number of articles on the analysis of the digitalization of agriculture. From the point of view of technical and information technologies, the economic efficiency of one or another approach is investigated. At the same time, it became clear that the 4th version of the Industrial Revolution, which covered all directions of mankind, not only did not bypass agriculture, but on the contrary, determined the future of this sphere. Big data, Internet of things, augmented reality, robotics, sensors, 3D printing, system integration, omnipresent communication, artificial intelligence, digital twins and block-chain, etc., all these technologies are the product of the 4th Industrial Revolution. Studies show that the separate use of these technologies from an economic point of view, their fragmentation without extreme integration leads to high costs. Therefore, Agriculture - 4.0 is a transition to a fully automated digital production, managed by intelligent systems in real time in constant interaction with the external environment, going beyond the boundaries of one enterprise, with the prospect of a global industrial network of Things and Services.

Researchers in the economic sciences have recently begun exploring various aspects of digital agriculture, such as the digitalization of automated agricultural production systems, digital management of value chains and agrifood systems. Today, during the pandemic, this is the most discussed challenge. The difficulty is that in addressing the challenges of sustainable agricultural production, existing social, economic and institutional issues are clearly correlated with precision

agriculture, digital agriculture. All these essentially form the agricultural system 4.0 [1]. The analysis of the conducted studies shows that five clusters can be identified, which lead to the entire system of digitalization in agriculture: 1. Adoption, use and adaptation of digital technologies in agriculture [2, 3];, 2. The impact of digitization on farmer identity, skills and work in agriculture [4]; 3. Authority, ownership, privacy and ethics in the "digitization" of agricultural production systems and value chains [5]; 4. "Digitization and agricultural knowledge and innovation systems (AKIS); 5. Economics and management of digitized agricultural production systems and value chains [5]. These clusters not only bring together the general direction of digital agriculture, but are also separate areas of research on the problems of digitalization at all stages of the development of all agriculture. The traditional problems of agriculture that still remain unresolved were exacerbated during the COVID-19 pandemic, as they were related to many technological and socio-economic issues. Today, new digitalization ideas can be solved. These ideas are based on the broad space in which digital agriculture and agricultural diversity interact. Identification of new economic, business and institutional arrangements both on farms and in value chains, food systems and innovation systems. In addition, new institutional arrangements for the legal and ethical regulation of digital agriculture are being explored. Within these clusters, new areas of research in economic science are being identified and new areas of agribusiness are being proposed. A future research programme on digital agriculture, smart agriculture and agriculture 4.0 is needed in this area.

In Azerbaijan, the development of "Electronic Agriculture" as an information system began in 2015 and was identified as a priority area for future development of agriculture. The main purpose of this system was to build a kind of "bridge" between an official and a farmer, namely the inclusion in the system of agriculture, regional offices of "DAİM". The tasks set were in principle the same as those solved by "Digital Agriculture", but to date the direction of "Electronic Agriculture" itself has gone far ahead. And it all happened within one year. Also, four potential new thematic social science clusters are also identified, which so far seem weakly developed: Digital agriculture socio-cyber-physical-ecological systems conceptualizations; Digital agriculture policy processes; 3) Digitally enabled agricultural transition paths; Global geography of digital agriculture development. This future research agenda provides ample scope for future interdisciplinary and transdisciplinary science on precision farming, digital agriculture, smart farming and agriculture 4.0.

The continued digitalization of agriculture requires not only the ability to implement these technologies, but also the ability to create fundamental academic foundations. These foundations cover universities, research and ultimately the creation of a "Digital Farming" professorship.

An important issue of introducing digital technologies in agriculture is to determine the level of economic efficiency. The concept identifies different steps that go from data collection to decision making, and effective actions produce results that influence different criteria. The framework describes the factors that influence these different steps. This concept is based on the increasing role of advisory structures. Collecting indicators that are very specific to agriculture, such as seasonal processing and adoption of appropriate technologies, can lead to a key role for extension services. New business models may emerge in which the main input of consultants will be to help farmers understand whether and how better information can add value in their specific circumstances.

Figure 1.

System for developing and implementing automated digital agricultural production



Figure 1. shows the relationship between the main technological elements that form the automated digital production. Such a system is actively used now and before the pandemic to optimize international value chains on the part of TNK. For example, digital agriculture, in terms of multinational agro-industrial companies and value chain management, is exploring a number of business models that are emerging in western agriculture. They use a typology that contrasts top-down and bottom-up innovation with closed and open platforms, and they identify four potential business models: 1. corporate model; 2. strategic networks; 3. pristine systems; and 4. perfect competition.

Today, there is a need for more systematic mapping of emerging business models to help you see how local or global they are, and to identify the benefits and risks that each model presents. At the same time, the introduction of new business models addresses issues such as the implications for the distribution of labour and capital in agriculture, both within farms (e.g. increasing farm size, farm labour share, etc.), between farms (corporate co-operative farming, etc.), and between farms and other actors in the value chain. Exploring issues such as digitalization affects the interaction between value chain actors (e.g. input suppliers, intermediaries, traders, retailers) in terms of contracts, trust and transaction costs, e.g. through platform technologies, the Internet of Things and Artifical Intelligence?

In this way, economic science and management can make a major analytical contribution to policy, farm management, supply chains, consumer demand and sustainability issues [6] through the various methods they apply. Economic and marketing approaches to innovation [5] and service-specific production organization [8] can be usefully applied in agriculture (Klerkx and Proctor, 2013). This may require an example-based approach to new business models to understand how actors create value from agricultural data. Another useful area of research could be to develop more quantitative approaches in this context that have proven valuable in other sectors, such as statistical analysis of systematic surveys of firm innovation [6].

The development of a new business model for digital agriculture involves research on such issues as the social role of farms and their value in the socio-economic development of the state; understanding the preconditions for trust between stakeholders who play a role in "smart agriculture" and who enter into a relationship together when they become members of a data exchange network; research on ethical behaviour, as it is not clear how current regulation could

satisfactorily combine private and public values; and the need to develop a more quantitative approach in this context. All this adds to the importance of addressing issues such as perceived uncertainty and risk. Studies by Western scientists point to the need for responsible research and innovation. Based on the above, future research could focus on such topics as the role of values in digital agriculture design, data organization and management, and the application of responsible innovation principles.

References

1. D.C. Rose, J. ChilversAgriculture 4.0: Broadening Responsible Innovation in an Era of Smart Farming Frontiers in Sustainable Food Systems (2018), p. 87
2. V. Blok, B. GremmenAgricultural technologies as living machines: toward a biomimetic conceptualization of smart farming technologies Ethics Policy Environ., 21 (2018), pp. 246-263
3. S.A. Wolf, F.H. ButtelThe political economy of precision farming Am. J. Agric. Econ., 78 (1996), pp. 1269-1274
4. E. Leonard, and other. Accelerating Precision Agriculture to Decision Agriculture: Enabling Digital Agriculture in Australia. Cotton Research and Development Corporation (2017)
5. K.H. Coble, A.K. Mishra, S. Ferrell, T. GriffinBig data in agriculture: a challenge for the future Appl. Econ. Perspect. Policy, 40 (2018), pp. 79-96
6. B. Desmarchelier, F. Djellal, F. GalloujKnowledge intensive business services and long term growth Struct. Chang. Econ. Dyn., 25 (2013), pp. 188-205

Xülasə

İbrahimov M.A.

Rəqəmsal kənd təsərrüfatı məhsullarının istehsal sistemlərinin və dəyər zəncirlərinin iqtisadiyyatı və idarə edilməsi

CORONA-19 səbəb olduğu əngəlləmə dövründə həyatımızda rəqəmsallaşmanı əsas bir tendensiyaya çevirdi. Karantin tənəzzülü həyatımıza çox təsir etdi. Ancaq təəssüf ki, həmişə belə olmuşdu ki, bəşəriyyət yalnız məhv olmaq təhlükəsi qarşısında olanda, müxtəlif yenilikçi texnologiyalarını fəal tətbiq etməyə başlamışdır. İnnovasiyalar dünyada sürətlə yayıldı və son 20 ildə dünya iqtisadiyyatının əsas aparıcı güvvəsi olmuşdur. Gərgin rəqabət şəraitində, böyük dünya korporasiyaları və transmilli korporasiyalar böyük vençurlu investisiyalar həyata keçirdilər və yüksək gəlirli olmaq istəyi dünya əhalisinin artan bir hissəsi üçün innovativ məhsulların inkişafına təsir etdi. Pandemiya yanaşmanı tamamilə dəyişdirdi və indi rəqəmsal texnologiyaların istifadəsi sosial-iqtisadi inkişafın ayrılmaz hissəsinə çevrildi. Bu yazıda, kənd təsərrüfatında rəqəmsal idarəetmənin vacib sahələrinə toxunmaq istərdik.

Açar sözlər: *bloklaşdırma, rəqəmsal kənd təsərrüfatı, həssas kənd təsərrüfatı, rəqəmsallaşdırma, rəqəmsal kənd təsərrüfatı, informatika, məsul tədqiqat və innovasiya, kənd təsərrüfatı - 4.0, innovasiya sistemləri*

Резюме

Ибрагимов М.А.

Экономика и управление цифровыми сельскохозяйственными производственными системами и ценностных цепей

Цифровизация в нашей жизни стала основной тенденцией в период блокировки, вызванной КОРОНА-19. Карантинная рецессия оказала большое влияние на нашу жизнь. Но, к сожалению, всегда происходило так, что человечество, как раз перед лицом опасности

вымирания, активно стало повсеместно применять различные инновационные технологии. Инновации быстро распространились по всему миру, и на протяжении последних 20 лет являются главной движущей силой мировой экономики. В условиях жесткой конкуренции крупные мировые корпорации и транснациональные компании сделали крупные венчурные инвестиции, а их стремление к высокой доходности повлияло на разработку инновационных продуктов для все большей части населения планеты. Пандемия полностью изменила подход, и теперь использование цифровых технологий стало неотъемлемой частью социально-экономического развития. В этой статье мы хотели бы остановиться на важных областях цифрового управления в сельском хозяйстве.

Ключевые слова: *блокировка, цифровое земледелие, точное земледелие, цифровизация, цифровое сельское хозяйство, информатика, ответственные исследования и инновации, сельское хозяйство - 4,0, инновационные системы*

DÖVLƏTİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ BARƏDƏ

Səmədzadə Ziyad Əliabbas oğlu
akademik, Milli Məclisin deputatı,
Azərbaycan İqtisadçılar İttifaqının Prezidenti

Xülasə: *İqtisadi təhlükəsizlik problemi istənilən müstəqil dövlət üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan 30 ilə yaxındır ki, müstəqil dövlətdir. 30 illik müstəqil respublikanın başlıca fundamental nailiyyəti – yeni iqtisadi sistemin yaradılması, istehsal və mülkiyyət münasibətlərinin köklü surətdə dəyişdirilməsidir. Şübhəsiz, birinci fundamental aksiya "Əsrin kontraktı"nın imzalanması oldu. Bu həcminə görə böyük bir hadisə idi və nəticədə Azərbaycanı müstəqil respublika kimi başqa bir keyfiyyətdə dünya arenasına çıxartdı. Azərbaycan öz tarixində ilk dəfə olaraq, zəngin resurslarından milli və iqtisadi təhlükəsizliyinin gücləndirilməsində, ictimai rifahın artırılmasında sərbəst istifadə edə bildi. Beynəlxalq maliyyə təşkilatları ilə xarici iqtisadi əməkdaşlıq əlaqələrini təhlil edərkən, bizə lazımdır ki, bu proseslərin sosial-iqtisadi, siyasi nəticələrinin hərtərəfli mümkün variantlarını diqqətlə araşdıraq. Bazar nəzarətsiz ola bilməz. Yeni müstəqli dövlətlərin 25-dən çox iqtisadi təhlükəsizlik göstəricilərinin kompleks təhlili bu qənaətə gəlməyə imkan verir ki, Beynəlxalq Valyuta Fondunun mühüm prinsiplərindən biri olan Vaşinqton konsensusunu milli suverinliyin keyfiyyətli inkişafı üçün əsas götürmək olmaz. Bir daha qeyd edirik ki, iqtisadi təhlükəsizliyə bu və ya başqa formada təsir edən mümkün nəticələrin dərindən təhlili olmadan dövlətin qarşısında duran heç bir vəzifənin yerinə yetirilməsi, o cümlədən, onun qüdrətinin və tərəqqəsinin artırılması vəzifəsini həll etmək olmaz. Transmilli layihələrin reallaşdırılması proseslərində milli maraqların nəzərə alınması, müstəqil iqtisadi siyasət, bazar iqtisadiyyatının fetişizmləşdirilməməsi, iqtisadiyyatın bacarıqla dövlət tənzimlənməsi Azərbaycanın iqtisadi təhlükəsizliyinin etibarlı amilləridir.*

Key words: *iqtisadi təhlükəsizlik, dövlətin iqtisadi təhlükəsizliyi, yeni iqtisadi sistem, müstəqil iqtisadi siyasət, Vaşinqton konsesusu, iqtisadiyyatın dövlət tənzimlənməsi, iqtisadi təhlükəsizliyin gücləndirilməsi.*

İlk növbədə Sumqayıt Dövlət Universitetinin rəhbərliyinə beynəlxalq səviyyəli konfransı təşkil etdiyinə görə təşəkkür edir, tədbir iştirakçılarına uğurlar arzulayıram.

Sovetlər birliyi dağıldıqdan sonra müstəqilliyini təzəcə əldə etmiş respublikalarda yeni iqtisadi sistemin qurulması, beynəlxalq iqtisadi münasibətlərin inkişafı, dünya birliyinə inteqrasiya və s. amillər bu ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsini ciddi bir problem kimi qarşıya qoymuşdu. İqtisadi təhlükəsizliyin həm daxili, xüsusilə də xariclə əlaqədar göstəricilərinin səviyyəsi narahatlıq doğururdu. Belə ki, idxal-ixrac, bank əməliyyatlarının, xarici iqtisadi əlaqələrdə iştirak edən subyektlərin sayının xeyli çoxalması, gizli iqtisadiyyatın artması, qanunsuz mənimsəmə hallarının genişlənməsi, əhali qrupları arasında gəlirlərin bölgüsündə ciddi fərqlərin mövcudluğu iqtisadi təhlükəsizliyin təmin edilməsini obyektiv zərurətə çevirmişdi. Hadisələrin gedişi tələb edirdi ki, hər hansı mühüm iqtisadi proqram, investisiya layihəsi, xarici borclanma və digər vacib göstəricilər dövlətin iqtisadi təhlükəsizliyi baxımından da qiymətləndirilsin. Dünya təcrübəsindən məlum idi ki, ölkə daxilində siyasi sabitliyin təmin olunduğu şəraitdə belə, iqtisadi sahə ilə bağlı xarici təhlükələr heç də azalmır, əksinə, dünya iqtisadiyyatının qloballaşdığı şəraitdə beynəlxalq maliyyə bazarı, dünya ticarəti, transmilli şirkətlərin fəaliyyəti genişləndikcə, informasiya və telekommunikasiya texnologiyaları inkişaf etdikcə, bu və ya digər ölkənin iqtisadi təhlükəsizliyi problemləri də mürəkkəbləşir.

1994-cü ildə Beynəlxalq İqtisadçılar İttifaqı keçmiş sovetlər məkanında ilk dəfə olaraq MDB, xarici ölkələrin görkəmli alimlərinin iştirakı ilə "iqtisadi təhlükəsizlik" mövzusunda dəyirmi masa keçirmişdi. Tədbirdə respublikada bu problemin ilk elmi araşdırıcısı kimi mən də çıxış etmişdim. Orada dövlətin iqtisadi təhlükəsizlik probleminin metodoloji, əməli aspektləri barədə səmərəli fikir mübadiləsi aparıldı, bu sahədə elmi araşdırmaların genişləndirilməsi, elmi kadrların hazırlanması barədə dəyərli təkliflər səsləndirildi. Qeyd edim ki, sovetlər birliyində müttəfiq respublikalarda bu problem, demək olar ki, heç vaxt tədqiqat obyekti olmamışdır. Çünki ölkə sərt inzibati amirlik sisteminin qayda-qanunları ilə tənzimlənir və meydana çıxan məsələlər sovet sisteminin tənzimlənmə vasitələri ilə öz həllini tapırdı. Razılıq hissi ilə bildirmək istərdim ki, son 20 ildə respublikamızda iqtisad elminin bu istiqaməti ilə bağlı elmi araşdırmalar aparılır, konfranslar, seminarlar, "dəyirmi masa"lar təşkil edilir ki, bu da iqtisadi təhlükəsizlik probleminin daha dərindən araşdırılması imkanlarını genişləndirir.

İndi isə istərdim iqtisadi təhlükəsizliyin təmin edilməsini mütləq edən bəzi məqamları qeyd edək.

Nəzərə alınmalıdır ki, heç bir xarici dövlət, beynəlxalq təşkilat, xarici investor ölkədə marağı təmin olunmayacağı halda ora investisiya qoymur. Yəni, hər belə sərmayənin, köməyin arxasında ilk növbədə kömək edənin mənafeləri durur ki, bu da təbiidir. Ona görə də hər bir xarici köməyin milli mənafelər, iqtisadi təhlükəsizlik baxımından qiymətləndirilməsi dövlətin strateji vəzifələrindən birinə çevrilir. Sovetlər sistemi dağıldıqdan sonra yaranan yeni müstəqil ölkələrdə beynəlxalq maliyyə təşkilatlarının fəal iştirakı ilə islahatlarla bağlı proqramlar həyata keçirilir, hökumətlərə müvafiq tövsiyələr verilirdi. Etiraf edilməlidir ki, əksər ölkələr bu tövsiyələri sistemli təhlil aparmadan qəbul etdiklərinə görə lazımi səmərəni da ala bilmirdilər. Dünyanın bir çox məşhur politoloqları, iqtisadçıları, dövlət xadimləri ən yüksək kürsülərdən cəsarətlə söyləyirdilər ki, bu kimi kömək həmin ölkələr üçün heç də həmişə yaxşı nəticələrlə müşayiət olunmur. Müasir dövrdə, qloballaşan dünyada açıq-aşkar görünür ki, vaxtilə Adam Smitin qeyd etdiyi "bazarı görünməz əllər idarə edir" fikri həmin iri dövlətlərin böhrandan çıxma tədbirləri, bütövlükdə iqtisadi siyasətləri ilə dərin ziddiyyət təşkil edir [1].

Reallıq onu da sübut etdi ki, qloballaşan dünya iqtisadiyyatında baş verən kataklizmlər şəraitində iqtisadi tənəzzülün, sosial sarsıntıların qarşısını almaq üçün dövlətlər öz tənzimləmə mexanizmlərindən daha səmərəli və düşünülmüş şəkildə istifadə etməlidirlər [2].

İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir. Bu o deməkdir ki, milli təhlükəsizlik anlayışı iqtisadi təhlükəsizlik anlayışından daha genişdir, o müdafiə, ekoloji, energetika və s. təhlükəsizlikləri özündə birləşdirir. Dövlətin iqtisadi təhlükəsizliyi ilk növbədə

onun müstəqilliyinin qorunması üçün vacibdir. İqtisadi təhlükəsizliyini təmin etməyən dövlət müstəqil sayıla bilməz.

İqtisadi təhlükəsizlik dedikdə, ilk növbədə iqtisadiyyatın və onun qurumlarının elə vəziyyəti başa düşülür ki, bu, milli mənafelərin müdafiəsinə, yeridilən iqtisadi siyasətin sosialyönümlüyünə, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə olmasına imkan yaratsın.

Dövlətin iqtisadi siyasətinin formalaşması və həyata keçirilməsi zamanı iqtisadi təhlükəsizlik strategiyasının reallaşdırılması mexanizminin nəzərdə tutulması çox vacibdir.

Uzun illər ölkələrarası münaqişələrin baş verməsi iqtisadi maraqlarla bağlı olmuşdur. Bu gün, qloballaşma prosesinin geniş miqyas aldığı dövrdə də belədir. Bazarlara, təbii sərvətlərə sahib olmaq uğrudna haqlı-haqsız iddialar ölkələrin iqtisadi təhlükəsizliyinə bu və ya digər dərəcədə təsir göstərir. Lakin onu da qeyd etmək lazımdır ki, bu cür münaqişəli məsələlərin həllində hərb amili deyil, dialoq, razılaşma yerinə, çox vaxt meydana çıxan təzyiq üsullardan istifadə olunur. İqtisadi təhlükəsizlik məsələlərinin tənzimlənməsində qanunvericilik aktlarından, dövlətlərarası sazişlərdən və digər hüquqi sənədlərdən istifadə zəruri sayılır.

Biz respublikamızın materialları əsasında iqtisadi təhlükəsizliyin təmin edilməsi səviyyəsi barədə daha ətraflı təsəvvür əldə etmək üçün problemin mahiyyətini dərk etməyə imkan verən 25-ə yaxın göstəricini təhlil etmişik. Bir-biri ilə qarşılıqlı əlaqədə olan bu göstəricilər əsasən aşağıdakılardır: adambaşına düşən ümumi daxili məhsul və onun dinamikası; ümumi məhsulda emal sənayesinin xüsusi çəkisi; sənayenin ümumi məhsulunda maşınqayırmanın xüsusi çəkisi; emal sənayesinin yerli mallarının xarici bazara çıxışını təmin edən səmərəli xarici ticarət, onun quruluşu, tədiyə balansının saldosu, investisiyaların ümumi daxili məhsula nisbəti; elmi tədqiqatlara, təcrübi konstruktor işlərinə çəkilən xərclərin ümumi daxili məhsula nisbəti; beynəlxalq standartlara əsasən müəyyən olunmuş yoxsulluğun səviyyəsi; həyatın orta yaşayış müddəti, il; əhalinin gəlir və istehlakının kəskin diferensiasiyası; "gizli iqtisadiyyatın" fəaliyyəti, onun ÜDM-də payı, regionların ÜDM-də və onun strukturunda xüsusi çəkisi; regionların və regionlararası əlaqələrin inkişafının səmərəliliyini xarakterizə edən göstəricilər; ən çox gəlirləri olan 10 faiz əhali ilə gəlirləri ən az olan 10 faiz əhali arasında nisbət; beynəlxalq standartlara əsasən işsizlik səviyyəsi; illik inflyasiya; dövlət borclarının, qızıl, valyuta ehtiyatlarının həcmi, onun ümumi daxili məhsula, büdcə gəlirlərinə nisbəti; xaricə "beyin axını" və s.; ərzaq təhülkəsizliyinin təmin edilməsi, real sektorda yüksək əlavə dəyər yaradılan sahələrin xüsusi çəkisi, əsas fondların maddi-texniki bazasının müasirlik səviyyəsi, ölkənin elmi potensialının dəstəklənməsi və onun respublika iqtisadiyyatının aparıcı sahələrinin inkişafında rolunun artırılması; cəmiyyətin, təsərrüfatın və maliyyə fəaliyyətinin bütün sahələrində kriminallaşmanın səviyyəsi.

Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində əldə edilən uğurlar birmənalı şəkildə bu fikri söyləməyə əsas verir ki, müstəqil dövlətimiz özünün iqtisadi təhlükəsizliyini təmin edən dövlətdir. Bu sahədə həyata keçirilən digər məqsədyönlü işlərlə yanaşı, sivil qanunvericilik bazası yaradılmışdır.

Sadaladığımız göstəricilərin mahiyyətini ümumi şəkildə ifadə etsək, deyə bilərik ki, əsasən aşağıdakı hallarda iqtisadi təhlükəsizlik təmin olunmamış hesab edilir: demoqrafik inkişaf göstəricilərinin, əhalinin yaş quruluşunda mütənasibliyin pozulması, istehsalın əhəmiyyətli dərəcədə aşağı düşməsi, əmək potensialının keyfiyyətinin və kəmiyyətinin pisləşməsi, iqtisadiyyatın kriminallaşması, maliyyə-kredit sisteminin dağılması, elmi və texnoloji potensialın dağılması, bərpaedici və inkişaf tədbirlərinin qənaətbəxş səviyyədə olmaması.

Şübhəsiz ki, dövlətin iqtisadi təhlükəsizliyinin sistem göstəricilərinin pisləşməsi yalnız müəyyən həddə qədər mümkün ola bilər.

Ölkənin iqtisadi təhlükəsizliyinin əhəmiyyətli hüdudları (yuxarı, aşağı hədləri) barədə qeyd edirlər ki, ÜDM-in həcminin 30-40 faiz azalması, idxal edilmiş ərzaq məhsullarının idxalda payının

30-40 faizdən çox olması, xarici borcun ÜDM-inin 50-60 faizdən çox, yoxsulluq həddinin 20 faizdən yuxarı olması şəraitində ölkənin iqtisadi təhlükəsizliyi çətinliklərlə üzləşir.

Yuxarıda qeyd edilən meyar və prinsipləri real iqtisadi həyatda nəzərə almayan, iqtisadi təhlükəsizliyi təmin etməyən ölkələr iqtisadi inkişafdan qalır, əzab-əziyyət içərisində yaşayırlar. Ən başlıca məsələ ondadır ki, iqtisadi təhlükəsizliyi təmin etməyən ölkələr, bir qayda olaraq, yoxsul və gücsüz olurlar. Beynəlxalq təşkilatlar nə qədər çalışsalar da, tox və ac dünya bu gün də var, hadisələrin gedişi göstərir ki, sabah da olacaqdır. Ona görə də ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, dövlətin fəaliyyəti onun malik olduğu resurslardan, tənzimlənmə mexanizmlərindən istifadə səviyyəsi ilə bilavasitə əlaqədardır.

XIX əsrin sonları və XX əsr iqtisadi inkişafın sürətinə, eləcə də iqtisadiyyatın idarə edilməsində fundamental dəyişikliklərə görə fərqlənir. Ötən əsrin ikinci yarısından başlayaraq dövlətin iqtisadiyyatda rolu məsələsi dünyanın ən nüfuzlu təşkilatlarının, dövlət başçılarının, iqtisadçıların, politoloqların diqqət mərkəzindədir. XX əsrin tarixindən məlumdur ki, bir sıra Qərb ölkələrində, o cümlədən ABŞ-da dövlətin iqtisadiyyatda rolu hər bir inkişaf mərhələsində müxtəlif cür olmuşdur. Tarixi faktlara müraciət etsək, görərik ki, ABŞ-da 1920-ci illərin sonlarından 1970-ci illərədək dövlətin iqtisadiyyatda rolunun artırılmasını, dövlətin sosial funksiyalarının daha geniş yerinə yetirilməsini dəstəkləyən konsepsiyalar üstünlük təşkil edirdi ki, bunlar da hökumətin məhz belə yanaşma siyasətinin formalaşmasında mühüm rol oynayırdı. Ona görə də ABŞ-da, İngiltərədə, Almaniyada, Fransada və digər kapitalist ölkələrində iqtisadiyyatın tənzimlənməsində dövlətin fəal iştirakı uğurlu nəticələr verirdi.

Bəs, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal səviyyəsi nə qədər olmalıdır? Dövlət sektoru ilə xüsusi sektor arasında nisbət necə olmalıdır? Bu nisbət necə dəyişməlidir? Bütün iqtisadiyyatı xüsusi sektorda cəmləşdirmək olarmı? Həmin suallar ətrafında qızğın mübahisələr, araşdırmalar olub, var və təbii ki, bundan sonra da davam edəcəkdir. Onu da qeyd etmək lazımdır ki, dünya iqtisadi ədəbiyyatında iqtisadiyyatın və ümumiyyətlə, cəmiyyətin inkişafında dövlətin rolu ilə bağlı müxtəlif nəzəriyyələr mövcuddur. Biz onların hamısını araşdırmaq fikrində deyilik. Lakin bir məsələni birmənalı şəkildə qəbul etmək lazımdır ki, dövlətin iqtisadiyyata müdaxiləsi məsələsi hər bir ölkənin konkret şəraitindən, onun tarixi inkişafından, sosial-iqtisadi inkişaf səviyyəsindən, daxili siyasi vəziyyətindən asılıdır. Bütün ölkələr üçün bu məsələdə eyni ssenari təklif etmək, konkret rəqəmlər müəyyənləşdirmək yanlış fikirdir.

SSRİ dağıldıqdan sonra Qərb ekspertləri yenicə müstəqillik əldə etmiş əksər respublikalara "dövlət iqtisadiyyata müdaxilə etməməlidir" fikrini qəbul etdirdilər. Nəticə isə uğurlu olmadı. Hətta Qərbin də tanınmış politoloqları etiraf edirlər ki, bu radikal təklifin reallaşmasının acı nəticələrini aradan qaldırmaq hələ uzun müddət çox çətin olacaqdır.

Bu məsələ barədə fikirləri ümumiləşdirərək qeyd etməliyik ki, ölkənin iqtisadi inkişafında hamı - dövlət məmuru da, alim də eyni dərəcədə maraqlıdır. Qərbin bütün tövsiyələrinin milli suverenliklər üçün dəyərli olduğunu təbliğ etmək, liberallaşmanı, necə deyərlər, dərdlərin dərmanı kimi qiymətləndirmək iqtisadi müstəqilliyimizə, millətin inkişafına zərbə vurmaq kimi qiymətləndirilməlidir. Ona görə də iqtisadi təhlükəsizlik, iqtisadi müstəqillik məsələləri barədə iqtisadçı alimlərimiz arasında fikir ayrılığı olmamalıdır... Çox təəssüf ki, biz hələ də bu kimi fikirlərlə rastlaşırıq. İqtisadi təhlükəsizlik məsələlərini qiymətləndirərkən kompleks amillərin ilk növbədə nəzərə alınması mütləq lazımdır.

Bu cəhəti ona görə xüsusi vurğulayıram ki, çox nüfuzlu alimlər və mütəxəssislər belə hesab edirlər ki, təkcə makroiqtisadi sabitliyi, aşağı inflyasiyanı, minimal büdcə kəsirini nəzərdə tutan Vaşinqton konsensusu ölkələrin iqtisadi təhlükəsizliyini təmin etməyə qadir deyil. Reallıq özü hər bir dövlətin iqtisadi təhlükəsizlik konsepsiyasının olmasını tələb edir.

Dünya təcrübəsi sübut edir ki, bir çox ölkələrdə büdcə məhdudlaşdırmaları və ya pul kütləsinin həddindən artıq sıxılması (faiz dərəcələrinin artımı) hesabına maliyyə sabitləşməsinin

təmin edilməsi inflyasiyanı azaltsa da, ciddi sosial itkilər də yaradır (işsizlik, yoxsulluq və s). "Şok terapiyası" təcrübəsi göstərdi ki, özəl mülkiyyətin və bazar əlaqələrinin tətbiqi səmərəli iqtisadiyyatın yaradılmasının qarantı deyil.

Bu baxımdan iqtisadçı alimlərlə hökumət strukturları arasında əməkdaşlığın təkmilləşməsinə, iqtisad elmi ilə real həyat arasında əlaqənin güclənməsinə çox böyük ehtiyac vardır. Çünki səmimiyyətlə bildirirəm ki, ötən əsrin 70-ci illərində respublikanın iqtisadçı alimlərinin apardığı araşdırmalar, onların real iqtisadiyyata dəstəyi daha çox idi. Biz, iqtisad elminin nümayəndələri bu barədə düşünməli, müstəqil Azərbaycanın keyfiyyətli inkişafına öz dəstəyimizi verməliyik [3].

Heç bir ideoloji məzmunu olmadığından bazar bitərəfdir. Bu da dövlətin qeyd edilən problemə həssaslıqla yanaşmasını tələb edir. Çox təəssüf ki, bazara ideoloji məzmun verməklə onun bitərəfliyi arxa plana keçirilir. Bazar iqtisadiyyatı prinsipləri ilə işləmək hökumət üçün nə yeni ictimai inkişaf yolunun seçilməsi, nə də hər hansı xarici modeldən istifadə edilməsi demək deyildir. Əgər hökumət hər hansı ölkədən nəyi isə götürüb tətbiq edirsə, bu o demək deyil ki, həmin ölkə daha sivildir, daha demokratikdir. Bu o deməkdir ki, həmin ölkədən götürülən təcrübə konkret milli maraqlara uyğundur.

Dövlətin iqtisadiyyatda rolu haqqında fikir yürütmək üçün dövlət xərclərinin ümumi daxili məhsula nisbəti göstəricisindən istifadə edirlər. Əlbəttə, bu göstərici müəyyən fikir söyləməyə əsas verir, lakin həlledici nəticə çıxarmaq üçün kifayət deyildir. Əgər həmin göstəricinin dinamikasını iqtisadi inkişaf dinamikası ilə müqayisə etsək, çox maraqlı bir prosesin şahidi olarıq. Bir qayda olaraq, iqtisadiyyat gücləndikcə, maliyyə imkanları artdıqca dövlətin sosial problemlərin həllində iştirakı da artır. Son 150 ildə Avropa ölkələrində o cümlədən Avstriya, Fransa və Almaniyada dövlət xərclərinin cəmi xərclərdə xüsusi çəkisi 5 dəfədən çox artmışdır.

Müqayisəli hesablamalara görə, Avropa ölkələrində dövlət xərclərinin ÜDM-dəki payının 36-45 faiz çərçivəsində olması optimal səviyyə kimi qiymətləndirilir. Təbii ki, bu rəqəmin bütün ölkələr üçün eyni olması qeyri-mümkündür. Bu rəqəmin səviyyəsinə əhalinin demoqrafik inkişaf göstəriciləri, ilk növbədə əhalinin yaş quruluşu və qoca əhalinin xüsusi çəkisi, əhalinin həyat səviyyəsi, yoxsulluq, aztəminatlı əhalinin sayı və s. təsir edir.

Ötən əsrin 90-cı illərinin ikinci yarısından hökumətin qarşısında duran mühüm vəzifələrdən biri ölkənin maliyyə resurslarını artırmaq, dövlət büdcəsinin ölkənin ali maliyyə sənədi kimi yeni prinsiplərə uyğun olaraq formalaşması prosesini başa çatdırmaq, onun vasitəsilə gənc dövlətin, müstəqil respublikanın Konstitusiya ilə müəyyənləşdirilmiş funksiyalarını həyata keçirməyə nail olmaqdan ibarət idi. Artıq 15 ildən çoxdur ki, dövlət büdcəsinin ÜDM-də xüsusi çəkisi 30-35 faiz arasında tərəddüd edir.

XIX əsrin sonunda və XX əsrin əvvəllərində Rusiyanın iqtisadi inkişafına öz layiqli töhfəsini vermiş Vitte "Milliləşməyə dair, milli iqtisadiyyat və Fridrix List" kitabçasında ayrı-ayrı ölkələrin spesifik xüsusiyyətlərini nəzərə almadan, bazar iqtisadiyyatının nəzəri, universal modelini təklif edən klassik siyasi iqtisadla məşğul olanları tənqid edərək deyirdi: "Biz, ruslar, siyasi iqtisadiyyatın sahəsində, əlbəttə, Qərbin yedəyində gedirik, odur ki, son on illərdə Rusiyada bərqərar olmuş əsassız kosmopolitizmdə təəccüblü heç nə yoxdur, bizdə siyasi iqtisadiyyat qanunlarının əhəmiyyəti və onların adi anlamı özünün anlaşılmaz istiqamətini almışdır. İqtisadçılarımız Rusiya imperiyasının iqtisadi həyatını kosmopolit iqtisadiyyat reseptləri ilə qurmaq fikrinə gəlmişlər. Bunun nəticəsi göz önündədir. Belə bir dəliliyə qarşı çıxanlara isə vaizlərimiz, tutuquşu alimliyi əlbasını geyərək, siyasi iqtisadiyyat dərsliklərindəki teoremlərə etirazlarını bildirirdilər."

Müasir rus iqtisadçısı R.Bodrunov yazır ki, düz yüz il sonra bu vəziyyət Rusiyada yenə də təkrarlandı. Amma bu dəfə keçid dövrünün xüsusiyyətləri və milli cəhətlər nəzərə alınmadan bazar fundamentalizminin əsaslandırılması "Vaşinqton konsensusu" adlanan iqtisadiyyat dərsliklərinin

təməlində qurulurdu. Sadəcə Rusiyaya "Qərb mundirini" geyindirib, hərəkətsiz edərək, 20 ili qaçırıldı, xeyli fürsətlər itirildi və ölkə neft-qaz sancağına keçdi.

Belə hesab edilirdi ki, qısa zamanda bazar institutlarının yaradılması iqtisadiyyatın sürətli inkişafını təmin edəcəkdir. Amma belə olmadı. MDB-nin 1-2 respublikasını çıxmaq şərti ilə hamısında neçə illər iqtisadi tənəzzül hökm sürürdü.

Ümumiyyətlə, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə dövlətin iqtisadiyyata müdaxiləsi problemi həm yaxın, həm də uzaq gələcəkdə aktual olaraq qalacaqdır. Biz bu prosesləri daim izləməli, onları təhlil etməli, problemə ilk növbədə milli və dövlət mənafeləri baxımından yanaşmalı və bu zaman dövlətin iqtisadi gücündən, düşünülmüş idarəetmə mexanizmlərindən, tənzimləmə üsullarından istifadə etməliyik. Azərbaycan dövlətinin milli maraqlarını, xalqımızın xoşbəxt gələcəyini əsas tutan iqtisadi siyasətin reallaşması nəticəsində əldə edilən uğurlu nəticələr bu siyasətin düzgün olduğunu bir daha təsdiq edir.

Azərbaycan dövlətinin fəaliyyət proqramında neft kompleksinin perspektiv inkişafına kölgə salmadan qeyri-neft sektorunun keyfiyyətli inkişaf etdirilməsi strategiyası xüsusi yer tutur. Azərbaycanın gələcək inkişaf strategiyasının prioritet istiqamətlərindən biri odur ki, biz gələcəyimizi təkcə neft sənayesinə bağlamamalıyıq, orada işlər çox uğurla davam edir və bu sahə respublikamıza böyük həcmdə valyuta ehtiyatları gətirmiş və gətirəcəkdir. Lakin biz öz siyasətimizi elə aparmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələri, ilk növbədə, qeyri-neft sektoru, istehsal və sosial infrastruktur inkişaf etməlidir. Ancaq bu yolla biz Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirə bilərik.

Biz, kompleks amillər, çox mühüm iqtisadi, sosial göstəricilərin sistemli təhlilinə əsaslanaraq bir daha qeyd edirik ki, qlobal risklərə baxmayaraq, Azərbaycan dövləti müstəqillik dövrünün arxada qalan 20 ilində özünün iqtisadi təhlükəsizliyini təmin etmiş və gələcək dövrlər üçün güclü əsaslar yaratmışdır.

2020-ci il Azərbaycan iqtisadiyyatı üçün uğurlu başlasa da, koronavirus pandemiyasının yayılması dünya iqtisadiyyatı, o cümlədən bizim iqtisadiyyatımız üçün də ciddi təhdidlər yaratdı. Belə ki, ilin ilk aylarında ümumi daxili məhsulda artım tempi 2,8 faiz olmuşdu. Həmçinin, qeyri-neft sektorunda ümumi daxili məhsulun artım tempi 6,7 faiz, qeyri-neft sənayesində istehsalın artımı 21,7 faiz təşkil etmiş, eyni zamanda, qeyri-neft sektorunda investisiya qoyuluşlarının artım tempi 21 faizə çatmışdı. Lakin sonrakı dövrdə koronavirus pandemiyası səbəbindən yaranmış yeni vəziyyət, insanların sağlamlığının qorunması məqsədilə iqtisadi fəallığın məcburi məhdudlaşdırılması təkcə iqtisadi əlaqələr zəncirinin qırılmasına deyil, eyni zamanda, daxili istehsal, iş və xidmət sahələrində ciddi problemlərə səbəb oldu, biznesə, xüsusilə də kiçik və orta sahibkarlığa zərbə dəydi. Pandemiyanın mənfi təsirləri və neftin qiymətinin qeyri-sabitliyi nəticəsində iqtisadi fəallıq azaldı, iqtisadi tarazlıq pozuldu, tətbiq edilmiş məhdudiyyətlər istehsal-emal-istehlak zəncirində qırılmalara səbəb oldu.

Bununla belə, iqtisadiyyatda müşahidə olunan durğunluğa baxmayaraq, iqtisadiyyatı böhrana sürükləyəcək vəziyyət yaranmayıb. Bunun əsas səbəbi son illər ölkədə aparılan ardıcıl islahatlar, biznes mühitinin yaxşılaşdırılması və iqtisadiyyatın şəffaflaşdırılması tədbirləridir. Dövlət başçısı İlham Əliyevin təşəbbüsü və tapşırıqları əsasında hökumət milli iqtisadiyyata zərərləri minimallaşdırmağa çalışır. Təsadüfi deyil ki, koronavirus pandemiyasının milli iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirlərinin azaldılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev elə ilk günlərdən dövlət orqanları qarşısında çox ciddi vəzifələr qoydu. Ölkə başçısının 19 mart 2020-ci il tarixli məlum sərəncamı və həmin sərəncamın icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən qəbul edilmiş Tədbirlər Planına uyğun olaraq, iqtisadiyyata geniş dəstək paketini nəzərdə tutan proqramlar, çoxşaxəli, çoxstrukturlu, biznesin qısa və orta müddətdə dəstəklənməsini əhatə edən mühüm sənədlər qəbul edildi.

Tədbirlər Planının əsas istiqamətinlərindən biri pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və sahibkarlara maliyyə dəstəyinin göstərilməsidir. Bu güzəştlər pandemiyanın təsirinə məruz qalan mikro, kiçik və orta sahibkarlıq subyektlərini, bəzi dəyişikliklər isə bütövlükdə hər bir vergiödəyicisini əhatə edir. İyul ayına qədər muzdlu işçilərin əməkhaqlarının kompensasiyası çərçivəsində 24 min 300 vergiödəyicisi üzrə 210 min muzdlu işçiyə 95 milyon manat vəsait ödənilməsi, bundan başqa, fərdi, o cümlədən mikrosahibkarlara maliyyə dəstəyi paketi çərçivəsində 105,6 min vergiödəyicisinə 63 milyon vəsait verilməsi olduqca mühüm addımlar olmaqla ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Ötən dövrdə sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, pandemiyadan zərərçəkən sahələrə dövlət dəstəyinin gücləndirilməsi məqsədilə sahibkarlığın maliyyələşdirilmə alətləri də genişləndirilib. Bu baxımdan Tədbirlər Planının mühüm istiqamətlərindən biri də pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə veriləcək 500 milyon manat yeni bank kreditləri üzrə dövlət zəmanətlərinin verilməsi, yeni və 1 milyard həcmində mövcud kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasıdır. Belə ki, sahibkarlar üçün dövlət zəmanəti olmayan 1 milyard manat həcmində mövcud kredit portfelinə dəstək, eləcə də 500 milyon manat həcmində yeni kreditlərin 60 faizinə dövlət zəmanəti verilməsini və faizlərin subsidiyalaşdırılmasını ehtiva edən 2 yeni mühüm proqramın həyata keçirilməsinə başlanılıb. Bu da indiki dövrə sahibkarlıq subyektlərinə dövlət dəstəyinin ən mühüm tərəflərindən biridir.

Bütövlükdə, bu iqtisadi güzəştlər və dəstək paketi ortamüddətli dövr üçün sahibkarların vergi və sosial yükünün azaldılmasına səbəb olmaqla, onlara öz gəlirlərini bərpa etməyə və biznesini inkişaf etdirməyə, bütünlükdə özəl sektorun genişlənməsinə zəmin yaradır.

İstər cəmiyyət, istər sahibkarlar yaranmış yeni tələblərə uyğunlaşmalıdır. Pandemiyanın nə zaman bitəcəyi məlum deyil, ona görə də sahibkarlar yeni şərtlər, sanitar-karantin və sosial-davranış qaydaları əsasında işləməyə öyrənməlidirlər. Unutmamalıyıq ki, biz hamımız bir məkandayıq və davranışlarımız, xüsusilə sahibkarların qaydalara riayət etməsi iqtisadi fəallığa təsir edir. Birgə səylərlə biznes tədricən iqtisadi itkiləri bərpa edəcək.

Çıxışımı Prezident İlham Əliyevin ölkəmizin davamlı inkişafı, iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edən fikirləri ilə bitirmək istərdim:

"Biz ətrafda baş verən hadisələrə baxırıq, izləyirik, dünyada baş verən hadisələrə biganə qalmırıq. Görürük, o ölkələrdə ki, iqtisadi müstəqillik yoxdur, o ölkələr şantaj obyektinə çevrilir, o ölkələrə təzyiqlər göstərilir və o təzyiqlər nəticə verir. O ölkələr, demək olar ki, xahiş edən ölkələr sırasındadır. Azərbaycan heç kimdən heç nə xahiş etməmişdir, etmir və etməyəcəkdir. Biz müstəqil siyasət aparırıq. Müstəqil siyasətin təməlində iqtisadi müstəqillikdir. İqtisadi müstəqilliyin yaradılması mənim üçün Prezident kimi ən vacib məsələlərdən biri idi. Çünki mən 10 il bundan əvvəl çox yaxşı başa düşdüm ki, əgər biz buna nail olmasaq, Azərbaycan gələcəkdə böyük problemlərlə üzləşə bilər. Dünyada ikili standartlar təcrübəsi artıq heç kimə sirr deyildir. Bu barədə daha danışmağa da dəyməz. Çünki bu, bir aksiomdur. Təsəvvür edin, əgər iqtisadi müstəqilliyimiz olmasaydı, bizə hansı qərarları qəbul etdirərdilər".

Ədəbiyyat

1. Smith, A. Wealth of Nations, edited by C. J. Bullock. Vol. X. The Harvard World Economic and Social Survey 2013. Sustainable Development Challenges. New York: 2013.

2. Самедзаде З.А. Китай в глобальной мировой экономике. Баку, 2009, 607 с.

3. Самедзаде З.А. Этапы большого пути - Экономика Азербайджана за полвека, её новые реалии и перспективы. ИПЦ «НУРЛАР», 2004, 936 с.

4. Витте С. Ю. Национальная экономия и Фридрих Лист. Киев, 1899.

5. Бодрунов С.Д. Концепция нового индустриального развития России в условиях ВТО. М.: Институт нового индустриального развития (ИНИР). СПб., 2013, 172 с.

6. Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 19 mart 2020-ci il.

7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi. 19 oktyabr 2013 - https://president.az/articles/9683/print

Резюме

Самедзаде З.А.

О некоторых вопросах обеспечения экономической безопасности государства

Проблема экономической безопасности имеет архиважное значение для любого независимого государства. Около 30-ти лет Азербайджан является суверенным государством. Главнейший фундаментальный итог 30-летнего пути независимой республики – это построение новой экономической системы, коренное изменение производственных отношений, отношений собственности. Безусловно, первой фундаментальной акцией стало подписание «Контракта века». Это поистине масштабное событие, которое выдвинуло Азербайджан на мировую арену в совершенно ином качестве – как независимую республику, которая впервые в своей истории самостоятельно распоряжалась своими богатейшими ресурсами во имя укрепления национальной безопасности, экономической безопасности, благосостояния народа. Анализируя внешне-экономические связи и сотрудничество с международными финансовыми организациями, мы должны внимательно проанализировать всевозможные варианты, их социально-экономические, политические последствия. Рынок не может быть бесконтрольным. Комплексный анализ более 25-ти показателей экономический безопасности новых независимых государств позволяет сделать вывод о том, что политику, поддерживаемую Вашингтонским консенсусом (1 из основополагающих МВФ), нельзя считать приемлемой для качественного развития национальных суверенитетов. Подчеркиваем, что без тщательного анализа возможных последствий, которые так или иначе могут повлиять на экономическую безопасность, нельзя решить ни одну из задач, стоящих перед государством в части наращивания его могущества и прогресса. Независимая экономическая политика, учет национальных интересов в процессе реализации транснациональных проектов, не фетишизации рыночных отношений, умелое государственное регулирование экономики являются надежными факторами экономической безопасности Азербайджана.

Ключевые слова: *экономическая безопасность, экономическая безопасность государства, новая экономическая система, суверенная экономическая политика, Вашингтонский консенсус, государственное регулирование экономики, усиление экономической безопасности.*

Summary

Samedzadeh Z.A.

Some Issues of Ensuring the Economic Security of the Country.

The problem of economic security is of fundamental importance to any independent country. For about 30 years, Azerbaijan is a sovereign country. The main fundamental result of the 30-year path of an independent republic is the construction of a new economic system, a fundamental change in industrial relations, property relations. Of course, the first fundamental action was the signing of the Contract of the Century. This is a truly large-scale event that put Azerbaijan on the

In recent decades land use greatly called resource use. but now days with speed development of citizenship and foundation variety in life method role and applied of land change in city scale land use have straight relation with matrial and physical factors and also with environment quality factors .so now days great of researcher use land-space term in replace of land use in city scale(poormohammadi,2007).sarein city generally create to section habitant and tourism that this seprate continue in reason of old direct design of land uses .urban planning in sarein should be locate to two different social groupe. first habitant people groupe and alternative that all citizen people have public needs and variety for example pharmacy ,sanitation, education ,welfare ,trade, office and police land use second expand groups are passenger who need to limit services example ,settlement, reception, recreation pharmacy and basic land use .notice to this point that economic development and expand of region effects from tourism industry .so basic factors that should be regarded notice to tourism needs and struggle to provide of thems .general city land use should be planning with notice to these factors(Azarshiz consult engineering,2006).the other issues that should be regarded in sarein land use planning is that possible different use from one land use in different periods of year.these phenomenon done obvious in land use maps.so should be noted to these land uses in city per capita number 3 blank :main land uses of sarein city in 2008 year.

Number 3 blank: main land uses of sarein city in 2008 year

trade	parking	garden	office	green space	recons-truction	Hostil	habitant	Cross way	wild lands	Species land use
1	1.29	1.90	2	3.08	4.76	7.86	13.17	22.66	38.19	2008 year

engineering consult kavosh andtarh: refrence 2009

Number 4 blank and number 1 map present main land uses of sarein city. expand of tourism industry in one city needs to basic evolution in land use and city per capita.this phenomenon is correct in sarein city. the survey of sarein city share in two period present the land use increase in relate of tourism .(number 4 blank).

number 4 blank:sarein land use variety in two periods 1974-2008

trade	parking	garden	office	green space	Reconstruction	Hostil	habitant	cross way	wild lands	year
.15	0	15.49	.43	6.13	1.17	1.08	9.43	12.35	53.85	1974
1	1.29	1.90	2	3.08	4.76	7.86	13.17	22.66	38.19	2008



Number 1map:main land use of sarein city

Conclude

Notice to growth trend world people free time number and increase day to day tourism number in all over world. tourism international organization predict that in period of future decades tourism will produce to one grade industry .so all countries, development country and un development country carry out intensive investment in this field and achieve great incomes from this industry. Iran country is a four season country and have natural talent for expand of tourism industry. Although sarein city is one the important tourism region country that government done intensive investment so tourism with tourism organization approved in 2009 year this city introduce to one of the eight tourism polar region of country.the other so expand of tourism in this region create physical and social ,economic evolution and cause better condition of people economic and increase income for them.tourism organization reported that income of people this city is very upper than average income in country.that all of these variable s is result of tourism in this city.the research present that unplanning for tourism industry in this region cause to unfavorable result of economic ,social,and physical.so government should be administrate and management of suitable tourism planning in this region for increase of public and private section and decrease of unfavorable effects of this industry .the other so notice to cold climate of region and season of this industry in sarein responsible should be done planning to expand winter tourism and exit of region tourism from season condition .until can be provide field for investment of domestic and foreign investers.if government invest about winter tourism and exit region from season tourism .can be hope that this city will produce to one of the tourism polarism in country and also all regions.

Refrence

1. Poormohammadi,m,tourism management,money publication,2002
2. Ardebil province tourism public direction,world and Iran tourism organization,2007.

3. Zahedi,sh,analysis to different world tourism and relate of them to each others,world tourism science study season journal,tabatabayie university,ten number,2005.

4. Sadr khansari,h,who is tourism and world tourism ,Tehran book store

5. Taheri,gh,the condition of exit from one product economic petroleum and depend to tourism,management study season letter,number ten,2001.

6. Farid,ya,geography and urbanology,Tabriz university,1996.

7. World and Iran tourism expert month letter ,nedayeh danesh publication,2005.

8. Koja month letter,Iran and world tourism organization,number 4,5,6,2008.

9. Islamic publication and cultural minister complex research,1985.

10. Mahallati,s,foundation to world tourism,shahid beheshti university,2003.

11. Mostofi,n,sustain world tourism ways for development,Iran and world tourism organization,2004.

12. Tarh and kavosh consult engineering,tourism comprehensive plan of sarein,exist condition volume,2008.

13. Azar shiz consult engineering, tourism comprehensive plan of sarein,exist condition volume, 2006.

14. Gunn, clare A (2002), tourism planning, Routledge.

15. Hasse,J.; Schumacher,F. (1990) Sanfter Tourismus, Verlag für Umweltforschung, Bunderhee.

Xülasə

Mirnaser Mirbagheri[1] , Delavar Masoumi[2], Shafiga Mammadova[3]

Şəhərin iqtisadi və fiziki inkişafında turizm rolunun qiymətləndirilməsi (Sarein şəhərinin timsalında)

Turizm, insan cəmiyyətində son onilliklərdə mövcud olmuş yeni olmayan bir hadisədir. Müxtəlif tarix dövrünü keçirdikdən sonra texniki bacarıqlara, iqtisadi və cəmiyyətin inkisaf vəziyyətinə çatır. Nəqliyyat və uyğun əlaqəli yolların olmaması nəticəsində turizm sənayesi insanlar arasında tətbiqini lazımi səviyyədə tapmır və nəticədə onun iqtisadi ölçülərə təsiri, cəmiyyət və fiziki əhəmiyyət kəsb etmirdi. Muasir dovr bu sənayeni dünya fenomeninə və ictimaiyyətə çıxaran turizmin əsaslarını və strukturunu genişləndirir. Bunun nəticəsində istirahət bölgəsinə gedən bir çox turistlər şəhər quruluşu və vətəndaş rolunu müəyyən edə bilər. Fiziki və regional yerləşmə nəticəsində yaranan turizmin əhəmiyyəti bu roldan ayrı deyil. Qeyd edilən səbəbdən bu araşdırmada şəhərin təkamülündə turizmin rolunun qiymətləndirilməsini izləmək və bu nəticənin iqtisadi və fiziki cəhətdən Sarein şəhərinin təkamülündə mühüm təsir göstərdiyini və iqtisadi inkişaf və fiziki baxımdan şəhərdə dəyişikliyə səbəb olacağı qənaitinə gəlmək olar.

Açar sözlər: *turizm, şəhər və vətəndaşlığın təkamülü, Sarein şəhərı, iqtisadi inkişaf*

Резюме

Мирбагери М., Масуми Д., Мамедова Ш.

Оценка роли туризма в экономической и физической эволюции города (случай изучения города Сареина)

Туризм - это старое явление, существовавшее в человеческом обществе в последние десятилетия. после того, как различные периоды истории достигли места с техническими навыками, экономической и общественной ситуации. В прошлом из-за нехватки транспорта и подходящих дороги индустрия туризма не распространяется между людьми и, как следствие, влияние этой части на размеры экономики , общество и физическая значимость

не были важны. В наши дни растет база и структура туризма, которые производят эту отрасль для мирового феномена и общественности. Для этого результата многие туристы, приезжающие в регион отдыха, могут определить свою роль в структуре города и гражданине. С ролью туризма, результат физического и регионального местоположения не отделен от этих ролей. По этим причинам в этом исследовании следуют за оценкой роли туризма в развитии города и достигают к этому результату того, что это действие оказывает существенное влияние на развитие экономического и физического развитие города и приводит к росту экономики и изменению физического города.

***Ключевые слова**: туризм, эволюция города и гражданства, город Сареин, экономический рост.*

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN KƏMİYYƏTCƏ QİYMƏTLƏNDİRİLMƏSİ GÖSTƏRİCİLƏRİNİN FORMALAŞDIRILMASI ÜÇÜN METODOLOJİ ƏSASLAR

Mahmudova Lalə Fəqail qızı
Sumqayıt Dövlət Universiteti
mahmudovalala2021@mail.ru

***Xülasə:** Bildiyimiz kimi, ölçmə problemi müasir elmin ən vacib və mürəkkəb fəlsəfi, metodoloji və tətbiqi problemlərindən biridir. Bu problem milli təhlükəsizlik sahəsində ən aktualdır. Milli təhlükəsizliyin təmin edilməsi vəzifəsi bu sistemin səviyyəsini, onun ayrı-ayrı növlərini və müvafiq metod və texnologiyaların inkişafını ölçmək üçün kəmiyyət metodlarının tətbiqi imkanlarını hərtərəfli öyrənmədən həll edilə bilməz. Bu baxımdan məqalənin mövzusu aktuallığı ilə seçilir. Məqalədə milli iqtisadi təhlükəsizlik vəziyyətinin göstəricilər sisteminin inkişafı və onların kəmiyyətcə qiymətləndirilməsi problemlərinə baxılmışdır.*

***Açar sözlər:** iqtisadi təhlükəsizlik, qiymətləndirmə, metod, kəmiyyət, göstərici*

Hər hansı bir nəzəri tədqiqatın əsası onun kəmiyyətcə əsaslandırılması və kəmiyyət xüsusiyyətlərinin inkişafıdır. Bir çox elm adamları sosial-iqtisadi həyatın öyrənilməsində kəmiyyət metodlarına böyük əhəmiyyət verir. Milli təhlükəsizlik sahəsinin kəmiyyət xüsusiyyətləri dedikdə, onun hazırkı vəziyyətini kifayət qədər etibarlılıq dərəcəsi ilə qiymətləndirməyə imkan verən göstəricilərin spesifik rəqəmsal dəyərləri başa düşülür. Kəmiyyət xüsusiyyətlərini inkişaf etdirmək məsələsini həll etmədən, əldə edilmiş nəticələri uğurla müqayisə etmək və birmənalı şərh etmək, riyazi, modelləşdirmə metodlarını tətbiq etmək, müasir kompüter alətlərindən və yeni informasiya texnologiyalarından istifadə etmək, qərar qəbul edilməsində subyektiv amillərin təsirini azaltmaq, milli təhlükəsizlik sistemini aktiv idarə etmək üçün elmi metodları vaxtında müəyyənləşdirmək mümkün deyil. Ölkənin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsi dövlətin iqtisadi təhlükəsizliyidir. Dövlətin iqtisadi suverenliyinə nail olmaqda, iqtisadi inkişafın təmin edilməsində, effektiv sosial siyasətin həyata keçirilməsində, cəmiyyətin ətraf mühit elementlərindən qorunmasında, beynəlxalq iqtisadi qarşılıqlı asılılıq şəraitində milli rəqabət qabiliyyətinin artmasında iqtisadi təhlükəsizlik sistemi həlledici rol oynayır. Dövlətin iqtisadi təhlükəsizliyinin effektiv bir sisteminin yaradılması milli iqtisadi maraqlara qarşı təhdidləri vaxtında aşkar etməyə və bütövlükdə sosial-iqtisadi sistemə zərərin qarşısını almağa imkan verir [2].

Dövlət ölkənin iqtisadi təhlükəsizliyinin qorunması ilə bağlı öz üzərinə düşən bir sıra funksiyaları yerinə yetirməlidir. Həmin funksiyaların həyata keçirilməsində mühüm vasitə iqtisadi təhlükəsizliyi kəmiyyətcə xarakterizə edən parametrlər kimi, iqtisadiyyatın müxtəlif sferalarında təhlükəli və təhlükəsiz zonalar arasındakı sərhədi müəyyən edən göstəricilərin hədd qiymətlərinin təyin edilməsidir. İqtisadi təhlükəsizliyin hədd qiymətləri iqtisadi aspektdən ölkənin milli maraqlarını kəmiyyətcə müəyyən edir. Odur ki, ölkənin milli maraqları baxımından iqtisadi vəziyyəti kəmiyyətcə qiymətləndirən parametrləri müəyyənləşdirmək lazımdır. Bu kəmiyyət parametrləri iqtisadi sahələr üzrə ölkənin milli maraqlarına uyğun olaraq qruplaşdırılır [1]. Dövlətin iqtisadi təhlükəsizliyinin kəmiyyət səviyyəsinin müəyyənləşdirilməsi, müxtəlif aspektləri və istiqamətləri özündə cəmləşdirən, mürəkkəb bir proses olan milli iqtisadi təhlükəsizliyin təmin edilməsində əsas istiqamətlərin inkişafına kömək edən sistematik meyar və göstəricilərin formalaşdırılmasını tələb edir [3].

Milli iqtisadi təhlükəsizlik vəziyyətinin göstəricilər sisteminin inkişafı və onların kəmiyyət qiymətləndirilməsi aşağıdakı sxemə uyğun olaraq həyata keçirilir:

1. Vəziyyətin qiymətləndirilməsi və təhdidlərin müəyyənləşdirilməsi;
2. Milli iqtisadi təhlükəsizlik baxımından təhlükələrin aktuallığının və prioritetliyinin müəyyənləşdirilməsi;
3. Təhdidləri izah edən göstəricilər sisteminin yaradılması;
4. Monitorinq üçün qəbul edilmiş göstəricilərin həddindən artıq kəmiyyət dəyərlərinin müəyyən edilməsi;
5. Göstəricilərin həqiqi dəyərləri barədə məlumat mənbələri dairəsinin müəyyənləşdirilməsi: bunları izləmək və nəzarət etmək, habelə dövlət və regional hakimiyyət orqanlarının siyasətlərini düzəltmək barədə qərar qəbul etmək, müxtəlif mənbələrdən məlumat əldə etməyin yollarının müəyyən edilməsi [5].

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi üsulları və göstəriciləri tətbiq olunan riyaziyyat, statistika və iqtisadiyyat metodlarının tətbiqinə əsaslanır. İqtisadi təhlükəsizliyin təhlili məqsədilə onun hazırkı vəziyyətini və mövcud təhdidlərlə əlaqədar təmin olunmasının mümkün istiqamətlərini əks etdirən kəmiyyət və keyfiyyət xarakteristikalarının müəyyənləşdirilməsinə əsaslanan bir neçə metoddan istifadə olunur. Bu, modellər qurmağa və öyrənilən iqtisadi sistemlərin təhlilini aparmağa, bu sistemlərin inkişafına dair proqnozlar verməyə imkan verir. Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin səviyyəsini kəmiyyətcə qiymətləndirmək üçün müxtəlif metodlardan istifadə olunur. Ümumiləşdirilmiş formada, onları 4 qrup şəklində təsvir edə bilərik.



Şəkil 1. İqtisadi təhlükəsizliyin əsas metodları

Bununla yanaşı, iqtisadi təhlükəsizliyin kəmiyyətcə qiymətləndirilməsinin əsas metodlarından başqa, bir sıra digər metodları da mövcuddur. Həmin metodları şəkil 2 vasitəsilə əks etdirə bilərik.



Şəkil 2. İqtisadi təhlükəsizliyin kəmiyyətcə qiymətləndirilməsi metodları [4]

Qeyd etdiyimiz bu metodları daha ətraflı nəzərdən keçirək:

1. Ssenari təhlili və emal metodu. Bu metodun mahiyyəti qabaqcıl riyazi modelləşdirmənin tətbiqi ilə ictimai-siyasi və sosial-iqtisadi problemlərin formalaşdırılması və çətinləşməsində müxtəlif sahələrin yüksəkixtisaslı mütəxəssislərinin qarşılıqlı fəaliyyətini təşkil etməkdən ibarətdir.

2. Optimallaşdırma metodları. Bir qayda olaraq, bu metodlar maliyyə təhlükəsizliyinin istənilən seçilmiş aspektinin sintezi üçün tədqiq olunan proseslərin analitik təsvirində istifadə olunur. Bu seçim meyarların əhatə dairəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırır, çünki dövlətlərin formalaşmasının real prosesləri demək olar ki, bütün göstəricilərlə xarakterizə olunur.

3. Oyun-nəzəriyyə metodları. Bu üsullar ikitərəfli və çoxtərəfli kəskin münaqişə vəziyyətlərini nəzərdən keçirməyə və münaqişə tərəflərinin bir-birlərinə təsirlərini nəzərə alaraq, idarəetmə xüsusiyyətlərini sintez etməyə yönəlmişdir. Bu üsullar real proseslərin oyuna çevrilmə şansı olduğu hallarda əla nəticələr verir.

4. Nümunə tanıma metodları. Nümunə tanıma anlayışının dəqiq əsasını riyazi statistika, ehtimal nəzəriyyəsi, oyun nəzəriyyəsi, məlumat anlayışı, qarşılıqlı əlaqəli statistik nəzəriyyə metodları təşkil edir.

5. Qeyri-səlis sistemlər nəzəriyyəsi metodları. Bu üsullar mürəkkəb məsələlərin öyrənilməsində daha inkişaf etmiş vasitədir. Mütəxəssislərin arqumentlərində istifadə olunan yanlış, qüsursuz, çox vaxt ikili biliklərin rəsmiləşdirilməsini mümkün edir. Mütəxəssislər üçün kompüter dilini adi danışıq dilinə tərcümə edir.

6. Çoxşaxəli statistik təhlil metodları. Bu metodun mahiyyəti, yüksək konsolidasiya edilmiş maliyyə xüsusiyyətlərinin bir qayda olaraq, ilkin konsepsiyadan, sayı az olan ən son, əvvəlcədən əlaqələndirilməmiş komponentlərə və ya şərtlərə keçməsindən ibarətdir.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsinin bu metodlarının hər birinin müsbət və mənfi cəhətləri var, istifadə olunan materialdan, kompüter hesablamaları və müvafiq proqram təminatından asılı olaraq müxtəlif dərəcələrdə ifadə olunur. Buna görə problemdən asılı olaraq müəyyən bir metodun sürətli və elastik bağlantısı ilə bu metodların birgə istifadəsi daha təsirli hesab olunur.

Ümumiyyətlə, bir sıra meyarlara görə iqtisadi təhlükəsizliyin hərtərəfli şəkildə kəmiyyətcə qiymətləndirilməsi olmadan, bir ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizminin formalaşması qeyri-mümkündür.

Beləliklə, bir ölkənin iqtisadi təhlükəsizliyi sferasının milli təhlükəsizlik sahəsinin bir hissəsi olaraq qiymətləndirilməsinin metodları, göstəriciləri və yanaşmalarının təhlili göstərdi ki, onlardan geniş istifadə mövcuddur. Lakin iqtisadi təhlükəsizliyi kəmiyyətcə qiymətləndirilməsi üçün vahid

bir metod yoxdur. Bundan əlavə, iqtisadi təhlükəsizliyin kəmiyyətcə qiymətləndirilməsində istifadə olunan müxtəlif metod və göstəricilərin həm üstünlükləri, həm də mənfi cəhətləri var, bu da onlardan hər hansı birinə üstünlük verməyi mümkünsüz edir. Buna görə hər hansı bir hadisəni qiymətləndirmək, diaqnoz etmək və proqnozlaşdırmaq üçün çoxölçülü bir metodikanın tətbiqinə əsaslanacaq metodoloji bir yanaşma hazırlamaq lazımdır. Bu, problemin müxtəlif tərəflərini öyrənməyə, daimi monitorinqlər aparmağa və iqtisadi təhlükəsizliyə mövcud olan təhdidləri azaltmaq üçün bütün səviyyələrdə təsirli, elmi cəhətdən əsaslı tədbirlər görməyə imkan verəcəkdir.

Ədəbiyyat

1. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Bakı, Gənclik nəşriyyatı, 2009, 400 s.

2. Вечканов Г.С. Экономическая безопасность: учебник для вузов. СПб: Питер, 2007. 384 с.

3. Зотова Н.А. Современные проблемы национальной безопасности// Национальная безопасность № 8-9, 2014, с. 29–33, с. 58–62;

4. Моисеев Н.В. Критерии экономической безопасности. Вопросы экономики, 2015, № 12, с. 35–58.

5. Никитенко П.Г., Булавко В.Г. Экономическая безопасность. Минск: Право и экономика, 2009, 394 с.

Резюме

Махмудова Л.Ф.

Методологические основы формирования показателей количественного оценивания экономической безопасности

Как известно, проблема измерения является одной из важнейших и сложных философских, методологических и прикладных проблем современной науки. Эта проблема одна из актуальных в области национальной безопасности. Вопросы обеспечения национальной безопасности не могут быть решены без всестороннего изучения возможностей применения количественных методов оценивания уровня этой системы, развития ее отдельных видов, методов и технологий. С этой точки зрения тема тезиса актуально. В тезисе рассмотрены проблемы развития системы показателей уровня национальной экономической безопасности и их количественной оценивания.

Ключевые слова: *экономическая безопасность, оценка, метод, количество, показатель*

Summary

Mahmudova L.F.

Methodological Basis for the Formation of Indicators of Quantitative Assessment of Economic Security

As you know, the measurement problem is one of the most important and complex philosophical, methodological and applied problems of modern science. This problem is one of the urgent in the field of national security. Issues of ensuring national security cannot be resolved without a comprehensive study of the possibilities of applying quantitative methods for assessing the level of this system, the development of its individual types, methods and technologies. From this point of view, the topic of the thesis is relevant. The thesis considers the problems of developing a system of indicators of the level of national economic security and their quantitative assessment.

Key words: *economic security, assessment, method, quantity, indicator*

I BÖLMƏ
XARİCİ – İQTİSADİ FƏALİYYƏTİN SƏMƏRƏLİLİK PROBLEMLƏRİ

I СЕКЦИЯ
ПРОБЛЕМЫ РАЦИОНАЛЬНОСТИ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

I SECTION
PROBLEMS OF RATIONALITY OF FOREIGN ECONOMIC ACTIVITY

TRANSREGİONAL LAYİHƏLƏRİN İQTİSADİ SƏMƏRƏLİLİYİ VƏ ONUN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA ROLU

Babayeva Tuğra Piriş qızı
Sumqayıt Dövlət Universiteti
tuqra_babayeva@mail.ru

Xülasə: *Azərbaycanda həyata keçirilən layihələrin müasir vəziyyətinin öyrənilməsi, onların araşdırılması və iqtisadi səmərəliliyinin müəyyən olunmasıdır. Məqalədə transregional layihələrin iqtisadi səmərəliliyi hesablanmış və onun ölkə iqtisadiyyatının inkişafına təsiri öyrənilmişdir.*

Açar sözlər: *TRACECA, İpək Yolu, layihə,inteqrasiya*

Hər bir regionun və ölkənin iqtisadi inkişafında, dünya iqtisadiyyatına inteqrasiyasında müasir tələblərə cavab verən, inkişaf etmiş nəqliyyat strukturunun mövcudluğu həlledici amil kimi çıxış edir.

Bu xüsusda, Cənubi Qafqazın ərazisindən keçən tarixi Böyük İpək Yolunun bərpası regionumuzun iqtisadi inkişafı baxımından xüsusi önəm daşımaqdadır.

Məlum olduğu kimi, hal-hazırda, TRACECA proqramı çərçivəsində, Avropadan Asiyaya ən qısa marşrut sayılan tarixi Böyük İpək Yolunun bərpası həyata keçirilir. Avropa İttifaqının (Aİ) təklif etdiyi TRACECA proqramı (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Avropadan başlayan, Cənubi Qazqaz, Qara və Xəzər dənizlərindən keçərək Çinə qədər uzanan Qərb-Şərq nəqliyyat dəhlizinin inkişafına yönəlmişdir. 13 dövlət - Azərbaycan, Gürcüstan, Türkiyə, Ermənistan, Ruminiya, Bolqarıstan, Ukrayna, Moldova, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızstan TRACECA proqramının iştirakçı-dövlətləridir.

TRACECA-nın büdcəsinin təqribən 50%-i regionda əlverişli investisiya iqliminin yaradılmasına şərait yaradan investisiya layihələrinin reallaşmasına sərf edilmişdir.

Eyni zamanda, qeyd etmək yerinə düşər ki, Azərbayacan Respublikası Aİ və digər beynəlxalq təşkilatlarla müştərək iş görərək, tarixi İpək Yolunun bərpa olunması TRACECA proqramının hazırlanması və yaradılmasında yaxından iştirak etmişdir.

Avropa ilə Asiyanı birləşdirən ən qısa nəqliyyat marşurutlarının kəsişməsində əlverişli geostrateji mövqedə yerləşən Azərbaycan Respublikasının TRACECA proqramında iştirakı ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir. Belə ki, sözü gedən proqram Avropa ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiya və Respublikamızın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün böyük imkanlar yaradır.

TRACECA nəqliyyat dəhlizi üzrə yük axınının artırılması üçün son illər ərzində nəqliyyat sektorunun texniki təhcizatının yaxşılaşdırılması sahəsində avtomobil yollarının, dəmir yolu xəttlərinin və körpülərin bərpası və tikintisi, gəmilərin, bərələrin, liman qurğularının təmiri üzrə mühüm işlər görülmüşdür. TRACECA proqramının layihələrinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət strukturları tərəfindən müxtəlif beynəlxalq maliyyə institutlarından (Avropa Yenidənqurma və İnkişaf Bankı, Kuveyt İqtisadi İnkişaf Fondu, İslam İnkişaf Bankı, Dünya Bankı və s.) kreditlər alınmışdır. Bu proqram çərçivəsində ölkəmizdə həyata keçirilmiş ən mühüm layihələr sırasında aşağıdakıların adlarını çəkə bilərik:

• Qafqazın dəmir yollarının reabilitasiyası layihəsi;

• Qırmızı Körpü sərhəd-gömrük keçid məntəqəsinin bərpası və Azərbaycan-Gürcüstan sərhəddində yeni körpünün tikintisi;

• Bakı-Böyük Kəsik (Gürcüstanla sərhəd) dəmir yolu boyunca optik kabelin çəkilişi;

• Bakı Beynəlxalq Dəniz Limanının bərpası və həmin liman üçün naviqasiya avadanlıqlarının alınması;

• Kür çayının üzərində Poylu dəmir yolu körpüsünün tikintisi;

• Azərbaycanda avtomagistral yolların bərpası layihəsi çərçivəsində Bakı-Qazax şosse yolunun əsaslı təmir olunması nəzərdə tutulmuşdur. Bu layihənin həyata keçirilməsi üçün bir sıra beynəlxalq maliyyə institutları ilə danışıqlar aparılmış və ilkin razılıq əldə edilmişdir [2].

TRACECA nəqliyyat dəhlizi vasitəsilə 2019-cu ilin yanvar ayı üçün Azərbaycan sektorunda yükdaşımaların həcmi 4,069 mln. ton olmuşdur. Bu göstərici 2018-ci ilin eyni ayı ilə müqaisədə 3%-i azdır. 2018-ci il bu göstərici 124 mln. ton olmuşdur. Qeyd edim ki, hesabat dövrü üçün Azərbaycan Respublikasına aid hissəsində yük daşımaların həcmi 828 mln. tondur ki, bu da illik müqaisədə 6,3% yəni 55 mln. ton azdır.

Sözü gedən yüklər avtomobil, dəmir yolu və dəniz yolu vasitəsilə daşınmışdır. Belə ki, 2,685 mln. ton yəni 66% avtomobil, 958 min ton yəni 23,5% dəmir yolu və nəhayət ən az yəni 426 min ton və ya 10,5 % isə dəniz nəqliyyatı vasitəsilə nəql edilmişdir. Onu da qeyd edim ki, Avropa-Qafqaz-Asiya dəhlizi vasitəsilə daşınan yüklərin 591 min. ton ya da 14,5%-i tranzitn yüklər olmuşdur ki, o da ötən il ilə müqaisədə 25,1% daha dəqiq 198 min. ton azdır.

TRACECA layihəsi ilk növbədə məhz qədim İpək yolunu Mərkəzi Asiyanın və Qafqazın tərəfdaş ölkələrinin nəqliyyat sistemlərinin infrastrukturlarının və daşıma sistemlərinin dünya ölçülərinə uyğun təkmilləşdirilməsi, yenilərinin yaranması və onların Transavropa kommunikasiya şəbəkələri ilə birləşdirilməsi məqsədini güdür.

Qədim İpək yolunun çox uzaqlardan gələn tarixi, illər boyu davam edən əlaqələrin Avropa və Asiya ölkələrinin iqtisadi inkişafında əhəmiyyətli, müstəqil Azərbaycanın sosial-iqtisadi dəyişiklərin zənginliyi və kommunikasiya sisteminin dünya ölçüləri səviyyəsində yenidən qurulmasının zəruriliyi və s. məsələlər bu layihə çərçivəsində öz əksini tapır.

Dünyanın nəhəng regionlarından sayılan Avropa və Asiya arasında iqtisadi əlaqələrin genişləndirilməsi, istehsal olunan məhsulların dünya bazarına çıxarılması və bu bazarlar uğrunda mövqelərin möhkəmləndirilməsi üçün yeni transregional nəqliyyat kommunikasiya layihəsi olan TRACECA-nın mühüm əhəmiyyəti vardır.

Ümumi uzunluğu 6000 km. olan Şərqlə Qərb arasında iqtisadi əlaqə yaradan İpək Yolunun bərpası istiqamətində bir sıra mühüm layihələr reallaşdırılmaqdadır ki, bu da region ölkələri arasındakı əlaqələri daha da sıxlaşdırır. Məsələn, 2018-ci il ərzində Türkiyədə reallaşdırılan Mərmərə və Yavuz Sultan Səlim Körpüsü məhz belə layihələrdəndir. Bütünlükdə region üçün daha mühüm layihə olan Bakı-Tiblisi-Qars (BTQ) dəmir yol xəttinin işə düşməsi də bu sahədə atılan mühüm addımlardandır. Qeyd edim ki, 2007-ci ildə layihənin təməlqoyma mərasimi iştirakçı dövlətlərin yəni, Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan, Özbəkistan respublikalarının

nümayəndə heyətlərinin iştirakı ilə baş tutmuşdur. 10 il sonra, daha dəqiq 30 oktyabr 2017-ci ildə iştirakçı dövlətlərin nümayəndə heyətlərinin eyni zamanda Azərbaycan və Türkiyə Respublikalarının Prezidentlərinin iştirakı ilə təntənəli açılış mərasimi baş tutmuşdur.

İlk qatar Bakıdan Qazaxıstan taxılını Mərsin limanına çatdırmaq üçün yola düşmüşdür. Bakıdan yola düşən qatar Karsa 856 km.-lik yolu 40 saata qətt etmişdir. Bu planlaşdırılan vaxtdan 10 saat tezdir. Qeyd edim ki, BTQ dəmir yolunun Şərq və Qərb arasında 75 milyard ABŞ dolları dəyərində yük daşıma qabliyyətinə malik olması onu regionun ən avantajlı və mühüm layihəsinə çevirir [1].

Ümumiyyətlə qeyd etmək yerinə düşər ki, dəmir yolu nəqliyyatı digər nəqliyyatlarla müqaisədə ən az riskli və ən ucuz nəqliyyat növüdür. Dəhlizin Azərbaycana verdiyi səmərə əsasən aşağıdakılardan ibarətdir:

- ilk növbədə Azərbaycan Qərbə birbaşa çıxış əldə edir. Daha dəqiq desək, ölkəmiz Avropa və Asiya arasında tranzit mərkəzinə çevriləcəkdir.
- digər transregional layihələr (BTC,BTƏ) kimi bu layihədə də Ermənistan Azərbaycana qarşı işğalçı mövqeyinə görə heç bir layihədə yer almayıb. Bu isə Azərbaycan üçün nə dərəcədə avantaj isə düşmənlərimiz üçün bir o qədər dezavantajdır. Beləliklə, Azərbaycan həm siyasi həm də iqtisadi cəhətdən güclənərək regionda öz mövqeyini möhkəmləndirir.
- Azərbaycanın Avropaya yük nəqli artıq İran üzərindən olunmasına ehtiyac qalmayacaq.
- Bakı Avropa və Asiya kimi mühüm regionlar üçün logistik mərkəzə çevriləcək.
- iqtisadi nöqteyi-nəzərdən BTQ-nin çox hissəsinin Azərbaycan ərazisindən keçməsi daha çox tarif gəliri gətirəcək.
- dəmir yolu yük daşımasından büdcəyə illik ən azı 50 mln. dollar daxil olur.

Baxmayaraq ki, son illər Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunda mühüm addımlar atılmışdır və bu addımlar öz səmərəsini verməkdədir. Ölkəmiz dünyada neft-qaz ölkəsi kimi tanınmaqdadır. Məhz bu sahədə Azərbaycan region ölkələri ilə iri transregional layihələrə nəinki qoşulmuş, hətta bir çoxlarına ev sahibliyi belə etmişdir.

Bakı-Novorossiyski neft kəməri demək olar ki, ilk belə layihələrdəndir. Kəmər 1983-cü ildə inşa edilmiş, 1995-1996-cı illərdə isə ABƏŞ və ARDNŞ tərəfindən yenilənərək istiqaməti dəyişdirilmişdir. Neft marşurutu Səngəçal terminalından başlanır Novorossiyski limanına qədər davam edir.

Ümumi uzunluğu 1347 km. olan kəmərin 231 km.-i Azərbaycan, 1116 km.-i isə Rusiyaya aiddir. Diametri 720 m. olan borunun 1 gün üçün neft ötürmə qabiliyyəti 105 min barel, il ərzində isə maksimum 6 mln. tondur. Lakin gələcəkdə bu rəqəmin 17 mln. ton olması gözlənilir.

Uzunluğu 833 km. olan Bakı-Supsa neft kəməri və ya Qərb İxrac Boru Kəməri Xəzərin ölkəmizə aid hissəsindən çıxarılan neft Səngəçal terminalından borular vasitəsilə Gürcüstanın Supsa terminalına ötürülür, oradanda tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarına göndərilir. Bu kəmər 1997-1998-ci illərdə inşa edilmiş, çox keçmədən yəni 1998-ci ilin dekabrından 1999-cu ilin martına qədər borular doldurulmuş, 1999-cu ilin 8 aprelindən isə gəmilərə yüklənərək Avropaya ixrac edilmişdir [3].

Bakı-Tiblisi-Ceyhan neft kəməri Azərbaycanın reallaşdırdığı ən önəmli və iri transregional layihələrdəndir. BTC-nin Azərbaycan iqtisadiyyatına srateji inkişafı baxımından çox mühüm əhəmiyyəti vardır. BTC neft kəməri ölkənin sosial-iqtisadi həyatının yüksəlməsinə səbəb olan layihələrdəndir.

Bakı neftinin Gürcüstandan keçərək Ceyhana axması həm də Türkiyə üçün iqtisadi baxımdan çox səmərəlidir. Belə ki, neft kəməri Azərbaycan iqtisadiyyatına gəlir gətirməklə yanaşı, Türkiyənin də nisbətən daha ucuz qiymətə neftlə təmin olunmasına şərait yaratmışdır.

Qeyd edim ki, sözü gedən neft kəməri ildə 50 milyon ton Bakı neftinin nəqli üçün nəzərdə tutulsa da hazırda bu kəmər ilə ildə 60 milyon ton neft nəqli mümkündür. Statistik göstəricilərə

nəzər salsaq neft kəməri istifadəyə veriləndən 1aprel 2010-cu ilə qədər Ceyhan limanından 112,8 milyon ton neft dünya bazarlarına ixrac edilmişdir. Həmçinin 2016-cı ilin iyun ayından 2018-ci ilin I yarısının sonuna qədər sözü gedən kəmər vasitəsilə 399 milyon ton neft Ceyhana nəql edilmiş ordan isə 3916 tanker vasitəsilə dünya bazarına çıxarılmışdır. Elə təkcə 2018-ci ilin I yarım ili ərzində kəmər vasitəsilə 17 mln. ton Ceyhana göndərilmiş, oradan isə 158 tankerə yüklənərək dünya bazarına ixrac edilmişdir.

Beləliklə, Bakı-Tbilisi-Ceyhan neft kəməri nəinki Azərbaycan eləcə də, Gürcüstan, Türkiyə və bütövlükdə region üçün iqtisadi, siyasi baxımdan, enerji təhlükəsizliyi cəhətdən mühüm əhəmiyyətə malik olmaqla bərabər, Türkiyənin Qara dəniz boğazlarının həddən artıq yüklənməsinin də qarşısını alacaqdır.

Ədəbiyyat

1. Gənciyev G., Ələkbərov Ə., Gənciyeva L. Transmilli korporasiyalar. Bakı: Elm, 2007, 192 s.
2. Səmədzadə Ş.Ə., Əliyeva E.Ə., Əliyev N.S. İnvestisiya layihələndirilməsi. Bakı, 2003, 191 s.
3. http://www.azerbaijan.az

Резюме

Бабаева Т.П.

Экономическая эффективность трансрегиональных проектов и ее роль в развитии экономики страны

В статье рассматривается текущее состояние реализуемых в Азербайджане проектов, их исследование и определение экономической эффективности. Рассчитана экономическая эффективность трансрегиональных проектов и ее влияние на развитие экономики страны.

Ключевые слова: *ТРАСЕКА, Шелковый путь, проект, интеграция*

Summary

Babayeva T.P.

Economic Efficiency of Transregional Projects and its Role in the Development of the Country's Economy

It is the study of the current state of projects implemented in Azerbaijan, their research and determination of economic efficiency. The article calculates the economic efficiency of transregional projects and its impact on the development of the country's economy.

Key word: *TRACECA, Silk Road, project, integration*

NƏQLİYYATIN BEYNƏLXALQ TİCARƏTİN İNKİŞAFINDA ROLU

Dadaşova Jalə Bayram qızı

Milli Aviasiya Akademiyası

j.ala@inbox.ru

Xülasə: *Beynəlxalq ticarət müəyyən miqdarda malın böyük məsafələrə daşınmasını nəzərdə tutur. Onun müvəffəqiyyəti, təhlükəsizliyi çatdırılma sürətindən asılıdır. Məhz bunlar nəqliyyat vasitələrinin və infrastrukturun keyfiyyəti ilə şərtlənir. Beynəlxalq ticarətdə nəqliyyat vasitələrinin və infrastrukturunun inkişafı malların çatdırılmasına əsaslı təsir göstərir. Zaman ötdükcə dünya iqtisadiyyatında nəqliyyat xərclərinin aşağı düşməsi beynəlxalq ticarətin inkişafına öz müsbət təsirini göstərmişdir.*

Açar sözlər: *beynəlxalq ticarət, nəqliyyat, inteqrasiya, qiymət.*

XVII- XVIII əsrlərdə (və daha əvvəllər) ucqar ərazilərdə daha keyfiyyətli iş fəaliyyəti üçün iki amil yox idi: inkişaf etmiş nəqliyyat və sürətli əlaqə imkanı. Nəqliyyat infrastrukturunun inkişafı XIX əsrin ikinci yarısında nəqliyyat vasitələrinin və rabitə vasitələrinin inkişafı ilə bir çoxlarının qloballaşma prosesinin başlanğıcı hesab etdiyi faktorları asanlaşdırdı. İki dünya müharibəsinə, qlobal iqtisadi böhrana və neft zərbələrinə baxmayaraq, XX əsrdə nəqliyyat artımı həm kəmiyyət, həm də keyfiyyət baxımından möhtəşəm idi. Həm nəqliyyat, həm də rabitə xidmətlərində qiymətlərin azalması ilə müşayiət olunan artım məkanların daralmasına səbəb olmuş, istehsalın təşkili, beynəlxalq əmtəə birjası, xidmətlərin göstərilməsi və ümumilikdə insan həyatında çoxsaylı dəyişikliklərə səbəb olmuşdur.

Malların istehsal sahəsindən satış və ya istehlak yerinə daşınması üçün lazım olan yeni nəqliyyat vasitələri və vaxtın azaldılması beynəlxalq ticarətin inkişafında mühüm əhəmiyyət kəsb etdi. Nəqliyyat xərclərinin daha da azalması, nəqliyyat xidmətlərində keyfiyyətin yüksəldilməsi, artan sürət və etibarlılıq beynəlxalq bazarda dünyanın, demək olar ki, hər yerindən olan istehsalçılar arasında bərabər imkanlı rəqabətə səbəb oldu. Bazarın yaxınlığı əsasında reallaşdırılan rəqabət üstünlüyü xeyli dərəcədə itdi [1].

Aşağıdakı diaqramlarda dunya iqtisadiyyatında yük nəqliyyatı üzrə dəyişikliyi əyani şəkildə görə bilərik: [2]





Diaqramda qeyd edilənlərdən görmək olur ki, ÜDM 2017 ilə 2018 arasında 3,6% artmışdır, bu əvvəlki ilə nisbətən aşağı göstəricidir. İnkişaf etmiş ölkələrdə ÜDM 2,2% genişləndi, inkişaf etməkdə olan ölkələrdə ÜDM əvvəlki illərlə müqayisədə bir qədər aşağı tempdə artmışdır (4.5%). Dünya ticarətinin həcmi 3% artmışdır, bu 2017-ci ildəki böyümə sürətindən aşağıdır. Hava nəqliyyatı ilə ton-kilometr 2018-ci ildə 3.5% artmış, bu da 2017-ci ildə qeydə alınan fövqəladə 9.7% artımdan əhəmiyyətli dərəcədə aşağıdır. 2018-ci il üçün ilkin hesablamalar Beynəlxalq Nəqliyyat Forumu Rusiyada (+ 4,2%), ABŞ-da (+ 3%) və AB-də (+ 2.8%) dəmiryol yükünün artdığını göstərir. İlkin hesablamalara görə, avtonəqliyyat vasitələrinin ton-kilometr uzunluğu AB bölgəsində (+ 3.3%) və Rusiyada da (+ 2.3%) genişlənməyə davam etmişdir.

Bu gün nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq ticarət əlaqələrinə inteqrasiya olunması və bununla da beynəlxalq əmək bölgüsündə iştirakına da əsaslı təsir göstərmişdir. Ölkəmizin dünyada tranzit ölkə qismində tanınması üçün vahid dünya nəqliyyat sisteminə qoşulması vacib şərtdir. Ölkəmizin əlverişli geoiqtisadi məkanda yerləşməsi son illərdə yeni layihələrə (TAP, TANAP) imza atmasına səbəb olmuşdur ki, bu da nəqliyyat sahəsinin inkişafına öz təsirini göstərmişdir. Hazırda nəqliyyat sahəsində baş verən əsaslı inkişaf dəyişiklikləri, bu sahədə özəl sektorun inkişafı daşımaların göstəricilərinin lazımi həddə çatmasına gətirib çıxarmışdır. Bundan başqa son illərdə Bakı Beynəlxalq Nəqliyyat Limanının yaradılması, burada loqistika mərkəzinin, lizinq şirkətlərinin, ixraca yardım fondunun, ixracatçı birlikləri və s. müəssisələrin yaradılması da ölkənin ticarət dövriyyəsinin həcminin artmasına və bununla da, beynəlxalq ticarətə inteqrasiya olunmasına müsbət təsir edəcəkdir.

Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, xüsusi iqtisadi zonanın yaradılması da ayrıca qeyd edilməlidir. Burada başlıca məqsəd milli iqtisadiyyatın davamlı inkişafına və rəqabət qabiliyyətinin artırılmasına, logistika və nəqliyyat mərkəzi olaraq respublikamızın mövqeyinin gücləndirilməsinə və çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılmasına nail olunmasıdır. Nəticə etibarilə bu iqtisadi zonanın yaradılması Azərbaycanın tranzit ölkə olaraq tədricən öz imkanlarını genişləndirməsinə və ölkə ərazisindən daha böyük həcmdə yükdaşımalara nail olunmasına xidmət edir. Bununla bərabər yeni iqtisadi zona dövlət gəlirlərinin və büdcə daxilolmalarının da artmasına səbəb olacaq, həmçinin məhsul ehtiyatlarının bir qisminin daxili bazara çıxarılması imkanlarını genişləndirəcək. Bu da öz

növbəsində idxaldan asılılığın tədricən azaldılaraq aradan qaldırılması və yerli istehsal məhsullarının xarici bazarlara çıxarılması baxımından mühüm əhəmiyyət kəsb edir [3].

Nəqliyyat və beynəlxalq ticarətin qarşılıqlı asılılığı gələcəkdə də davam edəcək və qloballaşma prosesləri böyük ehtimalla daha da artacaqdır. Uzaq ölkələr arasında mal mübadiləsi yeni binaların inşasına və mövcud güclərin artırılmasına və nəqliyyat şəbəkəsinin, daşıyıcıların və yükləmə-boşaltma yerlərinin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edəcəkdir. Ticarət, xüsusən də beynəlxalq ticarət nəqliyyatsız həyata keçirilə bilmədiyi üçün nəqliyyatdakı dəyişikliklər əvvəlki dövrlərdə olduğu kimi yenidən beynəlxalq ticarətdəki dəyişikliklərə təsir edəcəkdir.

Ədəbiyyat

1. https://content.sciendo.com
2. https://www.itf-oecd.org
3. http.news.milli.az

Резюме

Дадашева Ж.В.

Роль транспорта в развитии международной торговли

Международная торговля предполагает перевозку большого количества товаров на большие расстояния, а успех и безопасность зависят от скорости доставки. Это связано с качеством транспортных средств и инфраструктуры. Развитие транспортных средств и инфраструктуры в международной торговле имеет большое влияние на поставку товаров. Снижение транспортных расходов в мировой экономике со временем оказало положительное влияние на развитие международной торговли.

Ключевые слова: *международная торговля, транспорт, интеграция, цена.*

Summary

Dadashova J.B.

The role of Transport in the Development of International Trade

International trade involves transporting large quantities of goods over great distances, and success and security depend on delivery speed. This is due to the quality of vehicles and infrastructure. The development of vehicles and infrastructure in international trade has a major impact on the supply of goods. The decline in transportation costs in the world economy over time has had a positive impact on the development of international trade.

Key words: *international trade, transport, integration, price.*

QLOBALLAŞMA PROSESİNDƏ ÖLKƏNİN XARİCİ İQTİSADİ İNKİŞAF STRATEGİYASI VƏ ONUN REALLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Əhmədova Gülnarə Sabir qızı

Sumqayıt Dövlət Universiteti

gulnaraahmadova.ga@gmail.com

Xülasə: *Qloballaşma prosesində Azərbaycanda qarşıya qoyulan vəzifə, dünya miqyasında rəqabətqabiliyyətli iqtisadi sistem qurmaqdan ibarətdir. Qlobal inteqrasiya kanallarının möhkəmləndirilməsi daha çox məhsulla dünya bazarlarına çıxmasına əlavə imkanlar yaradır.*

Açar sözlər: *konsepsiya, rəqabətqabiliyyətlilik, fiskal siyasət, xarici ticarət, inteqrasiya, qloballaşma.*

Azərbaycanın beynəlxalq bazarlarda mövqeyini gücləndirmək və dünya iqtisadi proseslərinə effektiv daxil olmasını təmin etmək üçün dünya iqtisadiyyatının inkişafında müşayiət olunan və gözlənilən texnoloji dəyişikliklər nəzərə alınmaqla xarici iqtisadi strategiya elementlərinin quruluşunun öyrənilməsinə və formalaşmasına əsaslanan yeni keyfiyyətli bir yanaşma lazımdır. Dünyada COVİD-19 pandemiyasının geniş yayılması ölkəmizin xarici iqtisadi fəaliyyətinin inkişafı vəziyyətinə yenidən nəzər salmağı, uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının davamlı və innovativ inkişafının şərtlərini və mənbələrini daha dərindən təhlil etməyi obyektiv zərurətə çevirmişdir. Mövcud şəraiti nəzərə almaqla yeni xarici iqtisadi inkişaf strategiyasının hazırlanması və reallaşdırılması açağıdakılara imkan verə bilər:

- ölkənin dünya iqtisadiyyatına effektiv inteqrasiyasını təmin etmək;
- həm yerli malların və xidmətlərin, həm də bütövlükdə ölkənin rəqabət qabiliyyətini gücləndirmək və artırmaq üçün xarici iqtisadi fəaliyyətin üstünlüklərindən istifadə etmək;
- davamlı iqtisadi artım təmin etmək.

Yuxarıda göstərilən üstünlüklərə nail olmaq üçün xarici iqtisadi siyasətin səmərəliliyini və həyata keçirilməsini, onun stimullaşdırıcı və əlaqələndirici funksiyalarını gücləndirməyə yönəlmiş tədbirlər məcmusu olan bir mexanizm lazımdır və dövlət bu mexanizmin əsas halqası kimi çıxış etməlidir. Dövlət, institusional mühit yaratmaq, təşviqat sistemini inkişaf etdirmək və qanunvericilik bazasının təkmilləşdirilməsi yolu ilə yerli istehsalçıları qorumaq, xarici iqtisadi fəaliyyətin bütün sahələrinin və formalarının inkişafı üçün əlverişli iqtisadi və təşkilati şərait yaratmaq, milli maraqların təmin edilməsi və reallaşdırılması üçün səmərəliliyini artırmaq sahəsində səylərini gücləndirməlidir.

Qeyd edək ki, Azərbaycanın xarici iqtisadi inkişaf strategiyasının strateji məqsədi ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına və qloballaşma proseslərinə effektiv inteqrasiyası olmalıdır ki, bu da yaranan üstünlüklərdən maksimum istifadəyə imkan verəcəkdir.

Azərbaycan iqtisadiyyatının müasir inkişafının təmin edilməsi baxımından "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası mühüm əhəmiyyət kəsb edir. Konsepsiyada sosial yönümlü dövlət tənzimləməsini və bazar münasibətlərini üstün tutan iqtisadi modelin formalaşması strateji məqsəd kimi qarşıya qoyulmuşdur. Qeyd edilən konsepsiyada qarşıya qoyulan vəzifələr dünya miqyasında rəqabətqabiliyyətli milli iqtisadi sistemin formalaşmasını şərtləndirir. Bu vəzifələrin yerinə yetirilməsi azad sahibkarlığa və rəqabətə əsaslanan bazar münasibətləri şəraitində daha səmərəli nəticə verə bilər. Bazar münasibətləri şəraitində ilk pillədə inflyasiya ilə əlaqəli digər makroiqtisadi hədəflər onların tənzimləmə yolları, ikinci pilləsində maliyyə sektorunda sabitlik, fəallıq və riskləri idarə edəcək vasitələr yer almışdır [1].

Xarici ticarətin sadələşdirilməsi, təkmilləşdirilməsi və beynəlxalq bazarlara çıxışda sahibkarlara dövlət dəstəyinin artırılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin ixrac potensialını artırmaq üçün təşviqedici tədbirlər həyata keçiriləcək, sahibkarlığın dövlət tərəfindən güzəştli kreditlərlə təmin olunması yüksəldiləcək, daxili bazarı rəqabətdən qorunmaq üçün beynəlxalq təcrübədə istifadə edilən antidempinq tədbirlər həyata keçiriləcəkdir.

İqtisadi subyektlərin və əhali yığımlarının fond bazarında yerləşdirilməsi və ölkənin qiymətli kağızlar bazarının beynəlxalq kapital bazarlarına inteqrasiyası üçün müvafiq şərait yaradılması ön planda olacaqdır. Qlobal və regional iqtisadi məkanda mal və xidmətlərin, kapital və maliyyənin, işçi qüvvəsinin hərəkətini təmin edən şəraiti və bu sahədə mövcud olan qaydaları özündə əks etdirir. Belə mühitdə ayrı–ayrı ölkələrin təsərrüfat subyektləri təkcə ölkə daxilində deyil, həmçinin xarici bazarlarda əvvəllər görünməmiş dərəcədə sərbəstlik əldə etmişlər.

Əgər onlar əvvəllər sərhədləri tək - tək hallarda keçirdilərsə, hazırda belə hallar daimi xarakter almışdır [2, s.108].

Xarici iqtisadi inkişaf strategiyasının realllaşdırılması baxımından aqrar-sənaye kompleksinin potensialından səmərəli istifadə edilməsi qarşıda duran əsas vəzifələrdəndir. Azərbaycanda aqrar sahədə yüksək inkişafa nail olunması, bu sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi üçün ölkənin bütün rayonları üzrə ixtisaslaşmanın müasir vəziyyəti, beynəlxalq təcrübədə istifadə olunan metodologiyalar əsas götürülmüşdür.

İqtisadiyyatın qloballaşdığı hazırki dövrdə Azərbaycan iqtisadiyyatı xarici ölkələr və beynəlxalq təşkilatlarla aktiv iqtisadi, siyasi, elmi-texniki və s. əlaqələr yaradan bir ölkəyə çevrilmişdir. Bu əlaqələr içərisində ən önəmli yeri xarici ticarət tutur. Ölkəmiz dünya ölkələri ilə, qarşılıqlı faydalı ticarət əlaqələri yaratmış, hərtərəfli müqavilələr bağlamış, xarici texnika və texnologiya idxal etmişdir.

Azərbaycan Respublikasının xarici ticarət siyasəti özünün təbii sərvətləri üzərində suverenliyini reallaşdırmağa xidmət edir. Bu məqsədlə xarici ticarət siyasəti aşağıdakıları təmin edir:

1. Ölkənin beynəlxalq iqtisadi və maliyyə mühitinə cəlb edilməsini, inkişaf etmiş ölkələrin bazar strukturuna yaxınlaşdırılmasını, onun müstəqil xarici iqtisadi fəaliyyətinin həyata keçirilməsində müstəsna hüququnu təmin etməli;

2. Daxili və xarici iqtisadi sahibkarlığın azadlığı prinsipini həyata keçirməli;

3. Təsərrüfat subyektləri arasında ayrı-seçkiliyə yol verilməməli, onların hüquq bərabərliyi prinsipi qorumalı;

4. Qanunun aliliyi prinsipini təmin etməli. Ölkəmizdə həyata keçirilən siyasət xarici investisiyalarla yanaşı, müasir texnologiyaların, iş təcrübələrinin, yeni idarəçilik qaydalarının, iqtisadi münasibətlərin daxil olması üçün də şərait yaradır.

Bu gün "Əsrin müqaviləsinin" bağlanması respublikanın ictimai-siyasi, iqtisadi həyatında çox əlamətdar hadisədir. Bu müqavilə qüvvəyə mindikdən sonra Azərbaycan uğurla və intensiv şəkildə "Neft strategiyasının" yerinə yetirilməsinə nail oldu. Bu proseslərdə ikinci bir mühüm məsələ neftlə yanaşı, ölkəmizin təbii qaz yataqlarının istismarının sürətləndirilməsi bu sahəyə yüksək texnologiyaların gətirilməsi və nəhayət, Azərbaycan nefti və qazının dünya bazarına çıxarılmasının təmin edilməsi idi [3. s.171]

Azərbaycan regionda və dünyada alternativ enerji layihələrinin hazırlanması və həyata keçirilməsi baxımından balanslaşdırılmış iqtisadi siyasət aparır. Bunlar ölkəmizdə iqtisadi səmərəliliklə yanaşı, siyasi və digər mühüm dividentlərdə gətirir. Bundan əlavə, enerji layihələrinin genişləndirilməsi qardaş Türkiyənin iqtisadiyyatının daha da gücləndirilməsinə və Azərbaycanla iqtisadi əməkdaşlığının dərinləşməsinə gətirib çıxarmaqdadır. Azərbaycanın ən iri xarici investisiyaları Türkiyə iqtisadiyyatına yatırılmaqdadır.

Qeyd edək ki, regionun ən iri neftayırma və neftkimya kompleksi SOCAR kompaniyası tərəfindən İzmirdə inşa olunmuşdur. Həmin kompleksin inşası üçün 20 mlrd. dollaradək investisiyalar yatırılmışdır. Nəticədə, Türkiyənin enerji və kimya bazarında SOCAR-ın və onun törəmə müəssisələrinin payı artmaqdadır. Xüsusilə, neftkimya bazarında SOCAR-ın investisiya yatırdığı və sahibi olduğu PETKİM şirkəti Türkiyədə kimya və neftkimya bazarının 40%-ə qədərini təşkil edir. Bu müəssisədə yüzlərlə çeşid üzrə kimya və neftkimya məhsulları istehsal olunur və əsas xammal kimi Azərbaycan nefti istifadə edilir. Bütün bunlar ölkəmizin regional gücünə və iqtisadi qüdrətinə əlavə potensiallar verir, iqtisadiyyatımızın şaxələndirilməsinə, qlobal inteqrasiya proseslərinin möhkəmlənməsinə, daha çox məhsulla dünya bazarlarına çıxmasına əlavə imkanlar yaradır.

Yekun olaraq deyə bilərik ki, xarici iqtisadi fəaliyyətin əsas istiqamətlərinə nail olmaq və həyata keçirmək üçün əsas vəzifələr xarici iqtisadi inkişaf strategiyasının aşağıdakı strateji hədəflərinə uyğun olmalıdır:

- malların və xidmətlərin ixracı baxımından xarici iqtisadi fəaliyyətin şaxələndirilməsi siyasətinin aparılması. O cümlədən emal olunan məhsul və xidmətlərin payının artırılması yolu ilə xarici satış coğrafiyasının genişlənməsi;
- ölkəmizin şirkətlərinin beynəlxalq dəyər zəncirlərində iştirakı ilə rəqabət qabiliyyətinin artırılması;
- xarici iqtisadi sahədə biznes fəaliyyətinin üçün maneə və məhdudiyyətlərin aradan qaldırılması məqsədilə iqtisadi və tənzimləyici tədbirlərin görülməsi;
- ölkənin rəqabətqabiliyyətliliyinin təmin edilməsində strateji əhəmiyyətli rol oynayan sektorların fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılması;
- xarici iqtisadi fəaliyyəti tənzimləyən dövlət qurumlarının modernləşdirilməsi, habelə xarici iqtisadi siyasətin inkişafı və həyata keçirilməsi üçün mexanizm və vasitələrin təkmilləşdirilməsi.

Sonda qeyd etmək istərdim ki, qloballaşma şəraitində və ölkənin davamlı iqtisadi inkişafı üçün xarici mühitin artan əhəmiyyəti, qlobal iqtisadiyyatın inkişafında həm cari, həm də gələcək meyİlləri qabaqcadan görməyə və həyata keçirməyə qadir olan elmi əsaslı xarici iqtisadi inkişaf strategiyasının hazırlanması vacibdir.

Ədəbiyyat

1. Azərbaycan 2020: gələcəyə baxiş" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.
2. Bağırov M.M. Banklar və bank əməliyyatları. Dərslik. Bakı, 2003
3. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018

Резюме

Ахмедова Г.С.

Внешнеэкономическая стратегия развития Азербайджана и направления её реализации в процессе глобализации

В условиях глобализации основной целью Азербайджана является создание конкурентноспособной экономической системы мирового масштаба. Укрепление каналов глобальной интеграциии создает дополнительные возможности для продвижения товаров на мировые рынки.

Ключевые слова: *концепция, конкурентоспособность, фискальная политика, внешняя торговля, интеграция, глобализация.*

Summary

Ahmadova G. S.

Azerbaijan's Foreign Economic Development Strategy and Directions for its Implementation in the Process of Globalization

Azerbaijan's task in the process of globalization is to build a globally competitive economic system. Strengthening global integration channels creates additional opportunities for more products to enter world markets.

Key words: *concept, competitiveness, fiscal policy, foreign trade, integration, globalization.*

AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİNDƏ SAHİBKARLIĞIN İNKİŞAFININ ROLU

Əliyev Ramil Teyyub oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
Mahmudova Sevda Faiq qızı
AMEA-nın İqtisadiyyat İnstitutu
art_7_7@mail.ru

Xülasə: *Məqalədə qeyd edilir ki, xarici iqtisadi əlaqələr Azərbaycanın müstəqil dövlət kimi mövcud olduğu bütün dövrlərdə mili iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynamışdır və oynayır; sahibkarlığın inkişafı, xüsusilə də xarici və birgə müəssisələrin sayının artması, ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məqalədə eləcə də, qeyd edilir ki, Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafı, genişləndirilməsi və diversifikasiyası üçün ölkəmizdə kifayət qədər potensial imkanlar vardır və bu imkanlardan səmərəli istifadə edilməsi üçün, ilk növbədə, sahibkarlıq inkişaf etdirilməlidir. Bu məqsədlə məqalədə təklif və tövsiyər irəli sürülür.*

Açar sözlər: *xarici iqtisadi əlaqələr, sahibkarlıq, təsir, inkişaf, təkliflər.*

Dünya iqtisadiyyatında hazırda mövcud olan çətin vəziyyəti nəzərə alaraq, Azərbaycan iqtisadiyyatının həm cari ehtiyacları, həm də modernləşdirmə və innovativ inkişaf ilə bağlı uzunmüddətli planlarını təmin edən xarici iqtisadi fəaliyyətin prioritet sahələrinin seçilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Milli iqtisadiyyatın dünya iqtisadi məkanında yerini, dünya iqtisadi münasibətləri sisteminə optimal daxil edilməsini nəzərdən keçirərkən onun elə maksimum əlverişli mövqeyini təmin etmək lazımdır ki, xalq təsərrüfatı kompleksinin mövcud sturukturu destbilzasiyaya uğramasın. Bu məsələ Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT-yə) daxil olacağı təqdirdə xüsusilə aktualdır.

ÜTT-yə üzv olmaqla bağlı yüksək risklər bir çox ölkələri regional və ikitərəfli iqtisadi əməkdaşlıq kimi xarici siyasət alətinə müraciət etməyə məcbur edir. Regional və ikitərəfli səviyyələrdə xarici iqtisadi əlaqələrin inkişafını dövlətin xarici iqtisadi siyasətinin müstəqil istiqaməti hesab etmək olar. Müasir dövrdə iqtisadiyyatın qloballaşma proseslərinin genişlənməsi, ilk növbədə dünya iqtisadiyyatının transmilliləşməsi, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, xarici ticarətin və beynəlxalq iqtisadi əlaqələrin dəfələrlə artan həcmi, dinamikası və əhəmiyyəti, milli iqtisadiyyatın inkişafı üçün geniş imkanlar yaradır, eyni zamanda bunlarla bağlı riskləri də artırır.

Dünya iqtisadiyyatının qloballaşması prosesi təkcə məhsul və xidmətlər bazarlarına deyil, həm də məhsulların istehsalı və satışının bütün sahələrində yeniliklərin tətbiqi proseslərinə aid olan iqtisadi sistemlərin transformasiyasına və yeni rəqabət münasibətlərinin formalaşmasına ciddi təsir göstərir. Halbuki beynəlmiləlləşmənin ən yüksək mərhələsi kimi müasir qloballaşma prosesi bu gün baş verən proseslərin son nəticəsi deyil, yeni iqtisadi mühitin və iqtisadi sistemin formalaşması prosesini əks etdirir.

Qloballaşma iqtisadi həyatın beynəlmiləlləşməsinə qarşı deyil və qlobal cəmiyyətlə eyniləşdirilmir. Bu çox mübahisəli bir prosesdir: bir tərəfdən qloballaşma müasir sivilizasiyanın birliyunə, bir çox problemlərin birgə həllinə istiqamətlənmiş konstruktiv hərəkətdir, digər tərəfdən, o, sosial bərabərsizliyi artırır və milli münaqişələri dərinləşdirir. Digər ölkələrlə yanaşı, Azərbaycan

özünün zəngin təbii ehtiyat bazası və insan potensialı ilə bağlı müqayisəli üstünlüklərini nəzərə alaraq, qloballaşma prosesində öz yerini və rolunu fəal şəkildə axtarır.

Xarici amil - ölkənin beynəlxalq əmtəə, xidmət, kapital və əmək mübadiləsində iştirakı - Azərbaycanın müstəqil dövlət kimi mövcud olduğu bütün dövrlərdə mili iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynamışdır və oynayır. Ancaq Azərbaycanın dünya iqtisadiyyatının artan beynəlmiləlləşməsindən tam yararlanmağa imkan verməyən bir sıra obyektiv səbəblər vardır ki, bunlar arasında, ilk növbədə, aşağıdakıları qeyd etmək olar:

- milli iqtisadiyyatın rəqabət qabiliyyətinin aşağı olması;
- ixracatının faktiki olaraq monokultural yanacaq və xammal xarakteri;
- ixracatının Rusiya və Avropa istiqamətində yüksək konsentrasiyası.

Ona görə də yalnız ixracın əmtəə quruluşunu deyil, həm də xarici iqtisadi əlaqələrin coğrafi fokusunu da diversifikasiya etmək lazımdır. Bu, milli iqtisadiyyatın sabitliyini artırmağa, yeniliklərin ölkəmizə kütləvi axınına imkan yaradar, rəqabətdə yerimizi dəqiq müəyyənləşdirməyə və uğur əldə etmək imkanı verər.

Araşdırmalar göstərir ki, Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində sahibkarlıq strukturları əhəmiyyətli rol oynayır. Milli sahibkarlıq strukturlarının xarici tərəfdaşlarla münasibətlərinin səmərəli inkişafı ölkəmizin dünya iqtisadi münasibətlərinin ümumi sisteminə inteqrasiyası prosesinə əhəmiyyətli dərəcədə kömək edir. Ancaq nəzərə almaq lazımdır ki, müasir informasiya texnologiyalarının sürətli inkişafı dövründə, Azərbaycanın milli sahibkarlıq strukturları ilə xarici firmalar arasında rəqabət güclənir. Bu rəqabət mübarizəsində məğlub durumda olmamaq üçün sahibkarlıq strukturları:

- istehsal etdikləri məhsulların çeşidliliyinin artırılmasını təmin etməli;
- istehsal potensialını və iqtisadi quruluşunu şaxələndirməli;
- çeşid tərkibini genişləndirməli, dövriyyəni artırmalı;
- xidmət etdikləri istehlakçıların maraqlarına uyğun xidmət qabiliyyətini artırmalı;
- təşkilati idarəetmə strukturlarını təkmilləşdirməlidirlər.

Beynəlxalq təcrübənin təhlili göstərir ki, dövlətin xarici iqtisadi siyasətinin təkmilləşdirilməsi və bunun nəticəsi olaraq xarici iqtisadi əlaqələrin inkişafı və genişlənməsi sahibkarlıq strukturlarının da xarici iqtisadi əlaqələrinin səmərəliliyinin artırılmasına, bütövlükdə ölkə iqtisadiyyatının inkişafına əhəmiyyətli təsir göstərir.

Xarici iqtisadi əlaqələrin mövcud formaları çox müxtəlifdir və əsasən aşağıdakıları əhatə edir:

- xarici və sərhədyanı ticarəti;
- nəqliyyat və tikinti xidmətlərini;
- birgə müəssisələrin yaradılmasını;
- lizinq, kompensasiya əsasında əməkdaşlığı;
- xarici işçi qüvvəsinin cəlb edilməsini (ixracını);
- istehsal kooperasiyasını;
- elmi və texniki əməkdaşlığı, lisenziyalar və texnologiyalar ticarətini;
- bank sektorunda əməkdaşlığı;
- xarici turizmi;
- azad iqtisadi zonalarda, beynəlxalq birliklər və təşkilatlarda əməkdaşlığı və s.

Araşdırmalar göstərir ki, Azərbaycanın sahibkarlıq strukturları xarici iqtisadi əlaqələrin geyd edilən bütün formaları üzrə bu və ya digər dərəcədə fəaliyyət göstərirlər. Bu fəaliyyətin genişləndirilməsi, xüsusilə də xarici tərəfdaşlarla birlikdə müştərək müəssisələrin yaradılmasının

nəticəsidir ki, Azərbaycanın ümumi daxili məhsulunda (ÜDM) sahibkarlıq strukturlarının payı müstəqillik illəri ərzində artmağa doğru meyil etmişdir. Belə ki, 1995-ci ildə ÜDM-da özəl bölmənin payı 30,3 faiz təşkil edirdisə bu göstərici 2000-ci ildə 70,8%-ə, 2001-ci ildə – 71,8%-ə, 2002-ci ildə-70,3%-ə; 2003-cü ildə 73,3%-ə; 2004-cü ildə-73,5%-ə; 2005-ci ildə –76,0%-ə, 2006-cı ildə-81,0%-ə, 2007-ci ildə 84,0 %-ə, 2008-ci ildə - 84,5 %-ə, 2009-cu ildə - 81,2%-ə, 2010-cu ildə - 81,7 %-ə, 2011-ci və 2013-cü illərdə -82,5% -ə, 2012-ci ildə-81,5%-ə, 2014-cü ildə-81,9%-ə, 2015-ci ildə - 81,2% - ə, 2016-cı ildə - 83,7% -ə, 2017-ci ildə - 83,8%-ə və 2018 - ci ildə - 84,7%-ə bərabər olmuşdur (2, səh. 365; 3, səh.373; 5, səh.383; 7, səh.378).

Təəssüf ki, Azərbaycan statistikasında xarici iqtisadi əlaqələrin ümumi həcmində sahibkarlıq strukturlarının payı haqqında məlumatlar öz əksini tapmayıb. Ancaq ÜDM-da sahibkarlıq strukturlarının payının mütləq çoxluğu belə deməyə əsas verir ki, Azərbaycanın xarici iqtisadi əlaqələrinin ümumi həcmində, xüsusilə də idxalın və ixracın həcmində də sahibkarlıq strukturları yüksək paya malikdir.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində ölkəmizdə fəaliyyət göstərən xarici və birgə müəssisələr əhəmiyyətli rol oynayırlar. Cədvəl 1-də Azərbaycanda xarici və birgə müəssisələrin fəaliyyətini əks etdirən məlumatlar verilmişdir.

Cədvəl 1

Azərbaycanda xarici və birgə müəssisələrin fəaliyyəti [5, səh.133-134; 7, səh.118-121]

İllər	Fəaliyyət göstərən müəssisələrin sayı, vahid	İstehsal edilən məhsulun (yerinə yetirilən işin və xidmətin) həcmi, min manat
2005	796	7081457,0
2010	1091	24011939,7
2015	1225	23423056,7
2016	1277	31676643,6
2017	1424	36403019,5
2018	1765	42594453,7

Cədvəl 1-dən göründüyü kimi, son 14 il ərzində Azərbaycanda fəaliyyət göstərən xarici və birgə müəssisələrin sayı 2,2 dəfədən çox artaraq 2005-ci ildəki 796 vahiddən 2018-ci ildəki 1765 vahidə yüksəlmişdir.

Məlumdur ki, ölkənin xarici iqtisadi əlaqələrinin inkişafında sənaye, kənd təsərrüfatı, tikinti, informasiya və rabitə, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin inkişafı əhəmiyyətli rol oynayır. Araşdırmalar göstərir ki, 2018-ci ildə Azərbaycanda fəaliyyət göstərən xarici və birgə müəssisələrin 18,0%-i (316 vahid) sənaye, 8,0%-i (142 vahid) tikinti, 3,1%-i (54 vahid) informasiya və rabitə, 2,4%-i (42 vahid) turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,3%-i (40 vahid) kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində çalışmışlar.

2005-2018-ci illər ərzində xarici və birgə müəssisələrdə istehsal edilən məhsulların, yerinə yetirilən iş və xidmətlərin həcmi 6 dəfədən çox artaraq 2018-ci ildə 42594453,7 min manata çatmışdır. Bu müəssisələrdə istehsal edilən məhsulların, yerinə yetirilən iş və xidmətlərin müəyyən hissəsi ölkə daxilində istehlak edilməklə yanaşı, xarici ölkələrə də ixrac edilir. Həm də, qeyd etmək lazımdır ki, xüsusilə sənaye, tikinti, informasiya və rabitə sahələrində çalışan xarici və birgə müəssisələrin fəaliyyətinin təmin edilməsi üçün xaricdən müvafiq avadanlıqlar, ehtiyat hissələri, xammal və s. idxal olunur. Fəaliyyət göstərən xarici və birgə müəssisələrin sayının və onlarda istehsal edilən məhsulların, yerinə yetirilən iş və xidmətlərin həcminin artması Azərbaycanın xarici iqtisadi əlaqələrinin, xüsusilə ticarət əlaqələrinin, inkişafına imkan və zəmin yaradır.

Cədvəl 2-də 2005-2018-ci illərdə Azərbaycanın xaici ticarət dövriyyəsinin dinamikası göstərilmişdir. Hesablamalar göstərir ki, nəzərdən keçirilən illər ərzində Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 3,7 dəfədən,o cümlədən, idxalın həcmi-2,7 dəfədən, ixracın həcmi 4,7 dəfədən çox artmışdır.

Cədvəl 2

Azərbaycanın xaici ticarət dövriyyəsi (mlyn.ABŞ dolları) [4, səh.608; 7, səh.618]

İllər	Dövriyyə	İdxal	İxrac	Saldo
2005	8558,4	4211,2	4347,2	136,0
2010	33160,7	6600,6	26560,1	19959,5
2015	25809,0	9216,7	16592,3	7375,6
2016	21596,6	8489,1	13107,5	4618,4
2017	24263,8	8783,3	15320,0	6536,7
2018	31755,9	11465,0	20290,9	8825,9

Təqdirəlayiq haldır ki, nəzərdən keçirilən illərdə Azərbaycanın xarici ticarət əlaqələri müsbət saldo ilə həyata keçirilmişdir və təbiidir ki, bu müsbət nəticələrin əldə edilməsində ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq strukturları əhəmiyyətli rol oynamışlar.

Araşdırmalar göstərir ki, Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafı, genişləndirilməsi və diversifikasiyası üçün ölkəmizdə kifayət qədər potensial imkanlar vardır. Bu imkanlardan səmərəli istifadə edilməsi üçün ilk növbədə sahibkarlığın inkişafı istiqamətində təsirli tədbirlər həyata keçirilməlidir. Hesab edirik ki, aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi Azərbaycanda sahibkarlığın, onun vasitəsilə-xarici iqtisadi əlaqələrin- inkişafına imkan və zəmin yaradardı:

- sahibkarlıq fəaliyyətinin təşkili və inkişafında maliyyə təminatının əsas rol oynadığını nəzərə alaraq dövlətin maliyyə-kredit siyasətində əsaslı dəyişiklərin edilməsinə ehtiyac vardır. Bu məqsədlə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən mərkəzləşdirilmiş üçot dərəcəsinin 2,0%-ə, kommersiya bankları tərəfindən istehsal kreditlərinin 12-14%-ə endirilməsi;
- ixrac yönümlü məhsul istehsal edən sahibkarlıq strukturlarına aşağı faizlə (məsələn, 10,0-12,0% çivarında) uzunmüddətli kreditlərin verilməsi;
- məhsul ixrac edən sahibkarlıq strukturları üçün aşağı ixrac rüsumlarının tətbiq edilməsi;
- iqtisadiyyatın qeyri-neft sektorunda istehsal sahibkarlığı ilə məşğul olmaq məqsədilə xarici tərəfdaşlarin iştirakı ilə yaradılan birgə müəssisələrə əlavə imtiyazların verilməsi. Məsələn, bu tipli müəssisələr ilk üç il ərzində mənfəət vergisindən azad edilə bilər, yaxud mənfətin istehsalın inkişafına yönəldilmiş hissəsi vergidən azad edilə bilər;
- milli sahibkarlıq strukturlarının xarici bazarlara çıxışına, bu bazarlarda fəaliyyətlərinin səmərəli təşkilinə, müvafiq marketinq tədqiqatlarının aparılmasına yardım etmək üçün İqtisadiyyat

Nazirliyinin təkibində müvafiq strukturun yaradılması. Bu strukturun fəaliyyətinin maliyyə təminatı müvafiq xidmətə görə sahibkarlarla imzalanmış müqavilə əsasında həyata keçirilə bilər;

- turizmin inkişaf etdirilməsi üçün infrasturktur elementləri şəbəkəsinin, xüsusilə də üç ulduzlu mehmanxana şəbəkəsinin, genişləndirilməsi, xidmət mədəniyyətinin yüksəldilməsi, xidmət haqlarının optimal səviyyədə müəyyən edilməsi üçün müvafiq təşkilati-maarifləndirici fəaliyyətin həyata keçirilməsi, turizm xidmətlərini həyata keçirən sahibkarlıq strukturlarının fəaliyyətinə nəzarətin gücləndirilməsi;
- informasiya və rabitə şəbəkəsinin genişləndirilməsi, onlayn ticarətin səmərəli həyata

keçirilməsi üçün sürətli İnternetin təşkili və s.

Ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2003. 790 s.
2. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2006. 801 s.
3. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2012 803 s.
4. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2013 804 s.
5. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2015. 814 s.
6. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2017. 813 s.
7. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2019. 782 s.

Резюме

Алиев Р.Т., Махмудова С.Ф.

Роль развития предпринимательства в расширении внешнеэкономических связей Азербайджана

В статье отмечается, что во все времена существования Азербайджана как суверенного государства внешнеэкономические связи сыграли и играют существенную роль в развитии национальной экономики; при этом развитие предпринимательства, особенно увеличение численности иностранных и совместных предприятий играют особую роль в развитии внешнеэкономических связей. В статье также отмечается, что для развития, расширения и диверсификации внешнеэкономических связей Азербайджана в стране имеется достаточный потенциал и для использования этого потенциала, в первую очередь, следует осуществить соответствующие мероприятия по развитию предпринимательства. С этой целью в статье приводятся соответствующие предложения.

Ключевые слова: *внешнеэкономические связи, предпринимательство, влияние, развитие, предложения.*

Summary

Aliyev R.T., Mahmudova S.F.

The Role of Development of Entrepreneurship in the Expansion of Foreign Economic Relations of Azerbaijan

The article notes that at all times of the existence of Azerbaijan as a sovereign state, foreign economic relations have played and are playing a significant role in the development of the national economy; at the same time, the development of entrepreneurship, especially the increase in the number of foreign and joint ventures, play a special role in the development of foreign economic relations. The article also notes that for the development, expansion and diversification of foreign economic relations of Azerbaijan in the country there is sufficient potential and to use this potential, first of all, appropriate measures should be taken to develop entrepreneurship. To this end, the article provides relevant proposals.

Key words: *foreign economic relations, entrepreneurship, influence, development, proposals*

AZƏRBAYCANIN QEYRİ-NEFT SƏNAYESİNİN VƏ İXRAC POTENSİALININ DİVERSİFİKASİYALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Əliyev Şəfa Tiflis oğlu
Sumqayıt Dövlət Universiteti
shafaaliyev@gmail.com

Xülasə: *Məqalədə Azərbaycanda qeyri-neft sənayesinin və ixrac potensialının diversifikasiyalaşdırılması məsələləri baxılır. Qeyri-neft sektorunun inkişaf istiqamətləri və strukturu, mövcud vəziyyəti təhlil olunmuşdur. İqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının indeksləri və sənaye istehsalının sturkturu araşdırılmışdır. Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması istiqamətində görülən tədbirlərin mahiyyəti verilmiş və bu sahədə qarşıya qoyulmuş strateji vəzifələrin yerinə yetirilməsi ilə bağlı problemlər təhlil olunmuşdur. Sənaye parklarının potensialından istifadə problemlərinə baxılmış və Sumqayıt sənaye mərkəzində yaradılmış kimya sənaye parkının imkanları təhlil olunmuşdur. Ölkənin ən iri sənaye-emal müəssisələrindən olan Sumqayıt "Etilen-Polietilen" zavodunun xammal təminatı məsələləri və əsas kimya məhsullarının istehsalının dinamikası baxılmışdır. Qeyri-neft sənayesinin və ixrac potensialının diversifikasiyalaşdırılması məsələləri üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

Key words: *qeyri-neft sektoru, qeyri-neft sənayesi, diversifikasiyalaşdırma, ixrac potensialı, sənaye sektoru, "Etilen-Polietilen" zavodu.*

Dünya iqtisadiyyatının inkişaf proseslərinin xüsusiyyətləri və tətbiq olunan mexanzimlərin hər bir ölkə üçün eyni təsir göstərə biləcəyi qeyri-mümkün olduğundan, bununla bağlı məsələlərin araşdırılması kompleks və sistemli yanaşmanı tələb edir. Azərbaycanda təbii ehtiyatlar baxımından neft və qaz xammallarının hasil edilməsi və dünya bazarlarına çıxarılması ilə, bu sahələr ölkə iqtisadiyyatının aparıcı və təkanverici qüvvəsi hesab olunurlar. Etiraf etmək olar ki, Azərbaycan iqtisadiyyatı böyük mənada neft və qaz amilindən asılıdır, belə ki, dünya bazarlarında baş verən iqtisadi, maliyyə, enerji böhranları zamanı bu amil mütləq şəkildə özünü büruzə verir və ölkə iqtisadiyyatına əhəmiyyətli təsir göstərir. Son dünya maliyyə böhranı da istisna təşkil etməmişdir və dünya bazarlarında neftin qiymətinin dəfələrlə aşağı düşməsi ölkə iqtisadiyyatının strukturunun diversifikasiyalaşdırılmasını ön plana çıxarmışdır. Bu baxımdan, qeyri-neft sektorunun inkişaf etdirilməsi strateji vəzifə kimi qarşıya qoyulmuşdur. Belə ki, qeyri-neft sektorunun ixrac potensialının artması, bu sahənin ixrac məhsulları hesabına ölkəyə valyuta daxil olmalarının həcminin yüksəlməsi əhəmiyyətli irəliləyiş kimi qiymətləndirilməlidir [1]. Qeyri-neft təmayüllü iqtisadiyyat sektorlarının ixrac potensialının gücləndirilməsi yerli emal sənayesinin inkişafına təkan verməklə yanaşı, onun strukturunun diversifikasiyalaşdırılmasına ciddi təkan verə bilər.

Azərbaycan iqtisadiyyatı bir müddət dünya maliyyə böhranın təsirlərinə qarşı güclü immunitet nümayiş etdirsə də, 2014-cü ildən başlayaraq, dünya bazarında neftin qiymətinin aşağı düşməsi səbəbindən ölkəmizin neft gəlirləri azalmağa başlamış və valyuta vəsaitlərinin ölkəmizə axını zəifləmişdi. Eyni zamanda, milli valyutanın – manatın devalvasiyası, ölkənin maliyyə-kredit sisteminin problemlərlə üzləşməsi və baş vermişdir. Ölkə Prezidentinin 29 dekabr 2012-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması və dünya miqyasında rəqabətə qadir olan iqtisadi sistemin yaradılması vacib hesab olunmuşdur. Həmin Konsepsiyada iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə və qeyri-neft sənayesininn inkişafına strateji baxışlar

formalaşdırılmış və əsas prioritetlər müəyyənləşdirilmişdir [2]. "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda qeyri-neft sektorunun və o cümlədən, qeyri neft sənayesinin inkişaf üçün nəzərdə tutulan tədbirlər geniş spektrdə baxılmışdır və əsas məqsəd - ölkəmizin sosial-iqtisadi tərəqqisini intensivləşdirməkdən ibarət olmuşdur. Bunlarla bərabər, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə milli iqtisadiyyatın müxtəlif sahələrinin yüksək texnologiyalar əsasında inkişafı istiqamətində yaxın və uzaq dövrü əhatə edən strateji hədəflər müəyyənləşdirilmişdir [3] Qeyri-neft sektorunun potensialının yüksəldilməsində kifayət qədər güclü ehtiyatlara malik olan, həmçinin Azərbaycan iqtisadiyyatı, onun sənaye sektoru üçün hələ sovetlər birliyi dövründən ənənəvi olan ağır sənaye və maşınqayırma sahələrinin strateji hədəflərinin müəyyənləşdirilməsi və bunlarla bağlı iri həcmli layihələrin reallaşdırılması prosesləri də diqqət çəkir. Ağır sənaye və maşınqayırmanın inkişafına dair strateji yanaşmalar öz əksini "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"ndə tapmışdır [4]. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və onun neftdən asılılığının azaldılması məsələləri kontekstində iqtisadi islahatların dərinləşdirilməsi və bu proseslərdə qeyri-neft sənayesinin diversifikasiyalaçdırılması bir zərurət kimi ortaya çıxmışdır. Belə ki, son illərdə ölkəmzidə iqtisadi inkişaf proseslərinin qlobal təsirdən yaranan vəziyyətə uyğun şəkildə təkmilləşdirilmək və yeniləmək kimi mürəkkəb vəzifələrin öhdəsindən gəlmək istiqamətində sistemli işlər aparılır. İqtisadiyyatın strukturu yenilənir və təkmilləşdirilir, eyni zamanda dünya təcrübəsidə səmərəliliyi ilə diqqət çəkən iqtisadi mexanizmlərin tətbiqi məsələlərinə də ciddi önəm verilməkdədir, ixrac potensialı artırılmaqdadır. Göründüyü kimi, son illərdə ölkənin qeyri-neft sektorunun, ilk növbədə, qeyri-neft sənayesinin inkişafına müasir strateji yanaşmalar diqqət çəkir. Ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılması və ixrac potensialının artırılması ilə bağlı qarşıya qoyulmuş vəzifələrin əhəmiyyətli bir hissəsini öhdəsindən gəlmək mümkün olmuşdur və son illərdə qeyri-neft sənayesinin iqtisadi artımda rolunun yüksəlməsi də bununla bağlıdır.

Qeyd edək ki, dövrün tələbləri və qlobal çağırışlar, ölkəmizin dünyada ilbəil artan nüfuzu, əksər beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın iqtisadi inkişafının yüksək qiymətləndirməsi qarşıya yeni strateji vəzifələr qoymuşdur. Bu vəzifələrin əsasında iqtisadiyyatın neft-qaz amilindən asılılığının əhəmiyyətli səviyyədə aşağı salınması, iqtisadiyyatın sabit və dinamik artım tempinin təmin edilməsi, bunun üçün qeyri-neft sənayesinin daha yüksək artan templə inkişafına nail olunması dayanır. Hazırkı dövrdə ölkəmizin iqtisadi inkişaf prioritetləri baxımından yeni situasiya və şərait yaranmışdır. Sosial və iqtisadi islahatlara başlanılmışdır. Bunlar yeni maliyyə mənbələrinin, gəlirlərin formalaşmasını tələb edir. Ölkəmizdə aparılan sosial-iqtisadi islahatların yeni dalğası məhz qeyri-neft sektorunda son illərdə əldə olunan iqtisadi artım və gəlirlərin hesabına aparılır, bu proseslərin daha da sürətləndirilməsi strateji vəzifələr kimi qarşıya qoyulmuşdur. Əsas vəzifə - qeyri-neft sektorunda yaradılmış münbit şəraitdən, sahibkarlığın inkişafına və biznes mühitinin yaxşılaşdırılmasına dövlət tərəfindən göstərilən dəstəklərdən, güzəştlərdən maksimum səmərəli istifadə olunmasından və iqtisadiyyatımızın neftdən asılılığının azaldılmasından ibarətdir. Təsadüfi deyildir ki, 2019-cu il oktyabrın 15-də ölkə Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlət başçısı qeyri-neft sektorunda verilmiş proqnozların özünü doğrultmamasına diqqət yetirmiş və bu sahədə görülən işlərin müqabilində iqtisadi artımın az olmasını qeyd etmişdir. Prezident İlham Əliyev demişdir: "...Biz çalışmalıyıq ki, iqtisadi artımımız dövlət xətti ilə aparılan xərclərə bağlı olmasın. Çünki bizim əsas iqtisadi artımımızın mənbəyi dövlət investisiya xərcləridir və açığını desək, qeyri-neft sektoruna xarici sərmayə az qoyulur. İndi

rəqəmlər də bunu göstərir ki, bu ildə qoyulan investisiyaların yarısı xarici investisiyalardır. Amma, onların qoyulduğu sahə qeyri-neft sektoru deyil, neft-qaz əməliyyatlarıdır" [5].

Fikrimizcə, qeyri-neft sektorunun inkişafı ilə bağlı proseslərə bu səviyyədə strateji yanaşması və mövcud problemlərin açıqlığı ilə qabardılması, ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənayesinin bundan sonrakı inkişafına əhəmiyyətli səviyyədə təsir göstərəcəkdir. Ölkəmizdə qeyri-neft sektorunun investisiya cəlbediciliyinin, iqtisadi artım və ixrac potensialının daha əyani baxılması üçün bir sıra təhlillərə diqqət yönəldək. Şəkil 1-dən göründüyü kimi, 2011-2018-ci illər ərzində xarici investisiyaların cəlbi o qədər də sabit olmamışdır və bu məslələrdə neft amili, neft-qaz sektoru prioritet olaraq qalmışdır. Qeyri-neft sektoruna cəlb edilən investisiyaların cəlbi o qədər də yüksək olmamışdır. Məsələn, 2011-ci ildə bu göstərici 900 mln. ABŞ dolları, 2017-ci ildə 800 mln. ABŞ dolları və 2018-ci ildə isə 970 mln. ABŞ dolları təşkil etmişdir. Qeyri-neft sektoruna cəlb olunan xarici investisiyaların ümumi ölkə üzrə xarici investisiyaların həcmində payı 2018-ci ildə 11,8 % səviyyəsində olmuşdur.



Şəkil 1. Azərbaycanda 2011-2018-ci illərdə xarici investisiyaların sahələr üzrə bölgüsü, mlrd. ABŞ dolları (ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/).

Şəkil 2-də Azərbaycanda 2005-2018-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının indeksləri verilmişdir və göründüyü kimi, emal sənayesində 2018-ci ildə 2017-ci ilə nisbətən artım diqqət çəkmişdir.



Şəkil 2. Azərbaycanda 2005-2018-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının indeksləri, əvvəlki ilə nisbətən, faizlə (ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/).

Şəkil 3-də isə Azərbaycanda 2005-2018-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının sturkturu verilmişdir və emal sənayesinin payı son illərdə azalma tendensiyası nümayiş etdirmişdir.



Şəkil 3. Azərbaycanda 2005-2018-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının sturkturu, ümumi yekuna görə, müvafiq illərin faktiki qiymətləri əsasında, faizlə (ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/).

2018-ci ildə qeyri-neft sektorunda 27,47 mlrd. dollarlıq məhsul istehsal olunmuşdur və onun 5,88 mlrd. dollarıı, yaxud 21,4 %-i qeyri-neft sənayesinin payına düşür.

Şəkil 4-də Azərbaycanda qeyri-neft sənayesinin ümumi buraxılışının strukturu verilmişdir



Şəkil 4. 2018-ci ildə Azərbaycanda qeyri-neft sənayesinin ümumi buraxılışın strukturu, faizlə (ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/).

Qısaca olaraq, Şəkil 4-ün təhlilinə baxsaq, görmək mümkündür ki, yüksək potensiala malik qeyri-neft emal sənayesi sahələrinin payı kifayət qədər aşağı səviyyədədir. Böyük imkanlara malik kimya sənayesinin payı cəmisi 5,2 %, metallurgiya və hazır metal məmulatlarının istehsalının payı isə 6,8 % təşkil edir.

Ölkə iqtisadiyyatının yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi prioritetləri qeyri-neft sənayesinin diversifikasiyalaşdırılmasında və ixrac potensialının yeni mənmbələrinin formalaşdırılmasında əlavə stimullar yaratmışdır. Texnoparklar çoxfunksiyalı iqtisadi fəaliyyət mexanzimləri kimi iqtisadiyyatın inkişafına müsbət təsir göstərməklə bərabər, xarici investisiyların və yüksək texnologiyaların transferi üçün kifayət qədər cəlbedici hesab olunurlar. Artıq Azərbaycanda texnopark institutunun inkişaf etdirilməsi prosesləri başlamışdır. Texnopaklarda alimlərin, ixtiraçıların, səmərələşdiricilərin, konstruktorların işlədikləri, əldə etdikləri, hazırladıqları texnoloji yeniliklər, kəşflər, ixtiralar, innovasiyalar sistemli və davamlı şəkildə istehsal proseslərinə tətbiq olunanadək vahid yanaşma vardır [6]. Texnoparklar müxtəlif fəaliyyət sahələrinin, o cümlıədən elm, istehsalat, maliyyə-investisiya qurumlarının, digər müəssisələrin qarşılıqlı fəaliyyətini təmin edən məhsuldar fəaliyyət ərazisidir. Texnoparklarda müxtəlif istehsal sahələrinin təşkili, elmi işləmələrin və ixtiraların istehsal proseslərinə tətbiqi daha səmərəli şəkildə həyata keçirilir və bu kimi fəaliyyət zonalarına xarici investorların marağı kifayət qədər yüksək olur [7]. Digər tərəfdən, texnoparklar çoxfunksiyalı fəaliyyət mexanizmləri kimi daha çox diqqət çəkirlər, sahibkarlığın inkişafında və biznes-proseslərinin səmərəliliyinin artırılmasında önəmli rol oynayırlar. Texnoparklar hesabına artım mənbələrinin formalaşdırılması ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılması ilə bərabər, neftdən asılılığının minimuma endirilməsi üçün daha əlverişli şərait yaradır. Bu proseslərdə texnoparklarda dövlət dəstəyi mexanizmlərinin olması, 10 il müddətinə vergi güzəştlərinin tətbiq edilməsi sahibkarlıq və biznes subyektələrinin səmərəli fəaliyyət göstərmələrinə imkan verir [8].

Texnoparklrala yanaşı, sənaye parklarının inkişafının intensivləşdirilməsi, eyni zamanda ölkəmizdə innovatik inkişafın sürətləndirilməsinə müsbət təsir göstərməkdədir. Amma, bunun üçün mövcud təşkilati-iqtisadi mexanizmlərin səmərəliliyinin yüksəldilməsi təmin olunmalıdır. Sənaye parklarının yaradılmasına başlanması bəzi parametrlər baxımından mühüm önəm kəsb edir, belə ki xarici ölkələrin təcrübələrindən yanaşsaq, sənaye parkları sahibkarlığı dəstələmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək imkanına. Sənaye zonalarınını yaradılması və inkişaf innovatik proseslərin inkişaf etdiyi bir proseslə gedir. Bu zonalar həm yerli, həm də xarici investorlar üçün kifayət qədər cəlbediciliyi ilə fərqlənir. Sənayeləşmə siyasətinin özü də innovasiyaların iqtisadiyyatda təqidi və yaradılan əlavə dəyərin təsiri ilə dəyişikliklərə məruz qalaraq zamanla yenilənməyə məcburdur. Yəni, innovasiya əsaslı iqtisadiyyata sahib olmaq istəyən dövlət davamlı olaraq innovasiyaları təqib etməli, başqa dövlətlərin təcrübələrini öyrənməli və innovasiyaların iqtisadiyyatda tətbiqinə münbit şərait yaratmalıdır. Dövlət sənaye parkları vasitəsi ilə özünün innovasiya siyasətini təkmilləşdirə, iqtisadiyyatın innovasiyalaşdırılmasında, innovasiyayönlü məhsulların istehsalı hesabına iqtisadi artımın məhsuldar mənbələrinin formalaşaıdırlmasında yüksək nəticələr əldə etməyə imkan yaradar.

Azərbaycanın qeyri-neft sənayesinin inkişafında Sumqayıt sənaye mərkəzinin xüsusi rolu vardır. Son illərdə bu sənaye mərkəzində rəqabətqabiliyyətli və ixracyönlü qeyri-neft sənaye məhsul istehsalı artmaqdadır. Şəkil 5-də 2018-ci ilin yekunu üzrə Sumqayıtın sənaye potensialının strukturu verilmişdir və ixracyönlü əsas qeyri-neft sənaye sektoru kimi kimya sənayesinin payı 24,4 %-ə yaxındır. Lakin güclü potensiala malik olan metallurgiya sənayesinin payı onun potenasilaına uyğun deyildir və bu istiqamətdə görülən işlərin sürətləndirilməsi vacibdir.



Şəkil 5. Sumqayıtın sənaye potensialının mövcud strukturu, 2018-ci il, %-lə (rəsmi məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır).

Qeyri-neft sənayesində istehsal və ixrac potensialının artırılmasında, son illərdə SOCAR tərəfindən istismara verilən qurğuların və iri zavodların rolu artmaqdadır. SOCAR – Karbamid və SOCAR Polimer zavodlarında gübrələr, polipropilen, həmçinin xətti-polietilen istehsalatları işə düşmüşdür və onların istehsal gücləri səviyyəsində xammalla təminatı strateji əhəmiyyət kəsb edir. Bu xammallar Sumqayıtda "Etilen-Polietilen" zavodunda – "EP-300" qurğusunda istehsal olunur, amma, həmin qurğunun xammalla təminatı layihə gücündən xeyli aşağıdır. Şəkil 6-da 2010-2018-ci illərdə Sumqayıt "Etilen-Polietilen" zavodunda xammal təminatı göstəriciləri verilmişdir və 2014-2018-ci illərdə xammal təminatı eyni səviyyədə qalmışdır.



Şəkil 6. "Azərikimya" İB-nin Sumqayıt "Etilen-Polietilen" zavodunun 2013-2018-ci illər üzrə xammal təminatı göstəriciləri (zavodun hesabatları əsasında hazırlanmışdır).

Şəkil 7-də isə Sumqayıt "Etilen-Polietilen" zavodunda 2010-2018-ci illərdə əsas kimya məhsullarının istehsalının dinamikası verilmişdir və xammal təminatında artım olmadığından bu strateji məhsulların istehsalında artım təmin edilməmişdir.



	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018
Etilen	55	77	69.2	78.5	104	106.7	103.4	96.1	98.9
Polietilen	53.5	74.5	67.1	76.2	101	103.5	100.3	93.5	96.4
Propilen	28.6	40.2	35	40.9	56.5	56.4	52.2	48.6	56.3

Şəkil 7. Sumqayıt "Etilen-Polietilen" zavodunda əsas kimya məhsullarının istehsalının dinamikası, min ton, 2010-2018-ci illər (zavodun hesabatları əsasında hazırlanmışdır).

Qeyd edək ki, qeyri-neft sənayesinin inkişafında mühüm məsələlərdən biri də - onun ixrac potensialının artırılmasından ibarətdir, bu isə öz növbəsində qeyri-neft ixracının artımı deməkdir. Belə ki, Sumqayıt Kimya Sənaye Parkının rezidentləri olan "SOCAR Polymer" və "SOCAR karbamid"də yeni yaradılmış ixrac potensialı orta illik 400 mln. ABŞ dolları səviyyəsində qiymətləndirilir [9]. Şəkil 8-də 2018-ci ilin yekununda Azərbaycanda ixracın quruluşu verilmişdir və göründüyü kimi, mineral yanacağın ixracda payı kifayət qədər yüksəkdir – 91,9 %, iri ixrac potensialına malik qeyri-neft sənayesi sahələrindən olan kimya və neftkimya kompleksinin payı isə xeyli aşağıdır.



Şəkil 8. Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2018-ci il üçün ixracın quruluşu, %-lə (ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/).

Strateji yanaşma kimi, yerli istehsalın artırılması hesabına ixrac potensialının gücləndirilməsi və qeyri-neft sənayesinin istehsal həcminin artırılmasını vacib sayırıq. Bundan əlavə, ölkəyə 2017-2018-ci illərdə 128 mln. ABŞ dolları həcmində rezin şinlər, 42 mln. ABŞ dolları həcmində vinilxlorid polimerləri, 96 mln. ABŞ dolları həcmində etilen polimerləri, 61,5 mln. ABŞ dolları - propilen polimerləri, 130 mln. ABŞ dolları - sintetik yuyucu maddələr, 145 mln. ABŞ dolları - mineral gübrələr və s. idxal olunmuşdur. İdxal olunmuş neftkimya məhsullarının əksəriyyətinin ölkəmizdə istehsal olunma potensialı vardır və bu baxımdan həmin istehsal sahələrinin ölkəmizdə təşkil olunması qeyri-neft sənayesinin ixrac potensialını artıra bilərdi.

Beləliklə, Azərbaycanda qeyri-neft sənayesinin diversifikasiyalaşdırılması və ixrac potensialının artırılması potensialının yüksək olduğunu qeyd etmək mümkündür. Əsas strateji məsələ - bu potensialdan səmərəli istifadə olunmasıdır və bunun üçün bir sıra strateji tədbirləri və fəaliyyət istiqamətlərini ümumiləşdirməyi vacib saymışıq:

- qeyri-neft sənayesinin diversifikasiyalaşdırılması və ixrac potensialının artırılması məqsədilə, müasir dövrün çağırışlarına adekvat olan strateji yanaşmalar və yeni hədəflər müəyyənləşdirilməli, ən azından 2025-ci ilədək əsaslandırılmış proqnozlar, fəaliyyət proqramları və tədbirlər kompleksinin hazırlanması və gecikdirilmədən icrasına başlanılması təmin olunmalıdır;
- diversifikasiyalaşdırılmış iqtisadiyyata nail olmaq və bu proseslərdə qeyri-neft sənayesinin rolunu artırmaq üçün başlanılan şəffaflıq və hesabatlılıq tədbirləri, prinsipləri daha da dərinləşdirilməli və sağlam rəqabət mühiti təmin olunmalıdır;
- ölkənin əsas qeyri-neft sənayesi mərkəzi olan Sumqayıtda fəaliyyət göstərən müəssisələrin xammal təchizatının balanslaşdırılması, xammal və hazır məhsul axınlarının hərəkətinin və onlardan istifadənin səmərəli təmin edilməsi, bazar iqtisadiyyatı prinsiplərinə uyğun çevik kommersiya mexanizmlərinin yaradılması məqsədilə, Sumqayıt sənaye logistika mərkəzinin təşkili məsələsinə baxılmalıdır;
- qeyri-neft sektorunun sürətli və dayanıqlı inkişaf etdirilməsi, diversifikasiyalaşdırılması, o cümlədən, qeyri-neft sənayesinin kompleks və sistemli inkişafı üzrə tədbirlərin görülməsi, yüksək texnologiyalar əsaslı yeni istehsal güclərinin yaradılması, qeyri-neft sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsi və ixrac potensialının əhəmiyyətli səviyyədə artırılması məqsədilə, "Azərbaycanda qeyri-neft sənayesi sahələrinin rəqabətqabiliyyətinin artırılması və innovasiyalaşdırılması Dövlət Proqramı"nın (2020-2025-ci illər) hazırlanması və həyata keçirilməsini məqsədəuyğun sayırıq və s.

Ədəbiyyat

1. Əliyev Ş.T. Azərbaycanın maliyyə resurslarının və sənaye-ixrac potensialının artırılmasında texnoparkların əhəmiyyəti//Maliyyə və uçot, №6, 2015, s.47-53.

2. Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-cı il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2012, 39 s.

3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

4. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il-cı il tarixli Fərmanı ilə təsdiq olunmuşdur.

5. İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib. 15 oktyabr 2019. https://president.az/articles/34450.

6. Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı, Təknur, 2018, 552 s.

7. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.

8. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib.

9. Əliyev Ş.T. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt, Azəri nəşriyyatı, 2019, 368 s

Резюме

Алиев Ш.Т.

Вопросы диверсификации ненефтянной промышленности и экспортного потенциала Азербайджана

В статье исследованы вопросы диверсификации ненефтянной промышленности и экспортного потенциала Азербайджана. Анализировано современное состояние, направления развития и структура ненефтяного сектора. Исследованы индексы и структура промышленного производства по видам экономической деятельности. Раскрыта сущность осуществляемых мероприятий по минимизации зависимости от нефтяного фактора, анализированы стратегические задачи ненефтяного сектора. Рассмотрены проблемы эффективного использования промышленного парка и анализированы возможности Сумгайытского Химического промышленного парка. Рассмотрены вопросы обеспечения сырьем и динамика производства основной химической продукции в одном из самых крупных промышленых перерабатывающих предприятий - на Сумгайытском заводе «Этилен-Полиэтилен». Подготовлены рекомендации и даны предложения по вопросам диверсификации ненефтянной промышленности и экспортного потенциала Азербайджана.

***Ключевые слова**: ненефтяной сектор, ненефтяная промышленность, диверсификация, экспортный потенциал, промышленый сектор, завод «Этилен-Полиэтилен».*

Summary

Aliev Sh.T.

Issues of diversification of non-oil industry and export potential of Azerbaijan.

Issues of diversification of non-oil industry and export potential of Azerbaijan are explored in the article. The current state, directions of development and structure of the non-oil sector are analyzed for this purpose. The indices and structure of industrial production by type of economic activity are investigated then. Essence of implemented measures to minimize dependence on oil

factor, strategic tasks of non-oil sector are given. The problems of efficient use of the industrial parks and the capabilities of Sumgait Chemical Industrial Park are analyzed too. Issues of raw materials supply and dynamics of production of the main chemical products in one of the largest industrial processing enterprises - at Sumgait "Ethylene-Polyethylene" plant are considered. Recommendations and proposals on diversification of non-oil industry and export potential of Azerbaijan are given in the end of the article.

Keywords: *non-oil sector, non-oil industry, diversification, export potential, industrial sector, "Ethylene-Polyethylene" plant.*

XARİCİ TİCARƏTDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ƏSAS GÖSTƏRİCİLƏRİ

Əzizova Kəmalə Vaqif qızı
Sumqayıt Dövlət Universiteti
ilqarosmanov1975@mail.ru

Xülasə: *Məqalədə iqtisadi təhlükəsizliyin vacib istiqamətlərindən biri kimi xarici iqtisadi təhlükəsizlik problemləri araşdırılmışdır. Ölkənin xarici iqtisadi təhlükəsizliyini səmərəli şəkildə təmin etmək üçün mövcud və potensial təhdidlər, onların kəmiyyət və keyfiyyət göstəriciləri tədqiq edilmişdir. Həmçinin xarici ticarətin inkişaf tendensiyalarının qiymətləndirilməsində ən vacib göstəricilər olan ixrac, idxal və xarici ticarət dövriyyəsinin həcmi və dinamikası ölkəmizin timsalında təhlil edilmişdir.*

Açar sözlər: *xarici ticarət, iqtisadi təhlükəsizlik, idxal, ixrac, göstərici, qiymətləndirmə*

Uzunmüddətli dünya təcrübəsi göstərir ki, dövlətin gücü və milli təhlükəsizliyi ilk növbədə ölkə iqtisadiyyatının vəziyyəti, dünya bazarlarında rəqabət qabiliyyəti ilə xarakterizə olunur. İqtisadiyyat nə qədər sabit, rəqabətə davamlıdırsa, iqtisadi təhlükəsizliyi də o qədər yüksəkdir. Aydındır ki, iqtisadi təhlükəsizliyin ən vacib elementi dövlətin xarici iqtisadi təhlükəsizliyi, yəni digər güclərə münasibətdə bütün sistemlərinin müstəqilliyi və dayanıqlığıdır. Xarici iqtisadi təhlükəsizlik ölkədə iqtisadi sabitliyin və cəmiyyətin inkişafı, bütün alt sistemlərin (pul, büdcə, kredit, vergi və valyuta sistemləri daxilində) bütövlüyü və birliyini qorumaq üçün lazımi şərait və ehtiyatlar yaradan iqtisadi inkişaf prosesinin təmin edilməsidir.

Xarici iqtisadi təhlükəsizlik, eləcə də ümumilikdə iqtisadi təhlükəsizlik mürəkkəb bir sistemdir və bir sıra funksional bir-biri ilə əlaqəli blokları əhatə edir:

- xarici iqtisadi təhlükəsizliyin təmin edilməsi konsepsiyası; - xarici iqtisadi fəaliyyət sahəsində milli maraqlar və ölkənin beynəlxalq əmək bölgüsü sistemindəki mövqeyi; - xarici iqtisadi fəaliyyət sahəsində təhdidlər; - xarici iqtisadi fəaliyyətin göstəriciləri; - xarici iqtisadi təhlükəsizliyin təmin olunmasının təşkili; - xarici iqtisadi fəaliyyətin hüquqi təminatı [2].

Ölkənin xarici iqtisadi təhlükəsizliyini səmərəli şəkildə təmin etmək üçün mövcud və potensial təhdidləri, onların kəmiyyət və keyfiyyət göstəricilərini, fəaliyyətin əsas sahələrini müəyyənləşdirmək üçün konkret tədbirləri hazırlamaq, təhlükəsizliyin dövlətin prioriteti olduğunu nəzərə alaraq qərar qəbul etmə mexanizmini yaratmaq lazımdır [4].

Xarici iqtisadi sahədə təhlükəsizlik səviyyəsini qiymətləndirmək üçün üç qrup göstəriciləri ayırmaq olar: - ixrac və idxalın həcmi və artım tempi; - ixrac və idxalın əmtəə-coğrafi quruluşu; - valyuta ehtiyatlarının həcmi və ölkənin xarici borcu. Bu göstəricilərin dinamikası milli

iqtisadiyyatın inkişafı üçün zəruri olan xarici investisiyaların cəlb olunmasına təsir göstərir və makroiqtisadi sabitliyi xarakterizə edir. İxrac-idxal fəaliyyətinin inkişafı kontekstində ölkənin iqtisadi təhlükəsizliyini qiymətləndirmək üçün xarici ticarət əməliyyatlarının kəmiyyət tərəfini əks etdirən göstəricilər sistemi istifadə olunur.

Xarici ticarətin inkişaf tendensiyalarının qiymətləndirilməsində ən vacib göstəricilər ixrac, idxal və xarici ticarət dövriyyəsinin həcmi və dinamikasıdır. Xarici ticarət dövriyyəsi, müəyyən müddətə bir ölkənin bütün ixrac və idxalının məcmusudur. Qeyd etmək lazımdır ki, bir ölkənin iqtisadi təhlükəsizliyini qiymətləndirmək üçün yalnız ixrac və idxalın fiziki həcmlərini deyil, həm də məhsulların strukturunu və coğrafi (keyfiyyət göstəricilərini) vəziyyətini də nəzərə almaq lazımdır [3].

Xarici ticarətin inkişafı kontekstində iqtisadi təhlükəsizliyin qiymətləndirilməsində növbəti vacib göstərici xarici ticarət balansdır. İqtisadi təhlükəsizlik baxımından milli istehsalçıların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin azalması ilə əlaqəli olduqda mənfi ticarət balansı əlverişsiz amildir. Milli istehsalçıların rəqabət qabiliyyətinin artması hesabına əldə olunan müsbət saldo ölkənin ixracatdan valyuta gəlirlərinin aldığını və dünya iqtisadiyyatına effektiv inteqrasiya olunduğunu göstərir. Qeyd edək ki, dünya iqtisadiyyatının inkişaf tendensiyalarının təhlili bilik tələb edən sahələrin sürətlə inkişaf etdiyini göstərir. Belə bir şəraitdə dünya bazarına xammal və yarımfabrikatlar tədarükü ölkənin inkişaf etmiş sənaye cəmiyyətinin başlanğıcına daxil olması üçün perspektiv yollardan sayılır. Bunun üçün ixrac yönümlü orta və xüsusilə yüksək texnologiyalı istehsal artırılmalıdır. Bu məhsulların ixracı ölkəni böyük sabit valyuta qazancı ilə təmin edəcəkdir.

Digər bir vacib göstərici ixracın artım tempidir. Bu göstərici iqtisadi təhlükəsizliyin qiymətləndirilməsində vacibdir. Çünki bu, ixracın həqiqi vəziyyətini müəyyənləşdirməyə və gələcəkdə onun dinamikasını proqnozlaşdırmağa imkan verir. Bundan əlavə, ölkə iqtisadiyyatının xarici ticarətdən asılılığını xarakterizə edən bir sıra göstəricilər istifadə olunur. Bunlara ixrac və idxal kvotaları daxildir. İqtisadi təhlükəsizlik baxımından ixracın və idxalın ÜDM-də payının artmasını iki yolla qiymətləndirmək olar. Bir tərəfdən ixracatın artması, iqtisadiyyatın daha da kapitallaşdırılması məqsədilə vacib olan maşın və avadanlıqların idxalı üçün istifadə olunan maliyyə mənbələrinin axınıdır, digər tərəfdən bu göstəricinin dəyərinin artması ölkənin xarici ticarətdən və buna görə dünyadan artan asılılığını göstərir. İqtisadi təhlükəsizliyi qiymətləndirmək üçün istifadə olunan ikinci qrup göstərici xarici ticarətin keyfiyyətini əks etdirir. Bunlara ixrac və idxalın əmtəə-coğrafi quruluşu, müəyyən növ məhsulların idxalının daxili istehlak və istehsalda payı, ixracat və idxalda ənənəvi malların payı, ixracın əmtəə quruluşunda yüksək texnoloji məhsulların xüsusi çəkisi və s. aiddir.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi üçün təklif etdiyimiz növbəti göstərici ixracın kiloqram qiyməti, ixrac olunan məhsulların 1 kq çəkisi üçün xarici valyuta daxilolmalarının həcmidir. Hazır məhsul ixracının qiymətləndirilməsində bu göstərici istifadə olunmalıdır. Çünki, iqtisadi təhlükəsizlik baxımından xammal tədarükünün artması ölkənin dünya bazarından asılılığını göstərir. İxrac-idxal fəaliyyəti kontekstində iqtisadi təhlükəsizliyi qiymətləndirmək üçün, eyni zamanda ixrac və idxal strukturunda ənənəvi malların payını göstəricisindən də istifadə etmək məqsədəuyğundur. Bu göstəricilərin təhlili idxalı əvəz edən və ixrac yönümlü istehsalın vəziyyəti barədə nəticə çıxarmağa imkan verir. İqtisadi müstəqillik baxımından ənənəvi malların istehsalının payı baxımından, onların maksimum azaldılması və yerli idxal əvəzedici istehsalın inkişafı məqsədəuyğundur. İxrac strukturunda onların payı artırılmalıdır, çünki ənənəvi olaraq ölkədə bu malların istehsalı üçün güclü xammal bazası və istehsal təcrübəsi mövcuddur.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsində istifadə olunan digər mühüm göstərici ticarət xidmətlərinin ixrac-idxaldakı payıdır. Kommersiya xidmətlərinə turizm, nəqliyyat, audit, sığorta və s. kimi xidmətlər daxildir. Bu xidmətlərin dəyərinin ixrac strukturundakı payının artması dövlət büdcəsinə əlavə valyuta qazancını təmin edir. İdxalın artması sağlam rəqabəti stimullaşdırır və bu xidmətlər yerli istehsalçılara daima məhsullarının keyfiyyətini artırmağa və qiymətləri aşağı salmağa məcbur edir. Xarici ticarətdə iqtisadi təhlükəsizliyi qiymətləndirmək üçün ixrac-idxal əməliyyatlarını kimin həyata keçirdiyini də nəzərə almaq lazımdır. Bu kontekstdə xarici investisiya qoyuluşu olan və yerli müəssisələrin ixrac-idxalda payı kimi göstəriciləri ayırd edə bilərik.

Aşağıdakı cədvəl vasitəsilə Azərbaycanın xarici ticarət dövriyyəsini təhlil edək.

Cədvəl

Azərbaycanın xarici ticarət dövriyyəsi, mln.ABŞ dolları [1]

	2014	**2015**	**2016**	**2017**	**2018**
Xarici ticarət dövriyyəsi	39407,5	25809,0	21596,6	24263,8	31755,9
İxrac	30219,8	16592,3	13107,5	15480,5	20290,9
İdxal	9187,7	9 216,7	8489,1	8783,3	11465,0
Ticarət saldosu	21032,1	7375,6	4618,4	6697,2	8825,9

Cədvəl məlumatları göstərir ki, 2018-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 31755,9 mln.ABŞ dolları təşkil etmişdir ki, bunun da 20290,9 mln.ABŞ dollarını və yaxud 63,9%-ni ixrac, 36,1%-ni isə idxal təşkil etmişdir. Ticarət saldosu isə +8825,9 mln.ABŞ dolları təşkil etmişdir.

İqtisadi artım baxımından yerli istehsalın inkişafı üçün xarici investisiyaların cəlb edilməsi zəruridir. Xarici investisiyaların cəlb edilməsi yerli müəssisələrə nisbətən bir sıra üstünlüklərə malikdir: müasir texnologiyalardan istifadə olunur, bu müəssisələrdə işçi qüvvəsinin dəyəri daha yüksək olur, dünya bazarında rəqabətə davamlı hazır məhsullar istehsal edə bilirlər və s.

İnkişaf etməkdə olan ölkələr milli iqtisadiyyatını inkişaf etdirmək üçün xarici investisiya cəlb edir və xarici borclara müraciət edirlər. Belə ölkələrə verilən xarici kreditlərin həcmi fərqlidir və beynəlxalq maliyyə təşkilatlarının mövqeyindən, ölkənin kredit reytinqindən və digər amillərdən asılıdır. Xarici kreditlərin əksəriyyəti beynəlxalq ticarət də daxil olmaqla bu iqtisadi fəaliyyətin stimullaşdırılmasına yönəldilir. Öz növbəsində ölkənin ixrac həcmi onun investisiya cəlbediciliyinə təsir göstərir. Yuxarıda göstərilənlərə əsasən, iqtisadi təhlükəsizliyi qiymətləndirmək üçün valyuta ehtiyatların vəziyyətini və ölkənin xarici borcunu təhlil etmək lazımdır. Bunun üçün ən yüksək qiymətləri qlobal səviyyədə müəyyən edilən müxtəlif göstəricilər istifadə olunur. Bunlardan ən çox yayılanları xarici borcun ÜDM-ə, ixracata, xidmət xərclərinin ixracına, ölkənin rəsmi ehtiyatlarının idxalına nisbəti kimi göstəricilərdir. Ümumiyyətlə, xarici iqtisadi təhlükəsizliyin effektiv bir sistemini qurmaq üçün ən təhlükəli təhdidləri müəyyənləşdirmək lazımdır. Bu təhdidləri qiymətləndirərkən həm müəyyən kompleks sistemlərdən istifadə etmək, həm də konkret göstəricilərlə yaxın əlaqəni müəyyənləşdirmək zəruridir.

Ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2019, 788 s.

2. Колосов А., Кушлин В., Фоломьев А. и др. Экономическая безопасность хозяйственных систем. М.: РАГС, 2001, с. 181–195

3. Шоев А. Х. Основные показатели экономической безопасности во внешнеторговой деятельности. Молодой ученый, 2019, №7, с. 71-74.

4. Сенчагов В.К. Экономическая безопасность: геополитика, глобализация, самосохранение и развитие. М.: Фин-статинформ, 2004, с. 167.

Резюме

Азизова К.В.

Основные показатели экономической безопасности во внешней торговле

В статье рассматриваются проблемы внешнеэкономической безопасности как важнейшее направление экономической безопасности. Исследуется возможные потенциальные угрозы эффективному обеспечению внешнеэкономической безопасности страны, их количественные и качественные показатели. А также на примере нашей стране анализируются важнейшие показатели экспорта, импорта и внешнеторгового оборота, их объем и динамика которые используются в оценке тенденций развития внешней торговли.

Ключевые слова: *внешняя торговля, экономическая безопасность, импорт, экспорт, индикатор, оценка*

Summary

Azizova K.V.

Key Indicators of Economic Security in Foreign Trade

The article considers the problems of foreign economic security as the most important area of economic security. Possible potential threats to the effective provision of the country's foreign economic security, their quantitative and qualitative indicators are investigated. And also, using the example of our country, we analyze the most important indicators of export, import and foreign trade turnover, their volume and dynamics that are used in assessing the development trends of foreign trade.

Key words: *foreign trade, economic security, import, export, indicator, valuation*

DÜNYA BANKININ "DOİNG BUSİNESS" HESABATINDA AZƏRBAYCANIN REYTİNQ VƏ GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ

Həsənov Əbdül-Səməd Həsənağa oğlu

AMEA-nın İqtisadiyyat İnstitutu

sam_5az@yahoo.com

Xülasə: *Məqalə çox vacib bir problem - Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın mövqeyinin təhlilinə həsr olunmuşdur. Respublikanın bu hesabatda reytinq və göstəriciləri təhlil edilib, müəllifin tövsiyyələri irəli sürülüb.*

Açar sözlər: *biznes-mühit, reytinq, sahibkarlıq, indeks, indikator, Dünya Bankı, hesabat*

"Biznesin aparılması" məruzəsi (ingilis dilində Doing business Report) – 10 indikator əsasında 190 ölkədə sahibkarlıq fəaliyyətinin sadəliyini qiymətləndirən Dünya Bankı qrupunun illik tədqiqatıdır. Məruzə kiçik və orta müəssisələrin bütün həyat tsiklləri ərzində fəaliyyətlərini tənzimləyən normativ aktların qiymətləndirilməsi və təcrübədə tədbiqi qaydalarının qiymətləndirilməsinə həsr olunur.

Bu məruzələr 2003-cü ildən, əsasən də payızda tərtib edilir. 2005-ci ildən (Doing Business 2006) məruzəyə biznesin aparılmasının sadəliyi üzrə dünya ölkələrinin reytinqi daxil edilib, 2006-cı ildən isə (Doing Business 2007) dövlətlər indikatorlar üzrə də təsnifləşdirilir.

Bundan başqa Doing Business tədqiqatı nəinki sahibkarlığın inkişafına mane olan problemlərə işarə edir, o həm də bu problemlərin səbəblərini müəyyən edib, lazımi islahatların aparılmasına tövsiyyələr edir.

Biznesin aparılmasının sadəliyi indeksi (ing. dilində - Ease of Doing Business İndex) – illik məlumatlar əsasında Dünya Bankı tərəfindən ölkələr arasında sahibkarlıq fəaliyyəti sadəliyinin müqayisəsi üçün indeksdir.

Burada yüksək qiymətlər biznesin tənzimlənməsinin keyfiyyəti və sadəliyi və əmlak hüquqlarının qorunması keyfiyyətinə şahidlik edir.

İndeksin qurulmasının məqsədi iqtisadi artıma dövlətin biznesi tənzimlənməsi təsirinin tədqiqatlarını məlumatlarla təmin edilməsidir. Bu layihənin əvvəlindən, 2001-ci ildən 800-dən artıq elmi tədqiqatlar nəşr edilib və bunlarda, indeksdə təklif edilən, bir və ya bir neçə indikatordan istifadə olunmuşdur. Tədqiqatların nəticəsi biznesin aparılması qaydaların yaxşılaşması və iqtisadi artım arasında güclü əlaqələrin olmasına işarə edir. Bir faktı da qeyd etməliyik ki, hesabatın aparılmasının 16 ili ərzində müxtəlif ölkələrdə 3500 islahat tətbiq olunub.

Başqa oxşar tədqiqatlardan fərqli olaraq, biznesin aparılmasının sadəliyi indeksi, sahibkarlıq fəaliyyətinin apaılmasına dair qanun, sərəncam və qaydaların öyrənilməsi və kvantifikasiyasına əsaslanır. İndeks infrastruktur, infilyasiya, cinayətkarlıq biznesin gəlirliyi və s. kimi daha ümumi şərtləri nəzərə almır.

Ümumi indeks 10 daxili indikatorlara əsaslanır:

1. Müəssisələrin qeydiyyatı – müəssisə yaratmaq üçün prosedurlar, vaxt, xərclər və minimal kapital;
2. Tikintilərə icazələrin alınması – prosedurlar, vaxt və anbar tikintisinə xərclər;
3. Elektrik təchizatı şəbəkələrinə qoşulma – elektrik təchizatını almaq üçün prosedur, vaxt və xərclər;
4. Əmlakın qeydiyyatı – kommersiya daşınmaz əmlakının qeydiyyatı üçün prosedur, vaxt və xərclər;
5. Kreditlərin alınması – qanuni hüquqların gücü və kredit informasiyalarının dərinliyi;
6. Minoritar investisiyaların qorunması – maliyyə göstəricilərinin açıqlığı, rəhbərliyin cavabdehliyi və investorlar tərəfindən məhkəmə iddialarının sadəliyi;
7. Vergi qoyma – vergilərin sayı, vergi hesabatlarının hazırlığı üçün vaxt, ümumi vergi mənfəətin payı kimi;
8. Beynəlxalq ticarət – ixrac cə idxal üçün lazım olan sənədlərin sayı, xərclər və vaxt;
9. Kontraktların icrasının təmin olunması – borcların ödənilməsini təmin etmək üçün prosedur, vaxt və xərclər;
10. Müəssisənin bağlanması – müflis olmuş şirkətin bağlanması üçün ödənişlərin faizi, vaxt və əlavə xərclər.

Qeyd edildiyi kimi, birinci reytinq 2005-ci ildə təqdim edilmiş və 2006-cı ilin əvvəlinə olan məlumatları özündə əks etdirmişdir. 2007-2016-cı illərdə reytinqə Sinqapur başçılıq etmişdir, 2017-ci ildən isə Yeni Zelandiya yenidən özünə liderliyi qaytarmışdır (birinci dəfə 2006)[2]

Azərbaycan Respublikası da bu hesabatda vardır və ilbəil islahatlar aparıb, reytinqini artırır və bunun nətisəində də özünün iqtisadi təhlükəsizliyini gücləndirir.

Cədvəl 1

Azərbaycan Respublikasının Dünya Bankının "Doing Business" hesabatında 2006-2020-ci illər üzrə reytinqinin dinamikası.

İllər	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
Azərbaycan	98	99	96	33	38	54	66	67	70	80	63	65	57	25	34

Cədvəldən göründüyü kimi, Azərbaycan Respublikası son illər böyük irəliləyiş əldə edib. Belə ki, "Doing Business" hesabatının 2006-2020-ci ilin tədqiqatlarından göründüyü kimi, respublikamız 190 ölkə arasında 98-ci pillədən 34-cüyə yüksəlmişdir. Ayrı-ayrı illərdə də yaxşı nəaliyyətlər əldə edilmişdir və ölkəmiz Dünya Bankının "Doing Business" hesabatında yüksək yerləri tutmuşdur. Məsələn, 2019-cu ildə - 25-ci yeri, 2009-da – 33-cü, 2020-də - 34-cü, 2010-da - 38-ci yeri və s. Respublikamız üçün nisbətən aşağı yerləri tutmaq, 2006-2008-ci illərdə müşahidə edilmişdir, müvafiq olaraq: 2006 – 98, 2007 – 99, 2008 – 96-cı yerlər. Son illərdə bu reytinqdə irəliləmələr Azərbaycanda aparılan davamlı islahat proseslərinin nəticəsidir.

Cədvəl 2

Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın 2019-2020-ci illərdə reytinqi və göstəriciləri

İndikatorlar	Doing Business 2020. Reytinq	Doing Business 2019. Reytinq	Doing Business 2020. Göstərici	Doing Business 2019. Göstərici	Göstəricidə dəyişiklik (%)
Qlobal	34	25	76,7	73,6	↑ 3,1
Müəssisələrin qeydiyyatı	9	9	96,2	96,1	↑ 0,1
Tikintilərə icazənin alınması	59	61	73,4	73,1	↑ 0,3
Elektrik təchizatı şəbəkələrinə qoşulma	80	74	77,3	77,3	..
Əmlakın qeydiyyatı	44	17	75,4	72,2	↑ 3,2
Kreditlərin alınması	1	22	100	80,0	↑20
Minoritar investorların qorunması	105	2	50,0	46,0	↑ 4
Vergi qoyma	40	28	84,0	84,6	↓0,6
Beynəlxalq ticarət	83	84	77,0	77,0	..
Kontraktların icrasının təmin olunması	28	40	70,3	65,7	↑4,6
Müəssisənin bağlanması	47	45	63,5	63,8	↓ 0,3

Mənbə[1; 2]

Cədvəldən göründüyü kimi, 2020-ci ildə respublikamız, qlobal olaraq, 9 pillə geriləyərək, 25-ci yerdən (2019-cu il) 34-cü yerə çəkilib. Azərbaycan dünyanın islahat aparan ölkələrinin sırasında qərarlaşıb .

Reytinqdəki 10 indikatordan 4-ü üzrə irəliləyiş olub, 5 indikator üzrə geriləmə baş verib, belə ki, "Elektrik təchizatı şəbəkələrinə qoşulma"-da 74-dən 80-ə, "Əmlakın qeydiyyatı"-17-dən

44-ə, “Minoritar investorların qorunması”-2-dən 105-ə, “Vergi qoyma”-28-dən 40-a, “Müəssisələrin bağlanması” indikatoru üzrə 45-ci yerdən 47-yə yerini dəyişib.

Çox sevindirici haldır ki, “Kreditlərin alınması” indikatoruna görə Azərbaycan dünyada 1-ci yerə yüksəlib, “”Müəssisələrin qeydiyyatı” indikatoru üzrə isə 2019-cu ildə olduğu kimi stabil olaraq 9-cu yerdə, yəni birinci onluqda qərarlaşıb.

Faiz göstəricilərini təhlil edəndə görürük ki, 2020-ci ildə 10 indikatordan 6-sı üzrə irəliləyiş var, 2 indikator stabil olaraq qalıb, 2-si üzrə isə: “Vergi qoyma” 0,6% və “Müəssisənin bağlanması üzrə” 0,3% azalma baş verib.

Ümumi qlobal göstəriciyə görə Azərbaycan 2019-cu ildə 73,6% - 76,7%-ə qədər, yəni 3,1% yüksəlib.

Bütün müsbət dəyişikliklər Azərbaycanda son illər aparılan uğurlu islahatların nəticəsidir və bu pozitiv dəyişiklikləri nəinki Dünya Bankı, başqa beynəlxalq maliyyə qurumları da təsdiqləyir.

Dünya Bankının “Doing Business” 2020 hesabatında birinci 10 yerləri tutan ölkələrin və Azərbaycanın indikatorlar üzrə müqayisəli reytinqlərinin(cədvəl 3) təhlili onu göstərdi ki, bu reytinqdə 2006, 2017 və sonrakı illərdə olduğu kimi, 1-ci yeri Yeni Zelandiya dövləti tutmuşdur və onun liderliyi 10 indikatordan 2-sində - “Müəssisələrin qeydiyyatı” və “Kreditlərin alınması”-nda 1-ci yeri, “Əmlakın qeydiyyatı” üzrə 2-ci yeri, “Minoritar investorların qorunması” üzrə 3-cü yeri və ümumiyyətlə 10 indikatordan 6-sı üzrə 1-ci onluqda yer tutması bunun parlaq sübutudur.

Reytinqdəki 2-ci yeri 2007-2016-cı illər boyu birinciliyi əldən verməyən Sinqapurdur. Bu ölkə “Kontraktların icrasının təmin olunması” indikatoru üzrə 1-ci yeri tutmuş, ümumiyyətlə isə 5 göstərici üzrə 1-ci onluqda məskunlaşmışdır.

3-cü yeri, “Tikintilərə icazələrin alınması” indikatoru üzrə 1-ci yerdə olan və 10 göstəricidən 5-i üzrə 1-ci onluqda qərarlaşan, Honkonqdur.

4-cü yerdə, “Beynəlxalq ticarət” indikatoru üzrə 1-ci və 4 göstərici üzrə 1-ci onluqda yer tutan Danimarka dövlətidir.

Ümumiyyətlə, qlobal reytinqin 1-ci 10 ölkəsi arasında sonrakı yerləri Koreya Respublikası – 5-ci yer (2 indikator üzrə 1-ci onluqda), ABŞ – 6-cı (2 indikator), Gürcüstan- 7-ci (3 indikator), Böyük Britaniya – 8-ci (2 indikator), Norveç – 9-cu (2 indikator), İsveç – 10-cu yerləri (2 indikator) tutmuşlar.

Cədvəl 3

Dünya Bankının "Doing Business" 2020 hesabatında birinci 10 yerləri tutan ölkələrin və Azərbaycanın indikatorlar üzrə müqayisəli reytinqləri

Ölkə	Global-Reytinq	Müəssisələrin qeydiyyatı	Tikintilərə icazələrin alınması	Elektrik təchizatı şəbəkələrinə qoşulma	Əmlakın qeydiyyatı	Kreditlərin alınması	Minoritar investorların qorunması	Vergi qoyma	Beynəlxalq ticarət	Kontraktların icrasının təmin olunması	Müəssisələrin bağlanması
Yeni Zelandiya	1	1	7	48	2	1	3	9	63	23	36
Sinqapur	2	4	5	19	21	37	3	7	47	1	27
XİR, Honkonq, Çin	3	5	1	3	51	37	7	2	29	31	45
Danimarka	4	45	4	21	11	48	28	8	1	14	6
Koreya Respublikası	5	33	12	2	40	67	25	21	36	2	11
ABŞ	6	55	24	64	39	4	36	25	39	17	2
Gürcüstan	7	2	21	42	5	15	7	14	45	12	64
Böyük Britaniya	8	18	23	8	41	37	7	27	33	34	14
Norveç	9	25	22	44	15	94	21	34	22	3	5
İsveç	10	39	31	10	9	80	28	31	18	39	17
Azərbaycan	**34**	**9**	**59**	**80**	**44**	**1**	**105**	**40**	**83**	**28**	**47**

Mənbə [2].

Azərbaycan bu reytinqdə 34-cü (keçən il 25-ci) yeri, "Kreditlərin alınması" indikatoru üzrə 1-ci yeri, "Müəssisələrin qeydiyyatı" üzrə – 9-cu yeri, "Beynəlxalq ticarət" üzrə 83-cü yeri tutmuşdur.

Fikirləşirik ki, respublikamız gələcəkdə də iqtisadi islahatları daima aparmalı və bunun nəticəsində Doing Business hesabatında yüksək yerləri tutmaq və bütövlükdə dünya iqtisadiyyatında layiqli yer tutmağa Azərbaycan üçün əlçatan məqsəd olacaq. Bu isə respublika rəhbərliyinintərəfindən qoyulmuş Azərbaycanın mövqeyinin beynəlxalq müqayisəli reytinqlərdə daha da yaxşılaşdırılması məsələsinə[3]. dəstək olacaq.

Ədəbiyyat

1. www.doingbusiness.org.ru 2019
2.www.doingbusiness.org.ru 2020
3. www.president.az

Резюме

Гасанов А.Г.

Анализ рейтинга и показателей Азербайджана в отчете всемирного банка "DoingBusiness"

Статья посвящена очень важной проблеме - анализу положения Азербайджана в отчете Всемирного Банка "DoingBusiness". Автор исследовал и проанализировал рейтинг и показатели республики по данному отчету и выдвинул свои рекомендации.

Ключевые слова: *бизнес-среда, рейтинг, предпринимательство, индекс, индикатор, Всемирный Банк, отчет*

Summary

Gasanov A.G.

Analysis of Rating and Indicators of Azerbaijan in the Report of The World Bank "Doing Business"

The article is devoted to a very important problem-analysis of the situation in Azerbaijan in the Doing Business report of the World Bank. The author examined and analyzed the rating and indicators of the republic for this report and made recommendations.

***Key words*:** *business environment, rating, entrepreneurship, index, indicator, World Bank, report*

MÜASİR DÖVRDƏ TURİZM MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFINDA XARİCİ-İQTİSADİ ƏLAQƏLƏRİN GÜCLƏNDİRİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Hüseynov Nihad Ramiz oğlu

Sumqayıt Dövlət Universiteti

nihadhuseyn@mail.ru

Xülasə: *Məqalədə müasir dövrdə turizm müəssisələrinin inkişafında xarici-iqtisadi əlaqələrin gücləndirilməsinin aktual məsələləri tədqiq olunmuşdur. Bu məqsədlə hazırkı şəraitdə turizm müəssisələrinin inkişafının xarici iqtisadi əlaqələrə təsiri təhlil olunmuşdur. Turizm müəssisələrinin xarici-iqtisadi fəaliyyətinin yeni iqtisadi çağırışlara uyğunlaşdırılmasının vacibliyi ön plana çəkilmişdir. Turizm sektorunun və turizm müəssisələrinin investisiya cəlbediciliyinin artırılması ilə xarici-iqtisadi fəaliyyətin səmərəliliyi arasındakı bağlılıq araşdırılmışdır. Turistlərin məmnunluğunda və ölkəyə xarici turist axınının intensivləşdirilməsində turizm müəssisələrinin*

mövcud mexanizmlərinin və yanaşmalarının yenilənməsinin vacibliyi bildirilmişdir. Məqalədə turizm müəssisələrinin inkişafında xarici iqtisadi əlaqələrin gücləndirilməsinin roluna dair tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: *turizm müəssisələri, xarici iqtisadi əlaqələr, xarici-iqtisadi fəaliyyət, turizm müəssisələrinin xarici iqtisadi fəaliyyəti, turizm müəssisələrinin xarici-iqtisadi əlaqələri, Azərbaycanda turizm sektorunun inkişaf problemləri, Azərbaycanda turizm müəssisələrinin səmərəlilik problemləri.*

Qlobal iqtisadi və turizm çağırışları müasir dövrdə turizm müəssisələrinin qarşısında yeni, kifayət qədər aktual məsələlər qoymuşdur. Bunlardan biri də turizm müəssisələrinin inkişafının hazırkı dövrün tələblərinə uyğun şəkildə modelləşdirilməsi və xüsusilə onların xarici-iqtisadi əlaqələrinin gücləndirilməsidir. Bu amillər baxımından Azərbaycanda turizm müəssisələrinin fəaliyyətlərində xüsusi yanaşmalar tələb olunur və bunların əsas strateji hədəfləri sırasında xarici iqtisadi əlaqələrin genişləndirilməsi, xarici turistlərin daha fəal şəkildə ölkəyə cəlb olunması üçün zəruri tədbirlərin görülməsi, cəlbedici mühitin yaradılması daha çox diqqət çəkir. Artıq ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə yaxın və uzaq perspektiv üçün turizm sənayesinin inkişaf istiqamətləri, hədəfləri və prioritet fəaliyyət mexanizmlərinin reallaşdırılması nəticəsində bu istiqamətdə önəmli tədbirlərin həyata keçirilməsi prosesləri genişlənməkdədir [1]. Ölkəmizdə turizm sektorunun maddi-texniki bazası kifayət qədər güclənməkdə davam edir, müasir dövrün tələblərinə uyğun turizm müəssisələrinin yaradılmasına diqqət artırılır, dünya şöhrətli otelçilik təcrübəsi olan kompaniyaların və firmaların ölkəmizə gəlməsi sürətlənir, mərkəzi şəhərlərlə yanaşı? ölkənin regionlarında turizm müəssisələri və kompleksləri fəaliyyətlərini təkmilləşdirir, rəqabətqabiliyyətli turizm xidmətlərinin göstərilməsi istiqamətində tədbirlər görülür. Ölkədə turizmin inkişafı və turizm müəssisələrinin xarici iqtisadi fəaliyyətinin gücləndirilməsi potensialından səmərəli istifadə edilməsinə əlverişli fəaliyyət mühiti formalaşdırılmaqdadır. Bu halda xarici-iqtisadi əlaqələrin gücləndirilməsi hesabına ölkəyə turist axının intensivləşdirilməsi imkanları artacaqdır. Buna görə də turizm müəssisələrinin inkişaf problemlərinin sistemli şəkildə öyrənilməsi, nöqsanların aradan qaldırılması tədbirlərinin görülməsi və fəaliyyətin genişləndirilməsi məqsədilə xarici iqtisadi fəaliyyətin maksimum səmərəli modelləşdirilməsi vacib şərtlərdəndir. Bu vəzifələrin öhdəsindən gəlmək üçün turizm müəssisələrininn inkişaf potensialları ilə bağlı amillərdən maksimum bəhrələnməli və tələb olunan turist xidmətləri formalaşdırılaraq turizm bazarına çıxarılmalı, geniş və səmərəli şəkildə turizm xidmətlərinin təşviqi tədbirləri görülməli və hər bir turizm müəssisəsinin reklam strategiyası olmalıdır. Turizm müəssisələrinin fəaliyyətinin dövrün tələblərinə uyğun şəkildə tənzimlənməsi, turizm sektoruna dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi və onların səmərəliliyinin artırılması, turizm müəssisələrinin intensiv inkişafına mane olan baryerlərin aradan qaldırılması və turizm fəaliyyətinin stimullaşdırılması, motivasiyalaşdırılması məsələlərinə daha çox diqqət ayrılmalıdır. Bundan əlavə, turizm potensialı güclü olan bölgələrdə infrastrukturun inkişaf etdirilməsi məsələlərinə dövlət tərəfindən daha böyük dəstəyin verilməsi və bununla əlaqədar olaraq zəruri tədbirlərin görülməsi planlı və nizamlı şəkildə həyata keçirilməli, turizm müəssisələrinin xarici-iqtisadi fəaliyyəti stimullaşdırılmalı və motivasiyalaşdırılmalıdır [2].

Qeyd edək ki, ölkənin turizm müəssisələrinin xarici iqtisadi fəaliyyətinin gücləndirilməsi məsələləri turizm sektorunda əlavə dəyərin yaradılmasında yeni mənbələrin formalaşdırılmasına və

turizm xidmətləri həcminin artırılmasına əlavə imkanlar yarada bilər. Belə ki, dövlət tərəfindən turizm sektorunun qanunuvericilik bazasının gücləndirilməsinə, maddi-texniki bazanın və infrastrukturun yaradılmasına xüsusi diqqət yetirilməsinə baxmayaraq, turizm sektorunda yaradılan əlavə dəyərin artım dinamikası o qədər də yüksək deyildir və son illərdə artım tempi yerində saymaqdadır. Belə ki, 2015-ci ildə ölkənin turizm sektorunda formalaşdırılan əlavə dəyərin ümumölkə ÜDM-də payı 4,5 % olduğu halda, bu göstərici 2018-ci ildə cəmi 4,3 % səviyyəsində qeydə alınmışdır [3]. Şəkil 1-də Azərbaycanda turizm sektorunda əlavə dəyərin ölkə ÜDM-də xüsusi çəkisi 2013-2018-ci illər üzrə təhlil olunmuşdur və buradan göründüyü kimi? son illərdə ümumölkə ÜDM-də turizm sektorunun əlavə dəyərdə payı nisbətən azalmışdır.



Şəkil 1. Azərbaycanda turizm sektorunda əlavə dəyərin ölkə ÜDM-də xüsusi çəkisi, %-lə (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır).

Şəkil 2-də isə ölkəmizdə turizm sektorunun müəssisələrinə yönəldilən investisiyaların ümumi həcmi verilmişdir və investisiyaların cəlbində, həcminin artırılmasında turizm müəssisələrinin xarici iqtisadi fəaliyyətinin gücləndirilməsi kifayət qədər aktuallığı ilə diqqət çəkir. Təəssüf ki, bu sahədə problemlərin əhəmiyyətli hissəsi həll olunmamış qalmaqdadır. Belə ki, 2014-cü ildə bu sahəyə yatırılan investisiyaların həcmi 2,2 mlrd. manat səviyyəsində olduğu halda, 2016-cı ildə azalaraq 363 mln. manat, 2017-ci ildə - 267,3 və 2018-ci ildə isə 229,7 mln. manat səviyyəsində qeydə alınmışdır. Buna görə də turizm müəssisələrinə investisiyaların cəlbi mexanizmlərinin yenilənməsi və xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması tədbirlərinin görülməsi yaxın perspektivdə qarşıda duran önəmli vəzifələrdən hesab olunur.



Şəkil 2. Azərbaycanda turizm sektorunun müəssisələrinə yönəldilən investisiyaların ümumi həcmi, mln. manat (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır).

Turizm müəssisələrinin inkişafının intensivləşdirilməsində xarici-iqtisadi əlaqələrin gücləndirilməsi nəticəsində dünya standartlarına cavab verən turist-ekskursiya xidmətlərinin çeşidinin genişləndirilməsi və həcminin artırılması mümkün ola bilər. Şəkil 3-də Azərbaycanda 2013-2018-ci illərdə əhaliyə göstərilən ödənişli xidmətlərdə turist-ekskursiya xidmətlərinin xüsusi çəkisi təhlil olunmuşdur və buradan göründüyü kimi, həmin dövrdə artım tempi 2,21 %-dən 3,23 %-dək təşkil etmişdir.



Şəkil 3. Azərbaycanda 2013-2018-ci illərdə əhaliyə göstərilən ödənişli xidmətlərdə turist-ekskursiya xidmətlərinin xüsusi çəkisi, % (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır).

Yaxın perspektivdə, ölkəmizdə turizmin mövcud potensialından maksimum səmərəli və məhsuldar istifadə edilməsi üzrə regionlarda olan təbii və iqtisadi resurslardan daha məhsuldar istifadə olunması üçün turizm müəssisələrinin xarici-iqtisadi fəaliyyətinin gücləndirilməsi tədbirlərinə daha çox diqqət ayrılmalı və bununla bağlı turizmin inkişafında dövlət siyasətinin təkmilləşdirilməsi tədbirləri görülməlidir [4]. Bundan əlavə, turizm müəssisələrinin inkişafına strateji yanaşmalar ortaya qoyulmalı və inkişaf determinantlarından səmərəli istifadə üçün yeni mexanizmlər yaradılmalıdır. Belə ki, qeyri-neft sektorları arasında məhz turizm sektorunun böyük inkişaf potensialına sahib olması Azərbaycan iqtisadiyyatının postneft dövrü üçün böyük ümidlər yaradır. Ancaq Azərbaycan turizm sektoruna daxili və xarici amillərin təsirləri ümumən makroiqtisadi prizmadan dərin təhlillər çox az aparılmışdır [5]. Bu baxımdan, turizm sektorunda və onun müəssisələrində xarici-iqtisadi əlaqələrin genişləndirilməsi ilə bağlı dünya təcrübəsinə diqqət artırılmalıdır. Bunun üçün, turizm sektorunun və onun müəssisələrinin inkişafına mane olan problemlər sistemli şəkildə öyrənilməli, onların aradan qaldırılması tədbirləri görülməlidir [6]. Turizm müəssisələrinin dayanıqlı şəkildə inkişaf etməsi, xarici iqtisadi fəaliyyətinin gücləndirilməsi, beynəlxalq turizm bazarına inteqrasiyasının təmin olunması, xarici iqtisadi əlaqələrin coğrafiyasının genişləndirilməsi istiqamətində məqsədli layihələr və proqramlar hazırlanaraq həyata keçirilməlidir [7].

Qlobal çağırışlar şəraitində ölkəyə xarici turist axınının intensivləşdirilməsi və turizm müəssisələrinin xarici iqtisadi əlaqələrinin gücləndirilməsi bir sıra məsələlərin daha sistemli şəkildə baxılmasını və nəzərə alınmasını şərtləndirir:

- hər bir turizm müəssisəsinin fəaliyyətində xarici iqtisadi əlaqələrin genişləndirilməsi və gücləndirilməsi strategiyasının işlənib hazırlanması prioritetlik təşkil etməlidir;

- dövlətin turizm sektoruna dair siyasətində turizm müəssisələrinin xarici iqtisadi fəaliyyətinin stimullaşdırılması və motivasiyalaşdırılması mexanizmlərinin tətbiqi təmin olunmalıdır;

- turizm müəssisələrinin beynəlxalq turizm bazarlarına çıxması və dünya standartlarına cavab verən turizm xidmətlərinin təşkil etməsi istiqamətində məqsədli və uzunmüddətli dövrü əhatə edən fəaliyyət proqramları hazırlanmalı və reallaşdırılmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 98 s.
2. Azərbaycan Respublikasında turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri. BMT inkişaf proqramı. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. http://ier.az/uploads/IIETI-UNDP_Turizm-az.pdf.
3. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı, 2019, 99 s.
4. Qasımova N. Turizmin inkişafında dövlət siyasəti // Turizm və qonaqpərvərlik tədqiqatları. Bakı:"Bross-44" MMC, 2016, 213 s.
5. Məmmədov F. Turizmin dinamikasi və determinantları: Azərbaycan və dünya təcrübəsi. https://mpra.ub.uni-muenchen.de/77444/1/MPRA_paper_77444.pdf.
6. Azərbaycanın turizm sektorunda problemlər, turizmin bir istiqamət üzrə cəmləşməsi. http://a-r.az/az/article/11005.
7. Azərbaycanda turizmin inkişafı: potensiallar, problemlər, perspektivlər. http://www.anl.az/down/meqale/ses/2011/iyul/192676.htm.

Резюме

Гусейнов Н.Р.

Актуальные вопросы усиления внешнеэкономических связей в развитии туристических предприятий в современный период

В статье исследованы актуальные вопросы усиления внешнеэкономических связей в развитии туристических предприятий в современный период. С этой целью анализировано влияние внешнеэкономических связей на развитие туристических предприятий в нынешних условиях. Отмечена важность приведения в соответствие уровня внешнеэкономической деятельности туристических предприятий новым экономическим вызовам. Исследована взаимосвязь организации внешнеэкономических связей с инвестиционной привлекательностью сектора туризма. Особо подчеркнута важность обновления существующих механизмов и подходов к интенсификации потоков туристов в страну. Подготовлены рекомендации и даны предложения по актуальным вопросам усиления внешнеэкономических связей в развитии туристических предприятий в современный период.

Ключевые слова: *туристические предприятия, внешнеэкономические связи, внешнеэкономическая деятельность, внешнеэкономическая деятельность туристических предприятий, внешнеэкономические связи туристических предприятий, проблемы развития сектора туризма в Азербайджане, проблемы эффективности туристических предприятий в Азербайджане.*

Summary
Huseynov N.R.
Main Issues of Strengthening Foreign Economic Relations in the Development of Tourist Enterprises in the Modern Period

The main issues of strengthening foreign economic relations in the development of tourist enterprises in the modern period are explored in the article. The impact of foreign economic relations on the development of tourist enterprises in the current conditions are analysed for this purpose. The importance of aligning the level of foreign economic activity of tourist enterprises with new economic challenges is noted then. The relationship between the organization of foreign economic relations and the investment attractiveness of the tourism sector is investigated. The importance of updating existing mechanisms and approaches to intensify tourist flows to the country is analyzed. Recommendations and proposals on main issues of strengthening foreign economic relations in the development of tourist enterprises in the modern are given in the end of the article.

Key words: *the tourist enterprises, foreign economic relations, foreign economic activity, foreign economic activity of the tourist enterprises, foreign economic relations of the tourist enterprises, problems of development of the sector of tourism in Azerbaijan, problems of efficiency of the tourist enterprises in Azerbaijan.*

XARİCİ–İQTİSADİ FƏALİYYƏTİN GÜCLƏNDİRİLMƏSİNDƏ TEXNOPARKLARIN ROLUNUN ARTIRILMASI MƏSƏLƏLƏRİ

Mahmudov Əliheydər Eldar oğlu
Azərbaycan Dövlət Neft Sənaye Universiteti
aliheydar_89@mail.ru

Xülasə: *Məqalədə xarici-iqtisadi fəaliyyətin gücləndirilməsində texnoparkların rolunun artırılması məsələləri tədqiq olunmuşdur. Müasir dövrdə xarici-iqtisadi fəaliyyətin yeni hədəfləri və vəzifələri açıqlanmış, xüsusilə ixrac potensialının artırılmasının vacibliyi bildirilmiş, ixrac təyinatlı və rəqabətqabiliyyətli məhsulların istehsalında texnoparkların çoxfunksiyalı rolu açıqlanmış, qeyri-neft ixracının həcminin yüksəldilməsində texnoparkların potensialından səmərəli istifadə mexanizmləri, xarici-iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsində texnoparkların rolunun artırılmasına dair tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

Açar sözlər: *xarici-iqtisadi fəaliyyət, texnoparklar, xarici-iqtisadi fəaliyyətin gücləndirilməsi problemləri, xarici-iqtisadi fəaliyyətin səmərəlilik problemləri, texnoparkların ixrac potensialı, texnoparkların strateji əhəmiyyəti.*

Müasir dövrdə hər bir ölkənin iqtisadiyyatının diversifikasiyalaşdırılmasında və ixracyönlü məhsul istehsalının artırılmasında yeni mexanizmlərin və fəaliyyət formalarının işlənib hazırlanması, yerinə yetirilməsi tələb olunur. Qlobal çağırışlar kontekstində iqtisadiyyatın strukturunun genişləndirilməsi, daha yüksək dəyərə və ixrac keyfiyyətlərinə malik məhsul istehsal edilməsi ciddi önəm kəsb edir. Dünya təcrübəsində bu kimi iqtisadi mexanizmlər sırasında texnoparklar xüsusilə fərqlənir. Belə ki, texnoparkların çoxfunksiyalı xüsusiyyətlərindən istifadə etməklə, qlobal şəraitdə ortaya çıxan yeni çağırışlara uyğun şəkildə iqtisadiyyatın modernizasiyasının sürətləndirilməsi mümkündür. Bundan əlavə, texnoparklar çoxlu sayda istehsalçıları, investorları və digər istiqamətlərdə fəaliyyət göstərən subyektləri özündə

cəmləşdirməklə məhsuldar bir məkan formalaşdırır. Eyni zamanda texnoparklara dövlət tərəfindən dəstək mexanizmlərinin olması onların səmərəliliyini yüksəldir.

Dünyanın ən çox və güclü inkişafa malik texnoparkları ABŞ-da yerləşir və bu texnoparklarda yüksək texnologiyalar əsaslı məhsullar istehsal olunur. Texnoparklar innovasiyaların yayılmasında və innovasiya potensialından istifadə olunmasında mürəkkəb funksiyaları yerinə yetirir. İnnovasiya prosesi innovasiyanın işlənməsi və tətbiqi, bazarda yeni məhsulun, xidmətin ilkin yaranması, yaxud yeni texnologiyanın layihə gücünə çatdırılması ilə başa çatır. Bu proses tətbiqdən sonra da davam edir, çünki yeniliyin getdikcə yayılması ilə təkmilləşir, daha səmərəli olur, yeni istehlakçı xüsusiyyətləri qazanır. Bu proseslərin təşkilində texnoparkarda cəmlənmiş güclü maddi-texniki baza və müfaviq infrastruktur obyektləri həlledici əhəmiyyət kəsb edir.

Məlumdur ki, texnoparklardan səmərəli istifadə etməklə, iqtisadi inkişaf proseslərinə güclü təkan vermək mümkündür. Texnoparklarda innovativ inkişafın əsas mexanizmləri tətbiq olunur və onların məhsuldar fəaliyyəti hesabına iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi, yeni texnologiyaların işlənib hazırlanması və tətbiqi prioritetləri reallaşdırılır. Texnoparklar əlverişli fəaliyyət sahəsi və ərazisi kimi iqtisadiyyat sahəsinin və müəssisələrin tarazlı və məhsuldar inkişafına müsbət şərait yaradır.

Texnoparklar kompleks şəkildə innovativ inkişaf mexanizmlərinin səmərəli şəkildə həyata keçirə biləcək istehsal, kommersiya və xidmət strukturunun yaradılması üçün kifayət qədər əlverişli bir məkan olması ilə diqqət çəkir. Texnoparklar yerli və xarici investorlar üçün cəlbedici fəaliyyət məkanının təşkili, müvafiq güzəştlər sisteminin və stimullaşdırıcı dəstək mexanizmlərinin olması səbəbindən xeyli üstünlüklərə malikdirlər. Texnoparklar səmərəli fəaliyyət mühitinin formalaşdırılması və inkişaf etdirilməsində maksimum səmərəli və məhsuldar fəaliyyət ərazisi kimi sahibkarlıq və biznes subyektlərinin ciddi maraq dairəsində olan iqtisadi mexanizmlər kimi qiymətləndirilir [1]. Həmçinin regionlarda yaradılan texnoparklar iş yerləri yaratmaqla bərabər, bu regionlardakı təbii və iqtisadi resurslardan səmərəli istifadə olunmasına əlavə stimullar formalaşdırır və buraya müasir texnologiyaların gətirilməsi funksiyasını yerinə yetirir.

Hazırkı qlobal şəraitdə iqtisadiyyatın modernizasiyasında texnoparkların rolunu şərtləndirən amillərin sırasında daha çox, qlobal şəraitdə iqtisadiyyatın mövcud mexanizmlərin təkmilləşdirilməsi və ya yenilənməsinin mütləq şərt kimi çıxış etməsi, iqtisadiyyatın modernləşdirilməsində texnoparkların maksimum səmərəli fəaliyyət məkanı kimi diqqət çəkməsi, iqtisadiyyatın müxtəlif sahələrinin innovasiyalaşdırılmasında əlavə stimul vermək xüsusiyyətinə malik olması nəzərə çarpırlar. Məhz bu amillər baxımından müasir dövrdə əksər dünya ölkələrində qlobal şəraitdən yaranan mənfi təsirin azaldılması üçün texnopark institutuna önəm verilməsi strateji səviyyədə baxılır və qiymətləndirilir.

Texnoparklar iqtisadiyyat sahələrinin innovativ inkişafına əhəmiyyətli səviyyədə müsbət təsir göstərmək potensialına malikdir. Belə ki, texnoparkların çoxfunksiyalılıq xüsusiyyətlərinin mövcudluğu, xarici investisiyaların cəlbi üçün maksimum əlverişli mexanizm kimi diqqət çəkməsi, elmi-texniki və intellektual potensialdan istifadə üçün məhsuldar mühitin formalaşdırılması, investisiya-innovasiya fəaliyyəti baxımından mühüm şərtlərin burada olması, iqtisadiyyatın müxtəlif sahələri üzrə strateji fəaliyyət proqramlarının həyata keçirilməsi potensialının çoxluğu, bu kimi fəaliyyət ərazilərini maksimum səmərəli edirlər. İqtisadiyyat sahələrinin inkişaf etdirilməsində texnoparkların məhsuldar funksiyalarından istifadə etməklə, iqtisadi inkişaf proseslərinin intensivləşdirilməsi və onların səmərəliliyinin artırılması üçün güclü zəmin formalaşdırılır. Bütün bu keyfiyyətləri ilə bərabər, texnoparklar ayrı-ayrı rəqabətqabiliyyətli və ixracyönlü məhsulların istehsalında daha çox tələb olunan və fərqli cəhətləri ilə investorları cəlb edən fəaliyyət məkanı kimi diqqət çəkəndir.

Qeyd edək ki, Azərbaycanda iqtisadiyyatın diversifikasiyalaşdırılması və neft amilindən asılılığının azaldılması, ixrac potensialının artırılması, xarici ticarət fəaliyyətinin gücləndirilməsi istiqamətində önəmli işlər görülməkdədir [2]. Bununla bağlı olaraq, son illərdə sosial-iqtisadi, struktur və kadr dəyişiklikləri prosesləri sürətləndirilməkdədir. Qeyri-neft sektoru sahələrinin, xüsusilə innovativ texnologiyalardan ibarət emal sənayesi sahələrinin inkişaf etdirilməsi məsələlərinə önəm artmışdır. Nəticədə, bu sahədə məsul istehsalının artımı ilə bağlı əlverişli zəmin formalaşdırılmaqdadır. Məsələn, emal sənayesi sahələri üzrə dinamik artımın təmin olunması strateji xarakter daşıyır. Bütün bunlar şəkildə verilmiş Azərbaycanda emal sənayesi üzrə məhsul həcminin 2014-2018-ci illərdə dinamikasında özünü göstərir və buradan göründüyü kimi, 2018-ci ildə 2017-ci ilə nisbətdə 9,3 %-ə qədər artım qeydə alınmışdır.



Şəkil. Azərbaycanda 2014-2018-ci illərdə emal sənayesi məhsulunun dinamikası, mlrd. manatla (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).

Azərbaycanda emal sənayesinin və ixracyönlü məhsulların istehsal sahələrinin inkişafında texnoparklardan istifadəyə üstünlük verilməkdədir və bunun üçün çoxfunksiyalı fəaliyyət zonası - Sumqayıt Texnologiyalar Parkı yaradılmış və 2009-cu ildən bu park fəaliyyət göstərməkdədir [3]. Həmin Parkda çoxlu sayda ixracyönlü yüksək texnologiyalar əsasında çoxlu çeşiddə rəqabətqabiliyyətli sənaye məhsulları, əsasən, elektrotexnika məmulatları və elektrik kabelləri istehsal olunur. Burada istehsal olunan innovativ məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, artıq ixrac edilməkdədir. Digər texnopark - Yüksək Texnologiyalar Parkı Pirallahıda yaradılır və bu texnoparkın bir neçə müəssisənin tikintisi sürətlə davam etməkdədir. Şübhəsiz, bu proseslərin təşkilinə dövlət dəstəyi olmasaydı, bunlara nail olmaq qeyri-mümkün idi. Dövlət tərəfindən bu texnoparkın rezidentləri 7 illik müddətinə vergilərdən və gömrük rüsumlarından azaddırlar [4].

Bütün bunlarla yanaşı, ölkədə yaradılmağa başlayan və təşkili nəzərdə tutulan texnoparkların daha səmərəli fəaliyyət göstərməsi üçün onların xarici-iqtisadi fəaliyyətinin qlobal iqtisadi çağırışlara uyğunlaşdırılması tələb olunur:

- hər bir texnoparkın strateji fəaliyyət istiqamətləri çərçivəsində xarici-iqtisadi əlaqələrin yüksək səviyyədə təşkil edilməsi tədbirləri görülməlidir;
- texnoparkların çoxfunksiyalı xüsusiyyətlərindən istifadə etməklə, milli iqtisadiyyat subyektlərinin xarici-iqtisadi fəaliyyətinin gücləndirilməsi təmin olunmalıdır və s.

Ədəbiyyat

1. Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı: Təknur, 2018, 552 s.
2. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt, 2018, 376 s.
3. Sumqayıt Texnologiyalar Parkı. 22 dekabr 2009-cu il. - https://stp.az.
4. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib.

Резюме
Махмудов А.Э.
Вопросы повышения роли технопарков в усилении внешнеэкономической деятельности

В статье исследованы вопросы повышения роли технопарков в усилении внешнеэкономической деятельности. Раскрыты новые цели и задачи внешнеэкономической деятельности в современный период, особенно отмечена важность повышения экспортного потенциала. Высоко оценена роль и многофункциональность технопарков в производстве конкурентоспособной и экспортоориентированной продукции. Даны механизмы эффективного использования потенциала в технопарке для повышения объема ненефтяного экспорта. Подготовлены рекомендации и предложения по вопросам повышения роли технопарков в усилении внешнеэкономической деятельности.

Ключевые слова: *внешнеэкономическая деятельность, технопарки, проблемы усиления внешнеэкономической деятельности, проблемы эффективности внешнеэкономической деятельности, экспортный потенциал технопарков, стратегическая важность технопарков.*

Summary
Mahmudov A.E.
Issues of Increasing the Role of Technoparks in Strengthening Foreign Economic Activity

The issues of increasing the role of technoparks in strengthening foreign economic activity are explored in the article. New goals and objectives of foreign economic activity in the current period are investigated, the importance of increasing export potential are given for this purpose. The role and multifunctionality of technoparks in the production of competitive and export-oriented products is analyzed then. Mechanisms of effective use of potential in the technopark to increase the volume of non-oil exports are investigated. Recommendations and proposals on strengthening the role of technoparks in strengthening foreign economic activity are given in the end of the article.

Key words: *foreign economic activity, technoparks, problems of strengthening foreign economic activity, problems of efficiency of foreign economic activity, export potential of technology parks, strategic importance of technology parks.*

İNVESTİSİYA MÜHİTİNİN CƏLBEDİCİLİYİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK ARASINDAKI QARŞILIQLI FƏALİYYƏTİN NƏZƏRİ-METODOLOJİ PROBLEMLƏRİ

Məmmədova Elnurə Bünyat qızı
Azərbaycan Kooperasiya Universiteti
mamedova.el@inbox.ru

Xülasə: *Məqalədə investisiya mühitinin cəlbediciliyi və iqtisadi təhlükəsizlik arasındakı qarşılıqlı fəaliyyətin nəzəri-metodoloji problemləri tədqiq olunmuşdur. Bunun üçün investisiya mühitinin cəlbediciliyinin təmin edilməsi ilə bağlı aktual problemlər və onların mahiyyəti açıqlanmışdır. İqtisadi təhlükəsizlik məsələlərinin sistemli şəkildə baxılmasında investisiyaların rolu və investisiya mühitinin əhəmiyyəti verilmişdir. Müasir dövrdə qlobal maliyyə və investisiya çağırışları nəzərə alınmaqla, investisiya mühitinin yaxşılaşdırılması tədbirlərinin səmərəlilik problemlərinə baxılmışdır. Ölkə iqtisadiyyatının tələb olunan sahələrinə xarici investisiyaların cəlbində müasir yanaşamaların işlənib hazırlanmasının vacibliyi ön plana çəkilmişdir. İnvestisiya mühiti cəlbediciliyi və iqtisadi təhlükəsizlik sistemi arasındakı qarşılıqlı təsir və fəaliyyət dairəsi araşdırılmışdır. İqtisadi proseslərin sürətləndiyi bir dövrdə investisiya mühitinin cəlbediciliyi və*

iqtisadi təhlükəsizlik arasındakı qarşılıqlı fəaliyyətin nəzəri-metodoloji problemləri üzrə ümumiləşdirilmələr aparılmış və tövsiyələr verilmişdir.

Açar sözlər: *investisiya mühitinin cəlbediciliyi, iqtisadi təhlükəsizlik, investisiya cəlbediciliyi problemləri, investisiya cəlbediciliyi və iqtisadi təhlükəsizlik arasındakı bağlılıq, investisiya mühitinin formalaşdırılması problemləri, dövlətin investisiya siyasətinin müasir aspektləri.*

İnvestisiya mühtinin formalaşması və inkişaf etməsi ilə bağlı dünya təcrübəsindən yanaşdıqda bir çox problemlərin kompleks və sistemli şəkildə baxılması, onların nəzəri-metodoloji xüsusiyyətlərinin araşdırılması, zəruri tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan investisiya mühitinin formalaşması ilə bağlı tətbiq olunan tənzimləmə mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi, mövcud mexanizmlərin milli iqtisadi inkişaf proseslərinin xüsusiyyətlərinə uyğunlaşdıırlması, investisiya fəaliyyətinin təşkili üzrə tənzimləyici mexanizmlər və üsullara xüsusi diqqətin yetirilməsi, dövlət tərəfindən investisiya fəaliyyətinin və investisiya proseslərinin tənzimlənməsi, vergi mexanizmlərindən və alətlərindən səmərəli istifadə edilməsi, perspektivli və yüksək potensiala malik müxtəlif milli iqtisadiyyat sahələrinin investisiya fəallığının artırılması, bu sahələrə xarici investisiyaların cəlbinin intensivləşdirilməsi və stimullaşdırılması tədbirlərinin görülməsi vacib şərtlər kimi çıxış edirlər. Bundan əlavə, investisiya amilinin obyektiv olaraq dəyərləndirilməsi, bu amilin iqtisadi inkişaf proseslərində təsirinin ölçülməsi, iqtisadi artıma multiplikativ təsiri, yeni iş yerlərinin yaradılmasında əhəmiyyəti mühüm məsələlər kimi xarakterizə olunur. İnvestisiya mühiti özündə sosial, iqtisadi, hüquqi, maliyyə və s. amilləri birləşdirir [1].

İnvestisiya mühitinin cəlbediciliyinə diqqət ölkənin iqtisadi təhülkəsizlik kontekstində təmin olunmalıdır. Analoji yanaşmalar xarici investorları daha çox cəlb edir və onlar fəal şəkildə investisiyalar yatırmaqdan çəkinmirlər. İnvestisiyaların idarə edilməsi ilə bağlı məsələlərdə bürokratiyanın minimuma endirilməsi də investisiya mühitinin cəlbediciliyinin yüksəldilməsində əhəmiyyətli rol oynayır və bütün bunlar ölkənin iqtisadi təhülkəsizliyi üçün önəmli hesab olunur [2]. Digər tərəfdən investisiya mühitinin cəlbediciliyi və iqtisadi təhlükəsizlik arasındakı qarşılıqı fəaliyyətin nəzəri-metodoloji problemlərin araşdırılması, obyektiv olaraq təhlil edilməsi və qiymətləndirilməsi vacibdir. Belə olduğu təqdirdə ölkənin investisiya cəlbediciliyi mühiti daha adekvat olaraq qiymətləndirilməsi mümkündür [3**].** Dünya təcrübəsində investisiya mühitinin maksimum cəlbedici olmasında, burada tətbiq olunan mexanizmlərin və alətlərin investorlar tərəfindən maraqla qarşılanmasında investisiya layihələrinin resurs təminatı, yəni xammalla uzunmüddətli dövr üçün təminat problemləri mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, vergiqoyma sistemi və fiskal stimullaşdırmanın səviyyəsi investorlar üçün, həmçinin investisiya bazarının bütün iştirakçıları üçün cəlbediciliyi ilə diqqət çəkməlidir [4]. İnvestisiya mühiti ilə iqtisadi təhlükəsizlik arasındakı qarşılıqlı fəaliyyətin təmin edilməsi üçün bir sıra amillərə xüsusi önəm verilməlidir: 1) investisiya mühitinin səmərəli şəkildə formalaşdırılmasına imkan verən ölkə qanunvericiliyi bazasının təşkili və zəruri qanunların qəbul edilməsi; 2) ölkədə makroiqtisadi və makromaliyyə sabitliyinin təmin olunması; 3) investisiya mühitinin gücləndirilməsi infrastrukturunun yaradılması və inkişaf etdirilməsi; 4) investisiya fəaliyyətinin təşkili istiqamətində səmərəli mexanizmlərin hazırlanması və həyata keçirilməsi; 5) investisiya layihələrinin səmərəliliyinin əsaslandırılması prinsiplərinin və meyarlarının müəyyənləşdirilməsi; 6) ölkədə vergi sisteminin və fiskal tənzimləmə mexanizmlərinin investisiya fəaliyyətinə təsirinin nəzərə alınması; 7) investisiya mühitinin institusional əsaslarının formalaşdırılması və inkişaf etdirilməsi; 8) investisiya mühitinin iqtisadi mexanizmlərinin və alətlərinin səmərəliliyinin təmin olunması; 9) investisiya infrastrukturunun yaradılması və investisiya fəaliyyətinin maddi-texniki bazasının gücləndirilməsi; 10) investisiya fəaliyyətinin xammal təminatının etibarlı şəkildə həll olunması; 11)

investisiya siyasətinin və dövlət tənzimlənməsi mexanizmlərinin səmərəliliyi; 12) investisiya mühtinin yaxşılaşdırılması üzrə beynəlxalq investisiya əməkdaşlığının təmin olunması və s. Bunlarla bərabər, investisiya mühitinin cəlbediciliyinin artırılması və ümumilikdə ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirlməsində bu amilin rolunun yüksəldilməsi üçün bir qrup problemlər və amillər daha yüksək qiymətləndirilməli və nəzərə alınmalıdır: 1) müasir çağırışlar nəzərə alınmaqla, investisiya fəaliyyəti və mühitinin səmərəli təşkilinə imkan verən qanunvericilik bazasının olmaması; 2) daha sonra, investisiya fəaliyyəti üzrə dövlət dəstəyi mexanizmlərinin zəifliyi; 3) ölkədə müvafiq investisiya-innovasiya infrastrukturunun zəif inkişaf etdirilməsi; 4) makroiqtisadi və makromaliyyə sabitliyinin kifayət qədər güclü olmaması; 5) ölkədə biznesin və sahibkarlığın inkişafına strateji yanaşmaların təmin edilməməsi; 6) vergi qanunvericiliyinin sərtliyi və stimullaşdırıcı olmaması; 7) investisiya siyasətinin təkmil olmaması və bu istiqamətdəki problemlərin həlli yollarının, tənzimləmə mexanizmlərini özündə əks etdirməməsi; 8) investisiya siyasəti və fəaliyytəi üzrə idarəetmə orqanlarının qeyri-səmərəli fəaliyyət göstərməsi; 9) investisiya-innovasiya layihələrinin prioritetlik təşkil etməməsi və bu sahədə xaotikliyin olması; 10) investisiya bazarı iştirakçılarının qarşılıqlı əlaqələrinin və münasibətlərinin zəifliyi, bazarın dinamik olmaması və s.

Hazırda ölkəmizdə iqtisadi islahatlar nisbətən intensiv xarakter almışdır, əsas məqsəd ölkə iqtisadiyyatının strukturunun diversifikasiyalaşdırılması və neft amilinin rolunun aşağı salınmasıdır. Bu proseslərin səmərəli təşkili ölkənin iqtisadi təhlükəsizliyi baxımından önəmli yer tutur və həmin proseslərdə maliyyə xidmətlərinin, o cümlədən investisiyaların, investisiya mühiti cəlbediciliyinin böyük rolu vardır. Qeyd edək ki, ölkəmizdə maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş strateji hədəflərin reallaşdırılmasında mühüm istiqamətlərdən biri də investisiya problemlərinə kompleks və sistemi yanaşmanın təmin edilməsi və iqtisadi təhülükəsizlik sistemi ilə qarşılıqlı təsir dairəsinin nəzərə alınmasıdır [5]. *"Milli iqtisadi inkişaf modelinin rəqabətqabiliyyətliliyinin artırılmasında və ölkənin beynəlxalq aləmdə imicinin yüksəldilməsində investisiyaların rolu strateji əhəmiyyət kəsb edir. İnvestisya axınlarının intensivliyi maliyyə bazarlarına və ölkədəki maliyyə-kredit sisteminə müsbət təsir göstərir, multiplikativ təsir nəticəsində iqtisadi artım və maliyyə mənbələri formalaşır, əlavə dəyərin yaradılmasına daha məhsuldar mənbələr yaranır və bütövlükdə iqtisadiyyatın inklüziv inkişafı əlavə stimul verir"* [6].

Ölkəmizdə iqtisadi təhlükəsizliyin gücləndirlməsində investisiyaların cəlbi mexanizmlərinin səmərəliliyi və investisiya mühitinin cəlbediciliyi önəmli rol oynayır [7]. Şəkil 1-də Azərbaycanda 2005-2018-ci illərdə iqtisadiyyata yönəldilən investisiyaların ümumi dinamikası verilmişdir və buradan göründüyü kimi, həmin dövr ərzində ölkə iqtisadiyyatına 114 mlrd. manata yaxın investisiyalar yönəldilmişdir, əgər 2005-ci ildə ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi cəmisi 6,7 mlrd. manat həcmində olmuşdursa, bu göstərici 2015-ci ildə 20 mlrd., 2017-ci ildə 24,46 mlrd. və 2018-c ildə isə 25,9 mlrd. manata yaxın təşkil etmişdir.



Şəkil 1. Azərbaycanda 2005-2018-ci illərdə iqtisadiyyata yönəldilən investisiyaların ümumi dinamikası, mln.manat (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).

Şəkil 2-də Azərbaycanda 2005-2018-ci illərdə iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların dinamikası üzrə müqayisəli təhlili öz əksini tapmışdır və buradan göründüyü kimi, 2016-cı ildən başlayaraq, xarici investisiyaların həcmində nisbi azalma müşahidə olunur.



Şəkil 2. Azərbaycanda 2005-2018-ci illərdə iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların müqayisəli dinamikası, mln.manat (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).

Şəkil 3-də Azərbaycana 2005-2018-ci illərdə cəlb edilmiş birbaşa xarici investisiyaların dinamikasına baxılmışdır və 2015-ci ildən etibarən, birbaşa xarici investisiyaların həcmində azalma diqqət çəkir.



Şəkil 3. Azərbaycana 2005-2018-ci illərdə cəlb edilmiş birbaşa xarici investisiyaların dinamikası, mln. ABŞ doll. (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).

Yaxın perspektivdə ölkədə investisiya mühitinin səmərəliliyinin artırılması və investisiya fəallığının təmin edilməsi ilə bağlı strateji yanaşmaların əhatəsinin daha da genişləndirilməsi tədbirlərində qeyri-neft sektoru sahələrinə investisiyaların əhəmiyyətli səviyyədə yüksəldilməsi strateji hədəf kimi baxılmalı və bununla bağlı zəruri mexanizmlər və fəaliyyət prinsipləri müəyyənləşdirilməlidir. İnvestisiya mühitinin səmərəliliyinin yüksəldilməsi üçün müasir qlobal maliyyə və investisiya çağırışlarına uyğun şəkildə yeni strateji yanaşmaların təmin edilməsi bir zərurət kimi ortaya çıxmışdır və bununla bağlı kompleks tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir [8]. Bu baxımdan, ölkəmizdə investisiya mühitinin cəlbediciliyi ilə iqtisadi təhlükəsizlik

elementləri arasındakı fəaliyyət istiqamətlərinə yanaşmalar dövrün tələblərinə uyğun şəkildə yenilənməlidir:

– Dünya maliyyə və investisiya trendləri, inkişaf səmtləri əsas götürülməklə ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması problemlərinə yanaşmalar ölkənin iqtisadi təhlükəsizlik kontekstində yenidən baxılmalı və daha təsrili, məhsuldar mexanizmlərin hazırlanaraq tətbiq olunması təmin edilməlidir;

– İnvestisiya mühitinin cəlbedicliyi və ölkənin iqtisadi təhlükəsizliyi arasındakı qarşılıqlı fəaliyyətin səmərəlilik problemlərinə kompleks və sistemli şəkildə baxılaraq, bu istiqamətlərdə məqsədli dövlət proqramları, konsepsiyalar və ya strategiyalar hazırlanmalı, invesitisya mühitinin cəlbediciliyi beynəlxalq standartlar səviyyəsinə çatıdırılmalıdır və s.

Ədəbiyyat

1. Вишняков А. И., Герасина О. Н. Формирование инвестиционного климата региона // Проблемы экономики и юридической практики. 2012, с.298-300.

2. Валинурова Л.С. Управление инвестиционной деятельностью. Москва.: Кнорус, 2010, 384 с.

3. Рябинин Е.В., Худоренко Е.А. Совершенствование методики оценки инвестиционного климата страны// Журнал Статистика и экономика. Том 13, №5, 2016, с. 18-22.

4. Смаглюкова Т.М. Методика комплексной оценки инвестиционной привлекательности регионов с учетом их отраслевой специализации// Журнал Проблемы современной экономики. №3 (23), 2007, с.-51-59.

5. “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair” Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.

6. Ataşov B.X. Maliyyə bazarları. Bakı: Kooperasiya nəşriyyatı, 2016, 456 s.

7. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.

8. “İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 18 yanvar 2018-ci il.

Резюме

Мамедова Е.Б.

Теоретико-методологические проблемы взаимозависимости привлекательности инвестиционной среды и экономической безопасности

В статье исследованы теоретико-методологические проблемы взаимозависимости привлекательности инвестиционной среды и экономической безопасности. С этой целью анализирована сущность инвестиционной среды и вопросы экономической безопасности. Рассмотрены актуальные проблемы обеспечения инвестиционной привлекательности в стране в контексте усиления экономической безопасности. Обобщены необходимые мероприятия по улучшению инвестиционной среды с учетом глобальных финансовых и инвестиционных вызовов в современном периоде. Отмечена важность осуществления современных подходов к привлечению иностранных инвестиций в разные сферы экономики страны. Подготовлен ряд рекомендаций и предложений по повышению инвестиционной привлекательности с учетом усиления экономической безопасности страны в условиях ускорения экономических процессов.

Ключевые слова: *привлекательность инвестиционной среды, экономическая безопасность, проблемы инвестиционной привлекательности, взаимосвязь инвестиционной*

привлекательности и экономической безопасности, проблемы формирования инвестиционной среды, современные аспекты инвестиционной политики государства.

Summary
Mammadova E.B.
Theoretical and Methodological Problems of Interaction of Attractiveness of Investment Environment and Economic Security

The theoretical and methodological problems of interaction of attractiveness of investment environment and economic security are explored in the article. The essence of the investment environment and issues of economic security are analyzed for this purpose. Main problems of ensuring investment attractiveness in the country in the context of strengthening economic security are considered then. The necessary measures to improve the investment environment taking into account the global financial and investment challenges in the modern period are investigated too. The importance of implementing modern approaches to attracting foreign investments in different spheres of the economy of the country is disclosed. A number of recommendations and proposals to increase investment attractiveness, taking into account the strengthening of the economic security of the country in the context of current economic processes are given in the end of the article.

Key words: *attractiveness of investment environment, economic security, problems of investment attractiveness, interaction of investment attractiveness and economic security, problems of formation of investment environment, modern aspects of investment policy.*

AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI PROBLEMLƏRİ VƏ XARİCİ İNVESTİSİYALAR

Məmmədova Əzizə Mətləb qızı
Milli Aviasiya Akademiyası
Pürhani Səfər Həsən oğlu
Milli Aviasiya Akademiyası
ezizemammadova@gmail. com

Xülasə: *Azərbaycanda hər sahədə aparılan məqsədyönlü siyasət daha yüksək nəticələr verir, iqtisadi müstəqilliyin möhkəmlənməsinə kömək edir, eyni zamanda ölkənin maliyyə imkanlarını genişləndirir. Bu gün uğurlu siyasət nəticəsində respublikamız davamlı inkişaf edir və Cənubi Qafqaz regionunda aparıcı ölkələrdən birinə çevirilmişdir. Mövcud siyasətin əsas məqsədi dövləti daha da gücləndirmək və xalqın rifah halını artırmaqdır.*

Açar sözlər: *iqtisadiyyat, inkişaf, inteqrasiya, investisiya, neft, qeyri-neft, islahatlar, proqramlar, sosial, sənaye*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra yeni bir iqtisadi sistemə qədəm qoymuşdur. Məqsəd bazar iqtisadiyyatına keçid, dünya ölkələri ilə iqtisadi əlaqələrini genişləndirmək və ölkə iqtisadiyyatının açıqlığına şərait yaratmaqdı. Müstəqillik qazandıqdan sonra ölkəmizdə həyata keçirilən siyasət nəticəsində iqtisadiyyatında baş verən geriləmə aradan qalxdı, ölkənin iqtisadi inkişafı möhkəm təməllər üzərində quruldu. Artıq Azərbaycan özünün müstəqil iqtisadi siyasətini həyata keçirməyə başladı.

Xarici ticarət fəaliyyətinin tənzimlənməsi və onun dünya standartlarına uyğunlaşdırılması sahəsində bir sıra qanunlar qəbul etdi. Xarici ticarət siyasəti ölkənin ümumi iqtisadi siyasətinin əsas amillərindən birinə çevrildi. Qəbul olunan bu qanunlarda beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr nəzərə alınırdı. Məqsəd ölkədə istehsalçıların, istehlakçıların hüquqlarının qorunması onlar üçün əlverişli şəraitin yaradılması o cümlədən beynəlxalq şirkətlərin xidmətlərindən istifadə etməkdir. Azərbaycan dünyada neft və neft məhsulları, kimya sənaye məhsulları, tikinti materialları, kənd təsərrüfatı məhsulları istehsal etdiyi bir ölkə kimi tanınır. Əhalinin rifah halını yaxşılaşdırmaq, iqtisadiyyatın bütün sahələrində inkişafa nail olmaq o cümlədən mövcud olan təbii sərvətlərdən istifadə etmək üçün güclü maliyyə vəsaiti tələb olunurdu. Ona görə də respublikamız xarici şirkətlərin ölkəmizə kapital qoyuluşlarına şərait yaratdı. Transmilli Şirkətlərin Azəribaycana gəlişi 1994-cü il 20 sentiyabr tarixində imzalanmış "Əsrin müqaviləsi" ilə oldu.

"Əsrin müqaviləsi" Azərbaycanın ümummilli lideri Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində həyata keçirildi. Bu müqavilə ölkəmizdə iqtisadi inkişafın əsasını qoydu . Neft sektorunun inkişafında əsaslı rol oynadı, xarici investorların ölkə iqtisadiyyatına maraqlarını artırdı. Bu müqavilənin Azərbaycan Respublikası üçün əhəmiyyəti çox böyükdür. Dünya bazarında neftin qiymətinin yüksək olduğu bir dövrdə ölkəmizə küllü miqdarda valyutanın axmasına və dövlət büdcəsinin gəlirlərinin artmasına səbəb olmuşdur. Neft satışından əldə etdiyi vəsaitlər hesabına ölkəmiz artıq investisiya idxal edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmişdir.

Bu gün Azərbaycan Türkiyə, Gürcüstan və dünyanın müxtəlif ölkələrinin iqtisadiyyatına investisiya yatıran investordur. Ölkədə aparılan uğurlu sosial –iqtisadi siyasətin nəticəsidir ki, neft satışından əldə edilən vəsaitlər ölkə iqtisadiyyatının inkişafı üçün səmərəli istifadə edilir. 2015-ci ildə dünya bazarında neft qiymətlərinin aşağı düşməsi və bir sıra iqtisadi amillərin dəyişməsi ölkəmizdə aparılan sosial–iqtisadi siyasətin istiqamətini dəyişməyə və onun daha səmərəli şəkildə həyata keçirilməsini qarşıya qoydu. Dövlət qeyri-neft sektorunu iqtisadiyyatın inkişafının əsas amillərindən biri kimi qiymətləndirərək onun dinamik inkişafı üçün müxtəlif işlər gördü. Görülən işlər dövlət tərəfindən qəbul edilən müxtəlif Dövlət Proqramlarında öz əksini tapdı. Bu gün ölkəmizdə ixracı artırmaq, idxaldan aslılığı azaltmaq, eyni zamanda iqtisadiyyatın bir sahəli inkişafının qarşısını almaq məqsədi ilə regionlarda mövcud olan təbii sərvətlərin ixraca cəlb edilməsi, ölkəmizin ixrac potensialının inkişaf etdirilməsi üçün çoxlu işlər görülür. 2004-2008, 2009-2013, 2014-2018-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədi ilə ölkə rəhbəri İlham Əliyev tərəfindən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları imzalanmışdır.

Qəbul olunan bu proqramlarında regionların potensialarından keyfiyyətli şəkildə istifadə etmək yeni sənayə sahələrini yaratmaq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, digər infrastruktur obyektlərinin yaradılacağı nəzərdə tutulmuşdur. Bütün bunlar ölkəmizin iqtisadiyyatının inkişafında öz müsbət təsirini göstərmişdir. Belə ki regionlarda mövcud olan təbii sərvətlərdən istifadə etməklə əhalinin tələbatı ödəniləcək, bir sıra məhsulların ölkəyə idxalı azalacaqdır eyni zamanda keyfiyyətli məhsulların dünya bazarına çıxarılması nəticəsində ölkənin ixrac qabilliyyəti artacaqdır. Bu gün respublikamızda qeyri-neft sektoru yeni bir inkişaf yoluna qədəm qoyub.

Təsadüfü deyil ki, ölkədə qeydə alınan ən yaxşı inkişaf göstəriciləri məhz qeyri-neft sənayesinin payına düşür. Ölkəmizdə iqtisadiyyatın inkişafı və onun davamlığını təmin etmək məqsədi ilə ölkə rəhbəri cənab İlham Əliyevin 16. 03. 2016-cı ildə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiq etmişdir. Qəbul edilmiş yol

xəritələrində iqtisadiyyatın 11 sektoru, 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilə qədər olan dövr üçün uzunmüddətli baxış, 2025-ci ildən sonra hədəf baxışını özündə əks etdirir. Dövlət tərəfindən iqtisadiyyatın inkişafı üçün aparılan siyasətin əsas istiqamətlərindən biridə iqtisadiyyatın çox şaxəli olmasıdır. Bu gün ölkə iqtisadiyyatının əsas prioritet sahəsi kimi qeyri-neft sahəsinin inkişafına ölkə rəhbəri xüsusi diqqət ayrılıb.

Ölkə rəhbəri İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə sənayenin eyni zamanda qeyri-neft sənayesinin inkişaf etdirmək məqsədi iqtisadiyyatın müxtəlif sahələri üzrə sənaye məhəllələri və sənaye parkları yaradılır. Məsələn 21. 12. 2011-ci tarixli prezidentin fərmanına uyğun olaraq SKS Parkı yaradıldı. Bundan başqa Masallı, Hacıqabul, Sabirabad sənaye parklarının tikintisi də başa çatmaq üzrədir. Həyata keçirilən islahatlar, aparılan quruculuq işləri ölkədəki makroiqtisadi sabitliklə əlaqədardır. 2018-ci ilin ilk altı ayının məlumatlarına görə qeyri-neft sahəsində iyirmi milyon altı yüz otuz yeddi min manatlıq məhsul yaradılmışdır ki, bunun da əlli üç faizi ticarət, tikinti sahələri, nəqliyyat vasitələrinin təmirinin payına düşmüşdür. 2018-ci ilin ilk altı ayında yaradılan dəyər ötən ilin müvafiq dövrüdə qeyri-neft sektorunda yaradılan əlavə dəyərdən iki faiz çox olmuşdur. Ümumidaxili məhsulun əlli altı faizini qeyri-neft sektorunda yaradılan əlavə dəyər təşkil etmişdir. Respublikamızda görülən işlər, qəbul olunan dövlət proqramları əhalinin məşğulluğunun təmin edilməsinə, sağlam investisiya şəraitinin yaradılmasına, xalqın rifah halının yaxşılaşmasına, ümümillikdə isə ölkə iqtisadiyyatının inkişaf etdirilməsinə şərait yaradır.

Ölkədə aparılan uğurlu sosial-iqtisadi siyasətin göstəricisidir ki, bu gün Respublikamız Cənubi Qafqaz regionunun lider ölkəsinə çevrilib və regionun iqtisadiyyatının 70% məhz ölkəmizin iqtisadiyyatının payına düşür. Göründüyü kimi dövlət tərəfindən müvəffəqiyyətlə həyata keçirilən işlər Azərbaycan Respublikasının yüksək templə inkişafına səbəb olmuşdur. Ölkə iqtisadiyyatına cəlb edilən vəsaitlərin qeyri-neft sektoruna yönəldilməsi, birgə sahibkarlığın inkişaf etdirilməsi, xarici şirkətlərin iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərilməsi üçün dövlət tərəfindən stimullaşdırıcı tədbirlər görülür.

Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı bazar münasibətlərinə əsaslanan sosialyönümlü inkişafa şərait yaradır, xalqın rifah halının yüksəldilməsinə, onların layiqli həyat səviyyəsinin təmin edilməsinə xidmət edir. Azərbaycan yeni bir iqtisadi inkişaf yoluna qədəm qoyub. Ölkədə siyasi və sosial sabitlik təmin olunub. Bu da ölkəmizin iqtisadi inkişafına təsir edən əsas amillərdən biridir. Xalqın rifah halının yaxşılaşdırılması, onların həyat səviyyəsinin yüksəldilməsi dövlətin ali məqsədidir. Dövlət tərəfindən atılan adımlarda məhz bu məqsədə söykənir. Həyata keçirilən siyasətində bir məqsədi var Azərbaycanı daha güclü bir ölkəyə çevirmək.

Ədəbiyyat

1. Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Republikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 16 mart tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamı

3. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

4. Kərimov C., Hüseynov C. Beynəlxalq iqtisadi münasibətlər. Bakı,1999

Резюме

Мамедова А.М., Пурхани С.Г.

Проблемы развития ненефтяного сектора Азербайджана и иностранные инвестиции

Проводимая в жизнь в Азербайджане целеустремлённая политика во всех сферах дает все большие результаты, помогает укреплять экономическую независимость, а также расширяет финансовые возможности страны. Сегодня в результате проводимой успешной политики в регионе Южного Кавказа, республика непрерывно развивается, и превратилась в одну из стран - лидеров. Основная цель проводимой политики сделать государство еще более сильным и повысить благосостояние народа.

Ключевые слова: *экономика, развитие, интеграция, инвестиции, нефть, ненефтяные, реформы, программы, социальные, промышленность*

Summary

Mammadova A.M., Purhani S.H.

Azerbaijan Non-Oil Sector Development Problems and Foreign Investments

As a result of the policy being pursued by Azerbaijan, we have achieved great success in all spheres, attained economic independence, and expanded our financial opportunities. As a result of this policy, today our republic continues to grow stronger, and has become a leading country in Southern Caucasus region. The main aim of the policy was also to strengthen our country and improve welfare of our population.

Keywords: *economy, development, integration, investment, oil, non-oil, reforms, programs, social, industry*

MÜASİR DÖVRDƏ DÜNYANIN EKOLOJİ PROBLEMLƏRİ

Məmmədova Rəna Elxan qızı

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

memmedlirena@yahoo.com

Xülasə: *Son illər dünyanın ekoloji cəhətdən sağlam bir dünyaya çevrilməsi bəşəriyyəti düşündürən ən əsas məsələlərdən biridir. Dünyada və ölkəmizdə uzun illərdən bəri sənaye sahələri nəticəsində ekoloji problemlər vaxtında öz həllini tapmadığı üçün respublikamızda ətraf mühiti xeyli çirkləndirilmişdir. Ekoloji tarazlığın pozulması nəticəsində qlobal istiləşmə, havanın çirklənməsi, istixana effekti, ozon qatının deşilməsi,okeanların çirklənməsi və yer kürəsində yaşayan canlıların müxtəlifliyinin azalması daxildir. İqtisadi fəaliyyət zamanı meydana çıxan ciddi ekoloji problemləri aradan qaldırmaq, onların ətraf mühitə mənfi təsirinin minimuma endirilməsi əsas məsələlərdən biridir. Bunun üçün məqalə müasir dövrdə yaranmış ekoloji vəziyyətin yaxşılaşdırılması üçün əsas məsələlərin həllinə yönəlmişdir.*

Açar sözlər: *qlobal, ekoloji problemlər, qlobal istiləşmə, çirklənmə, ekoloji tarazlıq və s.*

Bu gün bəşəriyyətin üzləşdiyi qlobal təhlükəsizlik təhdidləri arasında ən aktual məsələlərdən biri olan ekoloji problemlərdir ki, canlı aləmə ziyan vurduğu üçün bəşəriyyətin mövcudluğu sual altındadır. Qloballaşmanın əsas problemi sosial və texnoloji sahələrin çox tez dəyişməsidir və bütün bunlar qlobal iqtisadiyyatda yeni disbalansa səbəb olur.

Təxminən 1970-ci illərdən bəri dünyadakı mövcud ekoloji problemlər kimi okeanlar və dənizlərin çirklənməsini, meşə örtüyünün azalmasını, iqlim dəyişilməsini və havanın çirklənməsini, planetdəki bütün həyatı ölümcül kosmik şüalardan qoruyan ozon qatında dəliylərin yaranmasını, mineral ehtiyatların azalmasını və s.-ni hesab etmək olar.

XX əsrin ikinci yarısında bəşəriyyət qlobal xarakter daşıyan problemlərlə üzləşdi.1950-ci illə müqayisədə dünyanın sənaye istehsalı yeddi dəfə, əhalisi isə 2,5 dəfə artdı (2019-cu ildə əhali 7 milyard nəfərə çatdı). Dünya əhalisi artdıqca istehlakın kəskin artması və gələcəkdə bərpa edilə bilməyən təbii ehtiyatların tükənməsi də artır. İqtisadi inkişafın ətraf mühitə təsiri, bərpa olunmayan mənbələrin artan istehlakı, çirklənmənin daha yüksək səviyyəsi, qlobal istiləşmə və ətraf mühitin potensial itkisi səbəb olmuşdur. Təkmilləşdirilmiş texnologiya nəticəsində yaranan iqtisadi artım daha az çirklənmə ilə daha yüksək məhsul çıxara bilər. Alimlər CO_2 tullantılarının toplanmasının qlobal istiləşməyə və daha dəyişkən hava şəraitinə səbəb olduğunu bildirirlər. Bütün bunlar iqtisadi artımın uzunmüddətli ekoloji xərclərin artdığını göstərir. Bu sahəyə qoyulan investisilar nəticəsində qazın çox hissəsi mühafizə olunur, lakin bu sahədə də ekoloji tarazlıq tam təmin olunmur. Bütün bunlar nəticəsində dünyanın neft hasilatı sahələrində minlərlə qaz sızması halları ildə təxminən 140 milyard m^3 təbii qaz yandırır və atmosferə 300 milyon ton CO_2 çıxarmağa səbəb olur.

Qazın alovlanması iqlim dəyişikliyinə səbəb olur və CO_2, qara karbon və digər çirkləndiricilərin emissiyası ilə ətraf mühitə təsir göstərir. O, həmçinin, neftqaz istehsal edən ölkələrin davamlı inkişafını zəiflədir qiymətli enerji resurslarını tullantı edir. Məsələn, əgər bu qaz miqdarı elektrik enerjisinin istehsalı üçün istifadə olunarsa, bu, təxminən 750 milyard kilovatsaata yaxın elektrik enerjisi təmin edə bilər və ya Afrika qitəsinin illik elektrik istehlakından çoxdur. Səmt qazından düzgün istifadə olunduqda digər məhsuldar yollarla istifadə edilə bilər.

Dünyada adambaşına görə ən böyük CO_2 emitentləri əsas neft istehsal edən ölkələrdir və Əksəriyyəti Yaxın Şərqdə yerləşir. 2017-ci ildə Qatarda ən yüksək tullantı adambaşına 49 ton (t), ardınca Trinidad və Tobaqo (30t); Küveyt (25t); Birləşmiş Ərəb Əmirlikləri (25t); Bruney (24t); Bəhreyn (23t) və Səudiyyə Ərəbistanı (19t).

XXI əsrdə insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin intensivləşməsi, həddindən artıq istifadəsi, ekoloji balansın qorunmaması, təbii resurslardan səmərəli istifadə edilməməsi, su və torpaqdan istifadənin qarşısının alınmasının qlobal problemə çevrilmişdir.



Mənbə: World Bank (2017)

Hava və suyun çirklənməsi, havanın tullantıları, yüksək miqdarda CO2 və ümumiyyətlə bütün ekoloji problemlər - dünyada ölüm səbəblərindən biridir. **Ümumdünya Səhiyyə**

Təşkilatının mütəxəssislərinin hesablamalarına görə 2019-cu ildə ətraf mühitin çirklənməsi nəticəsində ölüm dərəcəsinə görə ölkələr aşağıdakı diaqramda verilmişdir.[7]

BMT-nin keçirdiyi beynəlxalq konfranslarda qəbul edilmiş razılaşmalar və qətnamələr əsasında yaranmış Minilliyin İnkişaf Məqsədləri (MİM) ekoloji aspektləri, dayanıqlı inkişaf prinsiplərinin milli strategiya və proqramlara inteqrasiyası, təbii ehtiyatların itirilməsi və ekoloji xidmətlərin mövcudluğunun artırılması kimi hədəf göstəriciləri müəyyənləşdirən 7-ci Məqsəddə "Ətraf Mühitin Davamlılığının Təmin edilməsi" bölməsi təyin edilmişdir. Ətraf mühitin dayanıqlığı təmin edilmədiyi təqdirdə, qalan MİM-lərin həyata keçirilməsi qısa müddət üçün formalaşacaqdır. Məsələn, dünya əhalisinin sayını sabitləşdirmədən ekoloji problemlərin inkişafını dayandırmaq mümkün deyildir. Əlbəttə ki, ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması bəşəriyyətin üzləşdiyi bütün problemlərin həllinə bərpa etməyəcəkdir, lakin MİM-lərin bir çoxu (hamısı olmasa da) ətraf mühit vəzifələri ilə sıx bağlıdır və ətraf mühitin qorunması üçün aktiv tədbirlər bir çox Məqsədlərə çatmaq üçün ən səmərəli mexanizmlərdən birinə çevrilə bilər.

Davamlı inkişaf konsepsiyasının qaydalarına əsasən, ətraf mühitin qorunmasına dair qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, iqtisadi inkişafın ekoloji balansın vəhdət təşkil etməsi, səmərəli monitorinq və nəzarət mexanizmlərinin yaradılması, alternativ enerji qaynaqlarından səmərəli və dayanıqlı istifadə planetimizlə yanaşı ölkəmiz üçün də yaranacaq zərərin qarşının alınması istiqamətində mühüm rol oynayacaq. Bununla yanaşı, Azərbaycanda ətraf mühitin qorunması sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, ətraf mühitin mühafizəsi mədəniyyətinin aşılanması məqsədi ilə ictimaiyyətin məlumatlandırılmasına xüsusi diqqət yetiriləcəkdir.

Qlobal ekoloji problemlərin həllində, ekoloji təhlükəsizliyin təmin edilməsində, ətraf mühitin çirklənməsinin minimuma endirilməsində, təbii ehtiyatlardan səmərəli istifadəsində və s. bəzi irəliləyişlər əldə olunmasına baxmayaraq bir sıra qlobal problemlər tam həll edilməmişdir.

Beləliklə, ekoloji vəziyyət hər bir ölkənin və bütövlükdə dünyanın əsas problemlərindən biridir. Yalnız insan fəaliyyətinin nəticələri barədə düşünmək deyil, ətraf mühitin qorunması üçün tədbirlər görmək lazımdır, çünki yaxşı torpaq münbitliyi, təmiz hava, bitki örtüyü olmadan bəşəriyyət mövcud olmayacaqdır.

Ədəbiyyat

1. Ekologiya. Dərs vəsaiti. Bakı: İqtisad Universitetinin Nəşriyyatı, 2012, 392 s.
2. Xəlilov T.A., Zeynalova M.Ə. Qlobal ekoloji problemləri (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: MBM, 2013, 212 s.
3. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya, ətraf mühit və insan. Bakı: Elm nəşriyyatı, 2006, 608 s.
4. www.google.com
5. www.ebooks.azlibnet.az
6. https://moluch.ru
7. data.worldbank.org

Резюме

Мамедова Р.Э.

Экологические проблемы в современном мире

В последние годы превращение мира в экологически здоровый мир является одной из самых важных проблем человечества. Окружающая среда в нашей стране была

значительно загрязнена, так как долгие годы в мировых странах не были решены экологические проблемы. Последствия при нарушении экологического баланса включает в себя глобальное потепление, загрязнение воздуха, парниковый эффект, истощение озонового слоя, загрязнение океанов и сокращение разных живых видов на Земле. Одним из ключевых вопросов является устранение серьезных экологических проблем, возникающих в процессе хозяйственной деятельности и минимизация их негативного воздействия на окружающую среду. Для этого статья ориентирована на решение ключевых вопросов для улучшения экологической ситуации в современном мире.

Ключевые слова: *глобальные, экологические проблемы, глобальное потепление, загрязнение окружающей среды, экологический баланс.*

Summary

Mammadova R.E.

Environmental Issues in the Modern World

The advancement of the world in ecologically healthy mayors has been delayed by the simple problem of the past, the sophistication of the human race. Incredibly inflated areas of the wild are just as damaging as the advances in the world and the environmental problems. Exposure to ecologically balanced ecosystems, globally indistinguishable, greenhouse effect, ozone depletion, decay of the oceans, and sedimentation. Simplified from the keywords, they are subjected to numerous environmental problems, which are reflected in the process of underestimation, and minimization of negative negativity. With a celestial megalopolis on the outskirts of the cliffs, uncontrolled ecosystems in the modern epoch.

Key words: *global, environmental problems, global warming, environmental pollution, ecological balance.*

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN AKVATORİYASINDA GƏMİLƏRİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATINDA GEOLOJİ-COĞRAFİ XÜSUSİYYƏTLƏRİN ROLU

Mirzəyev Fuad Əkrəm oğlu
Azərbaycan Dövlət Dəniz Akademiyası
mirzayev.f@mail.ru

Xülasə: *Məqalədə Xəzər dənizinin Azərbaycan akvatoriyasında gəmilərin təhlükəsizliyinin təminatında geoloji-coğrafi xüsusiyyətlərin rolu təhlil olunmuş, şelf zonanın geoloji quruluşu, dib çöküntülərinin paylanması, akvatoriya daxilində aşkar edilmiş sualtı manelər öyrənilmişdir. Bununla yanaşı, gəmilərin hərəkətinə neqativ təsir edən çoxsaylı naviqasiya maneləri: bankalar, adalar və dayazlıqlar, palçıq vulkan püskürmələri və onların yaratdığı relyer formalarının tədqiq edilmişdir. Çünki regionun gəmiçilik baxımından ən intensiz rayonu olan Xəzər dənizinin Azərbaycan akvatoriyası son illər neft və qaz sənayesinin inkişaf etdirilməsi ilə əlaqədar gəmilərin hərəkətinin təhlükəsizliyinin təminatı olduqca vacib bir məsələdir.*

Açar sözlər: *Xəzər dənizi, banka, ada, dayazlıq, palçıq vulkanı, çökəklik, dib relyefi*

Xəzər dənizinin suyu okean mənşəlidir, dəniz qədim dövrdə okeanla birləşmiş, Aralıq, Qara və Azov dənizləri ilə birlikdə Para Tetis okeanının tərkibində olmuşdur. Xəzər dənizinin suyunun orta duzluğu 12,0‰ təşkil edir (okean suyunun orta duzluluğu 35‰-dir). Duzlulğun aşağı olması dənizin qapalı olması və çay axımlarının böyük olması ilə əlaqədardır [3]. Xəzər suyunda okean sularına nisbətən karbonat və sulfatların miqdarı çox, xloridlərin miqdarı isə azdır.

Son onilliklərdə Xəzər dənizində karbohidrogen ehtiyyatların kəşfi və istismarı, hidrotexniki qurğuların inşası və s. işlərlə əlaqədar dəniz şelfində gəmiçilik fəaliyyətləri xeyli artmaqdadır. Xəzərin neft yataqlarının istismar planına əsasən bütün dəniz üzrə 2020-ci ilə dənizdən neftçıxarma ildə 120-150 mln tona çatmalıdır. Nəticədə hər il dəniz daşımalarının miqdarı artmışdır ki, bu da dənizdə müxtəlif istiqamətlərdə neft və neft məhsullarının daşınma həcmini artırmışdır. Daşınmalarda Azərbaycan "Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin, Qazaxıstan "Qazaxdəniznəqliyyat donanması" və Rusiya Federasiyasının gəmilərindən və həmçinin özəl kampanyalar "Volqa Tanker", "Palmali", "Anişip" gəmilərindən geniş istifadə edilir. Baxmayaraq ki, bu məqsədlə müasir tələblərə cavab verən yeni gəmilərdən istifadə edilir, Xəzər dənizində gəmilərinin xeyli hissəsi köhnə gəmilərdən ibarətdir.

Yüklərin daşınmasında əsas problem Xəzər dənizində baş verən proseslərin vahid mənzərəsinin olmaması, dənizdə üzən gəmilərin keyfiyyəti və texniki vəziyyətləri ilə əlaqədardır. Dənizdə daşımalarla əlaqədar dəqiq rəsmi məlumatlar, onların təhlükəsizliyinin təmin olunması üzrə informasiyalar xeyli məhduddur. Vəziyyəti gərginləşdirən məqam həm də onunla əlaqədardr ki, Xəzərətrafı 5 ölkənin hər birinin öz xüsusi qaydaları və normativlər toplusunun olmasıdır. Bu sahədə açıq informasiyaların olmaması vəziyyəti daha da gərginləşdirir.

Xəzər dənizinə həm dəniz, həm də okeanlarla birbaşa əlaqəsinin olmaması, onlardan min kilometrlərlə uzaqda yerləşməsi və s. xüsusiyyətlər məxsusdur. Ona görə də Xəzəri həm dəniz, həm də göl kimi qəbul edirlər. Qeyd etmək lazımdır ki, Xəzər dənizi hər yerdə dəniz kimi qəbul edilir. Çünki onun məxsusi ölçüləri və onda baş verən proseslərin miqyasları qlobal xarakter daşıyır və onu dəniz adlandırmağa imkan verir. Xəzər dənizi dünya okeanlarının dənizləri içərisində cənub dənizləri katoloquna daxil edilmişdir. Fiziki-coğrafi xüsusiyyəti, dibinin relyefi və sahillərin morfologiyasına görə Xəzər dənizi şərti olaraq üç hissəsyə Şimali, Orta və Cənubi Xəzərə bölünür. Dənizin Azərbaycan akvaroriyasında gəmiçiliyin təhlükəsizliyində şelf zonasının geoloji quruluşu vacib faktorlardan biridir [7]. Dənizin Azərbaycan akvatoriyası əsasən Orta və Cənubi Xəzərin qərb hissələrini əhatə edir (şəkil 1).

Azərbaycan akvatoriyasında dib relyefinin elementlərinə: şelf, Orta Xəzər dərin çökəkliyinin dibi və yamacı aid edilir [6]. Burada maksimal dərinliklərin paylandığı dəniz əraziləri qərb yamacına tərəf sıxılmışdır. Bu da çökəkliyin profilinə assimmetriya xarakteri verir. Orta Xəzərin qərb sahil şelfi nisbətən dardır. O, üzərində dərinliyin Mahaçkala en dairəsində 100 m-dən Dəvəçi en dairəsində 75 m-ə qədər dəyişdiyi kifayət qədər dəqiq ifadə olunan "qaşla" bitir [4]. Abşeron yarımadasına yaxınlaşdıqca şelfin qaşı təzədən 80-100 m dərinliyə qədər batır. Şelfin səthi sahilə yaxın zonada kələ-kötür relyeflə fərqlənir. Bu onunla əlaqədardır ki, çox böyük (köklü) süxurlar dənizə doğru düşmə bucağının böyük olması ilə əlaqədar dibin səthinə çıxır və dibdə 5-10 m hündürlüyə qalxan assimmetrik silsilələr sistemini yaradır [8]. Regionda Xəzər dənizinin iri relyef elementi olan Abşeron astanasının təsiri ilə Abşeron yarımadasından şimala doğru şelf xeyli genişlənir.

Orta Xəzərin şimal hissəsi daha hamar dibə malikdir. Lakin burada da 20 m-lik izobatdan aşağı dərinliklər nisbətən tez artır. Orta Xəzərin mərkəzi çökəkliyinin materik yamacı qərb və şərqdə müxtəlif quruluşa malikdir. Çökəkliyin qərb yamacı dar və kəskindir. Dərbənd çökəkliyinin

400 m-lik izobatı şərti olaraq onun sərhədi kimi götürsək, o Samur çayının əks tərəfində sahildən 25 km aralı keçir [9].



Şəkil 1. Xəzər dənizinin ümumi görünüşü

Çökəkliyin şərq yamacı çox uzanmışdır. Orta Xəzər çökəkliyinin bütün periferiyası üzrə yayılmış geniş hamarlanmış səth materik yamacın üst hissəsi relyefinin vacib elementidir. O, Abşeron astanasının şərqindən Qum adasına qədər müşahidə olunur, şimaldan Abşeron yarımadasını əhatə edir və çökəkliyin şimal-qərbində dəqiq ifadə olunur. Onun eni 5 m-dən 10 m-ə qədər, dərinliyi isə Abşeronun şimalında 120 m-dən şimal-qərb ərazisində 310 m-ə qədərdir [10]. Burada meyllər şelf səthinin ümumi meylinə yaxındır, lakin bəzi yerlərdə tektonik deformasiyaların hesabına daha artır. Bu hamarlanmış səth qədim dövrdə burada enmiş strukturlarla əlaqədardır. Ondan başqa burada materik yamacının orta hissəsində bir neçə pillə müəyyən edilmişdir (240-250; 280-320; 334-350 m dərinliklərində), onların yaranma səbəbləri indiyə qədər məlum deyil. Exolot ölçmələri göstərir ki, burada səth çöküntülərinin qalınlığı böyük deyil və əsas süxurlar dəniz dibi səthinə yaxın yerləşir.

Orta Xəzər çökəkliyi şimal-qərb istiqamətində geniş açıqdır, cənub-qərbdə kifayət qədər kəskin məhdudlaşmışdır və nisbətən zəif formada şərq və cənubda qeyd olunmuşdur. Çökəkliyin müstəvivari hissəsi 600 m-lik izobatların daxilində yerləşir, həm də onun ən dərin hissəsi (788 m) qərb sahili yaxınlığındadır. 600 və 400 m dərinlikləri arasında az meylli dalğavari düzənlik yerləşir. Çökəkliyin cənub hissəsinin xüsusiyyəti orada geniş meridional istiqamətdə uzanan və Abşeron astanasının şimal yamacı hüdudlarında məhdudlaşan düzənliyin olmasıdır. Şərq tərəfdən bu düzənlik materik yamacı kəsən bir neçə sualtı konyonla açılır.

Dib çöküntülərinin paylanmasında da Orta Xəzərin qərb və şərq hissələri arasında ciddi fərq mövcuddur. Şərq sahil şelfində kiçik ölçülü terrigen çöküntülər üstünlük təşkil edir və aşağıdakı qanunauyğunluq mövcuddur: burada sahil yanında xırda və orta qum müşahidə olunur, bu da çayların töküldüyü ərazilərdə çöl qumu ilə əvəz olunur [5]. Bu dəniz rayonunda 15-20 m dərinliklərində qumlu gil qatı yerləşir. Sonra şelfin kənarı boyu 30-50 m dərinliyində yenidən kobud çöküntülər müşahidə olunur. Qərb sahil zonasında əsas süxurların qalxması kifayət qədər çoxalır,

lakin onların yayılması dar bir zona ilə məhdudlaşır. Onlar əsasən dağların dənizə yaxınlaşdığı yerlərə aiddir və adətən 15 m-dən az dərinliklərdə müşahidə olunur.

Orta Xəzər çökəkliyi Cənubi Xəzər çökəkliyindən en dairəsi istiqamətində uzanan hündürlüklə, Abşeron astanası ilə ayrılır. Relyefin quruluşuna görə baxılan ərazi 4 hissəyə bölür: 1) Qərb; 2) Neft Daşları bankasından şimal-şərq və şərqə doğru olan ərazi; 3) mərkəzi; 4) şərq.

Mərkəzi depresiyadan şərqə doğru dördüncü, astananın sahə və eninə görə ən böyük sahəsi yerləşir. Burada dərinlik 100 m-dən azdır və şərqə doğru azalır və astana Türkmənbaşı və Çelekən şelf rayonu ilə birləşir [1]. Qeyd etmək lazımdır ki, bu astana hüdudlarında çoxsaylı sualtı manelər aşkar edilmişdir ki, onların geoloji kəşfiyyatı vasitəsilə yeni neft-qaz yataqları kəşf edilmişdir. Kəskin enmələrə, parçalanmalara məruz qalan bəzi yerlərdə pilləvari xarakter alan, bəzi yerlərdə çoxsaylı sualtı konyonlarla əhatə olunan bu astana Cənubi Xəzər çökəkliyinə doğru qırılır. Son 30-40 ilin tədqiqatları göstərir ki, Cənubi Xəzərin dibinin relyefinin quruluşu da xeyli mürəkkəbdir.

Cənubi Xəzərin sualtı relyefinin əsas elementləri şelf, materik yamac, dərin su çökəkliyinin dibi və sualtı silsilələrdir. Qərb sahilin şelfi xırda hissəcikli dibləri olan geniş müstəvi sahələrin əvəzlənməsi, həm də cənub-cənub şərq istiqamətində yerləşmiş silsilə görünüşlü daş bankalar ilə xarakterizə olunur.

Çoxlu bankalar Bakı arxipelaqı adalarının əsasını təşkil edir və onlar əksər hallarda palçıq-vulkan mənşəli olmasını göstərir. Bu şelfin şimal hissəsində hamarlanmış sahələr üstünlük təşkil edir. Sualtı relyefin ən böyük müsbət forması Makarov bankasıdır, onun üzərindəki dərinlik 2-4 m, onu əhatə edən dərinliklər isə 14-20 m tərtibindədir [2]. Bu rayonda palçıq vulkan püskürmələri olması da məlumdur. Bankalar və sualtı daşlar həm də adaların birinci silsiləsi Səngəçal burnundan başlanır, Duvannı və Xarə-Zirə adalarını özünə daxil edir. Ondan cənubda Ələt sualtı daşlar silsiləsi, daha cənubda isə Pirsaat burnundan sualtı hündürlük gəlir, ayrı-ayrı sualtı hündürlüklər Çilov, Qarasu, Daşlı və s. adalarını təşkil edir. Digər ada və bankaların silsiləsi Bəndovan burnundan başlayaraq Çigil adası, Yanan Tava, Atəşgah, Kür və Şirvan-dəniz adaları, şimal tərəfdə Çiqil-dəniz bankası yerləşmişdir, və o periodik olaraq adaya çevrilir, yəni, əslində palçıq vulkanıdır. Kür mənsəbindən cənuba doğru bircins müstəvi şelf hüdudlarında kəskin çıxış edən relyef forması Kür Daşı adası mövcuddur. Ondan şimal-şərq istiqamətində 20 m dərinlik hüdudlarında müstəvi dib səthi üzərində Muğan-dəniz, şərqə doğru isə İnam bankası qalxır. Bu rayonda güclü neft aşkarlanmaları qeyd olunur. Kür Daşından cənuba doğru şelf sürətlə darlalır, dib səthi daha da bircins olur. 80-100 m dərinliyində qaş dəqiq ifadə olunur, ondan cənuba isə yaxşı görünən materik yamacının enməsi başlanır. Şərq sahili şelfində xırda qumlu və gil-qum materialları üstünlük təşkil edir. Burada həm də əsas süxurların çoxsaylı çıxışları mövcuddur. Onlar əsasən bankaların üzərində inkişaf edən sahillərin, adaların əhəng daşları, yaxud qədim Xəzər balıqqulaqlarıdır.

Nəticə

Xəzər dənizi Azərbaycan akvatoriyası şelfinin dib relyef xüsusiyyətlərinin analizi göstərir ki, o kifayət qədər mürəkkəb və dinamikdir, həm də böyük iqtisadi əhəmiyyətə malikdir, çünki çoxsaylı neft və qaz yataqları məhz burada yerləşmişdir. Bundan başqa, Azərbaycan akvatoriyası şelfi, həm də böyük nəqliyyat əhəmiyyətinə malikdir, çünki burada böyük miqdarda neft və qaz nəql olunur. Ona görə də bu regionda bütün fiziki, bioloji, geoloji və ekoloji proseslərin tədqiqi böyük elmi və iqtisadi əhəmiyyət kəsb edir.

Dənizin bu akvatoriyasi dəniz gəmiçiliyi nöqteyi nəzərdən ən mürəkkəb ərazidir. Burada müxtəlif dərinliklərdə yerləşən gəmilərin hərəkətinə neqativ təsir edən çoxsaylı naviqasiya maneləri: bankalar, adalar və dayazlıqlar yerləşmişdir.

Ədəbiyyat

1. Allahverdiyev Z.S., Muxtarlı X.X. Neft daşları rayonunun hidrometeoroloji xüsusiyyətləri. Bakı. 2013. 119 s.

2. Əliyev Ə.S. Gəmi sürücülüyü hidrometeorologiyası Bakı: Elm, 2007, 337 s.

3. Məmmədov R.M. Xəzər Dənizinin hidrometeorologiyası. Bakı: Avropa, 2013, 176 s.

4. Гасанов А.М., Алиев А.С., Юсуфлу Ф.Х. Изменение основных океанологических параметров Азербайджанском секторе Каспийское море / Азербайджанское Нефтяное Хозяйство, №4. Баку: 2013, с. 48- 51

5. Гордиенко А.И., Дремлюг В.В. Гидрометеорологическое обеспечение судовождение. Москва: Транспорт, 1989, 239 с.

6. Гюль К.К. Каспийское море. Баку: Элм, 1956, 326 с.

7. Кленова М.В. и др. Геологическое строение подводного склона Каспийского моря. Москва: Изд. АН СССР, 1962, 423 с.

8. Косарев А.Н., Байдин С.С. Каспийское море. Москва: Наука 1986, 260 с.

9. Панин Г.Н., Мамедов Р.М., Митрофанов И.В. Современное состояние Каспийского моря. Москва: Наука, 2005, 356 с.

10. Шикломанов И.А. Гидрологические аспекты проблемы Каспийского моря. Ленинград: Гидрометеоиздат, 1976, 79 с.

Резюме

Мирзоев Ф.А.

Рол геолого-географических особенностей в обеспечении безопасности судоходства в акватории Каспийского моря Азербайджана

В статье дан анализ роли геолого-географических особенностей в обеспечении безопасности судоходства в акватории Каспийского моря Азербайджана, изучены геологические строение шельфовой зоны, распределение данных отложений и выявлены в акватории подводные препятствия. Наряду с этим, исследованы многочисленные навигационные препятствия, оказывающие негативное влияние на движение судов: банки, острова и мелководья, извержения грязевых вулканов и созданные ими формы рельефа. В связи с развитием в последние годы нефтяной и газовой промышленности, обеспечение безопасности движения судоходства является важной задачей, так как акватории Каспийского моря Азербайджана является самым интенсивным районом.

Ключевые слова: *Каспийского море, банка, остров, грязевые вулканы, впадина, подводной рельеф*

Summary

Mirzayev F.A.

Role of Geological and Geographical Features in the Security of Ships in the Azerbaijani sector of the Caspian sea

The article analyses the role of geological and geographical features in ensuring the safety of ships in the Azerbaijani sector of the Caspian Sea, and studies the geological structure of the shelf zone, the distribution of bottom sediments, and the underwater barriers found within the basin. In addition, numerous navigation barriers, which have a negative impact on the movement of ships: arches, islands and shallows, mud volcano eruptions and the relief forms created by them. Thus, ensuring the safety of ships' movement in the Azerbaijani sector of the Caspian Sea, the most

intensive shipping area in the region, is an important issue following the development of the oil and gas industry in recent years.

Key words: *the Caspian Sea, arches, island, shallow, mud volcano, basin, bottom relief*

AVİAŞİRKƏTLƏRİN ALYANSLAR ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIQ TƏCRÜBƏSİNİN PRİNSİPLƏRİNİN ANALİZİ

Mirzəyev Fuad Mürvət oğlu
Milli Aviasiya Akademiyası
f.mirzayev85@gmail.com
Quliyev Şamil Kamal oğlu
Milli Aviasiya Akademiyası
shamilguliev@outlook.com

Xülasə: *Aviasiya alyansları bir neçə aviaşirkət arasında qarşılıqlı partnyorluq razılaşması hesab edilir. Alyansa daxil olan aviaşirkətlər öz hüquqi müstəqilliklərini saxlamaq şərtilə uçuş cədvəli, bilet satışı, loyallıq proqramları bir sıra digər aspektlərdə ümumi qaydalar toplusuna riayət etmək öhdəliyini üzərlərinə götürmüş olurlar. Müasir rəqabət şəraitində alyanslar aviaşirkətlərin inkişafının əsas inkişaf prespektivlərindən biridir. Müəyyən bir ittifaqın üzvi olan aviaşirkətlərin müttəfiqləri daha çox olur və onlar rəqabət əvəzinə bir-birlərinə dəstək vermiş olurlar. Rəqabətin böyük olduğu bazarda biznes ortağı qazanmaq həm mənfəətin artmasına, həm də uzunmüddətli uğurlu fəaliyyət göstərməyə yardımçı olur. Məqalədə müxtəlif xüsusiyyətləri nəzər alınmaqla avia alyansların yaranma tarixi və fəaliyyəti, eyni zamanda onların təsnifatı haqqında məlumat verilmişdir.*

Açar sözlər: *avianəqliyyat bazarı, alyans, kod-şerinq, İATA, interlayn, xab, pul (pool), yaş lizinq.*

Giriş

Dünya iqtisadiyyatının qloballaşma səviyyəsinin yüksək tempi aviaşirkətlərdə gələcək inkşafı istiqamətləri haqqında fikirləşmək məcburiyyətini formalaşdırır. Budaqlanmış hava xətləri şəbəkəsinə malik olan iri aviaşirkətlər daim dəyişən bazar şəraitində daha dayanıqlı qalmağa müvəffəq oldular. Onlar tez-tez uçan sərnişinlərin həvəsləndirilməsi proqramını həyata keçirərək öz sərnişinlərinin maraqlarını qoruyan aviaşirkət imicini formalaşdırmış oldular. Lakin bəzi hallarda bu tip aviaşirkətlər çətin idarə olunan bürokratik aparata çevrilərək irihəcmli süni xərclər və öhdəliklərlə qarşılaşmış olur.

Müasir çevik dəyişikliklərə adaptasiya olmaq tələb edən qlobal avianəqliyyat bazarı mülki aviasiya müəssisələrini mürəkkəb iqtisadi sturkturun üstünlük və çətinliklərini bir daha nəzərdən keçirərək inteqrasiya yoluna üz tutmalarını aktual etmişdir. Bəzi iri aviaşirkətlər hələ öncədən alyans konsepsiyasına əsaslanaraq formalaşmışdırlar. Məsələn, 1946-cı ildə əməkdaşlığın rəqabətdən daha məqsədəuyğun olduğu qənaətinə gələrək üç ölkənin (İsveç, Norveç və Danimarka) milli hava daşıyıcı şirkətləri inteqrə olunmuş SAS aviaşirkətini formalaşdırmışlar.

XX əsrin 80-cı illərindən başlayaraq bir çox aviaşirkətlər öz fəaliyyətlərinin başlıca məqsədi kimi qloballaşma strategiyasını seçdilər. Bəzi aviaşirkətlər isə qısa zamanda böyük investisiya layihələri ilə beynəlxalq hava xətlərində daşımaların sürətli artımına nail oldular (American Airlines). Digər qrup aviaşirkətlər aviadaşımalar bazarında daha az müvəffəqiyyətə nail olmuş rəqiblərini "udaraq" artıma nail oldular: Northwest Airlines aviaşirkəti Republic Airlines

aviaşirkətini satın aldı (1986), daha sonra isə Detla Airlines aviaşirkəti Northwest Airlines aviaşirkətini satın aldı (2010). Həmin dövrdə beynəlxalq hüquq 25% xarici investisiyaya malik olan şikətlərə kommersiya hüquqları əldə etmək imkanı vermədiyindən yalnız ölkədaxili aviaşirkətlərin birləşməsi həyata keçirilirdi.

İşim məqsədi: Hazırda iri aviaşirkətlərin qlobal alyanslarda iştirakından əldə etdiyi əlavə imkanları tədqiq etmək, eyni zamanda perspektivdə yerli aviaşirkətlərinin qlobal alyanslara qoşulma imkanlarını və bu tip əməkdaşlıqdan əldə edəcəyi sinergetik effekti təhlil etməkdən ibarətdir.

Aviaşirkətlər bazarın hər payı uğrunda gedən amansız rəqabət şəraitində təklikdə fəaliyyət göstərə bilməyəcəklərini dərk etmiş oldular. Belə şəraitdə bazarda möhkəmlənmə prosesi bir neçə istiqamətdə gedirdi:

- Bərabərhüquqlu aviaşirkətlərin tam birləşməsi.
- Magistral və regional aviaşirkətlərin birləşməsi. Məsələn: "United Airlines" aviaşirkəti regional aviaşirkət olan "United Express" şirkəti ilə öz hava xətlərinin birləşdirilməsi qərarını verdi; "Delta Airlines" aviaşirkəti "Atlantic Cost'', "Sky West'V'Commair" və "Atlantic Southeast'' aviaşirkətləri ilə öz hava xətlərinin birləşdirilməsi qərarını verdilər.
- İlk marketiq və strateji alyansların yaradılması.

1919-cu ildə Niderlandın Haaqa şəhərində Beynəlxalq Hava Hərəkəti Assosiasiyası (International Air Traffic Association-İATA) təsis edildi. Bu ilk Alyans hesab edilir. Danimarka, Almaniya, Hollandiya, Böyük Britaniya, Norveç, İsveç aviaşirkətləri təşəbbüsü ilə yaradılan bu ittifaqın əsas məqsədi sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda aviabiletlərin satışı və texniki prosedur qaydalarını nizama salınması idi. Məhz bu ittifaqın yaradılması mülki aviasiyada alyans anlayışının əsasını qoydu. [1]

Aviaşirkətlər müttəfiq ölkələrə maneəsiz və fasiləsiz uçuşlar həyata keçirmək imkanı əldə etmək istəyirdilər. Belə bir imkanı dövlətlərarası açıq səma razılmaşlarının əldə edilməsi yaratmış oldu.

1992-ci ildə Avropa Birliyinin etirazına baxmayaraq ABŞ və Hollandiya arasında açıq səma razılaşması imzanlandı. Bunun nəticəsi olaraq artıq Hollandiya aviaşirkətləri ABŞ ərazisində istənilən nöqtəyə uçuş həyata keçirə bilərdilər. 2011-ci ilə kimi ABŞ artıq 100-dən çox dövlətlə belə ikitərfli razılaşmalar imzalamışdır.

Belə ikitərəfli razılaşmaların həyata keçirilməsi ilə artıq aviaşirkətlər bazarda öz fəaliyyətlərini daha da genişləndirdilər. Bu isə onların birgə fəaliyyətlərini stimullaşdırmış oldu.

İlk ittifaqlar ortaq uçuş, təyyarə təmiri, yerüstü xidmətlər, kod-şerinq və s. müştərək fəaliyyət növləri həyata keçirirdilər.

Alyansa daxil olan aviaşirkətlər öz uçuş cədvəllərinin koordinasiya edir, lazımi anda öz terminallarını alyansdakı tərəfdaşlarının istismarına verir, alyansdakı tərəfdaşlarına müştərək kompüter bronlaşdırma sistemləri vasitəsilə yerinə yetirdikləri xidmətlər haqqında informasiya təqdim edirdilər.

Alyanslar avianəqliyyat bazarında rəqabət qabiliyyətinin və bazar payının artırılması məqsədilə həm bir-birindən maliyyə asılılığında olan həmçinin də tamamilə sərbəst fəaliyyət göstərən aviaşirkətlərin əməkdaşlıq nümunəsidir.

Alyanslar tez bir zamanda xidmət gücünün artırılmasına, hava gəmiləri parkının həcminin böyüdülməsinə, digər aviaşirkətə məxsus olan kommersiya hüquqlarını əldə etməyə imkan verirdilər.

Lakin alyansların formalaşdırılması və inkşafı yolunda aviaşirkətlər bir sıra problemlərlə üzləşmiş olurlar. Belə ki, aviaşirkətlər müxtəlif inkşaf strategiyasına, müxtəlif xidmət səviyyəsinə, razılaşdırılmamış uçuş cədvəlinə və müxtəlif tarif sistemlərinə malik olduqlarından, bəzi hallarda onlar arasıda əməkdaşlıq qeyri-mümkün olurdu. Bu tip problemlərin həlli alyansı formalaşdıran bütün tərəfdaşlardan xeyli vaxt və qüvvə tələb etmişdir.

Alyansların formalaşdırılması şərtləri aşağıdakılardır:

- Alyansa daxil olacaq aviaşirkətlərin rəqabətdən imtina etmək üçün ciddi səbəblərinin olması.
- Alyansa daxil olacaq aviaşirkətlərin təşkilati strukturu və idarəetmə mədəniyyətinin müqayisəli və oxşar olması.
- Tərəfdaşların lokal və qlobal strategiyalarının uzlaşması.
- Alyansa daxil olacaq tərəflərdən hər birinin bazar payı və investisiya qoyuluşlarının uçota alınmış və balanslaşdırılmış olması [2].

Aşağıdakı səbəblər aviaşirkətlərin alyanslarda birləşməsinə stimul vermiş olur:

- geniş miqyaslı əhatə dairəsi və yüksək gəlirə nail olmaq imkanı;
- zəruri əməliyyatları birlikdə icra etmək hesabına xərcləri azaltmaq imkanı;
- bazarın liberallaşması səbəbindən mümkün olduğu qədər rəqabət səviyyəsinin azaldılması yolu ilə gəlirləri artırmaq imkanı;
- milli qanunvericilikdəki mülkiyyət qadağaları (xarici mülkiyyət hüququ) və xarici daşıyıcıların ölkənin avianəqliyyat bazarına daxil olmasına qadağalardan yayınma imkanı.

İATA-nın (International Air Transport Association - Hava Nəqliyyatının Beynəlxalq Assosiyasiyası) məlumatlarına əsasən demək olar ki, bütün beynəlxalq aviaşirkətlər aşağıdakı formalara malik olan kommersiya əməkdaşlıqları üzrə tərəfdaşdırlar:

- Strateji alyanslar.
- Qlobal alyanslar.
- Marketinq-alyansları.

Kommersiya əməkdaşlığından fərqli olaraq strateji alyanslar daha davamlı və uzunmüddətli xarakter daşıyırlar. Belə ki strateji alyanslar aviaşirkətlər üçün hətta gələcəkdə onların qovuşacağı səviyyəyə çatacaqları əməkdaşlığı belə istisna etmirlər.

Strateji alyanslar yalnız son illərdə daha qabarıq nəzərə çarpmağa başlayıblar. Buna səbəb son dövrlərə kimi dünya təcrübəsində dövlətlərin hava nəqliyyatına milli sərvət kimi baxılmasını göstərmək olar. Yalnız yaxın keçmişdə dünya dövlətlərinin təcrübəsində aviaşirkətlərin qeyri-rezident subyektlərə verilməsi prespektivi yaranmağa başlamışdır. XX əsrin 80-ci illərindən etibarən aydın oldu ki, eyni zamanda həm dövlət tərəfindən tələb olunan gəlir əldə etmək, həm də rentabelsiz hava xətləri üzrə uçuşlar həyata keçirərək əhalinin maddi baxımdan daha aşağı təbəqələrinin tələblərini təmin etmək mümkün deyil. Mülki aviasiyada dövlət mülkiyyəti effektsiz xarakter daşımağa başladı və bunun nəticəsi kimi dövlət aviaşirkətlərinin özəlləşdirilməsi prosesi başlamış oldu. Bu dövrdə bir sıra aviaşirkətlərin səhmlərinin 100%-i xüsusi mülkiyyətə verilmiş oldu (British Airways, Air Canada, Japan Airlines, Air New Zealand), digərlərində isə səhmlərin yalnız bir hissəsi xüsusi mülkiyyətə verilmiş oldu (KLM). Həmçinin 1957-ci il Roma razılığının əsasında formalaşması Avropa İqtisadi Birliyinin (daha sonradan bu birlik Avropa Birliyi (AB) adlandırılmağa başladı) nizamnaməsində bu birliyin hər bir vətəndaşına AB çərçivəsində istənilən ölkədə biznes fəaliyyəti ilə məşğul olmaq imkanı verməsi aviadaşımalar bazarında strateji əməkdaşlığın prespektivlərini daha da artırmış oldu.

Hələ ki kommersiya əməkdaşlığından və belə strateji alyanslardan gələcəkdə hansı konkret nəticələrin əldə edilə biləcəyi haqqında mülahizələr yürütmək çətindir, lakin artıq indidən aydın olur ki, gələcəkdə də inkşafı mütləq olaraq davam edəcək olan hava nəqliyyatının qloballaşması tendensiyalarının qarşı alınmazdır.

Strateji alyanslardan fərqli olaraq qlobal alyanslar aviaşirkətlərə tam olaraq hüquqi və maliyyə müstəqilliyini saxlayaraq daşımalar bazarında müştərək fəaliyyət göstərmək və digər aviaşirkətlər və alyanslarla rəqabətə davam gətirmək imkanı verirlər.

Qlobal alyans yaratmaq hesabına aviaşirkətlər öz strateji planlarını uzlaşdırmaq, uyğun təşkilati struktur qurmaq, oxşar tariflər sistemi və tez-tez hava nəqliyyatı xidmətindən istifadə edən sərnişinlərin həvəsləndirilməsi üçün endirim kompaniyaları, müştərilərə xidmət keyfiyyətinin yüksəldilməsi konsepsiyasını formalaşdırmaq məqsədi güdürlər.

Adətən, qlobal alyansa daxil olmaqda maraqlı olan aviaşirkətlər qarşısında baza aeroportunda öz terminalına malik olmaq, yəni "xaba" (ingili sözü olan "Hub" sözündən götürülmüşdür "çarx topu" mənası daşıyır) - aviaşirkətin yerli və magistral reyslərinin qovuşduğu iri yükboşaltma məntəqəsinə malik olmaq tələbi durur. Öz terminalında aviaşirkət alyans iştirakçıları olan diğər aviaşirkətlərin sərnişinləri və yük sahiblərinə göstərilən xidmət səviyyəsini qlobal alyans çərçivəsində qoyulan tələblərə müvafiq şəkildə həyata keçirmək imkanı əldə etmiş olur.

Marketinq alyansları aviadaşımalar bazarında aviaşirkətlər qarşısında duran cari problemlərin həlli məqsədilə həyata keçirilən müvəqqəti əməkdaşlıq forması nümunəsidir. Əksər hallarda marketinq alyansları aşağıdakı razılaşmalar əsasında formalaşır:

- "İnterlayn".
- "Kod-şerinq".
- "Hava xətlərinin müştərək istismarı" və "Pul (Pool) haqqında razılıq".

Amerikalı alim D.L. Rhoades alyans üzvləri arasında olan fəaliyyət istiqamətlərini bir-birindən ayırmaq üçün fərqli yanaşma təklif edir. O, alyansların sabit və uzunmüddətli fəaliyyətini proqnozlaşdırmaq üçün istifadə edilə biləcək əsas şərtləri araşdırmışdır. Xüsusilə, də alyansların fərqlənən iki kritik şərtlə müəyyənləşdirmişdir: resursların səviyyəsi və sövdələşmələrin mürəkkəbliyi. Bunun nəticəsində isə o, aşağıdakı matrisi təklif etmişdir.

Resursların səviyyəsi			
Yüksək	III Tip CRS (Computer reservation system)	VI Tip İdarəçilik razılaşdırılması	IX Tip İnvestisiya fəaliyyəti
Orta	II Tip Yaş lizinq (wet-lease)	V Tip Birgə xidmət	VIII Tip Marketinq fəaliyyəti
Aşağı	I Tip Kod-şering	IV Tip Sığorta	VII Tip Baqaj və texniki xidmətlər
	Aşağı	Orta	Yüksək

Sövdələşmənin mürəkkəbliyi

Şəkil 1. Aralarındakı sövdələşmənin mürəkkəbliyi və resursların səviyyəsindən asılı olaraq alyansların tipləri

I tip alyanslar kod-şerinq müqavilələrinə əsaslanır. Kod-şerinq aviaşirkətin öz sərnişinləri ilə birlikdə başqa şirkətlərin sərnişinlərinin də daşınmasını həyata keçirən razılaşmadır.

II tip alyanslar yaş lizinq (wet-lease) əməliyyatları əsasında həyata keçirilirlər. Bu bir aviaşirkətin digər bir aviaşirkətdən təyyarə oturacaqlarının icarə götürməsidir.

III tip alyanslar kompüter dəstəkli rezervasiya sistemini istifadə üçün (CRS-Computer reservation system) qurulmuş alyanslardır. Belə sistemlər internet vasitəsi ilə biletlərin satışını həyata keçirmək üçün istifadə edilir. Bunlara misal olaraq, Amadeus CRS sistemini göstərə bilərik ki, bu sistem Air France, Luftansa və İberia tərəfindən yaradılıb. Eyni zamanda bu tip sistemlər dəmiryolu nəqliyyatında, bir sıra sığorta şirkətlərində istifadə olunur. Bundan başqa, Galileo, Apollo və digər CRS-ləri yaradılmışdır.

IV tip alyanslar daha çox kiçik aviaşirkətlər tərəfindən formalaşdırılır. Bu şirkətlər "Pool-hovuz" sistemindən istifadə edərək əldə etdikləri gəlirin bir qismini bu "hovuza" yönəldirlər. Zərurət yarandıqda isə tərəfdaş şirkətlərdən biri və ya bir neçəsi "hovuza"-dakı maliyyə vəsaitindən istifadə edə bilər.

V tip alyanslar birgə xidmət konsepsiyasına əsaslanır. Aylans üzvləri çoxsaylı uçuş məntəqələri arasında xidmət göstərmək məqsədi güdürlər. Bunun üçün onlar öz uçuş marşrutlarını birgə tamamlanmış formada formalaşdırırlar.

VI tip alyanslar idarəetmə razılaşmaları əsasında formalaşdırılır. Bu tip alyanslarda idarəetmə prosesi bu sahədə təlim keçmiş və biliklərə sahib olan rəhbər və ya rəhbər qrupları tərəfindən həyata keçirilir.

VII tip baqaj xidmətlərini və texniki xidmətləri həyata keçirmək üçün formalaşdırılmış alyanslardır.

VIII tip alyanslar müştərək reklam və satış həyata keçirmək məqsədilə yaradılan ittifaqlardır.

XI tip alyanslar müştərək investisiya fəaliyyətinin həyata keçirməsi məqsədilə formalaşdırılmiş ittifaqlardır.

D.L. Rhoades alyansların sabitliyinin təmin edilməsini müştərək resursların artırılması və tərəfdaşların sayının artımı arasındakı tərs mütənasib asılılıqda görürdü. O, öz arqumentlərini elmi araşdırmaları zamanı təhlil etdiyi bir neçə aviaşirkətin fəaliyyət nümunəsində əsaslandırmışdır (Şəkil 2) [3].

Şəkil 2. Alyans üçün sabitlik matrisi

Nəticə

Bu gün hava nəqliyyatı vasitəsilə daşınan hər kilometrə düşən sərnişin sayının 58%-i və bütün gəlirin isə 62%-i Star Alliance, SkyTeam ve Oneworld alyansları arasında bölüşdürülmüşdür. Çox sayda aviaşirkətlər bu 3 alyansdan birinin üzvüdür. Star Alliance özündə 27 aviaşirkəti birləşdirərək avianəqliyyat bazarında 30% paya sahib olmaqla ən böyük alyans hesab edilir. Star Alliance hər il təqribən 512 milyon sərnişin daşımaqdadır. 2010-cu ilin göstəricilərinə görə 19% bazar payı ilə SkyTeam təqribi 477 milyon sərnişin daşımışdır. Oneworld 15,6% bazar payına sahib olmaqla ən az paya malikdir. Bu statistik təhlil bir daha müasir dövrdə aviaşirkətlərin rəqabətli mühitdə bazar paylarının itirilməməsi məqsədilə müxtəlif tipli alyanslarda birləşmələrinin nə dərəcədə aktual olduğunu nümayiş etdirir. Müasir mürəkkəb iqtisadi şəraiti nəzərə alaraq, yerli aviadaşıyıcıların rəqabətli qlobal aviadaşımalar bazarında pay sahibi olmaqlarını təmin etmək məqsədilə müəyyən təhlil və proqnozlaşdırma həyata keçirərək mövcud alyanslardan birinə qoşulmaq perspektivləri elmi araşdırma obyektinə çevrilə bilər.

Ədəbiyyat

1. V.Önen "Pazarda büyümenin bir seçeneği olarak havayolu ittifakları" Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi-2017. s: 298-313.
2. Pablo E. Fernandez De La Torre "Airline Alliances: The Airline Perspective" Flight Transportation Laboratory Report-1999. pp: 47.
3. Rhoades, D. L., and Lush, H. "A typology of Strategic Alliances in the Airline Industry: Propositions for Stability and Duration," Journal of Air Transport Management-1997. pp: 109-114.

Резюме

Мирзаев Ф.М., Гулиев Ш.К.

Анализ принципов практики сотрудничества авиакомпаний в рамках альянсов

Авиационный альянс – это партнерское соглашение между несколькими авиаперевозчиками. Авиакомпании, которые входят в альянс, полностью сохраняют свою юридическую самостоятельность, но соблюдают определенный пул общих правил, которые касаются расписания рейсов, продаж билетов, программ лояльности и некоторых других аспектов. В сегодняшней конкурентной среде альянсы являются одной из основных перспектив развития авиакомпаний. У авиакомпаний, которые являются членами определенного союза, есть больше союзников и вместо конкуренции они поддерживают друг друга на рынке. Иметь партнера в такой высококонкурентной отрасли как гражданская авиация может помочь как увеличить прибыль, так и привести к долгосрочному успеху. В статье приведены сведения об истории и деятельности авиационных альянсов, а также их классификация с учетом различных особенностей.

Ключевые слова: *рынок авиаперевозок, альянс, код-шеринг, İATA, интерлайн, хаб, пул (pool), мокрый лизинг.*

Summary

Mirzayev F.M., Guliyev Sh.K.

Analysis of the Principles of Cooperation Practice of Airline Companies within Alliances.

The aviation alliance is a partnership agreement between several air carriers. Airlines which are part of the alliance fully maintain their legal autonomy, but comply with a certain pool of general rules like flight schedules, ticket sales, loyalty programs and some other aspects. In today's competitive environment, alliances are one of the main prospects of airline companies development.

Airline companies that are members of a certain union have more allies and instead of competing they support each other in the market. Having a partner in such highly competitive industry part as civil aviation can help both increase profits and lead to long-term success. This article provides information about the history and activities of aviation alliances, as well as their classification according to different characteristics.

Key words: *air transportation market, alliance, code-sharing, IATA, interline, hub, pool, wet leasing*

QLOBAL RƏQABƏTQABİLİYYƏTLİLİK REYTİNQİ ÜZRƏ AZƏRBAYCANDA ƏMTƏƏ BAZARI GÖSTƏRİCİLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ QİYMƏTLƏNDİRMƏ

Mustafayev Asif Mirlazım oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
asif5252@rambler.ru

Xülasə: *Təqdim olunmuş məqalədə qlobal rəqabətqabiliyyətlilik reytinqi üzrə Azərbaycanın əmtəə bazarı üzrə mövqeyi qiymətləndirilmişdir. 2018-ci il üçün Azərbaycanın əmtəə bazarının inkişafı üzrə subindekslər göstərilmiş, hər bir subindeks üzrə mövqe dəyərləndirilmişdir. Xüsusən də qeyd edilmişdir ki, 2018-ci ildən başlayaraq Azərbaycanın bu indeks üzrə mövqeyi daha da yaxşılaşmışdır. Bunun əsas səbəbi ölkədə aparılan iqtisadi islahatlar və qəbul edilmiş dövlət proqramları hesab olunur. Məqalədə həmçinin hər bir subindeksin hesablanma metodikası və Azərbaycan üçün hesablanan ballar da göstərilmişdir.*

Açar sözlər: *rəqabətqabiliyyətlilik, əmtəə bazarı, ticarət, qiymətləndirmə, xidmət sektoru, Strateji Yol Xəritəsi.*

Son illərdə Azərbaycanın milli iqtisadiyyatının inkişafı üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlərin fonunda ölkənin mövqeyi bir sıra beynəlxalq reytinqlərdə müsbət qiymətləndirilmişdir. Qeyd etmək lazımdır ki, bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi sərəncam və fərmanları xüsusilə vurğulamaq lazımdır. Belə ki, buna misal 13 iyul 2016-cı il tarixdə imzalanan "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı və 6 dekabr 2016-cı il tarixdə imzalanan "Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə Strateji Yol Xəritələri" Fərmanını göstərmək olar. Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi milli iqtisadiyyatın daha da rəqabətqabiliyyətli olması üçün hədəflər müəyyən edilmiş və buna uyğun addımlar atılmaqdadır. Xüsusən də, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin müsbət qiymətləndirmək lazımdır. Qeyd olunan proseslər şübhəsiz ki, ölkə iqtisadiyyatının müxtəlif inkişaf göstəriciləri üzrə beynəlxalq reytinqlərdə yaxşılaşdırılmasına gətirib çıxaracaqdır.

Xüsusən də həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Qlobal Rəqabətqabiliyyətlilik İndeksində zamanla daha da güclənmiş bir mövqeyə sahib çıxmışdır. Ümumi reytinq mövqeyinə təsir edən bir sıra subindekslər üzrə qiymətləndirmələrə baxdıqda aydın olur ki, mövqeyin dəyişilməsinə ciddi təsir edə biləcək bölmələr vardır. Bu istiqamətdə ən əhəmiyyətli bölmələrdən

biri də 7-ci bölmə olan "Əmtəə və Xidmətlər Bazarının Effektivliyi" bölməsidir. Bölmə özlüyündə A və B kateqoriyalarına ayrılmaqla 8 göstəricini birləşdirir.

A. Daxili rəqabət

7.1. Vergi və subsidiyaların rəqabətə mənfi təsirləri 1-7 (ən yaxşı).

7.2. Bazar dominantlığının səviyyəsi 1-7 (ən yaxşı).

7.3. Xidmət sahələrinin rəqabəti 1-7 (ən yaxşı).

B. Açıq ticarət

7.4. Qeyri-qiymət maneələrinin mövcudluğu 1-7 (ən yaxşı).

7.5. Ticarət tarifləri, %-lə.

7.6. Tariflərin mürəkkəbliyi 1-7 (ən yaxşı).

7.7. Klirinq proseslərinin effektivliyi 1-5 (ən yaxşı).

7.8. Xidmətlər ticarətinin açıqlığı 0-100 (ən pis).

Qiymətləndirmə və metodologiya

2018-cu il üçün Azərbaycanın mövqeyi əmtəə bazarı göstəriciləri üzrə ölkələr üzrə sıralamada 37-ci olmuşdur. Bu mövqe üzrə toplanmış bal isə 61.4 olmuşdur. Qeyd edək ki, öncəki illərə nisbətdə əmtəə bazarı göstəriciləri üzrə Azərbaycanın mövqeyi daha aşağı pillələrdə olmuşdur. Lakin, 2018-ci ildən başlayaraq Azərbaycanın mövqeyində irəliləyişlər olmuşdur. Bunun başlıca səbəbi kimi 2017-ci ilin sonu və 2018-ci ildən başlayaraq bu sahə üzrə qəbul edilmiş dövlət proqramlarının real nəticələrinin olmasını qeyd edə bilərik.

Cədvəl [2]

Müqayisəli qiymətləndirmə və mövcud vəziyyət

		Dəyəri	**Bal**	**Ranking /140**	**İlk sırada olan ölkə**
	Əmtəə bazarı	-	61.4 ↓	37	Sinqapur
7.1	Vergi və subsidiyaların rəqabətə mənfi təsirləri	4.6	60.4 =	20	Sinqapur
7.2	Bazar dominantlığının səviyyəsi	4.2	53.2 =	37	İsveçrə
7.3	Xidmət sahələrinin rəqabəti	5.0	66.7 =	63	Honq Konq
7.4	Qeyri-tarif maneələrinin mövcudluğu	4.6	59.6 =	46	Sinqapur
7.5	Ticarət tarifləri	7.91	47.3 ↓	90	Honq Konq
7.6	Tariflərin mürəkkəbliyi	6.1	85.1 ↑	62	Honq Konq
7.7	Klirinq prosesinin effektivliyi	2.6	39.3 ↓	82	Almaniya
7.8	Xidmətlər ticarətinin açıqlığı	n/a	82.2 ↑	n/a	Ekvador

Qeyd: Göstəricilər 2018-ci ilin mövcud vəziyyətini əks etdirir.

Əmtəə və Xidmətlər Bazarının Effektivliyi qeyd edilən 8 subindeksin yekun nəticələri üzrə formalaşır. Ümumi olaraq effektivlik aşağıdakı düstur ilə müəyyənləşir:

$$\underline{Score_{i,c} = (value_{i,c} - wp_i) / (frontier_i - wp_i) \times 100} \quad [2, s.642]$$

Burada $value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value");

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət;

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymətdir.

7.1. Vergi və subsidiyaların rəqabətə mənfi təsirləri 1-7 (ən yaxşı) - 60.4

$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value")= 4.6

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət = 1

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymət = 7 [2, s.85]

(4.6-1)/(7-1)× 100= 60

Anket sorğusu nəticəsində müəyyənləşir və sual olaraq qeyd edilir: **Ölkənizdə vergi güzəştləri və subsidiyalar rəqabətə nə dərəcədə təsir göstərir?** (1-ciddi təsir göstərir, 7- təsir etmir). **Mənbə:** World Economic Forum, Executive Opinion Survey. For more details, refer to Appendix B of this report. [5]

7.2. Bazar dominantlığının səviyyəsi 1-7 (ən yaxşı) – 53.2

$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value")= 4.2

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət = 1

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymət = 7 [2, s.85]

(4.2-1)/(7-1)× 100= 53.3

Anket sorğusu nəticəsində müəyyənləşir və sual olaraq qeyd edilir: **Ölkənizdə korporativ fəaliyyətinizi necə xarakterizə edirsiniz?** (1 - bir neçə firmalarla, 7 - daha çox firmalarla). **Mənbə:** World Economic Forum, Executive Opinion Survey. For more details, refer to Appendix B of this report. [5]

7.3. Xidmət sahələrinin rəqabəti 1-7 (ən yaxşı) – 66.7

$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value")= 5

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət = 1

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymət = 7 [2, s.85]

(5-1)/(7-1)× 100= 66.7

Anket sorğusu nəticəsində müəyyənləşir və sual olaraq qeyd edilir: **Ölkənizdə aşağıdakılardan hansılarda daha güclü rəqabət müşahidə edilir?** a) peşəkar xidmətlərdə (hüquqi, mühasibatlıq və mühəndislik xidmətlərində); b) pərakəndə xidmətlərdə; c) şəbəkə sektorunda (telekommunikasiya, kommunal xidmətlər, poçt, nəqliyyat və s.) (hər bir bölmə üçün 1-rəqabətli deyil, 7-rəqabətlidir). Ümumi bal üç göstəricinin ortaq nisbəti ilə müəyyən olunur. **Mənbə:** World Economic Forum, Executive Opinion Survey. For more details, refer to Appendix B of this report. [5]

7.4. Qeyri-tarif maneələrinin mövcudluğu 1-7 (ən yaxşı) - 59.6

$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value")=4.6

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət = 1

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymət = 7 [2, s.85]

(4.6-1)/(7-1)× 100= 60

Anket sorğusu nəticəsində müəyyənləşir və sual olaraq qeyd edilir: **Ölkənizdə qeyri-tarif maneələrinin daxili bazarda rəqabəti məhdudlaşdırması necədir?** (1 - daha çox məhdudlaşdırır, 7-məhdudlaşdırmır). **Mənbə:** World Economic Forum, Executive Opinion Survey. For more details, refer to Appendix B of this report. [5]

7.5. Ticarət tarifləri, %-lə - 47.3

$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value"); = 7.91 [2, s.85]

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət = 15 [2, s.647]

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymət = 0 [2, s.647]

(7.91-15)/(0-15)× 100= 47,3

Tətbiq olunan orta tarif dərəcəsi kimi ölçülür və faizlə ifadə olunur. İdxalda əmtəə və xidmətlərin payı, gömrük tərəfindən tətbiq olunan tarif dərəcələri və s. göstəricilər əsas götürülərək hesablanılır. **Mənbə:** International Trade Centre (ITC). [4]

7.6. Tariflərin mürəkkəbliyi 1-7 (ən yaxşı) – 85.1

$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value") = 6.1 [2, s.647]

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət =1 [2, s.647]

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymət=7 [2, s.647]

(6.1-1)/(7-1)× 100= 85

Tarif rejiminin mürəkkəbliyi dörd meyar üzrə qiymətləndirilir. Tariflərin yayılması, tariflərin pik həddi, xüsusi tariflərin yayılması, fərqli tariflərin sayı. Bu indeks qeyd edilən 4 göstəricinin orta balı əsasında formalaşır. **Mənbə:** International Trade Centre (ITC).

7.7. Klirinq prosesinin effektivliyi 1-5 (ən yaxşı) -39.3

$value_{i,c}$ - c ölkəsinin i indikatoru üzrə ilkin qiyməti ("raw value") = 2.6 [2, s.647]

wp_i - i indikatoru üzrə ən əlverişsiz qiymət =1 [2, s.647]

$frontier_i$ - i indikatoru üzrə ən yaxşı qiymət=5 [2, s.647]

(2.6-1)/(5-1)× 100= 40

Gömrük və digər sərhəd nəzarəti orqanları tərəfindən edilən əməliyyatların effektivliyi ilə müəyyən edilir (1-pis, 5-ən yaxşı). Hər bir ölkənin ilk səkkizliyə daxil tərəfdaş olan ölkələr üzrə həyata keçirilir. **Mənbə:** The World Bank Group; Turku School of Economics. [3]

7.8. Xidmətlər ticarətinin açıqlığı 0-100 (ən pis) - 82.2

100 - Xətti reqressiya. Reqressiya vasitələri: Regional xidməti ticarət müqavilələri, Xidmət idxalının ÜDM-yə nisbəti, ÜDM (loq), və regional dəyişənlər (BMF bölgüsü)

Xətti reqressiya. Reqressiya vasitələri: Regional xidməti ticarət müqavilələri, Xidmət idxalının ÜDM-yə nisbəti, ÜDM (loq), və regional dəyişənlər (BMF bölgüsü) – Azərbaycan üçün qiymət = 17.8 [2, s.644]

100-17.8=82.2

Xidmət sektorunun ümumi açıqlığını göstərir. Ölçü 0 (tam açıq) ilə 100 (tam qapalı) arasında dəyişir. Bu indeks 5 əsas göstəriciyə görə müəyyən olunur: maliyyə xidmətləri, telekommunikasiya, pərakəndə satış, nəqliyyat və peşəkar xidmətlər. [3]

Ədəbiyyat

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. The Global Competitiveness Report 2018. Klaus Schwab, World Economic Forum, Geneva, Switzerland, 2018/
3. www.worldbank.org
4. www.intracen.org
5. www.weforum.org

Резюме

Мустафаев А.М.

Текущее состояние и оценка индексов товарного рынка в Азербайджане по рейтингу глобальной конкурентоспособности

В данной статье оценивается позиция Азербайджана на товарном рынке с точки зрения рейтинга глобальной конкурентоспособности. Показаны субиндексы по развитию товарного рынка Азербайджана на 2018 год и оценена позиция по каждому субиндексу. Особо было отмечено, что положение Азербайджана по этому показателю улучшилось с 2018 года. Основной причиной этого являются экономические реформы в стране и принятые государственные программы. В статье также показан метод расчета для каждого субиндекса и баллы, рассчитанные для Азербайджана.

Ключевые слова: *конкурентоспособность, товарный рынок, торговля, оценка, сфера услуг, стратегическая дорожная карта*

Summary

Mustafayev A.M.

Current Status and Assessment of Commodity Market Indices in Azerbaijan on Global Competitiveness Rating

This article evaluated Azerbaijan's position on the commodity market in terms of global competitiveness rating. Subindexes for the development of Azerbaijan's commodity market for 2018 are shown, and position for each subindex is assessed. It was particularly noted that Azerbaijan's position on this index has improved since 2018. The main reason for this is economic reforms in the country and the adopted state programs. The article also shows the calculation method for each subindex and the scores calculated for Azerbaijan.

Key words: *competitiveness, commodity market, trade, valuation, service sector, Strategic Roadmap*

AZƏRBAYCANIN QLOBAL İQTİSADİ PROSESLƏRDƏ İŞTİRAKININ MÖVCUD VƏZİYYƏTİ

Pənahəliyeva Məlahət Ömər qızı

Sumqayıt Dövlət Universiteti

marketinq17@mail.ru

Xülasə: Məqalədə Azərbaycanın qlobal iqtisadi inteqrasiya proseslərində iştirakının hazırkı vəziyyəti barədə ətraflı məlumat verilir. Beləliklə, beynəlxalq əməkdaşlıq əlaqələrinin Azərbaycanla əlaqələri ətraflı öyrənilir və iqtisadi təhlil aparılır. Ölkənin xarici iqtisadi siyasət konsepsiyası və regional beynəlxalq inteqrasiya strategiyası, qeyri-neft sektorunun inkişaf istiqamətləri açıqlanır.

Açar sözlər*: qloballaşma, iqtisadi inteqrasiya, beynəlxalq iqtisadi təşkilatlar, regional iqtisadi qurumlar, beynəlxalq ticarət əlaqələri.*

Azərbaycan özünün müstəqil iqtisadi inkişaf modelini inkişaf etdirmək və dünya ölkələri sırasında daha çox möhkəmlənmək üçün tarixi səylər göstərir. Ölkəmiz təbii ehtiyatlarından, ilk növbədə enerji resurslarından istifadə etməklə, beynəlxalq səviyyədə fəallıq göstərməklə, regional və beynəlxalq iqtisadi qurumlarla fəal şəkildə inteqrativ əlaqələr qurmaqla özünün rəqabət qabiliyyətliliyini yüksəltməyə səy göstərməlidir. Ölkəmizin xarici iqtisadi konsepsiyasında mühüm fəaliyyət istiqamətlərindən biri beynəlxalq əmək bölgüsü sistemində daha da möhkəmlənmək və beynəlxalq əlaqələrin kifayət qədər şaxələndirilməsini təmin etməkdir. Bu heç də, asan məsələ deyildir və bunun üçün iqtisadi əlaqələrin şaxələndirilməsi ilə bərabər, region və dünya ölkələri ilə münasibətlərin səmərəliliyinin yüksəldilməsi, iqtisadi diplomatiya yanaşmalarının təkmilləşdirilməsi, təsirli tədbirlərin görülməsi, daha çox səmərə verən xarici iqtisadi əlaqələrin formalaşması tələb olunur [5, s. 339].

Demək olar ki, Azərbaycan bu istiqamətlərdə geniş miqyaslı və səmərəli tədbirlər görür. Artıq ölkəmiz regional və dünya səviyyəli siyasi, iqtisadi tədbirlərin mərkəzinə çevrilmişdir.

Azərbaycan Avropa ilə Asiyanın kəsişdiyi mərkəzi nəqliyyat qovşağında yerləşdiyindən, nəqliyyat sektorunun tranzitivlik amilindən istifadə edilməsi məsələləri xeyli aktuallaşmışdır.

Avtomobil, dəniz, hava, dəmiryolu nəqliyyatı vasitələrinin mövcud potensialının dəyərləndirilməsi və beynəlxalq inteqrasiya proseslərində Azərbaycanın iştirakının daha da fəal səviyyəyə qaldırılması məsələləri xeyli cəlbedicidir. Belə ki, bu sahələrdə istifadə edilməmiş güclü potensial mövcuddur. Bir sözlə, ölkəmiz regional və beynəlxalq inteqrasiya məkanında özünün üstün amillərindən daha çox faydalanmaq məqsədilə, həmçinin bu istiqamətlərdə görülən tədbirlərin səmərəlilyinin yüksəldilməsi üçün daha çox iş görməli və ölkələrarası münasibətlərdə olan istifadə edilməmiş ehtiyat mənbələrinin hərəkətə gətirilməsi zərurəti qalmaqdadır.

Bu tədbirlər ona görə vacibdir ki, yaxın perspektivdə milli iqtisadiyyatın neftdən asılılığının azaldılmasında strateji hədəflər müəyyənləşdirilmişdir və onların yerinə yetirilməsi üçün regional və beynəlxalq təşkilatlarla, xüsusilə Azərbaycanın strateji əməkdaşlıq etdiyi ölkələrlə iqtisadi əməkdaşlığın, xarici iqtisadi əlaqələrin mümkün potensialının obyektiv dəyərləndirilməsi və qiymətləndirilməsi vacibdir. Məsələn, Azərbaycan İslam Əməkdaşlığı Təşkilatı ilə əlaqələr çərçivəsində mövcud potensialdan daha çox istifadə etmək imkanlarına malikdir. Lakin, təəssüf ki, bu təşkilatda 50-dən artıq müsəlman ölkəsinin olmasına baxmayaraq, həmin ölkələrin əksəriyyəti ilə ikitərəfli və regional səviyyədə əməkdaşlıq formatlarından maksimum səmərəli istifadə hələlik təmin edilməmişdir [4, s.97].

Hesab edirik ki, ölkəmizin xarici iqtisadi siyasət konsepsiyası və regional, beynəlxalq inteqrasiya strategiyası müasir qlobal iqtisadi çağırışlar prizmasından yenidən baxılmalı, təkmilləşdirilməli və kifayət qədər yenilənməlidir. Belə olduğu təqdirdə İslam Əməkdaşlığı Təşkilatına üzv olan çoxlu sayda Asiya və Afrika qitələrinin ölkələri ilə daha sıx iqtisadi və inteqrativ əməkdaşlığa nail olmaq mümkün olardı.

Azərbaycan müsəlman dünyasının bir parçası kimi öz müstəqilliyini bərpa etdikdən sonra, 8 dekabr 1991-ci ildə bu təşkilata qəbul edilmişdir. Onu da qeyd edək ki, ölkəmiz bu təşkilatın mühüm tədbirlərində, o cümlədən dövlət başçılarının iştirakı ilə keçirilən sammitlərində, bu və ya digər problemlərə həsr olunan konfranslarda, seminarlarda kifayət qədər fəal iştirak edir, təkliflər irəli sürür, müxtəlif layihələrlə çıxış edir və üzv ölkələrin iştirakı ilə bir sıra layihələrin iştirakçısına çevrilməyə nail olmuşdur.

Bundan əlavə, bu təşkilatın bir çox üzvləri olan dövlətlər, onların maliyyə və investisiya qurumları Azərbaycanla fəal əməkdaşlıq əlaqələri qurmuş, ölkəmizdə infrastruktur şəbəkəsinin yaradılmasında və müxtəlif iqtisadiyyat sahələrinin potensialının gücləndirilməsində iştirak edirlər. Ölkəmiz bir qrup dünya dövlətləri ilə əlaqələrin maksimum səmərəli olması istiqamətində məqsədyönlü fəaliyyət istiqamətləri formalaşdırmağa nail olmuşlar [5, s.156].

Azərbaycan əvvəldə qeyd etdiyimiz kimi, uzun müddət 70 il ərzində - keçmiş SSRİ-nin tərkibində olmuşdur və bu baxımdan həmin qurumun süqutundan sonra, quruma daxil olan respublikaların müstəqil dövlətlər kimi yer aldığı MDB - Müstəqil Dövlətlər Birliyi ölkələri ilə ikitərəfli və birlik çərçivəsindəki münasibətlərə xüsusi önəm verir. Bu birliyin inteqrativ fəallığı o qədər də yüksək olmasa da, Azərbaycan mümkün qədər sərfəli iqtisadi əmkdaşlıq istiqamətlərinin dəyərləndirilməsinə və ölkələr arasındakı əlaqələrin genişləndirilməsinə səy göstərir.

Məsələn, ölkəmizdə Rusiya kapitalı ilə 500-dən çox müəssisə və kompaniyalar qeydiyyatdan keçmişdir və fəaliyyət göstərirlər. Rusiya bazarı ənənəvi olaraq, Azərbaycanın bir çox aqrar məhsullar üzrə kifayət qədər sərfəli olan satış bazarları kimi cəlbedicidir. Rusiyada çoxlu sayda Azərbaycanlılar fəaliyyət göstərirlər, işləyirlər və bu ölkənin sosial-iqtisadi həyatına

inteqrasiya edirlər. Bir çox həmvətənlilərimiz bu ölkədə yüksək nüfuza malikdirlər və ləyaqətlə ölkəmizi təmsil edirlər.

Azərbaycanın Belarusla ticarət-iqtisadi və təsərrüfat-kooperasiya əlaqələri nümunəvi bir xarakter almışdır. Bu ölkənin beynəlxalq əmək bölgüsündə ixtisaslaşdığı sahələr üzrə - kənd təsərrüfatı maşınları və texnikası istiqamətində aparıcı zavodları və müəssisələri Azərbaycanda birgə müəssisələrin təşkili sayəsində səmərəli fəaliyyət göstərirlər. Gələcəkdə Azərbaycan vasitəsilə regional bazarların əldə edilməsi və xüsusilə Türkiyə bazarlarına çıxışın genişləndirilməsi planlaşdırılmışdır.

Ölkəmizin Ukrayna ilə bir çox sahələrdə sıx əməkdaşlıq əlaqələri mövcuddur və ilk növbədə Ukraynadan bir sıra metal məmulatları, sənaye əhəmiyyətli yarımfabrikatlar idxal olunur. Azərbaycandan Ukraynaya isə kimya məhsulları və əsasən kənd təsərrüfatı - aqrar məhsullar ixrac olunur. Azərbaycan özünün taxıl fondunu daha da etibarlı etmək üçün Rusiya və Qazaxstandan ölkəmizin tələbatına uyğun şəkildə ərzaq buğdası idxal edir. Qazaxıstanla nəqliyyat və logistik fəaliyyət istiqamətində əməkdaşlıq genişləndirilməkdədir [1, s.18].

Azərbaycanla Rusiya arasında Şimal Nəqliyyat Dəhlizinin yaxın perspektivdə İrandan keçməklə Fars körfəzi ölkələrinə qədər uzadılması gözlənilir. Azərbaycanla Gürcüstan arasındakı əlaqələr isə xeyli fəallığı ilə diqqət çəkir. Onu da qeyd edək ki, Ukrayna və Gürcüstan artıq MDB üzvü deyildirlər və Rusiya ilə münasibətlərə görə bu qurumu tərk ediblər.

Nəzərə almaq lazımdır ki, regionda həyata keçirilən bütün enerji və nəqliyyat layihələrinin reallaşdırılmasında Gürcüstan Türkiyə ilə bərabər, Azərbaycanın əsas strateji tərəfdaşıdır. Bunlarla yanaşı, Azərbaycan qonşu Gürcüstanın iqtisadi həyatında mühüm strateji tərəfdaş kimi iştirak edir, ölkəmizin ən iri dövlət şirkəti - SOCAR-ın törəmə müəssisəsi Gürcüstanın ən çox vergi ödəyən təşkilatıdır. Azərbaycan əksər məsələlərdə Gürcüstanla inteqrativ münasibətdə yerləşir və birlikdə regional iqtisadi inteqrasiya proseslərinin əsasında yer alırlar.

Azərbyacan dünyanın önəmli beynəlxalq, regional təşkilatları və birlikləri ilə sərfəli əlaqələrin aparılmasında milli maraqların qorunmasına səy göstərir. Əsasən bu təşkilatlarla əlaqələri genişləndirilir ki, son nəticədə bunun ölkəmizə müəyyən mənada səmərəsi dəysin, fayda götürülsün həmçinin milli və milli iqtisadi maraqlara ziyan toxunmasın. Artıq, Azərbaycanın ağır şərtlərlə kreditlər götürməsinə ehtiyac qalmamışdır və əvvəldə bildirdiyimiz kimi, ölkəmiz bir çox beynəlxalq layihələrin maliyyə təminatçısı kimi çıxış edir və ya üçüncü ölkələrə yeri gəldikdə maliyyə yardımı göstərir, kreditlər verir. Bununla belə, nüfuzlu beynəlxalq maliyyə və kredit təşkilatları ilə əlaqələrdə prioritetlik qorunur və mühüm inteqrativ proseslərdə əməkdaşlıq davam etdirilir. Biz bunlara misal olaraq, ölkəmizin Dünya Bankı Qrupuna daxil olan maliyyə və kredit qurumları, birlikləri, həmçinin Avropa Yenidən Qurma və İnkişaf Bankı ilə əlaqləri göstərə bilərik. Bundan başqa, ölkəmiz bir çox regional qurumlarla, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə sıx əməkdaşlığını da qeyd etməmək mümkün deyildir [3, s.97]. Bu təşkilatlarla əlaqələr əslində strateji və mühüm regional xarakter daşıyır. Belə bir yanaşma onunla izah edilir ki, həmin təşkilatın təşkilinin təşəbbüskarı kimi Azərbaycanın bütün sahələrdə və beynəlxalq dairələrdə əsas strateji tərəfdaşı və qardaş ölkəsi olan Türkiyə çıxış etmişdir.

Şübhəsiz, bu təşkilatın yaranmasında Türkiyə özünün geostrateji, geosiyasi və geoiqtisadi maraqları ilə bərabər, əsasən regionda iqtisadi inkişafın və inteqrasiyanın intensivləşdirilməsinin maraqlı bir ölkə kimi olması əsas rol oynamışdır.

Ölkəmiz beynəlxalq səviyyədə öz nüfuzunu və imicini əhəmiyyətli səviyyədə yüksəldə bilmişdir və bunlar isə öz növbəsində əksini nüfuzlu dünya iqtisadi təşkilatlarının,qurumlarının və iqtisadi forumların hazırladığı rəqabətqabiliyyətlilik hesabatlarında, eyni zamanda reytinqlərində

ifadə etmişdir. İlk növbədə, ölkəmizin qlobal rəqabətqabiliyyətlilik hesabatlarında yer almış mövqeyinin xronolgiyasının qısa təhlilinə nəzər yetirmək maraqlı olardı.

Belə ki, hələ, 2009-cu ildə və 2010-cu illərdə ölkəmiz artıq qlobal göstəricilər üzrə dünya ölkələrinin reytinqlərində tədricən yer almağa və irəliləməyə nail olmuşdur. Həmin illərdə Qlobal Rəqabətlilik Hesabatında ölkəmiz dünya üzrə 133 dövlətin iştirak etdiyi və göstəricilərin əks olunduğu hesabatda 51-ci yerə yüksəlmişdir. Bu həmin dövrdə MDB ölkələri içərisində ən böyük nəticə kimi qeydə alınmışdır. Digər bir pozitiv məqam onunla bağlıdır ki, məhz həmin dövrdən başlayaraq Azərbaycan bu nüfuzlu və mühüm qlobal hesabatda MDB ölkələri arasında liderliyini əldən verməmişdir və əksinə hər il bu göstərici üzrə irəliləməyə nail olmuşdur. Belə ki, Dünya İqtisadi Forumunun hər il hazırladığı müvafiq qlobal rəqabətqabilyyətlilik hesabatının sonuncu hesabatında, yəni 2017-2018-ci illər üzrə olan qlobal rəqabətqabiliyyətlilik reytinqində Azərbaycan yenə də bütün MDB ölkələrini qabaqlayaraq 35-ci yerə qalxmışdır. Başqa bir maraqlı cəhət bundan ibarətdir ki, Azərbaycan bu sırada Türkiyə və Rusiyanı - özünün qeyri-neft sektoru sahəsində əsas strateji ölkə partnyorlarını geridə qoymağı bacarmışdır. Belə nailiyyət ölkənin iqtisadiyyatının müasir dövrün çağırışlarına uyğun şəkildə təkmilləşdirilməsi ilə bərabər, regional və beynəlxalq səviyyədə mövcud və mümkün inteqrasiya imkanlarına strateji baxımdan yanaşmanın təmin edilməsi və qiymətləndirilməsi nəticəsində mümkün olmuşdur.

Məsələn, Azərbaycan beynəlxalq rəqabətlilik reytinqində 12 mühüm göstəricilər, yəni indikatorlar üzrə 9-da yüksək nəticələrə nail olmuşdur. Bundan başqa, bazar iqtisadiyyatı prinsiplərinə tam cavab verən müasir istehsal və sosial infrastrukturun yaradılmasında ölkəmiz əhəmiyyətli işlər görə bilmişdir. İnsan potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, regional və beynəlxalq səviyyədə potensial inteqrasiya istiqamətlərinin obyektiv olaraq qiymətləndirilməsi və nəzərə alınması hesabına milli iqitsadiyyatın şaxələndirilməsinin təmin olunması, xarici ticarət fəaliyyətinin genişləndirilməsi, qeyri-neft ixracının stimullaşdırılması, ixracın təşviqi üzrə ölkə daxilində və bir çox dünya ölkələrində məqsədli tədbirlərin görülməsi artıq öz nəticələrini verməkdədir.

Bu qeyd edilənlər, xarici ticarətin strukturunda və son illərdə qeyri-neft ixracının strukturunun potensialının artmasında özünü göstərir, artıq Azərbaycanda qeyri-neft sektoru ixracının artım tendensiyasının intensivliyi təmin edilmişdir. Bu, təkcə ənənəvi kənd təsərrüfatı və kimya kimi ixrac məhsullarından ibarət deyildir. Belə ki, meyvə və tərəvəzlərlə yanaşı, həmçinin kimya məhsulları ilə bərabər, ölkədə pambıq istehsalının artımının təmin edilməsi sayəsində pambıq mahlıcının, yəni ipliyin ixracı hər il artmaqdadır. Yeni qara və əlvan metallurgiya istehsal potensialının formalaşdırılması alüminiumun ixracının yüksəldilməsinə imkan vermişdir. Qürurverici qeyri-neft ixracı məhsulları sırasına "Azərkosmos" ASC-nin fəaliyyəti hesabına reallaşan xidmətlərdir. Belə ki, planetin 18 dövlətinə Azərbaycan tərəfindən peyk xidmətləri, həmçinin telekommunikasiya xidmətləri ixrac olunmaqdadır. Bu ölkələr sırasında hətta, dünyanın güclü inkişaf etmiş ölkələri belə, o cümlədən Fransa, Almaniya, Cənubi Afrika Respublikası və Böyük Britaniya vardır.

Ölkəmizin xarici ticarətinin strukturuna baxsaq görərik ki, qeyri-neft ixracının artması artıq özünü göstərməkdədir və qeyri-neft ixracı üzrə əsas tərəfdaşlar kimi Türkiyə və Rusiya çıxış edirlər. Ümumilikdə isə Azərbaycanın xarici ticarət dövriyyəsində əsas tərəfdaşlar sırasında bu ölkələrlə yanaşı İtaliya, Çin, ABŞ, Ukrayna, Almaniya və s. daha çox ölkələr yer alırlar. 2017-ci ilin yekunlarında Azərbaycanın ixracında ilk yeri 31,9 %-lə İtaliya tutmuşdur.

Sonrakı yerlərdə qərarlaşan Türkiyə - 9,9%, İsrail - 4,6%, Rusiya - 4,3%, Çexiya - 4% və s. təşkil etmişdir. İdxalda isə ilk yeri ölkəmizin qeyri-neft sektoru məhsullarının əsas bazarı kimi daha

çox ənənəvi xarakter daşıyan Rusiya tutur - 17,7%. Türkiyənin Azərbaycanın ixracında payı 2017-ci ilin göstəriciləri üzrə 14,5%, Çin - 9,7%, ABŞ - 8,2%, Ukrayna - 5,2%, Almaniya 5,1% və s. olmuşdur. Ölkəmizin dünyanın müxtəlif inteqrasiya qurumları və birlikləri ilə ticarət dövriyəsi də maraq doğurur. Məsələn, 2017-ci ilin göstəricilərinə görə MDB-yə daxil olan ölkələr Azərbaycanın idxalında 27,3% paya malikdirlər. Bu göstəriciyə başqa rakusdan yanaşsaq görmək mümkündür ki, idxalın strukturunda Avropa İttifaqı ölkələri 2017-ci ildə 22,1% təşkil edirlər [2, s.257].

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri isə 2017-ci ildən Azərbaycanın idxalında 39,8% pay sahibidirlər. Maraqlı bir göstərici İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələrin Azərbaycanın idxalında mühüm rol oynamasıdır, belə ki, ayrıca təhlil etsək görmək mümkündür ki, ölkə idxalının 49,3%-i bu təşkilata daxil olan dövlətlərlə bağlıdır.

Ölkəmizin ixrac struktur və ölkə qrupları ilə ixracın payı da diqqət çəkir. Bu sahədə MDB ölkələrinin payı xeyli aşağıdır, belə ki, Azərbaycan ixracında MDB-yə daxil olan dövlətlərin payı cəmisi 7,6%-dir və bu sırada əsas pay sahibləri Avropa İttifaqı ölkələridir, şübhəsiz bu ilk növbədə İtaliyaya neft ixracı ilə bağlıdır. Azərbaycanın ixracında Avropa İttifaqının payı 54% təşkil edir.

Ölkə qrupları və inteqrasiya birlikləri kontekstindən yanaşsaq, Azərbaycanın ixracında ən yüksək pay İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan dövlətlərə məxsusdur - 65,7%. İdxalın coğrafi quruluşundan yanaşsaq isə, Azərbaycanın idxalında Avropanın payı 2017-ci ilin yekununda 49,2%, Asiyanın payı 38,7%, Amerikanın payı isə 11,3% təşkil etmişdir. Maraqlı məqam ixracın coğrafi quruluşu ilə bağlıdır, belə ki, ölkəmizin məqsədli və balanslı şəkildə inkişaf etmiş ölkə statusunu əldə etmək hədəflərinə doğru getməsi, Avropanın enerji təhlükəsizliyində strateji partnyora çevrilməsi ölkənin ixracının coğrafi quruluşunda özünü büruzə verməkdədir. Əgər 2013-cü ildə Azərbaycan ixracının coğrafi quruluşunda Avropanın payı 54% olmuşdursa, bu göstərici 2015-ci ildə 58% və 2017-ci ildə isə 61,9% təşkil etmişdir. Həmin göstərici üzrə 2017-ci ildə Asiya və Amerikanın xüsusi çəkisi müvafiq olaraq 32,4% və 4,3% təşkil etmişdir.

Qeyd etdiyimiz kimi, Avropa İttifaqı ölkələri ilə xarici iqtisadi əlaqələrin genişləndirilməsi və Avropa bazarlarına fəal çıxışın təmin edilməsi ölkəmizin iqtisadi diplomatiyasının əsas fəaliyyət istiqamətlərindəndir. Bu bazarlar maliyyə baxımından daha çox güclü və sabit hesab olunurlar. Belə ki, ölkəmizə etibarlı, məhsuldar valyuta gətirilməsi mənbələrinin formalaşmasında Avropa İttifaqı ölkələri ilə fəal şəkildə xarici iqtisadi əməkdaşlığın təmin edilməsi ciddi önəm kəsb edir. 2013-2017-ci illər ərzində bu iri regional inteqrasiya birliyinə daxil olan ölkələrlə idxalın həcminin sabit saxlanılması və yaxud ixracın artım dinamikasının qorunması mümkün olmamışdır [5, s.157].

Digər bir mühüm iqtisadi inteqrasiya - regional quruma daxil olan ölkələrlə xarici ticarətin ümumi səviyyəsi və dinamikasının təhlili maraq doğurur. Söhbət Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatından gedir. Bu təşkilat üzrə idxalın dəyəri 2013-cü ilin yekununda 3,75 mlrd. olduğu halda, həmin göstərici 2015-ci ildə 3,1 mlrd. dollar, 2016- 3,3 mlrd. dollar və 2017-ci ildə isə 3,49 mlrd. ABŞ dolları səviyyəsində qərarlaşmışdır.

Ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə ticarət iqtisadi əlaqələrinin genişləndirilməsi baxımından son illərdə görülən tədbirləri təqdirəlayiq hesab etmək olar. Belə ki, 2013-2017-ci illərdə həmin beynəlxalq intqerasiya qurumuna daxil olan ölkələrlə Azərbaycanın ixracının həcmi 59%-ə yaxın artmış və 2013-cü ildə ixracın ümumi həcmi 946 mln. dollara yaxın olmuşdursa, bu göstərici 2015-ci ildə 1,79 mlrd. dollar, 2016-da 1,44 mlrd. dollar və 2017-ci ildə isə 1,53 mlrd. ABŞ dolları təşkil etmişdir.

Baxılan dövr ərzində idxalın səviyyəsi də maraq doğurur, belə ki, bu beynəlxalq inteqrativ təşkilata daxil olan ölkələrdən Azərbaycana idxalın həcmi 2013-cü ildə 2,04 mlrd. dollar

səviyyəsində olmuşdursa, 2015-ci ildə nisbətən azalaraq 1,39 mlrd. ABŞ dolları, 2016 - 1,51 mlrd. ABŞ doları və 2017-ci ildə isə 1,77 mlrd. ABŞ dolları həcmində qərarlaşmışdır.

İslam əməkdaşlığı təşkilatı ölkələrindən Azərbaycana idxalı 2013-cü ildə 2,2 mlrd. ABŞ dolları təşkil etmişdir, lakin bu göstərici 2015-ci ildə azalaraq 1,6 mlrd. dollar səviyyəsinə düşmüşdür, növbəti illərdə artım tempi bərpa olmuş və 2017-ci ildə idxalın dəyəri 1,9 mlrd. ABŞ dolları təşkil etmişdir.

Azərbaycanın Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq ölkələri ilə ticarət iqtisadi əlaqələrində 2013-2017-ci illərdə qeyri-sabitlik nəzərə çarpmışdır. Belə ki, 2013-cü ildə həmin təşkilata üzv ölkələrdən Azərbaycana idxalın həcmi 3,7 mlrd. dollar dəyərində olmuşdursa, 2015-ci ildə bu göstərici 3,82 mlrd. ABŞ dolları, 2017-ci ildə isə 3,67 mlrd. dolları olmuşdur. Əvəzində ixracda qeyri-sabitlik daha çox diqqət çəkir, belə ki, 2013-cü ildə Azərbaycanda bu iri regional iqtisadi birliyinin üzv ölkələrinə ixracın həcmi 7,4 mlrd. ABŞ dolları təşkil etmişdirsə, analoji göstərici 2015-də 1,9 mlrd. dollara yaxın, 2017-də 2,26 mlrd. dollara yaxın, 2017-ci ildə isə 2,5 mlrd. dollardan çox olmuşdur [6, s.93].

Hesab edirk ki, bu ölkələrin potensial satış bazarları üzrə daha çox araşdırmalar aparılmalı və neft məshsulları ilə yanaşı, qeyri-neft təmayüllü məhsul və malların ixracının genişləndirilməsi tədbirləri görülməlidir.

Dünyanın başqa bir iri regional iqtisadi birliyi və inteqrasiya qurumu olan - Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiyasının üzv ölkələri ilə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin müasir dövrün çağırışlarına adekvat şəkildə qurulmasının vacibliyi diqqət çəkir. Belə ki, 2013-2017-ci illərdə bu ölkələrdə ticarət iqtisadi əlaqələrin həcmini sabit saxlamaq mümkün olmamışdır, bu isə əsasən ixracın strukturunda qeyri-neft məhsullarının payının xeyli aşağa olması ilə bilavasitə əlaqədardır. Belə ki, bu regional birliyə daxil olan ölkələrdən Azərbaycana idxalın həcmi 2013-cü ildə 113,1 mln. ABŞ dolları həcmində olmuşdursa, həmin göstərici 2015-ci ildə 231 mln. dollar və 2017-ci ildə isə 182,4 mln. dollar təşkil etmişdir.

Bundan əlavə, Azərbaycandan bu qurumun dövlətlərinə ixracın həcmi 2013-cü ildə 4,7 mlrd. dollar olmuşdursa, 2015-ci ildə dəfələrlə azalaraq 752,6 mln. dollar, 2017-ci ildə isə 635,1 mln. dollar səviyyəsinə qədər düşmüşdür. Bu baxımdan, həmin regional qurumun üzv dövlətləri ilə xarici-iqtisadi əlaqələrin strukturunun təkmilləşdirilməsi və diversifikasiyalaşdırılması tədbirləri görülməlidir.

Azərbaycanın İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə əlaqələrinə diqqət yetirsək görərik ki, Azərbaycandan 2013-cü ildə bu təşkilata daxil olan ölkələr üzrə ixracın həcmi 12,7 mlrd. ABŞ dolları səviyyəsində olmuşdur, amma bu göstərici 2017-ci ilin yekunudan xeyli azalaraq, 9,1 mlrd. ABŞ dolları səviyyəsinə düşmüşdür.İdxala gəlincə isə, müvafiq olaraq 2013 və 2017-ci illərdə 6,19 mlrd. ABŞ dolları və 4,33 mlrd. ABŞ dolları qeydə alınmışdır. Bu təşkilata daxil olan ölkələrlə xarici iqtisadi əlaqələrin səmərəliliyinin yüksəldilməsi tədbirlərinin yeni mərhələyə qaldırılması zərurəti özünü büruzə verir.

Ədəbiyyat

1. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2012, 39 s.

2. Azərbaycanın statistik göstəriciləri. 2018.

3. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatının inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

4. Bayramov Ə.İ. Reqional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. Bakı: Azərnəşr, 1997, 208 s.
5. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.
6. Vəliyev D. Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 426 s.
7. www.president.az
8. www.cabmin.gov.az
9. www.az-customs.net
10. www.azstat.org

Резюме

Панахалиева М.О.

Текущее состояние участия Азербайджана в глобальных экономических процессах

В статье приводится подробная информация о текущем состоянии участия Азербайджана в процессах глобальной экономической интеграции. Таким образом, отношения международного сотрудничества с Азербайджаном детально изучены и проведен экономический анализ. Обнародованы концепция внешнеэкономической политики страны и стратегия региональной международной интеграции, показаны направления развития ненефтяного сектора

Ключевые слова: *глобализация, экономическая интеграция, международные экономические организации, региональные экономические структуры, международные торговые отношения*

Summary

Panahaliyeva M.O.

Azerbaıjan's Partıcıpatıon ın Global Economıc Processes the Current Sıtuatıon

Key words: *globalization, economic integration, international economic organizations, regional economic structures, international trade relations*

The article provides detailed information on the current status of Azerbaijan's participation in the processes of global economic integration. Thus, the international cooperation relations with Azerbaijan have been studied in detail and economic analysis has been carried out. Concept of foreign economic policy of the country and strategy of regional international integration

AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİ VƏ ONUN HÜQUQİ ƏSASLARI

Pürhani Səfər Həsən oğlu
Milli Aviasiya Akademiyası
Qanbayev Elnur Elman oğlu
Milli Aviasiya Akademiyası
elnur.qanbayev@mail.ru

Xülasə: *Məqalədə Azərbaycan Respublikasında gömrük nəzarətinin təşkilinə, gömrük nəzarətinin tətbiq olunmasını şərtləndirən amillərinə, onun keçirilməsi proseslərinə və formalarına, gömrük nəzarətinin nəticəsində dövlət büdcəsinə gömrük rüsumlarının daxilolmalarının sistemli təhlilinə, həmçinində gömrük orqanlarının fəaliyyətində xarici iqtisadi əlaqələrinin optimallaşdırılması məqsədilə gömrük nəzarətinin təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirilib.*

Açar sözlər: *qanunvericilik, nəzarət, məcəllə, gömrük orqanları, mallar, nəqliyyat vasitələri.*

Azərbaycan Respublikasının bu günku qanunvericiliyə əsasən vətəndaşlar tərəfindən bəyan edilən mallar və nəqliyyat vasitələri, gömrük nəzarəti (GN) rejiminə tətbiq olunurlar. Respublikamızıın mövcud gömrük işi sahəsində qanununvericiliyə görə, gömrük nəzarətinin keçirilməsi və prosesinin keçiririlməsi prosesinə ölkəmizin səlahiyyətli orqanları (Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi – AR DGK) tərəfindən realizə edilir. Gömrük orqanları gömrük nəzarətinin keçirilməsi zamanı bəyan edilmiş mallarının, əl yükü, müşayiət olunun və olunmayan baqaj kimi altnövlərinə gömrük nəzarəti tətbiq olunur. Həmçinində GN realizə edilməsi formalarına malların və nəqliyyat vasitələrinin müşayiət sənədlərinin yoxlanması, gömrük baxışı və gömrük müayinəsi aiddir. Malların və nəqliyyat vasitələrinin müşayiət sənədlərinin yoxlanması kağız formasında aparılır, gömrük baxışı və gömrük müayinəsi isə faktiki nəzarət formasında aparılır. Ölkəmizdə gömrük nəzarətinin keçirilməsi mövcud qanunvericiliklə tənzimlənir və onun həyata keçirilməsi müəyyən olunmuş qaydalarla və malların və nəqliyyat vasititələrinin milli sərhədləri keçərkən aparılan adi GN, nəqliyyat vasitələrinin hərəkət etdiyi vaxtı GN, mövcud qanunvericiliklə təyin olunmuş formalarda azad olunma hallarına GN, seçmə GN üslublarla aparılır. Həmçinində GN keçirlməsi üçün, əlavə suallar yarandıqda gömrük orqanları bəzi məlumatları dəqiqləşdirilməsi məqsədi ilə digər nəzarət dövlət orqanlarından əldə edə bilər. Gömrük orqanları GN aparılması məqsədi ilə ölkənin maliyyə institutlardan (banklardan, sair maliyyə-kredit təşkilatlardan), malları və nəqliyyat vasitələri sərhəddən keçirən şəxslərdən, gömrük vasitəçilərdən və bu sahə ilə bağlı digər şəxslərdən aparılan əməliyyatlar üzrə, hesablar haqqında ya arayış və ya tələb olunan məlumatları əldə etməyə hüquqları var.

Malların və nəqliyyat vasitələrin Azərbaycan Respublikasının (AR) sərhədindən keçirilməsinin prinsiplərinə görə, mallar və nəqliyyat vasitələri gömrük sərhədindən keçirilməsi zamanı gömrük nəzarətinin aparılması AR Gömrük Məcəlləsinin (GM) 82-ci maddəsi ilə tənzimlənir. AR GM bu maddəsinə əsasən gömrük nəzarəti mal və nəqliyyat vasitələri gömrük sərhədindən keçirən bütün şəxslərə şamil edlir və məcburidiır. Gömrük nəzarənin yerinə yeririlməsi kimi gömrük orqanlarının funksiyaları AR GM 82-ci maddəsinin 3-cü bəndində verilir.

AR buraxılış gömrük məntəqələrindən keçirilən mal və nəqliyyat vasitələrinin sənədləri, xüsusən müxtəlif keyfiyyət sertifikatlarının yoxlanılmasını ölkənin gömrük orqanlarının tərəfindən realizə edilir. AR nəzarət-buraxılış məntəqələrindən keçirilən mal və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi istifadə oluna bilər və bu prinsipə nəzarət AR DGK tərəfindən aparılır. Bu sistemin tətbiqinin əsas məqsədi ölkəyə idxal olunan müxtəlif heyvanları hər-hansı xəstəliklərin müəyyən olunması, onları daşıyan nəqliyyat vasitələri mövcud foto-sanitar və gigiyena standartlarına uyğun müəyyən qaydalarla və təyin edilmiş müddətdə əcburi şəkildə dezinfeksiya işlərinin aparılması, beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə hüququnu verən sənədlərin verilməsi və bunun üçün respublikanın mövcud qanunvericiliyə uyğun müəyyən olunmuş dərəcədə dövlət rüsumunun ödənilməsidir. [1]

GN sisteminin təkmilləşdirilməsi yenilənmış AR GM risklər və onun təsnifatlaşdırlması kategoriyalarını anlayışları genişləndirilmişdır və risk deyəndə gömrük münasibətlərinin iştirakçılarının AR-ın gömrük qanunveriçiliyinə riayət olunmaması ehtimalı başa düşülür və bu mövcud kategoriya əsasında risklərin təhlil üslubları və onun idarəedilməsi sistemi formalaşır.

AR GM-ın 100-cü maddəsinin 2-ci bəndinə risklərin idarə edilmə sistemi gömrük orqanlarına məxsus olan ehtiyyatlardan səmərəli istifadəsi məsələrinə əsaslanır, yəni müasir gömrük inzibatçılığının keyfiyyətli tərkibini göstərir. Gömrük orqanlarının ehtiyyatları altında gömrük orqanlarının tərkibində peşəkar kadrlar, gömrük nəzarətinin texniki vasitələr, gömrük infrastekturu, informasiya ehtiyyatları başa düşülür. [1]

Eləcədə qeyd etmək lazımdır ki, GN təşkili, aparılması və tənzimlənməsi AR GM əlavə digər normativ-hüquqi sənədlərlə tənzimlənir. Belə normativ-hüquqi sənədələrə 1992-ci ildə qəbul edilmiş ölkəmizdə gömrük nəzarətinin təmin edilməsi tədbirləri haqqında və onların təkmilləşdirilməsi barədə AR Prezitentinin fərmanları, AR qanunları, AR Nazirlər Kabinetinin qərarları, AR Milli Məclis tərəfindən qəbul edulən qanunları, AR DGK istifadə etdiyi aktları aid etmək olar.

Cədvəl 1.1-də verilən statistik məlumatlara görə 2016-2019-cu illərdə AR dövlət büdcəsinə gömrük rüsumlarının daxilolmaları ilbəil çoxalır, məsələn 2016-cı ildə dövlət büdcəsinə gömrük rüsumlarının daxilolmaları 1,8 mlrd.man. (12,4%), 2017-ci ildə 2,1 mlrd.man. (12,9%), 2018-ci 3,1 mlrd.man (15,4), 2019-cu ildə 4,0 mlrd.man. (16,6%) təşkil etmişdir. [4]

Cədvəl 1.1

AR-ın dövlət büdcəsinə DGK-i tərəfindən gömrük daxilolmaları

İllər	Dövlət büdcəsinin gəlirlərinin ümumi həcmi, mln.man.	Ötən ilə %-lə	İllər	Dövlət büdcəsinə gömrük daxilolmaları, mln.man.	Ötən ilə %-lə
2016	14 512	-33,7	2016	1,8	12,4
2017	16 221	+10,4	2017	2,1	12,9
2018	20 123	+19,4	2018	3,1	15,4
2019	23 145	+12,9	2019	3,7	16,0
2020 (proqnoz)	24 124	+4,1	2020 (proqnoz)	4,0	16,6

Mənbə: AR-ın DGK-nin rəsmi məlumatları, 2020

Həmçini qeyd etmək lazımdır ki, 2017-ci ili 2016-ci illə müqayisə edəndə görmək olar ki, dövlət büdcəsinə gömrük rüsumlarının daxilolmaları 0,3 mlrd.man. (və ya +0,5%), 2018-ci ili 2017-ci illə müqayisədə 1,0 mlrd.man (və ya +2,5), 2019-cu ili 2018-ci illə müqayisədə 0,6 mlrd.man. (və ya +0,6%) artım müşahidə olunur. 2020-ci ilə gələndə isə qeyd etmək lazımdır ki, cari ildə dövlət büdcəsinə gömrük rüsumlarının daxilolmaları 4,0 mlrd. manat gözlənilir və bu göstərici 2019-cu illə müqayisədə 0,3 mlrd. man. artıq (və ya +0,6%) proqnozlaşdırılır.

Həmçinin qeyd etmək lazımdır ki, gomrük orqanları tərəfindən gömrük nəzarətinin vasitəsi ilə ölkənin dövlət büdcəsinin gəlirlər hissəsinə aparılmış ödənişlər çox böyük əhəmiyyət kəsb edir. Çünki məhz gömrük nəzarətinin milli qanunveriçiliyə müvafiq olaraq bu daxilolmalar çox böyük əhəmiyyətə malikdir və bununla bağlı AR DGK statistik məlumatları cədvəl 1.1-də göstərilmişdir.

Mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti bir-birindən fərqlənir və müxtəlif formlarda aparılır. Mal qruplarına GN dedikdə, idxal, ixrac və tranzit mallarına GN növlərinin tətbiqi nəzərdə tutulur. Nəqliyyat vasitələrinin növlərinə asılı olaraq GN dəniz gəmilərində dəmiryol qatarlarında; hava gəmilərində və avtomobil nəqliyyat vasitələrinə aparılır. [2]

Cədvəl 1.2-də AR-ın dövlər büdcəsinə son beş ildə müxtəlif növ gömrük rüsumlarının daxilolmaların mənbələrinin təsnifatlaşdırılması verilir.

Cədvəl 1.2

Azərbaycan Respublikasının dövlət büdcəsinə gömrük daxilolmaları, mlrd.man.

İllər	Gömrük rüsumu üzrə	ƏDV	Aksiz	Yol vergisi	Cəmi
2016	0,388	1,3	0,105	0,017	1,81
2017	0,469	1,6	0,090	0,017	2,1

2018	0,768	2,2	0,172	0,030	3,1
2019	0,900	2,4	0,380	0,032	3,7
2020 (proqnoz)	0,950	2,7	0,300	0,045	4,0

Mənbə: AR-ın DGK-nin rəsmi məlumatları, 2020

Cədvəl 1.2-dən göründüyü kimi 2016-2020-ci illərdə dövlət büdcəsinə gömrük rüsumlarından daxilolmalarında əsas mənbə kimi əlavə dəyər gömrük rüsumu təşkil edir. Bu gömrük rüsumunun son beş ildə payı 60%-dən çox təşkil edir, ondan sonra ən çox dövlət büdcəsinə gömrük daxilolmaları arasında gömrük rüsumlarının payına düşür, üçüncü yerdə aksiz gömrük rüsumarı gedir və sonuncu yerdə yol vergisidir. Cədvəlin təhlilindən göründüyü kimi son bir necə ildə dövlət büdcəsinə gömrük daxilolmaları ildən-ilə daima artır. Onun əsas səbəbi ölkə iqtisadiyyatının inkişaf templərinin yüksəldilməsidir, əhalin sosisal rifahının yaxşılaşmasıdır, üstə gəl dünya iqtisadiyyatının canlaşmasıdır. [4]

Mal və nəqliyyat vasitələrinin respublikanın nəzarət-keçid məntəqələrinə daxil olması, GN başlanması zamanı, bu əmtəəyə qruplarının AR gömrük sərhəddini keçdiyi zaman hesab olunur. Mal və nəqliyyat vasitələrinin ölkə ərazisini tərketmə zamanı GN - gömrük bəyannaməsinin təqdim edildiyi andan başlanır. Təqdim olunmuş gömrük bəyannaməsinin, mal və nəqliyyat vasitələrinə GN üçün tələb olunan sair sənədlərin yoxlanılması üçün mövcud qanunvericiliklə maksimum müddət on gün müddətində aprılmalıdır. Bu müddətin başlanğıcı olaraq gömrük bəyannaməsinin qəbul edildiyi və lazımi sənədlərin təqdim olunduğu gündən hesab edilir. [3]

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı-2019.
2. A.Ş.Şəkərəliyev. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı-2018.
3. C.Q. Nuriyev. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı-2010.
4. www.customs.gov.az – AR DGK-nin rəsmi saytı.

Резюме

Пурхани С.Г., Ганбаев Э.Э.

Организация и правовые основы таможенного контроля в Азербайджанской Республике

В данной статье уделено внимание организации таможенного контроля в Азербайджанской Республике, факторам, обуславливающим применения таможенного контроля, процессам и формам проведения контроля, системному анализу бюджетных поступлений от сборов таможенных пошлин в результате проведения контроля, а также вопросам совершенствования таможенного контроля в деятельности таможенных органов с целью оптимизации внешнеторговых связей.

Ключевые слова: *законодательство, контроль, кодекс, таможенные органы, товары, транспортные средства.*

Summary

Purkhani S.H., Qanbayev E.E.

Organization and legal basis of customs control in the Azerbaijan Republic

This article focuses on the organization of customs control in the Republic of Azerbaijan, the factors that determine the application of customs control, the processes and forms of control, the

systematic analysis of budget revenues from customs duties as a result of control, as well as the issues of improving customs control in the activities of customs authorities with a view to optimization of foreign trade relations.

Key words: *legislation, control, code, customs authorities, goods, vehicles.*

TƏBİİ RESURSLAR VƏ DAVAMLILIQ GÖSTƏRİCİLƏRİ ÜZRƏ AZƏRBAYCANIN BEYNƏLXALQ REYTİNQLƏRDƏ MÖVQEYİNİN TƏHLİLİ VƏ YAXŞILAŞDIRILMASI MƏSƏLƏLƏRİ (QLOBAL ƏRZAQ TƏHLÜKƏSİZLİYİ İNDEKSİ ÜZRƏ)

Rüstəmov Famil Vəli oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
Mirzəyev Emil Mehrəli oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
emil.mirzeyev.84@inbox.ru

Xülasə: *Məqalədə ərzaq təhlükəziliyinin iqtisadi təhlükəsziliyin prioritet istiqaməti olması məsələləri araşdırılmışdır. Aparılmış təhlil əsasında onun formalaşmasına təsir edən amillər müəyyən edilmiş, beynəlxalq göstəricilər sistemində mövcud indeksin formalaşmasına təsir göstərən tərkib elementlərinin xüsusi çəkisi və bu göstəricinin yaxşılaşdırılması istiqamətləri təqdim olunmuşdur.*

Açar sözlər: *iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, indeks, subindeks, indikator, alt göstərici*

Hər bir ölkənin iqtisadi təhlükəsizliyinin prioritet istiqamətlərindən biri də ərzaq təhlükəsizliyidir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkə əhalisinin etibarlı ərzaq və kənd təsərrüfatı məhsulları üzrə təminatı ilə yanaşı, milli genefondumuzun sağlam formalaşmasına, eləcə də iqtisadi davamlılığın təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Ərzaq təhlükəsiziliyi anlayışı sosial-iqtisadi kateqoriya olub, bir-biri ilə sistematik şəkildə bağlı olan müxəlif bioloji , sosial, iqtisadi və.s amillərin təsirindən ibarətdir. Ərzaq və qida təhlükəsizliyi problemi makroiqtisadi problem olmaqla yanaşı, meqoiqtisadi səviyyəni də əhatə edir. Hal-hazırda "Ərzaq və qida təhlükəsziliyi prolemini qlobal iqtisadi problemlərdən biri adlandırsaq , heç də yanılmarıq. Onu da xüsusi vurğulamaq lazımdır ki, bu problem BMT-nin "Ərzaq və Kənd Təsərrüfatı təşkilatı FAO-nun başlıca tədqiqat və müzakirə obyektinə çevrilmişdir. Bu məqsədlə"THE ECONOMİST İNTELLİGENCE UNİT" təşkilatı tərəfindən özündə iqtisadi, siyasi, fiziki və sosial məlumatları əhatə edən ,eləcə də risk və dayanıqlılıq göstəricilərini cəmləşdirən "Qlobal Ərzaq Təhlükəsizliyi "indeksi (GFSİ) formalaşdırılmışdır [www.foodsecurityindex.eiu.com]. Qlobal ərzaq təhlükəsizliyi indeksi subindeksler, indikatorlar və subindikatorlardan ibarətdir. Qlobal ərzaq təhlükəsizliyi indeksinin əsas subindekslərindən biri də "Təbii resurslar və davamlılıq " subindeksidir. Bu subindeks ölkələrin iqlim dəyişikliklərinin təsirinə məruz qalmasını, təbii proseslərə həssaslığını və təbii risklərə davamlılığını müəyyənləşdirir. Qeyd etmək lazımdır ki, bu subindeks 2017- ci ildən etibarən ümumi indeksə əlavə edilmişdir və həmin subindeks, onun tərkib elementləri olan indikator və subindikatorlar yalnız 2017 və 2018-ci il üzrə olan məlumatları əhatə edir. Bu subindeksi formalaşdıran indikatorlar aşağıdakılardır:

- Məruz qalma indikatoru
- Su indikatoru

- Torpaq indikatoru
- Okean indikatoru
- Həssaslıq indikatoru
- Adaptiv potensial indikatoru
- Demoqrafik stress indikatoru

Təbii fəlakətlərə məruz qalma indikatorunu aşağıdakı elementlər formalaşdırır:

- Tempraturun yüksəlməsi subindikatoru
- Quraqlığın baş verməsi subdindikatoru
- Daşqın təhlükəsi subindikatoru
- Tufanın şiddətliliyi subindikatoru
- Dəniz səviyyəsinin yüksəlməsi subindikatoru
- Təsirin idarəedilməsi subindikatoru

Su indikatoru aşağıdakı tərkib elementlərindən ibarətdir:

- Aqrar sahədə su riski (kəmiyyət baxımından)
- Aqrar sahədə su riski (keyfiyyət baxımından)

Torpaq indikatorunun subindikatorları aşağıdakılardır:

- Torpaqların erroziyası
- Otlaq və ot örtüyü
- Meşələrin dəyişməsi

Okean indikatorunun formalaşmasına aşağıdakı subindikatorlar təsir göstərir:

- Dəniz biomüxtəlifliyi
- Evstrofikasiya və hipoksiya
- Mühafizə edilən dəniz əraziləri

Həssaslıq indikatoru aşağıdakı subindikatorlardan ibarətdir:

- **Ərzaq idxalından asılılıq**
- Təbii kapitaldan asılılıq
- Təbii fəlakətlərin risk menecmentliyi

Adaptiv potensial indikatorunun tərkib elementləri aşağıdakılardır:

- Erkən xəbərdarlıq tədbirlərini özündə əhatə edən “ağıllı iqlim kənd təsərrüfatı”
- Milli – aqrar risk menecment sistemi

Demoqrafik stress indikatorunun subindikatorları aşağıdakılardır:

- Əhali artımı subindikatoru
- Urbanizasiya subindikatoru

Beynəlxalq statistik göstəricilərdə qlobal və regional səviyyələrdə bu elementərin müqayisələri verilmiş və aşağıdakı rəqəmlər formalaşmışdır: Qeyd edək ki, muqayisələr qlobal və regional səviyyədə, uyğun olaraq 113 və 23 ölkə arasında aparılmışdır, nəticələr 0 və 100 ballıq sistemlə qiymətləndirilmişdir.

- Azərbaycan Respublikası” Təbii Resurslar və davamlılıq” subindeksi üzrə ”qlobal səviyyədə57,6 balla 75 – ci, regional səviyyədə isə(Xüsusən Asiya və Sakit Okean hövzəsi ölkələri üzrə) 57,6 balla 14- cü yerdədir.Sıralamda qlobal səviyyə üzrə Slovakiya 81,7 balla birinci, BƏƏ 40,7 balla sonuncu, regional səviyyə üzrə Yeni Zellandiya 71,8 balla birinci,İndoneziya isə 43,9 balla sonuncu yerdədir.

Bu subindeksin indikatorlarının qlobal və regional səviyyədə müqayisələrinə nəzər salsaq, görərik ki, **"**Təbii fəlakətlərə məruz qalma indikatoru göstəricisinə görə respublikamız qlobal səviyyədə 59,1 balla 87-ci, regional səviyyədə isə 59,1 balla 16- cı yerdədir. Həmçinin qlobal səviyyədə bu indikator üzrə 1- ci yerdə 79,4 balla Portuqaliya, sonuncu yerdə isə 33,9 balla Ekvador qərarlaşır. Bu indikatorun subindikatorlarının beynəlxalq qiymətləndirmə göstəricilərinə nəzər saldıqda respublikamızı aşagıdakı kimi qiymətləndirə bilərik: (Qeyd etmək lazımdır ki, 100 ballıq sistemdə qiymətləndirmə aparılmışdır) Azərbaycan Respublikası "Tempraturun yüksəlməsi" subindikatoruna görə 86,4, Quraqlıq dərəcəsi subindikatoruna görə 68,7, "Daşqınların səviyyəsi " subindikatoruna görə 38,2, "Tufanın şiddətlilik" subindikatoruna görə 13,5 "Dəniz səviyyəsinin yüksəlməsi göstəricisinə görə 98,5, "Təsirin idarə edilməsi" subindikatoruna görə isə 0 balla qiymətləndirilmişdir. Su indikatoru üzrə Azərbaycan Respublikası qlobal səviyyədə 52,8 balla 68-ci, regional səviyyədə isə 10-cu yerdədir. Bu indikatorun subindikatorlarının qiymətləndirilməsinə nəzər salsaq görərik ki, "Aqrar sahədə kəmiyyət baxımından su riski"nə görə Azərbaycan 56,8 balla, Aqrar sahədə keyfiyyət baxımından su riski"nə görə isə 36,6 balla qiymətləndirilmişdir. Torpaq indikatoru üzrə Respublikamız qlobal səviyyədə 89,5 balla 18-ci, regional səviyyədə isə 89,5 balla 3 – cü yerdədir. Bu indikatorun subindikatorlarını təhlil etsək, görərik ki, Azərbaycan "Torpaqların erroziyasına görə 91,4 "Otlaq örtüyü" subindikaatoru üzrə 100, Meşələrin dəyişməsi subindikatoru üzrə 73,2 balla qiymətləndirilmişdir."Okean" indikatoru üzrə Respublikamız qlobal səviyyədə 85,8 balla 27-ci, regional səviyyədə isə 85,8 balla 6-cı yerdədir. Qeyd etmək lazımdır ki, qlobal səviyyədə 1-ci yeri 100 balla Avstriya, Belorusiya, Boliviya, Botsvana, Burkina Faso, Burundi, Çad, Çexiya Respublikası, Efiopiya, Macarıstan, Laos, Malavi, Mali, Nepal, Niger, Paraqvay, Ruanda, Serbiya, Slovakiya, İsveçrə, Tacikistan, Uqanda, Özbəkistan və Zambiya, sonuncu yeri isə, 0,4 balla Peru tutur. Regional səviyyədə bu göstərici üzrə birinci yeri 100 balla Laos, Nepal, Tacikistan, Özbəkistan, sonuncu yeri isə Cənubi Koreya 3,4 balla tutur. Bununla paralel "Dəniz biomüxtəlifliyi subindikatoru" üzrə 100, "Dənizdə mühafizə olunan ərazilər" üzrə 0,9 balla qiymətləndirilmişdir ölkəmiz. "Həssaslıq" indikatoru üzrə respublikamız qlobal səviyyədə 47,4 balla 83-cü ,regional səviyyədə isə 47,4 balla 19-cu yerdədir.Bu göstərici üzrə qlobal səviyyədə ilk yerdə 92,6 balla Avstraliya, sonuncu yerdə isə 14,4 balla Konqo Demokratik Respublikası qərarlaşmışdır. Regional səviyyədə isə Avstraliya 92,6 balla birinci, Tacikistan isə 30,2 balla sonuncu yerdə qərarlaşmışdır. Bu indikatorun subindikatorlarına gəldikdə isə, "Ərzaq idxalından asılığa" görə respublikamız 20,4, "Təbii fəlakətlərin risk menecmentliyi"nə görə isə 42,9 balla qiymətləndirilmişdir. Adaptiv potensial" indikatoru üzrə ölkəmiz qlobal səviyyədə 16,7 balla 100 – cü, regional səviyyədə isə 16, 7 balla 19-cu yerdədir. Xatırladaq ki, bu göstərici üzrə qlobal səviyyədə ilk yeri Avstriya 100, sonuncu yeri isə Konqo Demokratik Respublikası 0 balla tutur. Regional səviyyədə ilk yeri 100 balla Yaponiya, son yeri isə Vyetnam 8,3 balla tutur. O cümlədən , Erkən xəbərdarlıq sisteminə əsaslanan İqlim – ağıllı kənd təsərrüfatına görə respublikamız 0 balla qiymətləndirilmişdir. Milli aqrar-risk menecment subindikatoruna görə respublikamız 33 balla qiymətləndirilmişdir.Demoqrafik stress indikatoruna görə respublikamız qlobal səviyyədə 67,4 balla 41- ci, regional səviyyədə isə 67,4 balla 7-ci yerdədir. Bu sıralamada qlobal səviyyə üzrə birinci yerdə Bolqarıstan 99,6 balla birinci,sonuncu yerdə isə Bəhreyn 6,4 balla sonuncu yerdə qərarlaşmışdır. Regional səviyyədə isə ilk yerdə Yaponiya 92,7 balla birinci, Tacikistan isə 45,5 balla sonuncu yerdə qərarlaşmışdır. Bu indikatorun göstəricilərinə gəldikdə isə Əhali artımı subindikatoru 67, "Urbanizasiya subindikatoru" isə 69 balla qiymətləndirilmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, "Təbii resurslar və davamlılıq subindeksi", onun indikatorları və subindikatorları üzrə məlumatlar "Qlobal Ərzaq Təhlükəsizliyi" indeksinə 2017-ci ildən əlavə olunduğu üçün

müqayisələrin 2017 – 2018-ci illər üzrə aparılması məqsədəuyğundur. Belə ki, bu subindeks üzrə respublikamız 2017-ci ildə 68-ci, 2018-ci ildə isə 75-ci yerdə qərarlaşmışdır. Bu subindeksin indikatorlarını və subindikatorlarını müqayisə etdikdə görürük ki, yalnız "Həssaslıq" indikatorunun "Təbii kapitaldan asılıq" subindikatoru üzrə respublikamız 2017-ci ildə 100, 2018-ci ildə isə 99 balla qiymətləndirilmişdir. Eləcə də, "Demoqrafik stress" indikatoru üzrə 2017-ci ildə respublikamız 63, 2018-ci ildə isə 67 balla , həmçinin bu indikatorun "Əhali artımı subindikatoru üzrə respublikamız 2017-ci ildə 60,2018- ci ildə 67, "Urbanizasiya" subindikatoru üzrə isə, 2017-ci ildə 70, 2018-ci il üzrə isə 69 balla qiymətləndirilmişdir. Lakin, bütün bunlarla yanaşı, onu da xüsusi vurğulamaq lazımdır ki, "The Economist İntellegence Unit" araşdırma mərkəzinin müəyyənləşdirdiyi reytinqdə bəzi qeyri-müəyyənliklər var ki, hansı ki, ümumi müqayisədə müəyyən ziddiyyətlər formalaşdırır. Belə ki, BMT-nin nəzdində Ümumdünya Su Komissiyası (World Comission on Water)" təşkilatı fəaliyyət göstərir ki, onun su ehtiyatlarına görə müəyyən etdiyi göstəricilər 1-ci ilə üst-üstə düşmür. Belə ki, həmin təşkilat ölkələr üzrə ümumi su ehtiyatlarını aşağıdakı kimi müəyyənləşdirmişdir:

Cədvəl 1

Ölkələr üzrə ümumi su ehtiyatı və adambaşına düşən su kütləsi göstəriciləri

Ölkə	Ümumi su ehtiyatı km^3-la	Adambaşına düşən su kütləsi m^3 - la
Braziliya	6950	43000
Rusiya	4500	30500
Kanada	2900	98500
Çin	2800	2300
İndoneziya	2530	12200
ABŞ	2480	2400
Banqladeş	2360	19600
Hindistan	2085	2200
Venesuela	1320	60300
Myanma	1080	23300

"The Economist İntellegence Unit" araşdırma mərkəzinin göstəricilərinə görə isə, Braziliya 28-ci, Venesuela 62–ci, Rusiya 45-ci , Kanada isə 58-ci yeri tutur.

"Təbii resurslar və davamlılıq" subindeksinin ümümi ərzaq təhlükəsizliyi indeksinə yeni əlavə olunduğuna və qısa zaman kəsiyini əhatə etməsinə baxmayaraq, bu subindeks üzrə Respublikamızın göstəricilərinin yaxşılaşdırılması məqsədilə aşağıdakı tövsiyyələrin verilməsi məqsədəuyğundur:

• Ölkəmizdə su və torpaq resurslarından effektiv istifadə olunmalı,bu məqsədlə mexanizm yaradılmalı və təkmilləşdirilməlidir.

• Ətraf mühitin mühafizəsi tədbirləri gücləndirilməli və bu sahədə maarifləndirici tədbirlər həyata keçirilməlidir.

• Həm iqlim, həm də başqa amillərin kənd təsərrüfatına mənfi təsirlərinin minimuma endirilməsi üçün mexanizmlər yaradılmalı , bu sahədə kompleks tədbirlər planı işlənib – hazırlanmalıdır.

• Təbii amillərin təsirinə davamlı olan bitki sortları yetiçdirilməli və seleksiya işi genişləndirilməlidir.

• Aqrar sahədə təbii fəlakətlərdən müdafiə sistemləri yaradılmalı, "İqlim – ağıllı" kənd təsərrüfatı formalaşdırılmalıdır.

• Aqrar sahədə “Risk menecmentin” (Risklərin idarəedilməsinin) elmi və institutsional əsasları işlənib – hazırlanmalı (Sahəvi elmi – tədqiqat institutlarında, ali və orta ixtisas təhsili müəssisələrində “Aqrar sahədə risk menecmentin” konseptual əsasları öyrənilməlidir).

• Aqrar sığorta mexanizmi təkmilləşdirilməlidir.

• İdxaləvəzləyici kənd təsərrüfatı məhsullarının istehsalı artırılmalıdır.

• Ekoloji cərimələr diferensiallaşdırılmalıdır.

• Axıntı suları şəbəkəsi kanalizasiya şəbəkəsindən ayrılmalıdır.

Ədəbiyyat

1. Bərxudarov M.İ., Məmmədov N.M.İqtisadi təhlükəsizlik. Bakı, 2006

2. Azərbaycan Respublikasında “ Kənd Təsərrüfatı Məhsullarının İstehsalı və Emalına dair Strateji Yol Xəritəsi.

3. www. foodsecurityindex.eiu.com internet portalı

Резюме

Рустамов Ф.В., Мирзаев Э.М.

Анализ и улучшение позиции Азербайджана в международных рейтингах по природным ресурсам и показателям устойчивости (по глобальному индексу продовольственной безопасности)

В статье исследуется значение продовольственной безопасности как приоритетного направления экономической безопасности. На основе анализа выявлены факторы, влияющие на его формирование, представлен удельный вес составляющих элементов, влияющих на формирование текущего индекса в международной системе показателей и направления его совершенствования.

Ключевые слова: *экономическая безопасность, продовольственная безопасность, индекс, субиндекс, индикатор, субиндекс*

Summary

Rustamov F.V., *Mirzayev E.M.*

Analysis and Improvement of Azerbaijan's Position in International Rankings on Natural Resources and Sustainability Indicators (According to the Global Food Security Index)

The article explores the importance of food security as a priority in economic security. On the basis of the analysis, the factors influencing its formation were identified, the specific weight of the constituent elements influencing the formation of the current index in the international system of indicators and directions for its improvement were presented.

Key words: *economic security, food security, index, subindex, indicator, sub-indicator*

ÇİNDƏ MÜHASİBAT UÇOTU STANDARTLARININ TƏTBİQİ PROBLEMLƏRİ

Rüstəmov Xaliq Qabil oğlu

Bakı Dövlət Universiteti

xrabbasali@gmail.com

Xülasə: *Tədqiqat işində Çinin siyasi və iqtisadi sistemi ilə mühasibat standartlarının zəif tətbiq olunması arasındakı qarşılıqlı əlaqə təhlil edilir. Araşdırılmalar Çində son dövrlərdə mühasibat uçotu standartlarının tətbiqini möhkəmləndirmək üçün təsirli icra mexanizmlərinin*

yaradılması və daha güclü səylərlə bu prosesin dəstəkləməsinin lazım olduğu qənaətinə gətirir. İnkişafa səbəb ola biləcək islahatlar, auditin keyfiyyətinə və maliyyə standartlarına nəzarət edən qurumların ciddi şəkildə təkmilləşdirilməsinə və yenidən qurulmasına yönəldilməlidir. Bu tədbirlərə paralel olaraq, qlobal iqtisadiyyata inteqrasiya, dünya səviyyəsində qəbul edilmiş standartlara uyğun təşviq mexanizmləri gücləndirilməlidir.

Açar sözlər: *ьühasibat uçotu, uçot standartları, iqtisadi sistem, uçot sistemi, təşviq mexanizmləri, uçot prinsipləri.*

Çinin qəbul olunmuş uçot standartlarının beynəlxalq standartlarla müqayisəsi.

Ölkələrin iqtisadi sistemləri, mədəni amillər, müəssisələrin tərəfdaşlığı anlayışı, dövlətin struktur tənzimləmələri, mühasibat peşəsinin təşkili, qanuni nizam və maliyyə təminatçıları (kapital sahibləri) ölkələr arasında mühasibat standartları arasındakı fərqlərin səbəbləridir. Bu fərqlər qloballaşan şirkətlər üçün müqayisə olunan maliyyə hesabatlarının yaradılmasının qarşısını alır. Sərmayə qoyulan ölkədəki əməliyyat nəticələrini hesabatlamaq, bu hesabatların düzgünlüyünü müəyyən etmək və ölkələrdə fərqli mühasibat uçotu təcrübələri səbəbindən investisiyaların gəlirliliyini təyin etmək çətin və bahalı bir proses ola bilər. Məsələn, Hollandiya elektrik şirkəti Philips 2001-ci il tarixli hesabatında ABŞ-ın qəbul etdiyi mühasibat standartları olan GAAP-ı (Ümumilikdə Qəbul edilmiş Mühasibat Princibles) tətbiq etsəydi, davam edən fəaliyyətlərdən gələn zərər uyğun olaraq hazırlanan hesabatlardakı zərərdən 5% az olardı. Nəticə olaraq, hesabat tərtibində vahidliyin təmin edilməsi və şirkətin hesabatlarının daha açıq, aydın, şəffaf və müqayisə olunmasına imkan yaratmaq üçün bütün dünyada qəbul edilmiş mühasibat uçotu standartlarının yaradılması hər kəs tərəfindən qəbul olunur.[4, s.527]

Bu gün əksər ölkələrdə hökumət mühasibat işlərinə müdaxilə edir və müəyyən çərçivədə tənzimləmə həyata keçirir. Ümumiyyətləб mühasibat uçotu sistemi beynəlxalq uçot sisteminə uyğunluq əsasında hökumət tərəfindən qurulur və tətbiq olunur, eləcə də mühasibat uçotu prosedurları qanunvericiliklə tənzimlənir. Dünyada, eləcə də Çində mühasibat uçotunun inkişaf tarixi üç min illik bir tarixə malikdir. Mühasibat uçotunun inkişafı dövründə çox sayda yeniliklər baş vermiş və buna paralel olaraq xüsusi çətinliklər meydana çıxmışdır. Ən primitiv dövrlərdən bu günə qədər tam mühasibat sisteminin qurulması və uçot sistemlərin inkişafı zamanı müxtəlif yüksəlişlər baş vermişdir. Çində də maliyyə və uçot məsələlərinin özünəməxsus inkişaf yolu möcud olmuşdur. Bu ölkədə də uçot sistemi qanunvericiliklə qurulsa də, ölkədə uçotun özünəməxsus bir yolu vardır. İnstitusional təhlil göstərir ki, bu sahədə Çinin "sosialist bazar iqtisadiyyatı" nı təşkil edən siyasi və iqtisadi prioritetlər əsasən zəif fərdi mühafizə mexanizmləri ilə tətbiq olunmaya əsaslanan bir çərçivə yaradır. Nəticədə, tətbiq olunan siyasət tətbiqetmə sistemini effektiv şəkildə artırmaq üçün uyğun olmayan təşviq və mövcud mexanizmlərin uyğunsuzluğu ilə xarakterizə olunur. Dövlət bürokratiyasının siyasəti, həm də çoxsaylı qeyri-iqtisadi məqsədlərin mövcudluğu səbəbindən maliyyə standartlarının tətbiqi problemləri ilə effektiv mübarizə aparmaq üçün kifayət qədər stimul mövcud deyil, səhmdarlar və kreditorlar kifayət qədər və effektiv təşviq mexanizmlərinə malik deyillər.

Ümumilikdə dəyərləndirdikdə, Çində bugünkü mühasibat uçotu sistemi dəqiq və obyevktiv standartlardan kənarlaşma meyillidir. Ölkədə baş verən mühasibat saxtakarlığının ən önəmli nümunələrindən biri kimi Guangxia (Yinchuan) Sənaye Müəssisəsi tərəfindən 1999-2000-ci illərdə saxta alqı-satqı müqavilələri, rüsumsuz sənədlər və doğru olmayan maliyyə qeydləri yolu ilə mənfəətin 95 faizini mənimsənildiyini göstərmək olar. (People's Daily, 12.10.2001). Tədqiqatlar

göstərir ki, ölkədə gəlirlər və ya mənfəətlər haqqında hesabatların aşağı səviyyədə verilməsi və ya müəssisələrin güzəştli kreditlər yığaraq öz likvidliyini artırmaq cəhdləri də əksər hallarda uğursuzluqla nəticələnmişdir. [5, s.52]

Ümumiyyətlə, Çinin uçot sisteminin obyektivliyinə kölgə salan bəzi xüsusiyyətlərə sahib olduğunu qeyd etmək lazımdır. Məsələn, satış müqaviləsində göstərilən məbləğə görə gəlirlərin qiymətləndirilməsi mühasibat uçotu prinsipidir, halbuki gəlir 18.9 №-li MUBS-a uyğun olaraq alınacaq ödəmənin ədalətli dəyəri ilə ölçülməlidir. Çin uçot standartlarına görə gəlirin ölçülməsi, manipulyasiya üçün müəyyən qədər boşluq yaradır. Belə boşluqlar, əlaqəli tərəflər arasında, xüsusilə eyni iş qrupuna daxil olan şirkətlər arasındakı əməliyyatlar vəziyyətində təhriflərin daha çox olmasına şərait yarada bilir. İkincisi, Çin mühasibat qanunvericiliyində aktivlərin tərifi həm IAS (Beynəlxalq Mühasibat Standartları), həm də GAAP tərəfindən verilən təriflərdən fərqlənir. Aktivlər İAS-ə görə "gələcəkdə iqtisadi fayda gələcəyini vəd edən mənbələr" olaraq təyin edilir. Bu, GAAP-a əsasən "ehtimal olunan gələcək iqtisadi fayda" gözləntisini şərtləndirir. Çində bununla qəbul olunmuş sənədlərdə isə aktivlər nə gələcək iqtisadi mənfəətin olacağını, nə də gözlənilməsini şərtləndirmir. Çin qanunvericiliyi aktivləri sadəcə "pul dəyəri ilə ölçülə bilən iqtisadi qaynaqlar" olaraq təyin edir. Üçüncüsü, beynəlxalq qiymətləndirmələrin ədalətli maya dəyəri prinsipi ilə müqayisədə, aktivlərin qiymətləndirilməsində tarixi maya dəyəri prinsipinə ciddi riayət edilməsi təəccüblüdür. Hətta qiymətli kağızlar və ehtiyatlar da tarixi maya dəyəri prinsipinə görə qiymətləndirilir [3].

Tətbiq olunan mühasibat uçot sistemləri.

Çində Şanxay və Shenzen birjalarının qurulmasından sonra mühasibat sistemi kökündən dəyişdi. Birjaların inkişafına cavab olaraq, Çində mühasibat sisteminin təşkili yolunda əhəmiyyətli bir müvəffəqiyyət "Müəssisələr üçün mühasibat uçotu standartları"nın (ASBE) tətbiqi ilə əldə edildi. Çin hökuməti 1992-ci ildə Eksperimental Siyahıda Şirkətlər üçün Mühasibat Uçotu Qaydasını nəşr etdi. ASBE 1 İyul 1993-cü ildə qüvvəyə mindi və bütün növ müəssisələrə maliyyə uçotu üçün ümumi və məcburi bir hüquqi baza təqdim etdi. Bundan əlavə, Beynəlxalq Mühasibat Uçotu Standartlarına (BMUS) uyğun olan xüsusi qaydalar mərhələ-mərhələ təbliğ olunmağa başlandı. Bu tənzimləmədən sonra Çin ənənəvi Sovet mühasibat modelini tərk etdi və qərbdən İAS-ı əks etdirən bir çox mühasibat tətbiqetməsini daxil etdi [2, s.184]. Bundan əlavə, B tipli səhmləri ixrac edən şirkətlərdən qazanclarını MUBS-a uyğun olaraq yenidən müəyyənləşdirmək tələb olundu və beləliklə bu, sərmayə qoyuluşlarını asanlaşdırdı. Bu qaydalara baxmayaraq, bu iki sistem arasındakı ciddi fərqlər həll olunmadı və Çin GAAP və IAS arasındakı uyğunsuzluqları aradan qaldırmaq üçün təcrübəli siyahıya alınmış şirkətlər üçün yeni Mühasibat Qaydaları 1998-ci ildə nəşr olundu. Maliyyə Nazirliyi tərəfindən MHBS modelini alaraq hazırlanmış 16 yeni Çin Mühasibat Uçotu Standartı nəşr edilmişdir. Bu standartlar birjada fəaliyyətini davam etdirən şirkətlər üçün 1 yanvar 2007-ci ildən etibarən qüvvədədir. Çin Mühasibat Uçotu Standartları fəaliyyət göstərən müəssisələrin maliyyə vəziyyətlərini göstərir. Bu, investorların, kreditorların və digər istifadəçilərin nəticələrini, pul axınlarını dəqiq və etibarlı şəkildə əks etdirməklə qərar qəbul etmə prosesində obyektiv məlumatların verilməsini hədəfləyir [1].

Çində 1990-cı illərin əvvəllərindən bəri yerli mühasibat uçotu standartlarını BMHS ilə uyğunlaşdırmaq üçün uğurlu səylər edilmişdir. Bu ölkədə 1998-ci ildə GAAP-ın əsas islahatı Çin Mühasibat Uçotu Standartlarının MHBS ilə uyğunlaşdırılmasıdır. Lakin, bu islahat Çin Mühasibat Uçotu təcrübələrini BMHS təcrübələrinə effektiv şəkildə yerləşdirə bilmədi. Fərqlərin əsas səbəbi institusional infrastrukturun olmamasıdır [2, s.284]. Çin Hökumətinin milli mühasibat təcrübələrini MHBS təcrübələri ilə uyğunlaşdırmaq üçün 2001-ci ildə islahatlar aparıldı. Bu islahatlar, xüsusən

mühasibat uçotu təcrübələrini uyğunlaşdırmaqda idarəetmə fürsətçi davranışlarının təsirini azaltmağa yönəlmiş bir icra mexanizmi dərc etmişdir. Bu mexanizmlə Çin GAAP və MHBS tətbiqlərinə uyğun olaraq elan edilən mənfəət arasındakı fərqi azaltmaq məqsədi daşıyır. Korporativ idarəetmə sahəsində aparılan islahatlar nəticəsində Çin GAAP və MHBS təcrübələrindən yaranan qazanc arasındakı fərqlərin 2002-ci ildən bəri azalmağa başladığı müşahidə olunur [2, s.284].

Digər tərəfdən, 1978-ci ildən bəri Çində aparılan iqtisadi islahatlar nəticəsində Çin iqtisadiyyatı dünyada ən sürətli böyüyən iqtisadiyyata çevrildi. Kommunist rejimin təsiri altında iqtisadiyyat dayanıqlı vəziyyətə gəldikdən sonra Çin Respublikası Çində liberal iqtisadiyyata keçid ilə qlobal iqtisadiyyatda əsas rol oynamağa başladı. Bu ölkənin 2001-ci ildən bəri Dünya Ticarət Təşkilatına tamhüquqlu üzv olması ilə iqtisadiyyatın böyümə sürəti və xarici ticarətin həcmi sürətlə artaraq bütün dünyanın gözünün Çinə çevrilməsinə səbəb oldu. Bu artım bəzi digər ölkələrin iqtisadiyyatlarını dayandırdı. Bu vəziyyət xarici investorların Çinə daha çox sərmayə qoymasına səbəb oldu. Bu inkişaflar nəticəsində 1990-cı illərin əvvəllərindən etibarən Çində yerli mühasibat uçotu standartlarının MHBS ilə uyğunlaşdırılması səyləri uğurla davam edir. 2004-cü il tarixinə birjada sadalanan şirkətlərin sayı 14-dən 1376-ya yüksəldi. Bazar iqtisadiyyatının inkişafı xarici kapital axını ilə bağlı maliyyə hesabatlarında keyfiyyətə olan istəyi artırdı. Çində, dövlət mərkəzli mühasibat uçotu təcrübələri bazar mərkəzli təcrübələrlə əvəz edilmişdir. Mühasibat uçotu islahatlarını Çində daha sürətli və daha az xərcləmək üçün BMHS-ə uyğunlaşmanın zəruri olduğu qəbul edilir [6].

Nəticə.

Çin iqtisadiyyatının qloballaşması son illərdə beynəlxalq mühasibatlığa uyğunlaşma sürətini artırdı. Bu vəziyyət xarici şirkətlərə beynəlxalq maliyyə hesabatlarından istifadə edərək əməliyyatlar aparmağa kömək etdi. Hal-hazırda Çin ən çox xarici sərmayə cəlb edən ölkədir. Bu vəziyyətdə Çin iqtisadiyyatının inkişafında mühüm amil olan mühasibat uçotunun inkişafı və rolu üçün təcili bir ehtiyacın olduğunu mübahisə etməyə ehtiyac yoxdur. Bu mövzuda müvafiq qanunlar, qayda və prinsiplər şəklində aparılan tədqiqatlar inkişaf tempini mənfi istiqamətdən müsbətə çevirdi. Mühasibat uçotu üzrə beynəlxalq standartlara uyğunluq bu tədqiqatlara müsbət təsir göstərmişdir. Ancaq Çin iqtisadiyyatının inkişafında xüsusi şərtlər olduğu üçün bəzi çətinliklər davam edir və problem həll olunmağa çalışılır.

Günümüzdə Çin mühasibat sistemi dünya iqtisadiyyatının qloballaşmasında mühüm yer tutur. Burada mühasibat sisteminin tətbiqində aşağıdakı iqtisadi proseslərin özünəməxsus rolu olmuşdur:

- Çində planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid,
- Çində böyümə sürəti planlaşdırılması və əhəmiyyətli miqdarda nəticələr əldə edilməsi,
- Çində mühasibat işinin əhəmiyyəti mühasibat ekspertizasını hüquqi statusa əlavə etməklə inkişaf etdirilməsi,qloballaşma və texnoloji inkişafın mühasiblərə də təsir göstərməsi,
- Mühasiblərin MHBS-yə uyğun olaraq mühasibat uçotu təcrübələrini idarə etmək bacarıqlarını artırmalı olması
- Çində işləyərkən mühasibatlıq sertifikatı da əldə etməyin mümkünlüyü,
- Çində, daxili nəzarətə diqqət yetirilməsi,
- Çində mühasibat firmalarının birləşməyə meyilli olması, risklərin idarə edilməsinə və nəzarətə əhəmiyyət verilməsi,
- Gələcəkdə nəyin edilə biləcəyinin müəyyənləşdirilməsi və strateji planlaşdırılması,
- Mühasibat uçotu təcrübələrinin qloballaşmaya uyğunlaşdırılması, qloballaşmanın çoxmillətli sərmayələrə səbəb olması,

- Bu gün inkişaf etmiş ölkələrlə əməkdaşlığın aparılması.

Ədəbiyyat

1. Brown, Lehman (2004), "The Gap in GAAP: Bridging the Accountants Standards GAAP in China", January 2004, http://www.lehmanbrown.com/Newsletters/PTO/LB13.htm,(06.03.2020).

2. Chen, Jean ve Peng Cheng (2017), "Corporate Governance and the Harmonisation of Chinese Accounting Practices with IFRS Practices", Corporate Governance, Vol:15, No.2, March 2017, ss.284-293.

3. Congress Daily, Daily official publication of 17. WCOA, November 13, 2006.

4. Hoyle, Joe B., Schaefer Thomas ve Timothy, Doupnik (2014), Advanced Accounting, Mc Gray Hill Company, Seventh Edition.

5. Lardy, Nicholas R. 2010. China's Unfinished Economic Revolution. Washington, DC.

6. Peng, Songlan (2013), "The Harmonisation of Chinese Accounting Standarts With İnternational Accounting Standarts", Doctor of Philosophy at Virginia Commonwealth University, 2013.

7. https://www.worldbank.org/

8. https://www.heritage.org/

Резюме

Рустамов Х.Г.

Проблемы применения стандартов учета в Китае

В статье проанализирована связь между политической и экономической системой Китая и плохим применением стандартов бухгалтерского учета. Полученные данные позволяют сделать вывод о том, что в Китае необходимы более тщательные усилия для создания эффективных механизмов обеспечения соблюдения, чтобы поддержать применение стандартов бухгалтерского учета более активными усилиями. Реформы, которые могут привести к развитию, должны быть направлены на серьезное улучшение и реструктуризацию органов, которые контролируют качество аудита и финансовые стандарты. Параллельно с этими мерами следует укреплять интеграцию в мировую экономику, а также стимулирующие механизмы в соответствии с принятыми на международном уровне стандартами.

Ключевые слова: *бухгалтерский учет, стандарты бухгалтерского учета, экономические системы, системы бухгалтерского учета, механизмы стимулирования, принципы бухгалтерского учета.*

Summary

Rustamov X.Q.

Application Problems of Accounting Standards in China

The paper analyzes the relationship between China's political and economic system and poor application of accounting standards. The findings lead to the conclusion that more recent efforts in China are needed to establish effective enforcement mechanisms to support the application of accounting standards and to support this process with stronger efforts. Reforms that can lead to development should focus on the serious improvement and restructuring of bodies that oversee audit quality and financial standards. In parallel with these measures, integration into the global economy should be strengthened, as well as incentive mechanisms in line with internationally accepted standards.

***Key words**: Accounting, accounting standards, economic system, accounting system, incentive mechanisms, accounting principles.*

DÜNYA ÖLKƏLƏRİ ÜZRƏ BAĞLANMIŞ LİZİNQ MÜQAVİLƏLƏRİNİN DÜNYA TƏCRÜBƏSİ

Səfərova Günel Mustafa qızı
Odlar Yurdu Unversiteti
akimaahmedova@gmail.com

***Xülasə:** Ölkə iqtisadiyyatında dinamik inkişafın təmin edilməsində lizinq əməliyyatları multiplikativ effektə malikdir. Dünya ölkələrinin iqtisadi inkişafında lizinqin rolunun, əhəmiyyətinin düzgün araşdırılması və onun yaratdığı səmərənin düzgün təhlil edilməsi üçün lizinq bazarının əsas göstəricilərinin dünya ölkələrinin timsalında nəzərdən keçirilməsi tədqiqatımız üçün çox vacibdir.*

***Açar sözlər**: lizinq, kapital, investisiya, beynəlxalq*

Lizinq əməliyyatlarının beynəlxalq təcrübəsində əsas əməliyyatlar iqtisadiyyata iri miqyasda kapital qoyuluşlarının maliyyələşdirilməsinin yeni-yeni investisiya axınlarının cəlb edilməsi üsulunun geniş tətbiq olunmasıdır.

Lizinq əməliyyatlarının dünya ölkələrinin iqtisadiyyatındkı rolunu dərindən başa düşmək və onlardakı mövcud təcrübəni öyrənmək üçün bir sıra inkişf etmiş və inkişaf etməkdə olan ölkələrin bu əməliyyatlar üzrə göstəricilərini nəzərdən keçirmək lazımdır. Bu istiqamətdə nəzərə alınmalı ən mühüm göstəricilərdən biri ölkələr üzrə il ərzində başlanmış lizinq müqavilələrinin həcminin ÜDM-ə nisbətidir.

Cədvəl 1

2014-2018-ci illər ərzində ölkələr üzrə bağlanmış lizinq müqavilələrinin həcminin ÜDM-ə nisbəti (faizlə)

	Ölkələr	İ L L Ə R					Son 5 il üzrə orta hesabla
		2014	2015	2016	2017	2018	
1	Böyük Britaniya	2,24	2,34	2,37	2,40	2,45	2,36
2	Almaniya	2,23	2,18	2,20	2,23	2,26	2,22
3	Danimarka	2,73	2,71	2,73	2,79	2,84	2,76
4	ABŞ	1,99	1,93	1,93	2,01	2,09	1,99
5	İsveçrə	2,25	2,20	2,22	2,25	2,28	2,24
6	İsveç	2,8	2,95	2,97	3,01	3,07	2,96
7	Finlandiya	2,37	2,45	2,46	2,51	2,56	2,47
8	Estoniya	5,42	5,80	5,84	5,91	5,98	5,79
9	Sloveniya	2,77	2,69	2,74	2,82	2,88	2,78
10	Latviya	2,87	2,91	2,97	3.01	3,09	2,97
11	Slovakiya	1,92	2,18	2,21	2,25	2,29	2,17
12	Polşa	2,22	2,19	2.21	2.27	2,31	2,24
13	Rusiya Federasiyası	1,1	1,19	1,25	1,25	1,26	1,21
14	Bolqarıstan	1,67	1,74	1,94	2,02	2,08	1,89

Mənbə: Cədvəl White Clarke Group Consulting firmasının saytının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 1-dən göründüyü kimi son 5 il ərzində lizinq müqavilələri həcminin ÜDM-ə nisbəti Avropanın inkişaf etmiş ölkələri olan Böyük Britaniyada 2,36%, Almaniyada 2,22%, Danimarkada 2,76%, İsveçrədə 2,96%, Finlandiyada 2,47% təşkil etmişdir. Bu göstərici dünyanın ən güclü dövləti olan ABŞ-da 1,99% səviyyəsində olmuşdur.

Həmin göstərici Şərqi Avropanın və Pribaltikanın bir sıra inkişafda olan ölkələrində aşağıdakı kimi olmuşdur: Slovaniya 2,78%, Slovakiya 2,17%, Polşa 2,24%, Bolqarıstan 1,89%, Rusiya 1,21%, Estoniya 5,79%, Latviya 2,97%. Göstəricilərdən aydın olur ki, bağlanmış lizinq müqaviləsinin həcminin ÜDM-ə nisbəti göstəricisi təhlil edilən ölkələr içərisində ən yüksək aşağıdakı beş ölkədə olmuşdur: 1)Estoniya 5,79%, 2)Latviya 2,97%, 3)İsveç 2,96%, 4)Slovaniya 2,78%, 5)Danimarka 2,76%. Təhlil edilən digər 9 ölkə üzrə həmin göstərici 2,47%.

Cədvəl göstəricilərindən görünür ki, bağlanmış lizinq müqavilələrinin həcminin ÜDM-ə nisbəti təhlil edilən qalan ölkələrdə də artımla müşahidə olunmuşdur. 2014-cü ildən başlayaraq 2018-ci il də daxil olmaqla həmin göstərici digər ölkələrdə aşağıdakı kimi artıma malik olmuşdur: Böyük Britaniya 9,3%; Almaniyada 1,3%; ABŞ-da 5%; İsveçrədə 1,3%; Finlandiyada 8%; Slovakiyada 19,2%; Polşada 4,0%; Rusiyada 14,5; Bolqarıstanda 14%.

Bu təhlil nəticəsində belə bir nəticəyə gəlmək olar ki, lizinq bu ölkələrdə iqtisadiyyatın, xüsusən də aqrar sektorun inkişaf etdirilməsində hal-hazırda mütərəqqi idarəetmə, maliyyələşdirmə və s. üsulu kimi çox geniş tətbiq edilir və onun əhatə dairəsi daimi genişləndirilməkdədir.

Dünya təcrübəsində lizinq əməliyyatlarının vəziyyətini xarakterizə edən mühüm göstəricilərdən biri də ölkələr üzrə lizinqin əsas kapitala olan məcmu investisiyalardakı pay göstəricisidir.

Cədvəl 2

2014-2018-ci illər ərzində dünyanın bəzi ölkələrində lizinqin əsas kapitala olan məcmu investisiyalardakı payı. TOP-10-luq (faizlə)

	Ölkələr	**İ L L Ə R**					**Son 5 il üzrə orta hesabla**
		2014	**2015**	**2016**	**2017**	**2018**	
1	Avstraliya	33,47	34,6	34,8	35,01	35,32	34,64
2	Kanada	26,72	26,92	26,95	27,00	27,16	26,95
3	Böyük Britaniya	25, 86	26,62	26,75	26,83	26,94	26,60
4	İsveç	21,63	23,29	23,56	23,82	23,90	23,24
5	ABŞ	22,13	22,18	22,43	22,.84	23,02	22,52
6	Almaniya	13,08	14,07	14,26	14,82	15,07	14,26
7	Fransa	12,74	12,98	13,18	13,54	13,96	13,28
8	İtaliya	10,95	11,27	11,54	11,86	12,08	11,64
9	Koreya	9,22	9,25	9,52	9,83	10,08	9,58
10	Yaponiya	8,78	8,86	8,94	9,06	9,26	8,98

Mənbə: Cədvəl White Clarke Group Consulting firmasının saytının materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təhlil edilən göstərici, yəni lizinqin əsas kapitala olan məcmu investisiyalardakı pay səviyyəsi bu əməliyyat növünün iqtisadiyyatdakı əhəmiyyətini əks etdirir. Bu göstərici üzrə dünya miqyasında TOP-10-luğa daxil olan ölkələr üzrə göstəriciləri təhlil edərkən görürük ki, buraya

dünyanın inkişaf etmiş ölkələri daxildir. Qeyd etmək lazımdır ki, bu ölkələrin hamısı aqrar sektoru güclü inkişaf etmiş və kənd təsərrüfatı məhsulları ixracının yüksək potensialına malikdirlər.

Təhlil edilən göstəricinin ən yüksək səviyyəsi son beş ildə Avstraliyada qeydə alınmışdır. Belə ki, bu ölkədə lizinqin əsas kapitala olan məcmu investisiyalardakı payı son beş ildə orta hesabla 34,64% olmaqla 2018-ci ildə 35,32% təşkil etmiş və bu illər, yəni beş il ərzində artım 5,5% olmuşdur.

Lizinqin əsas kapitala olan məcmu investisiyalardakı payının dünya üzrə ikinci ən yüksək səviyyəsi Kanadada qeydə alınmışdır. Son beş il üzrə bu göstərici orta hesabla 26,95% səviyyəsində olmuşdur. 2014-cü ildə bu göstərici 26,72%, 2015-ci ildə 26,92%, 2016-cı ildə 26,95%, 2017-ci ildə 27%, 2018-ci ildə 27,16% olmuşdur ki, həmin illər ərzində yəni 2018-ci ildə 2014-cü ilə nisbətən artım 1,6% təşkil etmişdir.

Dünya ölkələrində lizinq əməliyyatlarının mövcud vəziyyətini xarakterizə edən mühüm parametrlərdən biri də Avropa Lizinq Şirkətləri Assosiasiyaları Federasiyasına (Leaseurope) üzv olan ölkələrdə lizinq əməliyyatları üzrə mühüm göstəricilərin səviyyəsidir. Bu təşkilat 1972-ci ildə yaradılmışdır.2000-ci ilin əvvəlllərindən bu təşkilat özündə Avropanın 33 dövlətindən 46 iştirakçı asossiasiyanı birləşdirərək Avropada lizinq üzrə mərkəzi orqana çevrilmişdir. Bu orqanın məlumatlarına əsaslanaraq 2014-2018-ci illər ərzində Federasiyanın bəzi üzv ölkələri ilk beşlikdə qərarlaşan ölkələr üzrə bağladıqları lizinq müqavilələrinin dəyərinin dinamikasını nəzərdən keçirək.

Dünya ölkələrində lizinqin müasir vəziyyətini və bu bazarda mövcud olan meyilləri nəzərə alaraq belə bir qərara gəlmək olar ki, lizinq bazarı dünyanın ən inkişaf etmiş ölkələrində belə maliyyə bazarlarının ən mühüm elementi kimi çıxış edir. Lizinq əməliyyatları vasitəsilə iqtisadiyyata kapital qoyuluşu müasir dövrdə ən səmərəli bir vasitə kimi istifadə edilir. Lizinq əməliyyatları iqtisadiyyatın bütün sahələrində modernləşmənin sürətlə aparılmasına, istehsalın və xidmətlərin genişləndirilməsinə, yeni texnika və texnologiyaların uğurla tətbiq edilməsinə imkan yaradır. Bu əməliyyatlar vasitəsilə mikro, kiçik və orta sahibkarlığın inkişafına güclü dəstək verilir və uğurlu nəticələr əldə edilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Qanun Nəşriyyatı, 28 dekabr 1999.

2. Azərbaycan Respublikasinda kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı 2016, 86 s.

3. Lizinq xidmətləri haqqında Azərbaycan Respublikasının Qanunu. 29 noyabr 1994-cü il. №930

4. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il üzrə hesabatı. Bakı, 2018

5. Azərbaycan Dövlət Statistika Komitəsinin statistik məlumatlar toplusu. Bakı, 2018

Резюме

Сафарова Г.М.

Мировой опыт заключения лизинговых договоров между странами

Лизинговые операции оказывают мультипликативный эффект в обеспечении динамичного развития экономики страны. Для нашего исследования важно изучить ключевые показатели рынка лизинга в странах мира, чтобы правильно изучить роль, значение лизинга в экономическом развитии стран мира и должным образом проанализировать создаваемые им выгоды.

***Ключевые слова**: лизинг, капитал, инвестиции, международные.*

Summary
Safarova G.M.
World Experience of Concluded Leasing Contracts Between Countries

Leasing operations have a multiplier effect in ensuring dynamic development in the country's economy. It is important for our research to examine the key indicators of the leasing market in the world countries to properly study the role, value of leasing in the economic development of the world countries and properly analyze the benefits created by it.

Key words: *leasing, capital, investment, international.*

REGİONLARIN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN ARTIRILMASI VASİTƏLƏRİ

Səlimova İlahiyə Sərdar qızı
Sumqayıt Dövlət Texniki Kolleci
Qəmbərova Xalidə Niyaz qızı
Sumqayıt Dövlət Texniki Kolleci
arzu.qambarova@gmail.com

Xülasə: *məqalədə regionların investisiya cəlbediciliyinin artırılmasının zəruriliyi və vasitələri tədqiq edilmişdir. İnvestisiya meqalayihələrinin regionların iqtisadi inkişafına mümkün təsirləri nəzərdən keçirilmişdir. Həmçinin, regionların investisiya cəlbediciliyinin artırılması üzrə təkliflər irəli sürülmüşdür.*

Açar sözlər: *investisiya cəlbediciliyi, region, meqalayihə, inkişaf, iqtisadiyyat*

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarına uyğun olaraq həyata keçirilən siyasətin məqsədi dünya bazarına inteqrasiya şəraitində ölkənin rəqabət qabiliyyətini və bu əsasda əhalinin rifah halını artırmaqdır. Müasir cəmiyyətin qarşısında duran vəzifələrdən biri məhz iqtisadi artımın intensivləşdirilməsi və əhalinin həyat keyfiyyətinin yüksəldilməsi üçün zəruri və əlverişli şəraitin yaradılmasıdır. Bu vəzifələrə iqtisadiyyatın real sektoruna investisiya cəlb etməklə nail olmaq mümkündür. Bu məqsədə çatmaq investisiya proseslərinin aktivləşdirilməsi olmadan mümkün deyil. Bu baxımdan region iqtisadiyyatına investisiya cəlb etmək əsas vəzifədir. Bunu həll etmək üçün regionların potensial investorları üçün investisiya cəlbediciliyini artırmaq lazımdır. Əsas kapitala qoyulan investisiyaların həcmi və artım tempi regionun investisiya cəlbediciliyinin göstəricisidir. İnvestisiya cəlbediciliyinin artması kapitalın əlavə axınına, iqtisadi canlanmaya kömək edir.

İnvestisiya cəlbediciliyi, həm investorların tipindən, həm də maliyyələşdirilən investisiya layihəsinin istehsal və texniki xüsusiyyətlərindən asılı olaraq müxtəlif amillər sistemi ilə müəyyən edilir. Hər hansı bir regionun investisiya cəlbediciliyi bir tərəfdən ərazinin investisiya potensialı, digər tərəfdən mümkün risklər hesabına formalaşır. Öz növbəsində, investisiya potensialı və risk bütövlükdə bir sıra amillərlə müəyyən edilir [3]. Regionların hər biri investisiya cəlbediciliyinə təsir edən bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. İnvestorun investisiya qərarına əsaslandığı ən vacib xüsusiyyətlər regionda ixtisaslı kadrların, inkişaf etmiş nəqliyyat, informasiya və effektiv idarəetmə infrastrukturunun olmasıdır. İnvestisiya qərarı verərkən vacib bir meyar risk səviyyəsini və nəticələrini nəzərə almaqdır. Bu göstəricini hesablamaq üçün riskin hansı kateqoriyaya aid olduğunu bilmək lazımdır.

İnvestisiya cəlbediciliyi maddi, maliyyə, intellektual və insan kapitalı vektorunu müəyyənləşdirir. İnvestisiya cəlbediciliyinin artırılması problemi, milli və dünya iqtisadiyyatı sistemində regionun strateji rəqabət qabiliyyətini qorumağın daha ümumi problemi ilə bağlıdır.

İnvestisiya cəlbediciliyi, investisiya axınının formalaşmasında əsas element, investorun qərar qəbul etməsini təyin edən amildir. Buna görə regionun investisiya cəlbediciliyinin idarə edilməsi investisiya fəaliyyətinin tənzimlənməsinin əsas yollarından biridir. Regionun investisiya cəlbediciliyinin idarə edilməsi onun qiymətləndirilməsi və investisiya cəlbediciliyinin səviyyəsini artıracaq amillərin müəyyənləşdirilməsi metodologiyasının hazırlanmasını tələb edir. İnvestisiya cəlbediciliyinin səviyyəsi investisiya fəaliyyətinin fəallığını və nəticədə regional iqtisadi sistemin effektiv inkişafını müəyyənləşdirir. Regionlarda investisiya proseslərinin effektiv dövlət tənzimlənməsinə ehtiyacı var ki, bu da investisiya cəlbediciliyini artırmaq üçün təsirli vasitələrin inkişaf etdirilməsini də tələb edir.

Regionun investisiya cəlbediciliyi onun iqtisadi və maliyyə göstəricilərinin, dövlət, ictimai, qanunvericilik, siyasi və sosial inkişaf göstəricilərinin məcmusu ilə müəyyən olunur. Regionların investisiya cəlbediciliyini qiymətləndirmək üçün sintetik (ümumiləşdirilmiş) göstəricilər aşağıdakılar ola bilər: regionun ümumi iqtisadi inkişaf səviyyəsi; investisiya infrastrukturunun inkişaf dərəcəsi; demoqrafik xüsusiyyətlər; bazar münasibətlərinin və ticarət infrastrukturunun inkişaf səviyyəsi; ekoloji, kriminogen və digər risk növləri.

Regionun ümumi iqtisadi inkişaf səviyyəsini qiymətləndirmə üçün istifadə olunan analitik göstəricilərin tərkibinə ÜDM-də regionun payı; adambaşına düşən sənaye istehsalının həcmi; regiondakı işçilərin orta əmək haqqı; regionda bir nəfərə düşən kapital qoyuluşlarının həcmi və dinamikası; regiondakı bütün mülkiyyət formalı müəssisələrin sayı; zərərli müəssisələrin ümumi fəaliyyət sayında nisbəti; regionun əsas ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi; adambaşına müəyyən növ kənd təsərrüfatı məhsullarının istehsal həcmi və s.

Regionun investisiya infrastrukturunun inkişaf səviyyəsini qiymətləndirərkən, investisiya layihələrinin sürətli həyata keçirilməsi imkanları araşdırılır. Eyni zamanda, bütün mülkiyyət formasında podratçı tikinti müəssisələrinin sayı kimi göstəricilər nəzərə alına bilər; əsas tikinti növlərinin yerli istehsal həcmi; adambaşına enerji ehtiyatlarının istehsalı; dəmiryol xətlərinin sıxlığı (hər 100 km^2 əraziyə); asfaltlanmış yolların sıxlığı (hər 100 km^2 əraziyə) və s. [1].

Regionun demoqrafik xüsusiyyətlərinin qiymətləndirilməsinin əsası əhalinin istehlak mallarına və xidmətlərə potensial tələbatının, sərmayə qoyulmuş istehsalata ixtisaslı işçi qüvvəsinin cəlb edilməsinin öyrənilməsidir. Təhlil edilmiş göstəricilərə aşağıdakılar daxildir: region əhalisinin ölkənin (respublikanın) ümumi əhalisindəki nisbəti; şəhərin regiondakı kənd sakinlərinə nisbəti; bütün mülkiyyət formalı müəssisələrdə işləyənlərin sayında sosial istehsalda işləyən əhalinin nisbəti; sosial istehsalda çalışan işçilərin ixtisas səviyyəsi və s.

Regionda bazar münasibətlərinin və ticarət infrastrukturunun inkişaf səviyyəsi sosial-iqtisadi islahatların inkişafına və müvafiq iş mühitinin yaranmasına aparan real proseslər, habelə özünü idarəetmə orqanlarının bu proseslərə münasibəti əsasında qiymətləndirilir. Belə bir qiymətləndirmə üçün aşağıdakı göstəricilərdən istifadə oluna bilər: özəlləşdirilən müəssisələrin ümumi həcmdəki xüsusi çəkisi; qeyri-dövlət mülkiyyətində olan müəssisələrin ümumi həcmdə xüsusi çəkisi; xarici investisiyalı müştərək müəssisələrin sayı; regiondakı bank qurumlarının sayı; sığorta şirkətlərinin, birjaların və s. sayı

Regionların sosial-iqtisadi vəziyyətinin, investisiya tənzimlənməsi sahəsindəki tənzimləyici bazanın və bütövlükdə ölkədə investisiya proseslərinin inkişafında mövcud meyillərin təhlili nəticəsində regionun investisiya cəlbediciliyini artıran amillər müəyyən edilə bilər. Bunlara daxildir:

- investisiya fəaliyyətinin hüquqi infrastrukturunun gücləndirilməsi;
- iqtisadi artıma, kiçik və orta sahibkarlığın inkişafına yardım edilməsi;
- elmi-tədqiqat və innovasiyanı stimullaşdıran effektiv sistemin olması;
- sahibkarlıq mədəniyyətinin və təşəbbüsünün yüksək səviyyəsi;

● şirkətlərin hüquqi və vergi öhdəliklərinin azaldılması;
● yüksək təhsil səviyyəsi və ixtisas dərəcəsi olan əmək ehtiyatlarından səmərəli istifadə;
● inzibati (bürokratik) əngəllərin olmaması.

Regional investisiya siyasəti bir tərəfdən investisiya üçün əlverişli şərait yaratmağa, digər tərəfdən regionun daxili investisiya ehtiyatlarının səfərbər edilməsinə yönəldilməlidir. Bununla da regionun həm xarici, həm də daxili investisiya cəlbediciliyini artırmaq lazımdır.

Regionların investisiya cəlbediciliyini artırmaq üçün aşağıdakı tədbirləri həyata keçirmək məqsədəuyğundur.

1. Dövlət-özəl tərəfdaşlığın genişləndirilməsi. Dövlət orqanları, biznes və ictimaiyyət arasında əməkdaşlığı inkişaf etdirmək lazımdır. Dövlət-özəl tərəfdaşlıq investisiya proseslərinin inkişafında vacib bir istiqamətdir. Bu baxımdan, dövlət yalnız əhəmiyyətli qaynaqları olan bir tərəfdaş deyil, həm də investisiya qarşılıqlı fəaliyyətinin təşkilatçısı, tənzimləyicisi və müştərisidir. İnvestisiya sazişlərinin həyata keçirilməsində özəl kapitalın, o cümlədən xarici investisiyaların istifadəsi regional dövlət orqanlarına ən vacib sosial-iqtisadi problemləri əlavə büdcə xərcləri olmadan həll etməyə, həmçinin regionun rəqabət qabiliyyətini artırmağa imkan verəcəkdir. İnfrastruktur layihələrində xüsusi kapitalın iştirakının genişləndirilməsinin əsas şərtləri dövlət zəmanətlərinin verilməsi və əlverişli biznes mühitidir.

Regionları investorlar üçün cəlbedici olub-olmaması baxımından investisiya cəlbediciliyini artırmaq üçün müəyyən iqtisadi vasitə və stimulları fərqləndirmək olar (Cədvəl).

Cədvəl

Regionların investisiya cəlbediciliyini artırmaq üçün iqtisadi vasitələr

Regionlar	İnvestisiya cəlbediciliyini artırmaq üçün bir sıra iqtisadi vasitələr	Sosial-iqtisadi inkişafın istiqamətləri
İnkişaf etməmiş	Regional məqsəd və vəzifələrə uyğun olaraq bazar idarəetmə mexanizmlərinin səmərəli işləməsi üçün əsas ümumi iqtisadi şərtlərin yaradılması. Dövlət tənzimləmə tədbirlərinə ehtiyac, məsələn: - subsidiyalar; - dotasiyalar; - vergi kreditləri və güzəştlər; - xüsusi fondların yaradılması ilə maddi yardım.	Təbii ehtiyatların, istehsalın, istehlakçıların, institusional potensialın inkişafı.
İnkişaf etmiş	Regionların iqtisadi həyatının liberallaşdırılması, ayrı-ayrı şirkətlərin və sənayenin fəaliyyətinə birbaşa dövlət müdaxiləsinin azaldılmasına yönəldilmiş dolayı vasitələrə daxildir: - investisiya layihələrinin həyata keçirilməsində inzibati maneələrin azaldılması; - infrastruktura giriş prosedurlarının optimallaşdırılması; - gömrük inzibatçılığının təkmilləşdirilməsi; - iqtisadiyyatın modernləşməsinə və innovativ inkişafına investisiya qoyuluşlarının stimullaşdırılmasına yönəlmiş vergi siyasəti tədbirləri; - investisiya dəstəyinin və investorların hüquqlarının qorunmasının əlaqələndirilməsi.	Əldə edilmiş inkişaf səviyyəsini qorumaqla regionların innovativ, əmək, infrastruktur, intellektual potensialının inkişafı.

2. Ayrı-ayrı ərazilərin (bələdiyyələrin) inkişaf xüsusiyyətləri nəzərə alınmaqla, regionun investisiya cəlbediciliyinə dövlət təsirinin əhəmiyyətli sisteminin yaradılması.

Regionların investisiya cəlbediciliyinin artırılmasına yönəldilmiş iqtisadi vasitələr büdcə vəsaitlərindən daha məqsədəuyğun şəkildə istifadə etməyə imkan verir.

3. Regionlarda investisiya meqalayihələrinin həyata keçirilməsi. Megalayihələr son məhsul ilə bir-birinə bağlı olan bir çox layihəni ehtiva edən hədəf investisiya proqramlarıdır. Bu cür proqramlar beynəlxalq, dövlət, regional ola bilər [2].

Regional meqalayihələr əraziyə əhəmiyyətli və uzunmüddətli təsir göstərən irimiqyaslı layihələr kimi başa düşülür. Məsələn, nəqliyyat, logistika və ticarət üçün investisiya layihələri

həyata keçirmək mümkündür. Bundan əlavə, regionların əhəmiyyətli turistik və istirahət potensialına malik olduğunu da qeyd etmək lazımdır.

İnvestisiya meqalayihələrinin region iqtisadiyyatına mümkün təsiri aşağıdakı şəkildə göstərilmişdir.

İstehsal müəssisələrinin yaradılması	**Yeni iş yerlərinin yaradılması**	**Əhalinin alıcılıq qabiliyyətinin artması**
- ÜDM artımı; - kadr ehtiyacı; - investisiya ehtiyacı; - təhsilə ehtiyac.	- məşğulluğun artması; - işsizliyin azalması; - təhsil proqramlarının yaradılması; - artan sosial təminatın təmin edilməsi.	- istehlak artımı; - adambaşına nominal və real gəlirin artımı; - səhiyyə, təhsil xidmətləri və s.
↓	↓	↓
Regionun investisiya cəlbediciliyinin artırılması		

Şəkil. İnvestisiya meqalayihələrinin region iqtisadiyyatına mümkün təsirləri

Qeyd edək ki, iqtisadi inkişafın vacib istiqamətlərindən biri ola biləcək turizm potensialının inkişafı üçün meqalayihələrin həyata keçirilməsi məqsədəuyğundur.

4. Xüsusi iqtisadi zonanın yaradılması.

Xüsusi iqtisadi zonanın yaradılmasının əsas məqsədləri ola bilər: regionlarda və xarici ölkələrlə ticarət, iqtisadi, elmi və texniki əməkdaşlığın inkişafı, daxili və xarici kapitalın, texnologiya və idarəetmə təcrübəsinin cəlb edilməsi üçün əlverişli şərait təmin etmək.

Beləliklə, xüsusi iqtisadi zonanın yaradılması zamanı investisiya fəaliyyəti üçün aşağıdakı güzəştli şərtlərin təmin edilməsi məqsədəuyğundur.

● xarici ticarət güzəştləri - xüsusi iqtisadi zonanın ərazisinə malların rüsumsuz idxalı və ixracı;

● vergi güzəştləri - 5-20 il müddətinə vergi tətilləri, 5 ilədək müddətə təkrar investisiya qoyuluşları, vergidən tam və ya qismən azad olmaq.

● maliyyə təşviqi - yeni investorlara investisiya subsidiyaları, yüksək prioritetli investisiya layihələri üçün güzəştli dövlət kreditləri;

● inzibati faydalar - şirkətlərin qeydiyyatı üçün, xarici vətəndaşların giriş və çıxışı üçün prosedurların sadələşdirilməsi.

- Самостоятельное регулирование предпринимательскими объединениями, ассоциациями и союзами, действующими легитимно, деятельности членов своей организации, применение к нарушителям штрафных санкций и дисциплинарных мер.

- Отказ легального бизнеса от ведения совместной деятельности с предприятиями теневого сектора.

- Осуществление под контролем легального бизнеса научных исследований в разных сферах, связанных с теневым бизнесом, дача юридических консультаций лицам по противодействию незаконному бизнесу.

- Выступление общественных организаций против нелегального бизнеса во всех сферах своей деятельности [5].

В итоге, для того, чтобы противодействовать теневому бизнесу, специалистам по экономической безопасности необходимо выстроить целый план по борьбе с этой проблемой. Причем, если специалисты по экономической безопасности работают в государственном секторе, то меры и способы борьбы будут одни. Ясли же специалисты работают на предприятии, эти меры и способы будут другими. Это объясняется тем, что компетенция специалиста, работающего на государство, является более обширной, нежели у тех, кто работает на предприятии.

Выработка мер по противодействию этой угрозе - довольно сложный процесс. Он требует взаимодействия всех структур на всех уровнях ведения хозяйственной деятельности. Правильная разработка мер позволит эффективнее бороться с нелегальным бизнесом.

Литература

1. Шестаков А.В. Теневая экономика: Учебное пособие. М., 2016.
2. Волковский В. Борьба с организованной преступностью в экономической сфере. М., 2017.
3. Оськина Е.А. Теневая экономика и ее влияние на экономическую безопасность страны, 2016.
4. http://www.consultant.ru/ [Интернет-ресурс].
5. https://cyberleninka.ru/article/n/tenevaya-ekonomika/ [Интернет-ресурс].
6. https://ec.europa.eu/eurostat/ [Интернет ресурс].
7. https://www.gks.ru / [Интернет ресурс].

Xülasə

Həbidullina E.V.

Kölgə iqtisadiyyatı ölkənin iqtisadi təhlükəsizliyinə təhdid kimi

Məqalədə kölgə iqtisadiyyatının tiplərinə və əsas yaranma səbəblərinə baxılmışdır. Kölgə iqtisadiyyatının ölkənin iqtisadi təhlükəsizliyinə təhdidlərin minimuma endirilməsi məsələsinə əsas yanaşmalar təqdim olunub.

Açar sözlər: *kölgə iqtisadiyyatı, iqtisadi təhlükəsizlik, kölgə əməliyyatları, dövlət strukturları, kölgə iqtisadiyyatının tipologizasiyası*

Summary

Gabidullina E.V.

The Shadow Economy as a Threat to the Economic Security of the State

The article discusses the types and main causes of the shadow economy. The main approaches to addressing the minimization of threats from the shadow economy to the country's economic security are presented.

Key words: *shadow economy, economic security, shadow operations, state structures, typologization of the shadow economy*

ОЦЕНКА ДЕЯТЕЛЬНОСТИ ТАМОЖЕННЫХ ОРГАНОВ В ОБЕСПЕЧЕНИИ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ГОСУДАРСТВА

Никонова Светлана Александровна

Уфимский государственный нефтяной технический университет

es@rusoil.net

Резюме: *В статье рассмотрены используемые на практике методы анализа деятельности таможенных органов, которые позволяют оценить их вклад в обеспечение экономической безопасности государства.*

Проведена оценка результатов деятельности таможенных органов Российской Федерации, динамика экспорта и импорта за пятилетний период. В статье акцентировано

внимание на проблемах в оценке деятельности таможенной службы России, которые в основном связаны с отсутствием систематизированной информации о деятельности таможенных органов, а также с недостаточным нормативным регулированием.

Ключевые слова: *таможенные органы, экономическая безопасность государства, методы анализа.*

В соответствии со «Стратегией развития таможенной службы Российской Федерации до 2020 года» таможенные органы обязаны обеспечивать экономическую безопасность государства, что становится возможным при стабильном поступлении средств в федеральный бюджет, защите отечественных производителей, охране инноваций и повышении внешнеторгового оборота на основе повышения качества и эффективности таможенного администрирования [1].

Это подтверждается представленными в таблице 1 данными внешнеэкономической деятельности государства.

Таблица 1

Динамика внешнеэкономической деятельности Российской Федерации за 2014 – 2018 годы

Показатели	2014	2015	2016	2017	2018
1.ВВП в рыночных ценах, млрд.руб.	79 058,5	83 094,3	86 014,2	92 101,3	103 875,8
2.Экспорт, млрд. руб.	21 425,9	23 854,1	22 137,6	23 994,3	31 932,5
3. Импорт, млрд.руб.	16 351,5	17 153,4	17 689,0	19 072, 9	21 574,3
4.Сальдо между экспортом и импортом, млрд. руб.	5074,4	6700,7	4448,6	4921,4	10358,2
5. Внешнеторговый оборот, млрд. руб.	37777,4	41007,5	39826,6	43067,2	53506,8
6. Экспортная квота, %	27,1	28,7	25,7	26,1	30,7
7. Импортная квота, %	20,7	20,6	20,6	20,7	20,8

Полученные значения характеризуют устойчивый рост экспорта и импорта товаров и услуг РФ, что видно на рисунке 1.



Рисунок 1 – Динамика внешнеэкономической деятельности РФ за 2014 – 2018 годы

Однако доля экспорта и импорта в составе ВВП имеет неоднозначные показатели. Это связано с тем, что рост экспортной квоты характеризует зависимость государства от реализации товаров и услуг за рубеж, что может снизить доходность бюджета по причине неустойчивости мировой экономики или нестабильности цен на ресурсы.

Экономическая безопасность государства определяется устойчивыми бюджетными потоками, укреплением таможенной инфраструктуры, информатизацией документооборота в таможне, пресечением проникновения в страну контрафактной продукции, противодействием вызовам и угрозам со стороны преступников и неблагонадежных стран, снижением уровня коррупции.

Выбором методов экономического анализа деятельности таможенных органов следует отнестись добросовестно, так как специфика определяет их использование.

Таблица 2

Методы анализа деятельности таможенных органов в обеспечении экономической безопасности государства

Методы анализа	Пояснения	Логика используемых показателей
1.Нормативные	Приказ Федеральной таможенной службы Российской Федерации от 28 декабря 2017 г. № 2121	Для анализа применяют индикативные показатели путем сравнения фактических и нормативных значений. Мониторинг позволяет оценить реализацию таможенной политики, определить проблем и причины их возникновения
2. Статистический	https://www.gks.ru/	Динамическая и структурная оценка полученных показателей ВЭД государства, корреляционный анализ, индексный анализ, экстраполяция полученных данных
3. Неформализованные методы	Тестирование, опрос, графическое изображение, метод экспертных оценок, квалиметричес-кий метод	Ряд операций таможенной службы можно оценить только при помощи неформализованных методов, например, качество таможенных услуг, уровень подготовки специалистов таможенной службы, характер используемых способов противодействия преступности в ВЭД и др.
4. Методы факторного анализа	Методы элиминирования, метод цепных подстановок, индексный метод, балансовый метод	Зависит от применяемых форм и типов связи между показателями: аддитивный, мультипликативный, кратный или смешанный

Перечисленные в таблице 2 методы позволяют оценить показатели деятельности таможенной службы и определить их влияние на экономическую безопасность государства. Так, таможенная статистика – это система сбора, обработки, анализа, хранения, защиты и использования статистической информации, которая отображает деятельность таможенных органов, и которая используются таможенными органами исключительно в таможенных целях. В таблице 3 приведем показатели деятельности таможни РФ.

Таблица 3

Динамика показателей деятельности таможни Российской Федерации за 2014 – 2018 годы

Показатели	2014	2015	2016	2017	2018
1. Доходы бюджета, перечисленных таможней, млрд.руб.	7100,6	4933,2	4406,9	4575,7	6063,2
2. Взыскано таможенных пеней, млрд.руб.	19,2	18,4	18,0	18,1	18,5
3. Взысканы задолженности таможенными органами, млрд.руб.	23,7	25,0	26,2	28,0	30,6
4. Доля результативных таможенных проверок в общем числе проверок, %	82,6	83,1	87,0	86,7	98,9
5. Доля товарных партий, подвергнутых таможенному контролю, %	22,2	33,4	39,3	47,3	51,4
6. Возбуждено уголовных дел, ед.	1494	1838	2046	1953	1889
7. Доначислено таможенных платежей, млрд.руб.	1,0	1,5	2,0	4,9	5,9

По итогам 2018 г. денежные средства, перечисленные таможенными органами в доход бюджета, составили 6 063,2 млрд. руб., что на 1 487,5 млрд. руб. больше, чем в 2017 г. Вместе с тем динамика таких платежей за исследуемый период неустойчива, так как в 2014 г. поступления составляли 7100,6 млрд.руб., что негативно характеризует деятельность таможенных органов.

Кроме того, сократились взысканные таможенные пени в пользу государства и в период с 2016 – 2018 г.г. имеется спад возбужденных уголовных дел таможенными службами РФ.

Растет доля товарных операций, которые подверглись таможенному контролю, что повышает эффективность деятельности таможенной службы. Это положительная тенденция вызвана цифровизацией многих видов работ таможни и повышением качества проводимых проверок.

Полученные значения и их поиск предопределили наличие следующих проблем оценки деятельности таможенных органов:

– большой перечень представленных данных таможенной статистикой;

– разрозненность данных и отсутствие региональных сведений таможенной статистики, что затрудняет оценку вклада территории в показатели страны;

– постоянные изменения в нормативных методах оценки;

– отсутствие взаимосвязи представляемых данных с экономической безопасностью государства или региона.

Таким образом, необходима разработка такой методики оценки, которая позволит оценить влияние деятельности таможенных органов на экономическую безопасность государства для принятия управленческих решений и снижения угроз.

Литература

1. Стратегия развития таможенной службы Российской Федерации до 2020 года. [Электронный ресурс]. – URL: http://docs.cntd.ru/document/902391333.

2. Приказ Федеральной таможенной службы РА от 28.12.2017 г. № 2121 «Об утверждении методик расчета показателей результативности деятельности, показателей эффективности деятельности и индикативных показателей региональных таможенных

управлений и таможен, непосредственно подчиненных ФТС России»//Официальный интернет-портал правовой информации. URL: России» www.pravo.gov.ru.

3. Справочные материалы к расширенному заседанию коллегии ФТС «Таможенная служба Российской Федерации в 2018 году». Режим доступа: http://www.customs.ru/index.php?option=com_content&view=article&id=7995&I temid=1845.

Xülasə

Nikonova S.A.

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük orqanlarının fəaliyyətinin qiymətləndirilməsi

Məqalədə gömrük orqanlarının fəaliyyətinin təhlili üçün dövlətdə iqtisadi təhlükəsizliyin təmin olunmasına verdiyi töhfələri qiymətləndirməyə imkan verən praktikada istifadə olunan metodlar müzakirə olunur.

Rusiya Federasiyası gömrük orqanlarının fəaliyyəti, beş il ərzində ixrac və idxal dinamikası qiymətləndirilir. Məqalədə əsasən gömrük orqanlarının fəaliyyəti ilə bağlı sistematik məlumatların olmaması, habelə tənzimləmə tənzimlənməsinin qeyri-kafiliyi ilə əlaqəli olan Rusiya gömrük xidmətinin fəaliyyətinin qiymətləndirilməsindəki problemlərə toxunulur.

Açar sözlər: *gömrük orqanları, dövlətin iqtisadi təhlükəsizliyi, təhlil metodları.*

Summary

Nikonovna C.A.

Evaluation of the Activities of Customs Bodies in Ensuring the Economic Security of the State

The article discusses the methods used in practice to analyze the activities of customs authorities, which allow us to assess their contribution to ensuring the economic security of the state.

The performance of the customs authorities of the Russian Federation, the dynamics of exports and imports over a five-year period are assessed. The article focuses on problems in assessing the activities of the customs service of Russia, which are mainly associated with the lack of systematic information on the activities of customs authorities, as well as with insufficient regulatory regulation.

Key words: *customs authorities, economic security of the state, analysis methods.*

ОБЕСПЕЧЕНИЕ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ХОЗЯЙСТВУЮЩИХ СУБЪЕКТОВ СФЕРЕ ТРАНСПОРТНЫХ УСЛУГ

Орлова Ксения Юрьевна

Уфимский государственный нефтяной технический университет

krutvak@ rambler.ru

Резюме: *Обеспечение экономической безопасности хозяйствующих субъектов, занимающихся транспортными перевозками определяется как обеспечение устойчивого развития предприятия и всех ее составляющих – технологической, экономической, экологической, социальной. Формирование и исполнение стратегии развития экономического субъекта обеспечивает его стабильное и устойчивое развитие. В свою очередь устойчивое развитие является фундаментальной основой обеспечения*

экономической безопасности. В статье рассмотрены ключевые моменты обеспечения устойчивого развития компании путем активизации базовых функций управления. Одной из ключевых функций является планирование стратегии развития компании. Рассмотрены основные элементы процесса.

Ключевые слова: *Экономическая безопасность, транспортные услуги, риски*

Экономическая безопасность любого хозяйствующего субъекта предполагает наличие разработанной стратегии устойчивого развития и успешного функционирования в выбранной деятельности.

Обеспечение устойчивого развития предприятия является основой формирования экономической безопасности хозяйствующего субъекта. Экономическая безопасность любого хозяйствующего субъекта, несомненно, зависит от его внутренних факторов, связанных с обеспеченностью материальными, трудовыми ресурсами, с развитостью его технологической базы производства, с качеством решения управленческих задач и т.д.

Вместе с тем, экономическая безопасность компании зависит и от внешних факторов, определяющих условия функционирования и взаимодействия в рыночной среде. Определенную степень влияния на экономическую безопасность предприятия оказывают и отраслевые факторы, которые необходимо учитывать при построении системы и выборе механизмов обеспечения экономической безопасности. Часто именно отраслевая специфика играет определяющее значение в формировании системы управления экономической и финансовой безопасностью компании.

Устойчивое развитие формируется из взаимосвязанных систем - функциональной, социальной, экологической и финансово-экономической устойчивости предприятия.



Рисунок 1 – Система обеспечения устойчивости предприятия

При этом необходимо отметить, что основная функция формируется в соответствии со спецификой основного вида деятельности хозяйствующего субъекта (для предприятий в сфере транспортных услуг – осуществление перевозок) с учетом нормативно – правовых актов, регулирующих данную деятельность. Влияния внешней среды – политических, экономических факторов, политики государства в области поддержания тех или иных отраслей, сфер деятельности.

Финансово-экономическая устойчивость формируется и обеспечивается путем получения и роста чистой прибыли, увеличения собственного капитала, имущества и активов, а так же сохранения платежеспособности и ликвидности субъекта в течение определенного периода времени. Социальная устойчивость определяется формированием кадровой политикой, которая обеспечивает создание такого трудового коллектива, который способствует достижению целей и приоритетов хозяйствующего субъекта, при этом не ущемляются интересы трудового коллектива.

Под экологической устойчивостью рассматривается способность хозяйствующего субъекта создать условия для обеспечения и удовлетворения норм экологической безопасности по отношению к внутренней и внешней среде.

Обеспечение каждого из рассматриваемых слагающих устойчивости экономического субъекта предполагает реализацию и исполнение всех целей устойчивого развития.

В условиях сформировавшегося рынка обеспечение и поддержание состояния функциональной устойчивости экономического субъекта может быть достигнуты при осуществлении хозяйственной деятельности только в комплексе: экономическое развитие, экологические и социальные цели устойчивого развития.

Достижение экономической цели в предпринимательской деятельности, предполагает рациональное и экономичное использование ресурсов субъекта, как финансовых, так и трудовых, материальных, а так же получение прибыли. Это и является необходимой предпосылкой финансово-экономической устойчивости хозяйствующего субъекта.

Процесс обеспечения устойчивости хозяйствующего субъекта предполагает достижения базовых функций управления.

Базовые функции управления это:

- планирование;
- контроль;
- регулирование;
- координация;
- учет;
- анализ.

Достижение перечисленных функций требует необходимости в формировании системы показателей, позволяющих обеспечить требуемую устойчивость хозяйствующего субъекта.

Одной из функций управления в достижении намеченных целей является функция планирования при организации хозяйственной деятельности в дальнейшем.

Планирование стратегии дальнейшего развития предусматривает следующие факторы устойчивого развития:

- принятие решений и установление приоритетов, руководствуясь четким представлением о существующих альтернативах и связанных с ними угрозами и возможностях;
- обоснованное распределение имеющихся ресурсов;
- обеспечение эффективного документооборота и обмена информацией путем четкого распределения ролей и обязанностей участников процесса управления, разработки и исполнения стратегии развития на основании утвержденных форматов и периодичности отчетов по исполнению.

Обеспечение экономической безопасности через достижение устойчивого развития предполагает тот факт, что такая деятельность не может быть одноразовой акцией. Она представляет собой непрерывный процесс, который включает в себя обоснование и реализацию рациональных форм, методов, способов создания системы устойчивого развития и ее совершенствование.

Экономическая безопасность может быть обеспечена при комплексном использовании всего арсенала средств защиты во всех структурных элементах производственной системы и на всех этапах ее деятельности. Наибольший эффект достигается тогда, когда все используемые средства, методы и мероприятия объединяются в единый целостный механизм - систему защиты экономических интересов.

Литература

1. Гражданский кодекс РФ от 30 ноября 1994 года. (Собрание законодательства РФ, 1994, № 32, ст.3301).

2. Зубков М.С. Управление субъектом хозяйствования по критериям экономической устойчивости и экономической безопасности / М.С. Зубков, О.В. Зубкова, Л.М. Анохин // известия высших учебных заведений. Уральский регион. – 2016. – №4. – С. 26–37.

3.Рогавичене Л. И. Повышение эффективности деятельности автотранспортного предприятия за счет используемых трудовых ресурсов // Вестник Сибирской государственной автомобильно-дорожной академии. 2015. № 2 (42). С. 144–149.

Xülasə

Orlova K.Y.

Nəqliyyat xidmətləri sferasında təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi

Nəqliyyatda sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi müəssisənin və onun bütün komponentlərinin - texnoloji, iqtisadi, ekoloji, sosial davamlı inkişafını təmin etmək kimi müəyyən edilmişdir. İqtisadi subyektin inkişaf strategiyasının formalaşması və həyata keçirilməsi onun sabit və davamlı inkişafını təmin edir. Öz növbəsində davamlı inkişaf iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün əsasdır. Məqalədə əsas idarəetmə funksiyalarını aktivləşdirməklə şirkətin davamlı inkişafını təmin edən əsas məqamlar müzakirə olunur. Əsas funksiyalardan biri şirkətin inkişaf strategiyasını planlaşdırmaqdır. Prosesin əsas elementləri nəzərdən keçirilmişdir.

Açar sözlər: *İqtisadi təhlükəsizlik, nəqliyyat xidmətləri, risklər*

Summary

Orlova K.Y.

Ensuring Economic Security of Economic Subjects in the Field of Transport Services

Ensuring the economic security of business entities involved in transportation is defined as ensuring the sustainable development of the enterprise and all its components - technological, economic, environmental, social. The formation and implementation of the development strategy of the economic entity ensures its stable and sustainable development. In turn, sustainable development is the fundamental basis for ensuring economic security. The article discusses the key points of ensuring the sustainable development of the company by activating the basic management functions. One of the key functions is planning a company's development strategy. The basic elements of the process are considered.

Key words: *Economic security, transport services, risks.*

II BÖLMƏ
İQTİSADİ TƏHLÜKƏSİZLİK: UÇOT, TƏHLİL VƏ AUDİTİN İNKİŞAFI PROBLEMLƏRİ

II СЕКЦИЯ
ЭКОНОМИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ: ПРОБЛЕМЫ РАЗВИТИЯ УЧЕТА, АНАЛИЗА И АУДИТА

II SECTION
ECONOMIC SECURITY: PROBLEMS OF DEVELOPMENT OF ACCOUNTING, ANALYSIS AND AUDIT

MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏHƏMİYYƏTİ VƏ ƏSAS İNFORMASİYA TƏMİNATLARI

Abdullayev Loğman İmran oğlu
Sumqayıt Dövlət Universiteti
loqman.2005@mail.ru

Xülasə: *Müasir dövrdə iqtisadi fəaliyyətin nəticəsi olaraq məlum olan göstəricilər əsasında maliyyə hesabatlarının hazırlanması gələcək dövrlər üzrə səmərəli proqnozların verilməsi istiqamətidir. Resurslarla təmin olunma, onlardan səmərəli istifadə, satış həcminin və mənfəətin artırılması, geniş təkrar istehsala səbəb olacaq məhsuldar fəaliyyətin formalaşması təsərrüfat subyekti tərəfindən maliyyə hesabatlarının dəqiq tərtib olunmasını tələb edir. Məhz həmin hesabatlar əsasında növbəti dövr üzrə iqtisadi fəaliyyət müəyyənləşir və inkişaf etdirilir.*

Açar sözlər: *maliyyə hesabatları, balans, təkrar istehsal, pul, mənfəət*

İqtisadi fəaliyyətin hər bir sahəsi fərdi qaydada məhdud resurslardan səmərəli istifadə əsasında hüdudsuz tələbatların ödənilməsini əks etdirən mühüm iqtisadi fikrə əsaslanır. Hər bir tarixi dörvdə dövlətin iqtisadi siyasəti mövcud iqtisadi müddəaya əsaslanmaqla yanaşı eyni zamanda həmin dövrün ictimai siyasi xarakterindən asılı olaraq formalaşır. İnsan cəmiyyətinin formalaşdığı dövrlərdən tədricən tələbat xüsusiyyətləri dəyişildikcə yeni iqtisadi fəaliyyət istiqamətləri və onları tənzimləyəcək iqtisadi qanunlar yaranır. Xüsusən iqtisadi gəlir olaraq əldə edilənlərin artırılması maragı ilkin sərf olunmanın daha səmərəli təşkilinə əsaslanaraq müəyyən olunur. Tədricən sərf olunan əməyin və ya yaradılan məhsulun dəyərinin qiymətləndirilməsi meyarları mühüm əhəmiyyət kəsb edəcək maliyyə vəsaitlərinin hərəkətini və səmərəli qaydada artırılması xüsusiyyətlərini formalaşdırır.Yerinə yetirilən təsərrüfat fəaliyyəti əsasında yaranan informasiyalar, gəlir və xərclər üzrə məlumatların toplanması və nəticə etibarıilə maliyyə vəziyyətinin qiymətləndirilməsi maliyyə resursları üzərində təhlilin aparılması zərurətini yaradır.

Bununla da maddi nemətlərin yaradılmasına əsaslanan təsərrüfat fəaliyyəti səmərəli şəkildə maliyyə hesabatlarının hazırlanmasını və təhlilinin aparılmasını tələb edir.

Ölkədə fərqli təsərrüfat subyektləri üzrə maliyyə təsərrüfat fəaliyyətinin təhlili olaraq həmin sahələrdə maliyyə imkanlarının araşdırılması, ehtiyatların aşkar edilməsi və qiymətləndirilməsi iqtisadi fəaliyyətin gələcək inkişafını təmin edən bir proses hesab olunur. Burada təsərrüfat subyektlərinin maliyyə fəaliyyəti, aparılan maliyyə əməliyyatları zamanı yaranan münasibətlər və hazırlanan maliyyə hesabatları təhlil aparmanın mexanizmini əks etdirir. Ümumən hər bir halda informasiyanın əldə edilməsi maliyyə hesabatları şəklində təqdim olunur. Bura daxildir:

- Mühasibat balansı;
- Mənfəət və zərər haqqında hesabat;
- Kapitalda dəyişikliklər haqqında hesabat;
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- Uçot siyasəti və izahlı qeydlər.

Müəssisə fəaliyyəti üzrə ictimai xarakter daşıyan və məlumatların acıqlanması zərurəti olaraq hazırlanan maliyyə hesabatları həmin təsərrüfat subyektinin istehsal imkanlarını və gəlirlilik səviyyəsinin hansı səviyyədə olmasını müəyyənləşdirir. Vahid dövr üzrə hazırlanan maliyyə hesabatlarında aktiv və passivlər üzrə göstəricilərə əsaslanaraq təhlilin aparılması sonrakı dövrlərə uyğun proqnozların verilməsi imkanlarını genişləndirir. Əsas hesabat növü olaraq mühasibat balansında maliyyə təsərrüfat fəaliyyətini əks etdirəcək göstəricilər ümumən təsərrüfat subyektinin maliyyə bərabərliyində olan bağlılığını əks etdirir. Balans hesabatında uzunmüddətli və qısamüddətli aktivlər, kapital, uzunmüddətli və qısamüddətli öhdəliklər üzrə vahid dövrə aid olan informasiyalar əldə edilir. Hesabat dövrünü əhatə edən mənfəət və zərər haqqında hesabatda ümumən xərc və gəlir məlumatları əsasında mənfəət müəyyənləşir. Yaranan mənfəət hesabat dövrü üzrə həmin təsərrüfat subyektinin maliyyə fəaliyyətinin səmərəliliyini və istehsalının rentabelli olmasını xarakterizə edir. Hesabat dövrünün sonunda yaranan mənfəət üzrə vergi ödənişləri təmin edilir və mənfəət bölgüsü formalaşır. Qeyd olunanlar əsasında maliyyə sabitliyi təhlil olunur və təsərrüfat subyektinin ödəmə qabiliyyəti qiymətləndirilir. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatda debitor borclar, ehtiyatlar, kreditor borclar və əvvəlcədən nağd ödəmələr əsasında əsas fəaliyyətin qiymətləndirilməsi müəssisələrdə pul axınlarının müəyyənləşməsində hesabat ilinin əvvəlinə və sonuna uyğun dinamikasının təhlilini təmin edir. Hesabatın investisiya fəaliyyətini əks etdirəcək bölməsində təsərrüfat subyektinin əsas vəsaitlərin əldə edilməsi və satışı ilə bağlı məlumatları əsasında pul vəsaitlərinin hərəkətində olan dəyişikliklər qeyd olunur. Maliyyə bölməsində vəsait olaraq kapital qoyuluşu və sahibkar tərəfindən əldə edilən dividentlər əsasında pul vəsaitlərinin hərəkəti öz əksini tapır. Məlum hesabat təsərrüfat subyektinin real pul vəsaitləri üzrə qalığını əks etdirir. Kapitalda dəyişikliklər haqqında hesabat təsərrüfat subyektinin nizamnamə kapitalı, ehtiyat kapitalı, geri alınmış səhmlər, emissiya gəlirləri və bölüşdürülməmiş mənfəət göstəricilərinə əsasən hesabat dövrü üzrə kapitalda baş verən dəyişiklikləri əks etdirir. Maliyyə hesabatlarının hazırlanmasında izahlı qeydlərdə əks olunan məlumatların da mövcud olmasının mühüm əhəmiyyəti vardır. Qeyd olunan məlumatlarda təsərrüfat subyektlərinin uçot siyasəti və ona edilmiş dəyişikliklər, növlər üzrə qeyri maddi aktivlər, təsərrüfat subyektinə məxsus olan və ya icarəyə götürülmüş torpaq, tikili, avadanlıqlar, maliyyə qoyuluşlarının növləri, debitor və kreditor borclar, səhmdar cəmiyyətlərin səhmləri, onların mülkiyyətində olan səhmlərin nominal dəyəri, onların törəmə və asılı cəmiyyətləri, ehtiyatların tərkibi, verilmiş və alınmış borclar, öhdəliklər və ödəmələr haqqında məlumatlar öz əksini tapır.

Subyektin fəaliyyət və məqsədlərindən asılı olaraq maliyyə hesabatlarının hazırlanması həmin sahədə idarəetmə imkanlarının qiymətləndirilməsinə, istiqaməti üzrə səmərəli kapital qoyuluşunun müəyyən edilməsinə və bu əsasda inkişaf yolunun müəyyənləşməsinə xidmət edir. Xüsusən qiymətləndirmənin təşkili maliyyə təhlilinə əsaslanaraq aparıldıqda həmin iqtisadi fəaliyyət üzrə proqnoz daha səmərəli olur. Maliyyə təhlilinin aparılması əsasında maliyyə sabitliyini yüksəldəcək kapital axını və pul vəsaitlərindən səmərəli istifadə qiymətləndirilir. Burada eyni zamanda mövcud maliyyə resurslarından istifadənin səmərəli aparılmasına və təyinatı üzrə sərf olunacaq xərclərə nəzarət etmə imkanları da yaranmış olur. Hər bir iqtisadi fəaliyyətin təhlili həmin sahədə maliyyə təsərrüfat fəaliyyətinin səmərəli idarə edilməsindən asılı olaraq formalaşır. Yəni səmərəli idarəetmə mexanizminin yaradılması, tələb olunan informasiya təminatı, hüquqi və normativ bazadan səmərəli istifadə etmək, maliyyə resursları ilə təmin olunma, hər bir səviyyədə şəffaflığın təmin edilməsi, maksimum mənfəətə nail olmaq maliyyə təsərrüfat fəaliyyətinin idarə edilməsinin mühüm istiqamətləri hesab olunur. Maliyyə təsərrüfat fəaliyyətinin səmərəli idarəetmə mexanizmi əsasında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi nəticə olaraq mənfəət artımına səbəb olur. Hazırlanmış maliyyə hesabatları bütövlükdə aktiv, kapital və öhdəliklər üzrə həmin dövrü əhatə edəcək məlumatlanmanı təmin edir. Burada mühasibat informasiyalarının dəqiq və vaxtında əldə edilməsi maliyyə vəziyyətinin təhlili üçün mühüm şərtdir.

Ədəbiyyat

1. Abbasov Q.Ə. Mühasibat uçotu (dərslik). Bakı: İqtisad Universiteti, 2015
2. Abdullayev L.İ. Maliyyə uçotu (dərs vəsaiti). Sumqayıt, SDU, 2017
3. Müslümov S.Y., Kazımov R.N. Maliyyə təhlili (dərslik). Bakı: İqtisad Universiteti, 2011
4. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və hesabata giriş. Bakı, 2012
5. İqtisadi nəzəriyyə: Makroiqtisadiyyat-1,2 (dərslik). Q.P.Juravlyovanın ümumi redaktəsi ilə. Rus dilindən tərcümə. Bakı, 2011
6. Финансовый учет. Учебник. Под ред. проф. В.Т.Германа. М.: Финансы и статистика, 2007
7. Шатунова Г.А., Корнеева Г.А. Основы бухгалтерского учета. М.: ИД.ФБК, ПРЕСС, 2005
8. www.taxes.gov.az
9. www.maliyye.gov.az

Резюме

Абдуллаев Л.И

Важность финансовой отчетности и основные информационное обеспечение

Подготовка финансовой отчетности на основе показателей, которые известны как результат экономической деятельности в наше время, является направлением для составления эффективных прогнозов на будущие периоды. Обеспечение ресурсами, эффективное их использование, увеличение объема продаж и прибыльности, формирование производственной деятельности, которая приведет к масштабному воспроизводству, требует точной подготовки финансовой отчетности хозяйствующими субъектами. Именно на этих отчетах определяется и развивается экономическая деятельность на следующий период.

Ключевые слова: *финансовая отчетность, баланс, переработка, деньги, прибыль*

Summary
Abdullaev L.I
The Importance of Preparation of Financial Statements and Key Information Provisions

The preparation of financial statements based on indicators that are known as the result of economic activity in our time, is a direction for making effective forecasts for future periods. Provision of resources, their efficient use, increase in sales and profitability, the formation of production activities, which will lead to large-scale reproduction, requires accurate preparation of financial statements by business entities. It is on these reports that economic activity for the next period is determined and developed.

Key words: *financial statements, balance, recycling, money, profit*

MAKROMALİYYƏ SABİTLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ BÜDCƏ-VERGİ SİYASƏTİNİN ROLU

Abdullayeva Yeganə Telman qızı
Sumqayıt Dövlət Universiteti
Vəliyeva Rəvanə Allahqulu qızı
Sumqayıt Dövlət Universiteti
ilqarosmanov1975@mail.ru

Xülasə: *Məqalədə makromaliyyə sabitliyinin möhkəmləndirilməsinin zəruriliyi vurğulanmışdır. Eyni zamanda büdcə-vergi sistemində makromaliyyə sabitliyinin möhkəmləndirilməsinin əsas prioritet istiqamətləri tədqiq edilmişdir. Həmçinin, ölkəmizin dövlət büdcəsinin son beş il ərzində gəlir və xərclərinin strukturu nəzərdən keçirilmişdir.*

Açar sözlər: *makromaliyyə, büdcə siyasəti, büdcə gəlirləri, büdcə xərcləri, vergi siyasəti, vergi dərəcələri, dövlət büdcəsi, dayanıqlı inkişaf*

Dövlətin iqtisadi maraqlarının formalaşmasının obyektiv tərəfi iqtisadi sistemin inkişafının ümumi prinsiplərindən və qanunlarından, əhalinin minimum ehtiyaclarından və xüsusən də hansı proseslərin ölkənin müstəqil və iqtisadi cəhətdən sabit qalma qabiliyyətinə təsir göstərməsindən irəli gəlir. İqtisadi təhlükəsizlik siyasətinin həyata keçirilməsi prosesində subyekt kimi çıxış edən dövlət, bu cür siyasətin məqsəd və vəzifələrinə uyğun gələn tədbirləri tətbiq etməyə çalışmalıdır. Belə tədbirlərdən biri büdcə-vergi siyasətidir.

Bu gün səmərəli büdcə-vergi siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi aktual problemlərdən biridir. Çünki, hər bir insanın və bütün ölkənin taleyi hökumətin büdcə-vergi siyasətini necə həyata keçirəcəyindən asılıdır. Müasir büdcə-vergi siyasəti dövlətin maliyyə ehtiyatlarından istifadənin əsas istiqamətlərini, maliyyələşdirmə metodlarını və büdcənin doldurulmasının əsas mənbələrini müəyyənləşdirir. Büdcə-vergi siyasəti milli iqtisadiyyatın sabitliyinin təmin olunmasının əsas istiqamətlərdən biridir. Vergi daxilolmaları hesabına dövlət hüquqi bazanı təmin edə və iqtisadiyyatın effektiv inkişafı üçün xidmətlər göstərə bilər.

Büdcə-vergi siyasətinin alətləri dövlət büdcəsinin gəlir və xərcləri, transferlər və vergilərdir. Malların, xidmətlərin və transferlərin dövlət alqı-satqısı dövlət büdcəsinin xərcləridir və vergilər büdcə gəlirlərinin əsas mənbəyidir. Büdcə-vergi siyasət alətləri, ilk növbədə iqtisadiyyatı sabitləşdirmək və tsiklik dalğalanmaları yumşaltmaq üçün istifadə olunur. İqtisadiyyatın yerləşdiyi

dövrün fazasından asılı olaraq bunları ayırd edirlər: tənəzzül zamanı tətbiq olunan stimullaşdırıcı büdcə-vergi siyasəti işgüzar fəallığın artırılmasına yönəldilir və işsizliklə mübarizə vasitəsi kimi istifadə olunur. Bu sahədə tədbirlərə dövlət satınalmalarının, transfertlərin artırılması və vergilərin azaldılması daxildir. İqtisadiyyatın həddən artıq genişlənməsi şəraitində isə işgüzar fəallığın məhdudlaşdırılmasına yönəldilən məhdudlaşdırıcı büdcə-vergi siyasəti həyata keçirilir. Bu siyasət çərçvəsindəki tədbirlərə dövlət satınalmalarını, transferləri azaltmağı və vergiləri artırmağı aid edə bilərik.

Cədvəl 1-ə uyğun olaraq, Azərbaycanın son illərdə yeritdiyi maliyyə siyasətinin büdcə tarazlığına, makromaliyyə sabitliyinə təsirini müəyyən etmək üçün dövlət büdcə gəlir və xərclərinin strukturunu, miqdarını və büdcə kəsrini təhlil edək.

Cədvəl 1.

Azərbaycan Respublikası dövlət büdcəsinin gəlir və xərclərinin strukturu, milyon manatla [5].

	2014	**2015**	**2016**	**2017**	**2018**
Gəlirlər-cəmi, *o cümlədən:*	**18400,6**	**17498,0**	**17505,7**	**16516,7**	**22508,9**
Fiziki şəxslərin gəlir vergisi	980,3	982,5	1145,7	1040,3	995,9
Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	2302,7	2211,1	1983,2	2285,9	2499,7
Torpaq vergisi	35,4	48,7	50,3	50,4	50,6
Əmlak vergisi	141,3	148,2	174,7	178,6	182,2
Əlavə dəyər vergisi	3119,6	3454,7	3623,5	3668,6	4287,6
Aksiz vergisi	797,3	647,8	625,1	612,6	728,6
Mədən vergisi	116,2	116,1	110,3	111,1	137,4
Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər	684,7	934,5	861,2	903,0	1143,7
Digər vergilər	192,7	247,7	457,0	505,7	561,6
Sair daxilolmalar	10030,4	8706,7	8474,7	7160,5	11921,6
Xərclər-cəmi, *o cümlədən:*	**18709,0**	**17784,5**	**17751,3**	**17594,5**	**22731,6**
İqtisadiyyata	7598,7	6408,8	4124,0	4394,3	7822,7
sosial-mədəni tədbirlərə	4484,4	4442,9	5789,5	5050,9	5126,7
Onlardan:					
Təhsil	1553,9	1605,1	1754,4	1742,7	1966,6
Səhiyyə	665,3	708,2	702,5	704,7	709,9
Sosial müdafiə və sosial təminat	1971,2	1857,2	2645,2	2350,2	2150,7
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	294,0	272,4	687,4	253,3	299,5
elmə	124,2	113,2	110,2	109,8	117,8
Məhkəmə hakimiyyəti,hüquq-mühafizə və prokurorluq	1103,6	1105,7	1117,1	1177,6	1316,4
qanunvericilik və icra hakimiy-yəti, yerli özünüidarəetmə orqanlarının saxlanmasına	449,7	430,9	470,1	552,2	627,4
Sair xərclər	4948,4	5283,0	6140,4	6309,7	7720,6

Uzunmüddətli perspektivdə ölkənin vergi bazaları və dərəcələrinin optimallaşdırılması baxımından büdcə-vergi siyasəti həm özəl, həm də dövlət iqtisadiyyatının maraqlarının təhlükəsizliyini təmin etməyə və bununla da makromaliyyə sabitliyinin təmin olunmasına istiqamətləndirilir.

Makromaliyyə sabitliyinin möhkəmləndirilməsi və qorunub-saxlanmasının əsas istiqamətləri kimi aşağıdakıları qeyd etməyi məqsədəuyğun hesab edirik:

1. Büdcə-vergi sahəsində iqtisadi siyasətin təkmilləşdirilməsi.
2. Pul-kredit sahəsində iqtisadi siyasətin təkmilləşdirilməsi.
3. Pul-kredit və büdcə-vergi siyasətinin koordinasiyasının gücləndirilməsi.

Deflyasiya və infliyasiya ilə mübarizədə büdcənin hazırlanması müxtəlif cür olur. Belə ki, iqtisadiyyatda deflyasiya prosesi baş verərsə büdcə kəsirinə yol verməklə iqtisadiyyatın canlanmasına şərait yaratmaq lazımdır [4].

2014-2018-ci illərin statistik göstəricilərinə əsasən demək olar ki, vergi daxilolmaları içərisində əsas yeri ƏDV və mənfəət vergisi tutur. 2017-ci ilə nisbətən büdcə kəsiri 2018-ci ildə 866,1 mln.manat azalmışdır. Dövlət büdcəsinin gəlirlərinin ÜDM-də xüsusi çəkisi isə 23,5 %-dən 28,2 %-ə qədər yüksəlmişdir.

Cədvəl 2.

Azərbaycan Respublikası dövlət büdcəsinin gəlir və xərclərinin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi [5].

Göstərici	**2014**	**2015**	**2016**	**2017**	**2018**
Ümumi daxili məhsul, (mln.AZN)	42465,0	54380,0	60425,2	70337,8	79797,3
Dövlət büdcəsinin gəlirləri (mln.AZN)	18400,6	17498,0	17505,7	16516,7	22508,9
Dövlət büdcəsinin gəlirləri ÜDM-də, %	31,2	32,1	29,0	23,5	28,2
Dövlət büdcəsinin xərcləri (mln.AZN)	18709,0	17784,5	17751,3	17594,5	22731,6
Dövlət büdcəsinin xərcləri ÜDM-də, %	31,8	32,7	29,4	25,0	28,5
Büdcə kəsiri (mln.AZN)	-308,4	-286,5	-245,6	-1077,8	-222,7
Büdcə kəsirinin ÜDM-də xüsusi çəkisi, %	0,5	0,5	0,4	1,5	0,3

Hesablamalar göstərir ki, büdcə kəsiri ÜDM-un 3-4%-ə qədəri olduqda o inflyasiya və bütövlükdə iqtisadiyyatın inkişafına mənfi təsir göstərmir.

Büdcə vergi siyasəti çərçivəsində tənzimləmə metodlarını və ya sahələrini müəyyənləşdirərkən, iqtisadiyyatın tarazlıq vəziyyətini müəyyən edən amillər böyük əhəmiyyətə malikdir. Aydındır ki, ümumi xərclər istehsaldan (ÜDM) çox olarsa, bu iqtisadiyyatda məcmu tələbin artması müşahidə olunur. Buna görə dövlət məhdudlaşdırıcı büdcə-vergi siyasətini həyata keçirməlidir. Əksinə, xərclər ÜDM-dən azdırsa, məcmu tələbin kifayət etmədiyi vəziyyət iqtisadiyyatdakı vəziyyətdir. Bu hallarda hökumət məcmu tələbi stimullaşdıran siyasət aparmalıdır.

Dövlət gəlirləri və xərclərinin məcmu tələb və ÜDM-ə təsiri ilə bağlı əsas nəticələr aşağıdakı kimi formalaşdırıla bilər.

1. Müasir şəraitdə dövlət büdcəsinin tərkib hissələrinin rolu xüsusilə artır. Mahiyyət etibarilə dövlət maliyyə mənbələrinin mərkəzləşdirilmiş fondlarını formalaşdıran və istifadə edən bir vasitədir. Bundan əlavə, dövlət büdcəsinin tərkib hissəsi kimi vergilər və dövlət xərcləri milli istehsalın həcminə, məşğulluq, istehlak, əmanətlərin həcminə birbaşa təsir göstərir. Buna görə də

məcmu tələb və məcmu təklifə təsir göstərir və bununla da iqtisadiyyatın sabitləşməsi üçün bir vasitə kimi çıxış edir.

2. İqtisadiyyatın dövri inkişafı ilə əlaqədar olaraq dövlət dövlət xərcləri və vergilər hesabına makroiqtisadi tarazlığı və davamlı iqtisadi artımı təmin etmək üçün iqtisadi dövriyyəyə (xüsusən tənəzzül dövründə) müdaxilə etməlidir. Dövlət xərclərinin tərkib hissələrindən biri olaraq dövlət satınalmalarının artması məhsulun tarazlıq səviyyəsini artırır. Tənəzzül dövründə dövlət satınalmaları məhsulu artırmaq üçün istifadə oluna bilər. Bununla da məcmu tələb və məhsulun həcmi artır.Öz növbəsində məcmu tədarükün artmasını stimullaşdıran vergi dərəcələrinin azaldılması investisiya fəaliyyətinə təsir göstərir və iqtisadi potensialın artmasına öz töhfəsini verir və bununla da iqtisadi artımı təmin edir.

3. Vergi yükünün iqtisadi artımın stimullaşdırılmasında rolu böyükdür. Yalnız optimal vergi yükü büdcə-vergi siyasətinin effektiv həyata keçirilməsinə töhfə verə bilər.

Müasir dövrdə Azərbaycanın gömrük xidməti ölkənin iqtisadi təhlükəsizliyini və makromaliyyə sabitliyini qoruyan çoxfunksiyalı bir kompleksə çevrilib. Dövlət Gömrük Komitəsi indi öz işini müasir tələblərə uyğun quraraq müasirləşmiş, təşkmilləşmiş bir sistemdir. Dövlət Gömrük Komitəsi ölkədə azad rəqabət şəraitinin yaradılmasında birbaşa iştirak edir. Gömrük orqanları gömrük tariflərindən istifadə etməklə daxili bazarı və milli istehsalçıları xarici istehsalçıların haqsız rəqabətindən qoruyur. Gömrük orqanlarının səmərəli fəaliyyəti nəticəsində ölkəyə zərərli, zəhərli, ətraf mühitə, insanların sağlamlığına zərər vura biləcək maddələrin gətirilməsinin qarşısı alınır [1].

Dünya ölkələri xarici iqtisadi fəaliyyətdə gömrük rüsumlarını tətbiq etməklə, ölkə üzrə makroiqtisadi proseslərin tənzimlənməsinə və makromaliyyə sabitliyinin təmin edilməsinə çalışırlar. Bu məqsədlə məcmu tələbin və məcmu təklifin tarazlıq vəziyyəti uyğunlaşdırılır. Ölkə əhalisinin maddi tələbatlarının ödənilməsi məqsədilə beynəlxalq ixtisaslaşmanın üstünlüklərindən istifadə olunur. Bu isə gömrük rüsumlarının tətbiqi yolu ilə inkişaf etdirilməli olan digər istehsal sahələrinin yüksəlməsinə şərait yaradır.

Gömrük orqanları gömrük rüsumlarını toplamaqla, bir tərəfdən, onların üzərinə qoyulmuş fiskal funksiyanı yerinə yetirir, digər tərəfdən isə, iqtisadiyyatın normal inkişafını təmin edir. Gömrük tariflərinin tətbiqi ölkənin ümumi iqtisadiyyatında, xüsusən də xarici iqtisadi fəaliyyətində bəzən mənfi nəticələr doğursa da, olduqca mühüm əhəmiyyətə malikdir və istər azad ticarət, istərsə də proteksionist ticarət siyasəti həyata keçirən ölkələrdə də onun tətbiqi labüddür.

Makromaliyyə sabitliyinin möhkəmləndirilməsi və davamlı iqtisadi inkişaf sahibkarlığın inkişaf etdirilməsindən asılıdır. Yuxarıda qeyd edilən istiqamətlərdə makromaliyyə sabitliyinin təmin olunması bütövlükdə büdcə-vergi sisteminin fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsində mühüm rol oynaya bilər.

Ədəbiyyat

1. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 418 s.

2. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərnəşr, 2003, 520 s.

3. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı: Gənclik, 2009, 400 s.

4. Musayev A.F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı: Elm, 2004, 792 s.

5. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

Резюме

Абдуллаева Е.Т., Валиева Р.А.

Улучшение бюджетно-налоговой политики как приоритетного направления в обеспечении экономической безопасности

В статье отмечено необходимость укрепления макрофинансовой стабильности. Одновременно исследуются основные приоритетные направления в бюджетно-налоговой системе по укреплению экономической безопасности, а также рассматриваются структура дохода и расходов государственного бюджета за последние 5 лет.

Ключевые слова: *макрофинансирование, бюджетная политика, бюджетные доходы, бюджетные расходы, налоговая политика, налоговые ставки, государственный бюджет, устойчивое развитие*

Summary

Abdullayeva Y.T., Valiyeva R.A.

The Role of Budget and tax Policy in Strengthening Macroeconomic Stability

The article notes the need to strengthen macro financial stability. At the same time, the main priority areas in the fiscal system to strengthen economic security are being investigated. It also considers the structure of revenue and expenditures of the state budget over the past 5 years.

Key words: *macrofinance, budget policy, budget revenues, budget expenditures, tax policy, tax rates, state budget, sustainable development*

AZƏRBAYCANDA SIĞORTA XİDMƏTLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİNDƏ XARİCİ-İQTİSADİ ƏMƏKDAŞLIĞIN ƏHƏMİYYƏTİ

Ağayev Heydər Rəşid oğlu

Azərbaycan Kooperasiya Universiteti

agayevheyder.r@gmail.com

Xülasə: *Məqalədə Azərbaycanda sığorta xidmətlərinin genişləndirilməsində xarici-iqtisadi əməkdaşlığın əhəmiyyəti tədqiq olunmuşdur. Xarici-iqtisadi əlaqələrin iqtisadi inkişaf proseslərinə, maliyyə bazarlarına, o cümlədən sığorta xidmətlərinin genişləndirilməsinə müsbət təsiri açıqlanmışdır. Sığorta xidmətlərinin keyfiyyətinin dünya standartları səviyyəsinə qaldırılmasında beynəlxalq təcrübənin roluna baxılmışdır. Ölkənin sığorta sisteminin cəlbediciliyinin artırılmasında xarici investorların iştirakının vacibliyi ön plana çəkilmişdir. Sığorta xidmətlərinin çeşidinin və əlçatanlığının təmin olunmasında xarici-iqtisadi əməkdaşlığın genişləndiirlməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

Açar sözlər: *sığorta xidmətləri, sığorta sistemi, sığorta şirkətləri, xarici-iqtisadi əməkdaşlıq, xarici-iqtisadi əlaqələr, xarici-iqtisadi əməkdaşlığın genişlənməsi perspektivləri.*

Qlobal iqtisadi və sığorta çağırışları şəraitində sığorta xidmətlərinin genişləndirilməsi, yeni və çevik sığorta xidmətlərinin formalaşdırılması, bazara çıxarılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, sığorta sisteminin təkmilləşdirilməsi, daha səmərəli fəaliyyət alətlərinin hazırlanması, sığorta fəaliyyətinin multiplikativ təsirindən və çoxfunksiyalılıq xüsusisyyətlərindən səmərəli istifadə edilməsi, iqtisadi islahatların aparılmasında və inkişaf proseslərinin sürətləndirilməsində fəal istifadə olunması məsələləri aktuallığı ilə diqqət çəkir və həmin məsələlərin səmərəli təşkilində

beynəlxalq təcrübənin dərindən öyrənilməsi, sığorta şirkətlərinin beynəlxalq əməkdaşlıq kanallarında fəallarının artırılması və onların xarici-iqtisadi əlaqələrinin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi proseslərinin məhsuldarlığının və səmərəliliyinin yüksəldilməsi, bu proseslərdəki risklərin minimuma endirilməsi məqsədilə, sığorta fəaliyyətindən istifadə imkanlarının reallaşdırılması strateji əhəmiyyəti ilə fərqlənir və bu amillər baxımından həmin proseslərin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin onların səmərəliliyinin maksimum artırılması tədbirlərinin görülməsi vacib şərtlərdəndir. Bütün bunlar iqtisadi islahatların aparılmasında və dərinləşdirilməsinə, iqtisadi inkişaf proserslərinin səmərəlilyinin yüksəldilməsinə müsbət təsir göstərir. Eyni zamanda sığorta bazarı iştirakçılarının qarşılıqlı maraqlarının qorunması və bunlarla əlaqədar sığorta şirkətlərində tələb olunan maliyyə resurslarının və ehtiyatlarının yaradılması, investisiya fəaliyyətinin təmin edilməsi idarəetmə sisteminin təkmilləşdirilməsi proseslərini zəruri edir [1]. Bundan əlavə, sığorta fəaliyyətinin reallaşdırılması ilə bağlı olaraq, tarif və qiymət siyasətinin balanslaşdırılması, sığorta xidmətlərinin əlçatanlığının təmin olunması və xidmətlərin strukturunun genişləndirilməsi vacibdir [2]. Sığorta xidmətləri dövlət tərəfindən nə qədər tənzimlənsə belə, sığorta fəaliyyətinin əsasında bazar mexanizmləri, iqtisadi münasibətlərin səmərəliliyi və dayanıqlılığı, insanların müxtəlif risklərdən sığortalanmasının prioritetliyi məsələləri daha çox önəm təşkil edir. Bu amillər baxımından sığorta fəaliyyətinin iqtisadi islahatların intensivləşdirilməsi proseslərinə təsiri daha geniş mənada baxılmalı və qiymətləndirilməlidir. Digər tərəfdən, sığorta fəaliyyətinin iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi məsələlərinə kompleks yanaşmalar diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, sığorta fəaliyyəti iqtisadiyyatın müxtəlif sahələrində maliyyə resurslarının mobilizasiya edilməsini, sığorta haqlarının vasitəsilə onların təmərküzləşməsini və bazarda tələb olunan təsərrüfat-iqtisadiyyat subyektləri arasında bölüşdürülməsini təmin edir. Eyni zamanda, sığorta şirkətlərinin özləri dünyada, beynəlxalq səviyyədə, ayrı-ayrı ölkələrdə iri investisiya kompaniyaları kimi fəaliyyət göstərir, investisiyalar yatırır, iri inkişaf və investisiya proqramlarında - layihələrində əsas iştirakçılar kimi xarakterizə olunurlar [3]. Sığorta iqtisadi inkişaf proseslərində özünün müxtəlif formaları ilə müxtəlif hüquqi və fiziki şəxslərin daha sabit fəaliyyət göstərmək potensialını artırmaqla bərabər, bu subyektlərin müxtəlif risklərdən qorunmasının təminatçısı kimi çıxış edir.

Sığorta iqtisadi inkişaf proseslərinin modelləşdirilməsi, onların manevrlilik qabiliyyətinin artırılması, aparılan islahatların daha da dərinləşdirilməsi, bu proseslərdə təhlükə yaradan risklərin mənfi fəsadlarının optimal şəkildə bölüşdürülməsi, dəyən zərərin həcminin minimuma endirilməsi və bununla da iqtisadi inkişaf tsiklinin fasiləsizliyinə şəraitin yaradılması proseslərinə güclü təkan verir. Formalaşdırılmış sığorta ehtiyatları hesabına iqtisadi inkişaf proseslərinin və iqtisadi islahatlar iştirakçılarının üzləşdikləri dəyərin əhəmiyyətli hissəsini sığorta vasitələri ilə kompensasiya etmək mümkündür [4]. Bunlarla bərabər, sığorta fəaliyyəti iqtisadi inkişaf proseslərinin iştirakçılarının inteqrativ əlaqələrinin genişlənməsinə, maliyyə axınlarının səmərəliliyinin təmin olunmasına və bazar iştirakçılarının maraqlarının qorunmasına əlavə stimullar verir. Sığorta şirkətlərinin fəaliyyəti proseslərində ortaya çıxan risklərin sistemli şəkildə öyrənilməsi, onların optimal səviyyədə idarə olunması və mənfi fəsadlarının maksimum azaldılması tədbirlərinin görülməsi vacib şərtlərdəndir. Bu halda sığorta biznesinin maliyyə mənbələrinin genişləndirilməsi hesabına tariflərin və qiymətlərin əlçatanlığını təmin etmək, sığorta fəaliyyətinin iqtisadi inkişaf proseslərinə təsirini artırmaq mümkün olardı. Ümumiyyətlə, sığorta fəaliyyətinin genişləndirilməsi və sığorta xidmətlərinin strukturunun təkmilləşdirilməsi dünya səviyyəsində ciddi diqqət mərkəzində

saxlanılır və buna misal kimi dünya sığorta bazarının sabit inkişafını göstərmək olar. Şəkildə dünya sığorta bazarının 2007-2017-ci illər ərzində inkişaf dinamikası verilmişdir və buradan qeyd etmək olar ki, həmin dövr ərzində dünya sığorta bazarının həcmi 18,4 % artmış və orta illik artım 1,67 % təşkil etmişdir.



Şəkil. Dünya sığorta bazarının 2007-2017-ci illər ərzində inkişaf dinamikası, mlrd. ABŞ doll. (rəsmi mənbələr əsasında müəllif tərəfindən hazırlanmışdır)

Digər tərəfdən, sığorta özünün kredit funksiyası hesabına sığorta haqlarının yığılmasından toplanan vəsaitlərin yenidən bölüşdürülməsi və başqa sözlə, kreditləşdirmə əməliyyatlarının aparılmasını təmin edir. Sığorta, digər tərəfdən, yığım funksiyasına malikdir, yəni sığorta haqlarının daxil olması hesabına pul vəsaitləri cəlb edir və onları yenidən yığıma yönəldir, bunlar isə pul-maliyyə axınlarının daha səmərəli idarəetmə sisteminin formalaşdırılmasını şərtləndirir.

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatının dünya iqtisadi proseslərinə inteqrasiyasının gücləndirilməsi və xarici-iqtisadi əməkdaşlığın genişləndirilməsi son illərdə ciddi önəm kəsb etməkdədir [5]. Bundan əlavə, Azərbaycanda maliyyə xidmətlərinin genişləndirilməsi və həcminin artırılması istiqamətində böyük həcmli işlər görülməkdədir. Belə ki, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə bazarlarının inkişafı, maliyyə xidmətlərinin strukturunun diversifikasiyalaşdırılması, o cümlədən, sığorta xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində strateji hədəflər müəyyənləşdirilmişdir [6].

Görülən tədbirlər nəticəsində Azərbaycanda sığorta bazarının inkişaf etdirilməsində və onların xarici-iqtisadi əlaqələrinin genişləndirilməsində irəliləyişlər nəzərə çarpır. Hazırda, 2019-cu ilin əvvəlinə ölkədə 21 sığorta şirkəti fəaliyyət göstərir, bunlardan cəmisi 3 sığorta şirkətinin il ərzində topladıqları sığorta haqlarının həcmi 50 milyon manatdan çox təşkil etmişdir ("Paşa Həyat Sığorta" ASC, "Paşa Sığorta" ASC və "Atəşgah Həyat" Sığorta Şirkəti" ASC.).

Sığorta şirkətləri tərəfindən 2018-ci il ərzində sığorta sinifləri üzrə hesablanmış sığorta haqlarının ümumi məbləği 727,9 milyon manat təşkil etmişdir və il ərzində bu məbləğin cəmisi 240,3 miylon manatı və yaxud 33 %-i sığorta ödənişləri şəklində sığorta edilənlərə ödənilmişdir.

2018-ci il ərzində sığorta sinifləri üzrə hesablanmış sığorta haqları və sığorta ödənişlərinin təhlili göstərir ki, hesablanmış sığorta haqlarının strukturunda əsas yeri könüllü sığortalar tutur və bunlar 536,1 milyon manat olmuşdur, onun isə 305,7 milyon manatı həyat sığortası ilə bağlıdır, qeyri-həyat sığortasının həcmi cəmisi 230,4 milyon manat təşkil etmişdir.

Bütün bunlarla belə, ölkədə sığorta şirkətlərinin xarici-iqtisadi əlaqələrinin müasir çağırışlara uyğun şəkildə yenilənməsi və onların səmərəliliyinin artırılması tələb olunur:

- ölkədə sığorta xidmətlərinin daha optimal səviyyəyə qaldırılması üçün sığorta bazarı iştirakçılarının xarici-iqtisadi fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri görülməlidir;
- ölkənin sığorta şirkətlərinin xarici-iqtisadi əməkdaşlığının gücləndirilməsi istiqamətində konseptual yanaşmalar formalaşdırılmalı və uzunmüddətli dövrü əhatə edən fəaliyyət strategiyası hazırlanaraq reallaşdırılmalıdır.

Ədəbiyyat

1. Ataşov B.X. Maliyyə bazarları. Bakı: Kooperasiya nəşriyyatı, 2016, 456 s.

2. Рыжков О.Ю. Финансовая устойчивость страховщиков: оценка и управление. Монография. НГУ, Новосибирск, 2013, 216 с

3. İbrahimov K.M. Dünya sığorta bazarının inkişaf tendensiyaları və qanunauyğunluqları // “Audit” elmi-praktiki jurnalı, Cild 21, №23, 2018, s.21-30

4. Смирнова Н.В., Васюкова Л.К. Механизм формирования страховых резервов как средство повышения эффективности функционирования страхового рынка // Российское предпринимательство. 2013, Том 14, № 15, с. 96-108

5. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt, 2018, 376 s

6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.

Резюме

Агаев Г.Р.

Вопросы расширения внешнеэкономического сотрудничества в расширении услуг страхования в Азербайджане

В статье исследованы вопросы расширения внешнеэкономического сотрудничества в расширении услуг страхования в Азербайджане. С этой целью раскрыто положительное влияние внешнеэкономических связей на интенсивность процессов экономического развития, финансовые рынки, в том числе, на расширение услуг страхования. Рассмотрена роль международного опыта в повышении предоставления страховых услуг на уровне мировых стандартов. Отмечена важность участия иностранных инвесторов в повышении привлекательности системы страхования страны. Подготовлены рекомендации и даны предложения по вопросам расширения внешнеэкономического сотрудничества в расширении услуг страхования в Азербайджане.

Ключевые слова: *страховые услуги, страховая система, страховые компании, внешнеэкономическое сотрудничество, внешнеэкономические связи, перспективы расширения внешнеэкономического сотрудничества.*

Summary
Aghayev H. R.
The Iportance of Expansion of Foreign Economic Cooperation in Expanding of Insurance Services in Azerbaijan

The issues of expansion of foreign economic cooperation in expanding of insurance services in Azerbaijan are explored in the article. The positive impact of foreign economic relations on the intensity of economic development processes, financial markets, including the expansion of insurance services are given for this purpose. The role of international experience in raising the provision of insurance services to the level of world standards is considered too. The importance of participation of foreign investors in increasing the attractiveness of the insurance system of the country is investigated. Recommendations and proposals on the expansion of foreign economic cooperation in expanding insurance services in Azerbaijan are given in the end of the article.

Key words: *insurance services, insurance system, insurance companies, foreign economic cooperation, foreign economic relations, prospects of expansion of foreign economic cooperation.*

AZƏRBAYCANIN SIĞORTA BAZARINDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN AKTUAL ASPEKTLƏRİ

Ataşov Bəyalı Xanalı oğlu
Azərbaycan Kooperasiya Universiteti
info@aku.edu.az

Xülasə: *Məqalədə Azərbaycanın sığorta bazarında informasiya texnologiyalarının tətbiqinin aktual aspektləri tədqiq olunmuşdur. Bunun üçün hazırkı qlobal problemlərin artdığı bir şəraitdə sığorta bazarının fəallığının artırılmasında informasiya texnologiyalarının tətbiqinin vacibliyi və mahiyyəti açıqlanmışdır. Qlobal qeyri-sabitlik dövründə əmlakın və həyatın qorunmasının müxtəlif istiqamətləri üzrə sığorta xidmətlərinin rolu verilmişdir. Ölkəmizdə sığorta bazarının genişləndirilməsində elektron sığorta xidmətlərinin yaradılmasının əhəmiyyəti əsaslandırılmışdır. Sığorta şirkətlərinin cəmi aktivləri, sığorta müqavilələri üzrə sığorta haqlarından daxilolmalar və sığorta ödənişlərinin ümumi məbləği təhlil olunmuşdur. Pandemiya və postpandemiya şəraitində ölkənin sığorta bazarında informasiya texnologiyalarının tətbiqinin aktual aspektləri üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

Açar sözlər*: sığorta bazarı, informasiya texnologiyaları, sığorta bazarının inkişaf problemləri, sığorta bazarının inkişaf perspektivləri, sığorta xidmətləri, elektron sığorta xidmətləri, pandemiya və postpandemiya dövründə sığorta xidmətləri.*

Bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının ahəngdar inkişafında, iqtisadi inkişaf prosesləri iştirakçılarının maraqlarının qorunmasında sığorta bazarının sabitliyi və səmərəli fəaliyyəti strateji önəm kəsb edir. Bu məsələ qlobal təhlükələrin artdığı bir dövrdə kifayət qədər aktual olaraq qalmaqdadır. Azərbaycan öz müstəqillinin bərpasından sonrakı illərdə sığorta bazarının qanunvericilik bazasının gücləndirilməsi və sığorta fəaliyyətinin mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərində davamlı addımlar atmışdır. Sığorta bazarının səmərəli təşkili üçün ardıcıl tədbirlər həyata keçirilmiş və müvafiq ölkə qanunları qəbul olunmuşdur. 1993-cü il yanvar ayının 5-də "Sığorta haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmiş və

bununlada ölkədə sığorta fəaliyyətinin təşkili ilə bağlı prosesləri intensivləşdirilmişdir [1]. Sığorta haqqında qanunda sığorta sisteminin inkişaf etdirilməsinin əsas istiqamətləri və prinsipləri, bu sahələrin tənzimlənməsi mexanizmləri və onların hüquqi əsasları öz əksini tapmışdır. Ümumilikdə, müstəqillik illərində sığorta fəaliyyətinin və sığorta bazarının qanunverilcilik bazasının inkişaf etdirilməsi, bu sahədə dünya təcrübəsinin nəzərə alınması istiqamətlərində önəmli addımlar atılmış və zəruri ölkə qanunlarının qəbul edilməsinə səy göstərilmiş, nəticədə bir çox vacib qanunlar hazırlanaraq qəbul olunmuşdur. 28 oktyabr 1999-cu ildə Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunması da bu qəbildəndir [2]. Həmin qanunla, ölkə əhalisinin tibbi sığorta xidməti ilə təmin edilməsi və bunlarla bağlı olaraq hüquqi, iqtisadi-təşkilati mexanizmlərin hazırlanması və tətbiqinin hüquqi bazasının yaradılması, iqtisadi mexanizmlərin hazırlanaraq dövriyyəyə cəlb edilməsi, tibbi sığorta sahəsində fəaliyyət göstərən subyektlər arasındakı münasibətlərin hüquqi və iqtisadi tənzimlənməsinin mühüm aspektləri müəyyənləşdirilmişdir. Bütün bunlar ölkənin sığorta bazarına müsbət təsir göstərmiş və bazarın inkişaf etməsi üçün əsaslı zəmin yaratmışdır. Nəticədə, 2000-ci illərindən əvvəllərindən başlayaraq, sığorta bazarında nisbətən dinamik inkişafa nail olunmuş və sığorta şirkətlərinin, təşkilatlarının formalaşması, onların maliyyə sabitliyinin gücləndirilməsi prosesləri intensivləşmişdir. Bundan əlavə, sığorta bazarının inkişafı üçün hüquqi və iqtisadi əsaslar formalaşdırılmış və sığorta bazarının inkişaf etdirilməsi üçün zəruri normativ hüquqi sənədlər hazırlanmış, qanunvericilik aktları qəbul olunmuşdur. Ölkəmizdə sığorta bazarının inkişafının intensivləşməsi qanunvericilik bazasının da yenidən baxılmasını və təkmilləşdirilməsini şərtləndirmişdir. 25 dekabr 2007-ci ildə yeni ölkə qanunu - "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuş və bu qanunun qəbul olunması proseslərində sığorta fəaliyyətinin təşkili ilə bağlı dünya təcrübəsi, o cümlədən, hüquqi tənzimləmə məsələləri daha çox öyrənilmiş və nəzərə alınmış, sığorta fəaliyyətinin mühüm aspektlərinə xüsusi diqqət yetirilmişdir [3]. Qəbul olunan yeni qanunun əsas məqsədləri sığorta sisteminin inkişafının, sığorta bazarının peşəkar iştirakçılarının, o cümlədən sığortaçıların, təkrar sığortaçıların, sığorta vasitəçilərinin fəaliyyətinin əsas istiqamətlərini və prinsiplərini müəyyənləşdirmək, eyni zamanda sığorta sahəsində tənzimləmə və nəzarətin hüquqi-iqtisadi mexanizmlərini müəyyənləşdirməkdən ibarət olmuşdur. Eyni zamanda, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlər daha da intensivləşdirilmiş, xüsusilə sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi və sığorta sisteminin təkmilləşdirilməsi məqsədilə, dünya təcrübəsinə uyun şəkildə yeni ölkə qanunlarının hazırlanması və qəbul olunması diqqət mərkəzində saxlanılmışdır. Belə qanunlardan biri də 24 iyun 2011-ci ildə qəbul olunmuş "İcbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunudur [4]. Bununla yanaşı, 30 iyun 2017-ci ildə isə "İşsizlik sığortası haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur və bu qanunla işsizlik sığortasının mühüm elementləri müəyyənləşdirilmişdir [5]. Sığorta bazarının inkişaf etməsi və sığorta fəaliyyətinin genişləndirilməsi həm də iqtisadiyyatın müxtəlif sahələrində risklərin bölüşdürülməsində və iqtisadi fəaliyyət subyektlərinin risklərlə bağlı itkilərin, zərərlərin ağırlıq dərəcəsinin yüngülləşdirilməsində önəmli rol oynamışdır. Bu məsələlərdə dövlətin rolunu da xüsusilə qeyd etmək yerinə düşərdi, belə ki, məhz dövlət tərəfindən sığorta bazarının hüquqi və iqtisadi əsaslarının yaradılması və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görülür, institusional tədbirlər həyata keçirilir, bu bazarın maddi-texniki bazası təmin edilir və gücləndirilir. Sığorta bazarındakı informasiyaların, məlumatların işlənməsi, emal olunması məsələləri və burada müasir informasiya texnologiyalarının tətbiqi də son illərdə diqqət mərkəzindədir. Sığorta bazarının şəffaflığının artırılması, həmçinin maliyyə bazarının inkişafının genişləndirilməsi və sığorta xidmətlərinin strukturunun tələblərə uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Sığorta xidmətləri seqmenti bazar iqtisadiyyatının çevik

inkişaf edən sferalarından biridir. Pandemiya və postpandemiya çağırışları ilə bağlı olaraq, ölkəmizin milli sığorta şirkətləri maliyyə sisteminin ən aktiv elementləri olaraq maliyyə bazarlarının yeni çağırışlarına cavab verməli, yeni məkanlar və texnologiyalar əldə etməlidirlər. Sığorta bazarının fəaliyyət mexanizminin modernləşdirilməsi həm dövlətin, həm də sığortaçıların aktiv fəaliyyətini şərtləndirir və bunun üçün distant, elektron xidmətlərin çeşidinin artırılması tələb olunur. Bundan əlavə, mühüm məsələlərdən biri də milli sığorta şirkətlərinin maliyyə strategiyası, proqnozlaşdırılması və büdcələşdirilməsi metodikasının işlənib hazırlanması, uçot və statistika üzrə müvafiq beynəlxaq standartlara tam uyğunlaşdıırlması, bu proseslərin elektronlaşdırılmasından ibarətdir. Digər tərəfdən, ölkəmizdə maliyyə sabitliyinin təmin edilməsi, maliyyə sisteminin dayanıqlılığının gücləndirilməsi, maliyyə bazarın intensivliyinin təmin olunması tədbirlərində sığorta şirkətlərinin və ümumilikdə sığorta fəaliyyətinin rolunun gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir və bütün bunlar üzrə strateji hədəflər öz əksini ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə ifadə etmişdir [6]. Yaxın perspektiv və uzaq dövr üçün sığorta sisteminin inkişaf hədəfləri müəyyənləşdirilmiş, prioritet fəaliyyət sahələrinin inkişaf etdirilməsi tədbirlərinin fəal şəkildə reallaşdırılmasına başlanılmışdır. Sığorta bazarının inkişafı ilə bağlı qeyri-müəyyənliklər aradan qaldırılmalı və onların müxtəlif risklərdən qorunması mexanizmləri hazırlanmalı, sığorta fəaliyyətinin rəqəmsallaşdırılması və elektron xidmətlər paketinin genişləndirilməsi tədbirləri sürətləndirilməlidir.

Şəkil 1-də Azərbaycanın sığorta şirkətlərinin 2012-2018-ci illər üzrə cəmi aktivlərin dinamikası verilmişdir.



Şəkil 1. Azərbaycanın sığorta şirkətlərinin 2012-2018-ci illər üzrə cəmi aktivlər, mln. manat (ARDSK-nın rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).

Şəkil 1-in təhlilindən baxsaq, ölkəmizdə sığorta şirkətlərinin cəmi aktivləri 2012-2018-ci illərdə 72,8 %-ə yaxın artmış və 2018-ci ilin yekununda 1054,2 mln. manat təşkil etmişdir. Şəkil 2-də isə ölkəmizdə 2010-2018-ci illərdə sığorta müqavilələri üzrə sığorta haqlarından daxilolmaların ümumi məbləği göstərilmişdir və göründüyü kimi son illərdə artım diqqət çəkir, belə ki, 2018-ci ilin yekununda bu məbləğ 782,3 mln. manat səviyyəsinə olmuşdur.



Şəkil 2. Azərbaycanda 2010-2018-ci illərdə sığorta müqavilələri üzrə sığorta haqlarından daxilolmaların ümumi məbləği, mln. manat (ARDSK-nın rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).

Şəkil 3-də Azərbaycanda 2010-2018-ci illərdə sığorta ödənişlərinin ümumi məbləği dinamikası verilmişdir və 2018-ci ildə bu məbləğin 2017-ci illə müqayisədə azalması qeydə alınmışdır.



Şəkil 3. Azərbaycanda 2010-2018-ci illərdə sığorta ödənişlərinin ümumi məbləği, mln. manat (ARDSK-nın rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).

Qeyd edək ki, Azərbaycanda sığorta bazarının inkişaf istiqamətlərinin və ümumilikdə sığorta bazarının səmərəliliyinin qiymətləndirilməsi üzrə metodoloji yanaşmaların müasir dövrün tələblərinə uyğun şəkildə yenilənməsi və təkmilləşdirilməsi vacib şərtlərdəndir. Tədqiqatçılar N.S.Əyyubova və N.R.Cəlilova bunlarla bağlı araşdırılmalarında qeyd edirlər ki, Azərbaycanın sığorta bazarının gələcək inkişafı üçün sığortanın icbari növləri üzrə qanunvericiliyin təkmilləşdirilməsi, sığorta şirkətləri üçün ixtisaslı kadrların hazırlanmasının təmin edilməsi sığorta məsələlərində əhalinin maarifləndirilməsinin, eləcə də sığorta xidmətləri üzrə istehlakçıların hüquqlarının təmin edilməsi böyük əhəmiyyət kəsb edir [7]. Sığorta ölkə iqtisadiyyatının sabit və dinamik inkişafında tələb olunan multiplikativ və güclü səmərəlilik elementlərinə malik olan maliyyə xidməti kimi dünya təcrübəsində geniş istifadə olunmaqdadır. Belə ki, hər bir ölkənin iqtisadiyyatı, onun maliyyə, büdcə, gömrük, vergi, investisiya, sənaye, nəqliyyat, tikinti və s. sistemlərinin inkişaf səviyyəsindən asılı olaraq fəaliyyət göstərir. Bu göstərilən sistemlərin iqtisadi fəaliyyət sahələrində səmərəli olmasında isə sığorta sisteminin rolu və əhəmiyyəti kifayət qədər böyükdür. Sığorta bir tərəfdən iqtisadiyyatda yığım funksiyasını yerinə yetirirsə, digər tərəfdən maliyyə resurslarının bölüşdürülməsi proseslərində fəal iştirak edir və investisiyayönlü layihələrin reallaşdırılmasını təmin edir. Sığorta institutunun inkişafı daim aktuallığı ilə diqqət mərkəzindədir

və cəmiyyətdə də sığortanın vacibliyinin dərk edilməsi istiqamətində xeyli irəliləyişlər diqqət çəkir. Belə ki, müxtəlif hadisələrin, o cümlədən güclü yanğınların, digər təhlükəli təbiət hadisələrinin, texnogen qəzaların baş verdiyi zaman dəyən zərərlərin bölüşdürlməsi və kompensasiya olunması məsələləri son illərdə ölkəmizdə də kifayət qədər geniş müzakirə olunan problemlərdəndir. Bundan əlavə, pandemiyanın yaratdığı yeni mürəkkəb şəraitdə çevik və səmərəli sığorta xidmətləri insanların həyatda üzləşdikləri itkilərin müəyyən bir hissəsinin kompensasiyasına imkan verərdi. Məlumdur ki, dünya təcrübəsində bu kimi problemlərin həllində sığorta institutunun rolu əhəmiyyətli dərəcədə böyükdür, iqtisadiyyatın və cəmiyyətin müxtəlif sahələrində, şəxsi həyatda, təsərrüfatlarda müxtəlif fəaliyyət istiqamətləri üzrə sığorta xidmətlərinin geniş çeşidinin hazırlanması və reallaşdırılması həm cəmiyyət, həm də dövlət üçün qarşılıqlı surətdə maraq kəsb edir. Tədqiqatçı S.A.Zamanova qeyd edir ki: "Azərbaycanın sığorta bazrında fəaliyyət göstərən elə sığorta şirkətləri var ki, onların fəaliyyətləri çox zəifdir. Əgər sığorta şirkətləri öz aralarında birləşsə onların kapitalları daha çox olar və bazarda sığorta üçün daha çox vəsait tələb edən müqavilələr bağlamaq imkanı yaranar" [8]. Bunlarla yanaşı, sığorta fəaliyyəti güclü sosial-iqtisadi mahiyyət daşımaqla bərabər, ölkə ÜDM-un həcminin artırılmasında, yeni əlavə dəyər yaradan mənbələrin formalaşdırılmasında böyük potensiala malikdir. Sığorta müdafiəsini həyata keçirmək üçün zəruri olan sığorta vəsaitləri ehtiyatlarının formalaşdırılmasını təşkil etmədən sığorta şirkətinin iqtisadi-maliyyə fəaliyyətinin səmərəliliyinə nail olmaq müşkül məsələdir. Müasir dövrdə sığorta bazarını genişləndirmək, əhali arasında sığorta təminatına malik olmayanların sığorta məhsullarına əlçatanlığını təmin etmək, maliyyə xidmətlərinə çıxışı artırmaq və iqtisadiyyatın şaxələndirilməsini dəstəklənmək üçün sığorta məhsullarını yeniləndirmək lazımdır və bunun üçün informasiya texnologiyalarından, rəqəmsal mexanizmlərdən fəal şəkildə istifadə edilməsi tələb olunur. Bunun nəticəsində sığorta xidmətlərinin geniş spektrdə maliyyə bazarında təqdim olunması, alternativ xidmətlərin göstərilməsi maliyyə bazarı iştirakçılarının və bu xidmətlərdən istifadəçilərinin maraqlarını ödəmiş olardı. Belə ki, sığorta təkcə iqtisadi deyil, eləcə də sosial həyatın ən vacib ünsürüdür. Bazar münasibətlərinin yeni şəraitində sığortanın təşkili prinsiplərində köklü şəkildə dəyişiklik edilməsi, sığorta işində fəallığa nail olunması, əhali arasında sığorta xidmətlərinin genişlənməsi və onun keyfiyyətinin hər tərəfli yüksəlməsi tədbirləri görülməlidir.

Yaxın perspektivdə ölkəmizin sığorta bazarında informasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsini gözləmək mümkündür. Belə ki, artıq pandemiyinın yaratdığı yeni bir situasiyada ənənəvi sığorta xidmətlərinin təkmilləşdirilməsi və sosial izolyasiya şəraitində onların müştərilərə çatdırılması istiqamətində yeni yanaşmalar, xidmətlər formalaşmaqdadır, bunlar isə öz növbəsində yüksək texnologiyaların tətbiqinin genişləndiirlməsini tələb edir:

- bazar iqtisadiyyatı şəraitində və qlobal təhlükələrin artdığı bir dövrdə sığorta xidmətlərinin yüksək texnologiyalar əsasında yenilənməsi və ya təkmilləşdirilməsi məsələləri aktual olaraq yeni bir zərurət kimi ortaya çıxmışdır;
- elektron sığorta xidmətlərinin çevikliyi və əlçatanlığı təmin olunmalı, müştəri məmnunluğu əsas amil kimi sığorta şirkətlərinin fəaliyyətində prioritet bir yanaşmaya çevrilməlidir;
- sığorta xidmətlərinin maliyyə xidmətləri bazarına çıxarılmasında və sığorta şirkətlərinin fəaliyyətində rəqəmsallaşmanın sürətləndirilməsi tədbirləri intensivləşdirilməlidir və s.

Ədəbiyyat

1. Sığorta haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 5 yanvar 1993-cü il, № 437.

2. Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 28 oktyabr 1999-cu il, № 725.

3. Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 25 dekabr 2007-ci il, №519-IIIQ.

4. İcbari sığorta haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 24 iyun 2011-ci il, № 165-IVQ.

5. İşsizlik sığortası haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 30 iyun 2017-ci il, №765-VQ.

6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.

7. Əyyubova N.S., Cəlilova N.R. Azərbaycanda sığorta bazarının inkişaf isitqamətlərinin statistik təhlili // Bakı Universitetinin Xəbərləri, №2, 2010, s. 99-106.

8. Zamanova S.A. Sığorta işinin dövlət tənzimlənməsi problemləri. İ.ü.f.d. dissertasiyasının avtoreferatı. Bakı, 2016, 39 s.

Резюме

Аташов Б.Х.

Актуальные аспекты применения информационных технологий на рынке страхования Азербайджана

В статье исследованы актуальные аспекты применения информационных технологий на рынке страхования Азербайджана. С этой целью раскрыта важность и сущность применения информационных технологий в повышении активности рынка страхования в условиях роста глобальных проблем. Дана роль страховых услуг по охране собственности и жизни в нестабильном глобальном периоде. Обоснована важность расширения электронных страховых услуг в активизации рынка страхования в стране. Анализированы страховые поступления, общая сумма страховых выплат и активы страховых компаний. Подготовлен ряд рекомендаций и предложений по актуальным аспектам применения информационных технологий на рынке страхования Азербайджана.

Ключевые слова: *страховой рынок, информационные технологии, проблемы развития страхового рынка, перспективы развития страхового рынка, страховые услуги, электронные страховые услуги, страховые услуги в период пандемии и пост пандемический период.*

Summary

Atashov B.Kh.

Current Aspects of Application of Information Technologies in the Insurance Market of Azerbaijan

The current aspects of application of information technologies in the insurance market of Azerbaijan are investigated in the article. The importance and essence of the application of information technologies in increasing the activity of the insurance market in the growing global problems are considered for this purpose. The role of insurance services for the protection of property and life in an unstable global period is given then. The importance of expanding electronic insurance services in enhancing the insurance market in the country is justified. Insurance receipts, total amount of insurance payments and assets of insurance companies are analyzed too. A number of recommendations and proposals on current aspects of the application of information technologies in the insurance market of Azerbaijan is given in the end of the article.

Key words: *insurance market, information technologies, problems of insurance market development, perspectives of insurance market development, insurance services, electronic insurance services, insurance services during pandemic and post pandemic period.*

AZƏRBAYCANDA XƏZİNƏDARLIQ SİSTEMİNDƏ HESABLAR PLANININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Babazadə İsgəndər Valeh oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
isgender618@mail.ru

Xülasə: *Dövlət sektorunda uçot və hesabatlılığın keyfiyyətinin artırılması fonunda beynəlxalq səviyyədə istifadə olunan Dövlət Maliyyə Statistikası (DMS) metodoloji baza kimi elə bir istinad nöqtəsidir ki, bu bazanı istifadə edərkən hökumətlər dövlət sektorunun bütün maliyyə və qeyri-maliyyə əməliyyatları barədə birbaşa və geniş məlumatlar əldə edir. Azərbaycanda DMS-in istifadəsi zamanı aparılması vacib olan digər zəruri addımlar əsaslandırılmış və konkret təkliflər irəli sürülmüşdür.*

Açar sözlər: *xəzinədarlıq sistemi, modifikasiya edilmiş hesablama metodu, büdcə təsnifatı, hesablar planı, qeyri-maliyyə aktivləri.*

Azərbaycanda xəzinədarlıq sistemi çərçivəsində büdcə daxilolmaları vahid büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq tərəfindən təsnifatlaşdırılır, uçota alınır və daxilolmaların yığılmasını təmin edən dövlət orqanları ilə qarşılıqlı surətdə dövri olaraq üzləşdirilir və hesabatlar tərtib edilir. Xəzinədarlığın vahid hesabından aparılmış xərclərin kassa icrası da büdcə təsnifatına uyğun qruplaşdırılaraq uçota alınır və dövlət büdcəsinin icrasına dair dövri hesabatlara daxil edilir. Beynəlxalq təcrübədə dövlət büdcəsinin icrası üzrə hesabatlar vahid hesablar planı əsasında hazırlanır və bura 3 ən vacib istiqamət daxildir ki, minimum olaraq hökumətlər bunu mütləq nəzərə alır:

- Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən dövlətlər üçün yaradılmış statistik hesabatlar sistemi (Dövlət Maliyyə Statistikası - 1986, 2001, 2014);
- büdcənin icrası üzrə hesabatlılıq (büdcə təsnifatı üzrə bu hesabatlılıq xəzinədarlıq tərəfindən və adətən kassa metodu əsasında hazırlanır);
- büdcə təşkilatları tərəfindən milli və beynəlxalq mühasibat uçotu standartları əsasında təqdim edilən hesabatlar (əsasən hesablama metodu əsasında).

Məlumdur ki, dünya ölkələrində büdcə uçotu çərçivəsində tətbiq edilən hesablar planı dövlətlərin maliyyə hesabatlılığının təmin edilməsi baxımından çox önəmlidir. Əvvəllər ölkələrdə büdcə uçotu çərçivəsində büdcə təsnifatı üzrə hazırlanan hesablar planı mühasibat uçotunun hesablar planınna inteqrasiya edilməmiş şəkildə idarə edilirdi və belə bir vəziyyət Azərbaycanda da müşahidə edilmişdir [1]. Müasir dövrdə isə beynəlxalq təcrübələrdə büdcə təsnifatı üzrə hesablar planı tamamilə mühasibat uçotunun prinsiplərinə uyğun gələn hesablar planına inteqrasiya edilmiş şəkildə idarə edilir. Hazırda əksər ölkələr büdcə uçotunda istifadə edilən hesablar planını hökumətlər üçün vahid statistik hesabat sistemi kimi qəbul edilən Dövlət Maliyyə Statistikasında (DMS) beynəlxalq mühasibat uçotunun prinsipləri əsasında yaradılmış hesablar planına uyğunlaşdırırlar. DMS-də hesablar planı üzrə altı müxtəlif istiqamətli seqmentlər (funksional,

təşkilati, iqtisadi, layihə, proqram, regional) var ki, çox vaxt ölkələr öz büdcə təsnifatlarının strukturunda olan iqtisadi təsnifat ilə iqtisadi seqmenti uzlaşdıraraq hesablar planını tərtib edirlər. DMS əsasında yaradılan hesablar planının tərkibinə gəlirlər, xərclər, qeyri-maliyyə aktivləri (kapital xərcləri), maliyyə aktivləri, öhdəliklər daxildir. Belə bir hesablar planının mövcudluğu şəraitində büdcənin tərtibi zamanı məsləhət edilən büdcənin strukturu gəlirlər, cari xərclər, kapital xərcləri (qeyri-maliyyə aktivlərinin alınması), büdcə kəsirinin maliyyələşdirilməsi, maliyyə aktivlərinin ixtisarı (azalması), yeni borclar kimi bölmələrdən ibarət olur ki, bütün qeyd edilən hissələr dövlət büdcəsinin icrası üzrə müxtəlif aspektli hesabatların (büdcə, maliyyə, makrofiskal, statistik) hazırlanmasına şərait yaradır. DMS üzrə təklif edilmiş hesablar planını təşkil etmək üçün MDB məkanı ölkələri bu istiqamətdə ciddi islahatlar həyata keçirdilər. Bu baxımdan ölkələrin bir çoxu vahid büdcə təsnifatının strukturunda olan büdcə gəlirləri, büdcə xərclərinin funksional və iqtisadi təsnifatının tərkibini təkmilləşdirməklə nəzərdə tutulan hesablar planına inteqrasiya etdilər. MDB məkanında yalnız Moldova DMS-in tələblərini yerinə yetirməklə demək olar ki, bütün seqmentlər üzrə (yalnız regional seqment xaric olmaqla) büdcə təsnifatının tərkibini təkmilləşdirərək, onun DMS üzrə nəzərdə tutulan hesablar planına inteqrasiyasını təmin etmişdir. Bu baxımdan Azərbaycanda vahid büdcə təsnifatının strukturunun nəzərdən keçirilməsi və onun tərkibinin yenidən təkmilləşdirilməsi zərurəti meydana çıxır. Eyni zamanda yeni yaradılacaq (proqram təsnifatı yaradılarsa) təsnifatların da DMS üzrə təklif edilən hesablar planına tam inteqrasiyasına nail olmaq lazımdır. Son dövrlərə kimi Azərbaycan da daxil olmaqla, Rusiya, Tacikistan, Moldova da büdcə təsnifatında yalnız iqtisadi təsnifat müvafiq hesablar planına inteqrasiya olunmuş idi.

Azərbaycanda hazırki dövrdə vahid büdcə təsnifatı və müasir mühasibat uçotunun prinsipləri ilə qurulmuş hesablar planı DMS-in şərtləri daxilində tamamilə inteqrasiya edilməmişdir və büdcə təsnifatı və hesablar planı iki ayrı struktura malikdirlər. Büdcə təsnifatının tərkibində yer alan gəlir və xərclər sonradan kassa uçot metodu əsasında icra edilir və daha sonra büdcə hesabatları hazırlanır. Azərbaycanda yalnız vahid büdcə təsnifatının tərkibində olan iqtisadi təsnifat üzrə hesablar planı hazırlanmışdır və bu hesablar planının istifadəsilə Maliyyə Nazirliyi (Dövlət Xəzinədarlıq Agentliyi) maliyyə hesabatları hazırlayırlar. Azərbaycanda bütün təsnifatları (funksional, inzibati, iqtisadi) özünə daxil edən vahid hesablar planının hazırlanması ilə büdcə üzrə vahid maliyyə vəziyyəti haqqında hesabatı hazırlanmalıdır ki, bu hesabatda onsuzda büdcə hesabatının tərkibindəki əsas informasiyalar (gəlirlər, xərclər, büdcə kəsirinin maliyyələşmə mənbələri, dövlət borcları və s. haqqında informasiyaları) öz əksini tapacaqdır.

Qeyd etdiyimiz kimi Azərbaycanda yaradılmış avtomatlaşdırılmış XİİS (Xəzinədarlıq üzrə İnformasiya İdarəetmə sistemi) vahid büdcə təsnifatının ən vacib hissəsi olan iqtisadi və funksional təsnifatı tamamilə əhatə edir [2]. XİİS-də iqtisadi təsnifat üzrə birinci sırada gəlirlər, ikinci sırada xərclər, üçüncü sırada qeyri-maliyyə aktivləri, maliyyə aktivləri, öhdəliklər dayanır. Bir faktı qeyd edək ki, Azərbaycanda istifadə edilən funksional təsnifat DMS-in tələblərinə tam şəkildə uyğunlaşdırılmamışdır [3]. Belə ki, funksional təsnifat çərçivəsində xərclərlə bağlı olan BVF-nin Dövlət Maliyyə Statistikası Təlimatında "əsas bölmələrə aid edilməyən xidmətlər" bölməsi verilmir. Bu onunla izah edilir ki, funksional təsnifat tamamilə dövlətin funksiyalarına görə xərclərin qruplaşdırılmasını özündə ehtiva edir. Dövlətin "digər" xərclərlə bağlı funksiyası mövcud ola bilməz ki, fikrimizcə, bu bölmə funksional təsnifatın daxilində ayrıca bölmə kimi istifadə edilməməli və çıxarılmalıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarı ilə yeni təsdiq edilmiş vahid büdcə təsnifatının tərkibində yer almış funksional təsnifatın daxilində yenidən "əsas bölmələrə aid edilməyən xidmətlər" bölməsi və Ehtiyat fondları, Məqsədli büdcə fondları, Valyuta konvertasiyası, Əsas bölmələrə aid edilməyən

tədbirlər üzrə digər fəaliyyət köməkçi bölmələri yaradılmışdır ki, bu yanaşma uğurlu yanaşma hesab edilməməlidir.

XİİS-də iqtisadi təsnifat çərçivəsində aktivlərin xalis dəyərinin artmasına gətirib çıxaran əməliyyatlar büdcə gəlirləri kimi təsnifləşdirilmişdir. Bura vergilər, sosial ayırmalar, qrantlar, digər gəlirlər daxildir. Aktivlərin xalis dəyərinin azalmasına gətirib çıxaran bütün əməliyyatlar büdcə xərcləri kimi təsnifləşdirilmişdir. Bura əməyin ödənişi, malların (işlərin və xidmətlərin) satın alınması, köhnəlmə, faiz üzrə ödənişlər, subsidiyalar və cari transferlər, qrantlar və digər ödənişlər, təqaüdlər və sosial müavinətlər, digər xərclər daxildir.

XİİS-də nəzərə çarpan maraqlı məqamlardan biri odur ki, qeyri-maliyyə aktivlərinin satın alınması, maliyyə aktivləri ilə əməliyyatlar, öhdəliklər üzrə maliyyə əməliyyatları büdcə xərcləri kimi tanınmır və aktivlərin xalis dəyərinə onların heç bir təsiri yoxdur [4]. XİİS-də bu yanaşmanın olması doğru hal deyil və bu halın yaranmasının əsas səbəblərindən biri xəzinədarlığın büdcənin icrasında modifikasiya edilmiş kassa metodundan istifadə etməsi hesab edilə bilər. Bu uçot metodunun spesifikliyi və XİİS-də istifadə edilən hesablar planının hərtərəfli şəkildə təşkil edilməməsi imkan vermir ki qeyri-maliyyə aktivlərinin alınması üzrə çəkilən xərclər uçot sisteminə daxil edilsin. Lakin inkişaf etmiş bütün ölkələrdə maliyyə vəziyyəti ilə bağlı hesabatların tərkibində qeyri-maliyyə aktivlərinin alınmasına çəkilən xərclər hökumətin xalis aktivlərinin dəyərinə təsir edən amil kimi qeydə alınır. Azərbaycanda XİİS-də hesablar planının təkmilləşdirilməsi və büdcənin icrasında ən azı modifikasiya edilmiş hesablama metodu tətbiq edilərsə, qeyri-maliyyə aktivləri, maliyyə aktivləri, öhdəliklər üzrə bağlı olan bütün əməliyyatlar büdcənin icrasının vahid maliyyə hesabatının tərkibinə daxil ediləcəkdir ki, bu da hökumət sektorunda daha şəffaf və ətraflı informasiyanın əldə olunmasına şərait yaradacaqdır.

Ehtiyatların və ya pul vəsaitlərinin dəyişilməsinə təsir edən əməliyyatlar, mühasibat müxabirləşməsi formasında Baş Kitabın hesablarında öz əksini tapır. Bu hesablara gəlir hesabları, xərc hesabları, öhdəlik və aktivlərin həcm və dəyərinin dəyişilməsini əks etdirən hesablar, balans hesabları (bu hesablara maliyyə aktiv və öhdəliklərinin, həmçinin qeyri-maliyyə aktivlərinin uçotu üzrə hesablar aid edilir) daxildir. Bu hesablar planı iqtisadi təsnifatı tamamilə əhatə edir. Adətən qeyd edildiyi kimi beynəlxalq təcrübədə hesablar planı əsasən iqtisadi təsnifat əsasında yaradılır ki, bu da iqtisadi təsnifatın büdcə təsnifatında ən vacib təsnifatlardan biri olduğunu göstərir. Aşağıdakı cədvəl vasitəsilə Azərbaycanda XİİS-də Baş kitabın hesablar planının ümumiləşdirilmiş formasına nəzər yetirək [2] (cədvəl 1.) :

Cədvəl 1.

XİİS-də Baş kitabın hesablar planı

Baş kitabın hesabları		
1.	Gəlir hesabları	Nəticə hesabları
2.	Xərc hesabları	Nəticə hesabları
3.	Dəyərin dəyişilməsi hesabları	Nəticə hesabları
4.	Həcmin dəyişilməsi hesabları	Nəticə hesabları
5.	Balans hesabları	Balans hesabları

Mənbə: Maliyyə Nazirliyinin 13 fevral 2013-cü il tarixli "İ-25"№-li Əmri ilə təsdiqlənən "XİİS-in tənzimlənməsi üzrə metodiki sənəd" əsasında tərtib edilmişdir.

Gəlir, xərc, dəyərin dəyişilməsi, həcmin dəyişilməsi hesabları nəticə hesablarına aiddir. Növbəti maliyyə ilinə keçdikdə bütün hesablar bağlanır və onların qalığı, son nəticə hesabı olan aktivlərin xalis dəyəri hesabında əks olunur. Dəyərin dəyişilməsi hesabları və həcmin dəyişilməsi

hesabları ilin sonunda aktivlərin xalis dəyəri hesabı ilə bağlanan nəticə hesablarına aid edilir. Dəyər və həcmin dəyişilməsi hesabları konkret aktiv və öhdəliklərin qiymətləndirilməsi üçün istifadə edilir. Balans hesabları "yığım hesabları" olub, növbəti maliyyə ilinə keçdikdə həmin hesabların son qalığı özlərinə aid edilir. Balans hesablarına qeyri-maliyyə aktivlərinin uçotu hesabı, maliyyə aktivləri, maliyyə öhdəlikləri, nəticə hesablarının bağlanması hesabı, aktivlərin xalis dəyəri hesabı daxildir. Bu hesablarda ilk və son qalıqlar, həmçinin, bütün əməliyyatlar üzrə dövriyyələr öz əksini tapır.

Xəzinədarlıq iki əsas iqtisadi funksiyanı həyata keçirir: büdcə təşkilatları tərəfindən qəbul olunmuş mal, iş və xidmətlərin dəyərinin ödənilməsi və transfer ödənişlər vasitəsilə gəlir və mülkiyyətin yenidən bölgüsü. Bu funksiya iqtisadi və funksional təsnifatdan istifadə edilərək xərc əməliyyatları vasitəsilə reallaşır və icra edilir.

XİİS-də yaradılmış hesablar planı faktiki olaraq ictimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartları (İSBMUS) və hökumətlər üzrə statistik hesabatlar sisteminin (Dövlət Maliyyə Statistikası (DMS)) tələblərinə tamamilə uyğundur və onların əsasında yaradılmışdır. Lakin hazırda Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən tərtib edilmiş DMS-in (DMS-2014) dövlət sektoru üçün yeni metodologiyanın yaradılması ilə ölkələr daha təkmil hesablar planını tərtib etməyə başladılar.

Fikrimizcə, Azərbaycanda XİİS-də istifadə edilən hesablar planı təkmilləşdirilməli, büdcənin icrasında isə modifikasiya edilmiş hesablama metodundan istifadəyə keçid təmin edilməlidir. Bu baxımdan, beynəlxalq təcrübə üzrə Xorvatiyada istifadə edilən hesablar planının Azərbaycanda tətbiqi büdcənin icrası üzrə hesabatlılığın zamanı keyfiyyətliliyin əldə olunmasına yol açа bilər [1]. Azərbaycanda XİİS-də xəzinədarlıq tərəfindən büdcənin icrasında uçot əməliyyatları modifikasiya edilmiş kassa metodu ilə aparılır, lakin büdcə hesabatlılığı kassa metodu əsasında hazırlanır və təqdim edilir. Bu cür uçot metodlarının büdcə uçotu çərçivəsində istifadəsi dövlət büdcəsinin icrası barədə hərtərəfli vəziyyəti əks etdirmir, ona görə əhatəli hesabatlılığın təmin edilməsi üçün əməliyyatların uçotunda ən azından modifikasiya edilmiş hesablama metodundan istifadə təmin edilməlidir. Xorvatiyada büdcə uçotu üzrə iqtisadi təsnifat üzrə istifadə edilən hesablar planı olduqca rahatdır və uçot çərçivəsində modifikasiya edilmiş hesablama metodundan istifadə edilir. (cədvəl 2.):

Cədvəl 2.

Xorvatiyada büdcə uçotu çərçivəsində iqtisadi təsnifat üzrə istifadə edilən hesablar planı

Baş kitabın hesabları		
0.	Qeyri-maliyyə aktivləri	Pul və qeyri-pul əməliyyatları
1.	Maliyyə aktivləri	Pul və qeyri-pul əməliyyatları
2.	Öhdəliklər	Pul və qeyri-pul əməliyyatları
3.	Əməliyyat xərcləri	Pul və qeyri-pul əməliyyatları
4.	*Qeyri-maliyyə aktivlərinin əldə ediməsi üzrə xərclər*	*Pul əməliyyatları (yalnız kassa uçotu)*
5.	*Maliyyə aktivlərinin əldə edilməsi üzrə xərclər və borcların (kredit ödənişləri) ödənilməsi*	*Pul əməliyyatları (yalnız kassa uçotu)*
6.	Əməliyyat gəlirləri	Pul və qeyri-pul əməliyyatları
7.	*Qeyri-maliyyə aktivlərinin satışından daxilolmalar*	*Pul əməliyyatları (yalnız kassa uçotu)*
8.	*Maliyyə aktivləri və borclar üzrə daxilolmalar*	*Pul əməliyyatları (yalnız kassa uçotu)*
9.	Xalis aktivlər	Pul və qeyri-pul əməliyyatları

Mənbə: Оптимизация структуры плана счетов / Передовой опыт стран-членов

Казначейского Сообщества, PEMPAL (Public Expenditure Management Peer Assisted Learning), 2019 əsasında tərtib edilmişdir.

İnkişaf etmiş xəzinədarlıq sistemlərində adətən büdcənin icrası üzrə "hesablar planı" elə hazırlanır ki, büdcə təsnifatı (əsasən iqtisadi təsnifat) onun əsas komponenti hesab edilir. Maliyyə hesabatlılığının təmin edilməsi fonunda hesablar planının istifadəsilə ölkələr büdcənin icrası üzrə konsolidə edilmiş (birləşdirilmiş) hesabatları asanlıqla hazırlaya bilirlər. Xarici ölkələrin təcrübəsi göstərir ki, büdcə uçotu çərçivəsində modifikasiya edilmiş hesablama metodundan istifadə etmək daha məqsədəuyğundur. Belə ki, büdcə uçotunda birbaşa olaraq hesablama metodunun tətbiqi uzun müddət tələb edir və bu metodun tətbiqini çətinləşdirən əsas səbəblərdən biri büdcə daxilolmaları çərçivəsində real pul (nağd pul) vəsaitlərinin dəqiq daxilolma dövrünün (gün, ay) müəyyənləşdirilməsi ilə bağlıdır. Xorvatiyada istifadə edilən hesablar planının strukturu 10 bölmədən ibarətdir və aktivlər və öhdəliklər üzrə kassa metodu ilə hazırlanan büdcə hesabatları hesablama metodu əsasında əldə edilən büdcə məlumatlarından ayrıca göstərilir. Lakin büdcənin icrası üzrə balans hesabatının tərtib edilməsi üçün “0”, “1” və “2” bölməsindən istifadə edilir. Azərbaycanda xəzinədarlıq büdcə üzrə zəruri xərclərin aparılmasını təşkil etmək üçün gəlirlərin uçotunu kassa metodu əsasında aparmaqla pul vəsaitləri haqqında dolğun informasiyaya sahib olur. Lakin Azərbaycanda büdcə xərclərinin icrası hesablama metodu əsasında aparılarsa, onda il ərzində məcmu hesablanmış xərclərin ümumi vəziyyəti haqqında informasiya əldə etmək mümkün olacaq və eyni zamanda kreditor borclarını idarə etmək tamamilə asanlaşacaqdır. Fikrimizcə, büdcənin gəlirlər üzrə icrasını kassa metodu ilə aparmağa imkan verən və büdcənin xərclər üzrə icrasında hesablama metodunun tətbiqinə yol açan modifikasiya edilmiş hesablama uçot metodunun istifadəsilə xəzinədarlıq Azərbaycanda büdcənin icrası üzrə daha təkmil büdcə hesabatları hazırlaya bilər.

Göründüyü kimi, Azərbaycanda xəzinədarlıq nəzarəti təkmilləşdirilmiş avtomatlaşdırma vasitəsilə izlənir. XİİS Azərbaycan Respublikasının dövlət büdcəsinin sistematik icrasını, kassa və dövlət xərclərinin idarə edilməsini tamamilə asanlaşdırmışdır, lakin dövlət sektoru üzrə hesabatlılığın daha da hərtərəfli təşkili üçün müvafiq islahatların aparılması olduqca zəruridir.

Ədəbiyyat

1. Оптимизация структуры плана счетов / Передовой опыт стран - членов Казначейского Сообщества, PEMPAL (Public Expenditure Management Peer Assisted Learning), - 2019, 36 с.

2. Azərbaycan Respublikasında Xəzinədarlığın İnformasiya İdarəetmə Sisteminə (XİİS) keçid dövrü üçün metodik göstərişlər // Azərbaycan Respublikası Maliyyə Nazirliyinin İ-25№-li Əmri / 13 fevral 2013-cü il təsdiq edilmişdir. Bakı, 2013, 53 s.

3. Vəliyev Z. Büdcə təsnifatı: beynəlxalq təcrübə və Azərbaycan reallığı. Azərbaycan Respublikası Hesablama Palatasının rüblük rəsmi məlumat bülleten. Dövlət Auditi, №1, 2017.

4. https://www.pempal.org/ru/events/внутренний-контроль-и-роль-современного-казначейства

Резюме

Бабазаде И.В.

Направления по улучшению плана счетов в казначейской системе Азербайджана

Современная статистика государственных финансов (СГФ), которая используется на международном уровне, является наиболее важной методологической основой с точки

зрения повышения качества бухгалтерского учета и отчетности в государственном секторе. При использовании этой системы правительства получают прямую и исчерпывающую информацию обо всех финансовых и нефинансовых операциях государственного сектора. Обоснованы другие важные шаги, которые следует предпринять во время использования СГФ в Азербайджане и сделаны конкретные предложения.

Ключевые слова: *казначейская система, модифицированный метод начисления, бюджетная классификация, план счетов, нефинансовые активы.*

Summary

Babazadeh I.V.

Directions For Improvement of Chart of Accounts in Azerbaijan Treasury System

Governments receive direct and comprehensive information about all the financial and non-financial operations of the public sector while using Government Financial Statistics (GFS), which is used internationally as the most important methodological basis in terms of improving the quality of accounting and reporting in the public sector. Other important issues that should be taken into account while using GFS in Azerbaijan are justified and concrete proposals have been made.

Key words: *treasury system, modified accrual basis of , budget classification, chart of accounts (CoA), non-financial assets.*

ƏMLAKIN ƏDALƏTLİ DƏYƏR ÜZRƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Əhmədzadə Mehman İmamverdi oğlu
Sumqayıt Dövlət Universiteti
loqman.2005@mail.ru

Xülasə: *MHBS-nın əmlakın maliyyə hesabatında ədalətli dəyər üzrə qiymətləndirilməsinə dair metodoloji prinsiplərinə uyğun olaraq əmlakın təsnifatı açıqlanmış "Ədalətli dəyər" anlayışının məzmunu şərh edilmiş, elmi mənbələrdə ədalətli dəyərin verilmiş tərifi təkmilləşdirilmiş və Beynəlxalq Standartın ədalətli dəyər üzrə qiymətləndirmə prosedurunun tətbi sahəsinə daxil edilən aktivlərin öhdəliklərin siyahısı əsaslandırılmışdır. Əmlakın qiymətləndirilməsində xərc, gəlir və müqayisə yanaşmalarının tətbiqində Beynəlxalq Standartın universal rolu açıqlanmışdır. Müasir mərhələdə əmlakın ədalətli dəyər üzrə qiymətləndiriməsi prosedurlarını əks etdirən təlimat xarakterli normativ sənədin hazırlanmasının zəruriliyi əsaslandırılmışdır.*

Açar sözlər: *əmlakın qiymətləndirilməsi, beynəlxalq standar, ədalətli dəyər, xərc yanaması, gəlir yanaşması, müqayisə yanaşması.*

Dövlətin, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin fəaliyyətinin təmin edilməsinin zəruri şərtlərindən biri onların sərəncamında olan maddi, əmək və maliyyə resurslarından səmərəli istifadə edilməsidir. Subyektin mülkiyyətində olan və onun fəaliyyətinin həyata keçirilməsini təmin edən resurslar (aktivlər) mülkiyyətçinin əmlakını təşkil edir.

Əmlakın strukturunu üç mövqedən fərqləndirmək mümkündür:

1. Mülkiyyətçinin statusuna görə: dövlət əmlakı, bələdiyyə əmlakı, hüquqi şəxslərin (müəssisələrin və təşkilatların) əmlakı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) əmlakı, ev təsərüffatlarının (vətəndaşların) əmlakı;

2. Funksional təyinatına görə: istehsal vasitələri (əsas vasitələr), yaşayış vasitələri (ev, ərzaq, paltar və s.);

3. Qiymətləndirmə mövqeyindən: daşınmaz əmlak, daşınar əmlak.

Dövlətin və bələdiyyənin mövqelərindən əmlakın qiymətləndiriməsi ölkənin sosial- iqtisadi inkişafına dair dövlət və bələdiyyə proqramları çərçivəsində həyata keçirilən tədbirlərin səmərəliliyini təmin etmək məqsədi daşıyır. Dövlət büdcəsindən ayrılan investisiyalar hesabına yeni istehsal və qeyri-istehsal təyinatlı obyektlər yaradılır və bu obyektlər üzrə əmlakın qiymətləndirilməsi və uçotunun aparılması zəruridir. Fəaliyyət göstərən müəssisələrin, idaər və təşkilatların habelə ev təsərüffatlarının mülki dövriyyədə olan əmlakın yaradılması, istifadəsi və alqı- satqılə bağlı məsələlərin həllində ayrı-ayrı əmlak obyektlərinin qiymətləndirilməsi zəruriliyi ortaya qoyulur.

İqtisadi subyektlərin əmlakının qiymətləndirilməsinin praktiki məsələləri maliyyə hesabatlarının konseptual əsasları ilə tənzimlənən maliyyə hesabatlanrında həll edilir. Müəssisələrdə maliyyə hesabatının tərtibi zamanı aktivlər, öhdəliklər, xüsusi kapital, borc kapitalı, gəlirlər və xərclər MHBSŞ-nın Çərçivə Sənədinin normaları ilə təsbit edilmiş üsullarla qiymətləndirilir. Qiymətləndirmə prosedurlarının yerinə yetirilməsi əmlak obyektələrinin dəyərinin maliyyə hesabatlarında düzgün əks etdirilməsi məqsədi güdür. Fiziki şəxslərin və ev təsərrüfatlarının sərəncamında olan əmlakın əldə edilməsi, saxlanılması, istifadəsi və satışı ilə əlaqəli əməliyyatın rəsmiləşdirilməsi qiymətləndirmə prosedurlarının 1№-li Beynəlxalq Standartı əsas vəsaitlərin maliyyə hesabatlarında ədalətli dəyərlə qiymətləndirilməsini ehtiva edir. (2. S 272) Beynəlxalq Standartlara uyğun olaraq müəssisələrində istehsalat ehtiyatları-maya dəyəri, bazar qiymətləi kağızları bazar dəyəri, sosial sığorta öhdələliklərdiskontlaşdırılmış dəyər üzrə qiymətləndirilir. Vasitəçilik xidmətləri ilə məşğul olan təşkilatlar əmlakın qiymətləndirilməsi üçün cari dəyər göstəricisindən istifadə edirlər.

Bazar iqtisadiyyatı şəraitində qiymətlərin səviyyəsi bazar tələbi və tklifi nisbətləri nəzərə alınmaqla müəyyən edildiyindən, əmlakın maliyyə hesabatlarında tarixi dəyər (ilkin qiymət) prinsipi əsasında qiymətləndirilməsi dəyişilən qiymətlərin qeyri-monetar aktivlərə təsirini əks etdirmir (4, s57-58). Ona görə də, əmlakın maliyyə hesabatlarında ədalətli dəyər əsasında qiymətləndirilməsi zəruriliyi meydana gəlir. Qiymətləndirməsin bu istiqamətinin əsaslandırılmasının başlıca səbəbi kimi əmtəələrin (işlərin, xidmətlərin) bazar qiymətlərinin daimi olaraq dəyişilməsi, inflyasiyanın səviyyəsinin yüksəlməsi və milli pulun alıcılıq qabiliyyıtinin azalması göstərilə bilər. Pul vahidinin inflyasiyanın təzyiqi altında ucuzlaşması monetar və qeyri-monetar aktivlərin yenidən qiymətləndirilməsi ilə nəticələnir. Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyinin normaları aktivlərin ilkin dəyərlə qiymətləndirilməsini nəzərdə tutmaqla, geniş təkrar istehsalın maliyyələşdirilməsini nəzərdə tutmaqla, geniş təkrar istehsalın maliyyələşdirilməsi probleminin həllində çətinliklərin yaranmasına səbəb olur (1, s.188). Yenidən qiymətləndirmə prosedurları müəssisələrin balans hesabatlarında əks etdirilən uzunmüddətli öhdəlikləri də əhatə etməlidir. Hesablaşmarda tətbiq edilən pul vahidinin ucuzlaşdığı bir şəraitdə öhdəliklərin ilkin dəyərlə qiymətləndirilərək yerinə yetirilməsi əks tərəf (benefisiar) üçün inflyasion itkinin miqyasını genişləndirir.

Fiziki şəxslərə məxsus olan əmlakın qiymətləndirilməsi bazarda tələb və təklif nisbətlərinin dəyişilməsindən bilavasitə asılıdır. Eyni zamanda həmin əmlak satılarkən onun ilkin qiymətinə sonrakı təsir edən amillər nəzərə alınmalıdır.

Ədalətli dəyərin 13 saylı MHBS-da verilmiş tərifində mühasibat uçotunun məqsədləri üçün qiymətləndirmənin əsas obyektləri kimi götürülən aktivlərə və öhdəliklərə xüsusi diqqət yetirilir. Həmin standart aşağıda göstərilən aktiv və öhdəliklərin ədalətli dəyər üzrə qiymətləndirilməsini nəzərdə tutur:

1. Uçotda yenidən qiymətləndirilən dəyəq üzrə əks etdirilən əsas vəsaitlər.
2. İnvestisiyalı daşınmaz əmlak
3. Bioloji aktivlər
4. Satış üçün nəzərdə tutulmuş dövrüyyədənkənar aktivlər
5. Satış məqsədilə əldə edilən və ya saxlanılar maliyyə alətləri
6. İlkin tanlnmadan sonra ödəniş müddətinədək saxlanılar maliyyə investisiyaları.
7. Biznes birləşdirildikdə qeyri-maliyyə aktivləri və qeyri-maliyyə öhdəlikləri
8. Ayrıca götürülmüş aktiv, məsələn divident ödənişləri və s.

Göstərilən aktivlərin ədalətli dəyəri müşahidə edilən bazar əməliyyatlarının və ya bazar informasiyasının əsasında təyin edilə bilər. Ədalətli qiymət təyin edilərkən aktiv və öhdəliklərin texniki-iqtisadi parametrləri əsas götürülür. Beynəlxalq standartlara uyğun olaraq ədalətli dəyəri mütəşəkkil bazarın iştirakçıları arasında hər hansı tarixə aktivlərin satılması və ya öhdəliklərin qəbul edilməsi və yerinə yetirilməsi üzrə sövdələşmə aparılarkən təyin edilə bilən qiymət kimi müəyyənləşdirmək mümkündür.

Tərifdən göründüyü kimi, ədalətli dəyərin qiymətləndirilməsi bazar iştirakçıları arasında sövdələşməsinin predmetini təşkil edən aktivlərlə və öhdəliklərlə əlaqələndirilir. Eyni zamanda sövdələşmə əqdi bağlanarkən aktivlərin və öhdəliklərin texniki-iqtisadi xarakteristikaları bazar iştirakçıları tərəfindən nəzərə alınmalıdır. Müqayisə üçün qeyd edək ki, mühasibat uçotu üzrə işıq üzü görmüş tətqiqat işlərində verilmiş təriflərdə ədalətli dəyərin bütün əlamətləri tam əks olunmur. Məsələn, R. Fətullayevin fikrincə ədalətli dəyər elə məbləğdir ki, yaxşı məlumatlı, sövdələşmə aparmaq istəyində olan və bir-birindən asılı olmayan tərəflər arasında sövdələşmə aparılarkən aktivləri həmin məbləğə mübadilər etmək mümkdür (3, s. 343). Burada bazar iştirakçılarının xarakteristikalarını "mütəşəkkil bazar" sözləri ilə əvəz etmək kifayət edir. Digər tərəfdən 3№-lo MHBS-in (Bizneslərin Birləşdirilməsi) qeyri-maliyyə öhdəliklərinin ədalətli dəyər üzrə qiymətləndirilməsinə dair müddəasının verilmiş tərifdə inkar olunduğu diqqətdən yayınmır.

Əmlakın ədalətli dəyər üzrə qiymətləndirilərkən müxtəlik yanaşmalar tətbiq edilir.

1. Əmlakın qiymətləndirilməsində xərc yanaşması təsərrüfat subyektlərinin sərəncamında olan əmlak obyektlərinin tam bərpası üçün tələb olunun pul vəsaitlərinin məbləğinin hesablanmasını təmin edən qiymətləndirmə metodlarının tətbiqini nəzərdə tutur. Xərc yanaşması çərçivəsində əmlakın ədalətli dəyərinin qiymətləndirilməsini üçün yığılmış amortizasiya nəzərə alınmaqla əmlak obyektinin tam bərpa dəyərinin hesablanması metodundan istifadə edilir. Istismarda olan texniki qurğu və avadanlıqların ədalətli dəyəri üzrə qiymətləndirmə obyektin fiziki və mənəvi köhnəlməsi, eləcə də iqtisadi cəhətdən qiymətdən düşməsi nəzərə alınmaqla onun geniş təkrar istehsalının neçəyə başa gəlməsini müəyyənləşdirməyə imkan verir. Yığılmış amortizasiya nəzərə alınmaqla əmlakın qiymətləndirilməsi obyektin ilkin və qalıq dəyərinin yaranması prosesinə nəzarət edilməsini təmin edir.

2. Əmlakın qiymətləndirilməsinə gəlir yanaşması aktivlərin istifadəsi nəticəsində gələcəkdə yaranan pul vəsaitlərinin və ya gəlirlərin qiymətləndirmə tarixinə cari dəyərini hesablamağa imkan

verir. Gəlir yanaşmasının əsasını gələcək dövrdə yarana bilər pul axınlarının diskotlaşdırılması metodundan istifadə təşkil edir. Gəlir yanaşmasının üstün cəhəti ondan ibarətdir ki, onun köməyi ilə bu və ya digər əmlak növünə maliyyə qiyuluşlarının məqsədəuyğunlu qiymətləndirilir, gələcəkdə hasil ediləcək pul gəlirləri indiki zaman mövqeyindən dəyərləndirilir. İnvestor və ya müəssisənin bütün əmlakının alıcısı satınalma əməliyyatına münasibətdə üç əsas müddəanı rəhbər tutur: 1) pulun inflyasiyanın təzyiqi altında qiymətdən düşməsi; 2) müəssisənin istifadə etdiyi xammalın, materialların və əsas vəsaitlərin qiymətlərinin dəyişilməsi tempinin inflyasiyanın tempindən fərqlənməsi; 3) gəlirin fasiləsiz surətdə hesablanması və uçotunun tənzimlənməsi.

3. Əmlakın qiymətləndirilməsinə müqayisə yanaşması eynicinsli və ya müqayisə olunan aktivlərlə və ya aktivlər qrupu ilə sövdələşmələrin aparılması nəticəsində əmələ gələn qiymətlərin istifadəsini nəzərdə tutur. Müqayisə yanaşması prinsipi əsasında əmlakın qiymətləndirilməsinin zəruri şərti əmlakla bağlı bazar sövdələşmələri haqqında tam müşahidə olunan ilkin məlumatlarıdan istifadə edilməsidir. Ümumən qəbul edilmişdir ki, əmlakın müqayisə yanaşması prinsipi əsasında qiymətləndirilməsi üçün əmtəə birjalarında formalaşan qiymətlərdən müvafiq əmlak obyektlərinin qiymətləndirilməsi üçün maksimum dərəcədə istifadə edilməlidir.

Yuxarıda istifadə olunanlardan belə qənaətə gəlmək olar ki, iqtisadi subyektlərin sərəncamında olan əmlakın ədalətli dəyər üzrə qiymətləndirilməsi onunla bağlı olan alqı-satqı sövdələşmələrinin səmərəliliyini yüksəldir, bazar möhtəkirliyinin qiyməti təsirini azaldır, əmlak əldə edildikdən sonra onun tanınması, uçotu və istifadəsi üzrə fəaliyyətin tənzimlənməsini təmin edi. Müasir mərhələdə ədalətli dəyər üzrə qiymətləndirmə sahəsində mühasiblərin, auditorların və ekspertlərin qarşısında duran başlıca vəzifə əmlakın ədalətli dəyərinin təyin edilməsini nəzərdə tutan Maliyyə Hesabatlarının Beynəlxalq Standarlarının tətbiqi sferasını mənimsəmək və əmlakın ədalətli dəyər üzrə qiymətləndirilməsinə dair təlimatın tərtib edilməsinə kömək etməkdən ibarət olmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2019, 394 s.

2. Mühasibat uçotunun əsasları (Beynəlxalq Standartların bazasında). Bakı: ADİU nəşriyyatı, 2010, 698 s.

3. Fətullayev R. Beynəlxalq mühasibatlığa Giriş (İFRS əsasında). Bakı: Nurlar nəşriyyatı, 2017, 360 s.

4. Управление ценами: Уцебник / Под ред. С.В.Кариовой м. ИНФРА-М, 2016, 236 с.

Резюме

Ахмедзаде М.И.

Некоторые вопросы оценки имущества по справедливой стоимости

Раскрыты классификация имущества в соответствии с методологическими положениями МСФО об оценке имущества по справедливой стоимости, сущность понятия «справедливая стоимость», обоснована классификация активов и обязательств, относящихся к сфере применения оценочной процедуры, универсальная роль международного стандарта в применении затратного, доходного, сравнительного подходов при оценки по сраведеивой стоимости. Обоснована необходимость разработки нормативно – инструктивного документа, отражающего всю систему процедур оценки по сраведливой стоимости на современном этапе.

Ключевые слова: *оценка имущества, международный стандарт, справедливая стоимость, затратный подход, доходный подход, сравнительный подход.*

Summary

Ahmadzade M.I.

Some Issues of Valuation of Property at Fair Value

Have been revealed classification of property in accordance with IFRS valuation of property at fair value, fair value concept, is justified classification of assets and liabilities related to the scope of the valuation procedure, reveals the universal role of the international standard in the application of costly, profitable, comparative approaches when measured at fair value. The necessity of developing a regulatory and guidance document is substantiated.

Key words: *property valuation, international standard, fair value, cost approach , income approach, comparative approach*

KEYFİYYƏTLİ İDARƏETMƏ SİSTEMİNİN DAXİLİ AUDİTİNİN MƏHSULDARLIQ SƏVİYYƏSİNİ MÜƏYYƏNLƏŞDİRMƏ METODU

Əliyev Daməd Əhməd oğlu

"Neftqazavtomat EİM" MMC

damed@mail.ru

Xülasə: *"İSO 19011:2011. Guidelines for auditing management systems" standartının bütün tələblərini tamamilə əhatə edən səkkiz istiqamət üzrə keyfiyyəti idarəetmə sisteminin daxili auditinin məhsuldarlıq səviyyəsini müəyyənləşdirmə metodu təklif olunmuşdur.*

Açar sözlər: *keyfiyyəti idarəetmə sistemi, daxili audit , məhsuldarlıq səviyyəsi.*

Giriş. Keyfiyyəti İdarəetmə Sisteminin daxili auditinin [1] və [2] beynəlxalq standartlarının tələblərinə tam müvafiq surətdə aparılması daxili auditin məhsuldar həyata keçirilməsi deməkdir. Lakin təcrübələr göstərir ki, bəzən müxtəlif səbəblərdən daxili audit tələb olunan səviyyədə aparılmır, müəssisənin rəhbəri və keyfiyyət üzrə menecer isə auditin nə dərəcədə məhsuldar aparılıb-aparılmadığını dəyərləndirə bilmirlər. Ona görə də həyata keçirilmiş daxili auditin məhsuldarlıq səviyyəsini müəyyənləşdirməyə imkan verən metodun işlənilməsi auditorlar, müəssisə rəhbərləri və keyfiyyət üzrə menecerlər üçün mühüm əhəmiyyət kəsb edir.

Məsələnin qoyuluşu. Müəssisələrdə Keyfiyyəti İdarəetmə Sisteminin fəaliyyətində proses yanaşmasının tətbiq olunduğunu nəzərdə tutaraq [1] standartının tələblərini əhatə edən fəaliyyət istiqamətlərini sistemləşdirək və həmin istiqamətlər üzrə fəaliyyətlərin faktiki nəticələrini əsas götürməklə Keyfiyyəti İdarəetmə Sisteminin daxili auditinin məhsuldarlıq səviyyəsini müəyyənləşdirməyə imkan verən qiymətləndirmə metodunu göstərək.

Məsələnin həlli. Keyfiyyəti İdarəetmə Sisteminin daxili auditinin aparılması üçün [1]-də göstərilən fəaliyyət istiqamətlərini cədvəl 1-də qeyd edildiyi kimi qruplaşdıraq.

Qoyulmuş məsələni aşağıdakı ardıcıllıqla həll edirik.

1. Məhsuldarlığın ən yüksək səviyyəsini 5 qəbul edirik.

2. Cədvəl 1-ə əsasən auditin məhsuldarlığının qiymətləndirilməsi 8 istiqamət $(j = 1 \div 8)$ üzrə həyata keçirilməli olduğundan, oxlarının uzunluğu 5 olan 8-oxlu çətirvari diaqram çəkirik (şəkil 1).

Cədvəl 1.

Daxili auditin məhsuldarlıq səviyyəsinin qiymətləndirilmə istiqamətləri.

№	İstiqamətin şərti işarəsi	İstiqamətin məzmunu	[1] -də istiqamətlə bağlı bəndin nömrəsi
1	İst-1	Auditin həyata keçirilməsində audit prinsiplərinin rəhbər tutulması	4.
2	İst-2	Audit proqramının işlənməsi və tətbiqi	5.2, 5.3, 5.4
3	İst-3	Audit proqramının monitorinqi, təhlili və yaxşılaşdırılması	5.5, 5.6
4	İst-4	Auditin keçirilməsinin təşkili və yerlərdə həyata keçirilməsinə hazırlıq	6.2, 6.3
5	İst-5	Auditin həyata keçirilməsi və audit üzrə hesabatın hazırlanması	6.4 ,6.5
6	İst-6	Auditin başa çatdırılması, auditin nəticələrinə görə fəaliyyət	6.6, 6.7
7	İst-7	Auditorun sərişt əliliyinin və qiymətləndirilmə kriteriyalarının müəyyənləşdirilməsi	7.2, 7.3
8	İst-8	Auditorun müvafiq qiymətləndirilmə metodunun seçilməsi, auditorun qiymətləndirilməsi, sərişt əliliyinin təmin edilməsi və artırılması	7.4, 7.5, 7.6



Şəkil 1. Daxili auditin məhsuldarlıq səviyyəsinə müvafiq çətirvari diaqram.

3. Diaqramın tam sahəsini xaricinə çəkilmiş çevrəsinin radiusu 5 olan düzgün 8-bucaqlının sahəsi kimi hesablayırıq: $S = 50\sqrt{2}$.

4. Bütün istiqamətlər üzrə müəssisənin fəaliyyətinin faktiki nəticələrini (b_j) cədvəl 2-də göstərilmiş qaydaları rəhbər tutmaqla qiymətləndiririk.

5. b_j qiymətlərini diaqramın müvafiq çətir oxları üzərində rəngli nöqtələrlə qeyd edir, sonra həmin nöqtələri ardıcıl birləşdirib rəngli qapalı sınıq xətt çəkir (məsələn, şəkil1-dəki kimi) və qapalı rəngli sınıq xəttlə məhdudlaşmış diaqram hissəsinin sahəsini (S_d) hesablayırıq.

6. Diaqramda xaricinə çəkilmiş çevrənin radiusu 1 olan düzgün 8-bucaqlını 1-ci və 2-ci məhsuldarlıq səviyyələrinin sərhəddi, xaricinə çəkilmiş çevrənin radiusu 2 olan düzgün 8-bucaqlını 2-ci və 3-cü məhsuldarlıq səviyyələrinin sərhəddi və s. qəbul edib (1) düsturları ilə məhsuldarlıq səviyyələrinin $(i = 1 \div 5)$ sərhədlərinə müvafiq düzgün 8-bucaqlıların sahələrini (S_i) və məhsuldarlıq əmsallarını (f_i) hesablayıb cədvəl 3-də qeyd edirik.

Cədvəl 2.

Fəaliyyətlərin məhsuldarlıq səviyyələrinin qiymətləndirilmə qaydası.

İstiqamət üzrə fəaliyyət faktiki:	Fəaliyyətin məhsuldarlıq səviyyəsi
demək olar ki, planlaşdırılmır	1
yalnız planlaşdırılır	2
planlaşdırılır və həyata keçirilir	3
planlaşdırılır, həyata keçirilir, nəzarət edilir, nəticələr yoxlanılır	4
planlaşdırılır, həyata keçirilir, nəzarət edilir, nəticələr yoxlanılır, davamlı yaxşılaşdırma üzrə yetərli tədbirlər müəyyənləşdirilir və reallaşdırılır	5

$$S_i = 2\sqrt{2}i^2 \qquad f_i = \frac{S_i}{S} = 0{,}04i^2 \qquad (1)$$

Cədvəl 3.

Sahələrin və məhsuldarlıq əmsallarının yuxarı hədləri.

i	S_i	f_i
1	$2\sqrt{2}$	0,04
2	$8\sqrt{2}$	0,16
3	$18\sqrt{2}$	0,36
4	$32\sqrt{2}$	0,64
5	$50\sqrt{2}$	1

7) Daxili auditin məhsuldarlıq (f) əmsalını S_d -nin S-ə nisbəti kimi hesablayırıq.

8) Keyfiyyəti İdarəetmə Sisteminin daxili auditinin məhsuldarlıq səviyyəsinin onun məhsuldarlıq əmsalından xətti asılı olduğunu və cədvəl 3-dəki məlumatları nəzərə alıb, məhsuldarlıq səviyyəsinin $e(f)$ aşağıdakı kimi hesablanmalı olduğunu müəyyənləşdiririk:

$$e(f)=\begin{cases}\frac{1}{3}(25f+2) & 0{,}04\le f\le 0{,}16\\ 5f+1{,}2 & 0{,}16\le f\le 0{,}36\\ \frac{1}{7}(25f+12) & 0{,}36\le f\le 0{,}64\\ \frac{1}{9}(25f+20) & 0{,}64\le f\le 1\end{cases} \qquad (2)$$

9) f -in hesablanmış qiymətindən və (2) düsturundan istifadə edərək, daxili auditin məhsuldarlıq səviyyəsini (e) hesablayırıq.

10) Məhsuldarlıq səviyyəsinin qiymətinə və məhsuldarlıq diaqramına əsasən daxili auditin həm zəif (məsələn, şəkil 1-ə görə: auditorun səriştəliliyinin və qiymətləndirilmə kriteriyalarının müəyyənləşdirilməsi), həm də güçlü cəhətlərini (məsələn, şəkil 1-ə görə: auditin həyata keçirilməsində audit prinsiplərinin rəhbər tutulması; audit proqramının monitorinqi, təhlili və yaxşılaşdırılması; auditin başa çatdırılması, auditin nəticələrinə görə fəaliyyət) müəyyənləşdirir və daxili audit üzrə yekun hesabatda qeyd edirik.

11) Aparılmış daxili auditin zəif cəhətlərini doğuran səbəbləri və onların aradan qaldırılması üçün zəruri olan tədbirləri müəyyənləşdirir və daxili audit üzrə yekun hesabatda qeyd edirik.

Nəticə. Keyfiyyəti İdarəetmə Sisteminin daxili auditinin məhsuldarlıq səviyyəsini qiymətləndirmək üçün təklif edilmiş metodu bilən auditorlar və keyfiyyət üzrə menecerlər növbəti daxili auditi aparanda məhsuldarlığın aşağı olmasına zəmin yaradan xarakterik səhvlərə artıq yol verməyəcəklər. Beləliklə, daxili audit zamanı qarşıya qoyulmuş məqsədlərə daha yüksək səviyyədə nail olunacaq, daxili auditin məhsuldarlıq səviyyəsi yüksələcəkdir.

Ədəbiyyat

1. İSO 19011:2011 Guidelines for auditing management systems.
2. İSO 9001:2015. Quality management systems. Requirements.

Резюме

Алиев Д.А.

Метод определения уровня результативности внутреннего аудита системы управления качеством

Предложен метод определения результативности внутреннего аудита системы менеджмента по восьми направлениям, полностью охватывающие все требования стандарта "İSO 19011:2011 Guidelines for auditing management systems".

***Ключевые слова**: система менеджмента качества, внутренний аудит, уровень результативности.*

Summary

Aliyev D.A.

Method For Determining the Level of Effectiveness of Internal Audit of the Quality Management System

A method is proposed for determining the effectiveness of the internal audit of the quality management system in eight areas, fully covering all the requirements of the standard "İSO 19011:2011 Guidelines for auditing management systems".

***Key words**: quality management system, internal audit, level of effectiveness.*

KALKULYASİYALAŞDIRMA SİSTEMİNDƏ MƏNFƏƏT GÖSTƏRİCİLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ

Əliyeva Aygün Hüseynəli qızı
Sumqayıt Dövlət Universiteti
lyuda.ismayilova.75.@mail.ru

***Xülasə:** Kalkulyasilaşdırma sistemində əsas şərt xərclərin tərkibini öyrənməklə onların maliyyə nəticələrinə təsirinin müəyyənləşdirilməsidir. Demək olar ki, mənfəətin hesablanmasında maya dəyərinin müxtəlif istiqamətlərdə müəyyən olunmasına, resursların planlı şəkildə istifadə edilməsinə, qiymətləndirilməsinə, planlaşdırılmasına və uçotuna nəzarət mütləqdir. Təsərrüfat müəssisələrində mənfəət göstəricilərinin seçilməsi və bu xərclərə nəzarətin həyata keçirilməsinin səmərəliliyi, mənfəət göstəricilərinin funksiyalardan və növlərdən asılı olaraq formalaşması məqalədə öz əksini tapmışdır.*

***Açar sözlər: kalkulyasilaşdırma sistemi, maliyyə nəticələri,** mənfəət, maya dəyəri, xərclər.*

Məlumdur ki, ümumi mənfəət üzrə hesabatı tərtib edilərkən ümumtəsərrüfat xərcləri istehsal maya dəyərinin tərkibinə daxil edilir. Lakin buna baxmayaraq, mənfəətin hesablanmasında maya dəyəri iki istiqamətdə müəyyən olunur. Belə ki:

I halda hesabatda istehsal maya dəyəri göstəricisi ümumtəsərrüfat xərcləri nəzərə alınmaqla hesablanır;

II halda isə qeyd edilən xərclər nəzərə alınmadan müəyyən olunur [1].

Hesabatın tərtibi zamanı müəssisənin qəbul olunmuş uçot siyasətinə uyğun olaraq hesablanmış maya dəyəri məbləğini 601№-li "Məhsul (iş,xidmət) satışı" hesabına silmək olar. Bu zaman maliyyə nəticələrinin uçotu isə 801 №-li "Ümumi mənfəət (zərər)" hesabında əks olunur. Mənfəət və zərərlər gəlir və xərclərin müqayisəsi əsasında müəyyənləşdirilir.

Aparılan təhlillərdən məlum olur ki, MHBS –1-ə uyğun olaraq, mənfəət göstəricisi aşağıdakı funksiyalardan və növlərdən asılı olaraq formalaşır [1]:

***** Əsas əməliyyat gəliri
– satışın maya dəyəri
= ümumi mənfəət
+ sair əməliyyat gəlirləri
- kommersiya xərcləri
- inzibati xərclər
- sair əməliyyat
+ fəaliyyətin dayandırılmasından mənfəət
- fəaliyyətin dayandırılmasından zərər
= əməliyyat mənfəəti (zərər)
+ maliyyə gəlirləri
- maliyyə xərcləri
+ birgə (asılı) müəssisələrin mənfəətdə payı
- birgə (asılı) müəssisələrin zərərdə payı

= vergiyə cəlbolunadək mənfəət (zərər)
- mənfəət vergisi
= xalis mənfəət (zərər)
- azlıqların payı (konsolidə edilən hesabatlarda)
- dividentlər
- mənfəətdən sair çıxılmalar
= Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)

Kalkulyasiyalaşdırma sistemində xalis mənfəət hesablanarkən aşağıdakı bir sıra məlumatlardan istifadə olunur:

• digər gəlir və xərc,
• vergi aktivi,
• vergi öhdəliyi,
• mənfəət vergisi məbləğı.

Kalkulyasilaşdırma sistemində əsas yer tutan xərclərin tərkibi öyrənilməklə onların maliyyə nəticələrinə təsirinin uçotunun aparılması, həmçinin hesabatda öz əksini tapması müəyyən-ləşdirilməlidir. Təbii ki, bu zaman maya dəyərinin məlumatlarından istifadə əsas şərt kimi qəbul olunur. Həmin informasiyalardan istifadə etməklə təsərrüfat müəssisələrində maya dəyərinin kalkulyasiyası metodlarını müəyyən etmək daha məqsədəuyğundur. Bu xərclər üzrə kalkulyasiya-laşdırma sistemində tam maya dəyəri əsasında maliyyə nəticlərini müəyyən etmək üçün, təbii ki, aşağıdakı mərkəzlərin təhlilini aparmaq çox önəmlidir.

Məsuliyyət mərkəzləri – müəssisədə onun fəaliyyətinə nəzarət üçün yaradılır və bu mərkəzlərdə xərclər çəkilərək məhsul istehsal edilir. Hər bir mərkəzin xərclərini hesablamaq və ona mütamadi olaraq nəzarət həmin məsuliyyət mərkəzinin menecerinin birbaşa vəzifəsidir. Aparılan araşdırmalardan məlum olur ki, məsuliyyət mərkəzlərinin gəlirini heç də həmin müəssisədə istehsal olunan məhsullara görə deyil, əldə edilən mənfəətin istifadəsinə görə müəyyən etmək mümkündür.

Tədqiqatını apardığımız məsuliyyət mərkəzlərinin mənfəətin hesablanması və istifadəsi istiqamətlərində aşağıdakı üç növə bölmək mümkündür[2].

Məsrəf mərkəzləri – resursların planlı şəkildə istifadə edilməsinə, qiymətləndirilməsinə, planlaşdırılmasına və uçotuna nəzarəti həyata keçirir. Demək olar ki, bu mərkəzlərin seçilməsi və artması təsərrüfat müəssisələrində rəhbərlikdə ona qoyulmuş məqsəddən, eyni zamanda təşkilati və digər xüsusiyyətlərdən asılıdır. Təbii ki, məsrəf mərkəzləri üzrə müvafiq rəhbər yaxud icraçının məsuliyyəti yalnız onların xərclərə nəzarəti üzrə müəyyən olunursa, xərclərə nəzarətin həyata keçirilməsinin səmərəliliyi ilə uçotun aparılmasına çəkilən xərclərin optimal əlaqələndirilməsi menecer tərəfindən müəyyən edilir [3,4].

Məsrəflər mərkəzlərinin təşkilində onların hər biri üzrə məsrəf smetası tərtib edilir, faktiki çəkilən xərclərin uçotu aparılır, istehsal məsrəflərinin uçotu üzrə ayrıca analitik hesab açılır, hər bir mərkəzə müəyyən nömrə, yəni məsrəf şifri verilir. Təşkil olunan ilk sənədlər əsasında da məsrəf şifri qeyd olunan müstəqim xərclərin uçotu aparılır.

Demək olar ki, bu mərkəzlərin səmərəliliyi onların fəaliyyətindəki hesabatın tərkibindən çox asılıdır. Mərkəzin fəaliyyəti prosesində əldə edilən hesabata yalnız nəzarət olunan xərclərin daxil edilməsi, hesabat göstəricilərinin birləşdirilməsi, kənarlaşma haqqında informasiyaların hesabata daxil edilməsi prinsipləri əsas yer tutur.



Şəkil 1. Məsuliyyət mərkəzlərinin növləri

Ümumiyyətlə, müəssisə mənfəət mərkəzi kimi çıxış edərək, bir neçə bölmələrdən ibarətdir ki, bunu da aşağıdakı şəkildə göstərmək olar (şəkil 2).



Şəkil 2. Mənfəət mərkəzlərinin bölmələri

Yuxarıda qeyd etdiyimiz bölmələr üzrə əsas hesabat mənfəət üzrədir ki, onun da tərkibi mənfəət göstəricilərindən olan satış, adi fəaliyyətin gəliri, vergitutmaya qədər mənfəət, marjinal və ya xalis gəlirin hesabata daxil edilməsindən asılı olaraq daim nəzərdən keçirilmiş hesabatdır.

Müəssisənin fəaliyyətində gəlirləri və xərcləri müəyyən etməklə alınan mənfəətin hesablanmasına nəzarətdə investisiya mərkəzləri əsas rol oynayır ki, bu mərkəzlər də öz növbəsində məsrəflərə, gəlirlərə, mənfəət və onun istifadəsinə, həmçinin xüsusi aktivlərdə

investisiyaya nəzarət edirlər. Bazar iqtisadiyyatı şəraitində investisiya mərkəzlərinin fəaliyyəti aşağıdakı dörd göstərici ilə qiymətləndirilir [5]:

* mənfəət;
* aktivlərin rentabelliyi;
* qalıq mənfəəti;
* iqtisadi əlavə dəyər.

Beləliklə, yuxarıda qeyd etdiyimiz göstəricilərin hər birində obyektin konkret şəraiti nəzərə alınmaqla, onun fəaliyyətinin ümumi nəticəsi kimi mənfəət göstəricisi əsas hesab edilir.

Ədəbiyyat

1. "Maliyyə hesabatlarının təqdimatı üzrə" MMUS 1. (Maliyyə Nazirliyinin 2006-cı il 18 aprel tarixli İ-38 saylı əmri ilə təsdiq edilmişdir).

2. Abdullayev L.İ. Maliyyə uçotu. Dərs vəsaiti. SDU, 2017, 221s.

3. Abbasov Q.Ə. Muhasibat (maliyyə) uçotu. Dərslik. Bakı, 2003, 580s.

4. Abbasov Q.Ə. İdarəetmə uçotunun təşkili prinsipləri. Bakı, "Elm", 2006, 275 s.

5. Əliyeva A.H. İstehsalat təcrübəsinin təşkili və keçirilməsi. Metodik vəsait. Sumqayıt: SDU, 2018, 68 s.

Резюме

Алиева А.Г.

Определение показателей прибыли в калькуляционной расчетной системе

Основным условием в расчетной системе является определение влияния расходов на их финансовые результаты путем изучения состава. Практически в расчете прибыли необходим контроль определения затрат по различным направлениям планируемого использования, оценки планирования и учета ресурсов. Разумеется, в статье отражены выбор показателей прибыли в хозяйствах и эффективность контроля за этими затратами, а также формулируются показатели прибыли по функциям и видам.

Ключевые слова: *калькуляционная система расчета, финансовые результаты, прибыль, стоимость, затраты.*

Summary

Aliyeva A.H.

Determinating Profit Indicators in Calculating System

Calculating system's main condition is learning about costs' compositions and determinating affect to financial results.Almost,determinate calculating profit the different direction of cost,using resources regularly,evaluating,planning and accounting control is mainly. Of course that,chosing profit and control this type of costs in economical enterprises,profit composition's functions are showing in this article.

Key words: *calculating system,financial results, profit, cost*

MAKROMALİYYƏ SABİTLİYİNİN TƏMİN OLUNMASININ ZƏRURİLİYİ

Əliyeva Sədaqət Yusub qızı
Sumqayıt Dövlət Universiteti
ilqarosmanov1975@mail.ru

Xülasə: *İqtisadiyyatın qloballaşdığı müasir dövrdə əsas problemlərdən biri səmərəli maliyyə siyasətinin həyata keçirilməsidir. Səmərəli maliyyə siyasətinin həyata keçirilməsi makromaliyyə sabitliyinin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Məqalədə makromaliyyə sabitliyinin təmin olunmasının zəruriliyi əsaslandırılmış, iqtisadi artımın ölkənin maliyyə sisteminə təsiri araşdırılmış, həmçinin, maliyyə siyasətinin makroiqtisadi sabitliyin təmin edilməsində rolu tədqiq edilmişdir. İnvestisiya üçün əlverişli vergi şərtlərinin tətbiqinin makroiqtisadi əhəmiyyəti açıqlanmış, vergi imtiyazlarının investisiyalara təsirinin üç əsas istiqaməti müəyyən edilmişdir.*

Açar sözlər: *maliyyə, maliyyə sabitliyi, iqtisadi artım, büdcə, vergi, investisiya, gəlir, xərc*

Dünya iqtisadiyyatının hazırkı inkişaf mərhələsində ölkənin makroiqtisadi sabitliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsi məsələləri böyük əhəmiyyət kəsb edir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas məqsədlərindən biri makroiqtisadi sabitliyə nail olmaqdır.

Dünyanın hər bir ölkəsi üçün makroiqtisadi baxımdan ən mühüm göstəricilərdən biri iqtisadi artımdır. İqtisadi artımın mahiyyəti, cari ildə daha keyfiyyətli məhsulların istehsalı ilə müqayisədə daha yüksək həyat səviyyəsini təmin etməkdir və bu, ölkənin ümumi sosial-iqtisadi inkişafını müəyyən edir. İqtisadi artım, maddi malların artması ilə birlikdə cəmiyyətin sosial inkişafı üçün şərait yaradır. Aşağıdakı amillər iqtisadi inkişafa təsir göstərir:

- resursların miqdarı və keyfiyyəti;
- əsas kapitalın həcmi.
- ehtiyatların istehsalda iştirakı effektivliyi;
- ümumi xərclər.

Bütün bu amillərin iqtisadi artımın təmin edilməsində rolu birbaşa hökumətin iqtisadi siyasətindən asılıdır.

Maliyyə siyasəti dövlətin iqtisadi artımına təsir vasitələrindən biridir. Ayrı-ayrı dövrlərdə maliyyə siyasətinin iqtisadi fəaliyyətə təsiri makroiqtisadi sabitliyə yol açmışdır. Maliyyə siyasəti alətləri iqtisadi inkişafın, iqtisadi tarazlığın, inflyasiya proseslərinin, işsizliyin və gəlirlərin yenidən bölüşdürülməsinin iqtisadi problemlərinin həllində xüsusi rol oynayır. Dövlət, iqtisadi inkişafı həyata keçirmək və iqtisadi böhranla və tənəzzüllə mübarizə üçün gəlir və xərclərin axınını tənzimləməyə məcburdur.

Maliyyə siyasəti makroiqtisadi sabitliyin makro səviyyədə təmin edilməsində mühüm rol oynayır və iqtisadiyyatın davamlılığı və inkişafı üçün ən mühüm şərtlərdən biri hesab olunur. Maliyyə siyasəti mikro səviyyədə də təsir göstərir. Mikro səviyyədə maliyyə siyasəti yaxşı düşünülmüş vergi xərcləri siyasəti ilə məşğulluğu, investisiya və məhsuldarlığı artırır.

Maliyyə siyasətinin iqtisadiyyata təsirinin əsas aləti büdcə xərcləri, vergilər və dövlət borcudur. Büdcə xərcləri iqtisadi siyasətin həyata keçirilməsində və sosial-iqtisadi inkişafın təmin edilməsində əsas vasitədir. Hökumətin xərclərinin iqtisadi artıma təsirinə baxarkən bu xərclərin həcmi, səviyyəsi və tərkibi nəzərə alınmalıdır. Dövlət xərcləri iqtisadi və funksional xərclərdən ibarətdir. İqtisadi xərclər kapital və əməliyyat xərclərinə bölünür. Funksional məqsədlər üçün

xərclər milli, milli müdafiə, milli təhlükəsizlik və hüquq-mühafizə orqanları, ətraf mühitin mühafizəsi, səhiyyə, təhsil və s. bölünür. Hökumət xərclərini istehsal və qeyri-istehsal kimi təsnif edərkən, hansı xərclərin istehsal olduğunu və qeyri-istehsal olduğunu müəyyən etmək asan deyil. Məsələn, təhsil xərcləri istehlak xərcləri kateqoriyasına aid olmasına baxmayaraq, istehsal xərcləri hesab edilə bilər. Çünki təhsil xərcləri insan kapitalının formalaşmasında müstəsna rol oynayır [1].

İnsan kapitalının iqtisadi artıma müsbət təsirinin artırılmasında təhsilin rolu əvəzolunmazdır.

Maliyyə siyasətinin və büdcə gəlirlərinin mənbəyi iqtisadi inkişafı stimullaşdıran və gəlirlərin ədalətli bölüşdürülməsində istifadə olunan vergidir. Vergi siyasəti iqtisadi artıma müxtəlif təsir dərəcələrinə malikdir. Milli iqtisadiyyatda optimal vergi yükünü müəyyənləşdirmək dövlətin maraqlarını təmin etmək baxımından vacibdir.

İnkişaf etmiş ölkələrdə toplanan vergilərin əksəriyyəti dövlət investisiya və xərclər şəklində istifadə olunur. Bu axının düzgün dəstəklənməsi ilə iqtisadi inkişaf və inkişafın davamlılığı müsbət istiqamətdə olacaqdır.

İnvestisiya üçün əlverişli vergi şərtlərinin tətbiqinin makroiqtisadi əhəmiyyəti daha vacibdir. Vergi fasilələri və investisiyalar arasındakı əlaqə birbaşa iqtisadi artıma təsir göstərir. Vergi imtiyazlarının investisiyalara təsirinin aşağıdakı üç əsas istiqamətini qeyd edə bilərik:

- investisiya xərclərini azaltmaqla, vergi yığımlarını artırmaqla və vergilərin artırılmasını təmin etməklə, investisiya xərclərini artırır;
- vergi qoyulan vəsaitlərin və onların sərmayələrinin azadlığının təmin edilməsi, investisiyaların maliyyələşdirilməsini asanlaşdırır;
- investisiya həcmini genişləndirir.

Vergilərin iqtisadi artıma təsirinin böyüklüyü vergi multiplikatoru ilə müəyyənləşdirilir. Multiplikator, dövlət satınalma vahidinin artması ilə ÜDM artımını göstərir.

$$\Delta ÜMM = \frac{1}{1-b}\ \Delta ÜDM$$

Burada b – marginal hədddir [2].

İqtisadi sabitliyin dövlət, region və ya sosial-iqtisadi sistem səviyyəsində olması nəticəsində ölkənin beynəlxalq imicini yüksəltmək, dünya səviyyəsində reytinqin yüksəldilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, biznes üçün sabit gəlir əldə edilməsi, büdcə gəlirlərinin artırılması, real əmək haqqı və sosial müavinət səviyyəsinin yüksəldilməsi və s. üçün əsas verir.

Beləliklə, makroiqtisadi sabitlik ilk növbədə iqtisadi inkişafın bütün amillərinin effektivliyini, ikincisi, iqtisadi siyasətin effektivliyini və üçüncüsü, ölkənin iqtisadi təhlükəsizlik sisteminin effektivliyini xarakterizə edir.

Ədəbiyyat

1. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 418 s.

2. Кузнецова В.В. Политика финансовой стабильности: международный опыт. М.: ИНФРА-М, 2015, 219 с

Резюме

Алиева С.Ю.

Необходимость обеспечения финансовой стабилизации на макроуровне

В современных условиях глобализации экономики одной из основных проблем является эффективная финансовая политика. Эффективная финансовая политика играет важнейшую роль в стабилизации финансов на макроуровне. В статье обоснована

необходимость обеспечения финансовой стабилизации на макро уровне. Исследуется влияние экономического роста на финансовую систему страны, а также изучается роль финансовой системы в обеспечении макроэкономической стабильности. Рассматриваются выгодные налоговые условия для инвестиций, три основные направления влияния инвестиций на налоговые льготы.

Ключевые слова: *финансы, финансовая стабильность, экономический рост, бюджет, налоги, инвестиции, доходы, расходы*

Summary

Aliyeva S.Y.

The Need to Ensure Financial Stabilization at the Macro Level

In the current conditions of economic globalization, one of the main problems is effective financial policy. Effective financial policy plays a crucial role in stabilizing finance at the macro level. The article substantiates the need to ensure financial stabilization at the macro level. The influence of economic growth on the financial system of the country is investigated. And also, the role of the financial system in ensuring macroeconomic stability is being studied. Profitable tax conditions for investments, three main directions of the impact of investments on tax benefits are considered.

Key words: *finance, financial stability, economic growth, budget, taxe, investment, income, expenses*

KREDİT TƏŞKİLATLARINDA UÇOTUN TƏHLİLİ

Əmiraslanova Dilarə Əmiraslan qızı

Sumqayıt Dövlət Universiteti

loqman.2005@mail.ru

Xülasə: *Mühasibat uçotu iqtisadi informasiyanın əlaqələndirici və ötürücü formasıdır, mühasibat uçotunun standartları isə sahibkarlıq fəaliyyətinin ümumi iqtisadi və hüquqi şərtlərini əks etdirir. Müasir dövrdə kredit təşkilatlarında uçotun təhlilinin aparılması mühüm əhəmiyyət kəsb edir. Fəaliyyətdə olan müəssisələrdə kreditor borclarının çoxalması müsbət hal hesab olunur. Cari passivlərinin əsas tərkib hissəsi sayılan kreditor borcları pul vəsaitinin ödənilməsi üzrə müəssisə öhdəlikləri hesab olunur. Məqalədə kreditor borclarının tərkibi, strukturu, artması və azalması halları təhlil edilmiş və kredit təşkilatlarında uçotun təhlili prosesi araşdırılmışdır.*

Açar sözlər: *uçot, kredit, bank, pul kapitalı, faiz.*

Ölkənin iqtisadiyyatının sürətlə inkişaf etdirilməsində bank kreditləri xüsusi əhəmiyyətə malikdir. Müasir şəraitdə hər bir müəssisə (birlik, təşkilat) kreditləşmənin prinsiplərinə (kreditlərin təminatlığı, məqsədli xarakterli, müddətli olması, qaytarılmalı və ödənilməli olması) və şərtlərinə ciddi əməl etməklə, sosial-iqtisadi məqsədlər üçün kreditdən istifadə edir. Müəssisələrə lazım olan kredit əsasən kredit təşkilatlarından alınır.

Kredit əməliyyatlarında hesabatın təşkilinin əsas istiqamətləri aşağıdakılardır [1]:

- bank kreditlərinin tam, düzgün istifadə olunması və vaxtında banka ödənilməsi vəziyyətini müəyyən etmək;
- müəssisənin kredit almaq hüququndan səmərəli istifadə etməsi üçün onun mövcüd vəziyyətini müəyyənləşdirmək;

- kreditin maddi təminatının olması vəziyyətini öyrənmək.

Fəaliyyətdə olan müəssisələrdə kreditor borclarının çoxalması müsbət hal hesab olunur. İstifadə olunan və imkan daxilində daha tez qaytarılan (mütərəqqi faiz stavkaları tətbiq edilməyən), bununla belə həddən artıq kreditor borclarının olması, onların qaytarılması müddətlərinin gözlənilməsini şübhə altına alır, nəzərdə tutulan müddətlərin gecikdirilməsi isə cərimələrin ödənilməsinə, son nəticədə isə maliyyə vəziyyətinin pisləşməsinə səbəb olur.

Cari passivlərinin əsas tərkib hissəsi sayılan kreditor borcları pul vəsaitinin ödənilməsi üzrə müəssisə öhdəlikləri hesab olunur. Buraya satın alınmış mal-material dəyərləri və xidmətlərə görə öhdəliklər, mal alan sifarişçilərdən alınan avans məbləğləri, ödəniləsi veksellər, kommersiya akseptləri, əməyin ödənişi üzrə borclar, əmlak sığortası üzrə borclar, təhtəlhesab şəxslərə olan borclar, sair kreditorlara olan borclar və i.a. daxildir. Kreditorlara olan borclara dair məlumat balansın passivin II bölməsində və mühasibat uçot registlərində verilir [2].

Təhlil zamanı kreditor borclarının ümumi həcmini və dinamikasını öyrənməklə kifayətlənmək olmaz. Əksər hallarda istehsalın genişləndirilməsi və ahəngdarlığını təmin etmək məqsədilə kredit hesabına material tədarükü, maşın və avadanlıqların əldə edilməsi, işçilərin əməyinin ödənilməsi səviyyəsinin yüksəldilməsi və onların sosial şəraitinin yaxşılaşdırılması, müəssisə üçün sərfəli şərtlərlə qısamüddətli borcların alınması və i.a. müəssisə fəaliyyətinin canlandırılması və genişləndirilməsini təmin edən tədbirlərin həyata keçirilməsi ilə əlaqədar kreditor borclarının artımı və bu borclardan istehsal və satış proseslərində istifadəsi faydalı hesab olunur. Yüksək faiz dərəcələri olmayan və iqtisadi sanksiyalar tətbiq edilməyən kreditor borclarından tədarük, istehsal və satış proseslərinin ahəngdarlığının təmin edilməsində istifadə vaxtında qaytarılmadıqda daha da yüksək artırılmış faiz dərəcələri tətbiq edilən bank kreditləri ilə müqayisədə faydalı olur. Bu səbəbdən də müəssisələrin çoxu faiz ödəmələri olmayan malsatanlara və xidmət göstərənlərə olan kreditor borcları qaytarmamağa səylə çalışır. İnflyasiya şəraitində kreditor borclarının qaytarılması müddətlərinin gecikdirilməsi və sonralar həmin borcların ucuzlaşmış pulla qaytarılması da müəssisə üçün faydalı olur. Buna görə də təhlili zamanı kreditor borclarının tərkibi və strukturunu öyrənmək tələb olunur. Təhlil apardığımız müəssisədə hesabat ili ərzində kreditor borclarının tərkibi və strukturunda əmələ gələn dəyişiliklər aşağıdakı analitik cədvəldə verilir.

Analitik cədvəldə verilən məlumatlardan göründüyü kimi, hesabat ili ərzində müəssisənin kreditor borcları 507676 min. man. məbləğində, yaxud (515589:7913) 65,2 dəfə artmışdır. Borcların artımının (422379x100:507676) 83,2%-i maddi dəyərlərin alınması, iş və xidmətlərdən istifadə üzrə borcların payına düşür. İlin başlanğıcında material resurslarını satan və müxtəlif xidmətlər göstərən kənar müəssisələrə borcları olmadığı şəraitdə, ilin sonunda yarım milyard manata yaxın borcun olması kifayət qədər material resurslarının yaradılması və istehsalın ahəngdar işlədilməsinin təmin edilməsi ilə əlaqədardır.

Cədvəl 1

Kreditor borclarının tərkibi və strukturunun təhlili

Kreditorlarla hesablaşmalar	Hesabat ilinin əvvəlinə		Hesabat ilinin sonuna		Hesabat ili ərzində artma, azalma	
	Məbləği	Xüsusi çəkisi, %	Məbləği min.man	Xüsusi çəkisi, %	Məbləği min.man	Xüsusi çəkisi, %
Büdcəyə ödəmələr üzrə borclar	2306	29,14	32087	6,22	+29781	-22,92
Sosial ehtiyalara	492	6,23	13798	2,68	+13305	-3,55

ayırmalar üzrə borclar						
Əməyin ödənişi üzrə borclar	1637	20,69	29083	5,64	+27446	-15,05
Maddi dəyərlərin alınması, iş və xidmətlərdən istifadə ilə əlaqədar borclar	-	-	422379	81,92	+422379	+81,92
Büdcədənkənar tədiyyələr üzrə borclar	-	-	10004	1,94	+10004	+1,94
Sair kreditorlara olan borclar	3477	43,94	8238	1,6	+4761	-42,34
Kreditor borcların cəmi	7913	100	515589	100	+507676	

Hesabat materiallarından (1 yanvar tarixə mühasibat balansı) göründüyü kimi, ilin sonuna müəssisə anbarlarından istehsal ehtiyatları, hazır məhsul və yüklənmiş mallar maddələri üzrə qalıqlar 202328 min.man. (müvafiq sürətdə 7316 min.man., 72501 min. man. və 40511 min.man.) gələcək dövrlərin xərclərində və bitməmiş istehsalda material xərcləri 384736 min.man. təşkil edir.

Mal satanlara müqavilələrdə materialların dəyəri onlardan hazırlanan məhsulu və yarımfabrikatları reallaşdırdıqdan sonra, materialı qəbul edən andan 6 aydan gec olmayaraq ödəməklə hesablaşma öhdəliklərinin yerinə yetirilməsi nəzərdə tutulur.

Müqavilə öhdəliklərin yerinə yetirilməsinə dair analitik uçot məlumatlarından göründüyü kimi , mal satanlara olan borcun 308421 min.manatı, 308421x100:422379 = 73 %-i 3 ayadək və 113958 min.man; yaxud 27% 5 ayadək olan borclarıdır.

Mühasibat uçotu məlumatlarından göründüyü kimi, müəssisədə gələcək dövrlərin xərcləri mövsümi sənaye istehsalına hazırlıq işləri ilə əlaqədardır və yaxın gələcəkdə ödənilə bilər beləliklə, mal satanlarla müqavilə şərtlərini hesaba almaqla onlara olan kreditor borclarının vəziyyətinin təhlili göstərir ki, müəssisədə onlara olan 422379 min.manat, kreditor borcunu vaxtünda ödəmək üçün kifayət qədər müvafiq təyinatlı vəsaitin daxil olması gözlənilir. Deməli, malsatanlara olan kreditor borcları qeyri-normal borclar kimi qəbul etmək olmək olmaz.

Əməyin ödənişi üzrə borcun ilin əvvəli ilə müqayisədə 29083:1637=17,8 dəfə artmasına baxmayaraq, kreditor borclarının ümumi həcmində onun xüsusi çəkisi 20.69%-dən 15.05 %-dək azalmışdır. Əməyin ödənişi üzrə işçi heyətinə olan borcun böyük artımı məhsul istehsalının artımı ilə əlaqədar olaraq nisbi dəyişən əməkhaqqı xərclərinin çoxalması və uzun müddət xidmətə görə ildə 1 dəfə ödənilən mükafatların verilməsi ilə izah olunur. Analitik uçot və 10 №-li jurnal –orderə verilən məlumatlarından göründüyü kimi, işçi heyəti dekabr ayının əməkhaqqını almamışdır. Bank tərəfindən təyin edilmiş qrafikdə əməyin ödənişi nağd pul vəsaitinin hər ayın 7-də verilməsi nəzərdə tutulduğuna və mühasibat balansı 1 yanvar tarixinə tərtib edildiyinə görə, bu maddə üzrə kreditor borcunu da qeyri-normal hesab etmək olmaz.

Məhsul, iş, xidmətlər satışından alınan mənfəətin, habelə əmlakın artması ilə əlaqədar olaraq gəlir vergisi, əlavə dəyər vergisi, mənfəətdən vergi, əmlak vergisi və s. vergilərin çoxalması hesabına ödəmələr, əməyin ödənilməsinə məsrəflərin artması hesabına sosial ehtiyaclara ayırmalar üzrə kreditor borclarının artımını da normal hal hesab etmək olar.

Maraqlı burasıdır ki, hesabat ilində kreditor borclarının böyük məbləğdə artımına baxmayaraq onun xüsusi çəkisi göstəriciləri aşağıdakı kimi azalmışdır. İlin əvvəli ilə müqayisədə ilin sonunda büdcəyə ödəmələr üzrə – 29,14%-dən , 6,22%-dək, yaxud 22,9%

- sosial ehtiyaclara ayırmalar üzrə 6,25%-dən, 2,68%-dək, yaxud 3,55% ;
- əməyin ödənişi üzrə borclar – 20,69%-dən, 5,64%-dək, yaxud 15,05% ;
- sair kreditor borclar – 43,94% -dən, 1,60%-dək, yaxud 42,34% azalmışdır.

Təhlil zamanı kreditor borcların qaytarılması müddətlərin gecikdirilməsinin xammal və material satanlarla, istehsal xidmətlərini icra edənlərlə müqavilələrin pozulması üçün təhlükəli anların olması, yəni potensial mal satanların borc verənlərin itirilməsi təhlükəsi öyrənilir. Debitor borclarının təhlilində də dövr sürəti göstəriciləri öyrənilir.

Kreditor borclarının dövr sürəti aşağıdakı formulanın köməyi ilə təyin edilir [3].

$$D_K = \frac{K_B \text{ x } U}{XM}$$

Burada: D_k – kreditor borclarının dövr sürəti;

K_B – kreditor borcları məbləği ;

XM – xammal, material və i.a. tədarükü üzrə dövriyyə məbləği

U - dövrün gün hesabı ilə uzunluğu göstərilir.

Kreditor borclarının dövretmə əmsalı reallaşdırılan məhsulun maya dəyərini illik kreditor borclarının orta illik məbləğinə bölməklə də təyin edilir. Bu əmsal onlara təqdim olunan hesablamaları ödəmək üçün nə qədər dövriyyə vəsaitinin lazım olduğunu göstərir. Təqvim il ərzində günlərin sayını (365 yaxud 366) bu əmsala bölməklə kreditor borclarının gün hesabı ilə dövr sürətini təyin etmək olar. Bu göstərici kreditor borclarını tam ödəmək üçün neçə gün lazım gəldiyini bildirir.

Təhlil zamanı sadəcə olaraq, kreditor borclarının tərkibi, strukturu, artması və azalması məbləğləri səviyyəsini təyin etməklə kifayətlənmək olmaz. Bununla yanaşı, çıxarılan nəticələri dəqiq qiymətləndirmək üçün mühasibat balansında və uçot registrlərində verilən borc məbləğlərinə dair informasiyanın dürüstlüyünü, borcların növləri və müddətləri üzrə dəqiqliyini təyin etmək də tələb olunur. Əksər müəssisələrdə kreditor borclarının artımı və onlarn strukturunda əmələ gələn dəyişikliklər müəssisələr arasında, eləcə də müəssisələrdə dövlət büdcəsinə tədiyyələri tənzimləyən orqanlar arasında hesablaşma münasibətlərinin pozulması ilə izah olunur. Məhsul, iş və xidmətlər istehsalı və satışı həcminin artımı ilə əlaqədar olaraq, müəssisənin debitor borclarının artımı, öz növbəsində müəssisə vəsaitinin dövriyyədən çıxması pul axınının (gəlirinin) azalması və tədiyyə öhdəlikləri ilə əlaqədar olaraq kreditor borclarının artması ilə nəticələnir. Deməli, debitor borcları da öz növbəsində kreditor borcların yaranmasına səbəb olur. Buna görə də bu borcların qarşılıqlı əlaqəsi və asılılığı öyrənilir.

Ədəbiyyat

1. Sadıqov Ə.A. Mühasibat uçotu I və II hissələr. Bakı, 2002
2. Rzayev Q. Mühasibat uçotu və audit Bakı: Təhsil, 2002
3. A. Kərimov Mühasibat uçotu və vergilər, Bakı, 2002
4. Mahmudov S.M., Zeynalov T.Z., Quliyev F.M. İqtisadi təhlil. Bakı, 2003

Резюме

Амирасланова Д.А.

Анализ учета в кредитных организациях

Бухгалтерский учет является сообщающей и передающей формой экономической информации, а стандарты бухгалтерского учета отражают общие экономические и правовые условия предпринимательской деятельности. В современных условиях анализ учета кредитных организаций имеет важное значение. В статье исследуются процессы

анализа кредита организаций, структура, состав увеличения и снижения кредитных долгов.

Ключевые слова: *бухгалтерский учет, кредит, банковское дело, денежные средства, проценты*

Summary

Amiraslanova D.A.

Analysis of Accounting in Credit Organizations

Accounting is a communicating and transmitting form of economic information, and accounting standards are strict general economic and legal conditions for entrepreneurial activity in modern conditions, analysis of accounting of credit organizations is important. The article examines the processes of analyzing credit organizations, the structure, composition of the increase and decrease in credit debt.

Key words: *accounting, credit, banking, cash, interest*

MÜƏSSİSƏNİN SATIN ALINMASI PROSESİNDƏ YARANAN QUDVİLİN UÇOTU

Hüseynzadə Gülşən Qalib qızı

Sumqayıt Dövlət Universiteti

gulsen396@mail.ru

Xülasə: *Əgər şirkətdə qudvil varsa, bu o deməkdir ki, şirkətin bazar dəyəri onun xalis aktivlərinin balans dəyərindən çoxdur. Ümumi qayda istisna olaraq, qudvilin dəyərinin olduğu tək hal şirkətin alındığı zamandır. Alıcı şirkəti alarkən yalnız uzunmüddətli aktivlər və material ehtiyatlarını deyil (debitor və kreditor borclar da daxil olmaqla), həmçinin qudvil üçün də ödəniş edir. Alınmış qudvil birbaşa ödənişlə yarandığı üçün maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.*

Açar sözlər: *bazar dəyəri, bacarıqlı işçi, uzunmüddətli aktiv, qudvil dəyəri, maliyyə hesabatı*

Qudvil bir şirkətin digər şirkət tərəfindən alınması ilə əlaqəli olan qeyri-maddi aktivdir. Xüsusilə, qudvil alış qiymətində alışda satın alınan bütün aktivlərin və bu müddətdə qəbul edilmiş öhdəliklərin xalis ədalətli dəyərinin məbləğindən yüksək olan hissəsidir. Bir şirkətin marka dəyəri, möhkəm müştəri bazası, yaxşı müştəri münasibətləri, yaxşı işçi münasibətləri və mülkiyyət texnologiyası qudvil nümunələrini əks etdirir [3].

Əgər şirkətdə qudvil varsa, bu o deməkdir ki, şirkətin bazar dəyəri onun xalis aktivlərinin balans dəyərindən çoxdur.

Qudvil şirkətin müştəriləri ilə yaxşı münasibətlərindən yaranır, məsələn:

- yüksək keyfiyyətli məhsullar və xidmətlərdən yaxşı reputasiya qazanmaq;
- müştərilərdən gələn sorğulara və şikayətlərə dərhal və kömək edəcək şəkildə cavab vermək;
- yüksək ixtisaslı və bacarıqlı işçilərin müştərilərlə rəftarı ilə.

Qudvilin özünün də 2 növə bölmək olar:

- əldə edilən qudvil;
- kənardan əldə edilməyən (müəssisəyə məxsus) qudvil.

Əldə edilən qudvil - bir müəssisənin fəaliyyət göstərən başqa bir müəssisəni satın alan zamanı yaranan qudvildir. Bu qudvil müəssisənin balans hesabına ilkin dəyər (aktivin əldə etmə dəyəri) kimi daxil ediləcəkdir.

Müəssisəyə məxsus qudvil - qudvilin aşkar edilməsinə ehtiyac yaranan hadisə baş verdikdə ekspertlər tərəfindən qiymətləndirmə zamanı müəyyən edilən dəyərdir. Ümumiyyətlə, əgər müəssisədə qudvilin aşkar edilməsinə zəmin yaradan heç bir iqtisadi hadisə baş verməyibsə onu qiymətləndirib hesablarda yazmağa ehtiyac olmur [2].

Qudvili (Goodwill) ingilis dilindən hərfi tərcümə etdikdə o, yaxşı və niyyət sözlərinin birləşməsindən əmələ gəlir və onu ümumi mənada "yaxşı gələcək" kimi ifadə etmək olar.

Əgər bir müəssisə digər müəssisənin 100%-lik hissəsini (səhmlərin) satın alarsa, bu zaman Qudvil aşağıdakı düsturla hesablanır:

Qudvil = Ö -XA

Burada, Ö- Satınalma tarixində ödənişin ədalətli dəyəridir. XA - Xalis Aktivlərin (Kapitalın) satınalma tarixinə müəyyənləşdirilmiş dəyəridir (XA=A-Ö).

Qudvilin dəyəri şirkət üçün çox yüksək ola bilsə də, bu hər zaman şirkətin maliyyə hesabatlarında əks olunmur.

Misal olaraq, mağaza işçilərinin müştərilərə gülərüzlüyü şirkətə yeni alınan elektron kassa aparatından daha çox gəlir gətirə bilər, baxmayaraq ki, kassa aparatı uzunmüddətli aktivlərin mühasibat kitablarında qeyd olunacaq, lakin işçinin dəyərinə mühasibat məqsədləri ilə bağlı məhəl qoyulmayacaq.

- Qudvil şirkətdə vacib rol oynasa da, bunun üçün heç bir ödəniş olunmur. Bu səbəblə qiymətləndirilməsi də çətindir.

- Qudvil gündən günə dəyişə bilər. Müştəri ilə xoşagəlməz hadisə bu qudvilə ziyan vura və ya yaxşı münasibət bunu inkişaf etdirə bilər. Yaxşı xarakteri olan bir işçi işdən çıxa və əvəzində bu keyfiyyətlərə hələ tam sahib olmayan yeni işçi işə götürülə bilər. Qudvil daimi dəyişkən olduğu üçün hesabatlarda əminliklə qeyd oluna bilmir.

Ümumi qaydaya istisna olaraq, qudvilin dəyərinin olduğu tək hal şirkətin alındığı zamandır. Alıcı şirkəti alarkən yalnız uzunmüddətli aktivlər və material ehtiyatlarını deyil (debitor və kreditor borclar da daxil olmaqla), həmçinin qudvil üçün də ödəniş edir. Bu səbəbdən ödənişin məbləği əksər hallarda xalis aktivlərin dəyərindən çox olur. Belə bir nümunəyə baxaq:

"NA" şirkəti "TT" şirkətini 50,000 AZN-ə alır. "TT" şirkətinin dəyəri - aktivlər-öhdəliklər=45,000 AZN-dir. "NA" şirkətin aktivlərinin ümumi dəyərindən əlavə, 5,000 (50,000-45,000) AZN ödəyəcək. Bu, şirkətin qudvilinin alışı üçündür.

"NA" şirkəti əməliyyatlara başlayan zaman (zənn edək ki, aldıqlarının heç birinin dəyəri dəyişməyib) maliyyə vəziyyəti haqqında hesabatı aşağıdakı formada olacaq:

NA şirkəti:

Dövrün əvvəlinə maliyyə vəziyyəti haqqında hesabat	**AZN**
Qeyri-maddi uzunmüddətli aktiv: Qudvil	5,000
Digər alınmış xalis aktivlər	45,000
Xalis aktivlər	50,000
Kapital	**50,000**

Alınmış qudvil birbaşa ödənişlə yarandığı üçün maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Müəssisənin satın alınması prosesində yaranan qudvil- şirkət üçün ümumi aktivlərinin və öhdəliklərinin bazar dəyərindən artıq ödənilən məbləğdir.

Qudvil şirkətin alışı zamanı ödənmiş əlavə mükafatdır: adətən bu "alışda verilmiş mükafat" kimi adlandırılır. Alıcı bu məbləği şirkətin maddi aktivlərində əlavə qudvil dəyərinin də olduğunu düşündüyü üçün ödəyir.

Qudvil davamlı olaraq dəyişir. Şirkət əvvəlki nüfuzu ilə daim fəaliyyət göstərə bilməz; zaman keçdikcə yeni qudvil dəyəri yaranır.

Əgər qudvil müəyyən və ya bütün dəyərini itirirsə, bu vəziyyətdə "qiymətdəndüşmə" baş verir. Bu zaman maliyyə vəziyyəti haqqında hesabatdakı dəyəri fərq məbləği qədər azaldılır və qiymətdəndüşmə xərc olaraq dövr üçün qeyd olnur.

Qudvil qeyri-maddi uzunmüddətli aktiv kimi tanınmalıdır. Bu, maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyəri ilə tanınır və illik əsasda qiymətdəndüşmə üzrə qiymətləndirilir. Qudvil amortizasiya olunmur [1].

Qudvilin dəyəri alıcı ilə satıcı arasında razılaşdırılan məbləğdən asılı olan bir məsələdir. Ancaq burada dəyərləndirmənin iki metodundan bəhs etmək olar:

A Alıcı və satıcı qudvili xüsusi dəyərləndirmədən müəyyən qiymət ilə razılaşırlar. Alınmış qudvilin dəyəri o zaman razılaşdırılmış qiymət ilə xalis aktivlərin balans dəyəri arasında fərq olacaq.

B Qudvilin dəyəri xüsusi ödənişlə həyata keçirilir və razılaşmanın əsas elementi olur. Qudvili dəyərləndirmənin bir çox yolları var və bu yollardan ən çox müraciət olunanı şirkətin gəlirləri ilə bağlıdır. Misal olaraq, onlar qudvilin dəyərini əvvəlki hesabat dövrünün gəlirlərinin 2 qatı olaraq razılaşa bilərlər.

Alıcının maliyyə hesabatlarında görünən qudvilin dəyəri ödənilən məbləğ ilə onların maddi xalis aktivlərinin dəyəri arasında fərq olacaqdır. Əgər Alfa maddi xalis aktivlərini 40,000 AZN olaraq dəyərləndirir və qudvil 21,000 AZN olaraq razılaşdırılırsa, o zaman Beta biznes üçün 61,000 AZN ödəyəcək. Beta alınmış aktivləri dəyərləndirdiyi zaman maddi xalis aktivlərin dəyərini yalnız 38,000 AZN olaraq qəbul edə bilər. Bu zaman Betanın hesablarında qudvilin dəyəri 61,000-38,000=23,000 AZN olacaq.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq subyektlərində Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi ilə bağlı mühasibat uçotunun aparılmasına dair dərs vəsaiti. Bakı, 2018, 578 s.

2. Fətullayev R. Beynəlxalq mühasibat uçotunun əsasları. Bakı, 2019, 319 s.

3. https://www.investopedia.com/

Резюме

Гусейнзаде Г.Г.

Учет гудвилла, появившегося в процессе купли-продажи предприятия

Если у компании есть гудвилл, это означает, что рыночная стоимость компании превышает балансовую стоимость ее чистых активов. Единственным исключением из общего правила, случай, когда гудвилл имеет ценность - это когда компания приобретается. Покупатель платит компании не только за долгосрочные активы и запасы (включая дебиторскую и кредиторскую задолженность), но и за гудвилл. Приобретенный гудвилл отражается в отчете о финансовом положении как прямой платеж.

Ключевые слова: *рыночная стоимость, умелый (хороший) сотрудник, способный долгосрочные активы, стоимость гудвилла, финансовый отчет*

Summary
Huseynzade G.Q.
Accounting For Goodwill on Acquisitions

If a company has goodwill, it means that the market value of the company exceeds the carrying amount of its net assets. Except as a general rule, the only case in which goodwill has value is when the company is acquired. The acquirer pays the company not only for long-term assets and inventories (including receivables and payables), but also for goodwill. Purchased goodwill is recognized in the statement of financial position as it is a direct payment.

Key words. *market price, capable worker, long-term asset, goodwill value, financial report*

MÜASİR DÖVRDƏ KREDİT ÖHDƏLİKLƏRİNDƏN İSTİFADƏNİN YAXŞILAŞDIRILMASI MƏSƏLƏLƏRİ

İsmayılova Lyudmila Famil qızı
Sumqayıt Dövlət Universiteti
Allahverdiyeva Çinarə Əlibəy qızı
Sumqayıt Dövlət Universiteti
lyuda.ismayilova.75.@mail.ru

Xülasə *Məqalədə müasir dövrdə maliyyə qloballaşması şəraitində maliyyə bazarlarının təsisatları tərəfindən buraxılan və maliyyə bazarlarında dövr edən kommersiya krediti, bank krediti, səhmlər, veksellər və s. şəkilində olan borc öhdəliklərindən istifadənin yaxşılaşdırılması məsələləri şərh edilir.*

Açar sözlər*: kredit öhdəlikləri, borc kapitalı, kapitalın quruluşu, maliyyə bazarı, kapitalın rentabelliyi*

Dünya maliyyə sistemində baş verən dəyişikliklər yeni bank xidmətlərinin yaradılmasına və eləcə də mövcüd bank xidmətlərinin modernləşməsinə kredit institutlarının sərhədləri aşan əməliyyatlarının həcminin artmasına şərait yaratmışdır. Maliyyə bazarının yeni seqmentlərinin mənimsənilməsi üçün əlavə pul gəlirləri mənbələrindən istifadə olunması zəruri olmuşdur. Kredit öhdəliklərindən istifadənin təkmilləşdirilməsinin iqtisadi baxımdan əsaslandırılması, daha sonra isə təkmilləşdirilmənin əsas məzmunu ilə bağlı məsələlər önə çəkilmişdir. Burada kredit öhdəliklərindən istifadənin təkmilləşdirilməsinin məqsədi, vəzifələri, prinsipləri, funksyaları, təkmilləşrdirmə mexanizimi metodları və ondan gözlənilən nəticələr mühüm əhəmiyyət kəsb edir.

Çoxsaylı əməliyyatları həyata keçirmək üçün maliyyə bazarı iştirakçılarının əksəriyyətinin xüsusi vəsaitləri kifayət etmir. Bu da müxtəlif növ kredit öhdəliklərindən istifadəni şərtləndirir.

Ümumiyyətlə, kredit öhdəlikləri kimi, maliyyə bazarı iştirakçıları arasındakı razılaşmaya uyğun olaraq rəsmilləşdirilən borclar nəzərdə tutulur. Kommersiya krediti, bank krediti, veksellər, səhmlər və bu qəbildən olan digər borc öhdəlikləri maliyyə bazarında hərəkət edən kredit öhdəliklərinə aiddir. (1) Maliyyə bazarı təsisatlarının buraxdıqları kredit öhdəliklərindən istifadənin təkmilləşdirilməsi onların yaxşılaşdırılması, qoyulmuş şərtlərə və tələblərə uyğun şəkildə yenilənməsini nəzərdə tutur (2) Bütün bunlar isə kredit öhdəliklərinin yeni formalarının tətbiqi əsasında maliyyə itkilərinin və kredit risklərinin azaldılması mənfəətin və rentabelliyin

yüksəldilməsinə istiqamətləndirilmişdir. Kredit öhdəliklərini buraxan maliyyə bazarı inistitutları kommersiya banklarını, investisiya fondlarını, sığorta şirkətlərini, kredit ittifaqlarını və s. özündə birləşdirir. Kredit öhdəliklərinin istifadəsinin təkmilləşdirilməsindən əvvəl, bu təkmilləşdirilmənin zəruriliyini iqtisadi cəhətdən əsaslandırmaq lazımdır. Bu baxımdan hazırkı şəraitdə maliyyə bazarlarının səmərəli infraksturlarının yaradılması mütləqdir. Bu isə bir sıra amillərlə bağlıdır ki burada kredit xidmətlərinin rəqabət qabiliyyətini yüksəldilməsi, maliyyə bazarında rəqabətin kəskinləşməsi, yeni bazar seqmentlərinin mənimsənilməsi və bir sıra xarici amillər aid olunur. Haqqında danışılan kredit öhdəliklərindən istifadənin təkmilləşdirilməsinin məqsədi bu öhdəliklərin yeni formasından istifadə etməklə əlavə pul vəsaitlərinin cəlb olunmasıdır. Maliyyə itkiləri və risklərin azaldılması, borc kapitalının dəyərinin aşağı salınması məqsədi ilə kredit öhdəliklərinin birləşdirilməsindən istifadə isə bu öhdəlikləri təkmilləşdirilməsinin vəzifələri hesab olunur. Kredit öhdəliklərinin təkmilləşdirilməsi prinsipləri kimi tamlıq, fasiləsizlik, iqtisadi cəhətdən məqsədyönlülük və çeviklik nəzərdən keçirilir. Tamlıq prinsipi öhdəliklərin təkmilləşdirilməsinin kompleks şəkilində həyata keçirilməsini nəzərdə tutur. Kredit öhdəliklərinin təkmilləşdirilməsi prosesinin ardıcıl və müntəzəm sürətdə həyata keçirilməsi isə fasiləsizlik prinsipinin əsasını təşkil edir. Yalnız belə olduqda səmərəlilik əldə etmək olar. Çeviklik prinsipi daim dəyişkən olan kredit mühütinin şərtlərini nəzərə almaqla təkmilləşdirmənin həyata keçirilməsini nəzərdə tutur. İqtisadi məqsədyönlülük prinsipi kredit öhdəliklərinin təkmilləşdirilməsi ilə bağlı xərclərin həcminin onlardan istifadə nəticəsində əldə olunacaq iqsitadi səmərənin həcminin aşmamasını nəzərdə tutur. Biznes üçün zəruri olan borcların kombinələşdirilməsi kredit öhdəlilərinin təkmilləşdirilməsinin obyekti hesab olunur. Onun subyektləri isə kommersiya banklarıdır.

Kredit öhdəliklərinin təkmilləşdirilməsi məsələsində təkmilləşdirmə mexanizimi xüsusi yer tutur. Öhdəliklərin təkmilləşdirilməsi mexanizmi özündə təkmilləşdirmənin metodlarını, texnologiyasını və müvafiq göstəricilərini birləşdirir. Təkmilləşdirmənin metodları öhdəliklərin birləşdirilməsi və bu öhdəliklərin orta dəyərinin müəyyən olunmasıdır. Kredit öhdəliklərinin təkmilləşdirilməsi texnologiyası əlavə gəlir mənbələrinin cəlb olunması prosesində kapitalın tərkibinin optimallaşdırılmasına hesablanmışdır [2]. Kapitalın tərkibinin optimallaşdırılması aşağıdakı məsələləri nəzərdə tutur:

1. Cəlb olunmuş kapitalın dəyərinin minimumlaşdırılması üçün onun tərkibinin optimallaşdırılması;
2. Kredit risklərinin azaldılması üçün məkanın optimallaşdırılması;
3. Kredit risklərinin azaldılması üçün zaman baxımından optimallaşdırılmanın təmin edilməsi;
4. Dəyərin və risklərin aşağı salınması üçün məkan və zaman baxımından optimallaşdırılma.

Kredit öhdəliklərinin təkmilləşdirilməsi göstəricilərinə kapitalın rentabelliyi göstəriciləri aiddir ki, bunlarda borc kapitalının rentabelliyi, cəlb olunmuş kapitaldan səmərəli istifadə olunmanın nəticəsi kimi kommersiya təşkilatlarının fəaliyyət rentabelliyi göstəricilərini əks etdirir. Kapitalın rentabelliyi və mənfəət səviyyəsinin maksimuma çatdırılması, kredit öhdəliklərinin kombinələşdirilməsi zamanı borc kapitalının dəyərinin azaldılması, kreditlərin birləşdirilmısi zamanı maliyyə itkilərinin ixtisarı və kreditlə bağlı risklərin minimuma endirilməsi kredit öhdəliklərinin təkmilləşdirilməsindən gözlənilən nəticələr kimi qiymətləndirilir.

Kredit öhdəliklərinin təkmilləşdirilməsi mərhələli şəkildə həyata keçirilən bir prosesdir. Bu zaman ilk əvvəl kapitalın quruluşunun formalaşdırılmasını müəyyən edən amillər qiymətləndirilir. Sonrakı mərhələdə xüsusi kapitalın rentabellik səviyyəsinin artırılması üçün kapitalın quruluşunu

optimallaşdırılması həyata keçirilir. Bu optimallaşdırılma borc alınmış kapitalla şəxsi kapitalın müqayisəsinə və onlar arasındakı nisbətin maliyyə vəziyyətinə təsirinə əsaslanır.

Bu mərhələdən sonra əsas məsələ kredit riskləri səviyyəsinin minimuma endirilməsi üçün kapitalın quruluşunun optimallaşdırılması məsələsidirki, bu da üçüncü mərhələnin əsas məzmununu təşkil edir. Növbəti mərhələnin məzmunu isə kapitalın elə strukturunu formalaşdırmaqdan ibarətdir ki, burada minimum risklə maksimum rentabellik əldə edilmiş olsun. Belə yanaşma kapitalın tərkib hissələrinin konkret əhəmiyyətini seçməyə imkan verir.

Beləliklə, maliyyə bazarı təsishatlarının buraxdıqları borc öhdəliklərindən istifadənin yaxşılaşdırılması və təkmilləşdirilməsi metodu özündə aşağıdakıları birləşdirir:

Borc vəsaitlərinin dəyərinin azaldılması, kredit risklərinin minimuma endirilməsi maliyyə itkilərinin azaldılması şəxsi kapitalın rentabelliyinin artırılması kimi məqsəd və əlamətlərdən asılı olaraq kredit öhdəliklərinin birləşdirilməsinin müxtəlif formalarından istifadə əsasında borc alınmış vəsaitlərin cəlb olunmasının müxtəlif variantlarından istifadə etmək, hər bir variantda kapitalın dəyəri və quruluşunun ölçülməsi daha aydın olmasını və əyaniliyi təmin etmək üçün asılılıqların qrafiklər vasitəsi ilə təsvir edilməsi, qısa və uzunmüddətli perspektivdə seçilmiş məqsədlərə uyğun olaraq daha yaxşı və daha münasib variantın seçilməsi.

Ədəbiyyat

1. Pul və banklar. Dərslik. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2012, 472 s.

2. Натачеева Н.Н. Финансовый механизм преодоления банковских кризисов для обеспечения устойчивого роста банковского сектора России: Дис. докм. экон. наук. М.: 2013, 380 с.

3. Бригхэм Юджин Ф., Майкл С. Эрхардт. Финансовый менеджмент. 10-е изд., С-Пб.: Питер, 2005, 958 с.

Резюме

Исмаилова Л.Ф., Аллахвердиева Ч.А.

Вопросы совершенствования использования кредитных обязательств в современный период

В статье рассматриваются коммерческие кредиты, банковские кредиты, акции, векселя и т.д, выдаваемые институтами почтовых рынков и обращающиеся на почтовых рынках в современных условиях почтовой глобализации, а также вопросы совершенствования использования долговых обязательств.

Ключевые слова: *кредитные обязательства, заемный капитал, структура капитала, фондовый рынок, рентабельность капитала*

Summary

Ismayilova L.F., Allahverdiyeva Ch.A.

Issues of Improving the Use of Credit Obligations in Modern Times

The article discusses commercial loans, bank loans, stocks, bills, etc. Issued by institutions of the postal markets and circulating in the postal markets in modern conditions of postal globalization. Issues of improving the use of debt obligations.

Key words: *loan obligations, borrowed capital, capital structure, stock market, return on equity*

AZƏRBAYCANDA MALİYYƏ BAZARLARININ İNKİŞAF MEİLLƏRİ

Kərimova Günay Rasim qızı
Bakı Biznes Universiteti
gunay.kerimova85@mail.ru

Xülasə: *Məqalədə maliyyə bazarının ölkə iqtisadiyyatının inkişafında tutduğu mövqe və rol inkişaf etmiş ölkələrin təcrübəsində şərh edilir. Bazar iqtisadiyyatı şəraitində yenicə addımlayan Azərbaycan Respublikasında maliyyə bazarının yüksək səviyyədə inkişaf etməməsinin səbəbləri, ölkənin sosial-inkişafında maliyyə bazarının rolundan bəhs edilir. Dövlət səyləri müqabilində maliyyə bazarının inkişafına, eləcə də onun sosial-iqtisadi inkişafa təsirinin maksimumlaşdırılması məqsədilə qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində onun rolunun artmasına yolları qismən də olsa, araşdırılmışdır. Olkədə maliyyə bazarlarının inkişafının səmərəliliyinin artırılmasının üstünlükləri qiymətləndirilir.*

Açar sözlər: *maliyyə bazarı, investisiya, maliyyə vəsaitləri, iqtisadi artım, qiymətli kağızlar bazarı, maliyyə alətləri, iqtisadi sistem.*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə bazar iqtisadiyyatına keçidin əsas şərtləri yaranmışdır. Bazar münasibətlərinə keçid isə bir-bir ilə əlaqədar olan sosial iqtisadi münasibətlərin formalaşmasını tələb edirdi. Bazar iqtisadiyyatına keçmiş qabaqcıl ölkələrin təcrübəsi sübut edir ki yüksək səmərəli iqtisadiyyata nail olmağın bazar münasibətlərinə keçməkdən başqa bir yolu yoxdur.

Azərbaycanın maliyyə bazarının dünya maliyyə bazarına inteqrasiyası hazırki şəraitdə yüksək aktivlik fazasındadır. Yerli TMK-ların formalaşmaqda olması və iri bankların yaranması ilə belə inteqrasiya mexanizmini özündə əks etdirəcək. Ölkəmizdə iqtisadi subyektlərin, həmçinin də dövlətin kifayət qədər maliyyə resurslarının olması onların dünya bazarında səmərəli yerləşdirilməsi prosesini stimullaşdırır. Digər tərəfdən, ölkənin inkişaf edən korporasiyaları beynəlxalq kredit bazarı və qiymətli kağızlar bazarında daimi iştirakda maraqlıdır.

Çoxsaylı bazarlar içərisində maliyyə bazarı mühüm yer tutur. Maliyyə bazarı ona görə əhəmiyyətlidir ki, onun tərkibinə pul bazarı, kapital bazarı, valyuta bazarı, qızıl bazarı və.s daxildir. Onuda qeyd edtmək yerinə düşər ki, respublikamızda maliyyə bazarları digər növ bazarlara nisbətən daha sürətlə inkişaf etmişdir.

Maliyyə bazarı bazar mexanizminin mərkəzi halqalarından biri olub, bazar iqtisadiyyatının formalaşması və inkişafında mühüm rol oynayır.

Maliyyə bazarı hər bir inkişaf etmiş ölkənin iqtisadiyyatının əsası sayılmaqla, iqtisadiyyatı əlavə pul vəsaitləri ilə təmin edir, bu sahədə fəaliyyət həm kredit, həm də sosial infrastrukturlar tərəfindən həyata keçirilir. Müasir şəraitdə hər hansı bir ölkənin iqtisadiyyatının inkişafını maliyyə bazarı olmadan təsəvvür etmək qeyri-mümkündür. Maliyyə bazarında resurslar toplanır, yönəldilir, kreditləşmə, depozitlərin və valyutaların alğı-satqısı və saxlanılması da daxil olmaqla, öz müştərilərinə tam dəstdə xidmət göstərir. Müasir bazar iqtisadiyyatının bütün sektoru ilə qırılmaz əlaqədə olan maliyyə bazarının vəzifələrini yerinə yetirən maliyyə vasitəçiləri, kommersiya bankları və s. kapitalın yenidən bölgüsünü təmin edərək maliyyə bazarının mühüm iqtisadi funksiyasını yerinə yetirir və öz aktuallığı ilə seçilir.

Araşdırmalar göstərir ki, 1992-1999-cu illərdə ölkənin iqtisadi inkişafında iki mərhələ müşahidə olunur:

- birinci mərhələdə (1992-1995) istehsalın böhranlı və əhalinin əksəriyyət hissəsinin həyat səviyyəsinin aşağı düşməsi baş vermişdir;

- ikinci mərhələdə (1996-1999) iqtisadi böhran dayandırılmış və iqtisadi yüksəlişin ilk nəticələrinə nail olunmuşdur.

1995-ci ildən başlayaraq Azərbaycan hökuməti BVF və DB-nın dəstəyi ilə iqtisadi islahatlar proqramını həyata keçirməyə başlamışdır. Artıq 1996-cı ildən başlayaraq ölkə iqtisadiyyatında artım baş vermişdir.

Müstəqillik dövründə maliyyə bazarları və onu təşkil edən seqment üzrə bir çox qanunlar və normativ aktlar qəbul edilmiş və təkmilləşdirilmişdir.

20-ci əsrin 90-cı illərindən başlamış Azərbaycan iqtisadiyyatının bazar transformasiyası resursların yenidən bölgüsü və korporativ maliyyələşdirmənin təşkili mexanizmi kimi maliyyə bazarının fornalaşdırılmasının əsas məqsədinin biri kimi nəzərdə tuturdu. Azərbaycanın maliyyə bazarının yaranma prosesinin əsas şərti, hərəkətverici qüvvəsi mülkiyyət münsaibətlərinin yenidən qurulması olmuşdur. Dövlət əmlakının özəlləşdirilməsinin seçilmiş forması, xüsusən özəlləşdirilmə çeklərinin paylanılması geniş səhmdarlar təbəqəsinin yaranmasına gətirib çıxarmalı idi. Bu da gələcəkdə Azərbaycanda maliyyə bazarının İngilis - Amerikan modelinin meydana gəlməsinə səbəb ola bilərdi. Bunun üçün isə korporativ maliyyələşdirmə zamanı fond bazarının resurslarının istifadədən üstün olması xarakterik idi. Lakin bu dövrlərdə ölkəmizdə kommersiya banklarının kifayət qədər güclü sisteminin yaradılmasının əlverişli perspektivi qalmaqla davam edirdi. Bu onunla əlaqədar idi ki, ölkəyə bank islahatı hələ sovet dövründə (1989-cu ildə) başlamışdır.

18 oktyabr 1992-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə müstəqil bank sisteminin yaradılması sahəsində müxtəlif tədbirlər həyata keçirildi. Belə ki Azərbaycan Respublikasının Prezidentinin 10 yanvar 1992-ci il tarixli Fərmanına əsasən Azərbaycan Beynəlxalq Bankı yaradıldı. Azərbaycan Respublikasının Milli Bankının yaradılması haqqında 11 fevral 1992-ci il tarixli digər Fərman ilə keçmiş SSRİ Dövlət Bankı, Sənaye Tikinti Bankı və Aqrar Sənaye Bankının bazasında Azərbaycan Respublikasının Milli Bankı, keçmiş Əmanət Bankının bazasında isə Azərbaycan Respublikasının Əmanət Bankı yaradıldı.

1992-ci il avqustun 7- də "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Azərbaycan Respublikasıda banklar və bank fəaliyyəti haqqında" qanunların qəbul edilməsi ilə ölkəmizdə bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq ikipilləli bank sistemi yaradılmış oldu. Nəticədə, ölkəmizdə çoxsaylı xırda banklar yaradılmış və onların sayı 1994-cü 233-ə, bank filiallarının sayı isə 375-ə çatmışdır.

Banklar meydana gəldiyi ondan çox ölkədə formalaşmaqda olan valyuta bazarı əsas iştirakçıları yaranmağa başladı.

Beləliklə, artıq 1992-ci ilin axırları 1993-cü ilin əvvəllərində Azərbaycan maliyyə bazarının bütün seqmentləri aktiv surətdə inkişaf etməyə başlamışdır. Lakin bu seqmentin hər birinin yaranması prosesi qeyri – bərabər və ciddi problemlərlə rastlamış olurdu. Bu, hər şeydən əvvəl, maliyyə bazarının makroiqtisadi şəraitinə aiddir. Azərbaycan Respublikasının Milli Bankının 1992-ci ildə təzahür etmiş inflyasiya prosesini aradan qaldırmaq səyi sərt pul – kredit siyasətini müəyyən etmiş oldu. Bu siyasət iqtisadiyyatda likvidliyin çatışmazlığında və hesablaşmanın barterləşdirilməsinə səbəb olmuşdur. Belə şəraitdə dövlət mülkiyyətinin xeyli hissəsinin özəlləşdirilməsi reallaşdırılan aktivlərin qiymətləndirilməsinə gətirib çıxarmışdır. Pul təklifinin çatışmazlığı formalaşmaqda olan şirkətlərin kifayət qədər kapitallaşmamasının, tədavül edilən səhmlərin aşağı likvidliyinin əqdlərinin kiçik həcmliyinin və nəticədə bütövlükdə birja bazarının aşağı likvidliyinin başlıca səbəbi olmuşdur.

Azərbaycanda özəlləşdirmə metodu həyata keçirilərkən fərdləşmiş struktur bölmələr əvvəllər də formalaşmış istehsal birliklərindən çıxarılmış və ayrıca satış aparılmışdır. Bu isə əsasən

aşağı qiymətli xırda şirkətlərin meydana gəlməsinə səbəb olmuşdur. Bu kimi qayda, nəticədə, onların səhmlərinin qiymətləndirilməsini müəyyən etmiş və kapitalın təmərküzləşməsi prosesini çətinləşdirmişdir. Bu da ona gətirib çıxarmışdır ki səhmdarların əksəriyyət hissəsi mümkün dividentin ödənilməsini təmin etməyən aşağı gəlirli xırda şirkətlərin sahibkarları olmuşlar. Respublikamızda fond bazarı digər postsovet ölkələrindən 4-5 il gec formalaşmışdır [4, səh.202].

Azərbaycanda fond bazarının yaranması və inkişafı əksər postsovet ölkələrində olduğu kimi dövlət mülkiyyətinin özəlləşdirilməsilə sıx surətdə əlaqədar olmuşdur.

Respublikamızda aparılan uğurlu islahatlar, dövlət mülkiyyətininin özəlləşməsi nəticəsində qiymətli kağızların inkişafı üçün əlverişli şərait yaradılmışdır. 24 noyabr 1992-ci ildə qəbul edilən "Qiymətli kağızlar və fond birjası haqqında" Qanunu ölkədə qiymətli kağızlar bazarının inkişafını tənzimləyən ilk qanunlardan biri hesab etmək olar. Lakin buna baxmayaraq, yalnız 1995-ci ildə mülkiyyətin özəlləşməsinin birinci mərhələsi başlamış, Auksion Mərkəzi "Mülk" Milli Depozit Mərkəzi kimi özəlləşdirmə prosesi üçün zəruri infrastrukturu təmin edən və fond bazası funksiyalarını həyata keçirən qurumlar yaradılmışdır [4, səh.203].

1992-1999-cu illərdə iqtisadiyyatda pil təklifinin çatışmazlığı fond bazarının bu dövrdə ümumi qeyri sabitliyinə səbəb olmuşdur. Bu dövrdə bazarın vəziyyətini tənzimləyici orqanlar tərəfindən zəif təsir etmiş, fond bazarının fəaliyyətinin və onun tənzimlənməsi prosedurunun hüquqi əsasının olmamasında təzahür etmişdir.

Qeyri-əlverişli makroiqtisadi şərait və hər şeydən əvvəl iqtisadiyyatda likvidliyin kifayətedici olmaması 1992-1999-cu illərdə bank sektorunda qeyri-sabitliyinə və Azərbaycan banklarının aşağı kapitallaşmasına səbəb olmuşdur. Bu isə bank sferasının zəif inkişaf tempinin olduğunu müəyyən etmiş oldu. Banklar valyuta bazarında əsasən möhtəkirlik əməliyyatları ilə aktiv məşğul olurdular. Sənayenin kreditləşməsini isə yalnız xammal və energetika şirkətləri ilə razılığa gəlmiş banklar həyata keçirirdilər. Bu şirkətlərin məhsullarına tələbat o dövrdə yalnız vahid pul likvidliyi mənbəyinə - valyuta varidatına daxil olmağı təmin etmiş oldu. Lakin 1996-1998-ci illərdə enerji daşıyıcılarını qiymətinin aşağı düşməsi ixrac üzrə daxil olmaların aşağı düşməsinə və iqtisadiyyatda pul kütləsinin daha da ixtisar olunmasına səbəb oldu.

Likvidliyin olmaması yüksək faiz dərəcəsinin mövcudluğunun başlıca səbəbi idi. Bunu göstərmək kifayətlənir ki, DQİ-nın gəlirliyi 120 % olmuşdur. Bu iqtisadiyyatın real sektoru ilə maliyyə sektoru arasında əlaqələri pozmuş olurdu. Bir tərəfdən maliyyə bazarı nəinki sərbəst pul vəsaitlərinin səfərbər edilməsinin mərkəzi olur, digər tərəfdən real sektorun şirkətlərinin aşağı rentabelliyi bu kasad resursların istifadə edilməsinə imkan vermirdi.

Azərbaycanda ilk birja XlX əsrin axırlarında, neftçıxarma sənayesinin inkişaf etdiyi bir dövrdə yaradılmışdır. Belə ki, 1886-cı il iyunun 18-də Bakı birjasının Nizamnaməsi qəbul edilmişdir. Bakı birjasında müxtəlif şirkətlərin səhmləri kotirovkalara əsasən neft və neft məhsullarının dünya qiymətləri müəyyən edilirdi.

Azərbaycanın qiymətli kağızlar bazarının yaradılması və inkişafı ölkəmizdə həyata keçirilən özəlləşdirmə ilə sıx surətdə əlaqədardır.

Qiymətli kağızların alğı-satqısını həyata keçirtmək üçün 1996-cı ildə Bakı banklararası valyuta birjasının nəzdində fond şöbəsi yaradılmış, 15 fevral 2000-ci ildən etibarən isə müstəqil olaraq Bakı Fond Birjası fəaliyyət göstərir. Bakı Fond Birjası qapalı tipli səhmdar cəmiyyəti formasında yaradılmışdır. Hazırda birjanın 20 səhmdarları və 18 üzvü vardır.

Birjada tədavül edən əsas maliyyə alətləri qısa müddətli dövlət istiqrazları (QDİ) Mərkəzi Bankın notları, səhmlər və istiqrazlardan ibarətdir. Bazar dövriyyəsinin 80 %-dən çoxu ilkin yerləşdirmənin və yalnız 20%-ə qədəri təkrar yerləşdirmənin payına düşür.

Bank Fonda Birjasının qiymətli kağızlarının listenqinə (onların birjadan ticarətə buraxılışına) aşağıdakı tələblər qoyulur: Kapitalın minimum həcmi 1 mln. manat, illik mənfəətin həcmi 100 mln. manat, səhmlərin həcmi isə azı 500 mln. manat olmalıdır [4, səh.202].

Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 1998-ci il tarixli Fərmanı ilə Qiymətli Kağızılar üzrə Dövlət Komitəsinin yaradılması və Qiymətli Kağızlar haqqında yeni qanunun qəbul edilməsi ölkədə qiymətli kağızlar bazarının inkişafında yeni mərhələ olmuşdur. Qiymətli kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyət göstərdiyi qısa müddət ərzində ölkədə qiymətli kağızlar və fond birjasının yaradılması və inkişafı ilə əlaqədar bir sıra normativ sənədlər qəbul edilmiş: Bakı Fond birjası yaradılmış dövlət mülkiyyətinin özəlləşdirilməsi üzrə ikinci Dövlət Proqramı və Azərbaycanda Qiymətli Kağızlar bazarının inkişafı üzrə Proqram qəbul edilmişdir. Bundan əlavə, Depozit Mərkəzi yenidən təşkil edilmiş müasir fond bazarı vasitəçiləri olan broker və diler institutları formalaşdırılmışdır.

Ölkədə aparılan iqtisadi islahatlar nəticəsində özəl sektor və sahibkarlıq, qiymətli kağızlar bazarının da dinamik inkişaf təmin edilmişdir. Belə ki 2005-2009-cu illərdə bütövlükdə Bakı Fond Birjasının ticarət dövriyyəsi 6,4 dəfə, o cümlədən dövlət istiqrazları ilə ticarətin həcmi 9,7 dəfə, korporativ istiqrazlar üzrə əməliyyatların həcmi isə 23,3 dəfə artmışdır. Nəticədə, Bakı Fond Birjasının ticarət dövriyyəsi ÜDM-in 4,1% -dən 9,6%-dək yüksəlmişdir.

2008-ci ildə baş verən qlobal maliyyə böhranının təsirlərindən qorunmaq məqsədilə qiymətli kağızların inkişaf strategiyası hazırlanmışdır. Bu məqsədlə normativ hüquqi bazanın təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması, tam avtomatlaşdırılması, fond bazarı alətlərinin çeşidinin genişləndirilməsi, yerli və xarici investorların Azərbaycan qiymətli kağızları bazarı haqqında məlumatlandırılması kimi bir sıra vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ölkəmizdə qiymətli kağızlar bazarının uzunmüddətli perspektivdə inkişafını təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 16 may 2011-ci il tarixli Sərəncamı ilə 2011 - 2020 illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı üzrə "Dövlət Proqramı"qəbul edilmişdir. Bunun nəticəsidir ki, 2012-ci ildə qiymətli kağızlar bazarının dövriyyəsi ötən illə müqayisədə 6% artaraq 9,4 mln. manat təşkil etmişdir. Bu dövrdə Mərkəzi Bankın notları, eləcə də onlarla aparılan repo əməliyyatlarının artımı nəticəsində bütövlükdə dövlət qiymətli kağızları bazarında keçən illə müqayisədə 20 % artım olmuşdur ki, bu da 8,1 mlrd dollar təşkil etmişdir. 2012-ci ilin ikinci yarısında Maliyyə Nazirliyi tərəfindən dövlət istiqrazları vasitəsilə bazardan cəlb edilmiş vəsaitlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,2%, bütövlükdə bazarın həcmi isə 50,0 % artaraq 130 mln. manat olmuşdur. Bu dövrdə özəl sektoru – təmsil edən şirkətlərin səhm bazarından cəlb etdiyi vəsaitlərin həcmi əvvəlki illə müqayisədə 24,4 % artaraq 186,4 mln. manat təşkil etmişdir. Eyni zamanda səhmlərin təkrar bazarında aktivliyin yüksəlməsi bazarın bu seqmentinin 2 dəfə artmasına təkan vermişdir.

Beləliklə, səhmdar cəmiyyətlər, maliyyə bazarları və onların alətləri ilə baş verən istehsal fəaliyyətləri nəinki ölkəmizdə geniş təkrar istehsalın yaranmasına, həm də işsizlərin işlə təmin olunmasında da mühüm rol oynayır. Bununla da maliyyə bazarının inkişafı ölkədəki istehsal bazasını genişləndirir, onun kəmiyyət və keyfiyyət cəhətdən yüksəlməsinə şərait yaradır.

Ədəbiyyat

1. Qiymətli kağızlar və fond birjası haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı,1998.

2. Qiymətli kağızlar və fond birjası haqqında Azərbaycan Respublikasının Qanunu. 24 noyabr 1992-ci il.

3. Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitasinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 4 avqust 2013-cü il.

4. Huseynov X.Ə.,Balayeva E.Ə. Pul, kredit və banklar. Dərslik. Bakı, 2015. 293 s.

5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016-cı iltarixli Sərəncam. 723 s.

Резюме

Керимова Г.Р.

Тенденции развитие финансовых рынков в Азербайджане

Позиция и роль финансового рынка в развитии экономики страны объясняется опытом развитых стран. Причины высокого уровня развития финансового рынка в Азербайджанской Республике, который является новым шагом в рыночной экономике, обсуждаются в роли финансового рынка в социально-экономическом развитии страны. Государственные усилия частично изучались для повышения его роли в результате реализации государственных программ, принятых в целях улучшения финансового рынка, а также его влияния на социально-экономическое развитие. Оценены преимущества повышения эффективности финансовых рынков в стране.

Ключевые слова: *финансовый рынок, инвестиции, финансовые ресурсы, рынок ценных бумаг, финансовые инструменты, экономическая система.*

Summary

Kerimova G.R.

Financial Markets Development in Azerbaijan

The position and role of the financial market in the development of the country's economy is explained in the experience of developed countries. The reasons for the high level of development of the financial market in the Republic of Azerbaijan, which is a new step in the market economy, are discussed in the role of the financial market in the country's socio-economic development. State efforts have been studied in part to increase its role as a result of the implementation of state programs adopted in order to improve the financial market as well as its impact on socio-economic development. Advantages of increasing the effectiveness of financial markets in the country are estimated.

Key words: *financial market, investment, financial resources, securities market, financial instruments, economic system.*

AUDİT BİZNESİN SƏMƏRƏLİLİYİNİN ƏSAS AMİLİ KİMİ

Qurbanova Röya Vilayət qızı

Sumqayıt Dövlət Universiteti

roya.qurbanova.80@nbox.ru

Xülasə: *Bu məqalə maliyyə hesabatlarının auditinin aktual probleminə həsr edilmişdir. Yoxlama mülki hüquq, inzibati hüquq, mühasibat uçotuna əsaslanır. Buna görə, bu işin nəticəsi "audit" anlayışının tərifinə müxtəlif yanaşmaların öyrənilməsi, həmçinin auditin əsas məqsəd və*

vəzifələrinin aydınlaşdırılmasıdır. Həmçinin məqalədə normativ-hüquqi bazanın möhkəmləndirilməsi, peşəkar audit kadrlarının hazırlanması audit xidmətinin yüksəldilməsi açıqlanmışdır. Bu da Azərbaycan Respublikasında audit xidmətlərinin səmərəliliyinin artırılmasına kömək edəcəkdir.

Açar sözlər: *audit, audit fəaliyyəti, audit məqsədləri, dövlət nəzarəti, maliyyə hesabatı.*

Hal-hazırda sahibkarlığın inkişafı mühasibat məlumatlarının sahibkarlıq fəaliyyətinin idarə edilməsi, nəzarəti və təhlili sahələrində artan rolu ilə müşayiət olunur. Buna görə yoxlamaya ehtiyac var. Audit müəssisənin maliyyə hesabatlarına müstəqil baxış və fikir bildirməkdir.

Audit, məcburi olmasa da, şübhəsiz vacibdir. Bazar şəraitində müəssisələr, kredit təşkilatları, digər təsərrüfat subyektləri əmlak, pul vəsaitləri, kommersiya əməliyyatları və investisiyalardan istifadə üçün müqavilələr əsasında münasibətlər qururlar. Bu əlaqələrin etibarlılığı əməliyyatların bütün iştirakçıları tərəfindən maliyyə təminatını əldə etmək və istifadə etmək imkanı dəstəklənməlidir. Bütün bu məlumatların düzgünlüyü müstəqil auditor tərəfindən təsdiqlənir. Maliyyə hesabatlarının etibarlılığını təsdiqləmək üçün onun doğruluğunu dövlət orqanları və aidiyyəti qurumlar tərəfindən yoxlamalar da lazımdır.

Audit anlayışı auditdən və ya digər nəzarət formalarından daha genişdir, çünki bu, yalnız maliyyə göstəricilərinin etibarlılığını yoxlamaqla yanaşı, xərclərin rasionallaşdırılması və vergilərin optimallaşdırılması məqsədilə müəssisələrin iqtisadi fəaliyyətinin yaxşılaşdırılması üçün fərziyyələrin hazırlanmasını da əhatə edir.

İqtisadi baxımdan, audit idarəetmə funksiyalarından biri olan xüsusi idarəetmə formasıdır. Audit fəaliyyətinin iqtisadi mahiyyəti onun uçot və nəzarət funksiyaları ilə aşkar edilir və yoxlanılan qurumun təsərrüfat və maliyyə fəaliyyətinin auditinin nəticələri, hesabatların etibarlılığı, təsərrüfat subyektinin idarəetmə sisteminin səmərəliliyini artırmaq üçün idarəetmə tövsiyələrinin verilməsi faktının təsdiqlənməsi kimi əks olunur. Audit fəaliyyətinə qanuni və faktiki hərəkətlərin iki qrupu daxildir: auditin özü və auditlə əlaqəli xidmətlər. Əgər biz yoxlamanı hüquqi baxımdan hüquqi kateqoriya kimi nəzərdən keçirsək, onda audit audit sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur. Bu normalar dəsti öz növbəsində özəl hüquq və ictimai hüquq prinsiplərini ahəngdar şəkildə birləşdirən müstəqil, inteqrasiya olunmuş bir hüquqi institut təşkil edir. Ancaq bu institutun əsasını mülki hüquq təşkil edir.

Bir sıra alimlər audit haqqında fərqli fikirlər bildirirlər. Beləki, Yüksək İxtisaslı Amerika Audit Peşəkarları E.A. Ahrens və J.K. Lobbeck audit haqqında aşağıdakı tərif verir: "Audit, səlahiyyətli müstəqil bir işçinin müəyyən bir iş sistemi ilə əlaqəli miqdarda məlumatların sübutlarını toplayaraq qiymətləndirməsində bu məlumatın ardıcıllığını müəyyənləşdirmək və ifadə etmək üçün həyata keçirilən prosesdir."

Rusiya alimlərinin fikrincə isə audit və audit fəaliyyətini fərqləndirirlər. Onların fikrincə "Audit fəaliyyəti" aşağıdakı anlayışı verir: audit fəaliyyəti (audit xidmətləri) - fərdi auditorlar tərəfindən həyata keçirilən audit fəaliyyəti və audit təşkilatları tərəfindən həyata keçirilən auditlə əlaqədar xidmətlərdir. Audit fəaliyyətinə tələblərə uyğun olaraq və audit fəaliyyətinin standartlarında müəyyən edilmiş tələb və prosedurlardan fərqli şəkildə aparılmış yoxlamalar daxil deyil. Audit - yoxlanılan qurumun mühasibat uçotu (maliyyə) hesabatlarının bu cür hesabatların etibarlılığı barədə rəy bildirmək üçün müstəqil yoxlamasıdır.

"Audit fəaliyyəti" və "audit" anlayışlarının ayrı olmasına fərqli yanaşılmasına baxmayaraq, bəzi elm adamları isə onları birlikdə hesab edirlər.

Beləliklə, rus alimi L.I. Bulgakova təklif edir ki, audit dar mənada sahibkarlıq növü, kommersiya fəaliyyətini həyata keçirən hüquqi şəxs kimi yaradılan audit təşkilatlarının peşə fəaliyyəti, habelə qanunla müəyyən edilmiş qaydada hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi qeydiyyata alınan fərdi auditorlardır.

Bundan başqa, bəzi elm adamları, məsələn, Danilevski Y.A. , auditin "yoxlama (audit) və digər əlaqəli audit xidmətlərinin göstərilməsində auditor firmalarının (auditorların) fəaliyyəti" olduğunu, audit və audit anlayışlarının fərqləndiyini düşünür.

Əgər "audit" anlayışı audit fəaliyyəti anlayışından asılı olmayaraq nəzərə alınırsa, müasir hüquq elmində birmənalı şəkildə müəyyənləşdirilir və qiymətləndirilir. "Audit" termini tez-tez "ixtisaslı mütəxəssislər (auditorlar) tərəfindən müəssisənin maliyyə hesabatlarının müstəqil ekspertizası" kimi başa düşülür.

İngilis alimləri, R. Adams, yoxlamanı "müəssisənin maliyyə hesabatlarının xüsusi təyin olunmuş auditoru tərəfindən müstəqil araşdırılması və qanunla müəyyən edilmiş qaydalara uyğun olaraq onlar haqqında rəy ifadə etməsi" olaraq təyin edirlər.

Yuxarıda göstərilənləri nəzərə alaraq, audit termininin audit və nəzarət kimi anlayışlardan daha geniş olduğuna diqqət çəkə bilərik. Nəzarət formalarından biri kimi auditin özünəməxsusluğu ondan ibarətdir ki, audit nəinki maliyyə göstəricilərinin etibarlılığının yoxlanılmasını təmin edir və bugünkü müştərinin ehtiyaclarını nəzərə alaraq, vəsaitlərin səmərəli xərclənməsinə imkan verən iş fəaliyyətinin optimallaşdırılması üçün təkliflər hazırlayır və nəticədə mənfəətin artmasına səbəb olmalıdır.

Ayrıca qeyd etmək lazımdır ki, yoxlama, işin zəif tərəflərini müəyyənləşdirmək və onların aradan qaldırılması üçün tövsiyələr verməklə biznesin bir növ müayinəsi kimi müəyyən edilə bilər.

Auditin əsas məqsədi təsərrüfat subyektlərinin uçot (maliyyə) hesabatlarının etibarlılığını və maliyyə-təsərrüfat əməliyyatlarının normativ aktlara uyğunluğunu müəyyən etməkdir.

Maliyyə hesabatlarının auditi zamanı auditor təşkilatına aşağıdakılarla əlaqəli nəticə verməyə imkan verən kifayət qədər və müvafiq audit sübutları əldə edilməlidir.

a) təsərrüfat subyektinin uçotunun müəssisədə mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tələb olunan qaydalara uyğun tərtib edilməsinin tənzimlənməsi;

b) maliyyə hesabatlarının audit təşkilatının təsərrüfat subyektinin fəaliyyəti barədə verdiyi məlumatların uyğunluğu.

Audit təşkilatının maliyyə hesabatlarının etibarlılığı ilə bağlı rəyi iqtisadi qurum haqqında məlumat verməkdə maraqlı olan istifadəçilər tərəfindən bu ifadələrə daha çox etimad yarada bilər.

Eyni zamanda, etibarlılıq dedikdə bu hesabatların istifadəçisinə təsərrüfat fəaliyyətinin nəticələri, yoxlanılan qurumların maliyyə və əmlak vəziyyəti haqqında düzgün nəticələr çıxarmağa və bu nəticələr əsasında məlumatlı qərarlar qəbul etməyə imkan verən maliyyə (mühasibat uçotu) məlumatlarının düzgünlüyünün dərəcəsi başa düşülür. Ümumiyyətlə, maliyyə hesabatlarının yuxarıdakı tərifi beynəlxalq maliyyə hesabatları standartlarının (BMHS) və mühasibat uçotu qaydalarının şərhinə uyğundur. Beləliklə, MHBS qeyd edir ki, "maliyyə hesabatları ədalətli təqdimat tələbinə necə əməl olunacağına dair etibarlı bir təqdimat verməlidir və rədd edilməsinin zəruri olduğu çox nadir halları müəyyənləşdirmək üçün əlavə təlimat verməlidir."

Auditor dərc edilmiş maliyyə (mühasibat) hesabatlarının düzgünlüyünü təsdiqləməlidir, bu istifadəçilərə məlumat riskinin az olmasını gözləməyə imkan verir. Yanlış məlumat vermə riskinin azaldılması auditin əsas məqsədlərindən biridir.

Makroiqtisadi səviyyədə audit bazar infrastrukturunun bir elementidir, buna ehtiyac aşağıdakı şərtlərlə müəyyən edilir:

a) maliyyə hesabatlarının istifadəçiləri, o cümlədən təsərrüfat subyektinin rəhbərliyi, iştirakçıları və əmlak sahibləri, həqiqi və potensial investorlar, işçilər və müştərilər, hakimiyyət və bütövlükdə ictimaiyyət tərəfindən qərarların qəbulu üçün istifadə olunur;

b) maliyyə hesabatları bir sıra amillərə, xüsusən də qiymətləndirmələrin istifadəsinə və iqtisadi həyat faktlarının qeyri-müəyyən şəkildə şərh edilməsinə görə təhrif oluna bilər;

Bundan əlavə, tərtibatçıların mümkün qərəzləri səbəbindən maliyyə hesabatlarının etibarlılığı avtomatik olaraq təmin edilmir;

c) maliyyə hesabatlarının etibarlılıq dərəcəsi, bir qayda olaraq, istifadəçilərin əksəriyyəti tərəfindən mühasibat uçotu və digər məlumatlara daxil olmaq çətinliyi, habelə təsərrüfat subyektinin maliyyə hesabatlarında əks olunan iş əməliyyatlarının çoxluğu və mürəkkəbliyi səbəbindən müstəqil qiymətləndirilə bilməz.

Azərbaycanda bazar iqtisadiyyatının formalaşması, müxtəlif növ mülkiyyət formalı müəssisələrin yaranması və ölkəmizin dünya ölkələrinin birgə yaşayış tərzinə inteqrasiya olunması, idarəetmə sahəsində və eləcədə nəzarət sisteminin təşkili, onun metodoloji məsələlərinin həlli və bütövlükdə bu mexanizmin fəaliyyət göstərməsi sahəsindəki köklü dəyişikliklərin həyata keçirilməsini tələb etdi. Belə bir şəraitdə daxili və müstəqil xarici, həm də dövlət nəzarətinə alternativ ola biləcək bir nəzarətin yaradılıb inkişaf etdirilməsinə son dərəcə böyük ehtiyac yarandı. Məhz belə bir vaxtda respublikamızda müstəqil və peşəkar auditə böyük tələbat yaranmağa başlandı. Bununla əlaqədar olaraq bir-birinin ardınca audit haqqında qanunlar qəbul olunmuşdur. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq maliyyə (mühasibat) hesabatlarının etibarlılığına nəzarəti səlahiyyətli dövlət orqanları tərəfindən aparılır. Eyni zamanda qanuna görə, auditor auditorun ixtisas sertifikatı almış və auditorların özünü tənzimləyən təşkilatlarından birinin üzvüdür. Audit təşkilatı auditorların özünü tənzimləyən təşkilatlardan birinin üzvü olan kommersiya təşkilatıdır.

Yoxlama ilə audit arasındakı fərq ondan ibarətdir ki, sonuncu da müxtəlif audit xidmətləri göstərir. Son zamanlarda əsas diqqət müəssisələrin idarəetmə sisteminin və hər şeydən əvvəl daxili nəzarət sisteminin səmərəliliyinin artırılmasına yönəldilir. Sistemli bir yanaşma keyfiyyətli audit xidmətlərinin inkişafına yol açdı, yəni. audit strukturları birbaşa yoxlamadan daha çox məsləhət fəaliyyəti ilə məşğul olmağa başladılar.

Müvafiq audit işləri və xidmətlərinə aşağıdakilar daxildir:

1) mühasibat uçotunun tərtib edilməsi, bərpası və aparılması, mühasibat (maliyyə) hesabatlarının hazırlanması, mühasibat uçotu üzrə məsləhətlər;

2) vergi məsləhəti, bəyannamə, vergi uçotunun bərpası və aparılması, vergi hesablamaları və bəyannamələrin hazırlanması;

3) təşkilatların və fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyətlərinin təhlili, iqtisadi və maliyyə tövsiyələri;

4) idarəetmə konsaltinqi, o cümlədən təşkilatların yenidən təşkili və ya özəlləşdirilməsi ilə bağlı;

5) audit fəaliyyəti ilə əlaqəli sahələrdə, o cümlədən hüquqi məsləhət, mülki və inzibati məhkəmə icraatlarında, vergi və gömrük hüquqi münasibətlərində, dövlət orqanlarında və yerli özünüidarəetmə orqanlarında təmsilçiliyin təşkili;

6) mühasibat uçotunun və informasiya texnologiyalarının tətbiqinin avtomatlaşdırılması;

7) qiymətləndirmə fəaliyyətləri;

8) investisiya layihələrinin hazırlanması və təhlili, iş planlarının hazırlanması;

9) audit fəaliyyəti ilə əlaqəli sahələrdə tədqiqat və təcrübi işlərin aparılması

nəticələrin, o cümlədən kağız və elektron mediada yayılması;

10) audit fəaliyyəti ilə bağlı sahələrdə təlim.

Audit fəaliyyətinin məqsəd və vəzifələri çoxşaxəlidir. Beləliklə, auditin əsas məqsədləri aşağıdakılardır:

- maliyyə və təsərrüfat əməliyyatlarının qanuniliyinin yoxlanılması;
- mühasibat və hesabat vəziyyətinin yoxlanılması;
- ən vacib hesabat göstəricilərinin, o cümlədən balans hesabatı, maliyyə nəticələrinin hesabatı və s. təsdiqlənməsi;
- daxili istehsal ehtiyatlarını müəyyən etmək məqsədi ilə iqtisadi fəaliyyətin öyrənilməsi;
- Resursların (əmək, maliyyə, material) istifadəsinin vəziyyətinin və səmərəliliyinin yoxlanılması.

Yoxlama mülki hüquq, inzibati hüquq, mühasibat uçotuna əsaslanır. Yoxlamanın son məqsədi təşkilatın maliyyə vəziyyətini, maliyyə sabitliyini və kredit qabiliyyətini təhlil etməkdir.

Beləliklə, bazar iqtisadiyyatı inkişaf etdikcə, rəqabət güclənir və iqtisadi əlaqələr güclənir, təşkilatlar getdikcə həm məcburi, həm də proaktiv audit keçirməkdə maraqlı olacaqlar. Audit fəaliyyətinin qanunvericilik və tənzimləmə bazasının təkmilləşdirilməsi, habelə yüksək ixtisaslı peşəkar audit heyətinin hazırlanması Azərbaycan Respublikasında audit xidmətlərinin səmərəliliyinin artırılmasına kömək edəcəkdir.

Hal-hazırda auditor və auditor təşkilatlarının sayı auditorlar arasında rəqabət yarada biləcək səviyyəyə çataraq və təsərrüfat subyektləri daha ixtisaslı tərəfdaş seçmək imkanına sahibdirlər. Bütün bunlar həm təsərrüfat subyektlərinin səmərəliliyinin artmasına, həm də ölkənin ümumi sosial istehsalına töhfə verəcəkdir.

Ədəbiyyat

1. Аникин А.В., Аксенов Д.А. О развитии угольной промышленности и ее значении в экономике Индонезии // Деньги и кредит. 2016, № 8, с. 77-79.

2. Васильев К.А., Шамин А.Е. Методические подходы к оценке потенциала кластеризации аграрной сферы региона // Вестник НГИЭИ. 2016, № 5 (60), с. 7-18.

3. Герасимова Л.Н., Зиновкина М.Е. Современные тенденции учета деривативов // В сборнике: Бухгалтерский учёт, анализ, аудит и налогообложение: проблемы и перспективы. Сборник статей II Всероссийской научно-практической конференции. Под общей ред. Н.Н. Бондиной. 2014, с. 26-29.

4. Нечаев В.И., Герасимова Л.Н. Совершенствование методов анализа дебиторской задолженности и денежных средств с целью снижения финансовых рисков предприятия // Аудит и финансовый анализ. 2007, № 5, с.105-117.

Резюме

Курбанова Р.В

Аудит как фактор эффективности бизнеса

Данная статья посвящена актуальной проблеме - проведению аудита финансовой отчетности. В основе аудита лежат гражданское право, административно-хозяйственное право, бухгалтерский учет. Поэтому результатом данного исследования является изучение различных подходов к определению понятия «аудит», а также уточнение ключевых целей и задач проведения аудита.

Ключевые слова: *аудит, аудиторская деятельность, цели аудита, государственный контроль, финансовая отчетность.*

Summary

Gurbanova R.V.

The main Faculty of the Audit Business's Efficiency

This article is devoted to an actual problem - the audit of financial statements. The basis of the audit are civil law, administrative and commercial law, accounting. Therefore, the result of this study is to explore different approaches to the definition of "audit", as well as the refinement of key goals and objectives of the audit.

Keywords: *audit, audit activities, audit objectives, state control, financial reporting.*

AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ DAYANIQLILIĞININ İQTİSADİ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ STRATEJİ ƏHƏMİYYƏTİ

Məhərrəmov Mətləb Möhübbət oğlu

Sumqayıt Dövlət Universiteti

science.info@gmail.com

Xülasə: *Məqalədə Azərbaycanda sənaye müəssisələrinin maliyyə dayanıqlılığının iqtisadi təhlükəsizlik kontekstində strateji əhəmiyyəti tədqiq olunmuşdur. Bu məqsədlə, sənaye müəssisələrinin maliyyə dayanıqlılığı probleminin mahiyyəti açıqlanmış və təhlil olunmuşdur. Sənaye müəssisələrinin iqtisadi təhlükəsizlik baxımından fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və yenilənməsinin vacibliyi əsaslandırılmışdır. İqtisadiyyatın şaxələndirilməsində maliyyə sabitliyinin əhəmiyyəti ön plana çəkilmişdir və hər bir sənaye müəssisəsinin iqtisadi təhlükəsizliyinin təmin olunmasında maliyyə dayanıqlılığının rolu açıqlanmışdır. Müəssisənin maliyyə strategiyasının müasir çağırışlara uyğun şəkildə hazırlanması və tətbiqinə metodoloji yanaşmalara baxılmışdır. Sənaye müəssisələrində maliyyə intizamının gücləndirilməsi, maliyyə axınının hərəkəti üzrə nəzarət mexanizminin optimallığının vacibliyi bildirilmişdir. İqtisadi islhatlar şəraitində Azərbaycanda sənaye müəssisələrinin maliyyə dayanıqlılığının iqtisadi təhlükəsizlik kontekstində strateji əhəmiyyəti üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

Açar sözlər: *sənaye müəssisələri, maliyyə dayanıqlılığı, iqtisadi təhlükəsizlik, sənaye müəssisələrinin maliyyə dayanıqlılığı, sənaye müəssisələrinin iqtisadi təhlükəsizlik problemləri, sənaye müəssisələrinin maliyyə dayanıqlılığı strategiyası.*

Müasir dövrdə maliyyə sabitliyinin təmin edilməsi məsələləri kifayət qədər aktuallığı ilə fərqlənir və bununla bağlı amillərə əsas etibarilə ölkənin iqtisadi təhlükəsizliyi kontekstində baxılır. Buna görə də maliyyə sabitliyi və ya maliyyə dayanıqlılığı problemlərinin həlli istiqamətində metodolji yanaşmalarda maksimum optimal həlli yollarının müəyyənləşdirilməsi tələb olunur. Belə ki, maliyyə sabitliyindən və müəssisələrin maliyyə dayanıqlılığından aparılan iqtisadi islahtların səmərəli şəkildə təşkili birbaşa asılıdır. Xüsusilə maddi nemətlərin hazırlandığı, milli məcmu məhsulun yarandığı müəssisələrdə, əsas etibarilə sənaye müəssisələrində maliyyə dayanıqlılığının təmin edilməsi iqtisadi təhlükəsizlik kontekstində strateji əhəmiyyət daşıyır. Bu baxımdan maliyyə sabitliyinin təmin edilməsi üçün sənaye müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəli

formada təhlili vacibdir. "Maliyyə təhlilinin metodikası üç qarşılıqlı əlaqəli blokdan ibarətdir: 1) maliyyə nəticələrinin təhlili; 2) müəssisənin maliyyə vəziyyətinin təhlili və 3) maliyyə təhlilinin nəticələrinin ümumiləşdirilmiş qiymətləndirilməsi, eləcə də idarəetmənin əsas funksiyalarının, o cümlədən təhlilinin mahiyyətinə və məzmununa baxışların dəyişilməsinin təhlilə bölməsi müəssisənin özü üçün bir qədər şərtidir, belə ki, daxili təhlil xarici təhlilin davamı kimi hesab edilə bilər və ya əksinə. Hər iki təhlil, ilk növbədə mühasibat hesabına əsaslanır" [1, s. 10]. Bu amillər baxımından ölkəmizdə müəssisələrin optimal maliyyə təhlili metodikasının işlənib hazırlanmasına ehtiyac vardır və iqtisadi təsərrüfat subyektlərinin, əsasən sənaye müəssisələrinin maliyyə sabitliyinin, onların maliyyə təminatının gücləndirilməsi tədbirlərinin görülməsi tələb olunur.

Qeyd edək ki, ölkəmizdə iqtisadi fəaliyyət subyektlərinin maliyyə təminatının gücləndirilməsi və maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı məsələlər strateji xarakter daşıyır. Belə ki, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair" Strateji Yol Xəritəsində bu aspektlər öz əksini tapmışdır [2]. Bu strateji vəzifələrdən irəli gələn müddəalar nəzərə alınmaqla, müasir dövrdə müəssisələrin maliyyə dayanıqlılığının balanslaşdırılması və təmin edilməsi problemləri kifayət qədər aktualdır və onların həlli yollarının optimallaşdırılması tələb olunur. Bu problemlər son illərdə daha qabarıq olaraq üzə çıxmışdır. Dünya maliyyə böhranının mənfi cəhətləri hələ də aradan qaldırılmamışdır və bununla bağlı tədbirlərin daha da intensivləşdirilməsi tələb olunur [3]. Bundan əlavə, müəssisələrin maliyyə dayanıqlılığının təmin edilməsi məsələləri milli iqtisadiyyatın təhlükəsizliyi kontekstində daha sistemli və kompleks şəkildə baxılmalıdır. Müəssisələr şəbəkəsinin maliyyə sabitliyi şəraitində fəaliyyət göstərməsi iqtisadiyyatın ümumi sabitliyinin tərkib hissəsi kimi qiymətləndirilir [4]. Müəssisənin özünün maliyyə təminatı strategiyasının olması da vacib şərtlərdəndir və bunun üçün maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasına nail olunmalıdır, yəni müəssisənin fəaliyyətinin davamlı şəkildə maliyyə təminatı mexanizmləri formalaşdırılmalıdır. Bu vəzifənin reallaşdırılması üçün müəssisənin maliyyə aktivləri və resursları dərin və dürüst şəkildə təhlil edilməli, risklər müəyyənləşdirilməli, ehtiyatlar üzə çıxarılmalı və ümumilikdə maliyyə potensialı obyektiv olaraq qiymətləndirilməlidir. Müəssisənin maliyyə vəziyyətinin uzunmüddətli dövr üçün proqnozlaşdırılması prinsipləri və meyarları formalaşdırılmalıdır [5].

Qeyd olunan prinsiplərin və meyarların kompleks və sistemli şəkildə təhlil olunması və qiymətləndirilməsi təmin edilmədikdə müəssisənin maliyyə dayanıqlılığının iqtisadi təhlükəsizlik indikatorları səviyyəsində formalaşdırılmasında problemlər ortaya çıxır. Belə ki, müəssisənin maliyyə dayanıqlılığının təmin edilməsi problemlərinin optimal həlli yollarının müəyyənləşdirilməsi üçün bu sahədə kompleks tədbirlərin görülməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, maliyyə təminatı mexanizmlərinin adekvatlığının təmin edilməsi üzrə maksimum optimal metodların və üsulların seçilməsi, onların müasir dövrün tələblərinə uyğun şəkildə yenilənməsi vacib şərtlərdəndir. Müasir dövrdə müəssisələrin maliyyə dayanıqlılığının balanslaşdırılması və təmin edilməsi problemləri kifayət qədər aktualdır və onların həlli yollarının optimallaşdırılması tələb olunur. Bu problemlər son illərdə daha qabarıq olaraq üzə çıxmışdır. Digər tərəfdən, dünya maliyyə böhranının mənfi cəhətləri hələ də aradan qaldırılmamışdır və bununla bağlı tədbirlərin daha da intensivləşdirilməsi tələb olunur. Maliyyə resurslarından istifadəyə yanaşmalarda müəssisənin fəaliyyəti ilə bağlı bir sıra mexanizmlər və istiqamətlər diqqət çəkir. Müəssisə tərəfindən formalaşan maliyyə resurslarının əsas təyinatı onların gələcək inkişafının maliyyələşdirilməsini təmin etməkdən ibarətdir. Müəssisənin pul vəsaitlərinin formalaşdırılması həm xüsusi, həm də öz inkişafını maliyyələşdirmək üçün cəlbedilmiş pul vəsaiti hesabına həyata keçirə bilər. *"Maliyyə resursları müəssisənin cari və geniş təkrar istehsal xərclərini, habelə maliyyə*

öhdəliklərini iqtisadi stimullaşdırmağı nəzərdə tutan, sərəncamda olan pul vəsaitləridir" [6]. Bu amillər nəzərə alınmaqla, müəssisələrin maliyyə dayanıqlılığının təmin edilməsi məsələləri milli iqtisadiyyatın təhlükəsizliyi kontekstində daha sistemli və kompleks şəkildə baxılmalıdır. Müəssisələr şəbəkəsinin maliyyə sabitliyi şəraitində fəaliyyət göstərməsi iqtisadiyyatın ümumi sabitliyinin tərkib hissəsi kimi çıxış edir [7]. Müasir şəraitdə hər bir müəssisənin özünün maliyyə təminatı strategiyasının olması da vacib şərtlərdəndir və bunun üçün maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasına nail olunmalıdır. Başqa sözlə, müəssisənin fəaliyyətinin davamlı şəkildə maliyyə təminatı mexanizmləri formalaşdırılmalıdır. Bu vəzifənin reallaşdırılması üçün müəssisənin maliyyə aktivləri və resursları dərin və dürüst şəkildə təhlil edilməli, risklər müəyyənləşdirilməli, ehtiyatlar üzə çıxarılmalı və ümumilikdə maliyyə potensialı obyektiv olaraq qiymətləndirilməlidir [8]. Müəsisənin maliyyə vəziyətinin sabitləşdirilməsi, maliyyə axınları üzrə çevik və səmərəli fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsi, işlək nəzarət sisteminin formalaşdırılması, ümumilikdə müəssisədə dövriyyədə olan maliyyə resursları üzrə keyfiyyət və kəmiyyət göstəricilərinin sistemli təhlil olunması və obyektiv şəkildə müəssisənin maliyyə dayanıqlılığının qiymətləndirilməsi əsaslandırılmış prinsiplərin və meyarların müəyyənləşdirilməsini tələb edir. Müəssisənin maliyyə resurslarının strategiyasının adekvatlığı və maliyyə bazarlarındakı mövcud konyunkturanın dəyərləndirilməsi, maliyyə resurslarından istifadənin nə dərəcədə düzgün təşkilinin marketinq araşdırılması, müxtəlif meyarlar prizmasından keçirməklə qiymətləndirilməsi təmin olunmalıdır [9]. Müəssisənin maliyyə vəziyyətinin uzunmüddətli dövr üçün proqnozlaşdırılması prinsipləri və meyarları formalaşdırılmalıdır. Bunlarla yanaşı, müəssisənin bütün bölmələrinin, struktur vahidlərinin maliyyə intizamına əməl etməsi üçün zəruri tədbirlər görülməli və motivasiyalar artırılmalıdır. Belə ki, *"müəssisənin maliyyəsi maddi istehsal və istehlak sferalarında bütün maliyyə münasibətlərini əhatə etdiyinə görə ümumi maliyyə sisteminin əsas tərkib hissəsini və maddi bazasını təşkil edir"* [10]. Bu prinsiplərə və meyarlara əməl olunması müəssisənin maliyyə təminatının gücləndirilməsi üçün əsas şərtlərdəndir və onlara əməl olunmasının ciddi nəzarət mexanizmləri təmin edilməlidir. Belə ki, iqtisadi inkişaf proseslərinin, o cümlədən müəssisələrin sabit fəaliyyətinin əsas təminedici komponentlərindən biri kimi maliyyə təminatı mühüm əhəmiyyət kəsb edir. Amma bunun praktiki fəaliyyət proseslərinin daha da genişləndirilməsi və həmin müəssisələrin səmərəliliyinin artırılması üçün maliyyə təminatı problemlərinin optimal həlli yollarının müəyyənləşdirilməsini tələb edir. Maliyyə təminatı mexanizmləri çevik və multiplikativ xarakter daşımalı, müəssisənin qarşısında duran strateji hədəflərin reallaşdırılmasına əsaslı zəmin yaratmalıdır.

Müəssisədə maliyyə ehtiyatlarının toplanması və artırılması nə qədər zəruri şərtdirsə, onlardan düzgün və səmərəli istifadə etmək bir o qədər vacib hesab olunur. Belə ki, bazar iqtisadiyyatı münasibətləri olan yerdə maliyyə resurslarından səmərəli istifadə olunmasının istiqamətləri üzrə variantlar çoxdur və onların yetərincə dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, bazar iqtisadiyyatı mexanizmlərinin daha da dərinləşdiyi bir mühitdə, müəssisənin pul dövriyyəsinin və xərclərinin onun fəaliyyət istiqamətlərinin strateji hədəflərinə uyğun şəkildə təmin edilməsi və optimallaşdırılması vacibdir. Müəssisənin aktivləri və kapital resursları üzərində nəzarət və idarəetmə funksiyalarının maksimum səmərəli təşkil edilməsi tədbirləri görülməlidir [11]. Həmçinin müəssisənin maliyyə aktivləri və maliyyə resurslarının uçotunun dürüstlüyü və şəffaflığı məsələlərinə də xüsusi önəm verilməlidir. Müəssisənin pul dövriyyəsinin və xərclərinin onun fəaliyyət istiqamətlərinin strateji hədəflərinə uyğun şəkildə təmin edilməsi və optimallaşdırılması vacib hesab olunur. Bu məqsədlə müəssisənin aktivləri və əsas etibarı ilə kapital resursları üzərində nəzarət və idarəetmə funksiyalarının işləkliyi, səmərəliliyi

təmin edilməlidir. Müəssisənin sərəncamında olan kapitalın, maliyyə resurslarının və cari likvidlik səviyyəsinin adekvatlığı, artım tempinin olması da vacib məsələlər kimi xarakterizə olunur. Müəssisənin maliyyə dayanıqlılığının gücləndirilməsi proseslərində onun digər kreditorlar qarşısında öhdəliklərinin ciddi şəkildə nəzərə alınması və razılaşdırılmış müddətdə qarşılanması vacib şərtlərdəndir. Ümumi ödəmə qabiliyyətinin qiymətləndirilməsi müəssisənin elə kreditorlarla qarşılıqlı münasibətlərini xarakterizə edir ki, onlar pul mənbələrinin tərkibi və mənsubiyyətinə nisbəti qarşısında borc və öhdəliklərin ödənməsi faktının özündə xeyli dərəcədə maraqlıdırlar.

İqtisadiyyatın müxtəlif sahələrində maliyyə-təsərrüfat fəaliyyətinin təşkili üçün tələb olunan maliyyə resurslarının hərəkəti istiqamətində üzrə hər bir fəaliyyət mərhələsinin səmərəlilik prinsipləri əsasında nəzarətdə saxlanılması və bunlarla bağlı həmin proseslərə məsuliyyət daşıyan işçilərin və menecment heyətinin güclü maliyyə intizamı mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, sənaye müəssisəsinin fəaliyyəti ilə əlaqədar olaraq zəruri xərclərin optimallaşdırılması və son nəticədə xərclərin azaldılması təmin olunmalı, bununla da hər bir müəssisənin maliyyə resurslarından səmərəli istifadə etmək strategiyası formalaşdırılmalıdır. Maliyyə bazarlarında baş verən dəyişikliklərə və hər hansı bir intensiv xarakter daşıyan səmtlərə operativ reaksiyanın verilməsi vacib hesab olunur. Amma, bunun üçün müəssisənin güclü və təkmilləşdirilmiş, maliyyə mexanizmləri olmalı və sənaye müəssisəsi ən azından müəyyən antiböhran dövrü üçün maliyyə ehtiyatlarının yaradılmasını təmin etməlidir. Belə ki, müəssisə transformasiyalar və antiböhran şəraitində təkmilləşdirilmiş və güclü immunitetə malik maliyyə dayanıqlılığı mexanizmlərinə və fəaliyyət alətlərinə malik olmalıdır. Bunlarla yanaşı, sənaye müəssisənin öz öhdəliklərini balanslaşdırılması, borc və öhdəliklərinin ödənilməsi üçün cari aktivlərin və özəl mənbələrin kifayət etməsinə xüsusi diqqət yetirməsi vacibdir. Sənaye müəssisənin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri görülməli və bunun üçün hər bir məsul şəxsin və struktur vahidinin maliyyə intizamnın təmin olunması tədbirləri həyata keçirilməlidir.

İqtisadi islahatlar şəraitində həyata keçirilən struktur və institusional, həmçinin kadr islahatları, iqtisadiyyatın bütün sahələrində, o cümlədən maliyyə sektorunda, müəssisələrdə şəffaflığın təmin edilməsi, ikili mühasibatın tamamilə aradan qaldırılması, "kölgə iqtisadiyyatı"nın zəiflədilməsi və ya tamamilə dayaqlarının itirilməsi, vergiqoyma bazasının təkmilləşdirilməsi, sənaye müəssisələrinin maliyyə resurslarının və aktivlərinin uçotunun təkmilləşdirilməsi tədbirləri diqqət çəkir. Ümumilikdə Azərbaycanda maliyyə sektorunda aparılan iqtisadi islahatların həm cari, həm də orta və uzunmüddətli dönəmdə səmərələrini görmək mümkün olacaq. Xüsusilə manatın və qiymətlərin sabitliyi fonunda iqtisadi canlandırılmanın bank sektoru vasitəsilə həyata keçirilməsi siyasəti uğur qazanacaqdır. Sürətli iqtisadi islahatlar və yaxşı infrastruktur davamlı iqtisadi inkişaf üçün zəmindir [12]. Bundan əlavə, ölkəmizdə maliyyə resurslarına çıxışın sadələşdirilməsi və daha dayanıqlı mexanizmlərin formalaşdırılması məqsədilə, davamlı tədbirlər görülməkdədir. Hazırkı şəraitdə müəssisələrin maliyyə təminatının universial mexanizmlərinin təmin edilməsi və onların çevikliyinə nail olunması vacib şərtlərdəndir. Bunlar nəzərə alınmaqla, maliyyə və kredit resurslarının zəmanətliliyi, sığortalanmasının təmin edilməsi üçün 15 sentyabr 2017-ci il "Kredit Zəmanəti Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında bu kimi problemlərin həlli üçün müasir mexanizmlərin müəyyənləşdirilməsi istiqamətində ciddi addımlar atılmışdır [13]. Bütün bunlar sənaye müəssisələrinin maliyyə dayanıqlılığının iqtisadi təhlükəsizlik kontekstinin gücləndirilməsi üçün əsaslı zəmin formalaşdırmışdır.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, hər bir müəssisənin güclü maliyyə siyasəti, maliyyə dayanıqlılığını təmin edən fəaliyyət mexanizmləri və maliyyə strategiyası olmalıdır. Bunun üçün müəssisənin uzunmüddətli strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilməli, bunlara uyğun

şəkildə maliyyə dayanıqlılığı prinsipləri hazırlanmalı, onlara ciddi əməl olunması təmin edilməli, bununla bağlı müəssisənin məsul işçilərinin və menecment heyətinin, xüsusilə maliyyə menecmentinin rolu artırılmalıdır. Bunlarla bağlı bir sıra məsələlərə ciddi önəm verilməlidir:

- iqtisadi təhlükəsizlik indikatorları nəzərə alınmaqla hər bir sənaye müəssisəsinin strateji maliyyə mexanizmlərinin hazırlanması və bununla əlaqədar məsələlərin konseptual olaraq baxılması, sənaye müəssisələrnin maliyyə mexanizmlərinin qlobal maliyyə çağırışlarına uyğun şəkildə təkmilləşdirilməsi təmin olunmalıdır;

- iqtisadi islahatlar şəraitində sənaye müəssisələrinin maliyyə mexanizmlərinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması, iqtisadi təhlükəsizlik baxımından bu mexanizmlərin dayanıqlılığının gücləndirilməsi, müəssisənin maliyyə axınlarına və resurslarına optimal nəzarət mexanizmlərinin tətbiqi tədbirləri görülməlidir və s.

Ədəbiyyat

1. Liferenko Q.N. Müəssisənin maliyyə təhlili. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2010, 134 s.

2. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair" Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.-59 s.

3. Ataşov B.X. Maliyyə bazarları. Bakı: Kooperasiya nəşriyyatı, 2016, 456 s.

4. Каурова Н.Н. Финансово-экономическая безопасность в условиях открытости национальной экономики (теоретико-методологический аспект). Дисс. д-ра экон. наук. Институт Экономики РАН. М.: 2013.

5. Грачев А. В. Финансовая устойчивость предприятия. Анализ, оценка и управление в рыночной экономике. М.: Дело и сервис, 2006, 544 с.

6. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Bakı: Kooperasiya nəşriyyatı, 2014, 648 s.

7. Чечевицина, Л.Н. Анализ финансово-хозяйственной деятельности. Ростов-на-дону: Феникс, 2008, 378 с.

8. Ермошенко Т.А. Теоретические аспекты управления финансовой устойчивостью предприятия / Т.А. Ермошенко // Экономика и социум. 2015, № 3 (16), с. 136–140.

10. Əliyev Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, № 03, 2017, s. 26-40.

11. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi. Bakı: Kooperasiya nəşriyyatı, 2009, 336 s.

12. Ермошенко Т.А. Теоретические аспекты управления финансовой устойчивостью предприятия / Т.А. Ермошенко // Экономика и социум. – 2015. – № 3 (16), с. 136–140

13. Çaparlı A. Azərbaycanda maliyyə sabitliyi: çağırışlar və perspektivlər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. http://iqtisadiislahat.org/.

14. "Kredit Zəmanət Fondunun yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.

Резюме

Махаррамов М.М.

Стратегическая важность финансовой устойчивости промышленных предприятий Азербайджана в контексте экономической безопасности

В статье исследована стратегическая важность финансовой устойчивости промышленных предприятий Азербайджана в контексте экономической безопасности. С этой целью раскрыта и анализирована сущность проблемы финасовой устойчивости промышленных предприятий. Обоснована важность совершенствования и обновления механизмов деятельности промышленных предприятий в соответствии с критериями экономической безопасности. Рассмотрена подготовка и применение методологических подходов к финансовой стратегии предприятий с учетом современных вызовов. Отмечена важность оптимизации контрольных механизмов по движению финансовых потоков и усилению финансовой дисциплины на промышленных предприятиях. Подготовлены рекомендации и даны предложения по стратегической важности финансовой устойчивости промышленных предприятий Азербайджана в контексте экономической безопасности.

Ключевые слова: *промышленные предприятия, финансовая устойчивость, экономическая безопасность, финансовая устойчивость промышленных предприятий, проблемы экономической безопасности промышленных предприятий, стратегия финансовой устойчивости промышленных предприятий.*

Summary

Maharramov M.M.

Strategic Importance of Financial Stability of Industrial Enterprises of Azerbaijan in the Context of Economic Security

The strategic importance of financial stability of industrial enterprises of Azerbaijan in the context of economic security is investigated in the article. The essence of the problem of finacial stability of industrial enterprises is analyzed for this purpose. The importance of improving and updating the mechanisms of industrial enterprises in accordance with the criteria of economic security is justified then. The preparation and application of methodological approaches to the financial strategy of enterprises taking into account modern challenges are considered too. The importance of optimizing control mechanisms for the movement of financial flows and strengthening financial discipline in industrial enterprises is noted. Recommendations and proposals on the strategic importance of financial stability of industrial enterprises of Azerbaijan in the context of economic security are given in the end of the article.

Key words*: industrial enterprises, financial stability, economic security, financial stability of industrial enterprises, problems of economic security of industrial enterprises, strategy of financial stability of industrial enterprises.*

VERGİ ÖHDƏLİKLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ ÜZRƏ KORPORATİV NƏZARƏTİN İSTİQAMƏTİ KİMİ VERGİ RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məhərrəmov Ramiz Bulut oğlu
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi, UNEC
ramizvergi1@rambler.ru
Məmmədzadə Nigar Ramiz qızı
UNEC
nigu88@rambler.ru
Mədətova Şahzadə Qafar qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
shahzademedetova@gmail.com

Məqalədə təsərrüfat subyektlərinin vergi öhdəliklərinin yerinə yetirilməsinə korporativ vergi nəzarəti, korporativ nəzarət vasitəsilə vergi risklərinin qarşısının alınması istiqamətləri müzakirə olunur. Korporativ vergi nəzarətinin sahibkarlıq subyektlərində vergi risklərinin idarə edilməsinin əsası olduğu göstərilir. Eyni zamanda vergi risklərinin qiymətləndirilməsində mümkün səhvlərin və qeyri-dəqiq məlumatların müəyyənləşdirilməsi üçün meyarlar verilmişdir.

Açar sözlər: *vergi qanunvericiliyi, korporativ nəzarət, vergi öhdəliyi, vergi riski*

Vergi münasibətlərinin imperativ xarakter daşıdığını nəzərə alaraq, dövlət vergi orqanları tərəfindən vergi ödəməkdan yayınma riskinin azaldılması və vergi ödənilməsinin minimallaşdırılması, vergi ödəyicilərində vergi nəzarəti və vergi yükünün artması, cinayət təqibinin və vergi hüquq pozuntusu risklərinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.

Bir çox hallarda, rəqabət mühitinin olmadığı bir şəraitdə, vergi nəzarətinin və vergi məsuliyyətinin artırılması onların müflisləşməsinə gətirib çıxarır.

Az sayda təsərrüfat subyektləri, əsasən iri şirkətlər, vergi risklərini səmərəli şəkildə idarə edə bilirlər. Vergi riskinin minimallaşdırılması qanunvericiliklə müəyyən edilmiş həddə vergi yükünün azaldılması üçün səmərəli vasitədir. Vergi yükü üzərində nəzarətinin kifayət qədər olmaması isə biznesin dəyərinin itirilməsinə, kredit almaq imkanının məhdudlaşmasına, inzibati və cinayət məsuliyyətinə, hesablara həbs qoyulmasına, müflisləşməyə və bu kimi dıgər neqativ hallara gətirib çıxarır.

Vergi risklərinin qarşısının alınması iqtisadi cəhətdən aktiv vergi ödəyiciləri üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki, onlar öz bizneslərini qorumaq üçün, qanunvericiliyə zidd olmayan çərçivədə, vergi öhdəliklərinin azaldılması istiqamətində istənilən addımları atırlar. İntizamlı vergi ödəyicisi imicinin yaradılması bir çox təsərrüfat subyektlərinin strateji məqsədidir. Vergi qanunvericiliyindəki dəyişikliklər və fiskal tənzimlənmə metodları vergi riskləri barədə dəqiq informasiya, həmçinin vergitutma məsələlərində şəffaflıq tələb edir. Bununla əlaqədar olaraq, vergi riskləri korporativ nəzarət sisteminin və korporativ risklərin idarə edilməsinin ayrılmaz hissəsi kimi qəbul edilməlidir [8].

Dövlət vergi nəzarəti vergi qanunvericiliyinin pozulmasına qarşı yönəldilmişdir ki, bu da risk yaradan amillərin araşdırılmasını və səyyar vergi yoxlamasının keçirilməsi ehtimalını artırır. Son dövrlərdə vergi orqanları tərəfindən səyyar vergi yoxlamalarının keçirilməsi üçün obyektlərin seçilməsi prosesində vergi ödəyiciləri üçün risklərin sərbəst qiymətləndirilməsi meyarlarından istifadə olunur.

Vergi ödəyicilərinin iqtisadi fəaliyyətini əks etdirən göstəricilər əsasında Vergilər Nazirliyi vergidən yayınma risklərinin idarə edilməsi üzrə 7 risk meyarını (əmək haqqı, hesablanmış vergi,

ödənilmiş vergi, rentabellik, ƏDV, dövriyyənin azaldılması, xərclərin artırılması) müəyyənləşdirmişdir [2]. Bu meyarlar əsasında Vergilər Nazirliyi mövcud məlumat bazası vasitəsilə yarana biləcək kənarlaşmaları araşdırır və riskləri müvafiq ballarla qiymətləndirir.

Bu meyarlar əsasında müəyyən olunan risklər üzrə kameral vergi yoxlaması Vergi Məcəlləsinin 37.2-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində həyata keçirilməlidir. Bu müddət bitdikdən sonra risklərə əsasən həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz [1].

Bildiyimiz kimi, vergi ödəyiciləri daha yüksək gəlir əldə etmək məqsədilə vergidən yayınmaqla yüksək vergi riskinə gedir, öz maliyyə-təsərrüfat fəaliyyətinə zərbə vururlar. Vergi ödəyicisinin bu cür qanunazidd hərəkəti vergi öhdəliklərini yerinə yetirməli olan digər vergi ödəyiciləri ilə zəncirvari qaydada təsərrüfat fəaliyyətinin pozulmasına, nəticədə real dövriyyə olmadan qeyri-real xərclərin və dolayı vergilər üzrə əvəzləşdirmələrin həyata keçirilməsinə gətirib çıxarır. Vergi nəzarəti üzrə risk meyarlarının müəyyən edilməsi hər bir vergi ödəyicisinə vergi öhdəliklərinin yerinə yetirilməsi zamanı yol verdiyi səhvlərin sərbəst aradan qaldırılmasına imkan verir.

Korporativ vergi nəzarəti sistemi təsərrüfat subyektlərində vergi risklərinin idarə edilməsinin əsasını təşkil edir və bununla əlaqədar olaraq aşağıdakıların nəzərə alınması tövsiyyə edilir:

- vergi risklərinin iqtisadi və hüquqi məzmununun müəyyən edilməsi və qiymətləndirilməsi;
- mövcud tələblər və vergi qanunvericiliyində baş verə biləcək dəyişikliklər nəzərə alınaraq təsərrüfat subyektlərinin fəaliyyətində ehtimal olunan riskli halların azaldılması üzrə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi;
- vergi öhdəliklərinin yaranmasının norma və şərtlərinə nəzarət zamanı xüsusi diqqət tələb edən iqtisadi fəaliyyətin daha çox riskli istiqamətlərinin müəyyən edilməsi;
- vergi ödəyicilərinin məqsədəmüvafiq hərəkətləri barədə tövsiyyələrin verilməsi.

İqtisadi subyektin təsərrüfat fəaliyyətində yaranmış vergi risklərinin nəticələri daha böyük əhəmiyyət kəsb edən risklərin müəyyən edilməsinə və korporativ vergi nəzarəti tədbirinin təşkili və keçirilməsinə, bununla da bu risklərin minimallaşdırılmasına imkan verir. Bunun üçün risklərin müəyyən edilməsinə aid olan nəzarət prosedurlarının siyahısının tərtib edilməsi zəruri hesab edilir:

- vergi riskinin minimallaşdırılmasına yönəldilmiş korporativ vergi nəzarəti tədbirinin müəyyən edilməsi;
- daha çox vergi riskinə məruz qala bilən fəaliyyətin və ya prosesin müəyyən edilməsi;
- riskin nəticələrinin minimallaşdırılması məqsədilə keçirilməsi nəzərdə tutulan korporativ vergi nəzarəti prosedurunun planlaşdırılmasının qısa xarakteristikası;
- korporativ vergi nəzarəti prosedurunun təsnifatı (zərurət yarandığı halda informasiyanın strukturlaşdırılması);
- korporativ vergi nəzarətinin həyata keçirilməsi metodikasına (normativ bazasına) istinadlar;
- korporativ vergi nəzarəti prosedurunun icraçıları (əməkdaş və (və ya) informasiya sistemi);
- korporativ vergi nəzarəti prosedurunun keçirilməsinin müddəti;
- korporativ vergi nəzarəti prosedurunun keçirilməsinə əsaslanan daxili sənədlər;
- korporativ vergi nəzarəti prosedurunu təsdiqləyən xarici sənədlər;
- korporativ vergi nəzarəti prosedurunun keçirilməsindən gözlənilən nəticə.

Ənənəvi olaraq kiçik və orta biznes subyektlərində vergi risklərinin idarə edilməsi ilə mühasibatlıq məşğul olur, bununla belə, bu xidmət də risk mənbəyi ola bilər. Məsələn, texniki

səhvlər, mühasiblərin ixtisaslarının aşağı olması, onların vergi öhdəliklərinin azalmasına birbaşa marağının olmaması bu cür riskləri artırır.

Təsərrüfat subyektlərində vergi risklərinin əsas növünün korporativ nəzarətini aşağıdakı üç səviyyədə təşkil edilməsi məqsədəuyğun heab edilir:

- fərdi (əməkdaş səviyyəsində);
- intersəviyyədə (bütövlükdə təşkilat səviyyəsində);
- mezosəviyyədə (holdinq, qrup kompaniyalarda).

Vergi qanunvericiliyinə mütəmadi olaraq edilən dəyişikliklər, vergi qanunvericiliyinin vergi ödəyiciləri tərəfindən kifayət qədər mənimsənilməməsi, onlarda maliyyə itkilərinə səbəb ola bilən ehtimalı yüksəldir. Daxili nəzarət sisteminin səmərəli qurulması üçün xarici ölkələrin təcrübəsini nəzərə alaraq, təsərrüfat subyektləri risklərini eyniləşdirmək, "risklər xəritəsi"ni tərtib etmək, bununla da, daha kritik riskləri müəyyən etmək məqsədəuyğundur. İqtisadi ədəbiyyatlarda "risklər xəritəsi"nin müxtəlif variantları mövcuddur.

Rastamxanova L.N. tərəfindən biznes məqsədilə fəaliyyət göstərən təşkilatlar üçün təqdim edilən "risklər xəritəsi" daha maraqlıdır. "Ehtimal olunan – nəticələr" adlanan sistemində hər bir biznes qrupu üçün onun məqsədi və ehtimal olunan riskləri əks olunur [9].

Qeyd olunanları ümumiləşdirərək "vergi riskləri" xəritəsini aşağıdakı kimi təsvir edilə bilərik:

Risk yarada bilən amillər	Riskin baş verə bilmə ehtimalı (0-100%)	Mümkün ola bilən zərər (manat)	Qarşısının alınması üsulları
Daxili səbəblər			
Təsərrüfat subyektində vergitutma üzrə ixtisaslı kadrların olmaması			İşçilərin ixtisaslarının artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi (xüsusi ədəbiyyatın alınması, təlimlərin keçirilməsi və s.). Personala münasibətdə kadr siyasətinə yenidən baxılması.
Təsərrüfat subyektinin mürəkkəb struktura malik olması			Subyektin struktur vahidləri səviyyəsində zəruri olan bütün nəzarət prosedurları üzrə monitorinqin keçirilməsi. Vergilərin hesablanması və ödənilməsi qaydalarının tənzimlənməsi üzrə daxili normatıv sənədlərin araşdırılması.
Uçot və nəzarət üzrə təşkil edilmiş informasiya-texnoloji sistemin keyfiyyətinin aşağı olması və ya heç olmaması			Proqram təminatının yenilənməsi və ya dəyişdirilməsi. İnformasiya sisteminin səmərəliyinin səviyyəsinə təsir edən tədbirlərin sistemliliyi və planauyğunluğu.
Vergi hesabatlarının müəyyən edilmiş müddət ərzində təqdim edilməsi normalarının pozulması			Təşkilatlara, konkret əməkdaşlara maliyyə sanksiyalarının tətbiq edilməsi
Xarici səbəblər			
Vergi yoxlaması			Daxili nəzarət prosedurunun mütəmadi olaraq keçirilməsi

Vergi qanunvericiliyinin dəyişdirilməsi			Vergi qanunvericiliyinin monitorinqi. Tətbiq edilən yeniliklərin təhlili.

Vergi riskləri üzrə nəzarət tədbirlərini istənilən bir layihənin həyata keçirilməsinədək, müqavilə şərtlərinin icrasınadək başlamaq lazımdır. Bunun üçün vergitutma sistemini və xüsusiyyətlərini müəyyən etmək, xarici mühiti, o cümlədən vergi qanunvericiliyindəki dəyişiklikləri qiymətləndirmək və risklərin təhlilini aparmaq lazımdır.

Vergi risklərinin qiymətləndirilməsi üçün müəssisələr vergiləri hesablayarkən mümkün ola bilən səhvlərin, qeyri-dəqiq məlumatların müəyyən edilməsi məqsədilə aşağıdakı meyarlardan istifadə edə bilərlər:

1. Vergi ödəyicisində vergi yükünün konkret sahənin təsərrüfat subyekti üzrə orta səviyyəsinə nisbətən aşağı olması;
2. Mühasibat və ya vergi hesabatlarında bir neçə vergi dövrlərində ziyanın əks etdirilməsi;
3. Vergi hesabatlarında müəyyən dövr ərzində böyük həcmdə vergi çıxılmalarının əks etdirilməsi;
4. Xərclərin artım tempinin malların satışından (işlərin görülməsindən, xidmətlərin göstərilməsindən) alınan gəlirlərin artım tempinə nisbətən çox olması;
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada hər hansı bir xüsusi vergi rejimlərindən birinin seçilməsi;
6. Təqvim ili ərzində fərdi sahibkarlar tərəfindən xərclərin maksimal olaraq onun gəlirlərinə uyğunlaşdırılması;
7. Kontragentlər-alıcılarla (satıcılarla) və ya vasitəçilərlə bağlanmış müqavilələr əsasında maliyyə-təsərrüfat fəaliyyətinin hər hansı bir iqtisadi və ya digər səbəb olmadan qurulması;
8. Vergi ödəyiciləri tərəfindən göstəricilər arasında uyğunsuzluq barədə vergi orqanlarına məlumatın verilməməsi;
9. Fəaliyyət yerinin dəyişməsi ilə əlaqədar mütəmadi olaraq vergi ödəyicisinin vergi orqanlarında uçota alınması və uçotdan çıxarılması;
10. Rentabellik səviyyəsinin həmin sahə üzrə ümumi statistik rentabellik səviyyəsindən kənarlaşması;
11. Maliyyə-təsərrüfat fəaliyyətinin yüksək vergi riski ilə aparılması.

Vergilərin azaldılması istiqamətində vergi ödəyicilərinin hərəkətləri bu və ya digər risklərin yaranmasına gətirib çıxarır ki, bu da sonda xoşagəlməz nəticələrin yaranmasına səbəb olur.

Beləliklə, vergi riskinin müəyyən edilməsi və qiymətləndirilməsi üçün ilk növbədə operativ və düzgün informasiyanın mövcud olması çox zəruridir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi
2. ”Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası“, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiq edilmiş 7 sentyabr 2016-cı il
3. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi. Dərslik. İqtisad Universiteti, 2011
4. Məhərrəmov R.B. Vergi risklərinin risk sistemləri təsnifatında yeri. Vergilər Nazirliyinin Tədris Mərkəzində keçirilmiş "Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu", Elmi-praktik konfransın materialları, 5 iyun 2015

5.Məhərrəmova (Məmmədzadə) N.R. Vergi nəzarətinin iqtisadi mahiyyəti və onun maliyyə nəzarəti sistemində yeri. “Azərbaycanın vergi xəbərləri” jurnalı, №8, 2011

6.Həsənov Ə.N., Mehdiyev C.A., Hüseynov E.Ə., Məhərrəmov R.B., Babayev Z.A., Yadigarov F.M. Vergi inzibatçılığı. Dərslik. “Bestpakt MMC”, Bakı, 2017

7.Демчук И.Н. Налоговый риск: сущность и содержение понятия / И.Н. Демчук // Вестник Томского государственного университета. - 2010. - № 1

8.Налоговый учет и налоговый контроль: российский и международный опыт: монография /Н.Т.Лабынцев, Е.В.Поролло, Е.С.Цепилова. Ростов-на-Дону, РГЭУ, 2012. – с.134

9.Растамханова Л.Н. Теория, методология и организация систем внутреннего контроля в условиях консалтинга: автореферат дисс. д-ра эконом. наук. Йошкар-Ола, 2009, с.29

10. Цепилова Е.С. Методология и инструментарий корпоративного контроля выполнения налоговых обязательств хозяйствующими субъектами. Дисс. д-ра эконом. наук. Ростов-на-Дону, 2016

Резюме

Магеррамов Р.Б., Мамедзаде Н.Р., Мадатова Ш.Г.

Оценка налоговых рисков как основного направления корпоративного контроля по исполнению налоговых обязательств

В статье рассматриваются вопросы корпоративного налогового контроля по исполнению налоговых обязательств хозяйствующих субъектов, направления по предотвращению налоговых рисков посредством корпоративного контроля. Указывается на то, что корпоративный налоговый контроль является основой управления налоговыми рисками в хозяйствующих субъектах, дается перечень контрольных процедур, связанных с выявлением налоговых рисков. Предлагается «карта налоговых рисков», дается критерии для выявления возможных ошибок и неточной информации при оценке налоговых рисков.

Ключевые слова: *налоговое законодательство, корпоративный контроль, налоговое обязательство, налоговый риск*

Summary

Maharramov R. B., Mamedzade N. R., Madatova Sh.Q.

Assessment of Tax Risks as the Main Direction of Corporate Control on the Fulfillment of Tax Obligations

The article discusses the issues of corporate tax control for the fulfillment of tax obligations of business entities, directions for the prevention of tax risks through corporate control. It is pointed out that corporate tax control is the basis for managing tax risks in economic entities, and provides a list of control procedures related to the identification of tax risks. A “tax risk card” is proposed, criteria are given to identify possible errors and inaccurate information when assessing tax risks.

Key words: *tax law, corporate control, tax liability, tax risk*

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MƏNFƏƏTİN MAKSİMUMLAŞDIRILMASI (QİYMƏTƏMƏLƏGƏLMƏ MODELİ)

Məmmədov Sahib Məmməd oğlu
UNEC
sahibmo67@mail.ru

Xülasə: *Məqalədə sənaye müəssisələrində mənfəətin maksimumlaşdırılması və onu təmin edə biləcək qiymətqoyma modelinin işlənilməsinə cəhd edilmişdir. Qiymətəmələgəlmə strategiyası üzrə materialların öyrənilməsi nəticəsində onların üç əsas strategiyada: bütün xərcləri ödəyən və mənfəət normasını, bazarda rəqabətqabliyyətliliyi təmin edən və mənfəətin maksimumlaşdırlmasını təmin edən qiymət strategiyaları üzrə qruplaşdırılması məsələləri tədqiq edilmişdir. Müəssisələrin hər üç qiymətəmələgəlmə strategiyalarının fərqli cəhətləri müəyyən edilmiş və qiymətəmələgəlmə strategiyasının müqayisəli təhlili cədvəl vasitəsilə təqdim edilmişdir. Hər üç strategiyanın müsbət və mənfi cəhətlərin ilə yanaşı, onların təcrübədə istifadəsinin effektivliyi araşdırılmışdır. Qiymətin satışdan əldə edilən mənfəətə təsirinin təhlili "Neftqazmaş" ASC-də istehsal olunan məhsulun "reduktor"un illər üzrə qiymətinin dəyişmə dinamikası əsasında aparılmışdır. Müəssisənin göstəriciləri əsasında satış qiymətinin 14-20 min manat diapazonunda dəyişdiyi bir şəraitdə məhsulun satışı və satışdan əldə edilən mənfəətin dinamikası modelləşdirilmişdir.*

Açar sözlər: *mənfəətin maksimumlaşdırılması, qiymətəmələgəlmə strategiyası, müqayisəli təhlil, qiymətəmələgəlmə modeli.*

Satış bazarında rəqabətin gücləndiyi müasir şəraitdə sahə müəssisələrinin əsas vəzifəsi maksimum mənfəti təmin edə biləcək qiymətqoyma modelinin işlənilməsidir. Bu məsələ müəyyən qiymətlərin mürəkkəb toplusu vasitəsilə deyil, analoji məhsulların orta qiyməti, məhsulun satış bazarının tutumu, alıcılıq tələbinin elastikliyi, müəssisənin məhsullarının xərclər strukturu, qiymət siyasəti kimi mühüm amilləri nəzərə alan hər bir konkret müəssisə üçün qiymət modelinin qurulması ilə həll edilə bilər.

Hər bir müəssisənin son mənfəətinin kəmiyyəti daha çox qiymətəmələgəlmə modelinin effektivliyindən asılıdır. Hesab edilir ki, satışın həcminin 5% artırılması satış əlavəsinin 5% artmasına, bu halda əməliyyat xərclərinin 15% azaldılması ilə əldə edilən mənfəətlə müqayisdə daha çox artımına imkan verir [1, s. 14].

Qiymətəmələgəlmə modelinin eyni zamanda mənfəəti, mənfəətin maksimum həcmini təmin edən bütün amillərin (satış həcmi, satış əlavəsi və satışın strukturu) balanslılığını təmin etmək üçün maliyyə-iqtisadi xidmətin rəhbərliyinə iqtisadi hesabatlarla yanaşı, satış effektiv qiymətinin (bazar, marketinq və biznesin inkişaf strategiyası) müəyyən edilməsinin digər aspektlərini nəzərə almaları vacibdir [2, s. 189].

Qiymətəmələgəlmə strategiyası üzrə materialların öyrənilməsi nəticəsində onların üç əsas strategiyada qruplaşdırılmasının mümkünlüyünü qeyd etmək olar [3].

Bunlardan birincisi, bütün xərcləri qarşılayan və mənfəət normasını təmin edən qiymətdir ki, bu halda qiymət məhsulun buraxılış və satış dəyərinin rentabellik normasını nəzərə alan iqtisadi hesabatı əsasında formalaşır. Sonra bu məbləğə dolayı vergilər (aksiz və ƏDV) əlavə edilir, nəticədə, müəssisənin məhsulunun satış baza qiyməti formalaşdırılır. Alınan qiymət analoji məhsulun ortabazar qiyməti ilə müqayisə olunur və müqayisənin nəticəsindən asılı olaraq qiymət aşağı salına bilər (əgər ortabazar qiymətlər müəssisənin hesabat qiymətindən aşağı olarsa) və ya

artırıla bilrə (əgər müəssisənin hesabat qiyməti ortabazar qiymətindən aşağı olarsa). Bu halda müəssisənin satış bölməsinin əsas vəzifəsi heç olmasa minimum rentabelliyi təmin edə biləcək qiymətlə məhsulları almağa hazır olan alıcıları tapmaqdan ibarətdir.

İkincisi, bazarda rəqabətqabliyyətliliyi təmin edən qiymətlərdir ki, bu halda məhsulun baza satış qiyməti bazar qiymətləri əsasında formalaşdırlır. Bir qayda olaraq, müəssisənin marketinq xidməti bazarı tədqiq və təhlil edərək müəssisənin əsas rəqiblərini müəyyən edir, sonra rəqiblərin bizim müəssisədə istehsal olunan məhsullara analoq təşkil edən məhsullarına buraxılış qiymətləri barədə məlumatlar toplayır və bu məlumatlar əsasında orta bzar qiymətləri hesablanır və müəssisə öz məhsuluna satış qiymətini təyin edir. Məhz sonra bu qiymətə dolayı vergilər (aksiz və ƏDV) əlavə edilir, məhsulun istehsalı və satışı xərcləri çıxılır. Bu üsulla qiymətləndirmədə qeyd edilən xərclər çıxıldıqdan sonra qalan məbləğ məhsulun rentabellik səviyyəsini əks etdirir.

Əgər hesabat rentabelliyi mənfi olarsa, müəssisə qəbul edilmiş marketinq strategiyasından asılı olaraq hansı tədbirləri həyata keçirə bilər?

- müsbət rentabelliyə nail olmaq üçün həmin məhsulların maya dəyərini aşağı sala bilər;
- bazar payını qoruyub-saxlamaq üçün mənfi rentabelli məhsulların istehsalı və satışını davam etdirə bilər (bu məhsulların istehsalı və satışından alınan ziyanın digər yüksək rentabelli məhsullar hesabına qarşılanması);
- rentabelsiz məhsulların istehsalının dayandırması və onların yeni rentabelli məhsullarla əvəzlənməsi.
- mənfəətin maksimumlaşdırılmasını təmin edən qiymət.

Mənfəətin maksimumlaşdırılmasını təmin edən qiymətlərin təyin edilməsində (qiymət modeli) müəssisənin son mənfəətinə təsir edən kompleks amillər nəzərə alınır. Burada yalnız xərc göstəriciləri və ya ortabazar qiymətlər deyil, həmçinin marjinal mənfəət parametrləri, tələb elastikliyi və satışın strukturu hesaba alınır [4, s. 1128].

İlk iki yanaşmalarla müqayisədə bu yanaşmanın üstünlüyü hətta satış həcminin azaldığı halda belə, satış həcminin saxlanılması və marjinal gəlirlərin artırılmasındadır.

Əlbəttə, bu qiymətəmələgəlmə strategiyasının həmçinin neqativ cəhətləri vardır. Bu strategiyada məhsulun satış qiymətinin dinamikliyi neqativ hal kimi dəyərləndirilir, belə ki, qiymətlər daha sürətlə dəyişə bilər, nəinki xərclərin örtülməsi strategiyasında və ya ortabazar qiymətləri ilə müqayisədə.

Bu strategiyanı seçən müəssisələr satış bazarında yüksək rəqabətqabliyyətliliyi və maliyyə dayanıqlığı ilə fərqlənirlər, çünki onlar bazar tərəddülərinə və rəqiblərin hərəkətinə daha operativ reaksiya verir, nəinki ilk iki qiymətəmələgəlmə strategiyasından istifadə edənlər.

Təhlil edilən hər üç strategiyada qiymətəmələgəlmənin ümumi prinsipləri də vardır. Buraxılış qiymətinin formalaşma üsulundan asılı olmayaraq, onun yuxarı həddi bazar qiyməti, aşağı həddi isə məhsulun tam maya dəyəri hesab edilir. Yuxarıda baxılan strategiyalar arasında əsas fərqlər əsas etibarilə məhsula baza qiymətinin formalaşmasına görə məsuliyyət mərkəzi, qiymətəmələgəlmənin məqsədi, qiymətə təsir edən amillər, təyin edilən qiymətin səmərəlilik göstəriciləri, qiymət təyinatının əsas nəticələri və s. ibarətdir.

Müəssisələrin hər üç qiymətəmələgəlmə strategiyası arasındakı fərqi cədvəl 1 vasitəsilə əyani şəkildə təsvir etmək olar.

Cədvəl 1

Sənaye müəssisələrinin qiymətəmələgəlmə strategiyasının təhlili

Parametr	**Xərclərin ödənilməsi strategiyası**	**Bazara uyğunluq strategiyası**	**Maksimum mənfəət strategiyası**
Əsas məqsəd	Satış qiymətinin bütün xərclərin ödənməsini və rentabellik normasını təmin etməsi	Satış qiymətinin rəqiblərin ortabazar qiymətlərinə uyğunlaşdırılması	Satış qiymətinin mənfəətin maksimum həcmini təmin etməsi
Qiymətin formalaşmasına təsir edən amillər	Satışın həcmi, dəyişən və sabit xərclərin ölçüsü, vahid məhsula rentabellik norması	Satışın həcmi, analoji məhsula rəqiblərin qiyməti, məhsulun satışı və yeridilməsinə xüsusi xərclər	Satışın həcmi, marjinal gəlir, elastiklik, tələb, müəssisənin xərclərinin strukturu
Satış qiymətinin səmərəlilik göstəricisi	Vahid məhsuldan alınan mənfəət, vahid məhsulun plan maya dəyərindən kənarlaşma	Satış həcminin dinamikası, satış bazarında müəssisənin payı	Müəssisənin mənfəətinin dinamikası, satış həcminin dinamikasının mənfəət qədər töhfəsi
Əsas nəticə	Müəssisənin fəaliyyətinin müsbət rentabelliyi	Müəssisənin satış bazarının müsbət dinamikası	Müəssisənin mənfəətinin müsbət dinamikası

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir

Beləliklə, biz baxılan üç strategiyanın müsbət və mənfi cəhətlərini araşdırdıq. İndi isə növbə onların təcrübədə istifadəsinin effektivliyinin araşdırılmasınındır.

Satış həcminin artırılmasının mümkün üsullarından biri satış qiymətlərinin aşağı salınmasıdır. Belə ki, alıcı tələbinin elastiklik amili təsiri altında müəssisənin məhsulunun qiyməti nə qədər aşağı olarsa, onu almaq istəyənlər bir o qədər də çox olar və əksinə. Satış həcminin artırılması üçün kommersiya xidmətləri alıcılar üçün müxtəlif endirimlər və bonuslardan istifadə edirlər.

Lakin unutmaq olmaz ki, müəssisənin fəaliyyətinin uğurluluğunun əsas göstəricisi satış həcmi deyil, məhz əldə edilən mənfəətin kəmiyyəti və biznesin rentabelliyidir. Müvafiq olaraq, əgər müəssisə hesabat dövründə planlaşdırdığından çox daha çox məhsul satdığı halda gözləniləndən az mənfəət əldə edərsə, çətin ki, bu vəziyyət qəbul edilən olsun.

"Neftqazmaş" ASC-nin vahid məhsulun satış qiymətinin dəyişməsi satışdan alınan mənfəətə necə təsir etdiyini baxaq. Müəssisədə istehsal olunan reduktorun illər üzrə qiymətinin dəyişmə dinamikasına nəzər salaq. "Neftqazmaş" ASC 2015-ci ildə bir ədəd məhsulun qiyməti 13,25 min manat olmaqla 21 ədəd, 2016-cı ildə 18,0 min manat olmaqla 2 ədəd, 2017-ci ildə 14,67 min manat olmaqla 10 ədəd və 2018-ci ildə isə 15,43 min manat olmaqla 7 ədəd məhsul istehsal edilmişdir. Məhsulun maya dəyəri isə 8,22 min manata bərabər olmuşdur. Məhsulun qiyməti və maya dəyəri məlum olduğu halda vahid məhsulun satışından əldə edilən mənfəət illər üzrə müxtəlif olacaqdır. Belə ki, 2015-ci ildə müəssisə məhsul vahidinin satışından 5,03 min manat, 2016-cı ildə 9,78 min manat, 2017-ci ildə 6,45 min manat və 2018-ci ildə isə 7,21 min manat mənfəət əldə edilmişdir. Göründüyü kimi, məhsulun satış qiymətinin dəyişməsi müvafiq olaraq onun satış həcminə neqativ təsir göstərir.

Qeyd edilən dövrdə müəssisənin məhsul istehsalı üçün istehlak etdiyi xammal və materialların qiymətində dəyişiklik bir o qədər də əhəmiyyətli olmadığı üçün istehsal olunan

məhsulun maya dəyərinin sabit olduğunu qəbul etməklə, "Neftqazmaş" ASC-də istehsal olunan digər məhsulların da qiymətinin dəyişməsinin müəssisənin mənfəət kütləsinə təsirini izləmək olar. Müəssisənin göstəriciləri əsasında satış qiymətinin 14-20 min manat diapazonunda dəyişdiyi bir şəraitdə məhsulun satışı və satışdan əldə edilən mənfəətin dinamikasını modelləşdirək.

Bu diapozon məhz ona görə qəbul edimişdir ki, bazarın orta qiymətlərinə bərabər analoji məhsula ən yuxarı qiymət həddi 20 min manat, aşağı hədd kimi isə müəssisə tərəfindən münasib hesab edilən 20% (8,22 min man. x 20% = 1.64 min man.) minimum rentabellik norması qəbul edilmişdir.

Cədvəl 2

Qiymətin "Neftqazmaş" ASC-nin satışdan əldə edilən mənfəətə təsirinin təhlili

Qiymət, min man.	Say, ədəd	Qiymətə əlavə, min man.	Mənfəət, min man.
20,0	2	11,78	23,56
18,0	4	9,78	39,12
17,0	5	8,78	43,9
16,0	7	7,78	54,46
14,67	10	6,45	64,5
13,25	21	5,03	105,63

Mənbə: "Neftqazmaş" ASC-nin istehsal-maliyyə fəaliyyətinin illik hesabatları

Cədvəldə verilənlərdən məlum olduğu kimi "Neftqazmaş" ASC tərəfindən satış qiymətlərinin aşağı salınması satış həcminin artmasına və nəticə etibarilə də satışdan əldə edilən mənfəətin artmasına səbəb olur. Beləliklə, mənfəətin maksimumlaşdırılmasına nail olmaq üçün bazarda məhsula tələbatın və təklifin həcmi, müvafiq olaraq təklif olunan məhsulların qiyməti nəzərə alınmaqla istehsal həcminin və qiymətin təyin edilməsi əsas şərtdir.

İstehsal müəssisələrində satılan məhsul vahidinin qiymətinin dəyişməsi yalnız satışdan əldə edilən mənfəətə deyil, həmçinin onun istehsal maya dəyərinə təsir edir. Maya dəyərinə təsir dərəcəsi xərclərin sturukturundan asılıdır, belə ki, o şərti dəyişən və şərti sabit xərclərdən ibarətdir.

Beləliklə, mənfəətin maksimumlaşdırılmasının müxtəlif mümkün variantlarını müəyyən etməklə, mənfəətin gəlir və xərclər arasındakı fərqlərdən ibarət olması qaydasını unutmamalıyıq. Bu prinsipə görə müəssisənin mənfəətinin artırılması üç əsas dəyişkən hesabına əldə edilə bilər: xərclərin səviyyəsinin saxlanılması ilə gəlirlərin artırılması; gəlir səviyyəsinin dəyişməz qalması ilə xərclərin və ya maya dəyərinin azaldılması; eyni zamanda gəlirlərin artması və istehsal xərclərinin azaldılması.

Müəyyən edilmiş problem üzrə müxtəlif elmi mənbələrdə araşdırılan materiallardan alınan nəticə olaraq müəssisənin mənfəətinin maksimumlaşdırılması üzrə konkret tədbirlər təklif edilir:

- istehsal olunan məhsulların satışının səmərəliliyinin artırılması;
- müəssisənin istehsal əsas kapitalından maksimum istifadə hesabına məhsul istehsalı həcminin artırılması;
- əmək və maddi resurslardan səmərəli istifadə;
- istehsal və inzibati məqsədlərə yönəldilən xərclərin təhlili və artıq xərclərin ixtisarı;
- marketinq strategiyasının təkmilləşdirilməsi;
- diferensial yanaşma əsasında əlverişli qiymət siyasətinin tətbiqi və s.

Aparılan araşdırma nəticəsində müəyyən edildi ki, sənaye müəssisələri üçün mənfəətin əhəmiyyətinin yüksək olmasına baxmayaraq mənfəətin maksimumlaşdırılmasına, xüsusilə də qiymətəmələgəlmə strategiyasına hələ də yüksək diqqət yetirilmir.

Ədəbiyyat

1. Гелета И.В., Арутюнова В.В. Пути максимизации прибыли предприятий в современных условиях // Экономика и менеджмент инновационных технологий. 2015, № 6, ч. 2 [Электронный ресурс]. URL: http://ekonomika.snauka.ru/2015/06/9286 (дата обращения: 07.02.2019).

2. Karl E. Keys, Ray C. Feyr və Şaron M. Oster Mikroiqtisadiyyatın əsasları, Qlobal nəşr, azərbaycan dilinə tərcümə, Bakı 2017 – 522 s.

3. Максимизация прибыли: золотое правило и методы реализации. [Электронный ресурс]. URL: https://sales-generator.ru/blog/maksimizatsiya-pribyli/

4. Мустафина О.В. Моделирование предела максимизации доходов бизнес-структур розничной торговли//Фундаментальные исследования. 2016, № 12-5, с. 1126-1131; [Электронный ресурс]. URL: http://fundamental-research.ru/ru/article/view?id=41229

Резюме

Маммадов С.М.

Максимизация прибыли на промышленных предприятиях (модель ценообразования)

В статье была сделана попытка разработки модели ценообразования, который может обеспечивать максимизацию прибыли промышленного предприятия. В результате изучения материалов по стратегии ценообразования сделаны выводы о том, что эти стратегии можно сгруппировать таким образом: ценовая стратегия, которая покрывает все затраты и обеспечивает норму прибыли, ообеспечивает максимизацию прибыли и конкурентоспособность предприятия на рынке. Были определены особенности каждой из трех стратегий ценообразования предприятий, и сравнительный анализ стратегии ценообразования был представлен в виде таблицы. Наряду с положительными и отрицательными сторонами каждой из трех стратегий была изучена эффективность их использования на практике. Был проведен анализ влияния цены на прибыль, полученную от реализации на основе динамики изменения цены продукции (редуктор) ОАО "Нефтгазмаш" на протяжении нескольких лет. На основе показателей предприятия смоделирована динамика продаж продукции и прибыли от ее реализации в условиях, когда цена продажи колеблется в диапазоне 14-20 тыс. манатов.

Ключевые слова: *максимизация прибыли, стратегия ценообразования, сравнительный анализ, модель ценообразования.*

Summary

Mammadov S.M.

Maximization of Profit in Industrial Enterprises (pricing model)

In the article it's attempted to maximize profit in industrial enterprises and develop a pricing model that can provide it. As a result of the study of materials on pricing strategy, the grouping of them in three main strategies: price strategies that cover all costs and ensure profit norm, ensure competitiveness in the market and maximize profit were investigated. Different aspects of all three pricing strategies of enterprises were identified and a comparative analysis of pricing strategy was presented through table. Along with the pros and cons of all three strategies, the effectiveness of their use in practice has been investigated. Analysis of the impact of the price on profit from sales was carried out on the basis of the dynamics of changes in the price of the product "reductor" produced in "Neftgazmash" OJSC for decades. On the basis of the enterprise's

indicators, the dynamics of profit from the sale and sale of the product was modeled in conditions when the sales price changed in the range of 14-20 thousand manats.

Key words: *profit maximization, pricing strategy, comparative analysis, pricing model.*

MÜHASİBAT UÇOTU TƏHLİLİ VƏ PUL VƏSAİTLƏRİNİN AUDİTİ PROBLEMİ

Nəcəfova Çiçək Məhəmməd qızı
Sumqayıt Dövlət Universiteti
chichak64@mail.ru

Xülasə: *Məqalədə müəssisədə pul vəsaitlərinin uçotu və auditinin təhlilinin əsas prinsipləri araşdırılır. Müəssisənin pul vəsaitlərinin idarə edilməsinin uçotu və təhlilinə vahid yanaşmanın zəruriliyi əsaslandırılmışdır. Heç kimə sirr deyil ki, bu gün müəssisələrin bütövlükdə iqtisadiyyatın əsas problemi istehsal fəaliyyətlərini həyata keçirmək üçün vəsait çatışmazlığıdır. Vəsait çatışmazlığının səbəblərindən biri onlardan səmərəsiz istifadə edilməsidir.*

Açar sözlər*: nəzarət, təhlil, audit, mühasibat, nağd pul vəsaitləri.*

Hər bir müəssisə iqtisadi fəaliyyət prosesində olan müəssisələr tədarükçülər və sifarişçilərlə iqtisadi əlaqələr qurur. Aralarındakı münasibətlər, bir qayda olaraq, müqavilələrlə rəsmiləşdirilir. Müqavilə öhdəliklərinin ciddi şəkildə yerinə yetirilməsi və müəssisələr arasında hesablaşmaların düzgün təşkili vəsaitlərin vaxtında alınmasına səbəb olur. Müəssisənin nağd pul vəsaiti müəssisənin kassasında, bank hesablaşmalarında olan vəsaitlərini əks etdirir. Eyni zamanda müəssisənin valyuta hesabında, xüsusi və depozit hesablarında, akkreditivlərində, çek kitabçalarında, yolda olan və pul sənədlərində əks olunan pul vəsaitlərinin məcmusudur. Bu, iqtisadi aktivlərin dövriyyəsinin ilkin və son mərhələlərini xarakterizə edən əsas göstərici məhz puldur. Onların hərəkət sürəti əsasən müəssisələrin və təşkilatların bütövlükdə fəaliyyətlərinin səmərəliliyi ilə müəyyən edilir. Nağd pul kütləsi ümumən ən likvid olduğundan, bu əsasda müəssisə və təşkilatın ən mobil və mühüm aktividir. Nağd pul əməliyyatları bütün fəaliyyət sahələrini əhatə etdiyinə görə xüsusi xarakter daşıyır və buna görə pozuntular baxımından ən həssasdır. Pul vəsaitlərin auditi müəssisə və təşkilatların sərəncamında olan vəsaitin mövcudluğu və sənədlərdə hərəkətinin düzgünlüyünün yoxlanılmasıdır. Pul və onun ekvivalentlərinin uçotunun düzgün aparılması müəssisə və təşkilatlar üçün olduqca vacibdir. Çünki nağd pul kütləsi iqtisadi fəaliyyət zamanı əhatəli qaydada tətbiq edilən mühüm vasitədir. Müəssisə və təşkilatlarda pul vəsaitlərin dövriyyəsi davamlı bir proses olduğundan burada xüsusən maliyyə fondlarında daimi və sistemli bir nəzarətin qurulması mühüm əhəmiyyət kəsb edir. [2]. İqtisadi ədəbiyyatlarda tam şəkildə qeyd olunur ki, müəssisənin pul vəsaitlərinin və ekvivalentlərinin hərəkəti ilə əlaqəli olan əməliyyatlar (yəni pul, bank və valyuta əməliyyatları nəzərdə tutulur) davamlı nəzarət metodu ilə təsdiqlənməlidir.

Bizə məlumdur ki, ümumən tətbiq edilən davamlı nəzarətin iki növü var (Şəkil 1). Nağd əməliyyatların aparılması zamanı tətbiq edilən qaydalara nəzarət etmək və ona əməl etmək üçün nağd əməliyyatın müxtəlif uçot reyestrlərində əks olunması ilə müqayisə olunan qarşılıqlı nəzarət metodundan istifadə olunur.

Müəssisədaxili nəzarətin vəziyyətini öyrənərkən müəssisədəki kassa intizamına riayət olunmasına ilkin qiymət verilməlidir. İlkin qiymətləndirmə əsasında auditor daha çox zəifliyi

müəyyənləşdirir, əsas yoxlama prosedurlarının tərkibini planlaşdırır, müəssisədə mühasibat uçotunun spesifik xüsusiyyətlərini müəyyənləşdirir.



Şək.1. Davamlı nəzarətin növləri

Pul vəsaitlərinin və ekvivalentlərinin yoxlanılması zamanı ən vacib hal müəssisə tərəfindən daxilolmaların və ödənişlərin ardıcıllığının müəyyən edilməsi və qiymətləndirilməsidir. Müəssisədəki real pul axınının müəyyən edilməsi, qiymətləndirilməsi, bəndlər üzrə açıqlanması, eyni zamanda əldə edilmiş maliyyə nəticəsinin miqdarının nağd vəziyyətlə əlaqələndirilməsi üçün hesabat dövrü üzrə pul axınının bütün istiqamətlərini müəyyənləşdirmək və tətdiq etmək lazımdır. Pul vəsaitlərinin hərəkəti istiqamətləri ümumiyyətlə əsas fəaliyyət formasında cari, maliyyə və investisiya istiqaməti olaraq qruplaşdırılır. (Şəkil 2).



Şək.2. Müəssisənin pul vəsaitlərinin hərəkəti

Pul vəsaitlərinin hərəkəti xərclər və gəlirlərlə xarakterizə olunur. Cari fəaliyyətlər çərçivəsində xərclər aşağıdakılarla müəyyən edilir:

- təchizat əsasında yaranan öhdəliklər üzrə ödənişlər,
- sosial sığorta və digər fondlara köçürmələr,
- büdcə ödəmələri,
-xidməti müqavilə əsasında işçilik ödənişlərinin və hesablanmış əmək haqlarının ödənilməsi.

Gəlir isə ilk növbədə aşağıdakılardan ibarətdir:

- satışdan əldə edilən gəlirlər,
- sifariş əsasında alıcılardan və daimi müştərilərdən alınan avanslar,
- yerinə yetirilən iş və xidmətlər əsasında əldə edilən gəlirlər.

Müəssisədə gəlir mənbələri iki növə ayrılır: xarici və daxili. Xarici daxilolmalar dedikdəhər hansı formada olan kreditlər və investisiyalardır. Daxili gəlirlər iki qrupa yəni, məhsul satışı və göstərilən xidmətlər əsasında yaranan gəlirlərə və əlavə fəaliyyət əsasında yaranan gəlirlərə ayrılır. Müəssisənin cari fəaliyyəti əsasən orada formalaşan pul vəsaitlərinin və ekvivalentlərinin hərəkəti müəyyən edilir. Müəssisənin maliyyə fəaliyyətinə diqqət yetirdikdə məlum olur ki, burada əsasən kredit vəsaitlərinin müddətli olaraq hərəkəti, təsisçilərə dividentlərinin ödənilməsi kimi hərəkətlər istiqamətlənir. [3].Aşağıdakı xüsusiyyətlər pul vəsaitlərinin hərəkəti xarakterizə edir:

- pul axını iqtisadi xüsusiyyətə əsaslanaraq maliyyə təsərrüfat fəaliyyəti zamanı formalaşır;
- pul vəsaitlərinin hərəkəti müəyyən olunmuş hesabat dövrünü əks etdirir;
- pul vəsaitlərinin hərəkətinin nəticəsi gəlir və xərc olaraq müsbət və ya mənfi göstərici şəklində qeyd olunur;

Nağd vəsait axınlarının müxtəlif əsaslar üzrə ayrılmasının əsas məqsədi pul hərəkəti əməliyyatlarının idarə edilməsi və müəssisənin iqtisadi fəaliyyət prosesində maliyyə tarazlığını təmin etmək üçün onların təhlilidir. Yoxlama apararkən qiymətləndirmə, planlaşdırma və audit prosedurlarına əhəmiyyətli dərəcədə təsir edən mühasibat obyekti kimi pul vəsaitlərinin və onların ekvivalentlırinin axını xüsusiyyətlərini nəzərə almaq lazımdır [4].

Auditin səmərəliliyi ilk olaraq yoxlama zamanı qarşıda duran məqsədlərin dəqiq müəyyənləşdirilməsindən, əvvəlcədən hazırlanmış audit planı və proqramı çərçivəsində onlara nail lmağın ən effektiv yollarından asılıdır. Auditor tərəfindən nağd pul axınının auditi zamanı keyfiyyəti yüksəltmək üçün müəyyən hərəkət ardıcıllığı bilavasitə audit proqramının təşkili ilə əlaqələndirilir. Yuxarıda göstərilənlərlə əlaqədar olaraq, nağd pul axınının ən effektiv auditi üçün, yoxlanılan müəssisənin xüsusiyyətlərini nəzərə alan müəssisədaxili audit standartının hazırlanması tövsiyə olunur. Hesabat dövrü üzrə müəssisədə nağd pul axınlarının strateji təhlili yaxın və uzaq xarici mühit amillərinin təsiri nəzərə alınmaqla aparılmalı və metodoloji əsasa uyğun olmalıdır [1].

Pul axınlarının uçotu və təhlilinin təşkili metodologiyası bir-biri ilə əlaqəli addımları əhatə etməlidir:

- pul vəsaitlərinin hərəkəti üzrə müəssisədə daxili auditin təşkili;
- audit zamanı daxili təhlil metodlarına əsaslanma;
- audit olunan idtiqamət üzrə hərəkətin müəyyən olunması;
- monitorinqin həyata keçirilməsi;
- nağd vəsaitlər üzrə uçot siyasətinin əsas elementlərin hazırlanması ;
- ümumi olaraq təhlil aparmaq,
- pul axınının hərəkətinin planlaşdırılması
- əvvəlcədən proqnoz balansının tərtibi;
- auditlə əlaqəli pul axını xidmətlərinin göstərilməsi.

Beləliklə, audit uçotunun təşkili və pul vəsaitlərinin hərəkəti təhlilinin təşkili metodologiyası maliyyə nəticəsini hər bir fəaliyyət növü üzrə müəyyənləşdirmək imkanı verəcəkdir. Bu da öz növbəsində hər bir fəaliyyət növü üzrə gəlir və xərclər haqqında təqdim olunan bütün məlumatlara uyğun pul vəsaitlərinin hərəkətinin təhlili və nəzarətini asanlaşdıracaq. Nəticə olaraq faktiki verilənlərin plandan kənara çıxmalarının vaxtında müəyyənləşdirilməsi təmin ediləcək.

Ədəbiyyat

1. Васильчук О. И. Бухгалтерский учет и анализ: учебное пособие с грифом УМО / Под ред. Л. И. Ерохиной. М.: ФОРУМ, 2011

3. Васильчук О. И. Процедуры аудита деятельности предприятий малого и среднего бизнеса, направленные на обеспечение экономической безопасности / О. И. Васильчук//Инновационное развитие экономики. 2011, № 3, с. 17–26.

4. Данилевский Ю. А. Становление аудита в России: учеб. пособие / Ю. А. Данилевский. М.: Омега Л, 2010, 233 с.

5. Прохорова Н. А. Использование экономико-юридической информации при различных формах контроля /Н. А. Прохорова, И. А. Соколова // Вестник Поволжского государственного университета сервиса. Серия: Экономика. 2011, № 15, с. 157–164.

6. http://fb.ru /article/17400/ audit-denejnyih-sredstv-prosto-o-slojnom

7. http://www.moluch.ru / archive / 67 / 11326 /

Резюме

Наджафова Ч.М.

Проблема аудита денежных средств и учета анализа

В статье рассматриваются основные принципы кассового учета и аудиторского анализа на предприятии. Необходимость единого подхода к учету и управлению денежными средствами на предприятии обоснована. Не секрет, что основной проблемой современных предприятий и экономики в целом является нехватка средств на производственную деятельность. Одной из причин отсутствия средств является их неэффективное использование.

***Ключевые слова**: контроль, анализ, аудит, бухгалтерский учет, касса.*

Summary

Najafova Ch.M.

The Problem of Auditing Money and Accounting Analysis

The article considers the basic principles of cash accounting and audit analysis of the enterprise. The need for a single approach to accounting and money management is based on the enterprise. It is no secret that the main problem of modern enterprises and the economy as a whole is the lack of funds for production activities. One of the reasons for the lack of funds is their inefficient use.

***Key words:** control, analysis, audit, accounting, cash.*

KOMMERSİYA BANKLARININ İQTİSADİ TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

Rəhmanova Lalə Rəhman qızı

Sumqayıt Dövlət Texniki Kolleci

seidememmedova@mail.ru

***Xülasə:** Kommersiya banklarının əsas məqsədi maksimum mənfəət əldə etmək və aktivlərin yüksək likvidliyinə və nəticədə, maliyyə sabitliyinə nail olmaqdır. Bu isə öz növbəsində onların iqtisadi təhlükəsizliyinin təmin olunmasına təsir göstərir. Məqalədə məhz, kommersiya banklarının iqtisadi təhlükəsizliyinin səviyyəsinin qiymətləndirilməsi meyarları nəzərdən keçirilmişdir. Həmin meyarlara əsasən, kommersiya banklarının iqtisadi təhlükəsizliyinə olan təhdidlərin səviyyəsini azaltmaq üçün tədbirlərin görülməsi təklif edilmişdir. Kommersiya banklarının iqtisadi təhlükəsizliyin əsas elementləri ilə əlaqəsinə baxılmışdır.*

Açar sözlər: *kommersiya bankları, iqtisadi təhlükəsizlik, risk, idarəetmə, maliyyə*

Kommersiya banklarının bütün fəaliyyəti riskə əsaslanır. Bank riskləri nəzəriyyəsinə görə, risk mövcudluğu hər hansı bir kommersiya fəaliyyətinin normal bir hissəsidir. Kommersiya banklarının mənfəət sahəsində təhlükəsizliyi mövcud risk səviyyəsi ilə bank fəaliyyətinin rentabelliyi arasında optimal nisbət kimi qəbul edilir.

Ona görə kommersiya bankının əsas vəzifəsi riskləri effektiv idarə etməkdir. Risklərin idarə edilməsinin məqsədi bankın sərəncamında olan inzibati və iqtisadi mexanizmlər vasitəsilə risklərin qiymətləndirilməsi, risk şəraitində müəyyən bir davranış modelinin seçilməsi, risk səviyyəsinin azaldılmasına yönəldilmiş strategiyanın seçilməsidir.

Müasir kommersiya bankının iqtisadi təhlükəsizliyini təmin etmək üçün əsas olan bankın fəaliyyətinin davamlılığını təmin etmək, onun hüquq və maraqlarını müdafiə etmək, nizamnamə kapitalının artırılması, aktivlərin likvidliyinin artırılması məqsədilə təşkilati, idarəetmə, təşkilati, texniki və informativ tədbirlər görmək, maliyyə və maddi dəyərlərin təhlükəsizliyini, həmçinin kreditlərin qaytarılmasını təmin etməkdir.

Kommersiya banklarının iqtisadi təhlükəsizliyinin öyrənilməsinin ayrılmaz elementi meyarların seçimidir. Kommersiya banklarının iqtisadi təhlükəsizliyi meyarı, bankın iqtisadi təhlükəsizliyə aid olub-olmadığı barədə bir nəticə əldə edə biləcək əlamətlər kimi başa düşülür.

Kommersiya banklarının iqtisadi təhlükəsizliyinin səviyyəsinin qiymətləndirilməsinə iki meyar təsir göstərir:

- maliyyə sabitliyi göstəricisi;
- kommersiya bankının kredit portfelinin keyfiyyət səviyyəsi.

Bu meyarlara əsasən, kommersiya banklarının iqtisadi təhlükəsizliyə olan təhdidlərin səviyyəsini azaltmaq üçün bir sıra tədbirlərin görülməsini təklif edə bilərik:

- müvafiq əməliyyatların bütün iqtisadi və hüquqi aspektlərinin hərtərəfli təhlilinin nəticələrinə əsaslanaraq yalnız əsaslandırılmış təhlükələr nəzərə alınmalıdır;
- idarəetmə qərarları qəbul edərkən, bankın kapitalının qəbul edilmiş təhlükələrə uyğunluğuna daha çox diqqət yetirilməlidir;
- iqtisadi təhlükəsizlik xidmətinin fəaliyyəti bankın iqtisadi təhlükəsizliyinin səviyyəsinin mütəmadi olaraq monitorinqini təmin etməlidir;
- daxili nəzarət sistemlərinin fəaliyyətinin səmərəliliyinə nail olmaq, bank və biznes əməliyyatlarının aparılması ilə bağlı nəzarətsiz qərarlar qəbul edilməməsi, həmçinin inzibati və idarəetmə xərclərinin azaldılması;
- informasiya və maliyyə təhlükəsizliyini təmin etməyi gücləndirmək üçün tədbirlər həyata keçirilməlidir;
- beynəlxalq bank təcrübəsində istifadə olunan iqtisadi təhlükəsizliyə qarşı təhdidlərin idarə edilməsinin qabaqcıl üsullarından istifadə;
- iqtisadi təhlükəsizlik işçilərinin peşəkarlıq səviyyəsini artırmaq, onların səlahiyyətlərini genişləndirmək üçün bu işə daha çox diqqət yetirmək.

Ümumiyyətlə, kommersiya banklarının iqtisadi təhlükəsizliyini təmin etmək indiki vaxtda hərtərəfli həlli tələb olunan prioritet məsələdir.

Bankın xarici və daxili təbiətin təhlükələrindən qorunması problemləri arasında maliyyə resurslarının qorunmasının təmin edilməsi, kommersiya bankının məlumat bazasının və mülkiyyətinin qorunması və onun maliyyə təhlükəsizliyi sisteminin yaradılması daha da

aktuallaşmaqdadır. Kommersiya bankları üçün kreditlərin geri qaytarılmasını təmin etmək, rentabelliyi artırmaq, likvidliyin qorunması və bank risklərinin azaldılması kimi effektiv və təhlükəsiz fəaliyyət şərtləri xüsusilə vacibdir.

Müasir iqtisadi şəraitdə kommersiya bankları davamlı inkişaf mexanizmləri və hədəflərinin əldə olunmasına mane olan xarici təsirlərə çevik reaksiya göstərmək məcburiyyətindədir. Bu şəraitdə kommersiya banklarının iqtisadi təhlükəsizliyi üçün idarəetmə sisteminin formalaşması vacib amildir. Hal-hazırda, bir çoxları müxtəlif iqtisadi təhlükəsizlik proqramlarını hazırlayıb həyata keçirirlər, lakin hamısı daxili istehlak üçün istifadə olunur və ümumi xarakter daşımır. Eyni zamanda, kommersiya banklarının iqtisadi təhlükəsizliyini idarə etmək üçün effektiv bir sistemin inkişaf etdirilməsinin zəruriliyi ön plana çıxır.

Kommersiya banklarının bir neçə təhlükəsizlik səviyyəsi vardır:

• intellektual mülkiyyətin hüquqi müdafiəsi;
• bank işçilərinin sosial təminatı;
• ədalətsiz rəqabətdən qorunmaq;
• bank aktivlərinin təhlükəsizliyi;
• informasiya mühitinin təhlükəsizliyi.

Risklərin və təhdidlərdən sistemli qorunmanın mahiyyəti bankın iqtisadi təhlükəsizliyini təmin etmək üçün zəruri olan qarşılıqlı əlaqəli növlərin birləşməsində ifadə edilir. Əlbəttə, məqsədlərə nail olmaq yalnız bir sıra tapşırıqların həlli əsasında mümkündür. Bunlardan ən əhəmiyyətlisi aşağıdakılardır:

• real və proqnozlaşdırma potensial riskləri və təhdidləri müəyyənləşdirmək;
• risklərin və təhdidlərin azaldılması və ya aradan qaldırılması yollarının müəyyən edilməsi;
• bankın iqtisadi təhlükəsizliyini təmin etmək üçün maliyyə mənbələrinin tapılması;
• bankın maraqlarına qarşı cinayətlərin qarşısını almaq və cəzalandırmaq üçün hüquq-mühafizə orqanları və nəzarət orqanları ilə idarəetmənin sıx əlaqələndirilməsi.



Şəkil 1. Kommersiya banklarının iqtisadi təhlükəsizliyin əsas elementləri ilə əlaqəsi

Kommersiya banklarının iqtisadi təhlükəsizliyinə qarşı təhdid kimi, bank risklərinin ehtimalı da nəzərə alınır. Bank riski bankın maliyyə əməliyyatları nəticəsində aktivlərin itirilməsi, planlaşdırılmış gəlir itkisi və ya əlavə xərclər şəklində itkilər ehtimalıdır.

Kommersiya banklarının əsas risk faktorları aşağıdakılardır:

1) kadr işçilərinin qanunsuz hərəkətləri;

2) əmək intizamının pis keyfiyyət səviyyəsi;

3) patentin azaldılması, qəzalar, yanğınlar, partlayışlar;

4) gizli məlumatların qorunması rejiminin pozulması, etibarsız tərəfdaşların və investorların seçilməsi, ixtisaslı kadrların çıxması, kadrların keyfiyyətinin düzgün qiymətləndirilməməsi;

5) enerji, su, istilik təchizatı, kompüter texnologiyalarının çatışmazlığı;

6) məqsədlərin seçilməsi ilə bağlı taktiki və strateji planlaşdırmada əhəmiyyətli yanlışlıqlar, bankın imkanlarının düzgün qiymətləndirilməməsi, xarici mühitdəki dəyişikliklərin proqnozlaşdırılmasında səhvlər və s.

Kommersiya banklarının iqtisadi təhlükəsizliyi sistemində onların müəyyən edilməsi, təsnifatı, qiymətləndirilməsi və təhlili daxil olmaqla risklərin idarə edilməsi üçün mühüm yer ayrılmalıdır. Nəticə etibarı ilə, bankın müxtəlif növ təhdid və risklərə qarşı qorunmasının təşkili iqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətidir. İqtisadi təhlükəsizliyi lazımi səviyyədə saxlamaq və davamlı inkişafı kommersiya bankında strateji idarəetmənin əsasını təşkil edir. Bu problem olduqca mürəkkəbdir və üç əsas məsələni həll edir:

1. İqtisadi təhlükəsizliyə təsir edən təhlükə və ya risk növünün müəyyən edilməsi.

2. Riskləri və təhdidləri idarə etmək üçün mümkün yolların əsaslandırılması.

3. Strateji idarəetmə problemlərini həll etməyə imkan verən iqtisadi təhlükəsizliyə qarşı risklərin və təhdidlərin idarə edilməsi üçün model seçilməsi.

Kommersiya banklarının risk sistemi aşağıdakı şəkildə əks etdirilmişdir.



Şəkil 2. Kommersiya banklarının risk sistemi

Ətraf mühitin təsiri və müxtəlif amillərlə, bir işin iqtisadi təhlükəsizliyinə təsir göstərən bir sıra xarici təhlükələr yaranır. Bunlara: ölkənin siyasi vəziyyətindəki dəyişikliklər; makroiqtisadi dəyişikliklər: böhran, inflyasiya, sənaye əlaqələrinin pozulması və s .; qanunvericilikdəki dəyişikliklər; bazar infrastrukturunun pis inkişafı; ədalətsiz rəqabətin artması; cinayət

strukturlarının qeyri-qanuni hərəkətləri; müxtəlif növ mənimsəmə, fırıldaqçılıq; kommersiya sirri olan gizli məlumatlara üçüncü şəxslərin qanunsuz daxil olması; fond və qiymətli əşyaların oğurlanması; təbii fövqəladə hallar və s. aiddir.

Daxili təhlükələr bankın işində birbaşa özünü göstərir. Əsas daxili risk faktorları aşağıdakılardır: işçilərin qanunsuz hərəkətləri; menecerlərin təhsilinin yetərsizliyi; təhlükəsizliyin pozulması və gizli məlumatların qorunması; etibarsız tərəfdaşlar, investorlar və digər qarşı tərəflərlə işləmək; kompüter texnologiyasının çatışmazlığı; strateji və taktiki planlaşdırmada səhvlər etmək: yanlış məqsədlər qoymaq, şirkətin imkanlarını düzgün qiymətləndirmək, səhvlərin proqnozlaşdırılması; qeyri-kafi təhlükəsizlik, qəzalar, yanğınlar və s .

Hal-hazırda, qeyri-müəyyənlik və iqtisadi qeyri-sabitlik şəraitində kommersiya bankları təsir göstərən təhlükələri azaltmağa və ya tamamilə təsirsiz hala salmağa kömək edən sistem yaratmalıdır. Bu sistem banklara ödəmə qabiliyyətini itirməməyə, həmçinin hər cür təhdidlərə məruz qalmasının qarşısını almağa və onların nəticələrini aradan qaldırmağa kömək edəcəkdir. Belə bir sistemin qorunması obyektləri maliyyə resursları, əmlak, məlumat və kommersiya bankının şəxsi heyəti ola bilər.

Kommersiya banklarının iqtisadi təhlükəsizliyi sistemi potensial xarici və daxili təhdidlərin təhlilinə, vaxtında aşkarlanmasına, təhdidlərin proqnozlaşdırılmasına və qarşısını almaq üçün bir sıra tədbirlərin görülməsinə əsaslanmalıdır.

Ədəbiyyat

1. Басовский Л.Е., Басовская Е.А. Комплексный экономический анализ хозяйственной деятельности. М.: ИНФРА-М, 2011, 366 с

2. Гамза В.А. Безопасность банковской деятельности. М.: Юрайт, 2017, 528 с.

3. Карзаева Н.Н. Основы экономической безопасности. М.: Инфра-М, 2017, 276 с.

4. Ковалев П.П. Банковский риск-менеджмент. М.: Инфра-М, 2013, 320 с.

5. Колбин В.А. Оценка и управление риском. М.: Palmarium Academic Publishing, 2014, 260 с.

6. Королев М.И. Экономическая безопасность фирмы, практика, выбор стратегии. М.: Экономика, 2011, 284 с.

Резюме

Рахманова Л.Р.

Проблемы экономической безопасности коммерческих банков

Основная цель коммерческих банков - максимализация прибыли и высокая ликвидность активов, в результате которого обеспечивается финансовая стабильность. Это в свою очередь сказывается на экономической безопасности банков. В статье рассматриваются критерии оценки уровня экономической безопасности коммерческих банков. Согласно этим критериям предлагаются меры по снижению уровня угроз экономической безопасности коммерческих банков. Рассмотрена связь коммерческих банков с основными элементами экономической безопасности.

Ключевые слова: *коммерческие банки, экономическая безопасность, риск, управление, финансы*

Summary
Rahmanova L.R.
Problems of Economic Security of Commercial Banks

The main goal of commercial banks is to maximize profits and high liquidity of assets as a result of which financial stability is ensured. And this in turn has an impact on the economic security of banks. The article considers the criteria for assessing the level of economic security of commercial banks. According to these criteria, measures are proposed to reduce the level of threats to the economic security of commercial banks. The relationship of commercial banks with the basic elements of economic security is considered.

Key words: *commercial banks, economic security, risk, management, finance*

MÜƏSSİSƏNİN MALİYYƏ RESURSLARININ SƏMƏRƏLİ İDARƏ OLUNMASININ TƏŞKİLİ

Seyidova Səmirə Rasim qızı
Sumqayıt Dövlət Universiteti
Quliyeva Mətanət Gülbala qızı
Sumqayıt Dövlət Universiteti
ilqarosmanov1975/@mail.ru

Xülasə: *Məqalədə müəssisə fəaliyyətinin inkişaf etdirilməsi üçün onun iqtisadi potensialının kəmiyyət və keyfiyyət göstəricilərinin düzgün qiymətləndirilməsinin zəruriliyi əsaslandırılmışdır. Maliyyə vəziyyətinin yaxşılaşdırılması və sabitləşdirilməsi məqsədilə tədbirlərin görülməsi üçün bir vasitə kimi, müəssisənin maliyyə resurslarının idarə edilməsinin təkmilləşdirilməsi problemləri tədqiq edilmişdir. Həmçinin maliyyə resurslarının səmərəliliyini qiymətləndirmə alqoritmi verilmişdir.*

Açar sözlər: *maliyyə, müəssisə, resurs, təhlil, idarəetmə*

İqtisadçı alimlər arasında istehsalın səmərəliliyini müəyyən edən göstəricilər barədə müxtəlif fikirlər formalaşmışdır. Bəzi iqtisadçılar istehsalın səmərəliliyi kateqoriyası ilə onu müəyyən edən göstəricilər arasında heç bir fərq qoymayaraq onların məzmun və mahiyyətini eyniləşdirir. İqtisadçılar arasında istehsal nəticələrinin qiymətləndirilməsi meyarı ilə iqtisadi göstəricilər arasında oxşarlığın olmadığını iddia edənlər də vardır. Bəzi iqtisadçılara görə göstəriciləri genişləndirmək məqsədəuyğun sayılır, digərləri isə, əksinə, göstəricilərin sayını mümkün qədər azaltmağı təklif edirlər. Beləliklə, tədqiqatçılar səmərəliliyi müəyyən edən göstəricilər barədə danışarkən əmək məhsuldarlığı, maya dəyəri, fond tutumu, material tutumu, rentabellik, mənfəət (xalis gəlir) və s. göstəricilərə üstünlük verirlər.

Müəssisə fəaliyyətinin inkişaf etdirilməsi üçün onun iqtisadi potensialının kəmiyyət və keyfiyyət göstəriciləri mühüm əhəmiyyət kəsb edir. Belə göstəricilərə daxildir:

- müəssisənin maddi-texniki göstəriciləri. Bu göstəricilər müəssisənin avadanlıqlarla, xammal və materialarla, digər resurslarla təminlik səviyyəsini xarakterizə edir;
- müəssisənin əmək göstəriciləri. Bu göstəricilər müəssisənin müəssisənin elmi potensialı ilə əlaqədar olan işçi kadrların tərkibini, sayını, strukturunu, ixtisas səviyyəsini xarakterizə edir;

- müəssisənin elmi-nəzəri göstəriciləri. Bu göstəricilər fundamental nəzəri axtarışların nəticələrini əks etdirir;

- müəssisənin informasiya göstəricilər. Bu göstəricilər müəssisənin informasiya resurslarının vəziyyətini əks etdirir;

- müəssisənin təşkilati-idarəetmə resursları. Bu göstəricilər innovasiya layihələrinin zəruri zəruri təşkili və idarə edilməsi metodlarını xarakterizə edir;

- innovasiya göstəriciləri. Bu göstəricilər yerinə yetirilən işlərin elmtutumluluğunu, yenilik səviyyəsini, eləcə də patent, lisenziya, nou-hau, səmərələşdirici təklifləri və s. əks etdirir;

- bazar göstəriciləri. Bu göstəricilər yeniliklərin rəqabətqabiliyyətlilik səviyyəsini, tələb və təklifin səviyyəsini, zəruri marketinq tədqiqatlarının səviyyəsini və s. xarakterizə edən göstəricilərdir;

- iqtisadi göstəricilər. Bu göstəricilər yeniliklərin iqtisadi səmərəlilik səviyyəsini, elmi tədqiqatlara çəkilən xərclərin miqdarını, intellektual məhsulun bazar qiymətlərini və s. ifadə edən göstəricilərdir;

- maliyyə göstəriciləri. Bu göstəricilər investisiyaya ayrılan maliyyə vəsaitlərini, qeyri-maddi aktivləri, maliyyə mənbələrini xarakterizə edən göstəricilərdir [3].

Müəssisə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yuxarıda göstərilən göstəricilərin yaxşılaşdırılmasını, onların operativ idarə olunmasını tələb edir. Həmin göstəricilərin yaxşılaşdırılması xeyli dərəcədə müəssisənin maliyyə resurslarının səmərəli istifadəsi və idarə edilməsindən asılıdır.

Sənaye müəssisələrinin fəaliyyət göstərməsi ölkənin mövcud vəziyyətindən asılıdır. Digər xarici dövlətlər ilə münasibətlər, müharibə şəraiti, beynəlxalq kriminal qruplaşmalarının və ayrı-ayrı şəxslərin cinayətkar fəaliyyətləri iqtisadiyyat üzrə dövlət idarəetməsi, əsas sferalar üzrə bir sıra səbəblərdən istehsalın dağılması təhlükəsi kimi baş verə biləcək halların hər biri nəzərə alınmalıdır.

Hal hazırda müəssisə və təşkilatların təhlükəsizliyi dövlətin bu sahədə gördüyü vahid tədbirlər siyasətinin aparılması nəticəsində təmin edilir. Qanunilik, şəxsin və müəssisənin maraqlar balansının gözlənilməsi, heyətin və rəhbərliyin qarşılıqlı mənsuliyyətliliyi, dövlət təhlükəsizlik orqanlarının fəaliyyəti, qanunvericilik, Azərbaycan Respublikasının Konstitusiyası və təhlükəsizlik sahəsində digər normativ aktlar, həmçinin iş yerlərində rəhbərliyin hazırladığı proqramlar, işçiləri təlimatlandırma, informasiya texnologiyaları üzrə mütəxəssislərin cəlb edilməsi ilə baş verə biləcək təhlükələrin qarşısı alınır və müəssisələrin uğurlu fəaliyyət göstərməsi üçün şərait yaradır.

Əlavə edilməlidir ki, maliyyə və iqtisadi təhlükəsizliyin seçilmiş xidməti variantına uyğun olaraq, iqtisadi təhlükəsizliyin təmin edilməsi - biznesin inkişaf etdirilməsini, təhlükəsizlik baxımından əsas vəzifələrin və funksiyaların siyahısını, bu sahədə mənsuliyyətli şəxslərin funksional fəaliyyətlərini və səlahiyyətlərini müəyyən etməlidir. İqtisadi təhlükəsizliyin əməkdaşları yüksək səviyyəli peşə hazırlığı keçmiş şəxs olmalıdırlar ki, həmin fəaliyyətlərdə əsasən iqtisadi və hüquqi ekspertiza ilə məşğul ola bilsinlər.

Gəlirlərin yaranmasının və mənbələrdən səmərəli istifadənin əsasını səmərəli idarəetmə prinsipi təşkil edir. Hər bir təsərrüfat subyektinin fəaliyyət göstərməsi onu maliyyə resursları ilə təmin etmək prinsipinə söykəndiyindən, təşkilatın istehsal səmərəliliyindən də çox şey asılıdır. Bazarda müəssisələrin əsas məqsədi sosial ehtiyacları ödəmək, qazanc əldə etmək və maliyyə sabitliyini təmin etməkdir. Bu məqsədə çatmaq üçün müəssisələr aşağıdakıları etməlidir:

- yüksək keyfiyyətli məhsul istehsal etmək, tələbata uyğun yeniləmək;

- istehsal mənbələrinin qarşılıqlı dəyişməsi nəzərə alınmaqla səmərəli istifadə;

- müəssisə davranışının strategiyası və taktikasını hazırlamaq və vəziyyətə uyğun olaraq onları tənzimləmək;

- işçilərə qayğı göstərmək, ixtisaslarını artırmaq, həyat səviyyələrini yaxşılaşdırmaq, işçi qüvvəsində əlverişli sosial-psixoloji mühit yaratmaq;

- müəssisənin rəqabət qabiliyyətini təmin etmək, çevik qiymət siyasətini həyata keçirmək, istehsalda, əməyin və idarəetmənin təşkilində yenisini tətbiq etmək.

Bunları reallaşdırmaq üçün maliyyə vəziyyətinin yaxşılaşdırılması və vəziyyətin sabitləşdirilməsi üçün tədbirlərin görülməsi üçün bir vasitə kimi, müəssisənin maliyyə resurslarının idarə edilməsini təkmilləşdirməkdir.

Bazar iqtisadiyyatı şəraitində effektiv maliyyə idarəetməsinin əhəmiyyəti kəskin şəkildə artır. Bu və ya digər dərəcədə maliyyə mənbələrinin rolu bütün idarəetmə səviyyələrində vacib olmaqla, müəssisənin inkişaf strategiyası baxımından xüsusi əhəmiyyət kəsb edir [1].

Maliyyə idarəçiliyi, sahibkarlıq fəaliyyəti ilə məşğul olan bir müəssisənin pul vəsaitlərinin və maliyyə ehtiyatlarının idarə edilməsinin mürəkkəb bir prosesidir. Maliyyə idarəçiliyinə müstəqil sahibkarlıq fəaliyyətinin bir forması və maddi istehsal sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisənin maliyyə fəaliyyətinin idarə edilməsi mexanizmi kimi baxıla bilər.

Müəssisənin maliyyə idarəetməsi maliyyə mənbələri və təsərrüfat subyektləri arasında maliyyə münasibətlərinin hərəkətini idarə etməyə yönəlmişdir. Bu, maliyyə üçün idarəetmə məqsədlərinin təyin edilməsi prosesini təmsil edir. Maliyyə təhlilinin əsasını əsas və prioritet mənbələr növü kimi müəssisənin maliyyə ehtiyatlarının idarə olunması təşkil edir. Maliyyə təhlili, maliyyə mənbələrini idarə etmək üçün əsasdır.

Maliyyə təhlilinin predmeti maliyyə mənbələri və onların axınlarıdır. Əsas məqsəd maliyyə vəziyyətini qiymətləndirmək və müəssisənin effektiv işləməsi üçün imkanları müəyyənləşdirməkdir. Əsas vəzifə müəssisənin maliyyə mənbələrini səmərəli idarə etməkdir.

Səmərəli maliyyə idarəetməsi gəlirliliyi artırmağa və uzunmüddətli investisiya qoymağa imkan verir. Maliyyə mənbələrinin idarəedilməsi, resursların sərf olunan hissəsi ilə əldə olunan nəticələr arasında əlaqə kimi başa düşülməlidir. Maliyyə resurslarının səmərəliliyini qiymətləndirmə metodologiyası aşağıdakı hərəkətlərin alqoritmini nəzərdə tutur:

I mərhələ. Son bir neçə il ərzində şirkətin maliyyə resurslarının dinamikası, tərkibi və strukturunun qiymətləndirilməsi. Belə bir qiymətləndirmə apararkən üfüqi və şaquli təhlil metodlarından istifadə olunur. Əvvəlcə onlar aktivlərin dəyərlərini və onların yaranma mənbələrini əks etdirən müqayisəli analitik balans tərtib edirlər. Sonra, hər bir ilin göstəricisi əvvəlki ilin eyni göstəricisi ilə müqayisə olunan üfüqi təhlil metodu tətbiq etmək lazımdır. Artıb-azalmalar öyrənilir, dinamikanın səbəbləri müəyyənləşdirilir. Növbəti mərhələdə şaquli təhlil üsulu istifadə olunur ki, bunun əsasında hər bir elementin balans maddələri üzrə aktivlərin (öhdəliklərin) ümumi həcmindəki payı hesablanır.

II mərhələ. Müəssisənin likvidliyi və ödəmə qabiliyyətinin təhlili aparılır, yəni mövcud aktivlər ilə öhdəliklərin geri qaytarma ehtimalı müəyyənləşdirilir.

III mərhələ. Maliyyə sabitliyinin hesablanması və təhlili aparılır. Maliyyə sabitliyinin təhlili, şirkətin öz və borc vəsaitləri arasındakı nisbətləri qiymətləndirməyə, kapitalın strukturunu təhlil etməyə imkan verir.

Qiymətləndirmə əsasında şirkətin maliyyə resurslarının idarə edilməsinin səmərəliliyinin artırılması istiqamətləri aşağıdakılardır:

1. Şirkətin pul vəsaitlərinin hərəkəti planlaşdırılması. Metodologiya bir ödəniş təqvimindən istifadə etməklə həyata keçirilir.

2. Firmanın debitor borclarının idarə edilməsi, göstəricinin optimal dəyərinin hesablanması və firmanın düzgün kredit siyasətinin formalaşdırılması.

3. Vəsaitlərin optimal dəyərinin formalaşması baxımından səmərəliliyinin artırılması.

4. Çevik kapital quruluşunun formalaşdırılması, optimal kapital quruluşunun, öz və borc vəsaitlərinin nisbətinin yaradılması [2].

Yuxarıda göstərilən bütün tələblərə uyğunluq maliyyə mənbələrindən istifadədə səmərəliliyin artmasına, ödəmə qabiliyyətinə, likvidliyə və maliyyə sabitliyinə kömək edəcəkdir. Beləliklə, hər hansı bir şirkət maliyyə ehtiyatlarının səmərəli idarə edilməsinə səy göstərir. Bu, işgüzar fəaliyyət və gəlirlilik göstəriciləri ilə ölçülə bilər.

Ədəbiyyat

1. Бланк И.А. Антикризисное финансовое управление предприятием. М.: Ника-Центр, Эльга, 2014. 672 с.

2. Жилкина А. Н. Управление финансами. Финансовый анализ предприятия. М.: ИНФРА-М, 2016, 336 с.

3. Коротков Э.М. Антикризисное управление . М.: ИНФРА –М, 2014, 554 с.

Резюме

Сейидова С.Р., Гулиева М.Г.

Организация эффективного управления финансовыми ресурсами предприятия

В статье обоснована необходимость точной оценки количественных и качественных показателей экономического потенциала предприятия в целях ее развития. Исследуются проблемы совершенствования управления финансовыми ресурсами предприятия для разработки мероприятий по улучшению и стабилизации финансового положения. А также дан алгоритм оценки эффективности финансовых ресурсов.

Ключевые слова: *финансы, предприятие, ресурс, анализ, управление*

Summary

Seyidova S.R., Guliyeva M.G.

Organization of Effective Management of Financial Resources of the Enterprise

The article substantiates the need for an accurate assessment of quantitative and qualitative indicators of the economic potential of an enterprise with a view to its development. The problems of improving the management of financial resources of the enterprise to develop measures to improve and stabilize the financial situation are investigated. And also an algorithm for evaluating the effectiveness of financial resources is given.

Key words: *finance, enterprise, resource, analysis, management*

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MEYARLARI

Yəhyayeva Aynurə Yusif qızı
Sumqayıt Dövlət Universiteti
yehyayeva1@gmail.com

Xülasə: *Məqalədə sənaye müəssisələrinin investisiya cəlbediciliyinin öyrənilməsinin zəruriliyi əsaslandırılmışdır. İnvestisiya cəlbediciliyinin əsas göstəriciləri ölkə, region və sahə səviyyəsində tədqiq edilmişdir. Sənaye müəssisələrinin investisiya cəlbediciliyinin qiymətləndirilməsinin meyar və göstəriciləri müəyyənləşdirilmişdir. Sənayedə investisiya qoyuluşlarını bu vəsaitlərin axınının dörd sahəsi üzrə təhlil etməyin məqsədəuyğunluğu tədqiq edilmişdir.*

Açar sözlər: *investisiya, sənaye, müəssisə, region, istehsal, iqtisadiyyat*

İqtisadiyyatın ayrı-ayrı sahələrinin investisiya cəlbediciliyinin öyrənilməsi onların konyunkturasını, dinamikasını və cəmiyyətin bu sektorların məhsullarına olan ehtiyaclarının inkişaf perspektivlərini tədqiq etməyə yönəlmişdir. Sənaye müəssisəsinin investisiya cəlbediciliyini müəyyən edən əsas amillər uzunmüddətli dövrdə onun sabit inkişafını, maliyyə sabitliyini əks etdirən və xarici mühitdə baş verən prosesləri nəzərə alan amillərdir. Müəssisənin investisiya cəlbediciliyi xüsusiyyətlərin birləşməsidir. Tərkibi müəssisənin gələcək inkişafına pul qoymaq üçün nə qədər səmərəli olduğunu göstərir. Əsas göstərici uzun müddət ərzində sabit gəlir əldə etmək amilidir.

Sənayenin investisiya cəlbediciliyi, vəsaitlərin axınının formalaşmasında əsas element, investorun qərar qəbul etməsini təyin edən amildir. Buna görə sənaye müəssisələrinin investisiya cəlbediciliyinin idarə edilməsi investisiya fəaliyyətinin tənzimlənməsinin əsas yollarından biridir.

İstənilən prosesin idarə edilməsi onun vəziyyətinin obyektiv qiymətləndirilməsinə əsaslanmalıdır. İnvestisiya prosesinin əsas xarakteristikası sənayenin investisiya cəlbediciliyinin vəziyyətidir. Bu baxımdan sənayenin investisiya cəlbediciliyini qiymətləndirmək lazımdır.

Hər hansı bir müəssisəyə investisiya qoymağın məqsədəuyğunluğu barədə qərar vermək üçün investorlar aşağıdakı məlumatları almaq istəyirlər:

- müəssisənin əsas fəaliyyəti nədir;
- müəssisə rəhbərliyinin həyata keçirdiyi məqsəd və vəzifələr nədən ibarətdir;
- müəssisənin öz sektorunda lider olub-olmaması;
- müəssisənin əsas rəqibləri və onlarla rəqabət qabiliyyətinin dərəcəsi;
- idarəetmə sistemindəki güclü və zəif tərəflər;
- mövcud olduğu dövrdə müəssisənin uğurları;
- müəssisə rəhbərliyinin səhmdarlar qarşısında məsuliyyət dərəcəsi.

Sənaye müəssisəsinin investisiya cəlbediciliyinə aşağıdakılar daxildir:

- müəssisənin texniki bazasının ümumi xarakteristikası: müasir avadanlıqların mövcudluğu; coğrafi yer; nəqliyyat kommunikasiyalarına yaxınlıq;
- müəssisənin texniki bazasının vəziyyəti: texnologiyanın vəziyyəti, əsas vəsaitlərin dəyəri, fiziki və mənəvi köhnəlmə əmsalı;
- istehsal olunan məhsul çeşidi;
- istehsal gücü;

- müəssisənin sənayedə, bazarda yeri, inhisarın səviyyəsi.
- idarəetmə sisteminin xüsusiyyətləri;
- nizamnamə fondu, müəssisənin sahibləri;
- nəzarət sisteminin xüsusiyyətləri;
- istehsal xərclərinin strukturu, mənfəət və ondan istifadə istiqamətləri;
- müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsi [4].

Sənayenin investisiya cəlbediciliyinin təhlili onun həyat dövrü mərhələsinə, təsərrüfat subyektlərinin fəaliyyətinin kəmiyyət və keyfiyyət göstəricilərinə əsaslanır.

Müəyyən bir müəssisəyə investisiya qoymağı planlaşdırarkən investorlar siyasi və iqtisadi sabitlik, korrupsiya və cinayətkarlıq səviyyəsi, məhkəmə sisteminin müstəqilliyi, biznesin hüquqi müdafiəsi və s. kimi göstəricilərlə müəyyən edilən riskləri qiymətləndirirlər.

İnvestisiya cəlbediciliyinin 4 əsas komponentini fərqləndirirlər:

1. Ölkənin investisiya cəlbediciliyi.
2. Regionların investisiya cəlbediciliyi.
3. Sənayenin investisiya cəlbediciliyi
4. Təsərrüfat subyektlərinin investisiya cəlbediciliyi [2].

Təqdim olunan investisiya cəlbediciliyinin hər birinin daha təsirli, əhatəli təhlil və proqnozlaşdırılmasına imkan verən bir sıra analitik göstəricilər var.

Ayrı-ayrı layihələr və müəssisənin fəaliyyəti onun inkişafının vahid konsepsiyasına uyğun olmalıdır. Müəssisənin inkişafı ilə bağlı uzunmüddətli proqnozların müəyyənləşdirilməsi strateji investorlar üçün daha maraqlıdır. İnkişaf strategiyası və diaqnostika müəssisədəki mövcud vəziyyəti qiymətləndirməklə yanaşı, gələcəkdə investisiya cəlbediciliyini artırmağa da imkan verir.

Sənayedə investisiya qoyuluşlarını bu vəsaitlərin axınının dörd sahəsi üzrə təhlil etmək məqsədəuyğun görünür:

1. İnvestisiya axını artan sahələr.
2. Sabit investisiya axını olan sənaye.
3. Qeyri-sabit investisiya axını olan sənaye.
4. İnvestisiya axını ilə xarakterizə olunan sahələr [1].

Fikrimizcə, investorun investisiya qoyuluşunun məqsədəuyğunluğu barədə qərar verməsinə imkan verəcək analitik və proqnoz göstəricilərini müqayisə etməklə hərtərəfli investisiya cəlbediciliyinin təhlilini aparmaq olar (Cədvəl).

Cədvəl

İnvestisiya cəlbediciliyinin əsas göstəriciləri (səviyyələrə görə)

Təhlil	Proqnoz
Ölkə səviyyəsində	
1. Ölkə iqtisadiyyatının tsiklik inkişaf mərhələsinin müəyyənləşdirilməsi. 2. Ölkənin investisiya mühitini səciyyələndirən makroiqtisadi göstəricilərin təhlili. 3. Ölkənin investisiya potensialını xarakterizə edən göstəricilərin təhlili.	1. Ölkənin makroiqtisadi inkişafının proqnozu. 2. Ölkə iqtisadiyyatının inkişafı və iqtisadi fəaliyyətin müəyyən sahələri üzrə dövlət proqramları
Region səviyyəsində	
1. Ölkə iqtisadiyyatında regionların reytinqi. 2. İnzibati maneələr. 3. İnfrastrukturun inkişafı.	1. Regionun perspektivlərinin səviyyəsi. 2. Regionda dövlət dəstəyinin səviyyəsi.

Sahə səviyyəsində	
1. Sahənin tsiklik inkişaf mərhələsinin təyini. 2. Sahənin rentabelliyi.	1. Sahənin perspektivlərinin səviyyəsi. 2. Sahədaxili rəqabətin səviyyəsi. 3. Sahədə dövlət dəstəyinin səviyyəsi.
Müəssisə səviyyəsində	
1. Müəssisənin həyat dövrü mərhələsinin təyini. 2. Sahibkarların və menecerlərin xüsusiyyətləri. 3. Maliyyə-təsərrüfat fəaliyyətinin təhlili. 4. İnvestisiya fəaliyyətinin təhlili.	1. İnvestisiya layihələri həyata keçirən müəssisənin inkişaf strategiyası. 2. İnvestisiya layihələrinin iş planlarını tərtib etmək

Təqdim olunan göstəricilər ölkə, regional, sahə və müəssisə səviyyəsində investisiya cəlbediciliyini hərtərəfli qiymətləndirməyə imkan verir.

Təklif olunan göstəricilərə görə ölkənin investisiya cəlbediciliyini onun makroiqtisadi göstəricilərini, iqtisadi inkişaf səviyyəsini təhlil etməklə, habelə beynəlxalq agentlikləri tərəfindən tərtib olunan reytinqdəki yerinə görə qiymətləndirmək olar. İnvestor regionun ölkənin ümumi daxili məhsuldakı payına, bölgədəki nəqliyyat, informasiya və idarəetmə infrastrukturlarının inkişafına əsaslanaraq bölgənin investisiya cəlbediciliyini qiymətləndirə bilər. Həm də ən vacib göstəricilərdən biri zərərli müəssisələrin ümumi saydakı payıdır.

İqtisadi sahələrin investisiya cəlbediciliyinin qiymətləndirilməsi və proqnozlaşdırılması analitik göstəricilər sisteminin qurulması, onların təhlili və qiymətləndirilməsi əsasında həyata keçirilir. Bu mərhələdə nəzərə alınması vacib məsələlər aşağıdakılardır: ayrı-ayrı sahələrin ölkə iqtisadiyyatındakı rolu; inkişafının perspektivləri və səmərəliliyi; bu inkişafa dövlət dəstəyinin dərəcəsi; müxtəlif sənaye sahələri üçün xarakterik olan investisiya risklərinin səviyyəsi və digər sintetik (ümumiləşdirici) göstəricilər. Hər bir sintetik göstərici analitik göstəricilərinin cəmi ilə qiymətləndirilir.

Sənayenin fəaliyyət səviyyəsini qiymətləndirərkən, istifadə olunan aktivlərin gəlirlilik səviyyəsi kimi analitik göstərici istifadə edilə bilər. Məhsul satışından əldə edilən mənfəətin (və ya bölüşdürülməmiş mənfəətin) istifadə olunan aktivlərin ümumi məbləğinə nisbəti kimi hesablanır. İnflyasiya amilini hesablayarkən xərclərin səviyyəsi, məhsulların satış qiymətləri və digər amillər nəzərə alınmalıdır.

İnvestisiya cəlbediciliyinin qiymətləndirilməsinin ən vacib meyarlarından biri kimi sənayenin inkişaf perspektivləri aşağıdakılar əsasında öyrənilir:

• gəlirlilik və risk göstəriciləri;

• özəlləşdirmənin istiqamətləri, dərəcələri və formaları;

• məhsulların ixrac potensialının səviyyəsi;

• istehsal olunan məhsulların inflyasiyadan qorunması səviyyəsi və s.

Sənayenin inkişaf perspektivləri səviyyəsinin qiymətləndirilməsi aşağıdakı analitik göstəricilərə əsaslanır.

- sənayenin iqtisadiyyatdakı payı (bu göstəricinin kəmiyyət qiymətləndirilməsi, iqtisadiyyatın davam edən struktur tənzimlənməsi nəzərə alınmaqla, sənaye istehsalının ÜDM-də faktiki və proqnozlaşdırılan payı ilə təmin olunur) [1].

Bütövlükdə iqtisadiyyatda istehsalın iqtisadi tənəzzülünə sənayenin dayanıqlığı (sənayenin istehsal dinamikasının ölkənin ÜDM-ə nisbətinin göstəriciləri);

• sənayedə çalışanların ümumi işləyənlərin sayında xüsusi çəkisi;

• öz maliyyə mənbələri ilə artım perspektivlərinin təmin edilməsi (sənayenin öz vəsaiti hesabına kapital qoyuluşlarının həcmi və payı; istifadə olunan aktivlərdə kapitalın payı).

Sənayenin inkişafına dövlət dəstəyinin dərəcəsi analitik göstəricilər ilə xarakterizə olunur: dövlət kapital qoyuluşlarının həcmi; dövlət kreditinin həcmi; vergi güzəştləri və s.

Sənayedə investisiya qoyuluşunun risk qiymətləndirməsi aşağıdakı amillərlə müəyyən edilir:

• müvafiq sənayenin mal və xidmətlərinin istehsalı;

• müvafiq sənaye müəssisələrinin daxili və xarici bazarlarda rəqabət qabiliyyəti;

• sənaye məhsullarının inflyasiya dayanıqlığı;

• sənaye müəssisələri üçün xammal, enerji və digər dəstəyin sabitliyi.

Ümumiyyətlə, sənaye müəssisələrinin investisiya cəlbediciliyini təhlil etməkdə ən vacib vəzifə mövcud vəziyyəti və inkişaf dinamikasını qiymətləndirməkdir. Sənayenin investisiya cəlbediciliyinin ümumi qiymətləndirməsi inflyasiya prosesləri, bank dərəcələri, investisiya risklərinin səviyyəsi nəzərə alınmaqla hesablanır.

Ədəbiyyat

1. Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H. İnvestisiya fəaliyyətinin təşkili. Bakı: Azərnəşr, 2012, 256 s.

2. Бочаров В. В. Инвестиции. СПб.: Питер, 2009, 384 с.

3. Валинурова Л.С. Организация инвестиционной деятельности в отраслях промышленности. М.: Палеотип, 2008, с. 80.

4. Крылов Э. И. Управление финансовым состоянием организации. М.: Эксмо, 2007, с. 416.

Резюме

Яхьяева А.Ю.

Критерии оценки инвестиционной привлекательности промышленных предприятий

В статье обоснована необходимость изучения инвестиционной привлекательности промышленных предприятий. Основные показатели инвестиционной привлекательности исследуются на уровне страны, региона и отрасли. Определены критерии и показатели оценки инвестиционной привлекательности промышленных предприятий. Исследуется целесообразность анализа инвестиционных вложений в промышленности по четырем основным направлениям.

Ключевые слова: *инвестиции, промышленность, предприятие, регион, производство, экономика*

Summary

Yahyayeva A.Y.

Criteria For Assessing the Investment Attractiveness of Industrial Enterprises

The article substantiates the need to study the investment attractiveness of industrial enterprises. The main indicators of investment attractiveness are studied at the country, region and industry levels. Criteria and indicators for assessing the investment attractiveness of industrial enterprises are determined. The feasibility of analyzing investment in industry in four main areas is investigated.

Key words: *investment, industry, enterprise, region, production, economy*

FİSKAL SİYASƏT İQTİSADİ ARTIMIN ELEMENTİ KİMİ

Yusubov Orxan Çərkəz oğlu
Azərbaycan Kooperasiya Universiteti
elsever.kerimov@mail.ru

Xülasə: *Məqalədə istənilən ölkənin sosial-iqtisadi tərəqqiyə nail olmaq üçün əsas hədəf kimi iqtisadi artıma nail olmağı qarşıya qoyduğu bildirilir. Bunun üçün də ilk növbədə iqtisadi sistemin hansı səviyyədə olmasının müəyyən olunması bildirilir. Eyni zamanda məqalədə dövlətin fiskal siyasət vasitəsilə iqtisadi artıma neçə təsir etmə imkanları qeyd edilir.*

Açar sözlər: *fiskal siyasət, mülkiyyət, iqtisadi sistem, postsənayeləşmə dövrü, iqtisadi məqsəd.*

Giriş

Məlumdur ki, istənilən ölkə sosial-iqtisadi tərəqqiyə nail olmaq üçün daima malik olduğu iqtisadi resurslardan səmərəli istifadə etməklə iqtisadi artımı əsas hədəf kimi qarşıya qoyur. Başqa sözlə desək, makroiqtisadi səviyyədə iqtisadi artıma nail olmaq hər bir ölkənin əsas amalına çevrilir. Tarixən zamandan aslı olaraq iqtisadi artımın aparıcı halqasını iqtisadi sistemdən irəli gələn elementlər təşkil etmişdir. Digər tərəfdən məlumdur ki, cəmiyyətdə texniki, elmi, maliyyə, sosial və iqtisadi münasibətlərin qarşılıqlı əlaqəsi iqtisadi sistemə əsaslanır. İqtisadi sistemin inkişafı və fəaliyyəti isə təbii-iqlim, sosial-mədəni və istehsal-iqtisadi amillərə birbaşa təsir göstərir. İqtisadi sistemin vəziyyətini xarakterizə edən amillərə istehsal və iqtisadi amilləri göstərmək olar ki, bura əmək vasitələri, istehsal texnologiyası, əməyin və istehsalın təşkili formaları, cəmiyyətdə mülkiyyətin formaları, səmərəlilik səviyyəsi və s. aid edilir.

İqtisadi sistem və dövlətin iqtisadi məqsədi.

İqtisadi sistemin məzmununda yatan əsas amillərdən bəlkədə birincisi mülkiyyətdir ki, bu da insanlar arasında iqtisadi münasibətlər sisteminin əsasını təşkil edir. İqtisadi nəzəriyyədən və internet resurslarının bizlərə təqdim etdiyi məlumatlardan məlumdur ki, o, əşyalar, nemətlər insanlara mülkiyyət hüquqi verir ki, insanlar onlara sahibdirlər, yəni sahiblənmək hüququ verir. Mülkiyyətin ikinci xarakteristikası kimi mülkiyyət sahibinə ondan istifadə etmək hüququ verir. Üçüncü xarakteristikası kimi isə mülkiyyət sahibinə idarə etmək, nəzarət və gəlir götürmək hüququ verir. Onu da bildirək ki, ingilis hüquqşünası A.Oner insanın mülkiyyət hüququnun 11(on bir) olduğunu qeyd edir [1].

Tarixi baxımdan həm iqtisadi sistemlər cəmiyyətin inkişaf dövründə müəyyən dövrlər keçmişdir ki, buna uyğun olaraq mülkiyyətin aparıcı halqasında müəyyən dəyişikliklər baş vermişdir. Həmin dövrləri nəzəri-metodoloji materiallar əsasında əsasən sənayeləşmə dövrünə qədər iqtisadi sistemin inkişafı, sənayeləşmə dövrü və postsənayeləşmə (postindisturial) dövrü kimi iqtisadi yanaşmalarda qeyd edilir. Bu baxımdan tarixən iqtisadi sistemin inkişaf elementlərini təşkil edən amillərə nəzər salaq.

Cədvəl 1.

İqtisadi sistemlərin tarixi inkişafı mərhələləri

Sənayeləşmə dövrünə qədər	Sənayeləşmə dövrü	Postsənayeləşmə dövrü
Dövr üzrə iqtisadiyyatın aparıcı sahəsi		
Kənd təsərrüfatı	Sənaye	Xidmət sferası
Dövr üzrə iqtisadiyyatın aparıcı faktoru		
Torpaq	Kapital	Elmi-texniki tərəqqi, informasiya

Dövr üzrə iqtisadiyyat və cəmiyyətə dominantlıq edən sosial qruplar		
Torpaq sahibləri	Kapital sahibləri	Elm, texnika və informasiya sahibləri

Mənbə: Müəllif yanaşması

Yuxarıda istisadi sistemi və onun aparıcı halqasını qeyd etməyimizdə məqsəd, ilk növbədə, ondan ibarətdir ki, iqtisadi sistemin inkişafının hansı mərhələdə olduğunu müəyyən etmək, iqtisadi inkişaf üçün sabitliyin zəruri olduğunu bildirmək və eləcədə bu sistemin onun aparıcı halqasına dövlətin nə kimi stimullaşdırıcı və ya məhdudlaşdırıcı təsir imkanlarına malik olduğunu müəyyən etməkdir. Bunun üçün də bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadi məqsədlərinə nəzər salmaq maraqlıdır.

Cədvəl 2.

Bazar iqtisadiyyatında dövlətin iqtisadi məqsədləri

İqtisadi məqsəd	*Hədəf və ya nəticə*
İqtisadi artım	Daha yüksək yaşayış səviyyəsini nail olmaq
Tam məşğulluq	İnsan kapitalını inkişaf etdirmək, əmək qabiliyyətli əhalinin çevikliyini təsərrüfat dövriyyəsinə cəlb etmək
İqtisadi səmərəlilik	Məhdud resurslardan səmərəli istifadə, minimum xərclərlə maksimum gəlir
Qiymətlərin sabitliyi	İnflyasiya və deflyasiyaya poseslərinə effektiv nəzarət
Gəlirlərin ədalətli bölgüsü	Cəmiyyətin gəlirlərə görə kəskin təbəqələşməsinin qarşısını almaq, yoxsulluğu azaltmaq
İqtisadi təminat və iqtisadi təhlükəsizlik	İşləmək qabiliyyəti məhdud olan insanlar üçün sosial zəmanətlərin tətbiqi

Mənbə: Müəllif yanaşması

Deməli, dövlət malik olduğu iqtisadi resurlardan istifadə etməklə iqtisadi artıma əhəmiyyətli dərəcədə təsir edə bilər. Bu təsir alətləri arasında fiskal mexanizmlər hesab edirəm ki, olduqca aktual olanlardandır.

Fiskal siyasət və iqtisadi artım

Fiskal siyasət dedikdə, adətən, bazar tarazlığını qorumaq və milli iqtisadiyyatın müəyyən sahələrinin inkişafını stimullaşdırmaq üçün dövlətin gəlir və xərclərinin dəyişdirməsi başa düşülür.

Vergilər və dövlət xərcləri fiskal siyasətin əsas atətləri kimi çıxış edir. Müşahidələr təsdiqləyir ki, fiskal siyasət həm faydalı, həm də zərərli şəkildə milli iqtisadiyyata təsir edə bilər. Bu ilk növbədə dövlətin strateji məqsədlərindən aslı olaraq müəyyən edilə bilər. Müasir fiskal siyasət dövlətin maliyyə ehtiyatlarından istifadənin əsas istiqamətlərini, maliyyələşdirmə metodlarını və xəzinənin doldurulmasının əsas mənbələrini müəyyənləşdirməsi baxımından daha geniş rıcaqlarla xarakterizə olunur. Ayrı-ayrı ölkələrdəki konkret tarixi şəraitdən asılı olaraq belə bir siyasət özünün karakterik xüsusiyyətlərinə malik olur. Ümumi olaraq fiskal siyasətin məqsədlərini aşağıdakı kimi göstərmək olar.

Müşahidələr təsdiqləyir ki, fiskal siyasətin səmərəliliyi, hökumətin iqtisadiyyatda dəyişikliklərə reaksiyasının sürətindən çox asılı olur. Bu, ilk növbədə, iqtisadiyyatın real vəziyyətini düzgün müəyyən etməklə başlayır. Əgər dövlət iqtisadiyyatda gedən proseslərlə ümumən razıdırsa onda belə olduğu halda dövlətlər əsasən liberal siyasət həyata keçirirlər. Bu modeldən əsasən ABŞ

və Böyük Britaniya istifadə edir ki, bu da iqtisadiyyatda xüsusilə vergilər vasitəsilə çox vergi yükü yükləməmək yolu ilə həyata keçirilir.



Mənbə: [2. səh.113].

Şəkil 1 Fiskal siyasətin məqsədləri

Fiskal tənzimləmədə ikinci yol əsasən inzibatı və ya planlı iqtisadi sistemə xas olan xüsusiyyətlərlə həyata keçirilir. Üçüncü yol isə stimullaşdırıcı yol kimi də qeyd etmək olar ki, bu da ikinci dünya müharibəsindən sonra Yapaoniyanın yürütdüyü siyasətdə görmək olar.

Fiskal siyasətin həyata keçirilməsində əsas hədəflərdən biri də ondan ibarət olur ki, dayanıqlı iqtisadi inkişaf səviyyəsi saxlanılsın. Bura ÜDM-in artım templəri, illik inflyasiya səviyyəsi, pul artım templəri, dövlət büdcəsinin kəsiri, dövlət borcunun həcmi, milli valyutanın dalğalanma hədləri, qızıl və valyuta ehtiyatlarının həcmi, xarici borclara xidmət üçün ödənişlərin miqdarı, milli bazarın müəyyən seqmentlərində xarici malların payı, işsizlik səviyyəsi kimi göstərilər üzrə meyarlara riyayət olunsun. Bu baxımdan müasir iqtisadi yanaşmalarda fiskal siyasəti üç parametr üzrə qiymətləndirməyə çalışırlar.

• Optimal;
• Son hədd
• Kritik.

Məsələn, yüksək iqtisadi artım templərinə yalnız illik inflyasiya tempi 5%-dən çox olmadığı halda nail olmağın mümkün olması optimal göstərici olaraq qiymətləndirilir. İllik inflyasiya tempinin 20%-40% arasında olması şəraitində iqtisadi artımın dayanması kimi qeyd edilir ki, bu da son hədd göstəricisi kimi qeydetmə olar. İllik inflyasiya tempi 41%-100% -dən çox olduqda, sənaye istehsalında azalma və ÜDM dəyərinin azalması başlayır ki, bu göstərici də kritik hədd kimi dəyərləndirilir.

Ədəbiyyat

1. https://az.wikipedia.org
2. Агапова Т.А, Серёгина. С.Ф. Макроэкономика : учебник, 10-е изд., перераб. и доп. Москва : МФПУ Синергия, 2013, 560 с
3. https://ru.wikipedia.org/
4. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi məsələləri. Bakı, 2005, s.468

Резюме

Юсубов О.Ч.

Фискальная политика как элемент экономического роста государства

В статье говорится, что любая страна хочет добиться экономического роста в качестве основной цели социально-экономического прогресса. Для этого указывается, в первую очередь, степень экономической системы. В то же время в статье подчеркивается,

как правительство может влиять на экономический рост посредством фискальной политики

***Ключевые слова**: фискальная политика, собственность, экономическая система, постиндустриализация, экономические цели.*

Summary

Yusubov O. Ch.

Fiscal Policy as an Element of State Economic Growth

The article states that any country wants to achieve economic growth as the main target for socio-economic progress. For this purpose it is stated first and foremost the extent of economic system. At the same time, the article highlights how the government can influence economic growth through fiscal policy.

***Keywords:** fiscal policy, property, economic system, post-industrialization, economic goals.*

MALİYYƏ TƏHLİLİNİN ELMİ MƏKTƏBLƏRİ

Zeynallı Elay Cəlal oğlu

Azərbaycan Dövlət Aqrar Universiteti

elayzeynalli@yahoo.com

***Xülasə:** Məqalədə maliyyənin təhlili məktəbləri, maliyyə təhlilinin mahiyyəti, əhəmiyyəti, maliyyə təhlilin tarixi və formalaşması şərtlərindən bəhs edilir, ilkin təhlil məktəbləri (Fransa, İtaliya və Almaniya məktəbləri), Amerika elmi məktəblərinin nailiyyətləri və nümayəndələri tədqiq olunur. Bundan əlavə, Rusiyada idarəetmə təhlili məktəbinin elmi fikirləri və onların nümayəndələri haqqında məlumat verilir və sadalanan hər bir elmi təhlil məktəbinin müasir maliyyə təhlilinə təsiri qiymətləndirilmilir.*

***Açar sözlər:** təhlil, praqmatistlər, modelistlər, statistiklər, ehtimalçılar, rus məktəbi.*

"Təhlil" sivilizasiyanın yaranmasından bəri nitqimizdə mövcuddur və ətraf aləmin idrakının əsas metodlarından biridir. Yunan dilindən tərcümədə “parçalayıram” mənasına gələn təhlil, tədqiq olunan obyektin tərkib hissələrinə bölünməsi, onun tərkib hissələri kontekstində öyrənilməsidir.

İqtisadi (maliyyə) təhlil baş verən iqtisadi hadisə-prosesləri tərkib hissələrinə bölünməsi və hər bir hissənin bütövlükdə öyrənilən obyektin vəziyyətinin dəyişməsinə təsirinin müəyyənləşdirilməsi, eləcə də əlaqə və asılılıqların dərkedilməsidir.

Maliyyə təhlili mövcud maliyyə məlumatlarının identifikasiyası, sistemləşdirilməsi və analitik emalı prosesi kimi başa düşülür. Bunun nəticəsi istifadəçiyə bu təhlil obyekti ilə bağlı idarəetmə qərarlarının qəbul edilməsi üçün rəsmi əsas ola biləcək tövsiyələr verməkdir.

Maliyyə təhlili aşağıdakıları qiymətləndirməyə imkan verir:

● Müəssisənin və onun bölmələrinin maliyyə vəziyyəti, habelə gələcəkdə bu vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdirə biləcək riskləri;

● Cari fəaliyyətlərin və uzunmüddətli investisiyaların həyata keçirilməsi, habelə dividentlərin ödənilməsi üçün vəsaitin yetərli olmasını;

● Seçilən inkişaf strategiyası nəzərə alınmaqla maliyyə mənbələrinə olan ehtiyacını;

● Mənfəətin bölüşdürülməsi və istifadəsi siyasətinin etibarlılığı ilə yanaşı, kapitalı saxlamaq və artırmaq imkanlarını;

● İnvestisiya və maliyyə qərarlarının səmərəliliyi və biznesin inkişafı üçün prioritet sahələrin seçilməsini.

Prof. N.Kazakova hesab edir ki, təhlilin tarixi menecment və mühasibatlıq elmlərindən başlayır. Həqiqətən də, tarixin müxtəlif mərhələlərində təhlil elminin inkişafı mühasibat uçotu və idarəetmə münasibətlərinin kontekstində baş vermişdir [2, 1]. Bizə məlum olan təhlil elementləri Roma İmperiyası dövründə (eramızdan əvvəl V əsr - I əsr) rast gəlinmişdir.

Bir elm kimi təhlilin formalaşmasının ilkin mərhələlərində konseptual bazasının inkişafında Fransa, İtaliya və Alman məktəbləri xüsusi rol oynamışdır. Sistematik iqtisadi təhlilin banisi fransız Jak Savary (1622 - 1690) hesab olunur [3, 35]. J.Savarynın fikirləri italyan məktəbinin nümayəndələri A.di Pietro, B.Venturi və J.Cherboni tərəfindən daha da təkmilləşdirilmişdir. Belə ki, Angelo di Pietro büdcə ayırmalarını faktiki xərclərlə müqayisə etmək üçün metodologiyanı, Bastiano Venturi təşkilatın iqtisadi fəaliyyətinin dinamik göstəricilərini, J.Cherboni (1827 - 1917) isə mühasibat hesablarının sintetik əlavə və analitik parçalanma doktrinasını inkişaf etdirdi [1, 5].

Təhlil elmin inkişafına əsas töhfəni ABŞ-ın maliyyə təhlili biliklərini inkişaf etdirən müxtəlif məktəblər qoydular. Empirik Praqmatistlər Məktəbi (Empirical Pragmatists School) maliyyə xarakterli idarəetmə qərarları vermək üçün analitik əmsallardan istifadə edən peşəkar analitiklər idilər. Məktəbin əsas məqsədi təşkilatın kredit qabiliyyətinin qiymətləndirilməsi idi [5, 197]. İlk dəfə olaraq, maliyyə hesabatlarına görə hesablana bilən və idarəetmə qərarlarının verilməsi üçün faydalı ola biləcək bütün müxtəlif analitik əmsalları göstərməyə çalışdılar. Maliyyə təhlilinin ilk nəzəriyyəçisi olan, bilavasitə likvidliklə bağlı 9 əmsal təklif edən Ceyms Kannon da bu məktəbin nümayəndəsi idi.

Statistik maliyyə təhlili məktəbi (Ratio Statisticans School) hesab edirdi ki, maliyyə əmsallarının hesablanmış dəyərləri yalnız hədd dəyərləri olduqda faydalı ola bilər və eyni tip şirkətlərin (kiçik, orta, böyük biznes) sahələrində, alt sektorlarında və qruplarında standartları hazırlanmalıdır [2, 2-3]. Bu məktəbin nümayəndəsi olan Aleksander Vall ilk dəfə analitik nisbətlərin qiymətləndirilməsi meyarlarının istifadəsini təklif etdi.

The article explores approaches to the disclosure of the category of capital and the essence of its functioning as a source of financial resources to ensure the continuity of the production process. The content of the economic categories "capital" and "financial resources" is investigated. The characteristics of capital as a factor of production, a source of satisfying the financial interests of owners, a criterion for measuring the market value of a company, an indicator of the level of business activity and performance are examined in detail. The emphasis is made on the difference between the concepts of "capital" and "financial resources" based on the form of attraction. The classification of capital into groups is proposed not only by affiliation, but also by the form of attraction.

Key words: *capital, financial resources, capital management, capital classification.*

ПРОЦЕССНО-КОНТРОЛЬНЫЙ АУТСОРСИНГ И ЕГО ВЛИЯНИЕ НА ДЕЯТЕЛЬНОСТЬ ХОЗЯЙСТВУЮЩИХ СУБЪЕКТОВ

Юсупова Руфина Аданисовна

Уфимский государственный нефтяной технический университет

migranowa.r91@yandex.ru

Резюме: *В современных условиях рынка внимание руководства должно быть направлено на повышении эффективности деятельности предприятия. Одним из инструментов, который позволяет оптимизировать функционирование предприятие, является аутсорсинг. В статье рассматривается аутсорсинг и его влияние на деятельность предприятий. Приведены виды аутсорсинга, его преимущества и риски, а также причины, которые побуждают руководство компаний делегировать свои отдельные функции сторонним организациям. Процессно-контрольный аутсорсинг представлен как более безопасный вариант перехода на данный вид деятельности.*

Ключевые слова: *аутсорсинг, процессно-контрольный аутсорсинг, риски, сокращение издержек, капитализация, предприятие.*

Как показывает отечественная и зарубежная практика, за последние десятилетия все большую популярность в деловой среде приобретает аутсорсинг. Термин «аутсорсинг» заимствован из английского языка («outsourcing») и дословно переводится как использование чужих ресурсов. Другими словами, аутсорсинг – это привлечение организацией сторонних компаний для выполнения каких либо отдельных непрофильных функций на договорной основе, специализирующихся в конкретной области и обладающие опытом, знаниями и техническими средствами [1]. В основном, это относится к таким сферам оказания услуг как бухгалтерский учет и отчетность, юридическое сопровождение, логистика, административно-хозяйственное обслуживание, информационные технологии с последующим контролем. Виды аутсорсинга представлены на рисунке 1.

Аутсорсинг начал развиваться в 1980 годах на Западе в области информационных технологий из-за высокой стоимости процесса обработки данных. Далее аутсорсинг стал одним из наиболее востребованных технологий управления бизнесом и вышел за пределы национальных границ.

Рисунок 1. Виды аутсорсинга

Как показал опрос среди руководства отечественных компаний, 58 % опрошенных считают, что аутсорсинг недостаточно развит в России, но используется и в российских, и зарубежных компаниях. Правильное применение аутсорсинга влияет не только на уровень издержек, но и на инвестиционную привлекательность, и, как следствие, капитализацию, что повышает уровень экономической безопасности компаний. По версии Morgan Chambers,

список побудительных причин перехода на аутсорсинг можно представить следующим образом (рисунок 2):

Рисунок 2. Побудительные причины вывести деятельность на аутсорсинг

Рассмотрим преимущества аутсорсинга. Их можно представить как стратегические и тактические, которые показаны в таблице 1.

Таблица 1.

Преимущества аутсосорсинга

Преимущества аутсорсинга	
Стратегические	Тактические
Сосредоточение на ключевых бизнес-процессах	Нет необходимости в расширении персонала
Снижение инвестиций в неосновные фонды	Сокращение накладных расходов
Своевременная реакция на изменения во внешней и внутренней среде	Высвобождение времени топ-менеджмента

Но, передача отдельных функций на аутсорсинг влечет за собой и определенные риски:

• удаленные коммуникации часто приводят к потере контроля;

• присутствует риск утечки конфиденциальной информации и технологий;

• зависимость от поставщика услуг [3].

• невысокое качество предоставляемых услуг.

Поэтому, при передаче непрофильных функций на аутсорсинг, необходимо обратить внимание на то, чтобы подрядчик предоставил:

• соответствие предлагаемого бизнес-процесса с инфраструктурой компании;

• гарантированное снижение трансакционных издержек;

• конфиденциальность.

На непредсказуемом, быстро меняющемся рынке, финансовый успех предприятий в конкурентной борьбе, связан с появлением новых факторов риска, что требует повышенного внимания к разработке системы управления организацией, своевременно и адекватно

реагирующей на эти изменения [2]. Вследствие перечисленных выше рисков целесообразно использование отдельного вида – процессно-контрольного аутсорсинга, который предполагает последующий контроль над переданными на аутсорсинг функциями. Экономико-правовой основой взаимодействия становится договор на оказание процессно-контрольного аутсорсингового обслуживания, а условием реализации является строгое распределение прав и ответственности между сторон с соблюдением действующего законодательства.

Шевелева Е. А. предложила три основных аспекта, которые оказывают прямое влияние на аутсорсинг при выстраивании деловых связей между компанией и аутсорсинговой организацией:

1. Организационно-управленческий аспект, который предполагает выполнение функций по ведению, оценке, анализу, мониторингу и контролю аутсорсером.

2. Организационно-психологический аспект, который показывает экспертный уровень квалификации специалистов аутсорсинговой компании.

3. Методологический аспект, в который входит поддержание в разработке учетной политики и составлении особых приложений с учетом специфики деятельности предприятия [5].

Делая вывод, отметим, что быстрые изменения в современной экономике заставляет предприятия стать гибче, что стимулирует их упрощать свою структуру и освободиться от вспомогательных бизнес-процессов, передав их на аутсорсинг [4]. Переход на процессно-контрольный аутсорсинг может позволить предприятию снизить расходы на аппарат управления, повысить уровень деловой репутации, минимизировать налоговые риски и риски нарушения действующих стандартов составления отчетности. Появление процессно-контрольного аутсорсинга вызвано необходимостью последовательного контроля выполнения аутсорсером делегированных ему функций. Также, передача определенных функций позволяет предприятиям сосредоточиться на решении ключевых производственных задач для дальнейшего повышения эффективности своей деятельности. Таким образом, процессно-контрольный аутсорсинг следует рассматривать как новый бизнес-инструмент стимулирования повышения финансово-экономических результатов деятельности предприятия, повышения инновационной направленности, снижения управленческих расходов и делегирования налоговой ответственности [5].

Литература

1. Валитова А. В. Аутсорсинг в России сегодня: страхи и сомнения // Молодой ученый. — 2012. — №10. — С. 112-114. — [Электронный ресурс]. – Режим доступа: https://moluch.ru/archive/45/5421/ (дата обращения: 17.02.2020);

2. Каранина Е.В. Управление финансовыми рисками: стратегические модели и профессиональные стандарты: учебное пособие / Е.В. Каранина – СПб : ИЦ «Интермедия», 2016. – 152 с.: илл.;

3. Кочетков Д.М. – Аутсорсинг: глобальные тенденции и российские перспективы. [Электронный ресурс]. – Режим доступа: http://elar.urfu.ru/bitstream/10995/34372/1/urrr_2015_19.pdf (дата обращения: 28.02.2020);

4. Тагаров Б.Ж. Факторы развития аутсорсинга в информационной экономике // Российское предпринимательство. – 2019. – Том 20. – № 1. – С. 357-368;

5. Тимофеев М.А. – Развитие инструментария реализации инновационного проекта с использованием процессно-контрольного аутсорсинга. – [Электронный ресурс]. – Режим доступа:
https://ssau.ru/files/resources/dis_protection/Timofeev_M_A_Razvitie_instrumentariya_realizacii.pdf (дата обращения: 29.02.2020);

Xülasə

Yusupova R.A.

Proses-kontrol autsorsinqi və təsərrüfat subyektlərinin fəaliyyətinə onun təsiri

Müasir bazar şəraitində rəhbərliyin diqqəti müəssisənin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yönəldilməlidir. Müəssisənin fəaliyyətini optimallaşdırmağa imkan verən alətlərdən biri autsorsinqdir. Məqalədə autsorsinq və onun müəssisələrin fəaliyyətinə təsiri nəzərdən keçirilir. Autsorsinqin növləri, onun üstünlükləri və riskləri, eyni zamanda şirkətlərin rəhbərliyini özlərinin ayrı-ayrı funksiyalarını kənar təşkilatlara göndərməyə təhrik edən səbəblər göstərilmişdir. Proses-nəzarət autsorsinqi bu fəaliyyət növünə keçidin ən təhlükəsiz variantı kimi təqdim edilmişdir.

Açar sözlər: *autsorsinq, proses-nəzarət autsorsinqi, risklər, xərclərin azaldılması, kapitallaşdırma, müəssisə*

Summary

Yusupova R.A.

Process and Control Outsourcing and its Influence on the Activities of Economic Subjects

The article deals with the management of receivables in enterprises in the field of housing and communal services. The relevance of these issues is due to the fact that there has been a negative trend in the industry associated with the accumulation of large volumes of overdue debt, which leads to a loss of financial security in this area of business.

Key words: *enterprises of the housing and communal sector, receivables, financial losses, debt collection for utilities.*

III BÖLMƏ
İDARƏETMƏ, TƏHSİL VƏ BİZNESDƏ İNFORMASİYA TEXNOLOGIYALARI

III СЕКЦИЯ
ИНФОРМАЦИОННЫЕ ТЕХНОЛОГИИ В УПРАВЛЕНИЕ, ОБРАЗОВАНИИ И БИЗНЕСЕ

III SECTION
INFORMATION TECHNOLOGIES IN MANAGEMENT, EDUCATION AND BUSINESS

AZƏRBAYCANDA ŞƏBƏKƏ HAZIRLIĞI İNDEKSİNİN "BİZNES VƏ İNNOVATİV MÜHİT" SUB-İNDEKSİ

Allahverdiyeva Leyli Əli qızı
AMEA-nın İqtisadiyyat İnstitutu
Leyli116@mail.ru

Xülasə: *Ölkədə İKT sahəsinin inkişaf səviyyəsini və rəqəmsal texnologiyaların əlçatanlığını əks etdirən Şəbəkə hazırlığı indeksinin əsas komponentləri qeyd olunub. Azərbaycan üçün hesablanan Şəbəkə hazırlığı indeksinin subindeksləri digər ölkələrlə müqayisəli şəkildə göstərilib. "Biznes və innovativ mühit" subindeksinin Azərbaycan üzrə göstəriciləri təhlil qrupu ölkələrinin orta göstəriciləri ilə müqayisə edilərək, ölkəmizdə yaxşılaşdırılması potensialı daha yüksək olan göstəricilər müəyyən edilib. Bunlara "Yerli rəqabətin intensivliyi", "Ali təhsilin əhatəliyi əmsalı" və "Menecment (biznes) məktəblərinin keyfiyyəti" aiddir.*

Açar sözlər: *İKT, indeks, subindeks, Şəbəkə hazırlığı indeksi, biznes mühiti*

İnformasiya xidmətləri sahəsinin inkişafı informasiya-kommunikasiya texnologiyalarının inkişafından asılı olduğuna görə, onun inkişaf səviyyəsini də İKT-nin inkişaf səviyyəsi ilə müəyyən etmək lazımdır. İKT-nin inkişaf səviyyəsini əks etdirən müxtəlif beynəlxalq təşkilatlar tərəfindən işlənib hazırlanan beynəlxalq indekslər mövcuddur. Vacib göstəricilərin kifayət qədər geniş spektrini əhatə edən həmin indekslər ölkələrarası müqayisələrin aparılması üçün yararlıdırlar. Həmin indekslər arasında E-hökümət hazırlığı indeksini (E-government readiness index) [5], İKT-nin inkişafı indeksini (The ICT Development Index) [2], Şəbəkə hazırlığı indeksini (ŞHİ) (The Networked Readiness Index) [4] göstərmək olar. Beləliklə də, qeyd olunan İndekslərin hər biri cəmiyyətin digər ölkələrlə müqayisədə informatizasiyalaşdırılması dərəcəsini müəyyən etməyə imkan verir. Lakin bu indekslər arasında informasiya-kommunikasiya texnologiyalarının inkişafını

əks etdirən daha çox və daha vacib olan göstəriciləri əhatə edən İndeks – Şəbəkə hazırlığı indeksidir (Indeks).

Dünya İqtisadi Forumu Şəbəkə hazırlığı indeksini 4 istiqamət üzrə hesablayır: Ətraf mühit (siyasi və tənzimləyici mühit, biznes və innovativ mühit); Hazırlıq (infrastruktur, əlçatarlıq, bacarıqlar); İstifadə (fərdlər tərəfindən, biznes tərəfindən və dövlət tərəfindən istifadə) və Təsiretmə (iqtisadi və sosial təsir).

Siyasi və tənzimləyici mühit sub-indeksi aşağıdakıları əhatə edir: hüquqi orqanların səmərəliliyi; İKT-yə aid olan qanunlar; məhkəmə müstəqilliyi; müəssisə üçün mübahisələrin həllində hüquqi sistemin səmərəliliyi; hökümətin aldığı qərarlara etiraz etməkdə hüquqi sistemin səmərəliliyi; intellektual əmlakın müdafiəsi; quraşdırılmış proqram təminatında piratlığın səviyyəsi; müqavilənin bağlanılması üçün tələb olunan günlərin sayı; müqavilənin bağlanılması üçün tələb olunan prosedurların sayı.

Biznes və innovativ mühit sub-indeksi aşağıdakı göstəricilərdən ibarətdir: son texnologiyaların əlçatarlığı; vençur kapitalın əlçatarlığı; ümumi vergi dərəcələri; biznesə başlamaq üçün tələb olunan günlərin sayı; biznesə başlamaq üçün tələb olunan prosedurların sayı; yerli rəqabətin intensivliyi; ali təhsilin əhatəliyi əmsalı; menecment məktəblərinin keyfiyyəti; dövlət tərəfindən qabaqcıl texnologiyaların alınması.

İnfrastruktur sub-indeksi aşağıdakılardan ibarətdir: elektrik enerjinin istehsalı; mobil şəbəkənin əhatəliyi; beynəlxalq internet şəbəkəsinin buraxılış qabiliyyəti; təhlükəsiz internet serverlərinin sayı.

Əlçatarlıq sub-indeksi aşağıdakılardan ibarətdir: mobil şəbəkənin qabaqcadan ödənilən tarifləri; sabit genişzolağlı internet tarifləri; internet və telefoniyanın rəqabətliliyi.

Bacarıqlar sub-indeksi aşağıdakılardan ibarətdir: təhsil sisteminin keyfiyyəti; riyazi və elmi təhsilin keyfiyyəti; orta təhsil mərhələsində qəbulun səviyyəsi; yetkin insanların savadlılıq dərəcəsi.

Fərdlər tərəfindən istifadə sub-indeksi aşağıdakıları əhatə edir: mobil telefon abunələrinin sayı; Internet istifadəçilərinin sayı; personal kompyuteri olan ev təsərrüfatlarının sayı; Internetə çıxışı olan ev təsərrüfatları; sabit genişzolağlı internet abunələrinin sayı; genişzolağlı mobil abunələrinin sayı; virtual sosial şəbəkələrdən istifadə.

Biznes tərəfindən istifadə sub-indeksi aşağıdakılardan ibarətdir: firmalarda texnologiyaların mənimsənilməsi səviyyəsi; innovasiyalara bacarıq; PCT altında doldurulan patentlərin alınması üçün edilən sifarişlərin sayı; İKT-dən biznesdən biznesə istifadə edilməsi – tranzaksiyaların həyata keçirilməsi üçün müəssisələr tərəfindən İKT-dən istifadə; İnternetdən biznesdən istehlakçıya istifadə edilməsi – müəssisələr tərəfindən öz məhsul və xidmətlərini istehlakçılara internet vasitəsilə satışı; personalın təlim səviyyəsi.

Dövlət tərəfindən istifadə sub-indeksi aşağıdakıları əhatə edir: dövlət üçün İKT-nin əhəmiyyətliliyi; Dövlətin onlayn xidmətləri indeksi; İKT-nin təşviqində dövlətin uğuru.

İqtisadi təsir sub-indeksi aşağıdakılardan ibarətdir: İKT-nin biznes modellərinə təsiri; PCT altında doldurulan və İKT-yə aid olan patentlərin alınması üçün edilən sifarişlərin sayı; İKT-nin təşkilati modellərə təsiri; biliktutumlu işdə məşğulluq (Knowledge-intensive jobs).

Sosial təsir sub-indeksi aşağıdakıları əhatə edir: İKT-nin əsas xidmətlərin əlçatarlığının təmin edilməsinə təsiri; məktəblərdə internetə çıxış; İKT-dən istifadə və dövlətin səmərəliliyi; E-iştirak indeksi.

Beləliklə, Şəbəkə hazırlığı indeksi 2 əsas suala cavab verir:

- *ölkədə İKT-nin inkişaf səviyyəsi və onlardan istifadə nə dərəcədədir?*
- *ölkədə rəqəmsal texnologiyalar əlçatar olduqda, onların sosial-iqtisadi təsirləri nədir?*

Beləliklə, Azərbaycanın göstəricilərini digər ölkələrin göstəriciləri ilə müqayisə edək.



Mənbə: Dünya İqtisadi Forumunun məlumatları əsasında [4]

Diaqram 1. Azərbaycanda və təhlil qrupu ölkələrində (adambaşına ÜDM-i 15 min beynəlxalq dollardan 35 min beynəlxalq dollara kimi olan ölkələrdə) Şəbəkə hazırlığı indeksi və onun komponentləri, 2016

Azərbaycanda Şəbəkə hazırlığı indeksi 4,3-dür. Bu, demək olar ki, orta gəlirli ölkələr üzrə orta göstəriciyə bərabərdir (4,4). ŞHİ-nin ayrı-ayrı komponentlərinə baxaq.

Cədvəl 1.

ŞHİ-nin sub-indeksləri, Azərbaycanın göstəriciləri ilə təhlil qrupu ölkələri üzrə orta göstəricilər, 2016

Sub-indekslər	Təhlil qrupu ölkələri üzrə orta göstərici		Azərbaycanın göstəricisi
Siyasi və tənzimləyici mühit	3,9		3,7
Biznes və innovativ mühit	4,5	⬇	4,2
İnfrastruktur	4,5	⬇	4,1
Əlçatarlıq	5,6	⬇	5,3
Bacarıqlar	5,2		5,1
Fərdlər tərəfindən istifadə	4,8		4,8
Biznes tərəfindən istifadə	3,7		3,7
Dövlət tərəfindən istifadə	4,2	⬆	4,7
İqtisadi təsir	3,6		3,5
Sosial təsir	4,5		4,5

Mənbə: Dünya İqtisadi Forumunun məlumatları əsasında [4]

Cədvəldən görə bilərik ki, ölkəmizdə "Biznes və innovativ mühit", "İnfrastruktur" və "Əlçatarlıq" sub-indekslərinin göstəriciləri təhlil olunan ölkələr üzrə orta göstəricilərindən daha çox geridədir.

"Biznes və innovativ mühit" sub-indeksinin alt-indekslərini araşdıraq.



Mənbə: Dünya İqtisadi Forumunun məlumatları əsasında [4]

Diaqram 2. "Biznes və innovativ mühit" sub-indeksi və onun alt-indeksləri, Azərbaycanın göstəriciləri ilə təhlil qrupu ölkələrinin orta göstəriciləri, 2016

Ölkəmizdə Vençur kapitalın əlçatarlığı göstəricisi araşdırılan ölkələr üzrə orta göstəricidən cuzi aşağıdır. Bir neçə göstərici üzrə isə Azərbaycan daha yaxşı mövqe tutur. Bunlara Ümumi vergi dərəcəsi, Biznesə başlamaq üçün tələb olunan gün və prosedurların sayı və Dövlət tərəfindən qabaqcıl texnologiyaların alınması göstəriciləri aiddir. Ölkəmizdə Son texnologiyaların əlçatarlığı göstəricisi isə araşdırılan ölkələr üzrə orta göstəriciyə bərabərdir. Beləliklə, Azərbaycanda yaxşılaşdırılması potensialı ən yüksək olan alt-indekslər - "Yerli rəqabətin intensivliyi" (139 ölkədən 120-ci pillədə), "Ali təhsilin əhatəliyi əmsalı" (90-cı pillədə) və "Menecment (biznes) məktəblərinin keyfiyyəti" (121-ci pillədə) alt-indekslərdir.

Ali təhsilin əhatəliyi əmsalı

Ali təhsilin əhatəliyi əmsalı aşağıdakı kimi hesablanır: yaşdan asılı olmayaraq ali təhsil məktəblərində oxuyanların ali təhsil məktəblərində oxumaq üçün yaşı uyğun olan əhalinin sayında payı kimi (%). Diaqram 2-dən də göründüyü kimi, bu göstərici Azərbaycanda (23,2%) araşdırılan ölkələr üzrə orta göstəricidən (57,2%) 2 dəfə azdır (2014-cü ilin göstəricisidir). 2018-ci ildə göstərici 28%-ə qədər artıb [3]. Lakin bu yenə də o deməkdir ki, ölkəmizdə ali təhsil məktəblərində oxuyanların ali təhsil məktəblərində oxumaq üçün yaşı uyğun olan əhalimizin sayındakı payı çox azdır. Bunun bir neçə səbəbi ola bilər:

- orta məktəbi bitirənlərin ali təhsili almaq üçün xarici ölkələrə üz tutmaları;
- ali təhsil məktəblərinə qəbul olmaq üçün sənədlərini verən, lakin qəbul olmayanların sayının çox olması;
- orta məktəbi bitirməyənlərin və ali təhsil məktəblərinə qəbul olmaq üçün tələb olunan attestatı olmayanların sayının çox olması.

Göstərilən səbəblərdən 1-ci səbəb ölkəmiz üçün nisbətən daha aktualdır. Bir çox tələbələr ali təhsili almaq üçün xarici ölkələrə üz tuturlar. Onların arasında həm öz vəsaitləri hesabına, həm də dövlət xətti ilə gedən tələbələr var. Azərbaycandan xarici ölkələrə dövlət xətti ilə gedib, orada ali təhsil mətkəblərində oxuyan tələbələrin maksimal sayı 2013/2014-cü tədris ilinə təsadüf edir – 3035 nəfər. 2015-ci ildən etibarən onların sayında azalma müşahidə olunub. 2018/2019-cu tədris ili üçün xarici ölkələrə dövlət xətti ilə ali təhsil məktəblərinə göndərilən tələbələrin sayı 751-dir. [1]

Biznes məktəblərinin keyfiyyəti göstəricisi

Biznes məktəblərinin keyfiyyəti göstəricisi "ölkənizdə biznes məktəblərinin keyfiyyətini necə qiymətləndirirsiniz?" sualına cavabın verilməsi yolu ilə hesablanır. Biznes məktəbi – biznesin idarə edilməsi istiqamətində bilik verən məktəbdir. Bu cür məktəblər, əsas etibarilə, iri institutlar nəzdində fəaliyyət göstərir. Azərbaycanda Xəzər Universiteti nəzdində "School of Economics and Management", UNEC, Azərbaycan Universiteti və Bakı Biznes Universiteti nəzdində "School of Business and Management" fəaliyyət göstərir. Beləliklə, demək olar ki, biznes məktəblərinin keyfiyyəti ali məktəblərin reytinqi ilə, oradakı təhsilin keyfiyyəti ilə müəyyən edilir. Odur ki, biznes məktəblərinin keyfiyyətini artırmaq üçün ali məktəblərin reytinqinin, orada verilən təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb ola biləcək tədbirlər həyata keçirilməlidir. Məsələn, gələcəkdə ali məktəblərdə çalışanların peşəkarlıq səviyyəsinin yüksək olmasını təmin etmək məqsədilə ibtidai və orta təhsil müəssisələrinə ayırılan dövlət xərcləri yüksək olmalı (inkişaf etməkdə olan ölkələrdə), həmin maliyyənin səmərəli istifadəsinə xüsusi diqqət yetirilməlidir ki, bu da Biznes məktəblərinin keyfiyyəti göstəricisini də yüksəltməyə imkan versin.

Yerli rəqabətin intensivliyi göstəricisi

Yerli rəqabətin intensivliyi göstəricisi sorğu əsasında hesablanır. Verilən sual ondan ibarətdir ki, yerli bazarlarda rəqabət nə qədər intensivdir, güclüdür? Bazarda rəqabətin intensivliyi isə müəssisələrin bazara daxilolmalarının asanlığı ilə, bazarda sərbəst şəkildə rəqabət aparmaq imkanının olması ilə müəyyən edilir. Beləliklə, bazara daxil olmaq üçün dövlət tərəfindən qoyulan məhdudiyyətlər yerli rəqabətin intensivliyini müəyyən edən vacib amildir. Dövlət nə qədər çox məhdudiyyət, nə qədər çox tələb qoyursa, sahənin cəlbediciliyini bir o qədər aşağı salır, bazara daxiolma prosesi çətinləşir. Bu da yerli rəqabətin intensivliyinə mənfi təsir edir. Beləliklə, bazara daxiolma lisenziyalaşdırma prosesinin mürəkkəbliyindən, idxal rüsumlarının səviyyəsindən, xarici investisiyalara və mülkiyyətə qoyulan məhdudiyyətlərdən asılıdır. Sahibkarların qiymətləri sərbəst müəyyən etmək imkanları da bazarda rəqabətin intensivliyinə təsir edən vacib amillərdəndir.

Ədəbiyyat

1. AR Dövlət Statistika Komitəsinin Rəsmi İnternet Saytı (https://www.stat.gov.az/; son baxılma – Mart 2020).

2. International Telecommunication Union. The ICT Development Index (IDI): conceptual framework and methodology, 2017. (https://www.itu.int/en/ITU-D/Statistics/Pages/publications/mis2017/methodology.aspx; accessed March 2020).

3. The World Bank. School enrollment, tertiary (% gross).
https://data.worldbank.org/indicator/SE.TER.ENRR?locations=AZ; accessed March 2020).

4. The World Economic Forum. The Global Information Technology Report, 2016. (http://www3.weforum.org/docs/GITR2016/WEF_GITR_Full_Report.pdf; accessed November 2018).

5. United Nations. United Nations E-government Survey, 2018. (https://publicadministration.un.org/egovkb/portals/egovkb/documents/un/2018-survey/e-government%20survey%202018_final%20for%20web.pdf; accessed March 2020).

Резюме

Аллахвердиева Л.А.

Субиндекс «бизнес и инновационная среда» индекса сетевой готовности в Азербайджане

Отмечены основные компоненты Индекса сетевой готовности, отражающего уровень развития сферы ИКТ и доступность цифровых технологий в стране. Рассчитанные для Азербайджана субиндексы Индекса сетевой готовности даны в сравнении с другими странами. Сравнив показатели Субиндекса «Бизнес и инновационная среда» по

Азербайджану со средними показателями исследуемой группы стран, определены показатели нашей страны, имеющие больший потенциал для улучшения. К ним относятся «Интенсивность местной конкуренции», «Коэффициент охвата высшим образованием» и «Качество бизнес-школ».

Ключевые слова: *ИКТ, индекс, субиндекс, Индекс сетевой готовности, бизнес-среда*

Summary

Allahverdiyeva L.A.

Subindex of "Business and Innovation Environment" of the Networked Readiness Index in Azerbaijan

Main components of the Networked readiness index representing the level of the development of ICT sector and availability of digital technologies in the country are shown. Sub-indices of the Networked readiness index calculated for Azerbaijan are given in comparison with other countries. Comparing the indicators of Business and innovation environment subindex of Azerbaijan with the average indicators of analyzed group of countries, the indicators of country that have more potential for the improvement are defined. These are "İntensity of local competition", "Tertiary education gross enrollment rate" and "Quality of management schools".

Key words: *ICT, index, sub-index, the Networked readiness index, business environment*

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA İKT-NİN ROLU

Babanlı Cəvahir Telman
Azərbaycan Texniki Universiteti
babanlicevahir97@gmail.com

Xülasə: *Məqalədə Azərbaycanın iqtisadi inkişafında informasiya-kommunikasiya texnoloalarının rolu araşdırılır. Təhlillər göstərir ki, son illərdə ölkəmizdə bu sahədə ciddi islahatlar aparılmışdır. Məqalədə ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı üçün təkliflər də verilir.*

Açar sözlər: *ümumi daxili məhsul, iqtisadi artım, ixrac imkanı, inteqrasiya, qloballaşma, iqtisadiyyat.*

İqtisadiyyatın digər sahələri ilə müqayisə etdikdə respublikanın sosial-iqtisadi həyatında önəmli yer tutan rabitə və informasiya sektorundakı inkişaf səviyyəsi daha qabarıq formada diqqət çəkir.İnformasiya kommunikasiya texnologiyaları sektoru ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında da kifayət qədər mühüm mövqeyə malikdir. Hal-hazırda bu sektorun intensiv formada inkişaf səviyyəsini, müxtəlif bir çox xidmət növlərininin, eyni zamanda internet, telefon, mobil rabitənin ölkə iqtisadiyyatında mövcudluğu və inkişaf etməsi ilə səciyyələndirmək mümkündür.

2014-cü il aprel ayında dövlət başçımızın "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nı təsdiqləməsi sahədə inkişaf səviyyəsinin növbəti mərhələsinin əsasını təşkil etmişdir. Mövcud strategiyada informasiya kommunikasiya texnologiyaları xidmətlər və infrastruktur, yüksək texnika və texnologiyaların qabaqcıl inkişafı, informasiya təhlükəsizliyinin təminatı və digər məsələlər nəzərdə tutulmuşdur.Ölkənin İKT sahəsi 2014-2018-ci illərdə 2 dəfə genişləndirilmiş, orta illik artım göstəricisi isə 17 faizə çatdırılmışdır.

İKT sahəsi üzrə dövlətin inkişafının ən mühüm səbəbi son illər ərzində bu sektor üzrə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Mili Strategiya (2003-2012-ci illər)" "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üzrə Dövlət Proqramı (Elektron Azərbaycan)", Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişaf üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)", o cümlədən bir sıra normativ-hüquqi aktların önəmli rolu olmuşdur. "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunduqdan və 8 fevral 2013-cü ildə bizim ilk milli süni peykimiz orbitə çıxdıqdan sonra, ölkəmiz telekommunikasiya peyklərinin yaradılması və orbitə çıxarılması, regionda informasiyaların ötürülməsində qabaqcıl dövlətlərin tərkibinə daxil olmuşdur. Ümumiyyətlə, İKT sahəsinin inkişafında respublikamızda fəaliyyətdə olan "Azercell" MMC, "Bakcell", "Azerfon" kimi mobil rabitənin də əhəmiyyəti yüksəkdir. Bu tip şirkətlərin fəaliyyət göstərməsi nəticəsində artıq mobil rabitə bazarı yüksək templə genişlənmiş və mobil telefon abunəçilərinin sayı günü-gündən artaraq müasir dövrdə elə bir yüksəlişə çatmışdır ki, artıq hər 100 nəfərin hər birinin mobil abunəçi olduğu deyə bilərik. Həmin İKT təşkilatlarınn fəaliyyət göstərməsi nəticəsində mobil bazar sürətlənmiş, əlavə olaraq müasir 4G texnologiyası istifadəyə verilmiş və yaxın zamanlarda 7-8baza stansiyası üzərindən artıq 5G texnologiyasının tətbiqinə başlanılmışdır.



Şəkil 1. Azərbaycanda son illər İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, mln. manat

Aparılan təhlillərdən qeyd etmək olar ki, son dövrlərdə İKT sahəsi üzrə yaradılmış əlavə dəyərin həcmində də artım müşahidə olunmuşdur. Məsələn, 2013-cü ildə əlavə dəyərin həcmi 949 mln. manat təşkil etmişdirsə bu göstərici artıq 2018-ci ildə 1112 mln. manata çatmışdır. Şəkildə görüldüyü üzrə hər il əlavə dəyərdə bir sıra artımlar qeydə alınıb. Tədqiqatlar sübut edir ki, əslində müvafiq inkişaf səviyyəsinə görə milli iqtisadiyyatımız, xüsusilə İKT sahəsi qeyri-neft sektorunda mövcud olan əksər bölmələri qabaqlayır.

Son olaraq, respublikada iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədilə İKT-nin rolunun

artırılması yönündə aşağıda verilən bir sıra tədbirlərin reallaşdırılması zəruri hesab olunur:

- İKT sahəsində ixrac qabiliyyəti və rəqabətlilik potensialının artırılması ;
- Ölkədə İKT məhsul və xidmətlərin ixrac potensialının yüksəldilməsi baxımından səmərəli vergi güzəştlərinin tətbiq olunması;
- Regionlarda İKT resurslarının, yüksək texniki-texnoloji yeni xidmət və məhsul buraxılışı;
- Hər bir regionda informasiya texnologiyası, telekommunikasiya, həmçinin poçt xidmətlərini əhatələyən əlverişli İKT xidmətlərinin tətbiq edilməsi və s.

Ədəbiyyat

1. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: Elm, 2013, 385 s.
2. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие. М.: Наука, 2015, 222 с.
3. www.stat.gov.az/statistika/2019_İKT statistikası
4. www.ikt.az/ IKT_Azərbaycanda

Резюме

Бабанлы Дж.Т.

Роль ИКТ в обеспечении экономической безопасности

В статье рассматривается роль информационных коммуникаций в экономическом развитии Азербайджана. Анализ показывает, что в нашей стране в последние годы были проведены очень серьезные реформы в этой области. Также приводятся рекомендации по развитию информационно-коммуникационных технологий в нашей стране.

Ключевые слова: *валовый внутренний продукт, экономический рост, экспорт, интеграция, глобализация, экономика*

Summary

Babanli Javahir Telman

The Role of ICT In Ensuring Economic Security

The article examines the role of information communications in economic development of Azerbaijan. The analysis shows that in our country in recent years there have been very serious reforms in this area. The article also provides recommendations for the development of information and communication technologies in our country.

Key words: *gross domestic product, economic growth, export opportunity, integration, globalisation, economy*

İSLAHATLAR ŞƏRAİTİNDƏ KİMYA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

Bayramov Rövşən Dadaş oğlu

Sumqayıt Dövlət Universiteti

mr.bayramov1972@mail.ru

Xülasə: *Məqalədə islahatlar şəraitində kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizlik problemləri tədqiq olunmuşdur. Bu məqsədlə, kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinin nəzəri-metodoloji problemləri təhlil olunmuşdur. İslahatların səmərəli təşkilində iqtisadi təhlükəsizlik indikatorlarına kompleks və sistemli yanaşmanın təmin edilməsinin vacibliyi əsaslandırılmışdır. Ölkənin iqtisadi təhlükəsizliyi kontekstindən yanaşmaqla iqtisadiyyatın şaxələndirilməsində kimya sənayesinin və onun müəssisələrinin roluna baxılmışdır. Kimya sənayesi müəssisələrinin iqtisadi təhülkəsizliyinin gücləndirilməsi meyarları və prinsipləri araşdırılmışdır. Kimya müəssisələrinin iqtisadi təhlükəsizlik səviyyəsinin obyektiv qiymətləndirilməsi və buna uyğun*

mexanizmlərin hazırlanmasının metodoloji xüsusiyyətləri təhlil olunmuşdur. Müasir tendensiyalar nəzərə alınmaqla, islahatlar şəraitində kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizlik problemləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: *iqtisadi təhlükəsizlik problemləri, iqtisadi təhlükəsizliyin təminatının metodoloji xüsusiyyətləri, kimya sənayesi müəssisələri, kimya müəssisələrinin iqtisadi təhlükəsizliyi, iqtisadi təhlükəsizlik prinsipləri, kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi perspektivləri.*

Müasir dövrdə iqtisadi təhülkəsizliyin təmin edilməsi, bununla bağlı yanaşmaların yenilənməsi, mövcud mexanizmlərin təkmilləşdirilməsi və problemlərə dair daha optimal həlli yollarının müəyyənləşdirlməsi vacib məsələlər kimi xarakterizə olunurlar. Belə ki, iqtisadi proseslərin və aparılan iqtisadi islahatların əsasında yenilənmiş mexanizmlər və yanaşmalar yer alır, bunlar isə öz növbəsində əvvəlcədən formalaşdırılmış iqtisadi yanaşmaların və onun praktiki alətlərinin tətbiqini şərtləndirir. Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi problemlərinin həlli yollarının araşdırılması bu proseslərdə ciddi önəm kəsb edir. Ölkə iqtisadiyyatının təhlükəsizliyinin gücləndirilməsində iqtisadi sistemin hər bir elementinin dayanıqlı olması və rəqiblərə qarşı lazimi taktikasının, fəaliyyət proqramının mövcudluğu, üstün cəhətlərə malik müqavimət qabiliyyətinin formalaşdırılması vacib hesab olunur. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi islahatların səmərəli təşkili və optimal nəzarət mexanizminin yaradılması, iqtisadiyyatın dövlət tənzimlənməsinin gücləndirilməsi, onun strukturunun təkmilləşdirilməsi, emal məhsulları istehsalının çeşidinin və həcminin artırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması və sabit iqtisadi artım dinamikasına nail olunması ilə bilavasitə bağlıdır. "Yeni iqtisadiyyat şəraitində bazar mexanizmləri elə düzəlməlidir ki, iqtisadi təhlükəsizliyin möhkəmlənməsinə kömək etmiş olsunlar. İqtisadi təhlükəsizlik problemlərinə olan baxışları və qərarları qabaqcadan müəyyən edən çoxlu sayda amillər arasında ikisini fərqləndirirlər. Birincisi, milli iqtisadiyyatın vəziyyəti, onun rəqabət qabiliyyətliliyinin səviyyəsidir. İkincisi, dünya təsərrüfatında rəqabətin qızışması, ranqlar üzrə dünya iqtisadi tabelində mövcud yer uğrunda mübarizədir" [1, s. 123]. Bu amillər baxımından iqtisadi təhülkəsizliyin gücləndirilməsi və iqitisadi islahatlar şəraitində təhlükəsizlik elementlərinin və mexanizmlərinin maksimum yenilənməsi tələb olunur. İqtisadi təhlükəsizlik baxımından strateji məsələlərdən biri kimi müəssisələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, texnoloji inkişafın təmin olunması, müəssisənin maliyyə intizamının gücləndirilməsi və onun sabit fəaliyyət göstərilməsi üçün zəruri addımların vaxtında və planlı şəkildə atılmasıdır. İqtisadi təhlükəsizliyinin əsas mexanizmlərinin gücləndirilməsi məqsədilə mövcud problemlərin elmi-nəzəri əsasları dərindən öyrənilməli, onların optimal həlli yollarını müəyyənləşdirən prinsiplər formalaşdırılmalı, göstəricilər sistemi yaradılmalı, problemin aradan qaldırılması üçün strateji vəzifələr, o cümlədən müəssisənin daxili və xarici bazarda dayanıqlı şəkildə fəaliyyət göstərməsi mexanizmləri hazırlanaraq tətbiq olunmalıdır. Müəssisənin istehsal və kommersiya potensialı obyektiv olaraq qiymətləndirilməli, idarəçilik metodlarının adekvatlığı təmin edilməli, personalın, xüsusilə idarəetmə heyətinin peşəkarlıq səviyyəsi yüksəldilməli, daxili və xarici amillərdən asılı olaraq iqtisadi təhlükəsizlik strategiyası hazırlanmalı, xüsusilə iqtisadi islahatlar şəraitində müəssisənin təhlükəsizlik immunitetinin gücləndirilməsinə xüsusi önəm verilməlidir.

Dünya iqtisadi proseslərində artım tempi ilə müşayiət olunan bazarlardan biri də kimya və neftkimya bazarıdır və bu bazarın həcmi dünyanın neft bazarı ilə bərabər həcmdə qiymətləndirilir. Bunun əsas səbəbi neft və qaz xammalının daha dərin olaraq emal edilməsi, əlavə dəyərin yaradılması və gəlirlərin götürülməsi ilə birbaşa bağlıdır. 2020-ci ildə kimya və neftkimya sektorunda emal məshullarının həcmi dünya üzrə ÜDM-də 5,3 %, 2030-cu ildə 7,4 % səviyyəsində

olacaqdır. Dünya üzrə təbii qazın üzə çıxarılan ehtiyatları hazırda 187 trln. kub metrdir və 2035-ci ildə dünyada təbii qazın illik istehlakı 5 trln. kub metr həcmində olacağı gözlənilir. Buna görə də dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində kimya sənayesinin və onun müəssisələrinin inkişafına davamlı şəkildə investisiyalar yatırırlar, rəqabətqabiliyyətli kimya emal müəssisələri yaradırlar və dövlət tərəfindən bu qəbildən olan müəssisələrin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi birmənalı şəkildə stimullaşdırılır, güzəştlər verilir, yeni iqtisadi mexanizmlərin yaradılması motivasiyalaşdırılır və infrastrukturun təşkilində dövlət maraqlı tərəf kimi çıxış edir. Kimya müəssisəsinin iqtisadi təhülksəziliyinin gücləndirilməsi üçün bir qrup məsələlərə daha çox önəm verilməli və iqtisadi göstəricilər sistemi formalaşdırılaraq onların gedişi üzrə zəruri tədbirlərin görülməsi, nəzarət mexanizmlərinin tətbiq edilməsi, təkmilləşdirilmə proseslərinin və tədbirlərinin aparılması təmin olunmalıdır: 1) müəssisənin fəaliyyət strategiyasının formalaşdırılması; 2) hər hansı bir böhran və ya iqtisadi islahatlar şəraitində müəssisənin baş verən proseslərə və təzyiqlərə immunitetinin artırılması; 3) daxili və xarici bazarlarda möhkəmlənmə, yeni bazarların qazanılması strategiyasının təmin edilməsi; 4) rəqiblərin gözlənilməz taktikalarına və davranışlarına qarşı fəaliyyətin əvvəlcədən modelləşdirilməsi; 5) istehsal qurğularının texniki təminatının və xammal ilə fasiləsiz təminatı problemlərinin uzunmüddətli dövr üçün təmin edilməsi; 6) istehsal və kommersiya fəaliyyəti baxımından peşəkar mühəndis və menecment komandasının formalaşdırılması, hər cür yüksək bacarığa malik heyətin yaradılması və s. Bunlarla yanaşı, kimya müəssisəsinin iqtisadi təhülkəsizlik problemlərinin həlli kompleks göstəricilər sisteminin işlənib hazırlanmasını və bu göstəricilər əsasında müəssisənin fəaliyyətinin qiymətləndirilməsi təmin olunur. Bu sırada 3 əsas göstəricilər qrupu daha çox fərqləndirilir: 1) istehsal göstəriciləri – burada istehsalın artımı, düşməsi, dəyişmə tempi, istehsal qurğularının yüklənmə dərəcəsi, elmi-texniki yeniliklərin istehsalata tətbiqi səviyyəsi, rəqabətqabiliyyətli məhsulların həcmi, müəssisənin texniki imkanları və s.; 2) maliyyə göstəriciləri – yəni müəssisənin sifariş portfeli, yatırılan investisiyaların həcmi, investisiya siyasəti, innovasiyalar, istehsalın rentabellik dərəcəsi, vaxtı keçmiş debitorlar və kreditorlar, dövriyyə vəsaitlərinin həcmi və maliyyə sabitliyi səviyyəsi və 3) sosial göstəricilər, əmək haqqı göstəriciləri, əmək haqqı üzrə borclar, iş vaxtı itkiləri, müəssisənin kadr potensialı, kadr axıcılığı səviyyəsi və s. [2, s. 165]. Həmin göstəricilərin kompleks və sistemli şəkildə nəzərə alınması və bunlarla bağlı iqtisadi təhlükəsizlik problemlərinə nisbətən adekvat metodoloji yanaşmaların olması, son nəticədə müəssisənin iqtisadi təhülkəsizliyinin gücləndirilməsinə, onun rəqibləri ilə müqayisədə daha üstün elementlərə malik olmasına, uğurlu fəaliyyət göstərməsinə, məhsuldar nəticələrin əldə olunmasına imkan verər. Bu qeyd olunanlarla bərabər, müasir dövrdə - iqtisadi islahatların intensivləşdiyi şəraitdə kimya müəssisəsinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üçün müəssisənin səmərəli marketinq siyasətinin və strategiyasının hazırlanması, istehsal resurslarından və enerji daşıyıcılardan maksimum qənaətlə istifadə olunması, məhsul istehsalına çəkilən xərclərin optimallaşdırılması vacib xərclərdəndir. Müasir qlobal çağırışlar və iqtisadi inkişaf səmtləri nöqteyi-nəzərindən kimya müəssisələrinin innovasiyalara söykənən və uzunmüddətli dövrü əhatə edən fəaliyyət strategiyası olmalı və müəssisənin istehsal texnologiyalarının yenilənməsi, yeni innovasiyaların fəal şəkildə tətbiq edilməsi, əsas fondların planlı şəkildə yenilənməsi təmin olunmalıdır. "Müəssisə iqtisadi islahatlar şəraitində ortaya çıxa biləcək hər hansı bir iqtisadi təhülkə komponentinə müqavimət göstərmək iqtidarında olmalı və bunun üçün resurs potensialı yaratmalıdır" [3, s. 67]. Digər tərəfdən, kimya müəssisələrinin fəaliyyəti təkcə istehsalla bağlı deyildir, həm də əvvəldə qeyd edildiyi kimi kimya bazarı dünyada maksimum intensiv inkişaf edən əmtəə bazarlarından hesab olunur. yəni dinamik inkişaf tempinə malik olan biznes sahələrindən sayılır. Bu baxımdan, kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində onların biznes maraqlarının qorunması və müdafiə edilməsi məsələləri ciddi önəm kəsb edir. Xüsusilə, müəssisənin iqtisadi təhülkəsizliyinin təmin edilməsinə imkan verən fəaliyyət mexanizmlərinin yaradılması, yarana biləcək risklrəin dərindən öyrənilməsi

və onların qiymətləndirilməsi vacibdir. Kimya müəssisələrində bu kimi risklər sırasında müəssisənin özünün fəaliyyətindən asılı olmayan risklər də mövcuddur və bunlara ölkədə baş verən sosial-siyasi dəyişikliklər, makroiqtisadi və makromaliyyə qeyri-sabitliyi, inflyasiya, devalvasiya, vergi dərəcəsindəki dəyişikliklər, inhisarçılıq halları və s. daha çox fərqlənirlər. Bundan əlavə, baş verən texnogen qəzalar və istehsal qurğularının dayanması müəssisənin fəaliyyətinə, maliyyə-təsərrüfat göstəricilərinə kifayət qədər təsir etmək gücünə malikdir. "Buna görə də müəssisənin iqtisadi təhlükəsizlik problemlərinin daha səmərəli həlli yollarının müəyyənləşdirilməsi metodologiyasının işlənib hazırlanması proseslərində baş verə biləcək mümkün risklərin dərindən təhlil olunması, onların təsirini mimuma endirilməsi mexanizmləri işlənib hazırlanmalıdır" [4, s. 43].

Qeyd edək ki, ölkəmizdə hazırda iqtisadi islahatların yeni mərhələsi başlamışdır və əsas məqsəd iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, onun neft amilindən asılılığının aşağı salınmasından ibarətdir. Bu proseslərdə qeyri-neft sektorunun inkişafının modelləşdirilməsi önəmli yer tutur və Azərbaycanda qeyri-neft sektrorunun yüksək potensiala malik olan, o cümlədən kifayət qədər ixrac potensialı ilə fərqlənən kimya sənayesi və onun müəssisələri xeyli diqqət çəkirlər. Təsadüfi deyildir ki, son illərdə məqsədli dövlət investisiyaları çərçivəsində, həmçinin özəl sektorların cəlb edilməsi sahəsində yüksək texnologiyalar əsaslı yeni kimya və neftkimya müəssisələri yaradılmaqdadır. Belə ki, Sumqayıtda SOCAR - Karbamid, SOCAR - Polimer və bir sıra özəl kimya müəssisələri fəaliyyətə başlamışdır. Sumqayıt Kimya Sənaye Parkında müasir kimya müəssisələrinin yaradılması prosesləri intensivləşməkdədir və bütün bunlar mühüm kimya xammalı məhsullarının tədarük edilməsi, saxlanılması, onların faziləsiz şəkildə emal qurğularına çatdırılması proseslərini özündə birləşdirən mexanizmlərin təşkilini şərtləndirir. Bütün bu məsələlər üzrə strateji hədəflər ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir [5]. Bundan əlavə, Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında sənaye müəssislərinin modernləşdirilməsi və yüksək texnologiyalar əsasında onların inkişafının təmin olunması strateji vəzifələr kimi qarşıya qoyulmuşdur [6]. Həmin Konsepsiyada qeyri-neft sektoru sahələrinin innovatik inkişafının təmin edilməsi və iqtisadi islahatların gücləndirilməsi məqsədilə bu sahələrin inkişafının sürətləndirilməsi, o cümlədən mühüm emal sənayesi olan kimya sənayesi və onun müəssisələrinin potensialından səmərəli istifadə edilməsi nəzərdə tutulmuşdur və bütün bunlar kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üçün önəmli məsələlər kimi qiymətləndirilə bilər. Artıq Azərbaycanda kimya sənayesi əsas emal kompleksi kimi öz potensialını sürətlə artırmaqdadır. Ölkə Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" müasir yüksək texnologiyalar əsaslı müəssisələr şəbəkəsinin yaradılması ilə kimya müəssisələrinin iqtisadi təhlükəsizlik problemlərinin həllində yeni infrastruktur və istehsal imkanları formalaşdırılmışdır [7].

Kimya müəssisələrinin iqtisadi təhülkəsizliyinin gücləndirlməsi problemləri iqtisadi islahatlar dərinləşdikcə daha aktual xarakter alacaqdır və bunlarla bağlı bir sıra məsələlərə önəmin verilməsi tələb olunur:

– ölkədə aparılan iqtisadi islahatlar şəraitində kimya sənayesi müəssisələrinin iqtisadi təhülkəsizlik problemlərinin həllinə ənənəvi yanaşmaların təkmilləşdirilməsi və yenilənməsi vacibdir;

– kimya müəssisələrinin iqtisadi təhülkəsizlik komponentləri və mexanizmləri özündə texnogen qəzalar, təbii fəlakətlər, yanğınlar, diversiya və s. bu kimi təhlükələrlə yanaşı, çoxlu sayda daxili və xarici amilləri nəzərə almalı, xüsusilə makroiqtisadi və makromaliyyə aspektlərini, daxili və xarici bazarlarda möhkəmlənmək məsələlərini, rəqabət mühitinə uyğun olaraq tələb olunan mexanizmlərin hazırlanmasını, müəssisənin marketinq, maliyyə və investisiya strategiyasının

olmasını, kadr potensialının peşəkarlıq səviyyəsinin yüksəldilməsi tədbirlərinin görülməsi kompleks və sistemli şəkildə təmin olunmalıdır və s.

Ədəbiyyat

1. Yusifov C.R. İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi Azərbaycan Respublikası iqtisadi təhlükəsizliyinin təmin edilməsi amili kimi // Azərbaycanın vergi xəbərləri jurnalı, 12-2011, s.121-130.

2. Экономическая безопасность: проблемы, перспективы, тенденции развития: материалы Междунар. науч.-практ. конф. (15 декабря 2014 г.): в 2 ч. / Перм. гос. нац. исслед. унт. Пермь, 2014, ч. 1, 454 с.

3. Стратегии противодействия угрозам экономической безопасности России [Электронный ресурс] : материалы Всероссийской научно-практической конференции : в 3 т. / отв. ред. Е. Ю. Меркулова// Тамбов: Изд-во ФГБОУ ВО ТГТУ, 2018, вып. 1.

4. Цыбулин А. М., Запрягайло В. М., Кулагина И. И. Обеспечение комплексной проверки безопасности бизнеса: учебно-методическое пособие / А. М. Цыбулин, В. М. Запрягайло, И. И. Кулагина// Волгоград: издательство Волгоградского института управления – филиала РАНХиГС, 2017, 124 с.

5. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

6. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, 26 dekabr 2014-cü il. http://www.president.az.

7. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib. Bakı.

Резюме

Байрамов Р.Д.

Проблемы экономической безопасности предприятий химической промышленности в условиях реформ.

В статье исследованы проблемы экономической безопасности предприятий химической промышленности в условиях реформ. С этой целью анализрованы теоретико-методологические проблемы экономической безопасности предприятий химической промышленности. Обоснована важность комплексного и системного подхода, исследования индикаторов экономической безопасности в процессах эффективной организации реформ. Рассмотренна роль химической промышленности и ее предприятий в расширении экономики в контексте экономической безопасности страны. Исследованы принципы и критерии усиления экономической безопасности предприятий химической промышленности. Анализированы методологические особенности и объективно оценены существующие механизмы деятельности, обеспечивающие экономическую безопасность химических предприятий. Подготовлены рекомендации и даны предложения по решению проблем экономической безопасности предприятий химической промышленности в условиях реформ.

Ключевые слова: *проблемы экономической безопасности, методологические особенности экономической безопасности, предприятия химической промышленности, экономическая безопасность химических предприятий, принципы экономической безопасности, перспективы усиления экономической безопасности химических предприятий.*

Summary
Bayramov R.D.
Problems of Economic Safety of Chemical Industry Enterprises in the Context of Reforms

The problems of economic safety of chemical industry enterprises in the context of reforms are explored in the article. Theoretical and methodological problems of economic safety of chemical industry enterprises are analyzed for this purpose. The importance of an integrated and systematic approach, research of indicators of economic security in the processes of effective organization of reforms is investigated too. The role of the chemical industry and its enterprises in the expansion of the economy in the context of the economic security of the country is analyzed. Principles and criteria for enhancing the economic safety of the chemical industry are studied. Methodological features and existing mechanisms of activity ensuring economic safety of chemical enterprises are objectively evaluated. Recommendations and proposals to solve problems of economic safety of chemical industry enterprises in the context of reforms are given in the end of the article.

Key words: *problems of economic safety, methodological peculiarities of economic safety, enterprises of chemical industry, economic safety of chemical enterprises, principles of economic safety, prospects of strengthening of economic safety of chemical enterprises.*

AQRAR FƏALİYYƏT SAHƏLƏRİNİN ELEKTRONLAŞDIRILMASININ AKTUAL PROBLEMLƏRİ

Bədirzadə Gülsüm Şamil qızı
Azərbaycan Kooperasiya Universiteti
gulya_xaliqova@mail.ru

Xülasə: *Məqalədə aqrar fəaliyyət sahələrinin elektronlaşdırılmasının aktual problemləri tədqiq olunmuşdur. Bu məqsədlə aqrar sektorun yüksək texnologiyalar əsasında inkişaf etdirilməsinin və elektronlaşdırılmasının aktual problemləri təhlil olunmuşdur. Aqrar sektorun müxtəlif sahələrinin inkişafının sürətləndirilməsi üçün elektronlaşdırılma proseslərinin sürətləndirilməsinin vacibliyi bildirilmişdir. Aqrar fəaliyyət sahələrinin səmərəliliyinin yüksəldilməsində elektronlaşdırılmanın və rəqəmsal mexanizmlərin tətbiqinin əhəmiyyəti açıqlanmışdır. Azərbaycanda aqrar fəaliyyət sahələrinin elektronlaşdırılması istiqamətində mövcud problemlərin həllinin intensivləşdirilməsinin vacibliyi əsaslandırılmışdır. Bu istiqamətdə aparılan tədbirlərin dünya təcrübəsinə uyğun şəkildə təşkil olunması zərurəti bildirilmişdir. Müasir dövrdə və perspektiv inkişaf istiqamətləri nəzərə alınmaqla, aqrar fəaliyyət sahələrinin elektronlaşdırılması üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

Açar sözlər: *aqrar sektor, aqrar fəaliyyət sahələri, elektronlaşdırma, informasiya-kommunikasiya texnologiyaları, aqrar fəaliyyət sahələrinin elektronlaşdırılması problemləri, aqrar fəaliyyət sahələrinin inkişaf perspektivləri.*

Dünya iqtisadiyyatının müasir trendləri baxımından, iqtisadiyyatın rəqəmsallaşması mühüm əhəmiyyət kəsb edir, belə ki, iqtisadi proseslərin intensivliyinin artırılması və səmərəliliyinin yüksəldilməsində informasiya-kommunikasiya texnologiyalarından (İKT) fəal şəkildə istifadə olunması yüksək nəticələr əldə edilməsinə imkan verir. Başqa sözlə, dünya iqtisadiyyatında İKT-nin rolu ildən-ilə artmaqdadır. Bunun əsas səbəbi iqtisadi fəaliyyət sahələrində korporativ informasiya sistemlərinin yaradılması və onlardan istifadənin genişləndirilməsidir. Bu istiqamətdə daha yüksək nəticələrin əldə edilməsi ölkədə informasiya sistemlərinin tətbiqinin

genişləndirilməsini şərtləndirir. Hazırda demək olar ki, dünyanın əksər ölkələrində İKT-dən istifadənin maksimum modelləşdirilməsi prosesləri gedir. Amma, aqrar sahədə İKT-nin tətbiqi elə də yüksək səviyyədə deyildir [1]. Bu amillər nöqteyi-nəzərindən aqrar fəaliyyət sahələrinin elektronlaşdırılması və İKT xidmətlərindən geniş istifadənin təmin olunması mühüm məsələlər kimi qiymətləndirilir. Düzdür, dünyanın bir çox ölkələrində kənd təsərrüfatı məhsullarının istehsalında, tədarükündə, saxlanılmasında, nəqlində və ehtiyatlarının yaradılmasında, son istehlakçılara çatdırılmasında İKT-dən istifadə mexanizmləri genişlənməkdədir və bununla bağlı səmərəli fəaliyyət təcrübəsi toplanmaqdadır. ABŞ, Yaponiya, Cənubi Koreya, Sinqapur, Çin, İsrail və s. bu kimi ölkələrdə İKT-dən səmərəli istifadə hesabına aqrar sektorda yüksək nəticələrin əldə edilməsi, məhsuldarlığın yüksəldilməsi, aqrar məhsulların tədarükünün və ixracının həcminin artırılması təmin olunmuşdur. Təsadüfi deyildir ki, bu ölkələr, dünya ərzaq bazarında və aqrar fəaliyyət sahələrinin səmərəliliyinin yüksəldilməsində uğurlar əldə etməyə nail olmuşlar. Digər tərəfdən, İKT-dən istifadənin aktivliyi, aqrar fəaliyyət sahələrində elektron xidmətlərin çeşidinin artırılması aqrar məhsulların istehsalına və onun son istehlakçılara çatdırılması proseslərinədək olan xərclərin optimallaşdırılmasına imkan verir, məhsulun maya dəyəri göstəriciləri cəlbedici olur, gəlirlilik səviyyəsi təmin edilir və analoji bazarlarda dinamik dövriyyə mühiti yaranır.

Müasir şəraitdə iqtisadiyyatın informasiyalaşdırılması və rəqəmsallaşması obyektiv zərurət kimi ortaya çıxmışdır. İKT əsaslı iqtisadiyyatın formalaşması konsepsiyası mövcud olan resursyönümlü iqtisadiyyat, ekoloji iqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, yaşıl siyasət və s. bu kimi mütərəqqi fəaliyyət istiqamətlərini, ideyaları özündə cəmləşdirmişdir [2, s. 148]. Bütün bu yanaşmalar aqrar sektorla və aqrar fəaliyyət sahələri ilə bilavasitə bağlılıq təşkil edir, bir tərəfdən aqrar fəaliyyət sahələrinin səmərəli təşkili, resurslardan qənaət rejimindən istifadə olunması, insan sağlamlığına zərər verməyən aqrar məhsulların istehsalının təşkilinə üstünlüyün verilməsi, digər tərəfdən isə daha az məsrəflə və müxtəlif təbii şəraitdə yüksək məhsuldarlıq əldə edilməsi mümkün olur. Xüsusilə, kənd təsərrüfatı və aqrar sferada İKT vasitəsilə işlərin səmərəli təşkili və resurslardan məhsuldar istifadə texnologiyalarının tətbiq olunması reallaşdırılır. Məlumdur ki, ərzaq təhlükəsizliyinin təmin olunması və bununla əlaqədar zəruri tədbirlərin görülməsi hər bir dövlətin strateji vəzifələrindən hesab olunur. Bununla bağlı, ilk növbədə aqrar fəaliyyət sahələrinin inkişaf etdirilməsi vacibdir və bu sahənin mövcud mexanizmlərinin təkmilləşdirilməsi, yenilənməsi mühüm əhəmiyyət kəsb edir. Son illərdə yaradılmağa başlanılan aqroparklarda müasir texnologiyalardan, o cümlədən İKT-dən fəal istifadə hesabına məhsuldarlığın artırılması, yerli bazarın tələbatı ilə yanaşı, ixrac potensialının formalaşdırılması, artırılması istiqamətində önəmli işlər həyata keçirilməkdədir. Aqroparklarda müasir texnika və texnologiyaların, İKT-nin tətbiqi üçün şərait yaranır, texnikalardan istifadə əmsalı yüksək olur, orta xərclər minimuma endirilir, ətraf mühitin qorunması üçün əlavə imkanlar yaranır, su və torpaq resurslarından səmərəli istifadə və onların mühafizəsinin təmin edilməsi mümkünləşir və bu amillər baxımından aqroparklar ərzaq təhlükəsizliyi və kənd yerlərinin inkişaf etdilrilməsi ilə əlaqədar müasir zamanda qarşıda duran bir sıra problemlərin həlli üçün modern təsərrüfatçılaq mexanizmidir [3]. Digər tərəfdən kənd təsərrüfatı sahələrinin elektronlaşdırılması proqramı və sistemi həyata keçirilməkdədir. "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" kənd təsərrüfatının və aqrar sektorun müxtəlif sahələrində şəffaf və səmərəli idarəetməni, həmçinin innovasiyanı təmin edir, müasir texniki həllərin tətbiqinə, dəqiq məlumatlara əsaslanan proqnozların verilməsinə, məhsulların yetişdirilməsi və istehsalı proseslərinə nəzarət mexanizmlərinin qurulmasına, hesabatların və fəaliyyət modellərinin hazırlanmasına imkan verir [4]. Bu tip elektronlaşdırma və rəqəmsal mexanizmlərin tətbiqi nəticəsində aqrar fəaliyyət sahələri subyektlərinin fəaliyyətinin koordinasiya edilməsi, tənzimlənməsi və inteqrativ əlaqələrin formalaşdırılması, planlaşdırma və proqnozlaşdırma tədbirlərinin optimallaşdırılması təmin olunur [5]. Qeyd etmək lazımdır ki, artıq Azərbaycanda da bu tip elektronlaşma mexanizmlərinə və texnologiyalarına üstünlük verilməlidir və ölkəmizin kənd təsərrüfatı sektoru sahələrində, həmçinin

bütövlükdə aqrar fəaliyyət sahələrində elektron xidmətlərinin çeşidi və həcmi genişlənməkdədir. Reallaşdırılan elektron xidmətlər sırasında yeni alınan, lizinqə verilən kənd təsərrüfatı texnikaları, damazlıq heyvanlar, özəl toxumçuluq fəaliyyəti ilə bağlı xidmətlər daha çox diqqət çəkirlər [6]. Bundan əlavə, kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satış qiymətlərinə nəzarət üçün elektron informasiya bazasının yaradılması, ixracın təşkili ilə əlaqədar elektron xidmətlər və s. istiqamətində önəmli addımlar atılmaqdadır [7]. Bu amillər baxımından, internet şəbəkəsinin ölkə seqmentinin təhlükəsiz fəaliyyətinin təmin olunması proqram konfiqurasiyalı şəbəkə və şəbəkə funksiyalarının virtuallaşması texnologiyalarının fəal şəkildə tətbiq edilməsi, elektron xidmətlərin çeşidinin və əhatə dairəsinin genişləndirilməsi kifayət qədər aktuallaşmışdır [8].

Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə iqtisadiyyatın müxtəlif sahələrində İKT-dən fəal istifadə edilməsi üzrə strateji hədəflər müəyyənləşdirilmişdir [9]. Ölkədə informasiya cəmiyyətinin formalaşmasına və İKT-nin rolunun dərk edilməsinə strateji yanaşma istiqamətində davamlı tədbirlər görülməkdədir, o cümlədən aqrar fəalliyyət sahələrində elektronlaşdırılma prosesləri sürətlənməkdədir. Bununla belə, informasiya xidmətlərinin həcmi rabitə xidmətləri ilə müqayisədə hələ kifayət qədər aşağıdır. Məsələn, 2018-ci ilin yekununda Azərbaycanda informasiya və rabitə xidmətlərinin ümumi həcmi 1897 mln. manat təşkil etmişdir və bunun cəmisi 455,4 mln. manatı, yaxud 24 %-i informasiya xidmətlərinin payına düşür. (bax: şəkil 1).



Şəkil 1. Azərbaycanda informasiya və rabitə xidmətlərinin dəyəri, mln. manat, 2011-2018-ci illər (ARDSK-nın rəsmi məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır).

İKT-nin inkişafı, xüsusilə internet şəbəkəsinin maddi-texniki bazasının gücləndirilməsi, internet istifadəçilərinin sayının artması ölkəmizdə informasiya təhlükəsizliyinin təmin edilməsinə, hər bir ölkə vətəndaşının sərbəst şəkildə azad informasiya ala bilməsinə əsaslı zəmin yaratmaqdadır. Bundan əlavə, bu sahələrin inkişafının sürətləndirilməsi ölkə əhalisinin yaşayış səviyyəsinə, beynəlxalq aləmdə ölkəmizin imicinin artmasına, biznes mühitinin yaxşılaşdırılmasına və sahibkarlığın inkişafına əlavə stimullar formalaşdırır. Bununla belə, bu istiqamətlərdə daha təsirli tədbirlərin görülməsinə ehtiyac qalmaqdadır:

- ilk növbədə, aqrar sahədə elektronlaşdırma proseslərinin maksimum sürətləndirilməsi təmin olunmalı və dünya təcrübəsinə uyğun şəkildə daha səmərəli mexanizmlər hazırlanaraq tətbiq edilməlidir;

- aqrar fəaliyyət sahələrində İKT-nin tətbiqinin genişləndirilməsi və daha çox fəaliyyət istiqamətləri üzrə elektron xidmətlərin təmin edilməsi tədbirləri görülməlidir;

- ölkənin ən ucqar regionlarında belə aqrar təyinatlı fəaliyyət sahələrində elektron xidmətlərdən istifadənin infrastrukturu yaradılmalı, müvafiq şərait formalaşdırlmalı və bu xidmətlərin əlçatanlığı təmin olunmalıdır və s.

Ədəbiyyat

1. Dünya iqtisadiyyatında İKT-nin rolu böyükdür. http://www.anl.az/down/meqale/uc_noqta/2013/may/310997.htm.

2. Əliyev Ə., Musayeva E., Əkbərova L., Abbasova V. İqtisadiyyatın informasiyalaşdırılmasının bəzi təhlükəsizlik aspektləri / İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı, 14 may 2015-ci il. –S.148-149.

3. Ərzaq təhlükəsizliyinin təmin edilməsində və kəndin inkişafında aqroparkların rolu. http://www.anl.az/down/meqale/respublika/2013/mart/297439.htm.

4. EKTİS nədir? https://www.agro.gov.az/az/ekt.

5. EKTİS-də sistemin inteqrasiyası və mövcud funksionallığı. https://www.agro.gov.az/az/ekt/ektis-de-sistemin-inteqrasiyasi-ve-moevcud-funksiyonalligi.

6. Elektron xidmətlər. https://www.agro.gov.az/az/ekt/elektron-xidmetler.

7. Kənd təsərrüfatı məhsullarına nəzarət üçün elektron-informasiya bazası yaradılır. https://xeberler.az/new/details/kend-teserrufati-mehsullarina-nezaret-ucun-elektron-informasiya-bazasi-yaradilir--10808.htm.

8. İnformasiya iqtisadiyyatının kibertəhlükəsizliyinin təminatı istiqamətləri və texnologiyaları Ələvsət Əliyev https://ict.az/uploads/konfrans/info_sec_2018/RS35_cybersecurity_technologies_and_direction_in_the_information_economy.pdf.

9. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, 65 s.

Резюме

Бадирзаде Г.Ш.

Актуальные проблемы электронизации сфер аграрной деятельности

В статье исследованы актуальные проблемы электронизации сфер аграрной деятельности. С этой целью анализировано развитие и актуальные проблемы электронизации аграрного сектора на основе высоких технологий. Отмечена важность ускорения процессов электронизации для интенсификации развития разных сфер аграрного сектора. Раскрыта важность применения цифрового механизма и расширения электронизации в повышении эффективности сферы аграрной деятельности. Обоснована важность интенсификации решения существующих проблем в направлении электронизации сфер аграрной деятельности в Азербайджане. Отмечена необходимость организации проводимых работ в данном направлении в соответствии с мировым опытом. Даны рекомендации и подготовлены предложения по актуальным проблемам электронизации сфер аграрной деятельности в современном периоде.

Ключевые слова: *аграрный сектор, сферы аграрной деятельности, электронизация, информационно-коммуникационные технологии, проблемы электронизации сфер аграрной деятельности, перспективы развития сфер аграрной деятельности.*

Summary
Badirzade G.Sh.
Current problems of electronization of spheres of agricultural activities.

Main problems of electronization of spheres of agricultural activities are explored in the article. The development and current problems of electronization of the spheres of the agricultural sector on the basis of high technologies is analysed for this purpose. The importance of accelerating the processes of electronization to intensify the development of different spheres of the agricultural sector is investigated too. The importance of using a digital mechanism and expanding electronization in increasing the efficiency of the agricultural sector is given then. The importance of intensifying the solution of existing problems in the direction of electronization of agricultural activities in Azerbaijan is analyzed. The necessity of organizing the works carried out in this direction in accordance with the world experience is noted. Recommendations and proposals on current problems of electronization of spheres of agricultural activities in the modern period are given in the end of the article.

Key words: *agricultural sector, spheres of agrarian activity, electronization, information and communication technologies, problems of electronization of spheres of agricultural activities, perspectives of development of spheres of agricultural activity.*

EMAL SƏNEYSİ SAHƏLƏRİNİN KOMPLEKS İNKİŞAFININ KONSEPTUAL ƏSASLARI

Cəbrayılov Rəşid Əhməd oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
rashid.cabrayilov@asoiu.edu.az

Xülasə: *Son dövrlərdə ölkə iqtisadiyyatının iqtisadi artım tempinin zəifləməsi davamlı iqtisadi inkişafın təmin olunması istiqamətində tədbirlərin zəruriyyətini ortaya qoymuşdur. Qlobal bazarlarda hasilat sənayesində baş verən tərəddüdlər ölkə iqtisadiyyatında makroiqtisadi sabitliyin pozulmasına gətririb çıxarmış və emal sənayesinin inkişafının əhəmiyyətini bir daha göstərmişdir. Tədqiqatda emal sənayesi sahələrinin kompleks inkişafının təmin edilməsi üçün nəzəri əsasları araşdırılmış və prioritet emal sənayesi sahələrinin müəyyənləşdirilməsi üçün metodologiya təklif edilmişdir.*

Açar sözlər: *emal sənayesi sahələri, irəli və geri istehsal əlaqələri, Hirşman modeli, asılılıq əlaqləri, sahələrarası balans*

Beynəlxalq təcrübəyə əsaslanaraq deyə bilərik ki, müəyyən inkişaf prosesini keçmiş hər bir ölkənin iqtisadi həyatında bir və ya iki sürətli sosial-iqtisadi yüksəliş dövrü yaşanmışdır [10, s.7]. Azərbaycan da belə bir yüksəliş dövrünü 2004-2010-cu illərdə yaşamışdır. Ölkəmizin bu cür sosial-iqtisadi yüksəlişi hasilat sənayesinin, yəni neft-qaz sənayesinin gəlirlərinin hesabına reallaşmışdır. Qeyd olunmuş dövrdə neft-qaz sənayesinin orta artım tempinin 25%-ə qədər olması ölkənin ümumi iqtisadi artımının da dünya ortalamasından (12,9%) yüksək olmasına səbəb olmuşdur [1].

Bu sürətli sosial-iqtisadi yüksəliş dövrünü ölkəmizin iqtisadi həyatında baş vermiş birinci yüksəliş dövrü kimi qeyd edə bilərik. Lakin hasilat sənayesinin imkanları məhduddur, ölkənin

davamlı iqtisadi inkişafını tamamilə hasilat sənayesinin üzərində qura bilmərik. Xammaldan asılılıq, qarşısına davamlı inkişafı, iqtisadiyyatın inklyuzivləşməsini hədəf qoymuş respublikamız üçün inkişaf strategiyasının əsasını təşkil edə bilməz. Ölkənin inkişaf strategiyasının daha dayanıqlı olan, qeyri-məhdud perspektivləri olan və gələcək vəd edən emal sənayesi üzərində qurulmağı məqsədəuyğun hesab edilir.

Alman siyasi iqtisad məktəbinin görkəmli nümayəndələrindən olan Fridrix List özünün "Siyasi iqtisadın milli sistemi" əsərində bütün ölkələr üçün keçərli olan vahid bir iqtisadi sistemin mövcud olmadığını, hər bir ölkənin özünəməxsus iqtisadi sistemin müəyyən olunmasına ehtiyacın olduğunu vurğulamışdır. List iqtisad elminin araşdırmalı olduğu əsas məsələ kimi milli iqtisadiyyat terminini irəli sürmüşdür. O, belə hesab edirdi ki, iqtisad elmi ən ümumi qanunları, qanunauyğunluqları deyil, hər bir ölkənin milli iqtisadi xüsusiyyətlərini tədqiq edərək ortaya çıxarmalıdır. Buna uyğun olaraq, ölkəmizin emal sənayesinin inkişaf etdirilməsi üçün imkanların, potensialın araşdırılmasına, iqtisadi rentabelliyi ən yüksək olan emal sənayesi sahələrinin müəyyənləşdirilməsinə ehtiyac vardır.

İqtisadi inkişaf prosesinin çox dəyişənli, mürəkkəb və kompleks proses olması bir sıra müxtəlif yanaşmaların, nəzəriyyələrin, şərhlərin, konsepsiyaların və iddiaların yaranmasına gətirib çıxarmışdır. Bu inkişaf nəzəriyyələri iqtisadi inkişaf məqsədlərinə çatmaq üçün müxtəlif metodları, alətləri və strategiyaları müəyyən etməyə cəhd göstərir. Bu inkişaf nəzəriyyələrinə Rostoun mərhələli iqtisadi artım modeli, Harrod-Domar modeli, Levisin iki sahə modeli, Hollis Çenerinin struktur dəyişikliyi və inkişaf nümunələri modeli, beynəlxlaq asılılıq nəzəriyyələri, koordinasiya çatışmazlığı modeli, mərhələli inkişaf nəzəriyyələri və neoklassik əks-inqilab modellərini misal göstərmək olar [4, s. 34-35].

Lakin təcrübə göstərir ki, bir çox hallarda inkişaf etməkdə olan ölkələrdə qeyd olunmuş inkişaf modellərinin tətbiqi kütləvi investisiya imkanlarının çatışmazlığı səbəbilə mümkün olmur. İkinci Dünya müharibəsindən sonra Avropada yenidənqurma siyasətinə yönələn iqtisadçılar iqtisadi inkişafı təşviq etmək üçün müxtəlif variantları araşdırmağa başladılar. İqtisadçı alimlər tərəfindən bir sıra inkişaf modelləri - böyük təkan (Paul Rozenşteyn-Rodan 1943, 1984), limitsiz əmək təklifi əsasında böyümə (Artur Levis 2 sahə modeli 1954), mərhələli iqtisadi artım (Volt Vitman Rostov 1956), balanslaşdırılmış iqtisadi artım (Raqnar Nurske 1953) və balanslaşdırılmamış iqtisadi artım (Albert Hirşman 1958) irəli sürüldü. Albert Hirşman böyük təkan nəzəriyyəsinin və digər balanslaşdırılmış artım nəzəriyyələrinin iqtisadiyyatı aşağı səviyyəli tarazlıq tələsindən qurtara biləcəyini sual altına alır və əvəzinə özünün balanslaşdırılmamış iqtisadi artım strategiyasını təklif edir [3, s. 57].

Rozenşteyn-Rodana görə az inkişaf etmiş ölkələr geniş miqyaslı investisiya (sosial, ictimai infrastruktura yönələn böyük həcmli investisiyalar) çatışmazlığına görə öz böyük iqtisadi imkanları istifadə edə bilməmiş və aşağı səviyyəli bir tarazlıq tələsinə tutulmuşlar. Özəl müəssisələr belə investisiya qoyuluşlarının bütün nəticələri mənimsəyə bilməyəcəklərindən, geniş müsbət təsirləri olan təhsil, sosial-iqtisadi infrastruktur sahələrinə investisiya qoyuluşlarında maraqlı deyillər. Bu səbəbdən, ilkin sənayeləşməyə "böyük təkan" vermək üçün dövlət investisiyası zəruridir. İqtisadi inkişafda ilkin sıçrayış baş verərsə, özəl investisiyaların axını başlayacaq və iqtisadi artım öz tempini saxlayacaqdır [4, s. 62].

Hirşman, bunun əksinə, böyük təkan siyasətinin iqtisadi inkişafı sürətləndirə biləcəyini qəbul etmir, çünki onun icrası inkişaf etməkdə olan ölkələrdə zəif inkişaf etmiş sahibkarlıq və idarəetmə bacarığı kimi bir sıra qabiliyyətlərin yüksək səviyyədə olmasını tələb edir. O, həmçinin, dövlətin bütün sahələrdə eyni zamanda sənayeləşməni maliyyələşdirə bilməcəyini və sosial infrastruktur investisiyalarının həddindən çox qabardıldığını irəli sürür. Hirşmanın fikrincə, sosial infrastruktur investisiyasının çox olmadığı hallarda investisiyanın sosial infrastruktura sərf edilməsindənsə, birbaşa məhsuldar fəaliyyətlərin qorunmasına, subsidiyalaşdırılmasına,

maliyyələşdirilməsinə və ya bu sahələrə birbaşa investisiya qoyuluşlarının həyata keçirilməsinə yöməldilməsi daha effektiv nəticələr verər.

O, iqtisadi inkişafı ləngidən müxtəlif maneələri aradan qaldırmaq üçün "təşviqat mexanizmləri"nin yaradılmasını təklif edir. Əsas sənaye sahələrinə dövlət investisiyalarının qoyulması sənaye sahələrinin satınalma xərclərini artıracaq və bu sahələrə aralıq məhsul satan istehsal sahələrində özəl investisiyalar üçün böyük mənfəət imkanları yaradacaqdır. Təchizat çatışmazlığı olması, emal sənayesi sahələrinin istehsal prosesini həyata keçirə bilməsi üçün yarımfabrikatlar istehsal edən təchizatçı sənaye sahələrində mənfəət imkanları yaradır və bununla da bu sahələrə özəl investisiyaların qoyulmasını təşviq edir (geri istehsal əlaqələri). Eyni şəkildə, yeni məhsulun yerli istehsalı, bu sahənin məhsullarını aralıq istehlak kimi istifadə edən emal sənayesi sahələrində yüksək mənfəət imkanları yaradır və bununla da, özəl investisiyaların bu sahələrə yönəlməsini təşviq etmiş olur (irəli istehsal əlaqələri). Beləliklə, düzgün hədəfə yönəldilmiş (balanslaşdırılmamış) dövlət investisiyaları geniş miqyasda iqtisadi strukturun inkişafına səbəb ola bilər [7, s. 471].

Hirşman balanslaşdırılmamış iqtisadi artım nəzəriyyəsində təklif edir ki, dövlətin iqtisadi inkişaf siyasəti aparıcı sənaye sahələrinin inkişaf etdirilməsinə yönəlməlidir, nəticədə, aparıcı sahələrin inkişaf prosesi bütün digər sahələrin inkişafına şərait yaradacaqdır. Aparıcı sənaye sahələri ilə digər sahələrin əlaqələndirilməsi, bu sahələr arasında irəli və geri istehsal əlaqələrinin inkişafına gətirib çıxarır.

Sahələrarası istehsal əlaqələri səbəb-nəticə tipli anlayışdır, belə ki, aparcı sənaye sahəsi olan A sənaye sahəsi ilə B sənaye sahəsi arasındakı istehsal əlaqələri, B sahəsinin inkişafına səbəb olacaqdır. Buna əsasən deyə bilərik ki, B sənaye sahəsi A sənaye sahəsinin isthesal əlaqələri olmadan mövcud olmayacaqdır. Bu cür yanaşma, sahələrarası istehsal əlaqələrnin əhəmiyyətini, istehsal əlaqələrinin digər sahələrin inkişafına və bütünlükdə iqtisadi inkişafa faydalarını göstərməkdədir [7, 475].

Sahələrarası istehsal əlaqələri adətən, xərclər-buraxılış cədvəllərindən istifadə etməklə hesablanır. Sadə yanaşma ilə bir sənaye sahəsinin irəli istehsal əlaqələrini bu sənaye sahəsinin ümumi buraxılışının son tələbə yönəlməyib digər sahələrin istehlakına yönələn hissəsi, geri istehsal əlaqələrini isə, oxşar olaraq, bir sənaye sahəsinin ümumi buraxılışında digər sahələrdən satınalmaları əks etdirən hissəsi kimi izah edə bilərik.

Qeyd olunan bu kimi iqtisadiyyatın sahələri arasındakı asılılıqları təhlil etmək üçün Leontiyevin xərclər-buraxılış modeli ən uğurlu metoddur. Bu metoda əsaslanan sənaye sahələrinin irəli və geri istehsal əlaqələrinin təhlilində xərclər-buraxılış modelinin birbaşa və tam xərc əmsallarından istifadə olunur. Emal sənayesinin irəli və geri istehsal əlaqələrini qiymətləndirməyə kömək edən xərclər-buraxılış əmsalları iki yanaşma əsasında müəyyən edilə bilər. Birinci yanaşmada emal sənayesi sahələrinin xərcləri və buraxılışının həcmi natural formada istifadə edilir, ikinci yanaşmada isə bu dəyişənlərin dəyərlərini ifadə edən pul vahidlərindən istifadə olunur. Tədqiqatlarda ikinci yanaşmanın istifadə olunması daha məqsədəuyğundur, belə ki, birinci yanaşmada nəzərdə tutulduğu kimi emal sənayesi sahələrinin müxtəlif göstəricilərdə ifadə olunmuş xərclərini və buraxılışlarının miqdarlarını ümumiləşdirmək qeyri-mümkündür.

Xərclər-buraxılış modeli çərçivəsində bir sənaye sahəsinin istehsalının digər iqtisadi fəaliyyət sahələri üzərində iki növ iqtisadi təsiri mövcuddur: irəli istehsal əlaqələri təsiri və geri istehsal əlaqələri təsiri. İrəli istehsal əlaqələri təsiri aşağıdakı tənlik (1) əsasında hesablanan dispersiya həssaslığı kimi ifadə olunur. Eynilə, geri istehsal əlaqələrinin təsiri tənlik (2) istifadə edilərək hesablanmış dispersiya güc kimi ifadə olunur. Milli iqtisadiyyatda sənaye sahələrinin geri və irəli istehsal əlaqələrinin gücünün müqayisəsi bu iqtisadiyyatda "əsas" və ya "aparıcı" sənaye sahələrini müəyyənləşdirmək və sənaye sahələrini məkana görə qruplaşdırmağa imkan verən bir mexanizm rolunu oynayır.

Emal sənaye sahələrinin irəli istehsal əlaqələrini qiymətləndirmək üçün dəyər ölçülərinə əsaslanan xərclər-buraxılış modelinin əmsalları istifadə olunur və aşağıdakı kimi hesablanır [8, s. 185]:

$$İOC_{ij} = \frac{Vd_{ij}}{\sum_{j=1}^{n} Vd_{ij}} \qquad (1)$$

Burada, $İOC_{ij}$ - j-ci sənaye sahəsi tərəfindən istehlak olunmuş i-ci istehsal sahəsinin buraxılışının ümumi həcminin dəyər nisbətini ifadə edən i-ci istehsal sahəsi və j-ci sənaye sahəsi arasındakı xərclər-buraxılış əmsalı; Vd_{ij} - j-ci sənaye sahəsi tərəfindən istehlak olunmuş i-ci istehsal sahəsinin buraxılışının dəyəri; $\sum_{j=1}^{n} Vd_{ij}$ – iqtisadiyyatın j = 1, 2, ..., n sahələri tərəfindən istehlak edilən i-ci istehsal sahəsinin məhsul buraxılışının ümumi dəyərlərinin cəmini ifadə edir.

İrəli istehsal əlaqələri təhlilində olduğu kimi geri istehsal əlaqələrinin təhlilində də, dəyər göstəricilərinə əsaslanan xərclər-buraxılış əmsallarından istifadə olunur və aşağıdakı kimi hesablanır [8, s. 186]:

$$İOC_{ij} = \frac{Vs_{ij}}{\sum_{j=1}^{n} Vs_{ij}} \qquad (2)$$

Burada $İOC_{ij}$ - j-ci sənaye sahəsinin buraxılışının ümumi həcmində i-ci istehsal sahəsinin öz istehsalını həyata keçirə bilməsi üçün istehlak etdiyi aralıq məhsulların dəyər nisbətini ifadə edən i-ci istehsal sahəsi və j-ci sənaye sahəsi arasındakı xərclər-buraxılış əmsalı; Vs_{ij} - i-ci istehsal sahəsinin j-ci sənaye sahəsinin buraxılışından istehlak etdiyi aralıq məshullara çəkilən xərclərin həcmi; $\sum_{j=1}^{n} Vs_{ij}$- i-ci istehsal sahəsinin, iqtisadiyyatın j = 1, 2, ..., n sahələrində istehsal olunan məhsulları istehlak etmək üçün çəkdiyi xərclərin ümumi dəyərini ifadə edir.

Hirşman haqlı idi, heç bir inkişaf etməkdə olan ölkə iqtisadiyyatın hərtərəfli, kompleks inkişafını təmin etmək üçün kifayət qədər maliyyə ehtiyatlarına malik deyildir. Eyni zamanda, sosial infrastrukturun formalaşdırılması da öz bəhrəsini gec verir və davamlı olaraq böyük həcmdə investisiyaların cəlb edilməsini tələb edir. Buna görə də, inkişaf etməkdə olan ölkə öz iqtisadiyyatının inkişafını təmin etmək üçün əsas diqqətini sahələrarası istehsal əlaqələri ən güclü olan sahələrin inkişafına yönəltməlidir.

Albert Hirşmanın bu nəzəriyyəsinə əsaslanaraq deyə bilərik ki, ölkəmizdə emal sənayesinin davamlı inkişafını təmin etmək üçün istehsal əlaqələri güclü olan emal sənayesi sahələrinin müəyyənləşdirilməsi və bu sahələrə birbaşa investisiyaların qoyulması ilə kompleks inkişafın təşviq eilməsi iqtisadi dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən olmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı 2016, 111 səh.

2. D'Hernoncourt J., Cordier M., Hadley D. Input-output multipliers specification sheet and supporting material. Université Libre de Bruxelles, 2011, 25 p.

3. Debraj Ray. Development Economics. Princeton University Press, New Jersey, 1998, 848 p.

4. Fidelis Ezeala Harrison. Economic Development: theory and policy applications. Praeger Publishers, Connecticut, 1996, 904 p.

5. Handbook of input-output table: compilation and analysis. United Nations, New York, 1999, 268 p.

6. Həsənli Y.H. Azərbaycan iqtisadiyyatının sahələrarası əlaqələrinin modelləşdirilməsi. Bakı: Elm, 2012, 206 s.

7. Hirschman, Albert O. The Strategy of Economic Development. An early contribution setting out the benefits of intersectoral linkages for economic development. Connecticut, Yale University Press, *American Journal of Agricultural Economics*, Volume 41, Issue 2, 1959, p.468–479.

8. Leontief W. The Structure of the American Economy, 1919-1929. New York, Oxford University Press, 1951, 282 p.

9. Z.Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı: Elm və Təhsil, 2009, 608 s.

Резюме

Джабраилов Р.А.

Концептуальные основы комплексного развития производственной промышленности

Недавнее замедление экономического роста в стране подчеркнуло необходимость принятия мер по обеспечению устойчивого экономического развития. Колебания в добывающих отраслях на мировых рынках привели к нарушению макроэкономической стабильности в экономике страны и еще раз подчеркнули важность развития обрабатывающей промышленности. В исследовании рассмотрены теоретические основы обеспечения комплексного развития обрабатывающей промышленности и предложена методика определения приоритетных направлений обрабатывающей промышленности.

Ключевые слова: *сферы обрабатывающей промышленности, прямые и обратные связи, модель Хиршмана, взаимозависимые отношения, межотраслевой баланс*

Summary

Cabrayilov R.A.

Conceptual Fundamentals of Complex Development of Manufacturing Industry

The recent slowdown in the country's economic growth has highlighted the need for measures to ensure sustainable economic development. Fluctuations in the extractive industries in global markets have led to a disruption of macroeconomic stability in the country's economy and have once again highlighted the importance of the development of the manufacturing industry. The study examined the theoretical basis for ensuring the integrated development of the manufacturing industry and proposed a methodology for identifying priority areas of manufacturing industry.

Key words: *manufacturing industry areas, forward and backward linkages, Hirschman model, interdependency relations, intersectoral balance*

MÜƏSSİSƏLƏRDƏ KEYFİYYƏT SİSTEMLƏRİNİN QURULMASINDA MARKETİNQİN ROLU

Dadaşova Kəmalə Seyfulla qızı

UNEC

Novruzov Rahim Şahin oğlu

UNEC

kamale.dadasheva.74@mail.ru; rahim.novruzov1@gmail.com

Xülasə: *Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrində keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı ən vacib məsələlərdən biridir. İctimai istehsalın səmərəliliyinin artırılması zərurəti nəinki istehsalın intensivləşdirilməsini, həmçinin məhsul və xidmətlərin keyfiyyətinin daim yüksəldilməsini tələb edir. Bütün bu istiqamətlərdə görülmüş və görüləcək işlər*

respublikada məhsulun keyfiyyətinin yüksəldilməsi, onun rəqabətqabiliyyətinin yüksəldilməsinə xidmət etməklə ölkədə istehsal olunan məhsulların dünya bazarına çıxarılması və müvafiq "bazar seqmentlərinə" nail olunmasına gətirib çıxarmalıdır. Bunlar son nəticədə ölkəmizin dünya iqtisadiyyatina inteqrasiyasını təmin edəcəkdir.

Açar sözlər: *nəzarət, istehsal, proses, tələb, göstərici*

Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrində keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı ən vacib məsələlərdən biridir. İctimai istehsalın səmərəliliyinin artırılması zərurəti nəinki istehsalın intensivləşdirilməsini, həmçinin məhsul və xidmətlərin keyfiyyətinin daim yüksəldilməsini tələb edir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatı yolunu seçmişdir, bu isə xüsusilə sənayedə istehsal münasibətlərində ciddi problemləri ortaya qoymuşdur. Belə problemlərdən biri də müəssisələrdə keyfiyyət sistemlərinin marketinq konsepsiyası əsasında qurulmasıdır. Marketinq fəaliyyətinin təhlili müəssisələrdə keyfiyyət sistemlərinin qurulmasında mühüm əhəmiyyət kəsb edir[1].

Beləliklə, marketinq dedikdə, müəssisənin özünün istehsal proqramını tərtib edərkən istehlak bazarının bütün tələblərinin nəzərə almaqla, alıcının istəyinə aktiv təsir etməklə onun tələb və arzularını ödəyən məhsul təklif etməsi başa düşülür. Odur ki, marketinq elementlərindən istifadə olunmaqla tərtib edilən keyfiyyətin idarə edilməsi sistemi istehlak bazarının bu məhsula olan bütün tələbatının ortaya çıxarılmasına istiqamətlənməli və elə çeşiddə və keyfiyyətdə məhsul buraxılmasına şərait yaratmalıdır ki, müəssisənin gəliri maksimum olsun. Bununla yanaşı, marketinq istehlak bazarındakı vəziyyəti öyrənməklə orada inkişaf edəcək prosesləri proqnozlaşdırıb, hansı məhsullara daha çox tələbat olacağı barədə müəssisə üçün qabaqcadan məlumatlar hazırlamalıdır.

Məhsulun bütün həyat dövrü boyu keyfiyyətin idarə olunmasını təmin etmək üçün müəssisələrdə keyfiyyət sistemlərinin mövcudluğu vacibdir. Lakin müəssisələrdə keyfiyyət sistemlərinin bilavasitə marketinq konsepsiyası əsasında qurulması və tətbiqi isə yüksəkkeyfiyyətli məhsul istehsalına imkan verən başlıca şərtdir [2,3].

Beləliklə, keyfiyyət sistemi dedikdə özündə rəhbərliyin məsuliyyətini, keyfiyyətə rəhbərlik məsələləri üçün lazım olan əməliyyat və resursları əks etdirən təşkilati struktur başa düşülür.

Keyfiyyət sistemi müəssisənin keyfiyyətə təsir edən digər sahələri ilə yanaşı, eyni zamanda onlarla əlaqəli fəaliyyət göstərməlidir. Onun təsir dairəsi məhsulun ömür müddətinin bütün mərhələlərini ilkin müəyyənləşdirmə mərhələsindən başlamış, istehlakçının tələblərinin təyin olunmasına qədər bir dövrü əhatə etməlidir. Bu mərhələlər aşağıdakı kimidir.



Şəkil 1. Məhsulun həyat dövrü mərhələləri

Keyfiyyət sisteminin fəaliyyətini təmin etmək üçün onu təşkil edən struktur vahidləri öz xidməti funksiyalarını dəqiq yerinə yetirməlidirlər Müəssisənin rəhbərliyi də bu sahədə apardığı siyasətin yerinə yetirilməsi üçün lazımi resurs və ləvazimat ayırmalıdır. Bir sözlə, müəssisə marketinqdən aktiv istifadə etməli və onu istehlak bazarının tələblərini nəzərə almaq və məhsulun keyfiyyətinin artırılması sahəsində başlıca metod saymalıdır. Beləliklə, müəssisələrdə keyfiyyət sistemlərinin marketinq konsepsiyası əsasında qurulması aşağıdakı mərhələləri əhatə etməlidir [4,5]:

• bazarın öyrənilməsi və onun tələblərinin müəssisə tərəfindən ödənilməsi imkanları;

• müəssisənin, iqtisadi rəqabətlilik şəraitində bazar münasibətlərinin və siyasətinin işlənməsi. Yəni eyni adlı məhsul istehsalçıları ilə münasibətlərinin işlənib hazırlanması;

• müəssisənin ayrı-ayrı istehsal sahələrinin fəaliyyətinin bazardakı dəyişikliklərə uyğun əlaqələndirilməsi.

Yuxarıda qeyd edilən hər bir mərhələyə fərdi yanaşaraq orada getməli olan prosesləri diferensial şəkildə araşdırsaq, onda istehsal bazarının öyrənilməsi və marketinqdən istifadə etməklə perspektivdə müəssisələrdə qurulacaq keyfiyyət sistemlərinin fəaliyyətində aşağıdakı mərhələlər öz əksisni tapa bilər:

• bu və bununla əlaqədar sahələrdə elmi-texniki tərəqqinin genişləndirilməsi perspektivliyinin öyrənilməsi;

• uzun müddətli bazar ənənələrinin üzə çıxarılması, istehlak sorğusu və dinamikasının müəyyənləşdirilməsi;

• malların çeşidinin bazar tələblərinə uyğunluğunun qiymətləndirilməsi;

• müəssisənin buraxdığı və buraxacağı məhsulların rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi.

Qeyd edək ki, bütün bu istiqamətlərdə görülmüş və görüləcək işlər respublikada məhsulun keyfiyyətinin yüksəldilməsi, onun rəqabətqabiliyyətinin yüksəldilməsinə xidmət etməklə ölkədə istehsal olunan məhsulların dünya bazarına çıxarılması və müvafiq "bazar seqmentlərinə" nail olunmasına gətirib çıxarmalıdır. Bunlar son nəticədə ölkəmizin dünya iqtisadiyyatina inteqrasiyasını təmin edəcəkdir.

Ədəbiyyat

1. Mehdiyev M.İ. Keyfiyyətin idarə edilməsi. Ali məktəblər üçün dərslik. Bakı: Çaşıoğlu, 2007, 320 s.

2. Aslanov Z.Y. Sistemli yanaşma əsasında maşınqayırma məhsulunun keyfiyyətinin idarə edilməsi metodlarının işlənməsi. Bakı: 2016, 260s

3. Aslanov Z.Y. Maşınqayırma məhsulunun keyfiyyətinin idarə edilməsi metodları. Bakı: 2013, 316 s

4. Məmmədov N.R., Ələkbərov E.B., Aslanov Z.Y., İskəndərzadə E.B., Əsədov A.M., Məmmədov B.M., Seydəliyev İ.M. Kvalimetriya və keyfiyyətin idarəedilməsi: Ali məktəblər üçün dərslik. T.e.d., prof. N. R. Məmmədovun redaktəsi ilə. Bakı: Elm, 2007, 326 s

5. Seydəliyev İ. M., Dadaşova K. S. Keyfiyyətin idarə edilməsinin müasir inkişaf istiqamətləri / 2005–2006-cı illərdə ADİU-də yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2007, s. 319 – 320

Резюме

Дадашова К.С., Новрузов Р.Ш.

Роль маркетинга в создании системы качества на предприятиях

В условиях рыночной экономики производство качественной и конкурентоспособной продукции на промышленных предприятиях является одним из важнейших вопросов. Необходимость повышения эффективности общественного производства требует не только интенсификации производства, но и постоянного повышения качества продукции и услуг. Проводимая во всех этих направлениях работа должна способствовать повышению качества продукции в республике, повышению ее конкурентоспособности, выведению продукции, производимой в стране, на мировой рынок и достижению соответствующих "сегментов рынка". Они в конечном итоге обеспечат интеграцию нашей страны в мировую экономику.

Ключевые слова: *контроль, производство, процесс, спрос, показатель*

Summary

Dadashova K.S., Novruzov R.Sh.

The Role of Marketing in forming Quality Systems in Enterprises

Production of quality and competitive products in industrial enterprises are one of the most important issues in the conditions of market economy. The need to improve the efficiency of public production requires not only intensification of production, but also constant improvement of the quality of products and services. The work done in all these directions should lead to improving the

quality of the products in the Republic, bringing the products produced in the country to the world market by serving to improve its competitiveness and achieving the relevant "market segments". These will ultimately ensure the integration of our country into the world economy.

Key words: *control, production, process, demand, indicator*

AZƏRBAYCANDA ELMİ-TƏDQİQAT İŞLƏRİNİN KOMMERSİYALAŞDIRILMASI PROSESİNİN İDARƏETMƏ MEXANİZMLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Əhmədova Leyla Fəxrəddin qızı
Azərbaycan Kooperasiya Universiteti
leyla.ehmedova.aku@gmail.com

Xülasə: *Məqalədə Azərbaycanda elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesinin idarəetmə mexanizmlərinin gücləndirilməsi məsələləri tədqiq olunmuşdur. Bu məqsədlə, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesinin rolu və əhəmiyyəti təhlil edilmiş, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılmasının mahiyyəti açıqlanmış, əldə olunan elmi nəticələrin, kəşflərin və ixtiraların tətbiqi proseslərinin daha səmərəli təşkilinin vacibliyi əsaslandırılmışdır. Dünya təcrübəsinə uyğun şəkildə elmi-tədqiqat müəssisələrində və mərkəzlərində biznes mühitinin formalaşdırılması və inkişaf etdirilməsinin əhəmiyyəti verilmişdir. Müasir dövrdə ölkədə elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesinin idarəetmə mexnizmlərinin gücləndirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.*

Açar sözlər: *elmi-tədqiqat işləri, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması, elmi-tədqiqat işlərinin idarəetmə mexanizmləri, tədqiqatın nəticələrinin biznesə tətbiqi məsələləri, biznes-innovasiyalar, elmi-tədqiqat müəssisələrində biznes mühitinin yaradılması.*

Elmi-tədqiqat işlərinin daha səmərəli təşkili məsələləri kifayət qədər aktuallığı ilə diqqət çəkir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə yüksək nəticələrin əldə olunmasında elmi-tədqiqat işlərinin kompleks və sistemli şəkildə təşkil olunması, əldə olunan elmi nəticələrin səmərəli formada kommersiyalaşdırılması, elmi-tədqiqat müəssisələrində biznes mühitinin yaradılması hesabına mümkün olmuşdur. Buna görə də həmin ölkələrdə texnologiyalar və innovasiyalar bazarı digər ölkələrlə müqayisədə xeyli üstündür və ölkənin iqtisadi gücünün, iqtisadi artımının təmin olunmasında elm və texnologiyalar tutumlu məhsulların istehsalı mühüm əhəmiyyət kəsb edir. Elmi-tədqiqatın təşkili və nəticələrin əldə edilməsi prosesləri nə qədər spesifik xarakter daşıyırsa, bu nəticələrin istehsal və xidmət sahələrinə tətbiq edilməsi, biznes proseslərində istifadəsinin təşkili və son nəticədə səmərəliliyinin əldə edilməsi bir o qədər mürəkkəb məsələlərdir.

Təsadüfi deyildir ki, elmi-tədqiqatların son nəticələrinin tətbiqi prosesləri dünya təcrübəsində ən mürəkkəb problemlərdən hesab olunur və bu istiqamətdə dünyanın elm-texnoloji cəhətdən inkişaf etmiş ölkələrində axtarışlar müasir dövrdə də intensiv şəkildə davam etməkdədir. Digər tərəfdən, elmi-texniki yeniliklərin əldə edilməsi üçün elmi-tədqiqat işlərinin daha sistemli şəkildə aparılması təmin olunmalıdır. Elmi-tədqiqat xidmətlərinin və bunlarla bağlı fəaliyyət proseslərinin elmi-tədqiqat müəssislərindən istehsal sahələrinədək gətirilməsi və tətbiqi problemləri bütün dövrlərdə aktual olmuşdur və hazırda da belədir. Elm-tədqiqat xidmətlərinin müəssisələr üçün nə dərəcədə səmərəli olub-olmaması nəzəri-praktiki baxımdan ciddi arqumentlərlə yanaşı, müvafiq hesabatlar əsasında və qiymətləndirmələr üzrə baxılmalı, uzunmüddətli dövr üçün proqnozlaşdırılmalıdır. Müəssisələrdə elmi-tədqiqatlara, innovasiyaların işlənməsinə marağın artırılması üçün elmi-tədqiqat nəticələrin kommersiyalaşdırılması və müəssisələr tərəfindən maraqla

qarşılanması tədbirləri görülməli, bu sahədəki biznes proseslərinin tərəflər üçün qarşılıqlı səmərəliliyi diqqət mərkəzində saxlanılmalıdır. Elmi-tədqiqat işlərinin kommersiyalaşdırılmasında innovatik mexanizmlərin tətbiqi daha çox səmərə vermək potensialına malikdir.

Bu baxımdan, ölkə səviyyəsində innovasiya sisteminin formalaşdırılması və inkişaf etdirilməsi konsepsiyası olmalı, onun inkişaf strategiyaları müəyyənləşdirilməli, elmi-tədqiqatın nəticələrinin fəal şəkildə tətbiq olunması və reallaşdırılması tədbirləri görülməli və elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesləri üzrə zəruri təhlillər, araşdırmalar aparılmalı, göstəricilər sistemi müəyyənləşdirilməli və onların qiymətləndirilməsi metodikası hazırlanaraq tətbiq edilməlidir [1]. *"Bazar iqtisadiyyatına keçid digər ictimai elmlərdə olduğu kimi, iqtisad elmində də köklü dəyişiklikləri tələb edir və bu dəyişikliklər həm aparılan tədqiqatlara, həm də iqtisadçı kadr hazırlığı prosesinə yanaşmada özünü göstərir... Ölkədə həyata keçirilən iqtisadi islahatların, onların nəticələrinin elmi təhlillərin aparılması, ilk növbədə, iqtisadçıların işidir"* [2]. Bundan əlavə, iqtisadi islahatlar şəraitində elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması vacib məsələlər kimi ortaya çıxır [3]. Bu baxımdan elmi tədqiqatların nəticələrinin əsaslandırılmış formada istehsal proseslərinə, biznes sahələrinə çevik tətbiqi mexanizmlərinin yaradılması və onlardan səmərəli istifadə olunması tədbirlərinin hazırlanaraq həyata keçirilməsi vacib hesab edilir. Elmi-tədqiqat işlərinin təşkili, həyata keçirilməsi, bunlarla bağlı layihələrin hazırlanması, onların sahibkarlıq və biznes subyektlərinə ötürülməsi proseslərinin əsaslandırılmış idarəetmə mexanizmlərinin yaradılması və onun işləkliyinə nail olunması, bir sözlə, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesinin maksimum təşkil olunması vacibdir [4].

Qeyd edək ki, Azərbaycanda elmi-tədqiqat işlərinin əlaqələndirilməsi, bu istiqamətdə fəaliyyət gösətərən müəssisələrinin və təşkilatların fəaliyyətinin kommersiyalaşdırılması istiqamətində görülən işlər o qədər də intensivliyi ilə fərqlənmir. Amma elmi-tədqiqat işlərinin elmi istiqamətlər üzrə əlaqələndirilməsi, sahələrarası elmi-texniki proqramların reallaşdırılmasına ciddi nəzarət mexanizmlərin yaradılması və bütün hallarda elmi-tədqiqatların nəticələrinin səmərəliliyinin yüksəldilməsi tədbirləri diqqət mərkəzindədir [5]. Bu məsələlər 2016-cı il 14 iyundan qüvvədə olan "Elm haqqında Azərbaycan Respublikasının Qanunu" ilə tənzimlənir. Qanunla elmi-tədqiqat işlərinin və xidmətlərinin əhatəsi, təxmini çeşidi müəyyənləşdirilməli, planlaşdırılmalı, əlaqələndirilməli və dünya təcrübəsinə istinadən fundamental olaraq araşdırılmalı, öyrənilməli, sintez edilməli, nəhayət, tətbiq tədbirləri həyata keçirilməlidir. Eyni zamanda elmi tədqiqatlarını maliyyə və maddi-texniki təminatının mənbələrinin və vəzifələrinin optimal olaraq müəyyənləşdirilməsi, ayrı-ayrı elmi problemlər və xidmətlər üzrə zəruri tədbirlərin, o cümlədən, elmi konfransların və seminarların keçirilməsi məqsədəuyğun hesab olunur [6].

Eyni zamanda elmi istiqamətlərin, elmi tədqiqatın nəticələrinin kommersiyalaşdırılması və biznes mühitinin formalaşdırılması məqsədilə ölkəmizdə silsilə və ardıcıl tədbirlərin görülməsi dövlət tərəfindən diqqət mərkəzində saxlanılır, bunlarla bağlı maliyyə resursları ayrılır, digər dəstəkləyici mexanizmlər tətbiq edilir [7]. Xüsusilə ölkənin universitetlərində intellektual resurslardan səmərəli istifadə olunması, əqli mülkiyyətin və elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsin tədbirlərinin görülməsi, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesinin idarəetmə mexanizmlərinin formalaşdırılması və gücləndirilməsi məsələləri ildən-ilə aktuallaşmaqdadır. Bu problemlərin həlli, eyni zamanda təhsil və biznesdə, elmi-tədqiqat müəssisələrində informasiya texnologiyalarının inkişafı, elmi nəticələrin istehsala tətbiqinin sürətləndirilməsi ilə bilavasitə bağlıdır. Bununla yanaşı, iqtisadi cəhətdfən inkişaf etmiş ölkələrin təcrübəsindən çıxış etməklə elmi-tədqiqat müəssisələrində informasiya texnologiyaların inkişaf etdirilməsi, elmi-tədqiqat işlərinin daha məhsuldar şəkildə son məhsula çevrilməsi tədbirləri ardıcıl və sistemli xarakter almalıdır. Elmi-tədqiqat müəssisələrində və universitetlərdə İKT texnologiyalarının geniş tətbiq edilməsinə və elmi tədqiqat proseslərində əldə olunmuş mühüm nəticələrin kommersiyalaşdırılması proseslərinin idarəetmə mexanizminin yaradılmasına daha ciddi

önə verilməlidir [8]. Bunun üçün innovasiya texnoparklarında tədqiqatların və proseslərin səmərəli təşkili üçün onların informasiya təminatının işlənməsi müasir dövr üçün ən zəruri və aktual məsələlərdən hesab olunur [9]. Bu, kompleks şəkildə innovasiya texnoparklarının fəaliyyətinin effektivliyinin yüksəldilməsi istiqamətində informasiya təminatı sisteminin arxitektur-texnoloji modelinin işlənməsini vacib məsələ kimi qarşıya qoyur [10].

Azərbaycanda elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması zərurəti elmi-tədqiqatlara və elmə çəkilən xərclərdən də aydın görünür və qeyd edək ki, bu kifayət qədər aşağı bir rəqəmdir, ayrılan vəsaitlərin də əhəmiyyətli hissəsi elmi-tədqiat müəssisələrinin əməkhaqqı xərclərinə yönəldilir. Şəkil 1-də Azərbaycanda elmi-tədqiqatlara çəkilən ümumi xərclərin dinamikası verilmişdir və bu göstərici üzrə 2000-ci illə nisbətdə xeyli artım müşahidə edilsə də, əvvəldə bildirdiyimiz kimi müasir dövrün tələbləri ilə müqayisədə xeyli aşağadır.



Şəkil 1. Azərbaycanda 2000-2018-ci illərdə elmi-tədqiqatlara çəkilən ümumi xərclərin dinamikası, min manat (ARDSK-nın statistik nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az/).

Şəkil 2-də ölkəmizdə dövlət büdcəsindən elmə çəkilən xərclərin dinamikası öz əksini tapmışdır və 2015-2018-ci illərdə bu xərclərdə ümumiyyətlə artım cüzi səviyyədədir.



Şəkil 2. Azərbaycanda 2005-2018-ci illərdə dövlət büdcəsindən elmə çəkilən xərclərin dinamikası, mln manat (ARDSK-nın statistik nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az/).

Yuxarıda göstərilənlərdən yanaşdıqda ölkəmizdə elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması proseslərinin sürətləndirilməsi və onun idarəetmə mexanizmlərinin gücləndirilməsi tələb olunur:

- Azərbaycanda elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması proseslərinə yanaşmalar beynəlxalq təcrübəyə uyğunlaşdırılmalı və zəruri fəaliyyət mexanizmlərinin hazırlanaraq reallaşdırılması təmin edilməlidir;

- Elmi-tədqiqat müəssisələrində və universitetlərdə biznes mühitinin formalaşdırılması, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması istiqamətində fəaliyyət strategiyası olmalıdır və bununla əlaqədar perspektiv inkişaf istiqamətləri nəzərə alınmaqla layihələr, məqsədli proqramlar hazırlanaraq həyata keçirilməlidir və s.

Ədəbiyyat

1. Баканова М.В. Анализ бизнес-процессов кафедры вуза как основы разработки стратегии автоматизированного управления кафедрой // Известия ПГУ им. В.Г. Белинского. 2010, № 22, с.104-109.

2. Muradov Ə.C. Heydər Əliyev və müasir universitet modeli. - http://www.azerbaijan-news.az.

3. Паничкина М. В. Совершенствование бизнес-процессов вуза в системе взаимодействия с региональным бизнес-сообществом // Известия ЮФУ. Технические науки. 2006, № 17, с. 142-147.

4. Грищенко Н.В. Бизнес-модель образовательной организации: постановка задачи - http://ljournal.ru/article/lj-30-06-2017-20.pdf.

5. Elmi istiqamətlər üzrə elmi şuralar haqqında Əsasnamə. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 25 sentyabr 2019-cu il tarixli 13/4 nömrəli qərarı ilə təsdiq edilmişdir.

6. Elm haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 14 iyun 2016-cı il.

7. Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 4 dekabr tarixli 527 nömrəli qərarı ilə təsdiq edilmişdir.

8. Məmmədli Z. İKT sahəsində elmi araşdırmalar davam etdirilir. 23-06-2018. https://reyting.az/layihe/8913-kt-sahesinde-elmi-arashdirmalar-davam-etdirilir.html.

9. Cavadov X.R. Milli İnnovasiya Sistemlərinin yaradılması üzrə beynəlxalq təcrübə və onun Azərbaycanda tətbiqinin genişləndirilməsi imkanları // Azərbaycanın vergi jurnalı. 2015, № 5 (125).-S.177-194, s.180.

10. Şahverdiyeva R.O. İnnovasiya texnoparklarının fəaliyyətinin informasiya təminatı sisteminin arxitektur-texnoloji modelinin işlənilməsi // İnformasiya cəmiyyəti problemləri, 2019, №2, 82–93, s. 83.

Резюме

Ахмедова Л.Ф.

Вопросы укрепления механизмов управления процессами коммерциализации научно-исследовательских работ в Азербайджане

В статье исследованы вопросы усиления механизмов управления процессами коммерциализации научно-исследовательских работ в Азербайджане. С этой целью анализирована роль и важность коммерциализации процесса научно-исследовательской работы, раскрыта сущность. Обоснована важность эффективной организации процессов применения полученных научных результатов, открытий и изобретений. Дана важность формирования и развития бизнес-среды на научно-исследовательских предприятиях и в центрах в соответствии с мировым опытом. Подготовлены рекомендации и даны предложения по вопросам усиления механизма управления процессами коммерциализации научно-исследовательской работы в Азербайджане в настоющее время.

Ключевые слова: *научное-исследовательская работа, коммерциализация научно-исследовательской работы, механизмы управления научно-исследовательской работы, вопросы применения результатов исследования к бизнесу, бизнес-инновации, создание бизнес-среды на научно-исследовательских предприятиях.*

Summary

Ahmadova L.F.

Issues of Strengthening the Mechanisms of Management of the Processes of Commercialization of Research Works in Azerbaijan

The issues of strengthening the mechanisms of management of the processes of commercialization of research works in Azerbaijan are explored in the article. The role and importance of commercialization of the process of research work is analyzed, and the essence of commercialization of research work is given for this purpose. The importance of effective organization of processes of application of obtained scientific results, openings and inventions is investigated then. The importance of the formation and development of the business environment in research enterprises and centers in accordance with the world experience is given too. Recommendations and proposals on strengthening the mechanism for managing the commercialization of research work in Azerbaijan in the current time are prepared in the end of the article.

Key words*: scientific - research, commercialization of research work, mechanisms of management of research work, aspects of use of results of a research to business, a business innovation, creation of a business environment in the research enterprises.*

SƏNAYENİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNƏ TƏSİR EDƏN AMİLLƏR

Əhmədova Təranə Mütəllim qızı

Sumqayıt Dövlət Universiteti

Sərxanlı Səbuhi Allahverdi oğlu

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu

tarana.7474@mail.ru

Xülasə: *Məqalədə sənayenin investisiya cəlbediciliyi investisiya qoyuluşunun məqsədəuyğunluğunu xarakterizə edən göstərici kimi nəzərdən keçirilmiş, sənayenin investisiya cəlbediciliyinə təsir edən amillər araşdırılmış, həmin amillərin investisiya cəlbediciliyinə təsir dərəcəsi müəyyənləşdirilmişdir. Həmçinin, sənayenin investisiya cəlbediciliyinin inkişaf strategiyasının sxemi verilmişdir.*

Açar sözlər: *sənaye, müəssisə, investisiya cəlbediciliyi, daxili amillər, xarici amillər, maliyyə, məhsul*

Müasir dünyada sənaye müəssisələri sərt rəqabət məkanında fəaliyyət göstərir. Sabit inkişaf üçün sənayenin davamlılığını, dəyişən ətraf mühit şəraitinə tez uyğunlaşmanı, bazarı müasir, yüksək keyfiyyətli, alıcıları məmnun edən istehlak məhsulu və ya xidmətlərlə təmin etməlidir. Davamlı inkişaf əsas kapitalda və elmi-texniki inkişafda müsbət nəticə əldə etmək üçün mütəmadi olaraq investisiya tələb edir. İnvestisiya cəlb etmək üçün müəssisə investisiya cəlbediciliyinə nəzarət etməlidir. Sənayenin investisiya cəlbediciliyi investisiya qoyuluşunun məqsədəuyğunluğunu xarakterizə edən hərtərəfli göstəricidir. Sənayenin investisiya cəlbediciliyinə bir sıra amillər təsir

göstərir. Sənayenin investisiya cəlbediciliyinə təsir edən amillərin daxili və xarici bölgüsü ilə əlaqəli təsnifatları ümumiləşdirsək, onların daha ətraflı nəzərdən keçirilməsi mümkündür.

İnvestisiya cəlbediciliyi amillərinin təsnifatını aşağıdakı kimi göstərə bilərik:

1. Daxili amillər müəssisənin fəaliyyətindən asılıdır - bunlar müəssisənin təsir edə biləcəyi amillərdir. Həmçinin, investisiya cəlbediciliyini müəyyən edən daxili amillərə birbaşa müəssisənin iqtisadi fəaliyyətinin nəticəsindən asılı olan amillər kimi də baxmaq olar. Daxili amillərə təşkilatın daxili elementlərini idarə etdiyi sistem daxildir: şirkətin istehsal etdiyi məhsul çeşidi; müəssisənin şəffaflığı və açıqlığı; müəssisənin illik hesabatlarında verilən məlumatların açıqlıq dərəcəsi; korporativ sosial məsuliyyət və s. kimi amillər daxildir.

Daxili amilləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Müəssisənin maliyyə vəziyyəti.
2. Müəssisə idarəetməsinin təşkilati quruluşu.
3. Müəssisə məhsullarının yenilik dərəcəsi.
4. Pul axınının yaranmasının sabitliyi.
5. Müəssisə məhsullarının şaxələndirilməsi səviyyəsi.

2. Xarici amillərə müəssisədən asılı olmayan amillər daxildir. Yəni, xarici amillər müəssisənin iqtisadi fəaliyyətinin nəticələrindən asılı olmayan amillərdir. Bunlara qanunlar və qanunvericilik normaları, ölkənin, regionun və sənayenin iqtisadi xüsusiyyətləri, siyasi və ümumilikdə daxili iqtisadi mühit daxildir [2]. Bu amillər investorla müəssisə arasında qarşılıqlı əlaqə prosedurlarını, şirkətin və onun səhmdarlarının hüquqlarını qorumaq sistemini ehtiva edir. Sənayenin investisiya cəlbediciliyinə təsir göstərən xarici amilləri konkret olaraq aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Ölkədə, regionda siyasi, iqtisadi vəziyyət, qanunverici və məhkəmə səlahiyyətlərinin təkmilləşdirilməsi, infrastrukturun inkişafı, ərazinin investisiya cəlbediciliyi.

2. Sənayenin investisiya cəlbediciliyi, o cümlədən:

• sənayedəki rəqabətin səviyyəsi;
• sənayenin cari inkişafı;
• sənayeyə qoyulan investisiyaların dinamikası və quruluşu;
• sənayenin inkişaf mərhələsi.

Bu komponentlərin təhlili investisiya təhlilinin vacib mərhələsidir. Sənayenin investisiya cəlbediciliyi bir sıra parametrlərlə xarakterizə olunur ki, bunlardan ən əhəmiyyətlisi aşağıdakılardır: istehsal həcminin artım sürəti, istehsal amillərinin qiymətlərinin artım tempi, sənayenin maliyyə vəziyyəti, yeniliklərin mövcudluğu və elmi-tədqiqat dərəcəsi.

Bir sıra amillər sənayenin investisiya cəlbediciliyinin vəziyyətinə təsir göstərir:

• makroiqtisadi mühit;
• ekoloji təhlükəsizlik;
• infrastrukturun vəziyyəti;
• sənayedə istehsal prosesinin səviyyəsi;
• kadr potensialı;
• maliyyə mühiti.

Sənayenin investisiya cəlbediciliyinə təsir edən ən güclü amil onun maliyyə vəziyyətidir. Sənayenin maliyyə sabitliyi onun ödəmə, kredit verən təşkilatlar qarşısında öhdəlikləri yerinə yetirmək qabiliyyətində, təchizatçılara, borc verən təşkilatlara və onunla əməkdaşlıq edən digər şirkətlərə ödəmə qabiliyyətində özünü göstərir. Maliyyə vəziyyəti və sabitliyi müəyyən dərəcədə sənayenin rəqabət qabiliyyətini və işgüzar dairələrdəki potensialını müəyyən edən amillərdir [3].

Sənayenin investisiya cəlbediciliyi rəqabətin dərəcəsindən və ya rəqiblərin olmamasından, bazara girmək üçün maneələrin mövcudluğu və səviyyəsindən, tədarükçülərlə məsafədən və mənbələrin mövcudluğundan asılıdır.

Müəssisənin investisiya cəlbediciliyinin bir sıra inkişaf strategiyaları vardır. İnvestisiya cəlbediciliyi strategiyasının təyini hədəflərin ilkin əsaslandırılmasından irəli gəlir. Sonra, ona nail olmaq üçün şərtləri təmin edəcək strateji diaqnostika və maliyyə mənbələrinin idarə edilməsi müəyyənləşdirilir. Gələcəkdə, investisiya cəlbediciliyinin yüksək səviyyəsinə çatmaq üçün istehsal potensialını mənbələrin optimallaşdırılması, əməliyyat və strateji xarakterli idarəetmə qərarları ilə proqnozlaşdırmaq olar.



Effektiv idarəetmə müəssisənin investisiya cəlbediciliyini artırır. İdarəetmə keyfiyyəti resursların daha yaxşı paylanmasını və onlardan istifadəyə nəzarəti nəzərdə tutur. Bazarın dayanıqlığı, marketinq fəaliyyəti, diversifikasiya və s. kimi amillər sənayenin investisiya cəlbediciliyi ilə əlaqələndirilir. Bu amillərə əmək, əmək ehtiyatları və istehsal texnologiyasını da daxil etmək olar

Ümumiyyətlə, sənaye müəssisəsinin investisiya cəlbediciliyini müəyyən edən əsas amillər uzunmüddətli dövrdə onun sabit inkişafını, maliyyə sabitliyini əks etdirən və xarici mühitdə baş verən prosesləri nəzərə alan amillərdir.

Sənayenin investisiya cəlbediciliyinə təsir edən amillərdən informasiyaya xüsusi diqqət yetirilməlidir. İnformasiya amillərinin məlumatın indiki dövrdə bir əmtəə halına gəlməsində və əmək məhsuldarlığının artmasında müəyyənedici amil olduğunu nəzərə almaq lazımdır. Əmtəə nişanlarının, patentlərin, nou-hau və digər əqli mülkiyyətlərin olması informasiya mənbəyinin əsas seqmentlərindən biri hesab edilməlidir [1].

Müəssisənin investisiya fəaliyyəti barədə məlumat əldə etmək üçün müxtəlif mənbələrdən istifadə edilə bilər. Həmin mənbələr də iki qrupa bölünür: xarici və daxili. Xarici məlumat mənbələri: konsaltinq, auditor agentliklərinin bank məlumatları, müəssisənin tərəfdaşlarından alınan məlumatlar. Daxili məlumat mənbələri alınma tezliyi ilə xarakterizə olunur və bir qayda olaraq rüblük və ya illik hesabatların hazırlanması ilə əlaqələndirilir: daxili maliyyə hesabatları, daxili idarəetmə hesabatları planlaşdırma sənədləri, vergi hesabatları, qanuni sənədlər.

İnstitusional amillər əsasən investisiyaların iqtisadi gəlirliliyini artırmaq üçün bazar mexanizmlərinin tətbiqinin səmərəliliyini (əslində müəssisənin iqtisadi müstəqilliyinin səviyyəsini), habelə bazar əsaslı alətlərdən istifadə edərək (müasir korporasiyalar yaratmaq) birgə podratçıların zəruri əməkdaşlığını tez bir zamanda yaratmaq imkanlarını müəyyənləşdirir.

İnfrastruktur amilləri getdikcə daha vacib rol oynamağa başlayır. Bu, ilk növbədə nəqliyyat xidmətləri, enerji, xammal dəyərinin durmadan artan payı ilə əlaqədardır. İnfrastrukturun vəziyyəti və inkişafı əslində müəssisənin gələcəkdə sabit inkişaf etmək qabiliyyətini və istehsal xərclərini

azaltma potensialını xarakterizə edir. Sənayenin investisiya cəlbediciliyinin qiymətləndirilməsində bazar infrastruktur amilləri də mühüm rol oynayır. Əvvəla, söhbət müxtəlif fond bazarlarında müəssisənin səhmlərinin vəziyyəti, onların kotirovkaları və satış həcmlərindən gedir. Bundan əlavə, bazar infrastrukturunun vəziyyəti, müasir şəraitdə tez-tez müəssisənin iqtisadi uğurunda həlledici rol oynayan marketinq vasitələrindən istifadənin inkişafı və səmərəliliyini xarakterizə edir.

Nəzərə almaq lazımdır ki, hazırda infrastrukturun ən vacib komponentlərindən biri müəssisənin müasir informasiya texnologiyalarından (xarici şirkətlər tərəfindən nəzərə alınmaqla) istifadə etmək imkanlarını əks etdirən informasiya infrastrukturunun inkişafıdır. Bu baxımdan, müəssisənin məlumatlandırma dərəcəsini, həmçinin qlobal kompüter şəbəkəsi internetdəki yerini və fəaliyyətini qiymətləndirmək vacibdir.

Sənayenin ixrac potensialı çox böyük rol oynayır. Bu, müəssisənin istehsal etdiyi dünya bazarlarına ixrac olunan məhsulların potensial tutumununun istehsal olunan məhsulların həcmi ilə müqayisə etməyə imkan verir. Belə bir müqayisə potensial investorun müəssisənin investisiya cəlbediciliyini hesablamasını, məhsullarının dünya bazarlarına çıxarılmasını proqnozlaşdırmasını mümkün edir.

Bütün yuxarıda qeyd edilən amillərin düzgün qiymətləndirilməsi sənayenin investisiya cəlbediciliyinin yüksəldilməsində həlledici rol oynaya bilər.

Ədəbiyyat

1. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı, İqtisad Universitetinin Nəşriyyatı, 2012, 212 s.

2. Валинурова Л.С. Организация инвестиционной деятельности в отраслях промышленности. М.: Палеотип, 2008, с. 80.

3. Юзвович Л.И., Дегтярева С.А. и др. Инвестиции. Екатеринбург, 2016, 316 с.

Резюме

Ахмедова Т.М., Сарханлы С.А.

Факторы, влияющие на привлечение инвестиций в отрасль

В статье рассматривается привлечение инвестиционных вложений в промышленность, что характеризует целесообразность этого показателя. Также исследуются факторы, влияющие на вложение инвестиций в промышленность. Этот фактор был определен в привлечении степени инвестиционных вложений. Также дана схема развития стратегии в привлечении инвестиции в промышленность.

Ключевые слова: *промышленность, предприятие, привлечение инвестиции, внутренние факторы, внешние факторы, финансы, продукт*

Summary

Ahmadova T.M., Sarxanli S.A.

Factors Affecting the Attraction of Investment in the Industry

The article discusses the attraction of investment in industry, which characterizes the feasibility of this indicator. The factors affecting the investment in industry are also investigated. This factor was determined in attracting the degree of investment. Also given is the development strategy for attracting investment in industry.

Key words: *industry, enterprise, investment attraction, internal factors, external factors, finance, product*

TƏHSİL VƏ BİZNESDƏ İNFORMASİYA TEXNOLOGİYALARI

Əliyeva Roza Əligulovna
Azərbaycan Texniki Universiteti
farida94@mail.ru

Xülasə: *Geniş yayılmış təlim platformaları tələbələrin onlayn təhsilə qoşulmaları və müəllimlərin ənənəvi universitet təhsili üçün təhlükə yaratdığından axın problemi yaratdı. Şərti seçim və təlim prosesinin səmərəli təşkili ilə bağlı bütün müzakirələrin bir neçə ildən sonra lazımsız hala düşəcəyindən qorxuruq. Pessimizmin səbəbi İnternet vasitəsilə tələbə evinə onlayn video məzmunu aktiv şəkildə çatdırmaq üçün yeni bir qabiliyyətdən xəbərdar olmasıdır. Divanda oturarkən, istənilən vaxt mühazirəni dayandırmadan və materialı təkrarlayarkən istənilən kursu dinləyə bilərsiniz. Bir neçə müəllimin materialını müqayisə edə bilərsiniz. Özünüz üçün öyrəndiyiniz zaman hər şey pulsuzdur. Bu, çox vacibdir, çünki bir çox tələbə yalnız pulsuz kurs ala bilər. Onlayn kurslara abunəçilərin sayı çoxdur və gedtikcə çoxalır, çünki bu, günlük kampus təhsillərindən üç - altı dəfə ucuzdur. Bu kurslar artıq bir çox universitet tərəfindən təklif olunur.*

Açar sözlər: *onlayn təhsil, internet, rəqəmsal platformalar, universitetlər, müəllimlər.*

Geniş yayılmış təlim platformaları axın problemi yaratdı, çünki şagirdlər onlayn təhsilə girərək müəllimlərin işləməsinə, ənənəvi universitet təhsilində təhlükə yaratdı. Onlayn təhsilə keçmə universitet reytinqlərinə uyğunsuzluq gətirir. Qorxuruq ki, kontingent seçimi və təlim prosesinin səmərəli təşkili ilə bağlı bütün müzakirələr bir neçə ildən sonra lazımsız hala gələcək. Pessimizmin səbəbi İnternet vasitəsi ilə təhsil video məzmununun birbaşa tələbə evinə çatdırılmasının aktiv şəkildə tətbiq olunan yeni imkanından xəbərdar olmasıdır. Divanda uzanarkən, mühazirəni istədiyi vaxt dayandırıb materialı təkrarlayarkən istənilən kursu dinləyə bilərsiniz. Bir neçə müəllimin materialını müqayisə edə bilərsiniz. Özünüz üçün öyrənəndə hər şey pulsuzdur. Bu çox vacibdir, çünki bu qədər çox sayda tələbə yalnız pulsuz kurslar sayəsində əldə edilə bilər. Onlayn kurslara abunəçilərin sayı böyükdür və daim artır, çünki kampusda tam təhsil almaqdan 3-6 dəfə ucuzdur. Bu kurslar artıq bir çox universitet tərəfindən təklif olunur.

Rəqəmsal platformalar, diplom alması ehtimal edilən əsas universiteti seçmək təklifi ilə provayder kimi xidmət edir. Lakin universitetlər üçün vasitəçi olanların öz diplomlarını vermək istədikləri və bir pay almamaq istədikləri zaman deyil, bütövlükdə pul ödəmələri üçün vaxt çox yaxındır.

Materialların paylanmasından başlayaraq kursların paylanmasına keçəcəklər, həm də pulsuz. Layihə kifayət qədər tələbəyə çatdıqdan sonar provayder öz diplomunu təklif edəcək. Pulsuz kursdan sonra diplom almaq istəyən hər kəs qeydiyyatdan keçməli və ödəməyə başlamalıdır: qeydiyyat, ilkin ödəniş, imtahan haqqı və s.

Şagirdlərin rəqəmsal platformalardan istifadəsinin faydaları kampusa qarşı müxtəlif materiallar və əlçatanlıq mövcuddur. İnternetin olduğu dünyanın hər yerində hər hansı bir video mühazirə; kampusda olduğu kimi eyni diplom almaq imkanı; bir neçə universitetin fənlərini öyrənmək; bir mövzuya və ya bütün proqrama qəbz ilə daxil olunan artıq arzu deyil.

Onlayn öyrənmə canlı ünsiyyət çatışmazlığına malikdir, ancaq skype-da professor ilə şəxsi əlaqə qurmaq və müəllimlə fərdi təmasın təhsil effektini bərpa edən kiçik bir qrup təşkil etmək, distant təhsil kontaktı qeydli mühazirələr və digər materialları əlavə etmək mümkündür.

Dönüş nöqtəsi universitetlərin xarici kursların öz universitetləri olaraq tanınması oldu Coursera platformasında. Maaşa qənaət var, müəllimlər və onların rəhbər şəxslərdə universitetlərin eksklüziv mülkiyyəti olan materialların depolarına satıcılar tərəfindən dəyişdirilməsi, sinif otaqlarına qənaət edilməsi və yenidən profilləşdirilməsi imkanları idarəetmə və nəzarətçi

otaqlarında. Tədris planları, müəllimlərin kurikulumda iştirak etmək üçün keçirdikləri müsabiqələr, ehtiyac yoxdur.

Kursların onlayn müsabiqəsi müəllimləri seçir və ödənişlərin pul axını müqayisə olunmaz dərəcədə böyükdür. Müəllimin etdiyi hər şeyə universitetin müstəsna hüququ mübahisə ediləcək və müəllimlər üçün istehsalçı peşəsi ortaya çıxacaq. Elmi çoxsaylı istehlakçı tədarükçüləri olan unikal elmi avadanlıqlar üçün laboratoriyalar və icarə mərkəzləri - akademik azadlıq problemləri, rektorların seçilməsi, qəbul və vəzifədən azad edilməsi, gəlirlərin və bürokratiyanın bölüşdürülməsi problemləri ilə universitetlərə qalan hissəsidir.

Ədəbiyyat

1. Kuznetsov A. Y., Vershinina E.V. Onlayn öyrənmə - meyillər və perspektivlər // Təhsil yeniliyi. 2018, № 4, s.109 .

2. Xalina V. G., Aparıcı universitetlərin qlobal rəqabət qabiliyyəti: qiymətləndirmə modelləri və metodları və proqnozlaşdırma: monoqrafiya. Prospect, 2018, s.415.

3. Sidorov G., Rəqəmsal Universitet: müasir təhsil müəssisələrində rəqəmsal texnologiyaların tətbiqi. URL: https://www.itweek.ru/idea/article/detail. php? ID = 192831

Резюме

Алиева Р. А.

Информационные технологии в образование и бизнесе

Широко распространенные образовательные платформы создали проблему потока, потому что студенты вошли в онлайн-образование и представляют угрозу для традиционного университетского образования. Мы опасаемся, что все дискуссии о возможном выборе и эффективной организации учебного процесса станут ненужными через несколько лет. Причиной такого пессимизма является то, что он осознает новую способность активно доставлять онлайн-видеоконтент в дом студента через Интернет. Вы можете слушать любой курс, сидя на диване, в любой момент останавливая лекцию и повторяя материал. Вы можете сравнить материал нескольких учителей. Все бесплатно, когда ты учишься для себя. Это важно, потому что очень многие студенты могут получить только бесплатные курсы. Число подписчиков на онлайн-курсы велико и постоянно растет, так как оно в три-шесть раз дешевле, чем обучение в дневном режиме. Эти курсы уже предлагаются многими университетами.

***Ключевые слова**: онлайн-образование, интернет, цифровые платформы, университеты, преподаватели.*

Summary

Aliyeva R.A.

Information Technology in Education and Business

Widespread learning platforms have created a flow problem because students have entered online education and posed a threat to teachers' traditional university education. We fear that all discussions about contingent choices and the effective organization of the training process will become unnecessary after a few years. The reason for the pessimism is that it is aware of the new ability to actively deliver online video content to the student's home through the Internet. You can listen to any course while sitting on the couch, stopping the lecture at any time, and repeating the material. You can compare the material of several teachers. Everything is free when you learn for yourself. This is important because so many students can only get free courses. The number of subscribers to online courses is large and constantly growing, as it is three to six times cheaper than full-time campus education. These courses are already offered by many universities.

***Key words:** online education, internet, digital platforms, universities, teachers.*

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ KADR POTENSİALININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Əliyeva Xəyalla Həsən qızı
Azərbaycan Texniki Universiteti
xayalla_aliyeva@mail.ru

Xülasə: *Məqalədə ölkə iqtisadiyyatının butun sahələri ücün əmək bazarının tələblərinə uyğun və peşələr uzrə ixtisaslı kadr hazırlığının təmin edilməsinin vacib olduğu vurğulanır. Bunun üçün də, ilk növbədə, onun mexanizminin yaradılması bildirilir.*

Açar sözlər*: sənaye müəssisələri, kadr potensialı, kadr hazırlığı, texniki-peşə təhsili, rəqabət və s.*

Giriş

Ölkə iqtisadiyyatının butun sahələri ücün əmək bazarının tələblərinə uyğun və peşələr uzrə ixtisaslı kadr hazırlığının təmin edilməsi, ilk növbədə, onun mexanizmin qurulması ilə başlamalıdır. Həmin mexanizmin işləmə prinsipini isə bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən müvafiq institusional mexanizmlərin formalaşdırılmasını və fəaliyyətini nəzərdə tutan kompleks məsələ kimi yanaşılmalıdır. Məhz bunun əsasında ali təhsil sektoru ilə iqtisadi inkişaf arasında daimi olaraq sistemli bağlılıq yarana bilər.

Sənaye müəssisələrində kadr potensialına baxış

Kadr potensialı anlayışının iqtisadiyyat elminə daxil olmasının tarixi elə də qədim deyildir. Kadr potensialının inkişafı məsələsinə istehsal, innovasiya və investisiya kimi müəssisə səviyyəsində reallaşdırılan strateji hədəflərdən biri kimi yanaşılması məqsədəuyğundur. Yəni kadrların hazırlıq səviyyəsi nə qədər yüksəkdirsə, kadr potensialının inkişafı üçün maliyyə, vaxt və texniki cəhdlərin, çəkilən xərclərin, dəyərin və vaxtın sayı da bir o qədər az olar. İqtisadi inkişafda keyfiyyətli dəyişikliklərinin mənbəyi olan kadr potensialı anlayışının müxtəlif komponentlərini nəzərə alaraq, deyə bilərik ki, bu proseslərin mərkəzində işçi qüvvəsi və ya məhsuldar qüvvələr dayanır. Məhsuldar qüvvələr isə öz növbəsində iqtisadi fəaliyyətin məhsuldarlığına, səmərəliliyinə və keyfiyyətin yüksəlməsinə əsaslanmalıdır. Bütün bu qeyd edilənlər onu göstərir ki, kadr potensialının mənbəyində ehtiyac, əmək, nəticə və xərclər dayanır. Tarixi olaraq, belə bir təsəvvür yaranmışdır ki, kadr dedikdə yalnız ictimai həyatın müxtəlif sahələrində çalışan rəhbər işçilərə şamil edilir. Lakin zamanla bu yalnış fikir aradan qalxdı. Qeyd edilənlərlə yanaşı, hesab edirik ki, kadr potensialının inkişafı ilə bağlı keçdiyi dövrə nəzər salmaq faydalı olar.

Cədvəl

Kadr potensialının təkamül dövrü

Cəmiyyətin inkişaf mərhələləri	Termin	Dövrün xarakteristekası
Sənaye dövrünə qədər (quldarlıq, feodalizm)	İş qüvvəsi	İnsanın fiziki gücündən istifadə olunurdu. İş qüvvəsini idarə etmək üçün hər hansı bir "rasional" yanaşma tələb edilmirdi.
Sənaye dövrü	Əmək resursları, Əmək potensialı, İnsan kapitalı	Kapitaltutumlu texnologiya dövrü hesab olunur. Bu dövrdə təlim və ixtisaslaşma istifadə olunub.
Postindustrial	Kadr potensialı	Bu dövr elmi-texniki tərəqqi dövrüdür. Bu dövr də yüksək texnologiya, informasiya və innovasiya iqtisadiyyatı kimi xarakterizə olunur. Həmçinin bu dövr qloballaşma kontekstində intellektual potensialın inkişafı, həyat boyu təlimin inkişaf etməsi kimi göstərilir.

Mənbə: [1. Səh.,8].

Bildirək ki, müəssisə heyətini formalaşdırdıqdan sonra, işçiləri ilə birlikdə inkişaf etməlidir. Təkzibolunmaz faktdır ki, insan fəaliyyətinin hər hansı bir sahəsindəki mövcud bilikləri zamanla köhnəlir və hər 0,5-5 ildən bir yenilənməlidir. Bu gün insan resurslarının inkişafı ənənəvi təlim proqramlarını əhatə edir, təşkilati və fərdi hazırlığa əsaslanan intellektual kapitalın inkişafına xüsusi diqqət yetirilməsi zəruridir. Bu baxımdan təkcə dövlətlərin deyil, eyni zamanda sənaye müəssisələrinin də iqtisadi baxımdan inkişaf etmiş sənaye müəssisələri səviyyəsinə çıxması üçün rəqabətqabiliyyətli kadrların, mütəxəssislərin olması olduqaca vacib məsələlərdən biridir. Belə ki, 2019-cı ildə "CB Insights" beynəlxalq araşdırma mərkəzi 100-dən çox müəssisədə sorğu həyata keçirmiş və bazarlarda uğur qazanmaq və ya iflasa uğramamaq üçün səbəblərini araşdırmışdır. Sorğuda iştirak edən müəssisə mütəxəssisləri 20 əsas səbəbi qeyd etmişdir. Başqa sözlə, o sənaye müəssisələri iflasa uğrayır ki, aşağıda göstərilən səbəblər mövcud olur [1.]:

1. Məhsula bazarda tələbatın olmaması;
2. Maliyyə vəsaitinin çatışmazlığı;
3. Kadrların düzgün seçilməməsi;
4. Rəqabətdə uduzmaq;
5. Məhsulun rəqabətədavamlı olmaması;
6. Qiymət siyasətinin yanlış olması;
7. Biznesin və gəlirin zəif olması;
8. Marketinq araşdırmasının olmaması və ya zəif olması;
9. Müştərilərə qarşı diqqətsizlik;
10. Məhsulun vaxtında hazır olmaması;
11. İdarəetmənin və mərkəzləşdirmənin itirilməsi;
12. İşçi heyəti ilə investor arasında münasibətlərin düzgün qurulmaması;
13. Yaradıcılığın və həvəsin çatışmazlığı;
14. Strateji hədəflərin düzgün müəyyən edilməməsi;
15. Düzgün təməlin olmaması;
16. Maliyyə və investorun olmaması;
17. Qanunvericilikdə dəyişikliklərin tez-tez olması;
18. Əlaqələrdən istifadə edilməməsi;
19. Layihənin alınmaması;
20. Təkrar buraxılışa gücün qalmaması.

Göründüyü kimi, mütəxəssislər kadr amilini müəssisənin uğur qazanmasında və ya əksinə, iflasa uğramasında üçüncü amil kimi qeyd etmişlər. Başqa sözlə, əsas başlıca amillərə daxil olan bir məsələdir. Lakin bununla belə, fikrimcə, ölkədə sənaye müəssisələrində kadr potensialının təkmilləşdirilməsi istiqamətlərinə sistemli yanaşılmalıdır. Aydındır ki, kadr problemini həll etməzdən əvvəl sənayenin inkişafı və onunla bağlı tendensiyaları müəyyən etmək lazımdır. Qeyd edilən fikirlə bağlı onu bildirmək lazımdır ki, "Azərbaycan 2020: gələcəyə baxış" inkisaf konsepsiyası, "2015-2020-ci illər üzrə Sənayenin inkişafı üzrə dövlət proqramı" və 06 dekabr 2016-cı ildə ölkə prezidenti tərəfindən təsdiq edilmiş "Strateji Yol Xəritəsi"ndə qeyri-neft sənaye sahələrinin inkisafı xüsusi vurğulanır. Göstərilən sənədlərdə neft-qaz sənayesinin, eləcədə neft-kimya sənayesinin müasirləşdirilməsi, qeyri-neft sənayesinin diversifikasiyası, ticarət, xidmət, maşınqayırma, turizm, telekommunikasiya texnologiyaları, elektrik və istilik enerjisinin inkişaf etdirilməsi xüsusi vurğulanır.

Sənaye müəssisələrində kadr potensialının inkişafı

Qlobal aləmdə innovativ yanaşmaların tətbiqinin genişləndiyi bir şəraitdə fikrimcə, ölkənin sənaye müəssisələrində kadr probleminin həllinə baxış yenilənməlidir. Bu gün ölkə sənayesinin inkişafı təkçə kadr probleminin həlli ilə kifayətlənmir. Kadr probleminin həlli təkcə təhsillə deyil, eyni zamanda ölkə sənayesinin də yenilənməsini tələb edir. Ölkə sənayesinin innovativ inkişaf yoluna keçid perspektivi iki problemin həlli ilə sıx bağlıdır:

- Birincisi, ölkədə sənaye istehsalının yenilənməsi, onun maddi-texniki bazasının müasir standartlar əsasında yenidən qurulması;
- İkincisi, kadr problemlərinin həlli ilə bağlıdır.

Hesab edirik ki, birinci məsələninin həlli ilə bağlı yeni sənaye siyasəti hazırlanmalı və burada konkret hədəflər qoyulmalıdır. Bu, məqsədə uyğun olaraq, ölkə sənayenin strukturunun yenidən qurulmasıdır. Bunun üçün də ölkə sənayesinin hazırkı işini və inkişaf səviyyəsini əsas götürərək, yeni sənaye sahələrinin yaradılmasının təmin edilməsi və bütövlükdə sənayenin inkişafına nail olmağı əsas götürmək olar. Hesab edirik ki, ölkə sənayesinin yenidən qurulması istiqamətində dünya iqtisadi konyukturasının inkişafının müasir xüsusiyyətlərinin nəzərə alınması baxımından da önəmlidir. Belə ki, hədəflərdən biri kimi dünya bazarında Azərbaycanın sənaye məhsulu kimi satılan sənaye məhsullarının həcmini hər il artırmaq və orta hesabla hər il 2% kimya sənayesi, elektronika sənaye məhsullarını-3% artırmaq, radiotexnika və maşınqayırma, eləcədə metallurgiya sənayesi üzrə məhsul isthsalını artırmaq və dünya bazarına Azərbaycan sənayesinə aid olan məhsul istehsalının həcmini xüsusilə də hazır məhsul həcmini artırmaq kimi zəruri hədəflər qoyulmalıdır. Bunun üçün də ölkə sənayesinin aparıcı istiqamətləri müəyyənləşdirilməli və həmin sahələr üzrə hazır məhsul istehsalına xüsusi diqqət ayrılmalı və bu istiqamətdə hər il hazır məhsul istehalını artırmaq və dünya bazarında reallaşdırmaq kimi ölkə sənayesi qarşısında ciddi hədəflər qoyulmalıdır.

Sənaye müəssisələrində kadr potensialının inkişaf istiqamətləri baxımından ikinci istiqamət kimi fikrimcə, təhsil sistemini göstərmək olar. Çünki təhsil sistemi kadr hazırlığının bazası hesab edilir.

Təhsil sistemi cəmiyyətin inkişafının aparıcı istiqaməti olmaqla yanaşı, cəmiyyətin sosial-mədəni və iqtisadi inkişafında və eləcə də fərdlərin inkişafını təmin edir, bununla da insanların ətraf muhitə təsiretmə imkanlarını artırır, yeni biliklərə yiyələnməyə istiqamətlənir, peşəkar fəaliyyətdə davamlı inkişafa nail olmağa praktik olaraq koməklik edir. Qeyd edilənlərə əsaslanaraq, fikrimizcə, təhsil sistemində sənaye müəssisələrində kadr potensialının inkişafını üç istiqamət üzrə qurulmasını məqsədəmüvafiq hesab etmək olar:

1. Alı təhsil sistemində kadr hazırlığının strukturunun ölkənin sosial-iqtisadi inkişaf tələblərinə uyğunlaşdırılması;
2. Texniki-peşə təhsili üzrə kadr hazırlığı strukturunun təkmiləşdirilməsi və bu istiqamətdə sahəvi assosiasiyaların yaradılması;
3. Kadr hazırlığı strukturunun əmək bazarının tələblərinə uyğunlaşdırılması mexanizmlərinin və institusional siteminin qurulması.

Ədəbiyyat

1. Юрьевна Д.А. Эволюция теоретических подходов к определению категории кадровый потенциал. Крымский научный вестник, №1 (7), 2016, с. 2-14
2. www.crunchbase.com
3. Quliyev T. İnsan resurslarının idarəedilməsi. Bakı, 2013, 828 s.
4. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqla problemlər. Bakı, 2004, 656 s.

Резюме
Алиева Х.Г.
Пути развития кадрового потенциала на промышленных предприятиях
В статье подчеркивается важность обеспечения подготовки квалифицированных кадров по профессиям, отвечающим требованиям рынка труда для всех отраслей экономики. Для этого, прежде всего, заявлено о создании его механизма.
***Ключевые слова**: промышленные предприятия, человеческие ресурсы, подготовка кадров, профессиональная подготовка, конкуренция и др.*

Summary
Aliyeva X.H.
Improvement Directions of Personnel Potential in Industrial Enterprises
The article emphasizes the importance of providing qualified personnel training for professions that meet the requirements of the labor market for all sectors of the economy. For this purpose, first and foremost, the creation of its mechanism is stated.
***Keywords:** industrial enterprises, human resources, staff training, vocational training, competition and so on.*

ŞƏKİ-ZAQATALA REGİONUNDA PEŞƏ-İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAFI

Əliyeva Şöhrət İzzət qızı
Sumqayıt Dövlət Universiteti
Sh_aliyev@mail.ru

***Xülasə:** Hər hansı bir texnologiyaya sahib olmaq, bu texnologiyanı tətbiq edə bilmək bacarıqlarını da tələb edir. Belə ki, istehsal edilən yeni texnikalar daha çox funksiyaları özündə birləşdirir və hər gün bu funksiyalara yeniləri əlavə edilir. Bu bacarıqlara yiyələnmək, öz növbəsində, kadr potensialı ilə sıx əlaqədardır. Bu baxımdan ciddi dəyişiklik üçün müəssisədaxili kadr islahatına fikir verməli, kadr potensialı yenidən qurulmalıdır. Şəki-Zaqatala regionunda son istehlak məhsulları istehsal etmək, əmək məhsuldarlığını artırmaq, yüksək texnologiyaları istehsala tətbiq etmək əsaslı kadr hazırlığı zərurətini ortaya qoyur.*

***Açar sözlər:** kadr potensiali, region, müəssisə, peşə hazırlığı, təhsil, mütəxəssis, insan kapitalı.*

Regionda əhali gəlirlərinin artırılması əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsinə əlverişli şəraitin formalaşdırılmasından əsaslı surətdə asılıdır. Kənd əhalisinin məşğulluğu və gəlirliliyi kənd təsərrüfatı istehsalının tənzimlənməsi ilə kifayətlənmir, həm də kənd yerlərində qeyri-kənd təsərrüfatı üzrə sahələr inkişaf etdirilir. Ali təhsilli, yüksək ixtisaslı kadrların hazırlanması ilə bərabər kadr potensialının qurulması üçün orta ixtisaslı mütəxəssislərin də yetişdirilməsi vacibdir. Çünki, bu gün kənd təsərrüfatında müxtəlif avadanlıqlar, maşınlar istifadə olunur ki, bunu istifadə edə biləcək orta ixtisaslı kadrlardan da yüksək peşə hazırlığı tələb olunur. [3, s. 42]

Regionda baramaçılıq, tütünçülük, taxılçılıq sahəsində kadr çatışmazlığı vardır. Baramaya baxmaqda məlumat azlığı, ipək istehsalı bacarıqlarını öyrətmək üçün regionda peşə-ixtisas təhsili müəssisələrinin inkişaf etdirilməsi zəruridir. Müəssisələrin fəaliyyət növündən asılı olmayaraq ixtisaslaşmış və təcrübəli əmək resurslarının çatışmazlığını nəzərə alaraq ali təhsilli yüksək ixtisaslı

kadrların hazırlanması ilə bərabər kadr potensialının formalaşması üçün orta ixtisaslı mütəxəssislərin yetişdirilməsi məqsədəuyğundur.

Respublika üzrə 99 ilk peşə-ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir ki, ondan 9-u Şəki-Zaqatala iqtisadi rayonunda yerləşir. Onlardan Şəki rayonunda 2 (1 nömrəli və 2 nömrəli Şəki Peşə Məktəbi), Oğuz rayonunda 1 (Oğuz Peşə Məktəbi), Qax rayonunda 1 (Qax Peşə Liseyi), Balakən rayonunda 2 (1 nömrəli və 2 nömrəli Balakən Peşə Məktəbi), Zaqatala rayonunda 1 (Zaqatala Peşə Məktəbi) Qəbələ rayonunda 2 (Qəbələ Peşə Məktəbi və Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi) fəaliyyət göstərir.

Həmin məktəblərdə aşağıdakı sahələrə daha çox diqqət yetirilir:

• tikiş avadanlıqlarının operatoru
• aşbaz
• toxucu
• barmen, ofisiant (xidmətçi), mehmanxana inzibatçısı
• turizm agentliyində kompüter mütəxəssisi
• əməliyyatçı, mühasib
• qənnadçı, şirniyyatçı

Regionda sənaye sahəsi üzrə isə əsasən aşağıdakı istiqamətlərdə ilk peşə-ixtisas təhsili həyata keçirilir:

- toxuculuq sənayesi
- geyim istehsalı
- qənnadı məmulatları istehsalı.

Region müəssisələrinin əsas ixtisaslaşma istiqamətinin kənd təsərrüfatı olduğunu nəzərə alaraq bu istiqamətdə ilk peşə hazırlığı ixtisaslarının tədrisinə böyük ehtiyac vardır. Əgər bu günün tələbi yüksək texnoloji avadanlıqların tətbiqidirsə, bu sahədə də ixtisaslı kadr yetişdirilməsi priotet məsələ olmalıdır. Bu kadrlar ali məktəblə yanaşı, peşə məktəblərində də, orta ixisas məktəblərində də hazırlanmalıdır. Respublikadı ali təhsilli kadrların hazırlanmasında kifayət qədər baza mövcuddur. Universiteti bitirmiş ali təhsilli aqronomun təsərrüfata gəldikdə aldığı təhsili təcrübədə tətbiq etməsi üçün ona peşəkar kadrlar-peşə sahibləri lazım olacaqdır. Bu təkcə bitkiçiliyin problemi deyil, eləcə də heyvandarlıqda, digər sahələrdə bu problemlər vardır. Aqronom, əgər fermer təsərrüfatında çalışacaq yaxşı bağban, peşə sahibi olmayacaqsa, onun gördüyü işin nəticəsi də olmayacaqdır.

Kadr məsələsi kompleks şəkildə öz həllini tapmalıdır. Stimullaşdırıcı tədbir olaraq, peşə məktəblərinə yönələn tələbələrə müəyyən güzəştlər tətbiq edilə bilər. Bundan başqa, orta məktəbin axrıncı siniflərindən etibarən uşaqlarda aqrar sahəyə maraq yaradılmalıdır. Xüsusilə, kənd məktəblərində yuxarı sinif şagirdlərində ixtisaslaşma aparmaq olar. Müəyyən baza formalaşdırlmalıdır ki, uşaqlar bu sahəyə yönəlsinlər, bu sahənin vacibliyini dərk etsinlər.

Ümumiyyətlə, istər taxılçılıq, istər ipəkçilik, istər üzümçülük, istər heyvandarlıq və istərsə də kənd təsərrüfatının digər sahələrində inkişaf və perspektivləri nəzərə alsaq, kombaynçıların, mexanizatorların, kümçülərin və digər peşə sahiblərinin hazırlanmasına əhəmiyyətli dərəcədə ehtiyac vardır. Bu mənada düşünürəm ki, kadr potensialını təmin etməklə regionda kənd təsərrüfatı sahəsində ciddi dəyişikliyə nail olmaq mümkündür. [2]

Avtomobillərin təmiri, dülgər, tornaçı, rəngsaz, bənna və başqa peşə ixtisasları üzrə kadrların hazırlanması vacibdir. Son zamanlar demək olar ki, bu sahələrdə təsadüfi insanların çalışması görülən işlərin keyfiyyətlə aparılmasında bir sıra neqativ halların yaranmasına səbəb olur. Bu baxımdan diqqətin artırılması, peşə ixtisasına yiyələnmə məqsədilə təşviqat işlərinin aparılması zəruridir.

Bundan başqa yüksək tələbatı olan peşə ixtisasları da vardır. Pərakəndə ticarət, səhiyyə və texnologiyalar sahələrinin sürətli inkişafı yeni ixtisaslar və bu ixtisaslar üzrə mütəxəssislərə tələbat

yaradır. Belə mütəxəssislərə məsələn, risklərin idarə olunması üzrə mütəxəssisi göstərmək olar. Müasir cəmiyyətimizdə informasiya təhlükəsizliyi hər bir şirkətin büdcəsində birinci yerdə durur. Şirkətin həssas hissələrini qorumaq və qiymətli informasiyanın oğurlanmasının qarşısını almaq təhlükəsizlik üzrə mütəxəssisin məsuliyyətidir. O, mövcud riskləri qiymətləndirir, ehtiyat tədbirləri görür. Bu vəzifəni aidiyyatı sahə üzrə ixtisasartırma keçmiş İKT mütəxəssisləri icra edə bilər [1, s. 39].

Peşə təhsil müəssisələrini bitirənlər üçün iş tapmaq mümkün olmadığından zaman-zaman bu təhsilə tələbat da azalmışdır. Sovet dövründə olduğu kimi ilk-peşə ixtisas təhsilinə maraq yaratmaq üçün bir sıra tədbirlər həyata keçirilməlidir. Əmək bazarında ilk peşə-ixtisas təhsilli kadrlara tələbat artırılmalı və peşə təhsili müəssisələr ilə işəgötürən təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələrinin yaradılması vasitəsilə iş təklifi imkanları genişləndirlməlidir. İqtisadi rayon üzrə Qax və Şəki rayonlarının daha çox sahələrdə bir-birinə yaxınlığı peşə hazırlığı sahəsində də görüləcək işlərin keyfiyyət və operativliyinin təmin olunmasında önəmli rol oynaya bilər. Bundan başqa, aşağıdakı təkliflər bu sahənin cəlbediciliyini artıra bilər:

• Peşə lisey və məktəblərində maddi-texniki bazanın müasir standartlar çərçivəsində qurulması;

• Zərurət olduğu təqdirdə peşə ixtisaslarına uyğun mütəxəssislərin peşə tədrisinə cəlb edilməsi;

• Tədrisin sonunda verilən sənədlərin müvafiq sahələr üzrə istifadə edilməsində hüquqi bazanın təkmilləşdirilməsi;

• Rayonun inkişafında önəmli yer tutan və fəaliyyət göstərən müəssisələrin sahəvi olaraq peşə ixtisaslı mütəxəssislərin hazırlanmasına cəlb olunması;

• Bu sahənin inkişafı üçün ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatların vəsaitlərinin layihələr şəklində cəlb edilməsi;

• Tabeliyindəki yardımçı təsərrüfatların fəaliyyətinin bərpası, həmçinin həmin təsərrüfatlarda məzunların müvafiq olaraq işlə təmin olunması;

• Bələdiyyələrin nəzdində kiçik istehsal sexlərini yaratmaqla məzun olmuş mütəxəssislərin işlə təmin olunması;

• Müvafiq dövlət qurumları ilə işgüzar münasibətlərin qurulması və monitorinqlərin aparılması.

Ədəbiyyat

1. Bakırtaş T. Ekonomik Kalkınma. Nobel Akademik Yayıncılıq, 2014, 472s.

2. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı

3. Ömürbek N., Yılmaz H. İleri İmalat Teknolojileri Kullanımı Üzerine bir araştırma, Selcuk Universitesi Sosyal Bilimler Enstitusu Dergisi, 21, 2019

Резюме

Алиева Ш.И.

Современное положение и развитие учреждений профессионального образования в Шеки-Закаталском районе

Наличие любой технологии, требует умения применять эту технологию. Таким образом, новые методы, которые производятся, включают больше функций к ним прибавляются новые функции. Приобретение этих навыков неразрывно связано с кадровым потенциалом. Для этого предприятию необходимо сосредоточиться на внутренней реформе человеческие ресурсов, а человеческих ресурсы необходимо восстановить.

Производство последних потребительских продуктов в Шеки-Закатальском регионе, повышение трудовых ресурсов, внедрение высоких технологий ставит задачу подготовки квалифицированных кадров.

Ключевые слова: *кадровый потенциал, регион, предприятие, кадровая подготовка, образования, специалист, человеческий капитал.*

Summary

Aliyeva Sh. I.

Existing Situation and Development of Vocational Education Institutions in Sheki-Zagatala region

Having any technology also requires the ability to apply that technology. Thus, the new techniques that are being produced include more features and new features are added every day. Acquiring these skills is inextricably linked to staffing potential. For this to happen, the enterprise needs to focus on internal human resources reform, and the human resources need to be rebuilt. Production of the latest consumer product in the Shaki-Zagatala region, increasing labor resources, introducing high technologies, sets the task of training qualified personnel.

Key words: *human resources, region,enterprisise, personnel training, education, expert, human capital*

AZƏRBAYCANDA İKT SEKTORUNUN SƏMƏRƏLİ TƏNZİMLƏNMƏSİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Fətəliyeva Gülnarə Akif qızı

AMEA-nın İqtisadiyyat İnstitutu

feteliyevagulya@gmail.com

Xülasə: *Məqalədə Azərbaycan və ona qonşu dövlətlərdə İKT sektorunun tənzimlənməsi məsələləri araşdırılmış, bu sahədə müasir vəziyyət müqayisəli olaraq təhlil edilmiş, mövcud olan çatışmazlıqlar üzə çıxarılmış və onların həlli yolları göstərilmişdir. Tədqiqatın nəticələri göstərir ki, İKT sektoru Müstəqil Tənzimləyici Qurum tərəfindən tənzimlənən ölkələrdə bu sektorda rəqabət mühiti daha səmərəli olur. Məqalədə tədqiqat üsulu kimi müqayisəli və statistik təhlil, sistemli yanaşma metodlarından istifadə edilmişdir.*

Açar sözlər: *İKT sektoru, tənzimləmə, nazirlik, Müstəqil Tənzimləyici Qurum, rəqabət.*

Problemin qoyuluşu

İnformasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun səmərəli tənzimlənməsi bu sahənin hərtərəfli inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Beynəlxalq təcrübədə İKT sektorunun tənzimlənməsinin başlıca məqsədlərinə bazar uğursuzluqlarının qarşısının alınması, istehlakçı maraqlarının qorunmasının təmin edilməsi, inhisarçı meyillərin, antirəqabət hallarının aradan qaldırılması, səmərəli rəqabət mühitinin yaradılması və qorunub saxlanılması üzrə tədbirlərin həyata keçirilməsi və s. daxildir. Qeyd edilənlər isə, öz növbəsində, sektorun uzunmüddətli inkişafının təmin edilməsi ilə nəticələnir. Bu baxımdan Azərbaycanda ona qonşu dövlətlərlə müqayisəli olaraq İKT sahəsinin tənzimlənməsi məsələlərinin araşdırılması, bu sahədə mövcud olan çatışmazlıqların üzə çıxarılması və həlli yollarının göstərilməsi aktuallıq kəsb edir.

Azərbaycan və qonşu ölkələrdə İKT sektorunun tənzimlənməsi xüsusiyyətləri

Ümumiyyətlə, İKT sektorunun tənzimlənməsi ilə nazirlik, ümumi və ya xüsusi tənzimləyici orqan və ya xüsusi agentliklər məşğul olur. Hazırda əksər dövlətlərdə İKT sektorunda tətbiq olunan

institusional quruluş belədir: tənzimləyici çərçivənin həyata keçirilməsi və idarə olunması üçün məsuliyyət daşıyan müstəqil tənzimləyici orqan yaradılır və sektorda siyasətin yürüdülməsi məsələləri üzrə məsuliyyət isə həmin sahə üzrə fəaliyyət göstərən nazirliyin üzərinə düşür. Ölkəmizə qonşu olan dövlətlər içərisində Müstəqil Tənzimləyici Quruma (MTQ) sahib olanlar vardır. 2000-ci illərin əvvəllərindən Gürcüstan, Türkiyə, İran və Ermənistanda belə növ orqan fəaliyyətə başlamışdır. Ölkəmizdə İKT sektorunda tənzimləmə məsələləri **2017-ci ilin fevral ayında** Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsasında yaradılan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) tərəfindən həyata keçirilir [1]. Rusiyada isə bu sahənin tənzimləməsi ilə 3 dövlət orqanı məşğul olur (Cədvəl 1).

Cədvəl 1.

İKT sektorunun tənzimləyici institusional strukturu

Ölkələr	**Sektorda siyasəytin yürüdülməsi (Nazirlik)**	**Sektorun tənzimlənməsi**	**MTQ-nin yarandığı il**
Azərbaycan	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	---	---
Rusiya	Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyi (Minkomsvyaz); Kommunikasiya, informasiya texnologiyaları və kütləvi kommunikasiyalar sahəsində Federal Nəzarət Xidməti (Roskomnadzor); Federal Rabitə Agentliyi (Rossvyaz)	---	---
Gürcüstan	İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi	Milli Rabitə Komissiyası	2000
İran	İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi	Rabitənin Tənzimləmə Orqanı	2003
Türkiyə	Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi	İnformasiya və Kommunikasiya Texnologiyaları İdarəsi	2000
Ermənistan	Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi	Dövlət Xidmətləri üzrə Tənzimləmə Komissiyası	2006

Mənbə [2;5;6;7] əsasında müəllif tərəfindən tərtib edilib.

Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) tərəfindən dünyanın 160-a yaxın ölkəsində aparılan araşdırma nəticəsində tənzimləyici qurumların səlahiyyətinə daxil olan funksiyalar aşağıdakı kimi müəyyən edilmişdir: qiymət tənzimlənməsi, lisenziyalaşdırma, yayım ötürülməsi, universal giriş/xidmət, kiber təhlükəsizlik, internet, spektr monitorinqi və icrası, bağlantı səviyyəsi və sürəti və s. [3].

MTQ-lər bir və ya bir neçə sahənin tənzimləməsinə cavabdeh ola bilir. Məsələn, Ermənistanda Dövlət Xidmətləri üzrə Tənzimləmə Komissiyası İKT sektoru ilə yanaşı, həm də elektrik enerjisi, təbii qaz, su, dəmir yolu nəqliyyat sektorunun da tənzimlənməsi ilə məşğul olur. Gürcüstan, İran və Türkiyədə isə tənzimləyici qurumlar yalnız İKT sektoru üzrə fəaliyyət göstərir.

Maliyyələşdirmə mexanizmi tənzimləyici qurumun funksiyasının səmərəliliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dünya təcrübəsində tənzimləyici üçün müvafiq büdcənin maliyyələşdirilməsinin iki əsas yolu vardır: dövlət büdcəsindən ayırmalar və

tənzimləyicilər tərəfindən operatorlardan lisenziya haqları, öhdəliklərin icrası nəticəsində yaranan cərimələr və s. üçün ödənişləri qəbul etməklə fondun yaradılması. Bəzi ölkələrdə tənzimləyici qurumlar üçün maliyyələşdirmə ümumiyyətlə hər iki mənbənin birləşməsindən əldə edilir.

2 saylı cədvəldə ölkəmizə qonşu dövlətlərin MTQ-lərinin icra etdiyi funksiyalar və maliyyələşmə mənbələri haqda məlumatlar əks olunmuşdur.

Cədvəl 2.

Müstəqil Tənzimləyici Qurumun funksiyaları və maliyyə mənbələri

Ölkə / Müstəqil Tənzimləyici Qurum	Funksiyaları	Maliyyə mənbələri
Gürcüstan / Milli Rabitə Komissiyası	Lisenziyalaşdırma, radio tezliklər spektrinin istifadəsi üçün icazənin verilməsi, Komissiya qaydalarına tabe olan şirkətlər və eləcə də onlarla istehlakçılar arasında mübahisələrin həlli, bazarın müxtəlif seqmentlərinin öyrənilməsi və təhlili, əhəmiyyətli bazar gücünə malik olan müəssisələrin müəyyən edilməsi və onlara xüsusi öhdəliklərin verilməsi, telekommunikasiya şəbəkələrinə və infrastrukturlara girişin tənzimlənməsi, standart-laşdırma, sertifikatlaşdırma və metrologiya xidməti sisteminin tətbiqinin təşviqi, sektorda tətbiq olunan qanunun tələblərinə riayət olunmasına nəzarət və s.	Tənzimləmə haqları
İran / Rabitənin Tənzimləmə Orqanı	Lisenziyaların verilməsi, qiymət tənzimlənməsi, radio tezliklərin bölüşdürülməsi, xidmətlərin keyfiyyətinə nəzarət və s.	Lisenziya haqqı (41%), dövlət vəsaiti (10%), tənzimləmə haqları (3%), digər mənbələr (46%)
Türkiyə / İnformasiya və Kommunikasiya Texnologiyaları İdarəsi	Texniki və xidmət standartlarının qəbulu, radio tezliyin ayrılması və təyin edilməsi, xidmət öhdəlikləri keyfiyyətinin icrasına nəzarət, qoşulmaların (bağlantı) sürəti, qiymətlərin tənzimlənməsi və s.	Cəzalar, cərimələr, tənzimləmə ilə bağlı haqlar
Ermənistan / Dövlət Xidmətləri üzrə Tənzimləmə Komissiyası	Tarif siyasəti, lisenziyaların verilməsi, radio tezliklərin bölünməsi, xidmət keyfiyyəti üzrə standartların qəbulu, xidmətlərin keyfiyyətinə nəzarət və s.	Tənzimləmə ilə bağlı ödənişlər

Mənbə [2;5;6] əsasında müəllif tərəfindən tərtib edilib.

3 saylı cədvəldə BTİ tərəfindən illik olaraq hazırlanan və İKT sektorunda tənzimləməni qiymətləndirən ICT Regulatory Tracker adlı reytinqin məlumatları əsasında respublikamız və qonşu dövlətlərin göstəriciləri verilmişdir. Qeyd edək ki, 50 göstərici əsasında 4 qrupda birləşən bu reytinq İKT tənzimləmə mühitində baş verən dəyişiklikləri və tərəqqini izləməyə və tənzimləmə çərçivəsindəki boşluqları müəyyən etməyə imkan verir.

Cədvəlin məlumatlarından göründüyü kimi, əsasən ayrı tənzimləyici qurumun fəaliyyətinə diqqət yetirən "Tənzimləyici orqan" adlı ilk qrup üzrə aşağı bal toplayan ölkələr Azərbaycan və Rusiyadır ki, bu ölkələrin də hər ikisində İKT sektoru nazirlik tərəfindən tənzimlənir, daha doğrusu, bu dövlətlərdə hələ ki MTQ yaradılmayıb. Qeyd edilən iki ölkə sektorun tərkibinə daxil olan alt sahələr üzrə müxtəlif funksiyaların hansı qurum tərəfindən icra edilməsini ölçən "Tənzimləyici mandat" adlı ikinci qrup ballarına görə də sıralamada geri qalır. Əsas sahələrdə hansı növ tənzimləmənin mövcudluğunu müəyyən edən "Tənzimləyici rejim" üzrə də eyni vəziyyət müşahidə edilir. İlk 3 qrup üzrə aşağı ballar ölkəmizin ümumi reytinq sıralanmasında 6 ölkə arasında 5-ci yerdə qərarlaşması ilə nəticələnmişdir. Səbəbi isə ölkəmizdə hələ də MTQ-nin olmaması ilə izah etmək olar.

Cədvəl 3.

İKT sektorunun tənzimlənməsinin qiymətləndirilməsi reytinqi 2018

Ölkələr	Tənzimləyici orqan (0-20 bal)	Tənzimləyici mandat (0-22 bal)	Tənzimləyici rejim (0-30 bal)	Rəqabət (0-28 bal)	Yekun bal (maks.100)
Azərbaycan	8	13,5	24	25	**70,50**
Rusiya	4	11	13	14	**42,00**
Gürcüstan	18	16,5	30	28	**92,50**
İran	19	19	28	16	**82,00**
Türkiyə	19	19,5	30	26	**94,50**
Ermənistan	19	19,5	20	27	**85,50**

Mənbə [4] əsasında müəllif tərəfindən tərtib edilib.

İKT sektorunda inkişafı müəyyən edən əsas amillərdən biri rəqabətdir. MTQ-nin əsas funksiyalarından biri bazarda səmərəli rəqabət mühitinin təmin edilməsidir. Cədvələ 3-ə əsasən qeyd etmək olar ki, Tənzimləyici orqan qrupu üzrə mümkün 20 baldan Türkiyə - 19, Ermənistan - 19 və Gürcüstan - 18 bal, həmçinin Rəqabət göstəricisi üzrə mümkün 28 baldan müvafiq olaraq 26; 27 və 28 bal toplamışlar. Adı çəkilən ölkələr İKT sektorunda həm MTQ-yə, həm də əlverişli rəqabət mühitinə malikdirlər. Bu baxımdan İran istisna təşkil edir. Belə ki, adı çəkilən dövlətdə MTQ fəaliyyət göstərsə də, Rəqabət qrupunda aşağı mövqeyə sahibdir. Bunun səbəbini isə MTQ-nin maliyyələşmə mənbəyi ilə izah etmək olar. Qonşu ölkələr içərisində yalnız İranda tənzimləyici orqanın maliyyə mənbələrindən biri kimi dövlət vəsaiti (10%) çıxış edir (cədvəl 2). Məhz bu amil ölkədə İKT sahəsində, xüsusilə də onun rabitə (o cümlədən mobil rabitə və internet) alt-sektorlarında dövlətin böyük təsirə malik olmasına gətirib çıxarır. Nəticədə isə sektorda rəqabət mühiti zəifləmiş olur. Müqayisəli olaraq anti-rəqabət hallarının üstünlük təşkil etdiyi digər ölkə Rusiyadır. Bu dövlət həm Tənzimləyici orqan (4 bal), həm də Rəqabət (14 bal) göstəricisi üzrə digər 5 ölkədən geridədir (cədvəl 3).

Təcrübə göstərir ki, dövlətin böyük nüfuza sahib olduğu və ya dövlət qurumu tərəfindən tənzimlənən sektorlarda çox zaman dövlət müəssisələri bazarda dominant mövqeləri ilə seçilirlər. Məsələn, Rusiyada dövlət müəssisəsi olan Rostelecom sabit genişzolaqlı bazarda abunəçilərin 35 faizindən çoxuna sahibdir. İranda tarixi telekommunikasiya operatoru olan qismən özəlləşdirilmiş İran Telekommunikasiya Şirkəti sabit telefon xidmətlərini təmin edən yeganə şirkətdir və o sabit genişzolaqlı bazarda liderdir. Azərbaycanda sabit şəbəkə telefon xidmətləri sahəsində "Aztelekom" İstehsalat Birliyi və "Bakı Telefon Rabitəsi" MMC, ən böyük sabit genişzolaqlı şəbəkə provayderləri olan Aztelekomnet və Baktelecom MMC kimi dövlət operatorları bazarın əksər hissəsini əllərində cəmləşdirə bilmişlər. Liberal və rəqabətli İKT bazarına sahib olan Gürcüstanda isə əksinə olaraq, sabit genişzolaqlı internet xidmətləri göstərən 150-yə yaxın şirkət vardır [2].

Təhlillərdən belə qənaətə gəlmək olur ki, tənzimləyici qurumun struktur müstəqilliyi ilə təmin edilməsi onun siyasi baxımdan ələ alınma ehtimalını azaldır. Yəni, tənzimləyici orqan operatorlar və ya digər hökumət qurumları tərəfindən nə qədər xarici təzyiqlərə az məruz qalırsa, müstəqilliyini saxlaya bilir və qəbul etdiyi qərarlar da obyektiv və şəffaf olur.

Nəticə və təkliflər

Aparılan araşdırmalardan göründüyü kimi, Azərbaycanda iki nazirliyin əsasında yaradılan NRYTN bu sahədə həm dövlət siyasətini və həm də tənzimləməni həyata keçirir. Bu amil isə dövlətimizin BTİ tərəfindən hazırlanan İKT sektorunun tənzimləməsi reytinqində aşağı nəticə göstərməsinə səbəb olmuşdur.

Təhlillərin nəticəsi respublikamızda Müstəqil Tənzimləyici Qurumun yaradılmasının zəruriliyini göstərir. Belə bir şəraitdə ölkəmizdə siyasi və özəl maraqların təsirindən azad olması baxımından yerinə yetirəcəyi fəaliyyətlərə görə dövlət büdcəsindən deyil, ödənilən haqlardan maliyyələşdirilən və yalnız İKT sektorunda tənzimləyici funksiyaları icra edəcək Müstəqil Tənzimləyici Qurumun yaradılması məqsədəuyğun olardı. Fikrimizcə, belə bir qurum qeyri-bərabər rəqabətdən yaranan hər hansı bir bərabərsizliyin azaldılmasına yönəlmiş qaydaları yaratmaq və tətbiq etməklə İKT sahəsinin səmərəli tənzimlənməsini təmin etmiş olar.

Həmçinin sağlam və azad rəqabət mühitinin yaxşılaşdırılması məqsədilə İKT sektorunun əsas seqmentini təşkil edən rabitə sahəsində liberallaşdırma tədbirlərinin aparılması, bazarda dominantlıq edən dövlət müəssisələrinin qismən və ya tam özəlləşdirilməsi tədbirlərinin sürətləndirilməsi də vacib məsələlər kimi qarşıda durur.

Qonşu dövlətlərin təcrübəsinə əsaslanaraq ölkəmiz üçün Gürcüstanın tənzimləmə siyasətini nümunə kimi götürmək olar. Belə ki, bu respublikada nazirlik və tənzimləyici orqan arasında aydın şəkildə bölüşdürülmüş vəzifə və öhdəliklər İKT sektorunun səmərəli tənzimlənməsini təmin edir. Gürcüstan hökuməti İKT bazarının liberallaşdırılması və açıq və rəqabətqabiliyyətli olmasına nail olmuşdur ki, bu da iqtisadiyyata müsbət təsir göstərir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 13 fevral 2017-ci il.
2. Measuring the Information Society Report 2017. Volume 2. İCT country profiles. 252 p.
3. Telecommunications regulation handbook. The IBRD/The World Bank, InfoDev, The International Telecommunication Union. 2011. 254 p.
4. ICT Regulatory Tracker 2018. [https://www.itu.int/net4/itu-d/irt/#/tracker-by-country/regulatory-tracker/2018].
5. http://www.gncc.ge
6. https://www.cra.ir
7. https://digital.report

Резюме

Фаталиева Г.А.

Перспективы развития эффективного регулирования сектора ИКТ в Азербайджане

В статье исследуются вопросы регулирования сектора ИКТ в Азербайджане и соседних с ним странах, сравнительно анализируется текущая ситуация в этой области, выявляются существующие недостатки и указываются пути их решения. Результаты исследования показывают, что в странах, где сектор ИКТ регулируется Независимым регулирующим органом, конкурентная среда в этом секторе является более эффективной.

В статье в качестве методов исследования были использованы сравнительный и статистический анализ, системный подход.

Ключевые слова: *сектор ИКТ, регулирование, министерство, независимый регулирующий орган, конкуренция.*

Summary

Gulnara A.F.

Prospects for the Development of Effective Regulation of the ICT Sector in Azerbaijan

The article explores the issues of ICT sector regulation in Azerbaijan and its neighboring countries, comparatively analyzes the current situation in this field, reveals the existing shortcomings and shows ways of their solution. The results of the study show that, in the countries where the ICT sector is regulated by the Independent Regulatory Authority, the competitive environment in the sector is more effective. In the article, as research methods comparative and statistical analysis, systematic approach were used.

Key words: *ICT sector, regulation, ministry, independent regulatory body, competition.*

ALİ TƏHSİLDƏ ÜMUMİ KEYFİYYƏT MENECMENTİNİN XÜSUSİYYƏTLƏRİ

Hümbətəliyeva Səadət Əsgər qızı
Sumqayıt Dövlət Univetsiteti
saadethumbataliyeva@mail.ru

Xülasə: *Ümumi keyfiyyət menecmenti (TQM) anlayışı gündən-günə daha çox yayılır və onun təhsil müəssisələrində tətbiqi son zamanlar müzakirə edilməkdədir. TQM universitetlərdə müştəri məmnuniyyətini hədəfləyən, davamlı inkişafa dəstək verən, hər kəsin iştirakını təmin edən və qrup işini təşviq edən bir tərzdə tətbiq olunarsa, bu qurumlarda səmərəlilik, dinamizm və məhsuldarlığı təmin edəcəkdir. Bu məqalədə təhsil müəssisələrinin ümumi problemləri, təhsildə TQM keyfiyyəti və tərifi, universitetlərdə müştəri anlayışı və təhsilin keyfiyyətinə təsir edən amillər izah edilmişdir.*

Açar sözlər: *universitet, keyfiyyət, ümumi keyfiyyət menecmenti.*

Son illərdə elmi və texnoloji inkişafların sürətlə artması və eyni zamanda praktikada baş verməsi insanların həyat tərzində və ətraf mühitdə dəyişikliklərə səbəb olur. Bu vəziyyət yeni peşələr yaratmağı və ya mövcud peşələrə yeni məlumatlar əlavə etməyi zəruri etdi. Bu dəyişiklik peşə təhsilində mühüm yer tutan universitetlərə də təsir etdi.

Universitetlər ölkələrin inkişafı üçün zəruri məlumatların istehsal edildiyi və insan resurslarının öyrədildiyi təşkilatlardır. Bu səbəbdən universitetlər artıq millətlərin gələcəyini təyin edən əsas qurumlardandır. Təhsil müəyyən bir prosesi əhatə edir və nəticələrini uzun müddətə göstərir. Ölkənin sosial və iqtisadi inkişafını təmin edən insan gücünü hazırlayan bir vasitə kimi gündən-günə iqtisadiyyatın əsas sərmayəsinə çevrilir [3;69]. Bir sözlə, təhsil fərdin inkişaf etdirildiyi və digər tərəfdən ölkənin elmi, iqtisadi, sosial və mədəni inkişafını təmin etdiyi üçün onun əhəmiyyəti böyükdür [1;78]. Təhsil müəssisələrində keyfiyyət və səmərəliliyin ölçülməsi mal və xidmətlər istehsal edən digər təşkilatlardan daha çətindir. Bununla birlikdə təhsil müəssisələrinin digər təşkilatlarda tətbiq olunan yenilik və təcrübələrdən təsirlənməməsi qeyri-mümkündür. Təhsil müəssisəsinin nəticələrindən istifadə edən və onun kontingentini təmin edən digər sistemlər və ya ümumiyyətlə cəmiyyət də təhsil təşkilatlarını yeniliyə məcbur edir [4;192].

Müştəri məmnuniyyəti ilə keyfiyyətin menecmentinin əlaqəli fəaliyyəti əbədi davam edən bir prosesdir. Çünki müştəri başlanğıc nöqtəsi kimi qəbul edilir və müştəri ehtiyacları sonsuzdur.

Buna görə bir müəssisənin ən açıq məqsədi müştərilərini saxlamaq və yeni müştərilər əldə etməkdir. Çünki balans hesabatına daxil olmasa da, müştərilər bir işin ən qiymətli varlıqlarıdır [5;210]. Daxili və xarici müştərilər TQM-də müəyyən edilməli və gözləntiləri yerinə yetirilməlidir. Təhsil müəssisələri xidmətlər göstərir. Bu xidmətin xüsusiyyətlərini diaqnoz etmək və inkişaf etdirmə yollarını müəyyən etmək çox vacibdir. Xidmət keyfiyyəti, müştərinin ehtiyaclarının həm qarşılandığı, həm də inkişaf etdirildiyi bir mexanizmdir. Tələbənin müvəffəq olması və təhsilə qoşulması üçün əyləncəli və xoş bir təhsil mühiti təmin edilməlidir. Bunun üçün tələbənin başa düşməsinə imkan verən bilik, peşə və texniki bacarığı, birgə işləmək bacarığı və cəmiyyətin digər hissələrinə hörmət və etimadı təmin edən bir şəxsiyyət quruluşu əldə etmək vacibdir. Təhsil sistemlərinin girişi, çıxışı və müştəriləri sənaye müəssisələrində olduğu kimi dəqiq və aydın deyil. Sistemin bəzi elementləri birdən çox yerdə yerləşir (məsələn, həm müştəri, həm də giriş). Bu təhsil müəssisəsinin daxili və xarici müştərilərində təsnif edilməlidir. Bu təsnifat Şəkil 1-də verilmişdir.



Şəkil 1. Universitetlərdə müştəri təsnifatı

Təhsil müəssisələrini bir sistem olaraq qiymətləndirdikdə daxili müştəri sistemin elementləri, xarici müştəri isə təhsil sistemini əhatə edən daha geniş sistemin elementləri kimi qəbul edilə bilər.

a) Daxili müştəri.

TQM-dən verilən məlumata görə, tələbələr və müəllimlər universitetlərdə daxili müştəri kimi qiymətləndirilir. Bununla birlikdə tələbəni məhsulu alan müştəridən ayırmaq lazımdır. TQM-in ən vacib xüsusiyyətlərindən biri işçi məmnuniyyətidir.

İşçilərin məmnunluğuna yalnız onun iştirakını təmin etməklə deyil, işçilərin ehtiyaclarını ödəməklə də nail olmaq olar. Tələbənin sinifdə xidmət alan bir müştəri mövqeyində olduğu iddia edilə bilər, ancaq kurs verən müəllimin də müştəri olduğunu söyləmək yanlış deyil, çünki hər iki tərəfin qarşılıqlı gözləntiləri var. Qurum boyunca idarəçilərin həm müəllimlərin, həm də tələbələrin TQM-yə əsaslanan bir yanaşma üçün məmnuniyyətlərini düşünmələri lazımdır.

b) Xarici müştəri.

Təhsil müəssisələrinin xarici müştərisi məhsulu alanlardır. Bunlar universitetlər, dövlət və özəl qurumlar, valideynlər, sənaye və peşə sahələridir. Bunlar universitetin məqsəd və vəzifələrini təyin etmək üçün məsləhətləşilə biləcək qurum və ya təşkilatlardır.

Kaizen yalnız Yapon idarəçiliyində vacib bir anlayışdır və bu, Yaponiya şirkətlərinin rəqabət uğurlarında göstərdikləri performansları və fəaliyyətlərini ən yaxşı şəkildə izah edən prinsiplərdən biridir. Kaizen sözü inkişaf, təkmilləşmə və xüsusilə "davamlı inkişaf" mənasında istifadə olunur [6;305]. Ali təhsil baxımından keyfiyyətin davamlı yaxşılaşdırılması tələbələrin məktəbə və cəmiyyətə bağlılığını artırmaq, sosial, psixoloji, elmi və etik dəyərlərini inkişaf etdirmək səylərinin davamlı olaraq yaxşılaşdırılmasıdır.

TQM yalnız keyfiyyət və səmərəliliyi proqnozlaşdıran bir sistem deyil. Bir təşkilatın hər mərhələsində və bir sistemin bütövlüyündəki çatışmazlıqlar; insan davranışının, proseslərdə, iş mühitində, məhsulda və ya xidmətdə, başqa sözlə tamamilə korporativ mədəniyyətdə tətbiq olunan

metod və texnikanın davamlı inkişaf etdirilməsi üçün dəyişikliyə əsaslanan bir fəlsəfədir [2;169]. Keyfiyyətli təcrübələrin davamlı inkişafına təlim məqsədlərinə uyğun olaraq, təhsilin idarə edilməsini dəyişdirməklə, təhsil mühitini (sinif otaqları, laboratoriyaları, kompüterləri və s.) yaxşılaşdırmaqla və ya təhsilin təşkilini dəyişdirməklə nail olmaq olar. Ən başlıcası, hazırlanacaq mövzuları və layihələri müəyyənləşdirmək və prosesləri inkişaf etdirmək üçün qruplar yaratmaqdır [8;10]. İllik testlər və sorğularla təlim və prosesin keyfiyyətində davamlı inkişaflar edilə bilər. Bu sorğuların və test qiymətləndirmələrinin davam etdirilməsi təlim və proses keyfiyyətində yaxşılaşdırma və inkişafların daha yaxşı izlənməsinə, düzgün qərarlar qəbul etməsinə və qurumu daha effektiv idarə etməyə imkan verə bilər. Davamlı inkişafa yönəlmiş TQM yanaşması təməl təhsildə tətbiq edildikdə təhsildə bərabər imkanların təmin edilməsində, öyrənmə müddətinin qısaldılmasında, təhsil xərclərinin azaldılmasında mütəxəssis və ya peşəkar fərdlərin sayının artmasına və sosial şüurun təmin edilməsinə müsbət təsir göstərdiyi müşahidə olunur [2. 173].

Ümumi keyfiyyət menecmenti fəlsəfəsində keyfiyyət anlayışı siyasətlərin formalaşmasına istiqamət verir. TQM fəlsəfəsini mənimsəyən bir təhsil müəssisəsində keyfiyyət şüuru genişləndi və işçilər daima keyfiyyəti yüksəltmək üçün çalışırlar. Bu, təhsil müəssisəsinə dinamizm verir, fürsətlərə çatmaq və dəyişikliklə asanlıqla ayaqlaşmağın üstünlüyünü təmin edir.

Nəticə və tövsiyələr. Təhsil müəssisələrinin son illərdə baş verən dəyişikliyə vaxtında uyğunlaşa bilmədiyi müşahidə olunur. Bunun səbəbi, qurulmuş ənənəvi anlayışın dəyişikliyə qarşı çıxması və ya mövcud olanları qorumaq istəməsidir və universitetlərin bu məsələlərdə istəksiz olmasıdır. Bir çox sahələrdə genişmiqyaslı dəyişikliklərə səbəb olan TQM anlayışı praktik olaraq ölkəmizin təhsil sistemində mövcud deyildir. TQM-nin təhsil sistemlərində tətbiqi üçün aşağıdakılar həyata keşirilməlidir:

• TQM-in uğurunda liderliyin vacib olduğu qəbul edilmişdir. TQM yalnız müəyyən bir şəxsin və ya qrupun səyi və fəaliyyəti ilə deyil, həm də mükəmməl rəhbərlik və idarəetmə bacarığı ilə uğurlu olacaqdır. Bunun üçün tətbiq olunan təhsil müəssisələrində rəhbərliyin mövzuya verdiyi əhəmiyyət çox vacibdir. Məzunlar elmdə, texnologiyada və həyatda müşahidə olunan sürətli inkişafa tabe olan, inkişafa və yeniliyə açıq olan, maraqlı, araşdırma aparan, sual verən, öyrənmək və yeni məlumatlar əldə etməyi bilən bir insan olmalıdır;

• İş mühitinin keyfiyyəti yaxşılaşdırılmalı, insanlar özlərini inamlı hiss etməli və müəssisəyə aid olduqlarını hiss etməlidirlər. İşçilərin özlərini inkişaf etdirmələri üçün davamlı öyrənmə, qiymətləndirmə, özünü idarəetmə mədəniyyəti yaradılmalı və dəstəklənməlidir. Bundan əlavə, TQM yanaşması müəllimlərin təcrübəli olmalarını və ixtisasları üzrə ixtisaslaşmalarını tələb edir;

•Təhsil tədris proqramlarının hazırlanmasında və inkişaf etdirilməsində tələbənin (daxili müştərinin) və sənayenin (xarici müştərinin) ehtiyacları nəzərə alınmalıdır. Bundan əlavə, açılacaq fakültə, şöbə və peşə məktəbinin qərarı siyasi deyil, ehtiyaclara uyğun olaraq qəbul edilməlidir;

• Peşəkar palatalar tərəfindən təşkil edilən sertifikatlaşdırma prosesləri xarici müştərilərin (ailələr, dövlət və özəl müəssisələr) və məzunların ixtisas seçimi ehtiyaclarının daha yaxşı yerinə yetirilməsinə səbəb olacaqdır. Bu vəziyyət ölkəmizdəki dövlət və özəl sektor təşkilatlarının ehtiyaclarının daha effektiv şəkildə ödənilməsini təmin edə bilər və məzunların iş tapmaq imkanlarını artıra bilər;

• Təhsilin praktik tətbiqi inkişaf etdirilməli və laboratoriya imkanları yaxşılaşdırılmalıdır ki, universitet, sənaye və peşə sahələri qarşılıqlı təsir bağışlasın və məzunlar ömür boyu təhsil almağın zəruriliyini nəzərə alaraq etik və peşə məsuliyyəti şüurunda yetişsinlər;

• Elmi kadrların yetişdirilməsinə lazımi diqqət yetirilməli, komanda işi təşviq edilməli, fənlər arasında birgə layihələr və tədqiqatlar dəstəklənməlidir. Bundan əlavə, alimlərə edilən ödənişlər yaşayış səviyyəsinə uyğun səviyyəyə çatdırılmalıdır;

•QM anlayışının qurumda yaradılması üçün mərkəzləşdirilmiş idarəetmə yanaşmasından məktəb mərkəzli idarəetmə yanaşmasına keçmək, qaydalara uyğun olmaq əvəzinə, qaydaları daim nəzərdən keçirmək və bərpa etmək, güc toplamaq əvəzinə mümkün qədər paylaşmaq, qorxu əvəzinə ümid və həyəcan vermək lazımdır [7; 22];

•Təhsil proqramlarının hazırlanması və inkişafı elmi məlumatlara əsaslanmalı, mümkün, funksional, çevik, cəmiyyətin dəyərlərinə hörmətli və iqtisadi baxımdan, gözləyən maraqlı tərəflərin (tələbələr, müəllimlər, ailələr və cəmiyyət) məqsədləri üçün olmalıdır. Nəticədə, ümumi keyfiyyət menecmenti çox vacibdir, çünki bütün təhsil müəssisələrində birgə iş tələb olunur və bütün işçilərin həvəsləndirilməsi artır.

Ali məktəblərdə TQM mümkün qədər tez tətbiq olunmalıdır, çünki o, işçilərin problemləri həll etmək qabiliyyətini artırır və resursların səmərəli istifadəsini təmin edir. Bununla da problemlərin vaxtında və ya baş verməsindən əvvəl həllini tapmasını, həm də daxili və xarici müştərilərin gözləntilərini qarşılayır.

Ədəbiyyat

1. Bowen, H. R. Investment in Learning. San Fancisca: Josey Bass Publishers, 1980. 507 p.
2. Eroğlu E. Təməl təhsildə davamlı keyfiyyət yaxşılaşdırılması prinsiplərinin tətbiqi. Pamukkale Universiteti, Təhsil fakültəsi jurnalı, № 7, 2000, s. 167-175.
3. Gedikoğlu T. Avropa Birliyi Projesindəki türk təhsil sistemi: Problemlər və həll təklifləri. Mersin Universiteti jurnalı, Vol1, №1, İyun 2005, s. 66-80.
4. Gencel U. Ali təhsil xidmətlərində ümumi keyfiyyət idarəetmə və akkreditasiya, Dokuz Eylül Universiteti "Sosial Elmlər İnstitutu" jurnalı, Çilt 3, Sayı 3, 2001, ss. 164-213.
5. Kovancı A. Keyfiyyət idarəetmə proqramlarında müvəffəqiyyət üçün məqsədlər təyin etməyin əhəmiyyəti, 18-ci Əməliyyat Tədqiqatları və Sənaye Mühəndisliyi Konqresi, ITU. İstanbul, 1996, s. 204-212.
6. Kovancı A. Ümumi keyfiyyətin idarə olunması: amma necə?. Sistem nəşriyyatı: 288, 2-ci nəşr, İstanbul, 2003, 504 s.
7. Özdemir S. M. Təhsil müəssisələrində toplanmış keyfiyyət təcrübələrinə mənfi təsir göstərən amillər. Qazi Təhsil Fakültəsi jurnalı, 25-ci cild, № 3, 2005, s. 1-23.
8. Sözmen E. Y. Təhsildə keyfiyyətə yanaşmalar. "Standart" jurnalı, dekabr 2004, s.7-11.

Резюме

Гумбаталиева С.А.

Общее управление качеством в высшем образовании

Подход общего управления качеством (TQM) стал еще более распространенным и в последнее время обсуждается его использование в высшем образовании. Если TQM был внедрен в университетах таким образом, который нацелен на удовлетворение потребностей клиентов, поддерживает постоянное развитие, обеспечивает коллективный подход и поощряет работу в группах, это обеспечит университеты эффективностью, динамикой и производительностью. В этой статье были объяснены общие проблемы университетов, определение качества и TQM в высшем образовании, концепция клиента в университетах и факторы, влияющие на качество образования.

Ключевые слова: *университет, качество, общее управление качеством.*

Summary
Humbataliyeva S.A.
Total Quality Management in High Education

The approach of Total Quality Management (TQM) has been even more common and most recently its use in high education has been discussed. If the TQM has been implemented in the universities with a manner that aims for customer satisfaction, supports constant development, ensures participatory approach, and encourages working in groups, it will provide universities with effectiveness, dynamics and productivity. In this article, common problems of universities, definitions of quality and TQM in high education, customer concept at universities, and factors affecting the quality of education have been explained.

***Key words**: University, Quality, Total Quality Management*

TƏBİİ İNHİSARLARIN İQTİSADİ DAVRANIŞININ XÜSUSİYYƏTLƏRİ VƏ İQTİSADİ SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ

Hüseynov Qalib Sirac oğlu
Sumqayıt Dövlət Universiteti
qalib.huseynov69@mail.ru

***Xülasə:** Məqalədə təbii inhisarların meydana gəlməsi üçün müəyyən şərtlər, onların iqtisadi davranış xüsusiyyətləri, təbii inhisarların effektiv istehsalı, iqtisadi səmərəlililik göstəriciləri öz əksini tapmışdır.*

***Açar sözlər:** təbii inhisar, rəqabət, davranış, səmərəlilik, miqyasın effekti, son hədd xərcləri*

Təbii inhisar tarixən yaranmışdır və ölkəmizdə iqtisadi ukladların spesifikasına görə möhkəmlənmişdir. Bu cür bazarların strukturunun dəyişməsi multiplikativ olaraq iqtisadiyyata təsir göstərir. Müasir iqtisadi-nəzəri baxışların araşdırılması o nəticəyə gəlməyə imkan yaradır ki, təbii inhisarlar vertikal inteqrasiyalı şirkətlər formasında ölkənin inkişafının qarşısını alır. Belə olan halda potensial olaraq rəqabətli fəaliyyət istiqamətlərinin ayrılması yolu ilə bazarının strukturunun dəyişdirilməsi tələb olunur.

Təbii inhisar – infrastruktur sahələrinə aid edilən və vahid texnoloji prosesdə birləşdirilən, tədarüklərinin qısamüddətli dayandırılması ilə bütün iqtisadiyyatın və cəmiyyət həyatının fəaliyyətinin pozulmasına gətirib çıxaran unikal əmtəələr (xidmətlər) buraxan sistemyaradıcı müəssisələrin məcmusudur. O qiymətəmələgəlmənin xüsusi strategiyasını həyata keçirir, bazarda məlum məhsul üzrə bütün tələbi təmin edir. Təbii inhisarın müəssislərin məcmusu kimi nəzərdən keçirilməsi bu təyinatın əsas elementidir ki, bu da onun mövcud fəaliyyəti mexanizminə daha dəqiq uyğun gəlir.

Bazarda təbii inhisarların davranışı onların təbiəti ilə şərtləşən bir sıra xarakterik xüsusiyyətlərə malikdir. Əvvəla təbii inhisarın meydana gəlməsi üçün müəyyən şərtlərin (əlamətlərin) mövcud olması tələb olunur:

- əmtəə və xidmətlərin istehsal və tədarükünün texnoloji xüsusiyyətləri, məsələn, şəbəkə strukturunun mövcud olması;
- cəmiyyətin yaşaması üçün əmtəə-substitləri olmayan xüsusilə vacib məhsul istehsal edir;
- öz növbəsində miqyasın effekti və onunla bağlı olan əhəmiyyətli ilkin kapital məsrəflərinin nəticəsi olaraq meydana çıxan sahəyə girişin yüksək baryerləri, bu isə iqtisadi mənada xərclərin subadditivliyinin yaranmasına gətirib çıxarır və dövlət tərəfindən məhdud hərəkətlərin nəticəsi olaraq bazarda vahid firmanın fəaliyyətini şərtləndirir.

Bundan başqa, inhisar rəqabətin olmasını nəzərdə tutur, halbuki təbii inhisar haqqında təsəvvür olaraq "rəqabət" və "inhisar" anlayışlarının təkamülü paralel inkişaf etməyə başladı.

Təbii inhisarlar bütün iqtisadiyyatın miqyasında xüsusi rol oynayırlar;

- birincisi, cəmiyyətin yaşaması üçün əmtəə-substitləri olmayan xüsusilə vacib olan məhsul istehsal edir, yəni buraxılan məhsul və xidmətlər iqtisadiyyatın və bütövlükdə cəmiyyətin normal fəaliyyət göstərməsini təmin edir;

- ikincisi, vahid iqtisadi məkanının saxlanmasına kömək edir;

- üçüncüsü, onların məhsulları üzrə tələbin aşağı elastikliyi hesabına azalma dövründə də iqtisadiyyatda sabitləşdirici funksiya yerinə yetirilir; eyni zamanda təbii inhisarın infrastruktur xarakteri iqtisadi fəallığın bərpası üçün əsasdır;

- dördüncüsü, onlar milli təhlükəsizliyin təmin edilməsi üçün çox əhəmiyyətlidir.

Beləliklə, təbii inhisarların iqtisadi davranışının xüsusiyyətləri haqqında əvvəllər əldə etdiyimiz nəticələri nəzərə alaraq onların bazardakı davranışlarının aşağıdakı xüsusiyyətləri, eyni zamanda onların tənzimlənməsi xüsusiyyətlərini formulə etmək olar: [4, s. 59].

- təbii inhisara miqyasın effekti xasdır, onun nəticəsində isə buraxılış artarkən orta xərclər azalır;

- təbii inhisarın öz təbiətindən məlum bazarda tələbin tam təmin edilməsi imkanı çıxır, bununla bərabər, bir qayda olaraq, o elastik deyil və deməli, buraxılışın idarə edilməsinin səmərəli səbəbi mövcud deyil;

- bazarda təbii inhisarın davranışı xüsusiyyətləri onun məhsulları üzrə qiymətlərin tənzimlənməsi zəruriliyini şərtləşdirir;

- "miqyasın effekti", "şəbəkə təsərrüfatının effekti" – infrastruktur təbii inhisarlarının texnoloji xüsusiyyətlərinin, eyni zamanda onların fəaliyyətinin dövlət lisenziyalaşdırılmasının nəticəsi olaraq yüksək giriş baryerləri;

- son həddd gəlirinin son hədd xərclərinə bərabərliyinə əsaslanan qiymətlərin formalaşmasının klassik modeli, təbii inhisar şəraitində tələbin təmin olunmamasına gətirib çıxara bilər, bu isə bazarın yeni iştirakçılarının peyda olması üçün şərait yaradır;

- qiymətlərin son hədd xərcləri səviyyəsində müəyyən edilməsi yolu ilə təbii inhisarların fəaliyyətinin tənzimlənməsi itkilərə səbəb olacaqdır və bu müəssisələrin xarici mənbələrdən əlavə maliyyələşdirilməsini tələb edəcəkdir;

- qiymətlərin tam orta xərclər səviyyəsində müəyyən edilməsi prinsipinə əsaslanan tənzimlənmə müəyyən çatışmazlıqlara malikdir: daimi xərclərin, eyni zamanda tələbin qiymətləndirilməsi və əsaslandırılmasının çətinliyi, bu isə bütövlükdə fəaliyyətin səmərəliliyində əks olunur.

Təbii inhisarların davranışı və onların fəaliyyətinin tənzimlənməsinin mövcud mexanizmləri satıcının bazarının formlaşmasına səbəb olur, bu zaman təbii inhisar məhsulun (xidmətin) istehlakçıya çatdırılması üzrə öz şərtlərini birbaşa və yaxud dolayı hərəkətlə diktə edir.

Təbii inhisarın fəaliyyətində firmanın özünün, əhalinin, dövlətin maraqları meydana çıxdığı halda onun inkişafına tarazlı yanaşma, fikrimizcə, səmərəlilik, ədalətlilik və dayanıqlılığın birləşməsini ifadə edir. Bu halda həm qısamüddətli, həm də uzunmüddətli dövrdə təbii inhisarın sosial-iqtisadi səmərəliliyi haqqında danışmaq olar.

Qarşılıqlı asılı olan subyektlər müxtəlif hakimiyyətə malik olduqları üçün təbii-inhisar sahələrinin fəaliyyətinin ümumi səmərəliliyini tənzimləyici proses vasitəsilə maksimallaşdırır. Bu təşkilat siyasi siyasət sahəsində (məsələn, sosial cəhətdən məqbul tariflərin müəyyən edilməsi vasitəsilə və s.) də ən yaxşı nəticələri verir.

Təbii inhisar fəaliyyətinin indikatorları, fikrimizcə, təbii inhisarların institusional və struktur parametrlərini, eyni zamanda makro və mikroiqtisadi səmərəliliyin ümumiləşdirici göstəricilərini də ehtiva etməlidir. [4, s. 67]

Təbii inhisarların iqtisadi səmərəliliyinin göstəriciləri, əsasən, transformasiya xərcləri əsasında hesablanır, halbuki firmaların fəaliyyətində transaksiya xərclərinin əksəriyyəti gizli və yaxud ümumi tərkibdən ayrılmamış hesab edilir. Buna görə də transformasiya xərclərinin artması həm bu sferanın texnoloji cəhətdən əlverişli olmaması haqqında, həm də institusional dəyişikliklərin zəruriliyi və transaksiya xərclərinin azaldılması üzrə tədbirlər haqqında siqnal verə bilər. Bundan başqa, qısamüddətli dövrdə transaksiya xərclərinin artmasının səbəbi olaraq bu sahədə elə investisiya və innovasiyalar ola bilərlər ki, onlar eyni zamanda uzunmüddətli dövrdə xərclərin azalması və firmanın dayanıqlılığını təmin edir.

Səmərəlilik göstəriciləri bir çox araşdırıcılar tərəfindən aşağıdakı kimi sistemləşdirilmişdir:

1. İnstitusional mühitin keyfiyyətini qiymətləndirməyə imkan verən fəaliyyətin institusional parametrləri:

- verilmiş təbii inhisarda mülkiyyətçilərin strukturu və payı;
- kontragentləri, onların fəaliyyətini reqlamentləşdirən qanun və müqavilələrin mövcudluğu;
- verilmiş regionun əhalisinin sayı ilə müqayisədə təbii inhisar xidmətlərinin istehlakçılarının sayı;
- verilmiş təbii inhisar subyektinin xidmətlərinin keyfiyyətinin standartlara uyğunluğu;
- verilmiş təbii inhisar sferasında institusional islahatların trayektoriya və dinamikası.

İnstitusional aspektlər təbii inhisarların fəaliyyətinin transaksiya, transformasiya və eksternal xərclərinə və deməli, onların daxili və makroiqtisadi səmərəliliyinə təsir göstərir. Bu parametrlərin qiymətləndirilməsi, fikrimizcə, institusional mühitdə baş verən dəyişiklikləri aradan qaldırmağa və opportunist və rentoönümlü davranışın meydana çıxmasının qabağını almağa imkan yaradır. Buna görə də institusional cərəyanın nümayəndələri təbii inhisar mühitinə nəzarət olunan rəqabət münasibətlərinin tətbiq edilməsini təklif edirlər.

2. Təbii inhisarların xalq təsərrüfatı kompleksi ilə qarşılıqlı münasibətinin xarakterini nümayiş etdirən struktur göstəricilər:

- təbii inhisarların məhsullarının ÜDM-də daimi və cari qiymətlərlə xüsusi çəkisi;
- ev təsərrüfatlarının və sahibkarlıq sektoru xərclərində təbii inhisarların xidmətlərinin əldə edilməsi üzrə xərclərin payı;
- sənayedə gəlirlərin artım tempi ilə müqayisədə təbii inhisarların gəlirlərinin artım tempi;
- təbii inhisar tarifləri indekslərinin istehlak qiymətləri indeksi (ev təsərrüfatları sektoru üçün) və sənaye malları istehsalçılarının qiymətləri indeksi (sahibkarlıq sektoru üçün) nisbəti;
- təbii inhisarların əmək məhsuldarlığı, fondverimi və material verimi göstəriciləri ilə xarici ölkələrin analoji strukturlarının göstəriciləri ilə, onların artım indekslərinin isə bütövlükdə ölkə sənayesinin analoji göstəriciləri ilə nisbəti;
- sənaye üzrə orta göstəricilər ilə müqayisədə əsas istehsal fondlarının yenilənmə əmsalları və yenilənmənin intensivliyi;
- təbii inhisarlardakı investisiyalardan faydalı iş əmsalı göstəricilərinin sənayedə və analoji xarici strukturlarda orta səviyyə ilə nisbəti;
- sənayedə və inhisarlaşdırılmamış sektorda rəqabət ilə müqayisədə təbii inhisarların rentabelliyinin kəmiyyəti;

3. Təbii inhisarların ümumi makroiqtisadi effekti göstəriciləri: 1) texnoloji şəbəkənin işində qəza və fasilələr və ətraf mühitə vurulan zərər nəticəsində yaranan iqtisadi zərər; 2) texnoloji şəbəkələrin işinin etibarlılığının artırılması hesabına əldə edilən qənaət; 3) innovasiyaların tətbiqi nəticəsində istismar olunan şəbəkələrin gücünün artması; 4) resursqoruyucu texnologiyaların, müasir menecmentin, yeni materialların tətbiqi nəticəsində əldə edilən xalq təsərrüfatı qənaəti;

4. Təbii inhisarların makroiqtisadi (istehsal) səmərəliliyinin göstəriciləri: 1) investisiya layihələrinin rentabelliyi səviyyəsi; 2) təbii inhisarların xidmətlərinin yanaşı gedən xidmətlər

istehsalı ilə kombinasiyası nəticəsində əldə edilən əlavə gəlir; 3) innovasiya texnologiyalarının, mini kompüterlərin və mikro proseslərin tətbiqi nəticəsində əldə edilən gəlir. [3, s. 37].

Ədəbiyyat

1. Трачук А.В. Теоретико-методологическое обоснование совершенствования механизма деятельности естественных монополий: диссертация на соискание ученой степени доктора экономических наук. М.: 2010.
2. Абросимова О.Ю. Естественные монополии в России: особенности развития и способы эффективного регулирования. Диссертация на соискание ученой степени кандидата экономических наук, Нижний Новгород, 2012.
3. Hüseynov Q.S. Təbii inhisarların fəaliyyətinin səmərəli təşkili şərtləri və bir sıra mənfi iqtisadi nəticələri // Audit, 2016, № 4.

Резюме

Гусейнов Г.С.

Особенности экономического поведения естественных монополий и показатели экономической эффективности

В статье исследуются условия, определяющие зарождение естественных монополий, особенности их экономического поведения, эффективное производство и показатели экономической эффективности естественных монополий.

Ключевые слова: *естественная монополия, конкуренция, поведение, эффективность, эффект масштаба, предельные издержки*

Summary

Huseynov Q.S.

Features of Economic Behavior of Natural Monopolies and Economic Performance Indicators

The article explores the conditions determining the origin of natural monopolies, features of their economic behavior, efficient production and economic performance indicators of natural monopolies

Key words: *natural monopoly, competition, behavior, efficiency, economies of scale, marginal cost*

MÜƏSSİSƏDƏ LOGİSTİK SİSTEMLƏRİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Hüseynova Məlahət Soltan qızı

Sumqayıt Dövlət Universiteti

huseynovyusif2003@mail.ru

Xülasə: *Məqalədə logistikanın müəssisənin və bütövlükdə ölkənin inkişafında roluna baxılmışdır. Müəssisədə logistika sisteminin təşkili mexanizmi nəzərdən keçirilmişdir. Müəssisədəki loqistika sistemi təşkilatın bütün struktur bölmələrinin qarşılıqlı fəaliyyətini əhatə edən vahid istehsal sistemi kimi tədqiq edilmişdir. Logistika sistemlərinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin məqsədi açıqlanmışdır. Logistika sistemlərinin iqtisadi səmərəliliyinin qiymətləndirmə prosedurunun etibarlı başa düşülməsi üçün təşkilati və iqtisadi mexanizm tədqiq edilmiş, müəssisədə logistikanın səmərəliliyinin artırılması üçün yollar təklif edilmişdir.*

Açar sözlər: *logistika, müəssisə, istehsal, iqtisadi səmərəlilik, xərc, göstərici*

Müasir dövrdə istehsalın sürətlə artması, müxtəlif müəssisələrin istehsal etdiyi malların çeşidinin genişləndirilməsi, topdan və pərakəndə satış şəbəkələrinin genişləndirilməsi, bu sistemin təkmilləşdirilməsi, anbarların yaradılması müəssisənin dövriyyəsinin artmasına təsir göstərir. Bütün bunlar müəssisənin idarə olunmasında logistikanın rolunu artırır.

Müəssisədəki loqistika sistemi təşkilatın bütün struktur bölmələrinin qarşılıqlı fəaliyyətini əhatə edən vahid istehsal sistemidir. Logistik əməliyyatların səmərəli təşkili istehsal sektorunun, təchizat və satış şöbəsinin işini optimallaşdırmağa imkan verir. Bu struktur bölmələrin işini inteqrasiya edən müəssisə rəqabət üstünlüklərini artırır. Müəssisənin fəaliyyətinin bütün sahələrinə daxil olan logistika materialların, yarımfabrikatların və hazır məhsulların planlaşdırılması, həyata keçirilməsi, xərclərin idarə edilməsi prosesini, ümumilikdə istehsaldan istehlaka qədər bütün prosesləri əhatə edir.

Hər hansı bir sosial-iqtisadi sistemə aid olan resursların daimi çatışmazlığı şəraitində, logistika sistemlərinin istifadəsinin səmərəliliyini qiymətləndirmək mühüm problemlərdən biridir.

Logistika problemlərinin həlli meyarları aşağıdakı parametrlərdir:

1. Çatdırılma dəqiqliyi.
2. Çatdırılma yerinin dəqiqliyi.
3. Təchiz edilmiş məhsulların çeşidinin dəqiqliyi.
4. Verilmiş məhsulların kəmiyyət göstəricilərinin dəqiqliyi.
5. Məhsulların keyfiyyət göstəricilərinin dəqiqliyi.
6. Məhsulların çatdırılması xərclərini minimuma endirmək.

Logistika çərçivəsində dəqiqlik seçilən parametrlərin bazarın tələblərinə uyğunluğu kimi başa düşülür. Bu gün logistika sistemlərinin səmərəliliyinin ölçülməsinə dair vahid bir metodoloji yanaşma yoxdur.

Logistika sistemlərinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin məqsədi aşağıdakılardır:

- sistematik yanaşma əsasında logistika sistemlərinin iqtisadi səmərəliliyi konsepsiyasının formalaşdırılması; - təsiri formalaşdıran amillərin müəyyən edilməsi; - logistika sistemlərinin səmərəlilik göstəricilərinin formalaşdırılması; - logistika sistemlərinin iqtisadi səmərəlilik göstəricilərinin kəmiyyət qiymətləndirilməsi metodlarının işlənib hazırlanması; - logistik müqavilə iştirakçıları arasında iqtisadi səmərəliliyin bölüşdürülməsi mexanizminin inkişaf etdirilməsi; - logistikanın iqtisadi təsirini artıracaq ehtiyatların müəyyənləşdirilməsi və səfərbər edilməsi [1].

Sənayeləşmiş ölkələrin və aparıcı yerli şirkətlərin təcrübəsi göstərir ki, logistika müasir biznesdə strateji əhəmiyyətli rol oynayır. Müxtəlif biznes sistemlərinin fəaliyyətinin səmərəliliyi, onların daxili və xarici bazarlarda rəqabətqabiliyyətliliyi əsasən formalaşmış loqistika sistemi və logistik idarəetmənin səmərəliliyi ilə müəyyənləşdirilir.



Şəkil 1. Müəssisənin logistika sistemi [3]

Logistika sisteminin iqtisadi səmərəliliyinin meyarı resursların ən az xərclənməsi ilə ən yaxşı nəticələrə nail olmaqdır. Logistika sisteminin səmərəliliyinin ümumi meyarı müəyyən meyarlara uyğunlaşdırılır: elmi-texniki (texniki bazanın müasirləşdirilməsi), sosial (həyat və sağlamlığın mühafizəsi) və ətraf mühitin mühafizəsi üzrə səmərəlilik. Təcrübədə sistemin səmərəliliyini əks etdirmək üçün gəlirlilik, kapitalın məhsuldarlığı, əmək məhsuldarlığı və s. kimi qarşılıqlı meyar göstəricilərindən daha çox istifadə olunur.

Vahid logistika sisteminin səmərəliliyinin qiymətləndirilməsi maddi və qeyri-maddi göstəricilərə əsasən həyata keçirilməlidir. Qeyri-maddi qiymətləndirmənin istifadəsi sistemin əsas struktur bölmələrinin qarşılıqlı səviyyəsini nəzərə alaraq onun kinetik enerjisini müəyyənləşdirərək, məlumatların işlənməsinin sürətini təhlil etməyə imkan verir [2].

Logistika sistemlərinin iqtisadi səmərəliliyinin qiymətləndirmə prosedurunun etibarlı başa düşülməsi üçün müəssisənin təşkilati və iqtisadi mexanizmdən istifadə etmək məqsədəuyğundur.

Ümumi qaydalara əsasən, logistika sistemlərinin iqtisadi səmərəliliyi onların yaradılması və saxlanılması ilə bağlı nəticələrin və xərclərin nisbəti ilə qiymətləndirilə bilər. Bu qiymətləndirmə həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri əsasında aparıla bilər. Kəmiyyət göstəricilərinə nisbətən keyfiyyət göstəriciləri daha üstündür, çünki onlar səmərəliliklə yanaşı, logistika sistemlərinin rəqabət qabiliyyətini xarakterizə edirlər.



Şəkil 2. Logistika sisteminin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək üçün təşkilati və iqtisadi mexanizm

Logistik xidmətlərin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi xidmətin keyfiyyətinin 1% -ni təmin etmək üçün tələb olunan logistika xərclərinin məbləğini əks etdirən eyni adlı göstəricinin hesablanması yolu ilə həyata keçirilə bilər:

$$S_{l.x.} = \frac{X_l}{K_l}$$

Burada - X_l- logistika sistemində, sifarişin yerinə yetirilməsi ilə bağlı çəkilən xərclər (man); K_l - müştəri məmnuniyyəti dərəcəsi ilə qiymətləndirilmiş logistika xidmətlərinin keyfiyyəti (%) [4].

Bu göstəricinin məzmunu göstərir ki, logistika xidmətlərinin səmərəliliyi daha az cari xərclərlə artır və ya logistika sistemində xidmətin keyfiyyətini artırır. Qeyd edək ki, logistika xərcləri, logistika əməliyyatlarının həyata keçirilməsi ilə bağlı xərclərdir.

Logistika xərcləri müəssisənin idarə olunması üçün vasitədir. Logistika xərclərinin tərkibinin müəyyən edilməsi iqtisadi cəhətdən sağlam idarəetmə qərarlarının qəbul edilməsinə kömək edir. Belə xərclərin təhlili müəssisənin müştəri sifarişlərinə xidmət etmək üçün ən çevik taktikanı seçməsinə imkan verə bilər. Məntiqi xərclərin azalması, mənfəət səviyyəsinin bu əsasda artması müəssisənin maliyyə imkanlarını artırır.

Logistika xərclərini qiymətləndirərkən malların bölüşdürülməsi ilə bağlı xərclərin iki qrupa bölünməsini nəzərə almaq lazımdır:

a) istehsal sahəsində material axınının formalaşması və hərəkəti ilə bağlı xərclər;

b) dövriyyə sahəsində məhsul satışı prosesi ilə bağlı xərclər.

Müasir təcrübədə müəssisədə logistikanın səmərəliliyinin artırılması üçün bir neçə əsas yol müəyyən edilə bilər.

Birincisi, müxtəlif iqtisadi mexanizmlərin səmərəliliyini və keyfiyyətini artırmaqla müəssisənin struktur-funksional bölmələri arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi.

İkincisi, müəssisənin struktur və funksional şöbələrində təşkilati və idarəetmə dəyişiklikləri vasitəsilə qarşılıqlı əlaqələndirmə səviyyəsinin müəyyən edilməsi. Müəssisənin bu cür fəaliyyət səviyyəsinə çatması nəticəsində hər bir logistika sahəsi struktur və funksional vahidlərin fəaliyyətinin səmərəliliyinin artırılmasına imkan verəcəkdir.

Üçüncüsü, müəssisədə xüsusi elektron hesablama avadanlığının və proqram təminatının istifadəsi vasitəsilə logistika imkanlarının artırılması.

Ümumiyyətlə, logistika iqtisadi səmərəlilik üçün yüksək potensiala malikdir. Lakin, müasir loqistika sistemlərinin yaradılması əhəmiyyətli investisiyalar tələb edir. Loqistika sistemlərinin idarə edilməsinin iqtisadi səmərəliliyini müəyyənləşdirmək üçün nəzərdən keçirilmiş yanaşmalardan istifadə idarəetmə qərarlarının keyfiyyətini yaxşılaşdırır, inventarlara qoyulan investisiyaların artımına kömək edir və təsərrüfat subyektlərinin maliyyə fəaliyyətini yaxşılaşdırır.

Ədəbiyyat

1. Палагин Ю. И. Логистика. Планирование и управление материальными потоками. СПб.: Политехника, 2016, 630 с.

2. Саркисов С. В. Управление логистикой. М.: Дело, 2014, 286 с.

3. Лукинский В.С. Модели и методы теории логистики. СПб: Питер, 2007, 448 с.

4. Неруш Ю.М. Логистика. М.: ТК Велби: Проспект, 2006, 520 с.

Резюме

Гусейнова М.С.

Оценивание экономической эффективности логистических систем на предприятии

В тезисе рассмотрена роль логистики в развитии предприятия и страны в целом. В тезисах, также рассмотрен механизм организации системы логистики. Система логистики предприятия рассмотрена как единая производственная система, охватывающая взаимосвязи всех структурных подразделений организации. Раскрыта цель оценивания экономической эффективности логистических систем. Раскрыты организационный и экономический механизм для правильного понимания процедуры оценивания экономической эффективности логистических систем, предложены пути повышения эффективности логистики на предприятии.

Ключевые слова: *логистика, предприятие, производство, экономическая эффективность, стоимость, показатель*

Summary
Huseynova M.S.
Assessing the Economic Efficiency of Logistics Systems in Enterprises

The thesis considers the role of logistics in the development of the enterprise and the country as a whole. In the thesis, the mechanism of organizing a logistics system is also considered. The enterprise logistics system is considered as a single production system, covering the interconnections of all structural units of the organization. The purpose of assessing the economic efficiency of logistics systems is disclosed. The organizational and economic mechanism for a correct understanding of the procedure for assessing the economic efficiency of logistics systems is disclosed, and ways to improve the efficiency of logistics at the enterprise are proposed.

Key words: *logistics, enterprise, production, economic efficiency, cost, indicator*

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN GÜCLƏNDİRİLMƏSİNDƏ KİMYA VƏ NEFTKİMYA MÜƏSSİSLƏRİNİN ROLUNUN ARTIRILMASINA METODOLOJİ YANAŞMALARIN XÜSUSİYYƏTLƏRİ

Kərimli Akif Sabir oğlu
Sumqayıt Dövlət Universiteti
akif_kerimli@mail.ru

Xülasə: *Məqalədə iqtisadi təhlükəsizliyin gücləndirilməsində kimya və neftkimya müəssislərinin rolunun artırılmasına metodoloji yanaşmaların xüsusiyyətləri tədqiq olunmuşdur. Bu məqsədlə, iqtisadi təhlükəsizliyin gücləndirilməsinin başlıca mahiyyəti açıqlanmışdır. Kimya və neftkimya müəssisələrinin iqtisadi təhlükəsizliyin gücləndirilməsində əhəmiyyəti təhlil olunmuşdur. İqtisadi islahatlar və struktur dəyişiklliyi şəraitində kimya və neftkimya müəssisələrinin potensialından səmərəli istifadənin vacibliyi əsaslandırılmışdır. Kimya və neftkimya müəssisələrinin yüksək texnologiyalar əsasında yenilənməsinin obyektiv zərurət kimi formalaşdırıldığı bildirilmişdir. Sumqayıt Kimya Sənayesi Parkında yaradılan istehsal infrastrukturunun ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində çoxfunksiyalı rolu açıqlanmışdır. Müasir qlobal iqtisadi transformasiyalar və yeni iqtisadi trendlərin artdığı bir şəraitdə iqtisadi təhlükəsizliyin gücləndirilməsində kimya və neftkimya müəssislərinin rolunun artırılmasına metodoloji yanaşmaların xüsusiyyətləri üzrə ümumiləşdirmələr aparılmış və tövsiyələr verilmişdir.*

Açar sözlər: *iqtisadi təhlükəsizlik, iqtisadi təhlüksəsizliyin gücləndirilməsi, kimya və neftkimya müəssisləri, iqtisadi təhlükəsizlik aspektləri, Sumqayıt Kimya Sənaye Parkı, iqtisadi təhlükəsizliyin gücləndirilməsində kimya və neftkimya müəssisələrinin rolu.*

İqtisadi təhlükəsizliyin gücləndirilməsində kimya və neftkimya müəssislərinin rolunun artırılmasına metodoloji yanaşmaların sistemli şəkildə təhlil edilməsi və onların xüsusiyyətlərinin öyrənilməsi, ümumiləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, qlobal trendlər və tendensiyalar şəraitində iqtisadi təhlükəsizliyin gücləndirilməsi iqtisadiyyatın strukturunun təkmilləşdirilməsini və rəqabətqabiliyyətli iqtisadiyyat sahələrinin yaradılmasını şərtləndirir. Bu proseslərdə kimya və neftkimya müəssislərinin səmərəliliyinin yüksəldilməsi üçün, əsasən istehsalın diversifikasiyalaşdırılması və yüksək texnologiyaların tətbiqi məsələləri daha optimal olaraq diqqət çəkir. Eyni zamanda kimya və neftkimya müəssisələrinin fəaliyyətinin və istehsal

strkturunun diversifikasiyalaşdırılması müxtəlif yarımfabrikatların və əlavə dəyər verən məshulların istehsalı ilə nəticələnmək imkanına malikdir. Kimya və neftkimya müəssisələrində istehsalın diversifikasiyalaşdırılması zamanı təşkilati-iqtisadi mexanizmlərə strateji yanaşmalar təmin olunmalı, bunlarla bağlı daha təsirli tədbirlərin görülməsinə üstünlük verilməlidir. Dəyər zənciri üzrə istehsalın diversifikasiyalaşdırlmasında müəssisənin xammal potensialı uzunmüddətli dövr üçün güclü şəkildə formalaşdırılmalı və təmin edilməli, dövrün tələblərinə uyğun olaraq, zəruri tədbirlər həyata keçirilməlidir. Eyni zamanada bu müəssisələrdə istehsal sahələrinin məhsuldar texnologiyalar hesabına yenilənməsi zamanı, əsas şərtlərdən biri istehsal zənciri üzrə əlavə dəyər yaradan proseslərinin və mərhələlərin inteqrativliyinin təmin edilməsidir, yəni istehsal proseslərində alınan yeni xammal və yarımfabrikatların yeni məhsula çevrilmək potensialının olmasıdır. Bu baxımdan müəssisənin istehsal strukturunun diversifikasiyalaşdırılması zamanı əlavə dəyər zənciri üzrə çoxfunksiyalı xüsusiyyətlərə malik istehsal proseslərinə və texnologiyalarına üstünlük verilməlidir. Bu halda kimya müəssisələrinin fəaliyyətinin və istehsal strkturunun diversifikasiyalaşdırılması çoxlu sayda yarımfabrikatların və əlavə dəyər verən məshulların istehsalı ilə nəticələnmək imkanına malikdir. Kimya müəssisələrində istehsalın diversifikasiyalaşdırılmasının səmərəli təşkilinin bir qrup prinsiplərinə davamlı şəkildə əməl olunması tələb olunur. Burada, ilk növbədə, istehsalın yenilənməsinin gözlənilən nəticələrinin obyektiv reallıqdan əsaslandırılması və uzunmüddətli dövr üçün proqnozlaşdırlması mühüm əsəmiyyət kəsb edir. Bunlarla yanaşı, kimya müəssisələrinin istehsal imkanlarının diversifikasiyalaşdırılmasında metodoloji üslublar və yanaşmalar həmin müəssisələrinin strateji innovativ hədəflərinə uyğun olmalıdır. Bundan əlavə, müəssisədə istehsal sahələrinin məhsuldar texnologiyalar hesabına yenilənməsi zamanı əsas şərtlərdən biri istehsal zənciri üzrə əlavə dəyər yaradan proseslərinin və mərhələlərin inteqrativliyinin təmin edilməsidir, yəni istehsal proseslərində alınan yeni xammal və yarımfabrikatların yeni məhsula çevrilmək potensialının olmasıdır. Bu baxımdan müəssisənin istehsal strukturunun diversifikasiyalaşdırılması zamanı əlavə dəyər zənciri üzrə çoxfunksiyalı xüsusiyyətlərə malik istehsal proseslərinə və texnologiyalarına üstünlük verilməlidir. Kimya və neftkimya müəssisələrində istehsalın diversifikasiyalaşdırılması zamanı təşkilati-iqtisadi mexanizmlərə strateji yanaşmalar təmin olunmalıdır. *"Əlavə dəyər zənciri üzrə istehsalın diversifikasiyalaşdırlmasında müəssisənin xammal potensialı uzunmüddətli dövr üçün güclü şəkildə formalaşdırılmalı və təmin edilməlidir"* [1]. Bundan əlavə, xammal təminatı ilə bərabər, müəssisənin istehsal potensialının inkişaf strategiyası işlənib hazırlanmalı və ardıcıl şəkildə həyata keçirilməlidir. Bu halda istehsal sahələrinin vahid əlavə dəyər zənciri tsiklində birləşdirilməsinə maksimum səy göstərilməlidir. *"Bu məqsədlərə çatmaq üçün müəssisədə istehsalın yenilənməsi və şaxələndirilməsi problemlərinə strateji yanaşma təmin olunmalıdır"* [2]. Məsələn, əksər dünya ölkələrində, o cümlədən Azərbaycanla qonşu olan bir sıra neft-qaz ölkələrində (Rusiya, Qazaxıstan, Türkmənistan və İran) bu sahənin emal kompleksinin intensiv inkişafına ciddi önəm verilməkdədir və yaxın 10-20 ilə strateji hədəflər müəyyənləşdirilmişdir [3]. Analoji yanaşmalar ölkəmizin neftkimya sektoru və onun dəyər zənciri üzrə potensialı baxımından xeyli aktualdır. Belə ki, neft-qaz xammallarının emal səviyyəsinin yüksəldilməsi və neftkimya kompleksinin inkişafı istiqamətlərində dəyər zənciri üzrə yeni emal sahələrinin təşkili perspektivləri yüksəkdir. Bunun üçün neft və qaz xammallarının ixracı ilə bərabər, bu qiymətli xammal resurslarının emal şəbəkəsinin genişləndirilməsi, istifadəsinin şaxələndirilməsi, bunlarla bağlı məqsədli kompleks tədbirlərin həyata keçirilməsi təmin edilməlidir.

İqtisadi islahatlar və struktur dəyişiklikləri şəraitində iqtisadiyyatın yeni inkişaf mərhələsinə qaldırılması, iqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində kompleks və sistemi tədbirlər həyata keçirilməkdədir. Bu məqsədlərlə müxtəlif milli iqtisadiyyat sektorları üzrə strateji yol xəritələri hazırlanmış və realaşdırılmaqdadır. Bundan əlavə, güclü istehsal və ixrac poetnsialına malik olan iqtisadiyyat sahələrinin əlavə dəyər yaratmaq imkanlarından istifadə edilməsi məsələləri

yüksək prioritetlik təşkil edir. Belə sahələrdən biri də Azərbaycanın sənaye sekotrunda mühüm əhəmiyyət kəsb edən kimya və neftkimya kompleksidir. Qeyd edək ki, kimya və neftkimya kompleksinin strateji hədəfləri ölkəmizin neftqaz sənayesinin perspektiv inkişaf hədəfləri ilə bir yerdə baxılmış və müəyyənləşdirilmişdir [4]. Qeyd etmək lazımdır ki, strateji yol xəritələri çərçivəsində yer almış hədəflərin əksəriyyəti milli iqtisadiyyatın perspektiv sektorların inkişafının sürətləndirilməsi və bu istiqamətlərdə görülən tədbirlər hesabına milli iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsidir. Neftkimya emal müəssisələrinin bu istiqamətdə potensialı kifayət qədər yüksək hesab olunur [5]. Bu yanaşmada kimya və neftkimya sektorunun inkişafı, onun xammal bazasının gücləndirilməsi birbaşa olaraq neftqaz xammallarından asılıdır. Bu qeyd edilənlər nəzərə alınmaqla, kimya və neftkimya müəssisələrində əlavə dəyər zənciri üzrə istehsalın diversifikasiyalaşdırılması aktuallığı ilə diqqət çəkir. Məsələ burasındadır ki, neft və qaz xammalının emal imkanlarının güclü olması ilə əlaqədar olaraq, kimya və neftkimya müəssisələrinin xammal bazasının daha etibarlı formalaşdırılması üçün əlverşli şərait və kifayət qədər potensial mövcuddur [6]. Bundan əlavə, keçmiş SSRİ dövründə respublikamızda çoxlu sayda kimya və neftkimya müəssisələri fəaliyyət göstərirdi və Sumqayıt sənaye mərkəzi güclü kimya və neftkimya mərkəzi kimi tanınırdı [7]. Məsələn, XX əsrin 70-80-ci illərində istismara verilən kimya və neftkimya istehsal qurğularının bir hissəsi hazırda ölkəmizdə istehsal olunan kimya məhsullarının 60-65 %-ni əhatə edir. "Azərikimya" İB-nin "EP-300" qurğusu 1988-ci ildə istismara verlmişdir və hazırda ölkəmizin kimya və neftkimya sənayesinin istehsal bazasını formalaşdırır. Bu qurğuda il ərzində 280-300 min ton həcmində neft və qaz emalından alınan yan məhsulların və yarımfabrikatların emalı həyata keçirilir. Amma həmin qurğunun emal gücünün texnoloji yenilənmədən və təkmilləşdirilmələrdən sonra, 500-600 min tona çatdırılması imkanları vardır. Bununla belə, müasir dövrün tələbləri nəzərə alınmaqla kimya və neftkimya müəssislərində istehsalın daha rəqabətqabiliyyətli təşkili və əlavə dəyər zənciri üzrə şaxələndirilməsi müasir texnologiyaların tətbiqi və güclü xammal bazasının formalaşdırılmasını, satış problemlərinin həll edilməsini, müəssisənin marketinq strategiyasının olmasını şərtləndirir. Müasir dövrdə Sumqayıt Etilen-polietilen zavodu kimi iri emal müəssisələrinin fəaliyyətindən maksimum səmərəli istifadə etmək hesabına, ölkəmizdə qeyri-neft sektorunun inkişafının gücləndirilməsi və intensivləşdirilməsi mümkündür. Bu sırada əsas strateji tədbirlərdən biri həmin kateqoriyadan olan müəssisələrin - emal sənayesi müəssisələrin rəqabətqabiliyyətinin obyektiv təhlil edilərək qiymətləndirilməsi, mövcud potensialın dəyərləndirilməsi və kompleks tədbirlərin görülməsi hesabına bu potensialdan istifadə edilməsinə nail olmaqdır. Bunun üçün Sumqayıt sənaye mərkəzinin elmi-texniki potensialından, ölkəmizdəki neft və təbii qazın neftkimya məhsulları üçün xammal formalaşdırmaq imkanlarından daha çox istifadə olunmalıdır. Təqdirəlayiq haldır ki, bu güclü potensiala malik istehsal qurğusunun yenidən qurulması tədbirləri görülməkdədir və bunun üçün 500 mln. dollar səviyyəsində investisiyanın yönəldilməsi gözlənilir, artıq bu işlər başlanmışdır və intensivləşməkdədir. Bundan əlavə, Sumqayıt "Etilen-Polietilen" zavodunun xammal təminatı, istehsal strukturunun gücləndirilməsi və genişləndirilməsi, istehsalın həcminin artırılması və dünya bazarlarına daha çox rəqabətqabiliyyətli ixrac məhsullarının çıxarılması üçün alternativ xammal mənbələrinin yaradılması, logistik mərkəzlərin təşkili vacib şərtlərdəndir. Ümumiyyətlə, ölkəmizin neftkimya müəssisələrində logistika siyasətinin müasir qlobal iqtisadi çağırışlara uyğunlaşdırılması və təkmilləşdirilməsi tədbirləri görülməlidir [8]. Bu qurğuda ümumi məhsulun maya dəyəri 1 manatlıq məhsula çəkilən xərclər baxımından da kifayət qədər rəqabətqabiliyyətlidir və son nəticədə bunlar özünü zavodun istehsal etdiyi məhsulların satış qiyməti baxımından alıcılar üçün münasib olması ilə nəticələnir və bu zavodun məhsul satışı problemi yox, məhsul istehsalının həcminin artırılması üçün ciddi problemləri vardır. Bir tərəfdən zavodda iri miqyaslı yenidənqurma işlərinin aparılmasına zərurət vardırsa, digər tərəfdən isə zavodda mövcud iriqurğular öz layihə güclərinin cəmisi 35-40 %-i səviyyəsində fəaliyyət göstərirlər. Azərbaycanda neftkimya sənayesinə aid xammal və dəyər

zənciri boyunca xammal resurslarının mövcudluğunu əsas götürməklə, neftkimya məhsullarının, polimer və plastiklərin və digər əlavə dəyər yarada biləcək məhsulların istehsal şəbəkəsinin bərpası və ya yenidən yaradılması məsələləri kompleks baxılmalı, sahənin istehsal potensialı yaradılmalıdır (etilen, propilen, butadien, aromatiklər əsaslı kütləvi plastiklərlə bərabər, digər neftkimya məhsullarının - propilendən alınan məhsullar, poliefirlər, kauçuklar, rezin-texniki məmulatlar və s.). Burada əvvəl Azərbaycanda mövcud olmuş kimya və neftkimya istehsalatlarının ən rəqabətqabiliyyətlisinin əsas kimi götürülməsi də mümkündür [9].

Müasir dövrdə ölkəmizdə kimya və neftkimya müəssisələrinin istehsal potensialının artırılması üçün iri layihələr reallaşdırılmaqdadır. Sumqayıt Sənaye Mərkəzində nəhəng Karbamid zavodu istismara verilmək ərəfəsindədir. Bu zavodda üzvi kənd təsərrüfatı gübrələri istehsal olunacaqdır. Bundan əlavə, SOCAR-Polimer zavodunda aşağı təzyiqli polietilenlərin və digər polimerlərin istehsalı həyata keçiriləcəkdir. Bu baxımdan yaxın perspektivdə kimya və neftkimya kompleksində istehsalın diversifikasiyalaşdırlmasının dərinləşdirilməsi hesabına qeyri-neft sektorunun imkanlarının genişlənidirlməsi gözlənilir. Bütün bunlar isə, milli iqtisadiyyatın şaxələndirilməsi və iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir və s. Ölkəmizdə 2010-2019-cu illərdə neftkimya kompleksində əsaslı struktur və institusional dəyişikliklər aparılmış və xüsusilə, istehsalın strukturunun yenilənməsi istiqamətində böyük həcmli işlər görülmüşdür. Sovetlər Birliyi dönəmindən qalmış və istismar müddəti keçmiş, yaxud səmərəsiz fəaliyyət göstərən çoxlu sayda istehsal sahələri və təhlükəli qurğular istehsalatdan çıxarılmış və ya tamamilə bütövlükdə sökülərək onların yerində müasir istehsal sahələri və gücləri yaradılmışdır. Bundan əlavə, əvvəldə qeyd etdiyimiz kimi, ölkənin neftkimya kompleksinin strateji əhəmiyyət kəsb edən və mühüm qurğusu olan "EP-300" qurğusunun potensialından səmərəli istifadə edilməsi üçün zəruri tədbirlər görülmüşdür. Belə ki, Sumqayıt Etilen-polietilen zavodunun son illərdəki əsas hədəfi mövcud istehsalın modernizasiyası, yeni tikilən polipropilen və polietilen istehsalatlarını tələb olunan miqdarda və keyfiyyətdə xammalla təmin edilməsinə və "EP-300" istehsalatının səmərəliliyinin artırılmasına yönəldilmişdir. Modernizasiya prosesləri başa çatdırıldıqdan sonra "EP-300" istehsalatında yeni idarəetmə sistemi işə düşəcək, bu qurğuda 150 min ton etilen və 180 min ton propilenin istehsalı mümkün olacaqdır [10].

İqtisadi təhlükəsizlik problemləri kontekstində kimya və neftkimya müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla bağlı metodoloji yanaşamaların müasir dövrün tələblərinə uyğun müəyyənləşdirilməsi üçün bir sıra məsələlərə daha çox önəm verilməlidir:

– hazırda fəaliyyətdə olan kimya və neftkimya müəssisələrinin istehsal potensialının artırılması və rəqabətqabiliyyətli, ixracyönlü məhsul istehsalının genişləndirilməsi sayəsində ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üçün əlavə imkanlar yaratmaq mümkündür və bu istiqamətdə sistemli tədbirlərin görülməsi aktuallığı ilə diqqət çəkir;

– iqtisadi təhlükəsizliyin gücləndirilməsində kimya və neftkimya müəssisələrinin rolunun əhəmiyyətli səviyyədə artırılması tədbirləri görülməli, xüsusilə onların xammal təminatı yüksək səviyyədə həyata keçirilməlidir və s.

Ədəbiyyat

1. Удалов А.С. Организационно-экономическое обеспечение реализаци страгтегии предприятия на основе диверсификации. Дисс. канд. экон. наук. Нижний Новгород, 2011, 220 с.

2. Авдеева Т.В. Развитие производственной стратегии промышленного предприятия. Дисс. канд. экон. наук. Саратов, 2010, 219 с.

3. Paşazadə C.H. Azərbaycanda neft-qaz sənayesinin emal şəbəkəsinin genişləndirilməsinin aktual problemləri və perspektivləri. İqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 2016, 36 s.

4. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

5. Azərbaycanın kimya sənayesi haqqında. Azərbaycanın sənaye portalı. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi. Bakı, 2014. https://www.economy.gov.az.

6. Əliyev Ş.T. Azərbaycanın kimya və neftkimya komleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, 2012, 156 s.

7. Əliyev Ş.T. Azərbaycanda neftkimya kompleksinin inkişafının müasir aspektləri və istiqamətləri // Audit, № 3, 2016, s.41-45

8. Əmiraslanova D.Ə. Neftkimya müəssisələrində logistika siyasətinin müəyyənləşdirilməsi və tətbiqi // AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası. Bakı, 2016, s. 137-143.

9. Əliyev Ş.T. Azərbaycanda neftkimya kompleksinin inkişafının müasir aspektləri və istiqamətləri // "Audit" jurnalı, 2016, №3, s. 41-45.

10. Əliyev Ş.T. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt: Azəri nəşriyyatı, 2019, 368 s.

Резюме

Керимли А.С.

Особенности методологических подходов к повышению роли химических и нефтехимических предприятий в усилении экономической безопасности

В статье исследованы особенности методологических подходов к повышению роли химических и нефтехимических предприятий в усилении экономической безопасности страны. Раскрыта сущность усиления экономической безопасности в контексте глобальных изменений. Анализирована важность усиления экономической безопасности химических и нефтехимических предприятий. Обоснована важность эффективного использования потенциала химических и нефтехимических предприятий в условиях экономических реформ и структурных изменений. Отмечена объективная необходимость обновления химических и нефтехимических предприятий на основе высоких технологий. Раскрыта многофункциональная роль производственной инфраструктуры, созданной в Сумгайытском химическом промышленном парке, в усилении экономической безопасности страны. Осуществлено обобщение и даны рекомендации по особенностям методологических подходов в повышении роли химических и нефтехимических предприятий в усилении экономической безопасности страны.

Ключевые слова: *экономическая безопасность, усиление экономической безопасности, химические и нефтехимические предприятия, аспекты экономической безопасности, Сумгайытский химический промышленный парк, роль химических и нефтехимических предприятий в усилении экономической безопасности.*

Summary

Karimli A.S.

Features of Methodological Approaches to Increasing the role of Chemical and Petrochemical Enterprises in Strengthening of Economic Security

The features of methodological approaches to increasing the role of chemical and petrochemical enterprises in strengthening of economic security of the country are explored in the article. The essence of strengthening of economic security in the context of global changes is

disclosed for this purpose. The importance of strengthening of economic security of chemical and petrochemical enterprises is analyzed then. The relevance of effective use of the potential of chemical and petrochemical enterprises in the context of economic reforms and structural changes is investigated too. The objective necessity of renewal of chemical and petrochemical enterprises on the basis of high technologies is noted. The multifunctional role of production infrastructure created in Sumgait Chemical Industrial Park in strengthening the economic security of the country is analyzed. Recommendations on the features of methodological approaches in increasing the role of chemical and petrochemical enterprises in strengthening of economic security of the country are given in the end of the article.

Key words: *economic security, strengthening of economic security, chemical and petrochemical enterprises, aspects of economic security, Sumgait Chemical Industrial Park, role of chemical and petrochemical enterprises in strengthening of economic security.*

KORPORATİV İDARƏETMƏNİN PERSPEKTİVLƏRİ

Kərimli Vüqar Bəhram oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
kerimli.vugar79@gmail.com

Xülasə: *Müasir iqtisadiyyatda korporativ idarəetməyə cəmiyyətin maraqlarının maneəsiz artması müşahidə edilməkdədir. Korporativ idarəetmə üzrə günün tələblərinə dair maraqların ifadəsi müxtəlif qəzet və jurnallarda, informasiya bülletenlərində nəşr edilir və internetdə səhifələr təşkil olunur, bu diqqəti cəlb edən məlumat və səhifələrdə problemlərin həlli üzrə elmi nəticələrə gəlinir və tövsiyələr edilir.*

Açar sözlər: *korporativ idarəetmə, cəmiyyət maraqları, iştirakçılar sferası, internet imkanları; investorlar, fermer korporativləri*

Giriş

İdarəetmə sistemində qarşıya çıxan problemlərdən biri də ASK və şirkətlərin idarəedilməsində tam bir sıra düzgün olmayan idarəetmə hallarına yol verilməsidir. Elə bu səbəblər də XX əsrin 90-cı illərində Britaniya Kedberi komitəsinin fəaliyyətini əsaslandırdı. Bundan bir qədər keçmiş bir sıra ölkələrin analoji təşkilatlarında da, o cümlədən; Kanada, Avstraliya, Hollandiya və Fransada bu gedişat təkrarlandı. Korporativ idarəetmə problemlərinin həllinə maraqların artmasının başqa bir səbəbi isə inkişaf etməkdə olan bazarlara malik ölkələrdə maliyyə çaşbaşlığının (vahid nəticəyə gələ bilmənin) olmasıdır. Tədqiqatlardan belə bir nəticəyə gəlinir ki, özünün mühümlüyü ilə qeyd edilən hallar izah etməyə imkan verir ki, korporativ idarəetmənin problemləri niyə böyük diqqət cəlb edir. Ümumdünya miqyasında belə bir vəziyyətin yaranması səbəbi ondan ibarətdir ki, korporativ idarəetmə problemlərinin inkişaf etmiş ölkələrdə və inkişaf etməkdə olan ölkələrdə yaranması həmin ölkələrin inkişaf gedişində meydana çıxan təzahürlərlə əlaqədardır. Bu təzahürlər korporativ idarəetmənin fundamental əsaslarını dəyişməsə də, onlar bir çox hallarda bu anlama yeni məzmun gətirdi və onun mahiyyət və mənasını müəyyən qədər inkişaf etmiş ölkələr üçün və bütövlükdə dünya üçün yüksəltdi [1].

Qlobal miqyasda aqrar sahələrdə ASK və kəndli təsərrüfatları birlikləri ictimai sərvətin yaradılmasında bu gün daha mühüm silaha çevrilməkdədir. İyirmi illik müddətdə kapital bazarlarının liberallaşdırlmasında, rəqabət sahəsində siyasətin təkmilləşdirilməsində özəlləşdirmə proqnozunun reallaşması iqtisadi inkişaf gedişində əsas rol oynamamışdır. Özəl əsaslarla ASK-nin və kooperativlərin təşkili daha çox dərəcədə iş yerləri yaradılmasına inam yaradır, vergi mədaxilləri

toplanması imkanını artırır və bazarların əmtəə xidmətləri ilə təmin edilməsini müəyyən dərəcədə təmin edir. Bu gün ölkədə ASK-nin və fermer kooperativlərinin imkanlarından kapital yığımının idarə edilməsində, investisiyaların qiymətləndirilməsində və pensiya təminatının formalaşdırılmasında geniş və səmərəli istifadə edilməsi qarşıda durur.

Bu gün ölkə əhalisinin arzularının həqiqətə çevirmək və iqtisadiyyatımızın əsas funksiyasını həyata keçirmək prosesində ASK, kəndli-fermer kooperativləri və investorlar qarşıya qoyulan məqsədə nail olmağa diqqətlərini istiqamətləndirməli rəqabətqabiliyyətli və hesabatverici qabiliyyətə malik olmalıdırlar. Əgər qarşıya qoyulanlar həyata keçirilməzsə, onda ölkə nəinki yalnız maddi nemətlərin əhəmiyyətli hissəsini əldə edə bilməyəcək, eyni zamanda bazar institutularına inamsızlıqlarla qarşılaşacaqdır [2].

Bu səbəblərdən də, kənd əraziləri təsərrüfatlarında iqtisadi islahatların aparılması tədbirləri, ASK-nin və kəndli təsərrüfatları birliklərinin sözsüz öhdəliklərinin, yeni öz işgüzar təcrübələrinin təkmilləşdirilməsi ilə müşahidə olunmalıdır. Bu baxımdan düzgün qurulmuş idarəetmə sistemi nəinki yalnız ASK və birliklərin aktivlərinin itkilərdən qaçınılmasına imkan verir, habelə o, özünü maliyyə şəffaflığında ifadə edir və maliyyə şəffaflığının təminatçısı kimi hesabatlılığında və investorların cavabdehliyində özünü göstərir. Beynəlxalq miqyasda təsərrüfat strukturlarının qarşılıqlı asılılıqları ilə xarakterizə olunan müasir dünyada ümumi əlaqəli işləmək bacarığı və korporativ idarəetmənin müxtəlif elementlərini başa düşmək ASK və kooperativlər üçün kənd ərazilərində mühüm amilə çevrilir [3].

Korporativ idarəetmənin müxtəlif amillərdən asılı olması

Aparılmış araşdırmalardan aydın edirik ki, heç bir inkişaf etmiş ölkədə korporativ idarəetmə sisteminin bütün elementləri hər hansı bir idarəetmə orqanı tərəfindən müəyyən edilmir. Əksinə, bu elementlər müxtəlif amillərdən, o cümlədən; qanunvericilikdən, bazarın tənzimlənmə mexanizimlərindən, assosiasiyalardan, özəl ASK və birliklərin bazarda davranış normalarının müəyyən edilməsindən asılıdır. Bunlarla birlikdə müxtəlif ölkələrdə ayrı-ayrı amillərin təsirlərinin müəyyən edilməsində onların rolu olduqca müxtəlif ola bilər. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, korporativ idarəetmənin institutsional əsasları aşağıdakı əsas elementlərdən təşkil olunur:

- Status hüququnun norma və qaydalarından;
- Könüllü qəbul edilmiş standartların və korporativ idarəetməni tənzimləyən daxili normalardan;
- Elan edilməmiş qaydalar, sosial normalar və işgüzar münasibətlərin mədəniyyətindən.

Status qaydalarının və normalarının müəyyən edilməsi dövlət siyasəti daxilində müəyyənləşir və bu səbəbdən də, adətən korporativ idarəetməyə cəmiyyətin faydasına iqtisadi artımın təminatı və özəl bölmənin təkmilləşdirən vasitə kimi baxılır ki, burada məqsəd bütün cəmiyyətin maraqları naminə iqtisadi artımın təmin edilməsidir. Bu göstərici artımının təmin edilməsində başlıca məqsəd kommersiya fəaliyyətində səmərəli metodların səbatlı qanunvericiliyin yaradılması yolu ilə dəstəklənməsi və onun icra edilməsinə təminat verilməsidir. Bu qanunvericilik bazası müxtəlif bazar subyektlərinin, o cümlədən ASK və kooperativlərin məhsullarının satışının əsas hüquq və vəzifələrinin hüdudlarının ayrılmaz hissəsini təşkil etməklə qanunun qüvvədə olması xəttini ifadə edir. Qeyd edilən qanunvericilik bazası eyni zamanda dəyən zərərin ödənilməsini və hüquqi prosedurunu əvvəlcədən müəyyən edir və qanunların kommersiya təcrübəsinə uyğun olmasına təminat verir.

Müasir iqtisadi inkişaf mərhələsində sahibkar firmalarının fəaliyyətində şəffaflığı yüksəltmək və onların səhmdarlarının hüquqlarını müdafiə etmək üçün şirkətlər və birliklər haqqında qanunvericilikdən istifadə edirlər. Uyğun təsəvvürlər bir çox ölkələrdə, o cümlədən, Almaniyada tədqiq edilən müəssisələrin fəaliyyətində şəffaflıq və nəzarət haqqında qanunun

əsasında əks etdirilir ki, bu qanun 1988-ci ildə qüvvəyə minmişdir. Habelə Yaponiyanın ticarət məcəlləsindəki dəyişikliklərdir ki, bunlar səhmdarlar üçün mübahisələrin həlli qaydalarını sadələşdirmiş və xarici auditorun təyinatını qanuniləşdirmişdir [4,s.100].

Nəticə

Səhmdarlarının müdafiəsinə yönəldilmiş əsasnamə nəzarətedici səhmlər zərfinə malik olmayan səhmdarların müdafiəsinə, fəaliyyətinin şəffaflığının təmininə, habelə insayder əməliyyatlarına qarşı yönəldilmiş əsasnamə ilə yanaşı, qiymətli kağızlar haqqında qanunvericilikdə normalar nəzərdə tutulur ki, onların vasitəsilə o, müxtəlif maliyyə alətlərinin həcminə və istifadə edilməsinə təsir edə bilər. Məsələn, menecerlərin stimullaşdırılması vasitəsilə səhmlərin əldə edilməsi üçün opsionlardan istifadə edilə bilər. Bu istiqamətdə geniş istifadə edilən nümunələrdən biri də, ABŞ-da aparılan səhmdarların potensial risklərinə dair müzakirələrdir. Bunlarda qərara gəlinir ki, şirkətlərin fəaliyyətinə qarşı birgə hərəkət etsinlər. O hallar da ki, qiymətli kağızlar haqqında qanunvericiliyin hərəkət dairəsi və şirkətlər arasında fərqlənmələr kifayət qədər dəqiq olmur, bu halda hər iki əsas qanun tez-tez bir-birini tamamlayır. Ona görə də onların korporativ idarəetməyə təsirlərinin müəyyən edilməsində hər iki qanunun təsirlərindən alınan səmərəyə xüsusi diqqət vermək lazımdır.

Ədəbiyyat

1. Azərbacan Respublikasının “Səhmdar Cəmiyətləri haqqında” Qanunu. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. Bakı, II c. 8 aprel 1992-ci il.

2. Кондратьев В., Кунренков Ю. Корпоративное управление инвестиционным процессом. Проблемы теории и практики управления. 2001. №2.

3. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı. Azərbaycan qəzeti, 20 aprel 2009-cu il.

4. Kərimli V.B. Aqrar sahədə strateji menecment. Bakı, 2018,100 s.

Резюме

Керимли В.Б.

Перспективы корпоративного управления

В современной экономике наблюдается беспрерывное увеличение интересов общества к корпоративному менеджменту. В результате исследований делаются выводы, о том, что имеющиеся позитивные факты дают обширные возможности, определяются проблемы корпоративного менеджмента, требующие большого внимания.

Ключевые слова: *интересы общества, корпоративный менеджмент, исследования в современной экономике, инвесторы*

Summary

Kerimli V.B.

Perspektive Corporatizes Managements

In the modern economy, there is a continuous increase in public interest in corporate management. As a result of the research, conclusions are drawn that the available positive facts provide extensive opportunities, identifies corporate management problems that require great attention.

Key words: *public interests, corporate management, research in the modern economy, investors*

BAZAR SUBYEKTLƏRİNİN KOMMERSİYA FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

Qasımova Zülfiyyə Mirzə qızı
Sumqayıt Dövlət Universiteti
qasimovazulfiyya75@gmail.com

Xülasə: *Məhsul istehsalının artırılması və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi probleminin həlli məqsədilə bazar subyektlərinin kommersiya fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi daim iqtisad elminin qarşısında duran ən başlıca vəzifələrdən biri olmuş və olmaqda davam edir. Məqalədə bazar subyektlərinin kommersiya fəaliyyətinin idarəedilməsinin zəruriliyi məsələsinə baxılmış və onların idarəetmə sisteminin təşkilati strukturunun təkmilləşdirilməsi istiqamətləri tədqiq edilmişdir. Eyni zamanda bazar subyektlərinin kommersiya fəaliyyətinin idarə edilməsinin səmərəliliyinə təsir göstərən amillər də araşdırılmışdır.*

Açar sözlər: *bazar subyektləri, kommersiya fəaliyyəti, idarəetmə, səmərə, intensivləşdirmə, ticarət, elmi-texniki tərəqqi*

Son onllərdə ölkə iqtisadiyyatında kommersiya strukturlarının rolu xeyli artmışdır. Ölkədə bazar münasibətlərinin inkişafı və dünya iqtisadiyyatı sistemi ilə əlaqələrin dərinləşməsi bazar strukturların fəaliyyətlərini artırmaqda təşəbbüs göstərməsini tələb edir. Dövlət iqtisadiyyatının bütövlükdə inkişaf səviyyəsi hər bir fərdi təşkilatın işində kommersiya fəaliyyətinin nə qədər səmərəli olduğuna bağlıdır. Öz növbəsində, bazar subyektləri üçün iqtisadi inkişaf imkanları iqtisadi inkişaf səviyyəsindən asılıdır. Dövlətin iqtisadiyyatında sahibkarlıq sahəsində kommersiya fəaliyyəti xüsusi yer tutur. Kommersiya fəaliyyətinin əlaqələrini həyata keçirməklə istehsal və istehlak arasındakı əlaqə gerçəkləşir. İstehsalçı müəssisələrin əməyinin nəticələrinə və buna görə də bu müəssisələrin fəaliyyətinin son nəticələrinə və ümumiyyətlə ölkə iqtisadiyyatının inkişafı üçün son istehlakçının tələbi kommersiya fəaliyyətinin səmərəliliyindən çox asılıdır.

Azərbaycanın hazırkı iqtisadi şəraitində hər bir təsərrüfat subyektinin yaşaması üçün ağlabatan iqtisadi siyasət aparmaq, kommersiya fəaliyyətini keyfiyyətcə yeni əsaslarla inkişaf etdirmək, ticarət müəssisəsinin bütün sahələrində yüksək rəqabət qabiliyyətinə nail olmaq və hər şeydən əvvəl kommersiya baxımından ən vacib funksiyasını həyata keçirmək lazımdır. Kommersiya fəaliyyəti dedikdə, seçilmiş bazar seqmentində tələbin öyrənilməsi, iqtisadi münasibətlərin qurulması, müvafiq keyfiyyət dəyəri ilə malların kommersiya çeşidinin yaradılması, habelə bu malların satılması üçün şəraitin yaradılması, mənfəət əldə edilməsi məqsədi ilə bazar subyektlərinin fəaliyyəti başa düşülməlidir. Bu vəziyyətdə kommersiya fəaliyyəti iqtisadi əlaqələrin idarə olunması üçün ən vacib mexanizmdir. Bunlar iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən subyektlər arasında mal, xidmət, elmi və texniki məlumat mübadiləsi prosesində, istehsal vasitələri, xammal və s. arasındakı müqavilə münasibətlərinin inkişafına səbəb olur.

Kommersiya fəaliyyətinin əsas məqsədi yüksək xidmət mədəniyyəti ilə müştəri tələbatını ödəməklə qazanc əldə etmək və bazardakı dəyişikliklərə çevik reaksiya verməkdir.

Kommersiya fəaliyyəti bilavasitə təşkilatlar, müəssisələr, hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən həyata keçirilir. Mal və xidmətlər bazarında təsərrüfat subyektləri arasında mübadilə əməliyyatlarını təmin edir. Kommersiya fəaliyyəti qanunvericilik, hüquqi və normativ aktlara uyğun olaraq həyata keçirilir.

Yuxarıda göstərilənlərə əsasən demək olar ki, mal və xidmətlər bazarında kommersiya fəaliyyəti birjaya xidmət edən təşkilati və iqtisadi əməliyyatlar məcmusudur və qazanc əldə etmək məqsədi ilə alqı-satqı münasibətləridir.

Kommersiya fəaliyyəti aşağıdakı mərhələlərdən ibarətdir:

1. Kommersiya fəaliyyətinin informasiya təminatı.

2. Mallara olan ehtiyacın müəyyən edilməsi (bazarın və onun seqmentlərinin, tədarük həcminin və çeşid quruluşunun müəyyən edilməsi, birdəfəlik göndərişlərin vaxtı və ölçüləri).

3. İqtisadi münasibətlər və təşviq kanalları qurmaq üçün tərəfdaşların seçimi (tədarük mənbələrinin, tədarükçülərin və onların imkanlarının öyrənilməsi; tədarükçülərin seçiminin iqtisadi məqsədəuyğunluğu və malların təşviqi üçün ən yaxşı seçim; malların bazarda tanıdılması üzrə tərəfdaşlar arasında funksiyaların bölüşdürülməsi).

4. Tərəfdaşlar arasında iqtisadi əlaqələrin qurulması üçün kommersiya fəaliyyətləri (iqtisadi münasibətlər formasının seçilməsi, müqavilə layihəsinin hazırlanması, müqavilənin şərtlərini razılaşdırmaq, müqavilə imzalamaq üçün danışıqlar prosesi).

5. Malların topdansatışı (satınalmaların təşkilati formalarının əsaslandırılması və seçimi, topdansatışların təşkili, satınalmaların sənədləşdirilməsi, müqavilələrin icrasına nəzarət).

6. Malların topdan satışında ticarət fəaliyyəti (topdansatış formasının seçilməsi, tədarük müqaviləsinin hazırlanması və imzalanması, topdan satışın təşkili, topdansatış sənədləşdirilməsi, tədarük müqaviləsinin icrasına nəzarət).

7. Malların pərakəndə satışının təşkili ilə bağlı kommersiya fəaliyyəti (müştəri tələbinin öyrənilməsi, mağaza mallarının çeşidinin formalaşdırılması, malların çatdırılma vaxtının və müddətinin müəyyənləşdirilməsi, satışın forma və metodlarının seçilməsi, satışın artmasının stimullaşdırılması, maliyyələşdirmə).

8. Reklam və məlumatlandırma işləri (reklamdan istifadə məqsədəuyğunluğunun əsaslandırılması, reklam və reklam vasitələrinin növünü seçmək, reklam şirkətini inkişaf etdirmək, reklamın effektivliyini qiymətləndirmək).

9. Servis dəstəyi (tələb olunan xidmətlərin seçilməsi; satışdan əvvəl, satış sonrası dövrlərdə və malların satılması, xidmət göstərilməsi zamanı xidmətlərin göstərilməsi).

10. Əmtəə ehtiyatlarının idarə edilməsi (əmtəə ehtiyatlarının formalaşdırılması; əmtəə ehtiyatlarının tələb və bazar tələblərinə uyğun saxlanılması; manevrlər, ehtiyatların normallaşdırılması; malların dövriyyəsini sürətləndirmək üçün ticarət fəaliyyəti) [2].

Kommersiya fəaliyyəti malların bazarda tanıdılmasının bütün yolu boyunca aparılır. Ticarət təşkilatının fəaliyyət növündən asılı olaraq, təqdim olunan bəzi addımlar xaric edilə bilər və ya fəaliyyətin xüsusiyyətlərinə uyğunlaşdırıla bilər. Belə ki, topdansatış ticarəti ilə məşğul olan ticarət təşkilatı üçün yeddinci mərhələ istisna edilir, öz növbəsində pərakəndə ticarət təşkilatı malların topdan satışında ticari fəaliyyət göstərmir.

Beləliklə, bazar subyektlərinin kommersiya fəaliyyətinin aşağıdakı əsas sahələrini ayırd edə bilərik:

- kommersiya təşkilatında iqtisadi əlaqələrin və müqavilə işlərinin təşkili;
- malların alınması üçün kommersiya fəaliyyəti;
- malların satışı üzrə kommersiya işləri;
- kommersiya təşkilatında çeşidin formalaşdırılması və inventarların idarə edilməsi;
- reklam və məhsulun tanıdılması [3, s.28].

Bazar iqtisadiyyatı şəraitində bazar subyektlərinin kommersiya fəaliyyətinin səmərəliliyi ilk növbədə onların idarə olunmasının düzgün təşkilindən asılıdır.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi bazisin əsası olan mülkiyyət üzərində yeni təsərrüfatçılıq formalarının yaradılması, xüsusi mülkiyyətə və azad sahibkarlığa geniş yer verilməsini, iqtisadiyyatın rəqabət prinsipləri əsasında dövlət tənzimlənməsini tələb edir. Qiymətlərin liberallaşdırılması, bank-maliyyə sisteminin yeniləşdirilməsi, təchizat, texniki xidmət, məhsulun istehsalı, emalı və satışında baş vermiş dəyişikliklər, həmin proseslərin kompleks şəkildə idarə edilməsini tələb edir. Bazar iqtisadiyyatı şəraitində müəssisə və ərazi səviyyəsində

idarəetmənin təşkilati-iqtisadi mexanizminin yenidən qurulması bazar subyektlərinin kommersiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə təsir edən ən mühüm amillərdən biridir.

Bazar subyektlərinin kommersiya fəaliyyətinin idarəetmə sisteminin təşkilati strukturunun təkmilləşdirilməsinin aşağıdakı əsas istiqamətlərini göstərmək olar:

- idarəetmənin konkret plan – iqtisad mexanizminin təkmilləşdirilməsi;
- idarəetmənin təşkiletmə mexanizminin, təşkilat formalarının təkmilləşdirilməsi;
- kadr probleminin günün tələbləri səviyyəsində həll olunması;
- idarəetmə əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması;
- idarəetmə aparatının informasiya təminatı;
- idarəetmə aparatında və onun bölmələrində işçilərin sayının normativ qaydada müəyyən edilməsi və s [1].

Deməli, idarəetmə aparatı strukturunun təkmilləşdirilməsinin də çox mühüm əhəmiyyəti vardır. Ümumiyyətlə, bazar subyektlərinin idarəetmə strukturunun təkmilləşdirilməsi onun fəaliyyətində bir çox müsbət nəticələrə gətirib çıxara bilər. Ona görə də bu məsələlərin müvəffəqiyyətlə həyata keçirilməsi müəssisələr qarşısında duran ən mühüm problemlərdən biridir.

Sahibkarlıqda kommersiya fəaliyyəti ticarət təşkilatının işinin son nəticələri ilə sıx bağlıdır. Kommersiya fəaliyyəti nə qədər effektiv olsa, son nəticələr daha yaxşı olar və ya əksinə. Buna görə yalnız bütün sahələrdə davamlı kommersiya fəaliyyəti aparmaqla yanaşı, həm də onun səmərəliliyini daim qiymətləndirmək lazımdır. Bu, "zəif cəhətləri" vaxtında aşkar etməyə və bazar subyektlərinin kommersiya fəaliyyətini yaxşılaşdırmaq və səmərəliliyini artırmaq üçün tədbirlərin hazırlanmasına imkan verəcəkdir. Hal-hazırda ticarət təşkilatının kommersiya fəaliyyətinin səmərəliliyini ən yüksək qiymətləndirmək üçün vahid göstəricilər sistemi mövcud deyil. Kommersiya fəaliyyətinin xarakteri və məzmununa əsasən, onun hər bir elementinin səmərəliliyinin qiymətləndirilməsinə əsaslanaraq, topdansatış ticarətindəki səmərəliliyinin qiymətləndirilməsi məsləhət görülür.

Bazar subyektlərinin fəaliyyətindən maksimum nəticə əldə etmək üçün daim ticarət fəaliyyətini inkişaf etdirmək üçün çalışmaq lazımdır. Təkmilləşdirmə tədbirlərinin inkişafı onun hər bir sahəsindəki kommersiya işiin səmərəliliyinin qiymətləndirilməsinin nəticələrinə əsaslanmalıdır. Bununla yanaşı, ticarət fəaliyyətinin səmərəliliyini artırmaq üçün müəyyən tədbirlərin inkişafı kommersiya təşkilatının fəaliyyət göstərdiyi xüsusi şərtlərlə (daxili və xarici) müəyyən edilir.

Biznesin uğurlu inkişafını təmin etmək üçün kommersiya fəaliyyətinin bütün sahələrinin səmərəliliyini daim artırmaq lazımdır. Müvafiq tədbirləri hazırlayarkən, ilk növbədə, strateji hədəfləri və buna nail olmağın yollarını düzgün müəyyənləşdirmək vacibdir. Öz növbəsində, bu tədbirlərin səmərəliliyi kommersiya fəaliyyətini necə düzgün və dəqiq analiz etməkdən asılıdır.

Ədəbiyyat

1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin Nəşriyyatı, 2011, 464 s.

2. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı: Azərnəşr, 2009, 600 s.

3. Paşayev K.P. Kommersiya fəaliyyətinin əsasları. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2012, 458 s.

Резюме

Гасымова З.М.

Пути повышения эффективности управления коммерческой деятельностью рыночных субъектов

Совершенствование управления коммерческой деятельностью рыночных субъектов с целью решения проблемы роста национального производства всегда было и остается одной

из важнейших задач экономической наука повышения экономической эффективности. В статье рассмотрены вопросы необходимости управления коммерческой деятельностью рыночных субъектов, и изучены направления совершенствования организационной структуры их управления. Также исследованы факторы, влияющие на эффективность управления коммерческой деятельностью рыночных субъектов.

Ключевые слова: *субъекты рынка, коммерческая деятельность, управление, рентабельность, интенсификация, торговля, научно-технический прогресс*

Summary

Gasimova Z.M.

Ways to Improve the Management of Commercial Activities of Market Entities

Improving the management of the commercial activities of market entities in order to solve the problem of the growth of national production has always been and remains one of the most important tasks of economic science to increase economic efficiency. The article discusses the need to manage the commercial activities of market entities and explores areas for improving the organizational structure of their management. Also investigated the factors affecting the efficiency of managing the commercial activities of market entities.

Key words: *market entities, commercial activity, management, profitability, intensification, trade, scientific and technological progress*

AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİ SİSTEMİNİN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ (REGİONAL İNKİŞAF KONTEKSTİNDƏ)

Qurbanova İntizar Mirzəli qızı
AMEA-nın İqtisadiyyat İnstitutu
q.intizar@mail.ru

Xülasə: *Regionların inkişafı kənd təsərrüfatının genişləndirilməsi, yerli tələbatların daxili resurslar hesabına ödənilməsinə, ixracyönümlü məhsul istehsalının artırılmasına, regionlarda yeni iş yerlərinin açılmasına və bununla da, peşə kadrlarına tələbatın çoxalmasına vəsilə olur. Məqalədə qeyd edilir ki, bölgələrin inkişafı üçün başlıca məsələlərdən biri yerli əmək ehtiyatlarının səmərəli istifadəsidir. Bunun üçün gənclərin peşə-ixtisas təhsili ilə əhatə olunması yaxşılaşdırılmalıdır. Ən optimal variantlardan biri də tam orta məktəblərin son siniflərində (xüsusilə də kənd yerlərində) ilk peşə təhsilinin verilməsidir. Həmin peşələr seçilərkən hər bir regionun iqtisadi ixtisaslaşması və gələcək inkişaf hədəfləri nəzərə alınmalıdır.*

Açar sözlər: *kənd təsərrüfatı, region, məşğulluq, peşə təhsili, dövlət proqramları, inkişaf.*

Tədqiqatlar göstərir ki, son illərdə, xüsusilə də birinci Məşğulluq strategiyasının həyata keçirilməsindən başlayan dövrdən, 2005-ci ildən bu tərəfə ölkəmizdə yeni qanun layihələrinin və dövlət proqramlarının hazırlanması və icrası nəticəsində işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalmış, açılmış yeni-yeni iş yerləri sayəsində əhali arasında məşğulluq artmışdır. Rəsmi məlumatlara əsasən işsizlik səviyyəsi 5%-i keçmir, əmək bazarına diqqət yetirdikdə yeni-yeni peşələr üzrə kadr tələbatının artdığının şahidi oluruq. Bu tələbatların ödənilməsi üçün peşə təhsili sistemində yeni ixtisas standartları hazırlanır və əvvəllər respublikamız üçün qeyri-ənənəvi olan sahələrin yaranmasını, eləcə də əvvəllər inkişaf etmiş əməktutumlu sahələrin (pambıqçılıq, tütünçülük, baramaçılıq kimi) yenidən inkişafda olduğunu nəzərə alaraq, həmin peşələrə uyğun

ixtisaslı kadr hazırlığı yer almışdır. Sözsüz ki, bunlar ölkə iqtisadiyyatındakı inkişafın və artımın nəticəsidir.

Müasir mərhələdə əsas problemlər kadr hazırlığının tələb olunan keyfiyyətdə aparılması, rəqabətqabiliyyətli iş qüvvəsinin formalaşması, əmək ehtiyatlarının mümkün qədər səmərəli istifadəsi ilə bağlıdır. Son illərə qədər peşə təhsili sisteminin normativ-hüquqi bazasının möhkəmləndirilməsi qarşıda duran əsas məsələlərdən biri idi.

Xüsusilə 2016-2019-cu illərdə peşə təhsilnin inkişafı və əmək bazarı ilə əlaqələrinin sıxlaşdırılması istiqamətində əsaslı yeniliklər edilmiş, mütərəqqi sosial layihələr və qanunlar hazırlanmış və həyata keçirilməkdədir. İqtisadiyyatın 11 prioritet sahələrini, o cümlədən peşə təhsilini əhatə edən strateji yol xəritələrinin hazırlanması xüsusi qeyd olunmalıdır. 2018-ci ildə Peşə təhsili Qanunun, yeni Məşğulluq Qanununun qəbulu, Milli İxtisas Çərçivəsinin təsdiqi peşə təhsili sisteminə və məşğulluğa dair nəzərdə tutulmuş bir çox məsələlərin həlli yollarını özündə cəmləşdirdi. İndi əsas diqqət nəzərdə tutulmuş yeniliklərin səmərəli şəkildə tətbiq olunmasına yönəldilməlidir.

Əmək bazarının araşdırılması göstərir ki, yeni texnologiyalarla işləməyi bacaran kadrlara tələbat böyük olaraq qalır. Lakin işəgötürənlərin çox az hissəsi belə kadrların hazırlanmasına vəsait xərcləmək istəyir, əksər hallarda hazır kadrlara sahib olmağı üstün tuturlar. Dünya təcrübələrində isə firmalar onlara lazım olan kadrların hazırlanmasında yaxından iştirak edirlər. BƏT-in tədqiqatları nəticəsində məlum olur ki, şagirdlik – iş əsasında öyrənmə (*apprenticeships, work-based learning*) bir çox ölkələrdə layiqli işlə təmin olunmaq üçün daha sərfəli sayılır [1].

Azərbaycanda da əgər işəgötürənlər gənc kadrlara şans vermək üçün təcrübəçi yerləri açsalar, özlərinə lazım olan kadrların hazırlanmasında bilavasitə iştirak edə və ehtiyac duyduqları keyfiyyət və bacarıqların öyrədilməsinə nail ola bilərlər. Bununla da, az vəsait sərf etməklə, istədikləri səviyyədə kadr bazası yarada bilərlər, belə kadrlar onlar üçün daha çox dəyər yaradarlar. Kiçik sahibkarlıq subyektləri bunu birlikdə həyata keçirə bilərlər. Sadəcə olaraq məsələnin mahiyyətini düzgün başa düşərək qiymətləndirmək və vətəndaşlıq mövqeyindən çıxış etmək lazımdır.

Dünya praktikasında səmərəli hesab olunan təhsil formalarını (şagirdlik, dual təhsil və s.) tətbiq etməklə peşə təhsilinin məşğulluğa təsirini yaxşılaşdırmaq olar. Azərbaycan üçün əslində demək olar ki, bunlar yenilik deyil, peşə təhsilinin tarixi bir çox inkişaf etmiş ölkələrdən daha qədimdir (1843-cü ildə İpəkçilik Praktiki Sənət Məktbinin açılması). Sənətkarlıq ölkəmizdə çox qədim köklərə bağlanır və sənətkarların yanında bir neçə şagirdi olurdu ki, işi sənətkardan öyrənsin və zamanında usta olub, o da öz şagirdlərinə öyrətsin, beləliklə, həm qazanc əldə edir, həm köməkçi saxlayır, həm də sənətlərini əsrlərlə yaşatmağı bacarırdılar. Məsələn, Şəki rayonunda halvaçılıq sənəti ilə məşğul olan və onu nəsildən-nəslə ötürən çox sayda ailələr vardır.

İri sənaye birliklərinin çox olduğu planlı iqtisadiyyat zamanında (XX əsr) zavod və fabriklərin peşə müəssisələrini 100 mindən artıq gənc bitirib, tezliklə işlə təmin olunurdu. ABŞ kimi inkişaf etmiş ölkələrdə işsizlik böyük bir problem olduğu zaman Azərbaycanda belə bir anlayış yox idi. İndi isə işsizliyə adi hal kimi baxılır, lakin bu, qısamüddətli işsizlikdirsə, adi sayıla bilər, uzunmüddətli olduqda və bir ailədə bir yox, bir neçə işsiz olduqda çox ciddi problemdir. Buna görə də dövlətimizin ailə bizneslərinin yaradılmasına dəstək verməsi (özünüməşğulluq, ABAD layihələrinin icrası və s.) mühüm addımlardandır, bu kimi tədbirlərin daha da genişləndirilməsi məqsədəuyğundur.

Respublikamızda yerinə yetirilən bütün Dövlət proqramlarının prioritet istiqamətlərinin tərkibində məşğulluq məsələsinin həlli baxımından peşə təhsilinin inkişaf etdirilməsinin xüsusi yeri vardır. Məşğulluğun, o cümlədən səmərəli məşğulluğun artırılması məqsədi daşıyan bütün

üsullardan istifadə olunur. Tədqiqatın gedişində görmək olur ki, peşə təhsilinin məşğulluğa həm *birbaşa*, həm də *dolayı* təsiri vardır. Birbaşa təsir odur ki, peşə təhsili alan gənclərin sayının çox olması ilə işsizlərin sayı azalır, bitirdikdən sonra isə peşəkar olduqlarına görə daha tez iş tapırlar. Dolayı təsir dedikdə, işlə təmin olunanlar əlavə dəyər yaradırlar, istehsal və məhsuldarlıq yüksəlir, bununla ÜDM və milli gəlir artır, əhalinin gəlirləri çoxalır, əməkhaqları artır, öz növbəsində bunlar da hamısı məşğulluğu artıran faktorlara aiddir. Eynilə də məşğulluq (yeni iş yerlərinin açılması) peşə təhsili sisteminin inkişafına müsbət təsir göstərir.

Əlbəttə ki, məqsəd səmərəli məşğulluğu artırmaqdır. Buna görə də diqqətin yalnız əməktutumlu sahələrə yönəldilməsi ilə məsələ yekunlaşmır, daha artıq əlavə dəyər yaradılması da nəzərdə saxlanılmalıdır. Məsələn, ən çox məşğulluq kənd təsərrüfatı sahəsində olsa da, (məşğulluqda xüsusi çəkisi-36,4%; ÜDM-də xüsusi çəkisi 5,6%), ÜDM-də sənayenin payı 40,1% olmaqla (məşğulluqda xüsusi çəkisi 7,2 %) digər sahələrdən daha yüksəkdir.

Qeyri-neft sahəsində ixrac yönümlü məhsul istehsal edən sahələrin sayı artırılmalı, əsas işçi qüvvəsi də, buraya cəlb edilməlidir. Azərbaycanın özündə yetişdirilməsi mümkün olan məhsulların və istehsalı mümkün olan əmtəələrin xaricdən idxalına məhdudiyyət qoyularsa tələbatların ödənilməsi üçün daxili istehsal artar. Ola bilər ki, əvvəldə qiymətlərdə müəyyən qədər artım olsun, lakin sonradan tələbata uyğun şəkildə istehsal artdıqca qiymətlər tənzimlənər. Mühüm olan odur ki, iş yerlərinin sayı artsın, əhalinin iqtisadi fəallığı yüksəlsin və gəlirləri optimal səviyyəyə çatsın.

2004-cü ildən 2018-ci ilə qədər yerinə yetirilmiş 3 Regional İnkişaf Proqramı və görülən tədbirlər sayəsində müəyyən qədər inkişafa nail olunmuşdur və davam etdirilməsi üçün hələ potensial imkanlar çoxdur. Lakin iş yerlərinin əsas hissəsi Bakı şəhərinə aiddir, işçi qüvvəsinin də böyük hissəsi burada cəmləşmiş, regional paylanma qeyri-mütənasibdir. Ona görə də regionların işsizlik səviyyəsi də bir-birindən fərqlidir. Ən optimal vəziyyət Naxçıvan bölgəsinə (0,7%) aiddir.

R. Mehdiyevin qeyd etdiyi kimi, regional fərq özünü əlavə dəyərin formalaşmasında açıq şəkildə göstərməkdədir. 2016-cı ildə ÜDM istehsalında Bakı şəhərinin payı 76,9 %, regionların payı isə 23,1 % təşkil etmişdi. Akademik bunu istehsal və xidmət sahələrinin çox hissəsinin, o cümlədən neft-qaz sənayesinin Bakı şəhəri və onun ətrafında cəmləşməsi ilə əlaqələndirir [2].

Prezident İlham Əliyev regionların inkişafına dair öz çıxışlarında haqlı olaraq bildirir ki, Azərbaycan təkcə Bakıdan və Abşerondan ibarət deyildir. Azərbaycanın hər bir bölgəsi inkişaf etməlidir, bunun üçün güclü infrastruktur olmalıdır. Azərbaycan neft və qaz ehtiyatları ilə yanaşı, digər təbii resurslarla da zəngindir və bu ehtiyatların əsas hissəsi regionlarda yerləşir. Regionların təbii resurs potensialından istifadə etməklə qeyri-neft sektorunu inkişaf etdirə bilərik. Bu baxımdan regionların təbii resurs potensialının yenidən qiymətləndirilməsi, onun təsərrüfat dövriyyəsinə cəlb olunması və səmərəli istifadə edilməsi, kənd təsərrüfatının inkişaf etdirilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına nail olunmalıdır.

Ona görə də investisiya qoyuluşunun əsas hissəsi regionlara yönəldilməli, istehsaltutumlu müəssisələr yaradılmalı, hər regionun məhsulu elə oradaca hazır istehlak mallarına çevirilməlidir. Beləcə həm region inkişaf edər, həm region üzrə işləyənlərin sayı artar, həm də ölkənin ixrac potensialı yüksələr. İqtisadi ədəbiyyatlarda qeyd olunur ki, kənd təsərrüfatında tullantı məhsul yoxdur. Deməli, bu məhsulların səmərəli istifadəsini təşkil edərək, itkiyə yol verməməklə daha çox fayda əldə etmək olar.

BƏT-in 122 saylı "Məşğulluq sahəsində siyasət haqqında" Konvensiyasının [3] "Kənd rayonlarında məşğulluğun artırılması" bölməsində qeyd olunur ki, yerli iş qüvvəsindən daha tam istifadə edilməsi, əmək məhsuldarlığının artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün stimulların və sosial şəraitin yaradılması kənd rayonlarının inkişafı üzrə tədbirlərdə mühüm məqsədlər olmalıdır. Kənd təsərrüfatında və heyvandarlıqda məhsuldar məşğulluq üçün

imkanların genişləndirilməsi, kənd təsərrüfatı məhsullarının diversifikasiyası məsələlərinə xüsusi diqqət verilməlidir.

Kənd rayonlarının inkişafı üzrə tədbirlərdə yerli işçi qüvvəsindən daha tam istifadə olunmasının yerli şəraitə uyğun gələn vasitələrinə, xırda sənayenin və sənətkarlıq istehsalının yaşamağa qabil sahələrinin, məsələn, kənd təsərrüfatı məhsullarının yerli emalının, kənd əhalisi üçün zəruri olan sadə istehlak mallarının və istehsal vasitələrinin istehsalının inkişafına diqqət artırılmalıdır.

İnkişaf etməkdə olan ölkələr, peşə öyrədilməsi haqqında 1962-ci il Tövsiyəsinin müddəalarını nəzərə almaqla savadsızlığın ləğv edilməsinə cəhd göstərməli və bütün sahələrdə əməkçilərin peşə təliminə, eləcə də elmi, texniki və idarə heyətinin müvafiq peşə hazırlığına yardım etməlidirlər.

Kənd təsərrüfatının təkmilləşdirilməsini və müasirləşdirilməsini həyata keçirmək məqsədilə təlimatçıların və əməkçilərin hazırlanmasının zəruriliyini nəzərə almaq lazımdır. Bütün bunlar kənd təsərrüfatında yeni peşələrə uyğun vakansiyaların yaradılmasını və bunlara müvafiq mütəxəssislərin hazırlanmasını şərtləndirir.

Azərbaycan sənayecə inkişaf etmiş ölkələr sırasındadır, kənd təsərrüfatını da yenidən inkişaf etdirmək mümkündür. Necə ki 1960-80-ci illərdə kolxoz, sovxoz kimi birliklərin yüksək məhsuldarlıqla işlədiyi, bir-biri ilə yarışdığı zamanlarda hər bir rayon coğrafi və iqlim şəraitinə görə müəyyən kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşmışdı, keçmiş ittifaqın geniş tələbatlarının ödənilməsində respublikamızın əhəmiyyətli yeri var idi.

Fikrimizcə, diqqət artırılması mühüm olan sahələrdən biri də yüngül sənaye, xüsusilə toxuculuq və tekstil sənayesidir. İnsan sağlamlığı üçün geyimin keyfiyyətli olması vacibdir, lakin məsələnin iqtisadi tərəfləri də var. Baramaçılığın daha da artırılması, onun sonrakı emal proselərindən keçməsi və nəhayət, hazır geyim halına elə ölkəmizdəcə çatdırılması və daha sonralar yeni brendlərinin olması əhalimizi yerli istehsal olan təbii tərkibli istehlak malları ilə təmin etmək baxımından çox əhəmiyyətlidir.

Tarixə nəzər salsaq, XVIII əsrin sonu XIX əsrin əvvəllərindən etibarən Rusiyada toxuculuq sənayesinin daha da inkişafı Azərbaycanda baramaçılığın artmasına təkan vermişdi. Daha böyük səmərə əldə etmək məqsədilə 1836-cı ildə çar hökuməti Nuxada "Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini inkişaf etdirmək" adlı cəmiyyət yaratmışdı [4, s.208].

"Azərbaycan tarixi" kitabında [5, s.64] göstərilir ki, 1836-cı ildə Peterburqda təsis olunmuş kompaniya "Zaqafqaziyada ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət" Nuxanı öz fəaliyyətinin mərkəzi seçmişdi. 1827-ci ildə Nuxanın yaxınlığında Xanabad kəndində ipək emalı fabriki işə salınmışdı [5, s.77]. Həmin dövrlərdə (XIX əsrin 30-50-ci illəri) Zaqafqaziyada emal olunan ipəyin 85 faizi Azərbaycanın payına düşürdü.

Son illərdə respublikamızda baramaçılığın inkişafı üçün həyata keçirilən tədbirlərin davamlılığını təmin etməklə Şəkini yenidən ipəkçiliyin mərkəzinə çevirmək məqsədəuyğun olar. İstehsal genişləndikcə ixtisaslı kadrlara olan tələbat artır, bu isə həm gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyinin artırılmasına, həm də məşğulluğa müsbət təsir göstərmiş olur. Dövlət başçımızın regional inkişafla bağlı çıxışlarında qeyd etdiyi kimi sənaye parklarının yaradılması belə məsələlərin məqsədyönlü həllinə dəstək verəcək.

Kənd təsərrüfatının digər strateji sahələri olan çayçılıq, pambıqçılıq, tütünçülük, fındıqçılıq, şəkər çuğunduru istehsalı və s. diqqət mərkəzindədir. Vacib sahələrdən biri də üzümçülük olduğundan bu sahəyə də diqqəti artırmaq məqsədəuyğun olar, ona görə ki, üzümdən çox faydalı məhsulların alınması mümkündür. Qeyd edilən sahələr əməktumlu olduğuna görə bir tərəfdən, məşğulların sayı artır, digər tərəfdən kənd təsərrüfatı məhsullarının sonrakı proseslərdən keçirilməsi, yəni onların hazır məhsullara çevrilməsi (yağ, bəhməz, sirkə, şərab, geyimlər, tütün məmulatları və s.) üçün istehsal müəssisələri açıldıqca peşə təhsilli kadrlara tələbat da artır.

Bölgələrin inkişafı üçün mühüm olan məsələlərdən biri yerli əmək ehtiyatlarının səmərəli istifadəsi üçün onların peşə-ixtisas təhsili ilə əhatə olunmasıdır. Buna görə də tam orta məktəblərin bazasında (xüsusilə də kənd yerlərində) ilk peşə təhsilinin verilməsi işinə başlanılmalıdır. Tam orta məktəbin yuxarı sinifləri peşə təmayüllü təhsil ilə akademik təhsil istiqamətlərinə ayırılarsa və yaxud konkret peşələrə istiqamətlənmiş kurslar təşkil edilərsə zəif nəticəli şagirdlər, eləcə də istəklərindən asılı olaraq digərləri tam orta məktəbi müəyyən peşə sertifikatı ilə bitirmiş olarlar. Bu isə təhsilinin sonrakı pillələrdə davam etdirə bilməyən gənclər üçün çox vacibdir.

Müqayisə üçün qeyd edək ki, inkişaf etmiş ölkələrdə əsas təhsildən sonra peşə təhsilinin alınması çox yüksək göstəricilərə malikdir. Çex Respublikasında 74%, Finlandiya və Avstriyada-70%, İtaliya-56%, Almaniyada-48%, Böyük Britaniya və Fransada-43%, Danimarkada-42% şagird orta məktəbin peşə-texniki yuxarı siniflərində oxumağa üstünlük verir [6].

Məktəblərdə ilk peşə təhsilinin təşkili üçün tam orta məktəblərin və təhsil şöbələrinin təşəbbüskarlığı və məsuliyyəti artırılmalıdır. Onlara səlahiyyət verilməlidir ki, yerli icra nümayəndəlikləri ilə birlikdə məktəbin və yerli müəssisələrin, o cümlədən kənd təsərrüfatı subyektlərinin imkanlarını araşdırıb ilk peşə təhsilinin verilməsi üçün tədbirlər görsünlər.

Hər bölgənin, rayonun özünəməxsus coğrafi, iqlim şəraiti və iqtisadi cəhətdən ixtisaslaşması vardır (kənd təsərrüfatının ayrı-ayrı sahələri, turizm, kurort-sağlamlıq imkanları və s.). Həmin ixtisaslaşmalara uyğun peşələr üzrə və daha çox istifadə olunan məişət və elektron əşyalarının təmiri ustalarına (televizor, telefon, kompüter, elektrik cihazları, qaz istismarı avadanlıqları və s.), mədəni xidmət sahələri üzrə kadrlara hər zaman ehtiyac olduğunu nəzərə alaraq, çox vəsait tələb etməyən kütləvi peşələrin orta məktəblərdə öyrədilməsini təşkil etmək olar.

Kənd təsərrüfatı üçün: Yuxarı sinif şagirdlərinin dərsdən əlavə vaxtlarda fermer təsərrüfatlarında (bağlanmış müqavilə əsasında) təcrübə keçmələri təşkil olunarsa şagirdlər həm peşəkarlardan iş öyrənmiş olar, həm də fermer üçün işləyər, bunun müqabilində fermer məktəbə şagirdlərin öyrənməsi üçün müəyyən maşın və yaxud avadanlıq, cihaz və s. bağışlaya bilər. Belə işdə fəal olan fermerlərin bələdiyyələrin və məktəb rəhbərliyinin təqdimatı ilə dövlət tərəfindən qiymətləndirilməsi təşkil oluna bilər. Nəticədə, boş iş yerləri yarandığı təqdirdə işəgötürən kadrı haradan cəlb edəcəyindən əmin olar. Eyni qaydada əlaqələr digər tipli müəssisələrlə də yaradıla bilər.

Ədəbiyyat

1. Does work-based learning facilitate transitions to decent work? Employment Working Paper No. 242, 2018, ilo.org.

2. Mehdiyev R. Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri. *http://economics.com.az/index.php/tedbirler/yenilikl-r/item/1285-prezident-ilham-aeliyevin-izhtisadi-inkishaf-stratezhiyas-n-n-aesas-istizhamaetlaeri.html*

3. Конвенция № 122. Конвенция о политике в области занятости. *https://www.ilo.org/wcmsp5/groups/public/ed_norm/normes/documents/normativeinstrument/wcms_c.122_ru.htm*

4. Azərbaycan etnoqrafiyası: 3 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2007, 544 s.

5. Azərbaycan tarixi. 7 cilddə, IV cild. (XIX əsr). Bakı: Elm, 2007, 504 s.+48 s. illüstrasiya.

6. The changing nature and role of vocational education and training in Europe. Cedefop (2018). Volume 3: the responsiveness of European VET systems to external change (1995-2015). Luxembourg: Publications Office. Cedefop research paper; No 67. *http://data.europa.eu/doi/10.2801/621137*

Резюме
Гурбанова И.М.
Приоритетные направления развития профессионального образования в Азербайджане (в контексте регионального развития)

Развитие регионов обусловлено расширением сельского хозяйства, удовлетворением местных потребностей за счет внутренних ресурсов, увеличением продукции, ориентированной на экспорт, созданием новых рабочих мест в регионах и, таким образом, увеличением спроса на квалифицированных работников. В статье отмечается, что для развития регионов важно эффективное использование местных трудовых ресурсов, а для этого необходимо улучшить охват молодежи профессиональным образованием. Одним из лучших вариантов является предоставление начального профессионального образования в последних классах средних школ (особенно в сельской местности). При выборе этих профессий необходимо учитывать экономическую специализацию каждого региона и будущие перспективы развития.

Ключевые слова: *сельское хозяйство, регионы, занятость, профессиональное образование, государственные программы, развитие.*

Summary
Gurbanova I.M.
Priority Directions of Development of Vocational Education in Azerbaijan (in the Context of Regional Development)

The development of the regions is due to the expansion of agriculture, the satisfaction of local needs at the expense of domestic resources, the increase in export-oriented products, the creation of new jobs in the regions and, thus, the increase in demand for skilled workers. The article notes that one of the key issues for the development of the regions is the efficient use of local labour resources. For this purpose, the coverage of young people with vocational education should be improved. One of the best options is to provide primary vocational education in the last classes of secondary schools (especially in rural areas). When choosing these professions, it is necessary to take into account the economic specialization of each region and future development perspectives.

Keywords: *agriculture, region, employment, vocational training, government programs, development.*

İDARƏETMƏ QƏRARLARININ QƏBUL EDİLMƏ PROSESİNDƏ İNFORMASİYANIN ROLU

Məmmədova Ləman Aydın qızı
FHN TTNDA Dövlət Ekspertiza Baş idarəsi
lale-sdu@mail.ru

Xülasə: *Hər bir məsələnin həllinin nəticələrinin hansı formada alınması sifarişçi təşkilatın mütəxəssislərindən asılıdır: tövsiyə xarakterli informasiya yığımının məsələ həllinin mümkün alternativ variantlarının təsviri, hansı qərarın necə qəbul edilməsi, mümkün şəraitin ssenarisinin necə olması məhz həmin mütəxəssislər tərəfindən müəyyən edilir. İdarəetmənin informasiya sisteminin həyat tsiklinin bütün mərhələlərində və sistemin uğurla tətbiq edilməsinin və gələcəkdə onun səmərəli fəaliyyətinin əsas şərti istifadəçinin bu proseslərdə daha fəal və bilavasitə iştirakından ibarətdir.*

Açar sözlər: *blok sxem, informasiya, idarəetmə, sifarişçi, informasiya sistemləri, layihələndirmə, avtomatlaşdırılmış informasiya texnologiyası*

Azad bazar iqtisadiyyatı şəraitində informasiya sənayesinin inkişafı ilə paralel informasiyanın toplanması, emalı, satışı, İKT-nin sahələr üzrə tətbiqi, proqram təminatı, xidmətlərin göstərilməsi və informasiyanın ötürülməsi ilə əlaqədar olan informasiya iqtisadiyyatı inkişaf edir.

İnformasiya–təbiətdə, cəmiyyətdə və insan tərəfindən yaradılan sistemlərdə dövr edən məlumatların məcmusudur. «İnformasiya» sözü latın dilindən tərcümədə «məlumatlandırmaq, arayış vermək» mənasını ifadə edir. İnformasiyanı toplayırlar, saxlayırlar, ötürürlər, təhlil və istifadə edirlər. Bu məqsədlə xüsusi hazırlanmış informasiya texnologiyalarından istifadə olunur.

Hər bir biznes-sistemin fəaliyyəti prosesində ona həm xarici amillər, yəni rəqabətlər, sifarişçilər, mal göndərənlər, dövlət idarələri, tərəfdaşlar, sahibkarlar, banklar, birjalar və s., həm də əsasən qəbul edilən bu və ya digər idarəetmə qərarlarının nəticəsi kimi daxili amillər də təsir göstərir.

İdarəetmə qərarlarının qəbul edilmə prosesi qarşılıqlı əlaqəli, məqsədyönlü, ardıcıl, idarəetmə hərəkətlərinin, eləcə də idarəetmə məsələlərinin həyata keçirilməsini təmin edən idarəetmə fəaliyyətinin əsas növü hesab edilir.

Müəssisə və təşkilatların məqsəd və fəaliyyətinin xarakterini onların informasiya sistemi və avtomatlaşdırılmış informasiya texnologiyası, həmçinin optimal idarəetmə qərarlarının qəbul edilməsinin əsasını təşkil edən işlənən və istehsal edilən informasiya məhsulu müəyyən edir.

İnformasiya texnologiyası təşkilatı idarəetmənin informasiya sisteminin əsas tərkib hissəsi olmaqla, bilavasitə müəssisə, təşkilat və ya firmanın fəaliyyət xüsusiyyətləri ilə bağlıdır. Avtomatlaşdırılmış informasiya texnologiyasının təşkili strategiyasının seçilməsi aşağıdakı amillərlə müəyyən edilir:

- müəssisə, təşkilat və ya firmanın fəaliyyət sahəsi, onların tipi;
- istehsal-təsərrüfat və ya digər fəaliyyət;
- müəssisə, təşkilat və ya firmanın idarə edilməsinin qəbul edilmiş modeli;
- idarəetmədə həll olunan yeni məsələlər;
- mövcud informasiya infrastrukturu və s. [3, səh.189]

İnformasiya texnologiyasının idarəetmənin qəbul olunmuş modelinə və mövcud informasiya infrastrukturuna uyğun qurulmasının əsas amili iqtisadi obyektin fəaliyyət sahəsi hesab edilir.

İnformasiya resurslarına istehsalda, texnikada, cəmiyyətin idarə edilməsində istifadə olunan xüsusi təşkil olunmuş va EHM-də emal olunmuş informasiyalar aiddir. Müəssisənin optimal bazar mövqeyinin təmin olunması onun resurs potensialının tərkib hissəsi kimi informasiya resurslarının mövcudluğundan da asılıdır. Ölkə miqyasında informasiya resursları – milli informasiya resursları sayılır. Ölkənin informasiya resursları onun elmi-texniki tərəqqisini, elmi potensialını, iqtisadi və strateji gücünü müəyyən edir. İnformasiyanın toplanılması, işlənilməsi və təhlil edilməsi – marketinqin ümumi informasiya – analitik prosesinin tərkib hissəsidir. İnformasiyanın əldə edilməsi idarəetmə məsələlərinə aiddir, onun əsas məqsədi isə düzgün marketinq qərarlarının qəbul edilməsi üçün bazar proseslərinin təhlili va qiymətləndirilməsini təmin etməkdan ibarətdir. İnformasiya – bazarın stoxastik proseslərinə xas olan qeyri-müəyyənliyin azaldılması vasitəsidir. Norbert Vinerin sözlərinə görə: «firmanın idarə edilməsi – informasiyanın fəaliyyətə çevrilməsi prosesidir». İnformasiya – marketinq – menecmentin əsas alətidir.

Hər bir biznes-sistemin fəaliyyəti prosesində ona həm xarici amillər, yəni rəqabətlər, sifarişçilər, mal göndərənlər, dövlət idarələri, tərəfdaşlar, sahibkarlar, banklar, birjalar və s., həm də əsasən qəbul edilən bu və ya digər idarəetmə qərarlarının nəticəsi kimi daxili amillər də təsir göstərir.

İdarəetmə qərarlarının qəbul edilmə prosesi qarşılıqlı əlaqəli, məqsədyönlü, ardıcıl, idarəetmə hərəkətlərinin, eləcə də idarəetmə məsələlərinin həyata keçirilməsini təmin edən idarəetmə fəaliyyətinin əsas növü hesab edilir.

Müəssisə və təşkilatların məqsəd və fəaliyyətinin xarakterini onun informasiya sistemi və avtomatlaşdırılmış informasiya texnologiyası, həmçinin optimal idarəetmə qərarlarının qəbul edilməsinin əsasını təşkil edən işlənən və istehsal edilən informasiya məhsulu müəyyən edir.

Müxtəlif firma və təşkilatların idarəetmə aparatının əsas funksiyaları şirkət və ətraf mühitdə mövcud olan şəraitin təhlil edilməsi, onun fəaliyyətinin strateji və qısamüddətli planlaşdırılması üçün müvafiq idarəetmə qərarlarının qəbul edilməsindən ibarətdir.

İdarəetmə qərarlarının qəbul edilməsi ilə bağlı planlaşdırılan məsələlərin həlli strateji, taktiki və operativ (əməliyyat) səviyyələrdə həyata keçirilir. Bu səviyyələrdən hər biri informasiya texnologiyası bazasında həyata keçirilən müəyyən informasiya təminatının olmasını tələb edir.

Qərar qəbulunun strateji səviyyəsinə yardımı təmin edən informasiya texnologiyası idarəetmənin yuxarı səviyyəsinə strukturlaşdırılmamış məsələlərin, o cümlədən firmanın mövcud potensialı ilə ətraf mühitdə baş verən dəyişikliklərin müqayisə edilməsi məsələlərinin həllində zəruri köməklik göstərir. Yuxarı səviyyəli rəhbərin işinə yardım göstərilməsinin alət və vasitəsi firma və ya təşkilatın strateji perspektiv inkişaf məqsədlərinin həyata keçirilməsi üçün strateji informasiya sisteminin işlənib hazırlanmasından ibarətdir.

İndiyədək strateji informasiya sistemlərinin məqsədlərini və funksional baxımdan çoxplanlılığı onların tətbiq edilməsinin ümumi bir konsepsiyasının işlənib hazırlanmasına imkan verməmişdir. Onlardan istifadənin aşağıdakı üç meylini göstərmək olar:

• birinci meylin əsasını əvvəlcə məqsəd və ona nail olmaq strategiyasının müəyyən edilməsi qaydaları təşkil edir və yalnız bundan sonra avtomatlaşdırılmış informasiya texnologiyası irəlicədən işlənib hazırlanmış strategiyaya uyğunlaşdırılır;

• ikinci meylin əsasında firma və ya təşkilatın məqsədlərinin müəyyən edilməsinin və strateji planlaşdırmanın istifadə etdiyi strateji informasiya sistemi durur;

• üçüncü meylin əsasında isə əvvəlki iki meylin sintezi (birləşməsi) metodologiyası dayanır [4, səh.376].

Layihələndirmə mərhələsində müəssisə və firmanın heyətinin avtomatlaşdırma şəraitində işə öyrədilməsi və psixoloji hazırlığı da həyata keçirilir. İşçi layihələndirmə mərhələsində informasiyanın işlənməsi texnologiyasında iştirak edən işçilər üçün həmin proses və vəzifə təlimatları işlənib hazırlanır və təsdiq edilir. Bu zaman onların məzmunu və təqdim edilmə formaları mütləq sifarişçilərlə müzakirə edilməlidir.

İdarəetmənin informasiya sistemləri və texnologiyalarına onların funksional dolğunluğu və texnoloji baxımdan icra edilməsinə qarşı yüksək istehlak tələbləri qoyulur. Bu da sistemin yaradılması, tətbiqi və istismarı prosesində sifa- rişçinin (yaxud sistemin istifadəçisinin) mütləq iştirakını nəzərdə tutur. Xüsusilə, müəssisə, firma və təşkilatın layihəqabağı müşahidə edilməsi mərhələsində sifarişçi tərəfindən bütün zəruri informasiyanın, ilkin tədqiqatlara aid olan, həll edilən məsələlərin, biznes proseslərinin qurulması ilə əlaqədar məlumatların təqdim olunması şərtlərinə əməl etməsi vacib sayılır. Lakin bu prosesdə sifarişçinin iştirakı yuxarıda qeyd edilənlərlə məhdudlaşmır. Əməkdaşlıq münasibətləri hər bir icraçının iş yerində həll ediləcək məsələnin qoyuluşu prosesində sifarişçinin bilavasitə iştirakını nəzərdə tutur [5, səh.165]

Proqramın riyazi modeli və bloksxemin işlənib hazırlanmasından əvvəl layihəçi mütəxəssislər sifarişçi ilə aşağıdakı məsələlər ilə bağlı ümumi razılığa gəlməlidirlər: sistemin həyata keçiriləcəyi avadanlıqların tərkibi və dəyəri; sistemin istismarı prosesində işlənəcək informasiyanın zəruri və kafi həcmi; qulluqçuların və mütəxəssislərin tələb olunan sayı və peşə tərkibi; giriş və nəticə məlumatlarının təqdim edilmə üsulları, informasiya bazasında toplanan

məlumatların məzmunu, həmçinin onların daşıyıcılarının tərkibi və sayı; sistemin ahəngdar və səmərəli fəaliyyəti üçün zəruri olan maliyyə, əmək və material məsrəflərinin həcmi.

Ədəbiyyat

1. ebooks.azlibnet.az › book
2. Ясин Е.Г. и др. Экономическая информация. М.: Статистика, 1974.
3. Abbasov Ə.M., Qasımov V.Ə., Quliyev R.H. İntellektual informasiya sistemlərində qərar qəbuletmə üsulları. Bakı, 2003, 254 s.
4. Ələkbərov Ə., Vəliyev M., Pürhani S. "Menecment". Bakı, 2013, 600 s.
5. ƏliyevT.Q. İnformasiyanın iqtisadiyyatı. Bakı, 2008, 220 s.
6. Kərimov S.Q. İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri. Bakı, 2010, 426 s.
7. Kərimov S.Q. İnformasiya sistemləri. Bakı, 2008, 676 s.

Резюме

Мамедова Л.А.

Роль информации в принятии управленческих решений

Формулировка результатов каждой проблемы зависит от специалистов организации-клиента. Это описание возможных альтернатив для сбора информации, принятие решений и возможные сценарии для определения. Основным условием успешного внедрения информационной системы управления на всех этапах жизненного цикла и успешного функционирования системы в будущем является активное и непосредственное участие пользователя в этих процессах.

Ключевые слова: *блочная схема, информация, управление, заказчик, информационные системы, проектирование, автоматизированные информационные технологии*

Summary

Mammadova L.A.

The Role of Information in Management Decision-Making

The statement of the results of each problem depends on the specialists of the client organization. This is a description of possible alternatives for collecting information, making decisions and possible scenarios for determining. The main condition for the successful implementation of the information management system at all stages of the life cycle and the successful functioning of the system in the future is the active and direct participation of the user in these processes.

Key words*: block diagram, information, management, customer, information systems, design, automated information technology*

İNNOVATİV İQTİSADİYYATIN FORMALAŞMASI PROBLEMLƏRİ

Məmmədova Səidə Rəhim qızı

Sumqayıt Dövlət Universiteti

seidememmedova@mail.ru

Xülasə: *Məqalədə innovativ iqtisadiyyatın formalaşmasının zəruriliyi əsaslandırılmış, innovasiyanın dövlət tənzimləməsinin əsas istiqamətləri tədqiq edilmişdir. İnnovativ iqtisadiyyatın fəallığının aşağı düşməsinə səbəb olan amillər və onların aradan qaldırılması yolları*

müəyyənləşdirilmişdir. Aparılmış təhlillər əsasında iqtisadiyyatın innovativ inkişaf modeli təklif edilmişdir.

Açar sözlər: *innovasiya, iqtisadiyyat, inkişaf, dövlət tənzimləməsi, istehsal, texnologiya, sənaye*

Hazırda ölkəmizin qarşısında mühüm bir vəzifə durur - həlledici sosial-iqtisadi və informasiya sıçrayışı etmək, yüksək iqtisadi artım templərinə nail olmaq. Problemin əsası müasir iqtisadiyyatda yaradıcı və sosial amillərin sürətlə maliyyə amillərinə doğru irəliləməsidir. Dünyanın aparıcı ölkələrinin inkişafına dair çoxsaylı nümunələr göstərir ki, yaxın gələcəkdə və uzunmüddətli perspektivdə ölkənin beynəlxalq miqyasda lider mövqeyini təmin etmək üçün əsas səyləri innovativ fəaliyyətin genişləndirilməsi sahəsində inkişaf yoluna yönəltmək lazımdır. İnnovativ iqtisadiyyatın inkişaf yolunun mərkəzində ictimai istehsalın səmərəliliyini artırmaq, yaşayış səviyyəsini yaxşılaşdıra bilən elmi və texnoloji yeniliklərin yaradılması və tətbiqinə yönəldilmiş axtarış prosesi durur. Yüksək istehsal texnologiyaları, o cümlədən mikro-nano, informasiya və intellektual texnologiyalar, kompüterləşdirilmiş sistemlər innovativ iqtisadiyyatın əsas sistemləridir. Bu potensialı qorumaq və inkişaf etdirmək indi olduqca çətin işdir, cəmiyyətdən çox böyük xərclər və vəsait tələb edir.

İnnovativ iqtisadiyyatın formalaşması ölkənin inkişafında strateji bir istiqamətdir. İnkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun artımının 80-95% -i texnologiya sahəsində yeni biliklərin payına düşür. İnnovativ iqtisadiyyat iki əsas amil qrupunun təsiri altında formalaşır:

1) innovativ inkişaf yoluna keçmək üçün şərait yaratmağa yönəlmiş amillər;

2) elmi, istehsal potensialını yeniləmək və inkişaf etdirmək, yenilikləri yaratmaq və tətbiq etmək üçün innovativ fəaliyyət subyektləri arasında stimullaşdırılmanın yaradılması ilə əlaqəli amillər.

İnnovativ iqtisadiyyatın formalaşması regionun, sənayenin, müəssisə və təşkilatın, yüz minlərlə mütəxəssisin maraqlarına təsir göstərən mürəkkəb çoxşaxəli və vaxt aparan bir prosesdir. Yalnız genişmiqyaslı dövlət siyasəti, sivil bazar mexanizmi ilə birlikdə sərt dövlət tənzimlənməsi bu cür mürəkkəb sosial-iqtisadi proqramların həyata keçirilməsinə kömək edə bilər.

İnnovativ iqtisadiyyatın inkişafı dövlət tənzimlənməsi səviyyəsindən xeyli asılıdır. İnnovasiyanın dövlət tənzimlənməsi aşağıdakı elementlərdən ibarət olmalıdır:

- dövlətin vahid innovasiya siyasətinin formalaşması və həyata keçirilməsi;
- innovasiya fəaliyyətinin qanunvericilik və normativ təminatı;
- inkişafın ən mühüm istiqamətləri üzrə məqsədli dövlət proqramları mexanizmindən istifadə edilməsi;
- elmi araşdırmaların maliyyələşdirilməsi və innovasiyaların ictimai əhəmiyyətli istiqamətlərdə tətbiq edilməsi üçün əlavə mənbələrin cəlb edilməsinə köməklik göstərilməsi;
- elmi araşdırmaların və innovasiya fəaliyyətinin məqsədli dəstəklənməsi;
- innovasiya proqramlarının iştirakçılarından vergi tutulmasının təkmilləşdirilməsi və onlara güzəştli kreditlər verilməsi imkanlarının təqdim edilməsi;
- innovasiyaların mənimsənilməsi sisteminin formalaşması və bu sistemin fəaliyyətinə köməklik göstərilməsi;
- intellektual mülkiyyətin hüquqi mühafizəsinin və müdafiəsinin təmin edilməsi.

Məhz qeyd edilənlərin həyata keçirilməsilə ölkəmizdə sənaye sahəsində innovasiya prosesi sürətləndirilə bilər.

Onu da qeyd etmək lazımdır ki, ölkədə sənaye istehsalının yeni texnoloji əsasda modernləşdirilməsi, innovativ fəaliyyətə investisiya cəlb edilməsi üçün əlverişli pul-kredit və vergi siyasəti həyata keçirilməlidir. Onsuz davamlı iqtisadi inkişaf, demək olar ki, mümkünsüzdür. Odur ki, dövlətin innovasiya siyasəti aşağıdakı problemlərin həllinə yönəldilməlidir:

- innovasiyaların kütləvi inkişafına qadir olan milli bir innovasiya sisteminin yaradılması;
- innovasiyanın əlaqələndirilməsi üçün dövlət orqanlarının yaradılması;
- elmi-texnoloji və innovativ fəaliyyətə dövlət dəstəyinin müxtəlif formalarının işlənib hazırlanması və tətbiqi;
- elmin fundamental və tətbiqi sahələrinin qorunub saxlanması və tarazlı inkişafı üçün bir sıra tədbirlərin həyata keçirilməsi;
- kiçik və orta elmi, texniki və innovativ sahibkarlığın sürətlə inkişafına şərait yaratmaq;
- tam innovasiya infrastrukturunun yaradılması;
- elmin və texnikanın qabaqcıl nailiyyətləri əsasında iqtisadiyyatın modernləşdirilməsi tədbirlərinin həyata keçirilməsi və s.

İnnovasiyanın dövlət tərəfindən tənzimlənməsinin blok-sxemi şəkil 1-də göstərilmişdir.



Şəkil 1. İnnovasiyanın dövlət tərəfindən tənzimlənməsinin blok-sxemi [1]

Deməli, ölkə iqtisadiyyatında innovasiya fəaliyyətinin dəstəklənməsinin əsas mexanizmi dövlətin innovasiya fəaliyyətinin inkişaf proqramı təşkil edə bilər. Digər tərəfdən isə, innovasiya siyasətinin əsas istiqamətləri, prioritetləri və reallaşdırılması mərhələləri ölkə iqtisadiyyatının tələbləri və investisiya resurslarının mövcudluğu ilə təyin edilir. İqtisadiyyatın innovativ inkişafının resurs bazası iqtisadiyyatın innovativ inkişaf modelini təşkil edir və potensial innovativ imkanları

müəyyənləşdirir [2]. Bu baxımdan təsərrüfat subyektlərinin səmərəliliyinin təşkilati və iqtisadi mexanizmlərinin onların innovativ inkişafının təşkilati və iqtisadi mexanizmi ilə əlaqəsi məsələsi diqqət mərkəzində olmalıdır. Bu, iqtisadiyyatın innovativ inkişaf modelinin hazırlanmasını tələb edir. Bu modelin girişində innovativ fəaliyyətin həyata keçirilməsi üçün zəruri olan ehtiyatlar və institusional şərait cəmləşmişdir; nəticələr innovativ iqtisadiyyatın inkişafını göstərir (Şəkil 2).

Yüksək keyfiyyətli dövlət innovasiya siyasəti innovasiya proseslərini aktivləşdirməyə, ÜTT prinsiplərinin həyata keçirilməsi kontekstində istehsalın inkişafına təkan verməyə qadirdir.

İnnovativ iqtisadiyyatın formalaşmasının və dövlət stimullaşdırılmasının böyük əhəmiyyəti innovasiya proseslərinin obyektiv xüsusiyyətləri ilə müəyyən edilir: ümumi elmi mühitin və innovasiya infrastrukturunun inkişaf dərəcəsindən asılı olaraq yeniliklərin tətbiqi ilə əlaqəli yüksək risk, əhəmiyyətli innovasiyaların yaradılması üzrə kapital tələb edən elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin aparılması, kadrların elmi və texniki ixtisaslarına yüksək tələblər, əqli mülkiyyətin hüquqi qorunmasına ehtiyac və s. Buna görə müxtəlif müəssisə, təşkilat, sənaye və regionların qlobal rəqabətindəki uğur birbaşa dövlət elmi, texniki və innovasiya siyasəti ilə əlaqəlidir. Bu vəziyyətdə bu müvəffəqiyyətin ən vacib şərti cəmiyyətin müasir iqtisadi artım qanunlarının öyrənilməsi və düzgün istifadə edilməsidir [3].



Şəkil 2. İqtisadiyyatın innovativ inkişaf modeli

İnnovativ iqtisadiyyatın formalaşması və inkişafı prosesləri regionlarda, sənaye və müəssisələrdə texniki, texnoloji, sosial-iqtisadi, ekoloji və kadr problemlərinin hərtərəfli həllini tələb edir. Göstərilən problemlərin bütün növləri hərtərəfli məlumat dəstəyini tələb edir.

İnnovativ iqtisadiyyatın formalaşması şəraitində elmi-texniki tərəqqini sürətləndirmək vəzifəsi istehsal sistemləri tərəfindən əldə olunan innovativ məhsulların çeşidinin daim yenilənməsini, keyfiyyətinin yaxşılaşdırılmasını, sifarişçinin və istehlakçının istəklərini maksimum dərəcədə təmin etməyi tələb edir. Bu obyektiv şəkildə hazırlanmış innovativ layihələrin keyfiyyətcə yaxşılaşdırılması ilə istehsalın texnoloji hazırlığının vaxtı və dəyərinin hərtərəfli azaldılmasına ehtiyac yaranır. Bu problemlərin həlli yalnız texnoloji fəaliyyətin kompüterləşdirilməsi üçün yeni bir informasiya texnologiyasının yaradılması ilə təmin edilə bilər.

Ümumiyyətlə, elmi-texniki tərəqqinin müasir inkişaf mərhələsinə xas olan xüsusiyyətlər, əsasən: istehsal vasitələrinin dəyişmə sürətləri; yaradılan avadanlığın davamlı mürəkkəbliyi; müasir istehsalın yüksək elmi səviyyəsi; alətlərin və texnoloji metodların davamlı təkmilləşdirilməsi kontekstində yeni texnologiyanın, innovativ məhsulların yaradılması və inkişafı üzrə işlərin aparılması; avadanlığın yenidən qurulması və istehsalın təşkilinə tələbat; kompüterləşdirmə və dizayn, texnoloji və idarəetmə işlərinin avtomatlaşdırılmasının müasir vasitələri və metodlarından istifadə imkanları yeni məhsul istehsalının təmin edilməsinə yönəldilmiş bütün işlərin məcmusu olan elmi tədqiqatların müasir məzmununun formalaşmasına şərait yaratmışdır.

Beləliklə, gələcək illər üçün ölkəmizdə innovativ iqtisadiyyatın formalaşması və inkişafının strateji məqsədi yerli sənaye və ərazilərin qlobal rəqabət səviyyəsinə qədər hərtərəfli dayanıqlı və davamlı sosial-iqtisadi inkişafı olmalıdır. İlk növbədə elmin, texnikanın, yüksək texnologiyaların və insan fəaliyyətinin bütün sahələrinin kompüterləşməsinin davamlı artan gücü və imkanlarına əsaslanan innovativ inkişaf yolu müasir sivilizasiyanın inkişafında aparıcı qüvvəyə çevrilməkdədir. Ətraf mühitin qorunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, iqtisadiyyatın ümumi məhsuldarlığının yüksəldilməsi, sənaye istehsalının, xidmətin yeni sahələrinin yaradılması, xidmət keyfiyyətinin yaxşılaşdırılması və dünya bazarında yerli mal və xidmətlərin rəqabət qabiliyyətinin artırılması, ticarət və əmtəə çatışmazlığının azaldılması innovativ iqtisadiyyatın formalaşmanın və inkişafının nəticəsi olmalıdır.

Ədəbiyyat

1. Əzimova Ə. İ. Sənaye müəssisələrinin innovasiya fəaliyyətinin tənzimlənməsinin zəruriliyi / İnnovasiyayönümlü inkişafın sosial-iqtisadi problemləri mövzusunda Beynəlxalq elmi konfransının materialları. Sumqayıt, 2012. s. 170-171.

2. Бухтиярова Т.И., Катаев С.И. Факторы и направления реализации современной аграрной политики в условиях Пермского края. Челябинск, ИЦ Уральская академия, 2013, 396 с.

3. Дубынина, А.В. Институциональные основы инновационного развития экономики. Челябинск, ИЦ Уральская академия, 2013, 396 с

Резюме

Маммадова С.Р.

Проблемы формирования инновационной экономики

В статье обоснована необходимость формирования инновационной экономики. Исследуются основные направления государственного регулирования инновации. Определены факторы влияюшие на падение активности инновационной экономики и пути

их устранения. На основе проводимых анализов предлагается модель развития инновационной экономики.

Ключевые слова: *инновации, экономика, развитие, государственное регулирование, производство, технология, промышленность*

Summary

Mammadova S.R.

Problems of Forming an Innovative Economy

The article substantiates the need for the formation of an innovative economy. The main directions of state regulation of innovation are investigated. The factors influencing the decline in the activity of the innovation economy and the ways to eliminate them are determined. Based on the analysis, a model for the development of an innovative economy is proposed.

Key words: *innovation, economy, development, state regulation, production, technology, industry*

İNNOVASİYA LAYİHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ VƏ STRATEJİ PLANLAŞDIRILMASI PROBLEMLƏRİ

Məmmədova Şəlalə Rəhim qızı
Sumqayıt Dövlət Universiteti
Memmedovashelale@mail.ru

Xülasə: *Məqalədə sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün innovasiyaların rolu tədqiq edilmişdir. İnnovasiya layihələrinin işlənib hazırlanması problemləri araşdırılmış, onların idarə edilməsi və strateji planlaşdırılmasının zəruriliyi əsaslandırılmışdır. İqtisadi sistemlərin inkişafının bütün aspektləri kompleks şəkildə nəzərə alınmaqla innovasiyanın təşkili və idarə edilməsi prosesinin prinsipial sxemi verilmişdir.*

Açar sözlər: *innovasiya, idarəetmə, planlaşdırma, sənaye, müəssisə, strategiya, məhsul, istehsal, qiymətləndirmə*

İnnovativ iqtisadiyyatın əsas istehsal nüvəsi sənaye müəssisələridir. Elmi-texniki tərəqqiyə və sənaye müəssisələrinin innovativ inkişafına nail olmaq, innovativ iqtisadiyyatın perspektivli vəzifələrinə uyğunluğunu təmin etmək üçün onların strukturu və texnologiyaları, istehsal və texniki potensialı, informasiya dəstəyi və təşkilati-idarəetmə mexanizmi sahəsində köklü bir islahat aparılmalıdır. Sənaye istehsalının əsas kapital təşkil edən sahəsi texnoloji proseslərin yaradılmasıdır. Buna görə də innovativ yolda texnoloji proseslərin intensivləşdirilməsi sosial-iqtisadi inkişafın sürətlənməsinin obyektiv tələbatı olmaqla onun səmərəliliyini artırmaq üçün maddi əsasdır. Sənaye müəssisələri üçün innovativ fəaliyyət rəqabətə davam gətirmək qabiliyyətidir. Əhəmiyyətli rəqabət üstünlükləri, daha böyük sabitlik təmin edir, müəssisənin bazarda mövqeyini gücləndirməyə və genişləndirməyə kömək edir. Bundan əlavə, kapital yaradan bir sənaye kimi texnoloji proseslərin vəziyyəti iqtisadiyyatın bütün sahələrində innovativ proseslərin həyata keçirilməsində, ehtiyatların qorunması, əmək məhsuldarlığı, sənaye istehsalının ekoloji təhlükəsizliyi və ölkənin müdafiəsi səviyyələrində artan müəyyənedici amildir.

Texnoloji proseslərdə innovasiyanın əsas sahələri elm və texnikanın inkişafının prioritet vəzifələrinə uyğun olan dövlətin məqsədli innovasiya proqramlarının, sahələrarası innovasiya layihələrinin və proqramlarının, habelə fərdi elmi-texniki və təcrübi-konstruktor işlərinin formalaşdırılması və icrası olmalıdır. Sənayenin ümumi kompleksində innovativ fəaliyyət, ilk

növbədə, yanacaq-energetika kompleksi, aqrar-sənaye kompleksi, nəqliyyat, tikinti və s. iqtisadi cəhətdən sağlamlaşması üçün zəruridir. Bu sahələrdəki müəssisələrin innovasiyalara həssaslığı, elmi-texnoloji potensialının vəziyyəti və istehsalın yenidən qurulması ilə əlaqədardır.

Sənaye məhsullarının rəqabət qabiliyyətini artırmaq üçün, ilk növbədə, qabaqcıl yerli texnologiya və avadanlıqların vahid tətbiqi üçün əlverişli şərait lazımdır. Yüksək texnologiyalar tətbiqi texnoloji dinamikanı müəyyənləşdirir.

Qlobal səviyyədə innovativ fəaliyyətlə məşğul olan yerli müəssisələrin bir çoxu xarici şirkətlərin yolunu tutmuş və ixtisaslaşmış innovativ bölmələr yaratmışdır. Bu yanaşma, ilk növbədə, tədqiqat və axtarışları ilkin istehsalın imkanlarına və son istifadəçinin ehtiyaclarına yaxınlaşdırmağa imkan verir. İkincisi, yüksəkixtisaslı elmi kadrları cəlb etmək və üçüncüsü, ticarət sirlərini qorumaqda daha inamlı olmaqdır. Növbəti addım innovativ layihələrin inkişafıdır.

İnnovativ layihə dedikdə, yeni bir məhsul və ya texnologiyanın yaradılması və yayılmasına yönəlmiş qarşılıqlı fəaliyyətlərin məcmusu başa düşülür. Yeniliyin yaradılması və tətbiqi ilə birbaşa əlaqəli olan innovativ iqtisadiyyatın ən vacib fəaliyyət sahəsi məhz innovasiya layihələrinin idarə edilməsidir. İnnovativ layihənin idarə edilməsini sistemli bir proses olaraq nəzərdən keçirmək üçün aşağıdakılardan nəticə çıxarmaq lazımdır: innovativ layihə mürəkkəb, dinamik, çoxfunksiyalı bir obyektdir. Buna görə də idarəetmə sistemi avtomatlaşdırılmalı və hər hansı bir layihənin tərtib edilməsi, yaradılması və həyata keçirilməsi şəraitində dəyişikliklərə uyğunlaşma imkanı təmin edilməlidir [3]. Elmi-texniki tərəqqinin və innovasiya fəaliyyətin sıçrayışlı inkişafı, innovativ iqtisadiyyatın formalaşması və inkişafı şəraitində iqtisadi sistemlərin idarə edilməsi və planlaşdırılmasının əsası dünya milli inkişafının qeyri-müəyyənliyini və sürətlənən dəyişkənliyini nəzərə alaraq, çevik strateji planlaşdırma olmalıdır. Strateji planlaşdırmada mərkəzi yeri iqtisadi sistemlərin müxtəlif sahələrində tənzimləmə prinsiplərinin və planlaşdırma prioritetlərinin müəyyənləşdirilməsi tutmalıdır. İdarəetmə və planlaşdırmanın əsas sahələri iqtisadi və maliyyə tənzimlənməsi, əməkhaqqı və sosial müdafiə, sənaye, regional siyasətlər, müəssisələrdə dəyişikliklərin idarə edilməsi və tənzimlənməsi və s. olmalıdır [2].

İqtisadi sistemlərin innovativ fəaliyyətinin strateji planlaşdırılması elm, innovasiya və investisiya siyasətinin məqsədlərinin birləşdirilməsini təmin etməli və bu sistemlərin təşkili üçün innovativ məhsullar, texnologiyalar və metodların yaradılmasına və tətbiq edilməsinə yönəldilməlidir. İqtisadi sistemlərin yeni texnoloji və təşkilati imkanları axtaracaqları yeniliklərin ilk mərhələlərində axtarış, konstruktor və texnoloji inkişafların həyata keçirilməsini təmin etməlidir. Bu mənada yeniliklərin və innovasiyaların strateji planlaşdırılması innovativ proseslərin inkişafı və aktivləşdirilməsi yolu ilə iqtisadi sistemlərin gələcək effektiv nəticələrini əldə etməyə yönəldilməlidir. Bundan əlavə, innovasiyanın strateji planlaşdırılması iqtisadi sistemlərin inkişafının bütün aspektlərinə təsir göstərir.

Həmin aspektlər kompleks şəkildə nəzərə alınmaqla, innovasiyanın təşkili və idarə edilməsi prosesinin prinsipial sxemini aşağıdakı kimi təsvir etmək olar.

İnnovativ bir proqram hazırlayarkən layihələrin səmərəliliyinin düzgün qiymətləndirilməsi çox vacibdir. Layihə, həm də maliyyələşdirməni tələb edən innovativ layihələrlə birlikdə nəzərdən keçirilməlidir. Müəssisənin bütün maliyyə mənbələrini bir layihənin inkişafı üçün cəmləşdirmək həmişə məqsədəuyğun deyil. Müəssisə yalnız innovasiya layihəsinin 100% müvəffəq olmasına zəmanət olduqda ödəyə bilər. Digər hallarda mənbələri bir neçə innovativ layihənin inkişafına yönəltmək daha sərfəlidir. Bu vəziyyətdə, layihələrdən birinin inkişafındakı uğursuzluqların görünüşü başqalarının həyata keçirilməsindən əldə olunan uğurla kompensasiya ediləcəkdir.

Bundan əlavə, innovativ bir layihənin inkişafı üçün zəruri olan bütün xərcləri kəmiyyətcə hesablamaq lazımdır. Layihənin maliyyələşdirilməsinin mümkün üsulunu, layihə üçün xarici sərmayənin cəlb olunma ehtiyacını və ehtimalını da qiymətləndirmək lazımdır.



Şəkil. İnnovasiyanın təşkili və idarə edilməsi prosesinin prinsipial sxemi [1]

Hər hansı bir müəssisənin üzləşdiyi əsas problemlərdən biri nağd pulun düzgün planlaşdırılmasıdır. Çox vaxt tamamilə iqtisadi cəhətdən səmərəli bir innovasiya layihəsi müəyyən bir tarixdə maliyyə mənbələrinin alınmaması nəticəsində müflis ola bilər. Buna görə nağd daxilolmaların proqnozunu layihənin inkişafı üçün tələb olunan maliyyə xərclərinə ehtiyac proqnozu ilə vaxtında əlaqələndirmək lazımdır.

Yeni bir məhsul yaradarkən istehsal fəaliyyətinin qiymətləndirilməsi heç də vacib deyil. İstehsal mərhələsi diqqətli təhlil tələb edən innovativ bir layihənin həyata keçirilməsinin son mərhələsidir. Müəssisə innovativ layihə üzərində bir sıra işləri görə bilmirsə, potensial subpodratçıları müəyyənləşdirmək və bu işlərin təxmini qiymətini tapmaq lazımdır.

Layihəni qiymətləndirərkən müəssisənin yeni məhsul və ya xidmətin nailiyyətlərinin əlavə istehsal xərclərinə səbəb olma xüsusiyyətlərini müəyyənləşdirməsi lazımdır. Bu çətinliklər və xərcləri müəyyənləşdirdikdən sonra innovasiya layihəsinin elmi-tədqiqat mərhələsindən istehsal mərhələsinə planlaşdırılması təmin edilə bilər.

Layihənin bu mərhələsində yeni bir məhsulun son istehsal xərcləri bir çox amillərdən asılı olaraq qiymətləndirilməlidir: istehsal üçün material, xammal, enerji komponentlərinin qiyməti, istifadə olunan texnologiya, işçilərin əməkhaqqı səviyyəsi, kapital qoyuluşları və s. Bir qayda olaraq, innovasiya layihəsinin müvəffəqiyyətinin açarı istehsal texnologiyası, xərclər, satış həcmi və satılan yeni bir məhsulun və ya xidmətin qiyməti arasındakı qarşılıqlı asılılıqdır.

Müəssisə, innovasiya layihəsinin səmərəliliyini qiymətləndirdikdən sonra innovativ strategiya hazırlamağa davam edir. Müəssisənin innovativ strategiyası dedikdə rəhbərliyin innovasiya layihəsini həyata keçirməyə yönəlmiş və təşkilatın missiyasının həyata keçirilməsini və uzunmüddətli hədəflərinə çatmasını təmin edən bir sıra hərəkətlər və qərarlar nəzərdə tutulur.

Müəssisənin innovativ strategiyası çərçivəsində innovasiya büdcəsinin hazırlanmasına xüsusi diqqət yetirilməlidir. Həqiqətən, innovasiya fəaliyyətinin müəssisə fəaliyyətinin digər aspektləri ilə əlaqəli olması, planlaşdırılmış innovasiya strategiyasının həyata keçirilməsi üçün tələb olunan maddi, maliyyə və əmək ehtiyatlarının həcmi əlaqələndirilir.

Ümumi bir innovasiya hədəfinə və nəticədə, müəssisənin əsas inkişaf strategiyasına nail olmaq üçün:

1) innovasiya strategiyasının həyata keçirilməsi prosesində işçilər arasında məsuliyyətləri dəqiq bölüşdürmək;

2) hər bir işçinin işinin son nəticəsini görmək;

3) məlumat axınlarını yaratmaq və bütün struktur bölmələrin səmərəli qarşılıqlı fəaliyyətini təmin etmək;

4) işçinin şəxsi xidmətləri ilə əməkhaqqının miqdarı arasında birbaşa əlaqə yaratmağa yönəlmiş bir təşviq sistemi tətbiq etmək.

İnnovasiya strategiyasını tərtib etdikdən və innovasiya büdcəsini formalaşdırdıqdan sonra müəssisənin innovativ strategiyasını həyata keçirməyə başlamaq lazımdır.

Ümumiyyətlə, innovasiya strategiyasının həyata keçirilməsi nəticəsində müəssisənin innovativ məqsədlərinə nail olmağa yönəlmiş hərəkətlər və qərarların ardıcıllığını ətraflı şəkildə inkişaf etdirmək lazımdır.

Ədəbiyyat

1. Əliyev T.N., Yazar B. Azərbaycanın neft-kimya sənayesi müəssisələrində innovasiya fəaliyyətinin səmərəli idarə edilməsi mexanizminin işlənilməsi. // "Kooperasiya" Elmi-praktiki jurnal: №4. Bakı: AKU, 2016, s.73-81.

2. Инновационный менеджмент: Учебное пособие. Москва: КНОРУС, 2005, 544 с.

3. Попова. В.П. Управление инновационными проектами. М: ИНФРА, 2007, 191 с.

Резюме

Маммадова Ш.Р.

Управление и проблемы стратегического планирования инновационных проектов

В статье исследуется роль инноваций в повышении конкурентноспособности промышленных предприятий. Изучается проблемы подготовка инновационных проектов и обоснована необходимость стратегического планирования. Дана принципиальная схема процесса организации с учетом всех аспектов развития экономической системы.

Ключевые слова: *инновации, менеджмент, планирование, промышленность, предприятие, стратегия, продукт, производство, оценка*

Summary

Mammadova Sh.R.

Management and Problems of Strategic Planning of Innovative Projects

The article explores the role of innovation in enhancing the competitiveness of industrial enterprises. The problems of preparing innovative projects are studied and the need for strategic planning is substantiated. Given a fundamental scheme of the organization process, taking into account all aspects of the development of the economic system.

Key words: *innovation, management, planning, industry, enterprise, strategy, product, production, evaluation*

ALİ MƏKTƏB TƏLƏBƏSİ VƏ MƏZUNUNUN PEŞƏKAR MÜTƏXƏSSİS KİMİ HAZIRLANMASI PROBLEMİNİN BƏZİ HƏLLİ YOLLARI

Məmmədova Şəfiqə Səfər qızı

Sumqayıt Dövlət Universiteti

rrufet1979@mail.ru

Xülasə: *Məqalədə ali məktəb tələbəsi və məzununun peşəkar bir mütəxəssis kimi hazırlanması probleminin bəzi həlli yolları və mexanizmi araşdırılmışdır. Bu məqsədlə tələbə və məzunun peşəkar mütəxəssis kimi formalaşmasını nəzərə alaraq, ailə, işəgötürən təşkilat, ali*

məktəb və dövlətin məqsədli maliyyələşdirməsinin xərclər və gəlirlər modeli təklif olunmuş, bu ideyanın tətbiqinin hər bir subyektə və bütövlükdə cəmiyyətə verdiyi fayda və üstünlükləri göstərilmişdir.

Açar sözlər: *insan kapitalı, milli rifah, ali məktəb, tələbə, məzun, ailə, mütəxəssis, dövlət*

Müasir dövrdə yeni inkişaf mərhələsinin əsas istiqamətini çoxsahəli, effektiv və innovasiyalı iqtisadiyyatın formalaşması ilə yanaşı, elmin, təhsiilin, mədəniyyətin və ictimai həyatın digər sahələrində dayanıqlı, uğurlu nailiyyətlərin əldə edilməsi təşkil edir. İnnovasiyayönümlü yeni iqtisadiyyatın formalaşması isə daha çox bilik iqtisadiyyatına, yüksək texnologiyalara əsaslanmaqdadır. Bu isə öz növbəsində iqtisadiyyatın bütün səviyyələrində insan kapitalının elm, təhsil, səhiyyə, informasiya kommunikasiya texnologiyaları (İKT) və s. innovasiya yönümlü sahələrdə dünyada baş verən müasir inkişaf ənənələrinə uyğun olaraq ciddi irəliləyişlərinin əldə edilməsini tələb edir. Cəmiyyətin, o cümlədən hər bir ölkənin inkişafı hər şeydən əvvəl insan kapitalının səviyyəsindən, təhsil, elm sektorunun keyfiyyətinin yüksəldilməsindən, onun rəqabət qabiliyyətli olmasından, həmçinin "elm-təhsil-istehsal" əlaqələrinin çevik idarəetmə mexanizminin yaradılmasından çox asılıdır. Qeyd etmək lazımdır ki, insan inkişafı cəmiyyətdə ümumi ictimai yüksəlişlə bağlıdır. Əlbəttə insanın üç əsas məqsədi reallaşdırmadan ictimai nemətlərin əldə edilməsinə, cəmiyyətin tərəqqi və yüksəlişinə nail olmaq qeyri-mümkündür. Bu məqsədlərə: uzun və sağlam ömür sürmək, biliklər əldə edib onları yeniləşdirmək və genişləndirmək, həmçinin yüksək həyat səviyyəsini təmin edən maddi nemətlər əldə etmək aiddir [1]. İnsanın bu məqsədləri reallaşdırılmasının bünövrəsi isə təhsilin orta məktəb və xüsusilə ali məktəb pilləsindən başlayır.

Müasir və gələcək inkişafın strateji resursu insan amili, insan kapitalıdır [4]. XX əsrin sonlarında Dünya Bankının qiymətləndirmələrinə görə ölkədə Milli Rifahın yaradılmasında onun üç əsas tərkib hissəsi olan insan kapitalı 64%, əsas kapital 16%, təbii kapital 20% rol oynayır. Ancaq müasir dövrdə innovasiyalı və rəqabətli iqtisadi inkişafın nəticəsi olaraq, inkişaf etmiş ölkələrdə, xüsusən ABŞ, Kanada, Yaponiya və bir sıra Qərbi Avropa ölkələrində Milli Sərvətin yaradılmasında insan kapitalının payı artıq 80-90% təşkil edir [2]. Deməli, Milli Rifahın yaradılmasında ən böyük xüsusi çəkiyə malik insan kapitalıdır. İnsan kapitalı-məqsədli şəkildə ictimai istehsalın bu və ya digər sferasında istifadə edilən, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artmasına təsir edən və bununla da konkret insanın əmək haqqının yüksəldilməsinə səbəb olan, habelə insanın malik olduğu müəyyən bilik, vərdiş, qabiliyyət, sağlamlıq, yüksək texnologiyaları mənimsəmə bacarığı və s. ehtiyatların birliyidir. İnsan kapitalının inkişafı ona yönəldilən və sərf edilən investisiyalardan birbaşa asılıdır. Bu investisiyaların əsas istiqamətlərini mikrosəviyyədə-fərdin və onun ailəsinin sərəncamında olan şəxsi gəlir (fərdin öz-özünü investisiya etməsi), mezosəviyyədə - firma, iş birlikləri tərəfindən kadr personalının hazırlanması, yenidən hazırlanması və s. bu növ xərclər, makrosəviyyədə isə dövlət tərəfindən elm, təhsil, səhiyyə, mədəniyyət və s. yönəldilən investisiyalar təşkil edir.

Cəmiyyətdə maddi və mənəvi fayda əldə etməyə, rəqabətqabiliyyətli yüksək əməyə imkan verən insan kapitalının formalaşmasında ali məktəblərin də böyük rolu vardır. Belə ki, ali təhsil strukturlarında hazırlanan mütəxəssis kadrlar sonradan dövlətin, həmçinin firmaların işinin idarə olunmasında ölkədə iqtisadi artımın əldə edilməsində və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bu baxımdan hər bir ölkənin davamlı sosial, iqtisadi inkişafında daha səmərəli müasir ali təhsil sisteminin formalaşdırılması prioritet istiqamətlərdən olmalıdır. Bu məqsədlə ali təhsilin bakalavr və magistr pilləsinin keyfiyyətinin artırılması onun qlobal təhsil məkanına inteqrasiyası, ali təhsilli peşəkar səviyyəli kadrlara tələbatların təmin edilməsi istiqamətində islahatlar, yeni yanaşmalar işlənməlidir.

Yüksək ixtisaslı kadr hazırlığının müasir əmək bazarının tələbinə və beynəlxalq ixtisas təsnifatına uyğunlaşdırılması məhz kadrların peşə hazırlığının ali məktəb pilləsindən başlayır.

Yuxarıda qeyd edilən bu məqsəd və vəzifələrlə əlaqədar olaraq ali məktəb tələbələri və məzunlarının peşəkər mütəxəssis kimi hazırlanması probleminin həlli yollarının araşdırılmasını və tədqiqini prioritet istiqamətlərdən hesab etmək olar.

Ali məktəblərin bakalavr, o cümlədən magistr pilləsini bitirən tələbə məzunların işə düzəlmək proseslərində üzləşdikləri ən vacib məsələ və işə götürənlərin ən böyük problem kimi qarşıya qoyduqları və çox önəm verdikləri əsas faktor məzunların iş təcrübəsinin olmamasıdır.

Fikrimizcə, bu problemin həll mexanizmi ali məktəblərdə aşağıdakı kimi reallaşdırılmalıdır:

- Tələbələrin ixtisas fənnlərini mənimsədikləri dövrdən (əsasən III, IV kurslarda) başlayaraq yüksək balla oxuyan bacarıqlı tələbələr (məhz, bu motiv tələbələr arasında yüksək bilik qazanmaqla bağlı rəqabət yarada biləcək) iqtisadiyyatın, istehsalın, inkişafın ehtiyac duyulan və tələb edilən sahələrindəki (tələbələrin təhsil aldıqları ixtisaslara uyğun) iş birlikləri, təşkilat və kompaniyalarla ali məktəb rəhbərliklərinin bağladıqları birgə müqavilə əsasında müəyyən məbləğdə əmək haqqı ilə, tələbələrin praktiki iş təcrübəsi vərdişlərinin yaradılması və inkişafı, qismən də olsa hazır mütəxəsis kimi yetişməsi üçün onların təhsillə yanaşı, işlə təmin edilməsi mexanizmi yaradılmalıdır.

- Tələbələrin iş saatları həftənin müəyyən günlərində ya da günlük iş vaxtının yarısı üçün təyin edilə bilər.

- Tələbələrə ödəniş - əmək haqqı onların peşəkar mütəxəsis kimi yetişməsində maraqlı olan 4 əsas subyektin – işə götürən təşkilat, ali məktəb, dövlət və ailənin maliyyələşdirilməsi hesabına həyata keçirilməlidir. Bu halda lazım gələrsə, universitetlərdə əla və yaxşı qiymətlərlə oxuyan tələbələrin aldıqları təqaüd dövlət və ali məktəb maliyyəıəşməsinin ilkin mənbəyi kimi də çıxış edə bilər. Yaxud da dövlətin bu məqsədlə maliyyəıəşdirilməsilə yanaşı, ali məktəb, tələbələrin ödədikləri təhsil haqlarından müəyyən məbləğdə "Tələbə fonu" yaratmaqla bu problemi həll edə bilər.

- Əlbəttə, tələbələrə ödəniş əsas işçi heyətlə müqayisədə aşağı – müəyyən standart məbləğdə təyin edilməsi nəzərdə tutulur.

Bu ideyanın tətbiqinin fayda və üstünlüklərini aşağıdakılar təşkil edir:

1. Tələbələr ali məktəbi bitirənədək öz gələcək karyerası və işə düzəlmək potensialını artırmaq məqsədi ilə praktiki iş təcrübəsi və əmək vərdişləri qazanır.

2. Bu yanaşma tələbələrdə hər bir uğurun mənbəyi kimi məsuliyyət, işgüzarlıq, bacarıq vərdiş və potenisal imkanların yaranmasına yol açır.

3. Tələbələrin təhsil aldıqları müddətdə bu şansı əldə etmələri üçün onlar təhsil, bilik, bacarıq səviyyələrinin daim artırılmasına (məhz, bilik, bacarıq və təhsil səviyyələri daha yüksək olan tələbələrin bu eksperimentə cəlb olunması ilə əlaqədar) çalışacaqlar və peşəkar mütəxəssis kimi yetişməyə səy göstərəcəklər.

4. Məhz bu dövrdə elmi yaradıcılıq potensalı yüksək olan, fərqlənən müəyyən sayda tələbələrin (əlbəttə, tələbələrin öz istəkləri nəzərə alınmaqla elmə yaradıcılıq, tədqiqat işlərinə xüsusi həvəsi və istedadı olanları seçməklə) ali məktəbi, magistr pilləsini bitirdikdən sonra elmi-yaradıcılıq işlərinə cəlb olunması ilə gənc alimlər potensialının yaradılması imkanının meydana gəlməsi

5. Bu eksperiment nəticəsində artıq ali məktəbi, magistraturanı bitirdikdən sonra məzunun iş və ya praktiki karyerasını davam etdirmək və yaxud da elmlə məşğul olmaq qərarı formalaşaraq müəyyənləşir. Nəticədə, həm vaxt itkisi, həm də gənc potensial mütəxəssis çatışmazlığı problemi həll olunur.

6. Daha doğrusu, məzunun təhsilini başa vurduqdan sonra iş axtarmaq, işlə təmin olunmaqla bağlı (yaxud boş qalmamaq üçün, ya da ehtiyac üzündən ixtisasına uyğun olmayan, hətta heç bir bilik səviyyəsi tələb etməyən sahələrdə işləməklə bağlı) itirdiyi vaxta, can sağlığına, həmçinin məzunun təhsilə çəkdiyi xərclərin, investisiyaların ödənilməsi dövrünə qənaət olunur.

7. Davamlı işin, kifayət qədər səviyyədə olan məvacibin, ən başlıcası bacarığına, bilik səviyyəsinə uyğun seçdiyi işlə məşğul olmağın, gələcək karyeranın bünövrəsinin möhkəm qurulması gənc mütəxəsisin sağlamlıq, sosial-məişət, vaxtında ailə qurmaq, inkişafa, cəmiyyətə inteqrasiya və s. problemlərin həllinə və aradan qaldırılmasına şərait yaradır.



Bu eksperimentin tətbiqinin nəticəsi olaraq yuxarıda adları qeyd olunan və əsas maraqlı tərəflər kimi çıxış edən subyektlərin də əldə edə biləcəkləri fayda və üstünlüklərin istiqamətlərini aşağıdakı kimi qeyd etmək olar:

1. Ali məktəbin əldə edə biləcəyi əsas üstünlüklər:

- Ali məktəb, məzunlarının, hazırladığı mütəxəsislərinin məhz işlə təmin olunmaq səviyyəsinə görə yüksək reytinq qazanır

- Əldə edilən bu reytinqə görə də həmin ali məktəbə qəbul olunmaq istəyənlərin səviyyəsi və sayı artdığına görə onun maliyyə imkanları genişlənir və s.

2. Dövlət (cəmiyyət) və təşkilatın (kompaniya) əldə edə biləcəyi əsas üstünlüklər:

- Gənc mütəxəsis və kadr potensialının hazırlanması və işlə təmin olunması cəmiyyətdə friksion işsizlik problemini həll edir.

- Təşkilatların savadlı və iş təcrubəsi olan mütəxəsislərlə təmin olunması hesabına həm onun, həm də dövlətin gəlirləri artır.

- Elm potensialının möhkəmlənməsi yenilənməsi hesabına ölkədə elmin inkişafına təkan verilir və s.

Tələbə-məzunun peşəkar mütəxəssis kimi hazırlanmasının gəlirlər - xərclər modelinin struktur sxemini yuxarıdakı kimi təsvir etmək olar.

Zənnimizcə, ali məktəb tələbəsi və məzununun peşəkar, keyfiyyətli mütəxəssis kimi hazırlanması üçün onların yuxarıda qeyd edilən stimullaşdırma sisteminin və mexanizminin hazırlanması və praktiki cəhətdən tətbiqi ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilmısinə, peşəkar mütəxəssis məsuliyyətinin, həmçinin kadr hazırlığının səmərəliliyinin artırılmasına, məzunların iş təminatının yaxşılaşdırılmasına, ölkədə qəbul edilmiş təhsil standartları əsasında onlara müəyyən dəyişikliklər etməklə beynəlxalq və ümumavropa təhsil siteminin prinsiplərinə uyğunlaşdırılması proseslərinə töhfə verə bilər.

Ədəbiyyat

1. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, Bakı, 2017, 25 s.

2. Мамедова Ш.С. Современный и комплексный подход к человеческому капиталу. International Scientific Conferences, Conferencii.com. Monreal, Canada, 2019.

3. Г.Н.Тугускина. Человеческий капитал: управление развитием. Известия высших учебных заведений. Поволжский регион. Экономические науки, 2016, № 1(4), с. 51-58.

4. Руководство по измерению человеческого капитала. Европейская экономическая комиссия ООН, Нью-Йорк и Женева, 2016, 139 с.

5. Проект развития человечкского капитала, 2018, 50 с., http: //World.bank.org/ (econ.world.bank.org)

6. «Human Dwvelopment Report 2016 - Human Development Indices and Indicators» HDRO (Human Development Report Office) United Nations Development Programme. p.p.22-25, 2018

Резюме

Мамедова Ш.С.

Некоторые пути решения проблемы подготовки студентов и выпускников в вузах как специалистов

В статье рассматриваются пути и механизмы решения проблемы подготовки студентов и выпускников вузов в качестве специалистов. С этой целью, принимая во внимание формирование студентов и выпускников в качестве профессионалов, была предложена модель рентабельности целевого финансирования семьи, работодателя, университета и правительства, а также преимущества применения этой идеи для каждого субъекта и общества в целом.

***Ключевые слова**: человеческий капитал, национальное благосостояние, университет, студент, выпускник, семья, специалист, государство*

Summary
Mammadova Sh.S.
Some Solutions to the Problem Preparation of Students and High Schools in Quality Professional

The article considers some solutions and mechanisms for solving the problems of training students and graduates of universities as specialists. For this purpose, taking into account the formation of students and alumni as professionals, there was a model of profitability of family funding for the family, the employer, the university and the government, as well as the benefits of using this idea for everyone.

Key words: *human capital, national welfare, university, student, graduate, family, specialist, state*

PANDEMİYA DÖVRÜNDƏ AVTOSERVİSLƏRİN FƏALİYYƏTİNİN YÜKSƏK TEXNOLOGİYALAR ƏSASINDA YENİDƏN QURULMASI İSTİQAMƏTLƏRİ

Mirzəyev Əli Məmməd oğlu
AMEA-nın İqtisadiyyat İnstitutu
ali@gardashlar.com

Xülasə: *Məqalədə pandemiya dövründə avtoservislərin fəaliyyətinin yüksək texnologiyalar əsasında yenidən qurulması istiqamətləri tədqiq olunmuşdur. Bunun üçün xidmət sferasının özəlliklərinin, o cümlədən avtomobillərin təmiri sahəsinin xüsusiyyətləri, bu sahədə olan problemlər təhlil olunmuşdur. Avtoservislərin təşkili və fəaliyyətinin əsas elementləri araşdırılmışdır. Heyətin formalaşdırılması və peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı məsələlər baxılmışdır. Avtoservislərin maddi-texniki bazasının gücləndirilməsi problemləri və şəffaf fəaliyyət məsələləri tədqiq olunmuşdur. Yüksək texnologiyalar əsasında xidmətlərin formalaşdırılması və müştərilərə çatdırılması mexanizmləri araşdırılmışdır. Pandemiya dövründə məsafədən xidmətlərin göstərilməsi və məsləhətlərin verilməsi, sifarişlə təmirin təşkili, elektron vasitələrdən istifadənin genişləndirilməsi istiqamətləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

Açar sözlər: *pandemiya dövrü, avtoservislər, xidmət sferası, avtomobillərin təmiri, distant xidmətlər göstərilməsi, elektron xidmətlər, yüksək texnologiyalar əsaslı xidmətlər, pandemiya dövründə avtoservislər.*

Müasir dövrdə pandemiyanın geniş vüsət aldığı şəraitdə xidmət sferasının ayrı-ayrı sahələrinin fəaliyyətinin təşkilində ciddi çətinliklər və problemlər yaranmışdır. Bir sıra xidmət sahələrinin fəaliyyətinə məhdud formada icazə verilsə də, müştəri kontingentinin sərbəst şəkildə və qrafikdə avtomobil təmiri servislərinə gəlmələri xeyli mürəkkəbləşmişdir. Buna görə də, fəaliyyətin ənənəvi mexanizmlərinin yenidən baxılması və pandemiya şəraitində daha çox təmassız və məsafədən xidmətlərin təşkil edilməsi ilə bağlı tədbirlərin görülməsi zərurəti yaranmışdır. Belə ki, pandemiya ilə əlaqədar olaraq, əmtəə bazarlarında durğunluq yarandığı kimi, xidmət bazarlarında da fəaliyyət minimuma enmişdir. Yaxud əvvəldə qeyd etdiyimiz kimi bu səbəblərdən vətəndaşların sosial izolyasiya səbəbindən onların lazım olduğu təqdirdə avtoservislərə üz tutması müəyyən problemlərlə qarşılaşır. Bu səbəblərdən yeni xidmət formalarının hazırlanması və dövriyyəyə cəlb edilməsi, elektron xidmətlər vacib zərurət kimi ortaya çıxmışdır. Avtoservislər özlərinin müxtəlif xidmətlərinin təkmilləşdirilməsi, yenilənməsi tədbirlərini görməli, məsafədən müştərilərlə təmasların və əlaqələrin qurulması və gücləndirilməsini təmin etməli, sifarişli fəaliyyət rejiminə keçməyi bacarmalıdırlar. Bütün bu məsələlərdə peşəkar heyətin olması və əsaslandırılmış idarəetmə

qərarlarının verilməsi tələb olunur. Buna görə də avtoservis müəssisələrinin aparıcı heyətinin antiböhran şəraitində işləmək təcrübəsinin toplanması və çevik avtoservis xidmətlərinin təşkil edilməsi müasir dövrdə aktuallığı ilə diqqət çəkirlər.

Belə şəraitdə mühüm məsələlərdən biri də avtoservislərin fəaliyyətinin yenidən qurulmasıdır və bu işdə heyətin strateji rolu danılmazdır. Belə ki, heyətin idarə olunması sisteminin təhlili zamanı müəyyən olunmuşdur ki, ayrı-ayrı hallarda təcrübədə işçi ilə təşkilat bir-birinə uyğunlaşmır ki, bu da yüksək kadr axınının səbəblərindən biri ola bilər. Bundan əlavə, müəssisələrdə adaptasiya proseslərinin idarə edilməsi mexanizmi yoxdur. Dəqiq prosedurların olmaması yeni işçinin kollektivə uyğunlaşa bilməməsinin və onun işdən çıxmasının səbəblərindən biri ola bilər. Nəzərə almaq lazımdır ki, əməkdaşın təşkilatdakı gələcək fəaliyyəti adaptasiya prosesinin səmərəliliyindən asılıdır. Heyətin seçilməsi və yerləşdirilməsi altsisteminə əmək adaptasiyasının idarə edilməsini də daxil etmək lazımdır. Adaptasiya prosesi (yeni iş yerində adətən ilk 3-6 ay davam edir) - ən çətin dövrdür. Təcrübəsiz işçilər təşkilatı məhz bu dövrdə tərk edir [10]. Bu, əvvəldə nəzərdən keçirdyimiz səbəblər üzündən baş verir. Onların arasında ən geniş yayılanlardan bir qrupunu göstərmək olar: işin təşkili və şəraiti barədə yanlış təsəvvürlərin, illüziyaların yox olması; yüksək gərginlik və ağır iş şəraiti; əməyin faktiki və gözlənilən ödənişinin bir-birinə uyğun gəlməməsi. Əməkdaşların adaptasiyası prosesində iştirakı bütövlükdə idarəetmə strukturunun ayrılmaz funksiyası olduğuna görə, avtoservis müəssisələri üçün adaptasiya proqramının işlənib hazırlanmasına ehtiyac var. Bu proqram mümkün qədər informativ olmalıdır ki, əməkdaş yeni vəzifələrini daha asan dərk edə bilsin. Proqramın davamlılığı əməkdaşın sınaq müddəti keçməsi ilə bağlıdır. Eyni zamanda, idarəetmə heyətinin özünəməxsus fəaliyyət xüsusiyyətləri mövcuddur. Araşdırılan təcrübədən yanaşsaq, idarəetmə komandasının əsas cəhətləri bunlardır: 1) birlik; 2) çeviklik; 3) qarşılıqlı yardım; 4) qarşıdakı dəyişikliklərin məqsədlərinin dərki; 5) konstruktiv münaqişəlilik; 6) təşkilata sadiqlik; 7) ziddiyyətləri problemə çevirmək qabiliyyəti. Avtoservis müəssisələrində liderin yetişdirilməsi heyətin idarə edilməsi sisteminin səmərəlilyinin yüksəlməsinə səbəb ola bilər, ancaq avtoservislərdə heyətin az olması və lider qismində əsasən ustaların iştirak etməsi belə bir potensialın formalaşdırılması və inkişafını ləngidən səbəblərdəndir. İri heyəti və yüksək peşəkarlığa malik menecment personalı, lideri olan avtoservislərin sayı ölkəmizdə kifayət qədər azdır və yalnız bir neçə iri avtoservislərdə bu cür idarəetmə səviyyəsi və antiböhran şəraitində işləmək imkanlarına malik heyətlər mövcuddur.

Ölkəmizdə nəqliyyat vasitələrinə texniki xidmətlərin göstərilməsi və onların təmir edilməsi ilə bağlı qanunvericilik bazası işlənib hazırlanmışdır. Burada əsas prioritet göstərilən xidmətlərin yüksək standartlar səviyyəsində olması və beynəlxalq təcrübədə mövcud yanaşmaların, fəaliyyət mexanizmlərinin, servisin tətbiqinin peşəkar səviyyədə təşkil olunmasından ibarətdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1999-cu il tarixli qərarı ilə nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi haqqında nümunəvi əsasnamənin, nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri haqqında nümunəvi əsasnamənin və nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında nümunəvi əsasnamə təsdiq olunmuşdur [7]. Həmin qərarla təsdiq olunmuş sənəddə – nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında nümunəvi əsasnamədə xidmətlər haqqında məlumat, sifarişlərin qəbul olunması, göstərilən xidmətlərin hüquqi əsaslarla sənədləşdirilməsi, yəni müqavilələrin bağlanması prosedurları və formaları, xidmətlərin aparılması qaydaları, onların haqqının ödənilməsi və icra məsuliyyəti, texniki-təmir stansiyalarının vəzifə və funksiyaları vəsairlər tənzimlənir [8].

Bundan əlavə, ölkəmizdə avtoservislərin kateqoriyalara bölünməsi və avtomobil təmiri ilə bağlı standartların təsdiqlənməsi artıq həyata keçirilmişdir. Bu standartlar xidmətin daha peşəkar səviyyədə təşkili və avtoservislərdə işləyən heyətin iş prosesində əməyinin mühafizəsini qanunvericilik çərçivəsində qorumaq üçün kifayət qədər vacib amillərdəndir. Avtoservislərdə heyətin ixtisaslaşması və bununla bağlı təlimlərin keçirilməsi, həmin ixtisaslaşmanın sənədlərlə

təsdiq olunması diqqət mərkəzində saxlanılmalıdır [2]. Məsələn, avtoservislərdə geniş yayılan peşələrdən biri olan avtomobil təmiri üzrə çilingər öz peşəsinin əsas xüsusiyyətlərini dərindən mənimsəməli və təmir zamanı tələb olunan nəzəri biliklərə və praktiki vərdişlərə malik olmalıdır. Avtomobil təmiri üzrə çilingər avtomobilin ayrı-ayrı hissələrinin sökülməsi üzrə işlərin yerinə yetirilməsinin əsas yollarını, onun quruluşunu, elektrik sistemini, əyləc və mühərriklə bağlı vacib detalları mütləq şəkildə bilməli və mənimsəməlidir [1]. Bu peşə sahibi avtomobilin xarab olmuş hissəsinin təmiri ilə bağlı məsələdə əvvəldən axıra qədər anlayışa malik olmalı və məsuliyyət hiss etməlidir. Belə ki, aparılan tədqiqatlar və araşdırmalar göstərmişdir ki, ölkəmizin xidmət sferasında – avtoservislərdə işləyənlərin əhəmiyyətli bir hissəsi özlərinin peşəkarlıq səviyyələrinin artırılmasına ciddi önəm vermirlər. Beynəlxalq layihələr çərçivəsində özəl tədqiqat mərkəzinin apardığı araşdırmalarda qeyd olunur ki, avtoservislərin əksəriyyətində onların fəaliyyətinə inzibati maneələrin mövcudluğu məlum olmuşdur və işçilərlə əmək müqavilələrinin bağlanması prosesləri xeyli zəifdir. Avtoservislərdə texniki şərtin alınması ilə bağlı müqavilələrə ciddi önəm verilmir və işçilərin əksəriyyəti adətən ustaların yanında çalışan və hər hansı bir peşəni bitirməsi üzrə müvafiq sənədi olmayan şagirdlərdən ibarətdir [9].

Avtomobillərin təmiri ilə bağlı xidmət sahəsinin işinin təkmilləşdirilməsi məsələləri son illərdə aktual olaraq baxılmaqdadır və daha çox bu işlərin peşəkarlıq səviyyəsinin qaldırılmasının vacibliyi dərk edilməkdədir. Avtomobil təmiri müəssisələrində – avtoservislərdə başlıca meyarın müştəri məmnunluğu olması istiqamətində yanaşmaların artdığını qeyd etmək mümkündür [6]. Digər tərəfdən, avtoservislərin özlərinin fəaliyyət strategiyaları və praktikada müştəri məmnunluğunun təmin olunması üçün gördüyü işlərin qiymətləndirilməsi, obyektiv olaraq nöqsanlara baxılması, müştərilərlə münasibətlərin müasir dövrün tələblərinə uyğun şəkildə yenidən qurulması vacib şərtlər kimi ortaya çıxmışdır. Əsas məsələ təmirdə keyfiyyətin və zəmanətin təmin olunmasından ibarət olmalıdır [3]. Əvvəldə qeyd etdiyimiz kimi artıq ölkəmizdə avtoservislərin fəaliyyəti ilə bağlı standartlar qüvvəyə minmişdir və bundan sonra avtoservislər 3 kateqoriyaya bölünərək öz fəaliyyətini davam etdirməlidirlər: 1) A kateqoriyalı avtoservis – burada avtoservisin müvafiq əmtəə nişanı olmalıdır; 2) B kateqoriyalı avtoservis – təmir xidmətlərinin keçirilməsinə dair səlahiyyətə malik olmalı və bu qəbildən olan xidmətlərin göstərilməsi tələblərini yerinə yetirməlidir; 3) C katqoriyalı avtoservis – əsasən servis şöbələrinə və nəqliyyat vasitələrinə edilən xidmətlər üzrə nəqliyyat vasitələri istehsalçısının tələblərini mütləq yerinə yetirməsi tələb olunmayan avtoservisdir [5]. Bu amillər baxımından avtoservislərin fəaliyyətinin ölkəmizdə təkmilləşdirilməsi, müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün hüquqi baza və normativ sənədlər mövcuddur.

Eyni zamanda, antiböhran şəraitində avtoservislərin fəaliyyətinin mövcud mexanzimlərinin yenilənməsi, məhdud funksiyalar və imkanlar şəraitində müştəri məmnunluğunun əsasən qorunub saxlanılması üçün xidmətlərin strukturunun genişləndirilməsi, yüksək texnologiyalar əsaslı xidmətlərin hazırlanması, sosial izolyasiya şəraitində xidmətlərin göstərilməsi prosedurlarının formalaşdırılması vacibdir. Ölkə ərazisində xüsusi karantin rejimi dövründə avtoservislərin öz müştərilərinin tələblərinə uyğun olaraq təmir işlərinin sifarişlə yerinə yetirilməsi, müştəri məmnunluğuna nail olunması hazırda aktuallığı ilə diqqət çəkir [4]. Bunun üçün, avtosevislər özlərinin xidmət paketinin genişləndirilməsi, yüksək texnologiyalar əsasında yeni xidmətlərin hazırlanması və müştərilərə təqdim edilməsi tədbirləri görülməlidir.

Beləliklə, hazırkı şəraitdə pandemiyanın davam etdiyi bir dövrdə avtoservislərin fəaliyyətinin yüksək texnologiyalar əsasında təkmilləşdirilməsi sürətləndirilməli və bunlarla bağlı mühüm məqamlar diqqət mərkəzində saxlanılmalıdır:

- Pandemiya ilə bağlı avtoservislərin fəaliyyətlərinin məhdudlaşdırıcı hallarının xüsusiyyətləri və təsir dairəsi kompleks şəkildə öyrənilməli, müştəri kontingenti ilə əlaqələrə dair informasiya bankı formalaşdırılmalıdır;

- Avtoservislərin xidmət paketinin yenidən formalaşdırılması, distant məsləhətlərin, elektron sifarişlərin verilməsi mexanizmləri yaradılmalı və sifarişlə müştərilərin ünvanlarında göstərə biləcəkləri xidmətlər formalaşdırılmalıdır və s.

Ədəbiyyat

1. Avtomobil (nəqliyyat) təmiri üzrə cilingərin nümunəvi vəzifə təlimat. https://ok.ru/tehlukesiz/topic/68121752308565.

2. Avtomobil təmiri ilə bağlı standartlar təsdiqləndi. https://lent.az/news/218942.

3. Avtomobil təmiri və diaqnostikası. https://carhappy.ru/az/content/articles/16685-test_infiniti_fx45_bmw_x6_po_zakonu_albinosov_ili_prijatnyje_iskluchenija/.

4. Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı. Bakı şəhəri, 19 iyun 2020-ci il № 207.

5. Azərbaycanda avtoservislər 3 kateqoriyaya bölünəcək. https://metbuat.az/news/265772/azerbaycanda-avtoservisler-3-kateqoriyaya-bolunecek.html.

6. Bazarda avtomobil xidmətinin təşviqi. Avtomobil xidmətini tez açmaq və müştəriləri necə cəlb etmək olar? https://sergeimanko.ru/az/prodvizhenie-avtoservisa-na-rynke-kak-raskrutit-avtoservis-bystro-i/.

7. Nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi haqqında nümunəvi əsasnamənin, nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri haqqında nümunəvi əsasnamənin və nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında nümunəvi əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. Baki şəhəri, 15 oktyabr 1999-cu il № 163.

8. Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında nümunəvi əsasnamə. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmişdir.

9. Vətəndaşlara məxsus nəqliyyat vasitələrinin təmiri və onlara texniki xidmət göstərilməsi ilə məşğul olan sahibkarlıq subyektlərinin (avtoservislərin) qarşılaşdıqları inzibati baryerlərin aşkara çıxarılması. İqtisadi tədqiqatlar Mərkəzi. Bakı, 2015. http://edf.az/ts_general/azl/ksid/downloads/qalib_togrul_avtoservisler_06_may_2015.pdf.

10. Кандаш М.Н. Рассчитывать численность работников надо по новому // Главбух, 2014, №18, с. 23-24.

Резюме

Мирзоев А.М.

Направления реконструкции деятельности автосервисов на основе высоких технологий в период пандемии

В статье исследованы направления реконструкции деятельности автосервисов на основе высоких технологий в период пандемии. С этой целью анализированы особенности сферы услуг, в том числе, особенности сферы ремонта автомобилей и проблемы в этой сфере. Рассмотрены вопросы формирования и повышения профессионального уровня персонала. Исследованы вопросы и проблемы прозрачности деятельности автосервисов и усиления их материально-технической базы. Рассмотрены условия формирования услуг на основе высоких технологий и предоставление их конечным потребителям. Подготовлены рекомендации и даны предложения по направлениям реконструкции деятельности автосервисов на основе высоких технологий в период пандемии.

Ключевые слова: *период пандемии, автосервисы, сфера услуг, ремонт автомобилей, оказание дистанционных услуг, электронные услуги, услуги на основе высоких технологий, автосервисы в пост пандемический период.*

Summary

Mirzaev A.M.

Directions of Reconstruction of the Activities of Car Services Based on High Technologies During the Pandemic

The directions of reconstruction of the activities of car services based on high technologies during the pandemic are investigated in the article. The features of the service sector, including the features of the car repair sector and problems in this area are analyzed for this purpose. Issues of formation and enhancement of professional level of personnel are considered then. Problems of transparency of car services and strengthening of their material and technical base are investigated too. The conditions of formation of services on the basis of high technologies and their provision to end consumers are considered. Recommendations and proposals on the directions of reconstruction of the activities of car services based on high technologies during the pandemic are given in the end of the article.

Key words: *the pandemic period, car services, the service industry, car repairs, electronic services, services on the basis of high technologies, car services during the post-pandemic period.*

SOSİAL SAHİBKARLIQ FƏALİYYƏTİNƏ ELMİ-NƏZƏRİ YANAŞMALAR

Muradov Rəşad Rauf oğlu

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Bakı şəhər Məşğulluq idarəsi

reshadmuradov2@gmail.com

Xülasə: *Sosial sahibkarlığa kollektivist, sosial-mədəni və institusionalist mövqelərindən yanaşmaq mümkündür. Belə ki, sosial sahibkarlıq kollektiv sahibkarlığa və kollektiv özünüidarəetməyə əsaslanan bir fəaliyyət sahəsidir. Sosial yönümlü biznesin həyata keçirilməsi üçün vacib şərt sosial sahibkarlar üçün sahibkarlıq mədəniyyətinin formalaşdırılmasıdır. İnstitusionalist yanaşmada diqqət sahibkarlıq fəaliyyətində institutların inkişafına, onların formal və qeyri-formal tərəflərinin bir-birinə uyğunluğuna yetirilir.*

Açar sözlər: *sosial sahibkarlıq, kollektivist yanaşma, sosial-mədəni yanaşma, institusionalist yanaşma.*

Sosial sahibkarlıq sosial-mədəni və ekoloji problemlərin həllinə yönəlmiş yarı-biznes (mənfəət), yarı-altruistik (sosial missiya, xeyriyyəçilik) fəaliyyət növü kimi səciyyələndirilə bilər. Digər tərəfdən, əgər sahibkar bazar münasibətlərinin subyektidirsə, sosial sahibkar vətəndaş cəmiyyətinin subyekti hesab olunur və buradan da uğurlu sosial sahibkar mənfəətə görə deyil, əldə etdiyi sosial nəticələrə görə qiymətləndirilir [10].

Bütün bunları nəzərə alaraq, sosial sahibkarlığa üç elmi-nəzəri yanaşma üzərində dayanaq: kollektivist, sosial-mədəni və institusionalist [3, s.16].

Qeyd olunduğu kimi, sosial sahibkarlıq sosial problemlərin yumşaldılması missiyasını üzərinə götürür və adətən ictimai, qeyri-kommersiya təşkilatları çərçivəsində inkişaf edir. Buradan belə bir nəticə çıxarmaq olar ki, sosial sahibkarlıq kollektiv sahibkarlığa və kollektiv

özünüidarəetməyə əsaslanan bir fəaliyyət sahəsidir. Burada kollektivin kənardan idarə olunmasından daha çox kollektivin öz daxili imkanlarına, müəssisənin idarə olunmasında fəal iştirakına hesablanmış fəaliyyəti mühüm rol oynayır. Nəticədə, O.V.Tarasovanın qeyd etdiyi kimi, kollektivin özü kollektiv sahibkara çevrilir və bununla da, sahibkarlıq fəaliyyətinin əsas xüsusiyyətlərindən olan innovativliyi və riskləri öz üzərinə götürmüş olur [5].

Mülkiyyətin idarə olunması mədəniyyəti dedikdə mülkiyyətin formalaşmış ənənələr, dəyər və normalar çərçivəsində idarə olunması nəzərdə tutulur ki, burada mülkiyyətin idarə olunması mədəniyyəti sahibkarlıq fəaliyyətinin effektivliyini – konkret funksiyanın yerinə yetirilməsini, təşkilatın bütünlükdə fəaliyyətinin effektivliyini müəyyənləşdirir.

Beləliklə, bu vəziyyət nümayiş etdirir ki, təşkilatlar və onların əməkdaşları açıq sistemdə fəaliyyət göstərir, ətraf mühitlə daim qarşılıqlı əlaqədə olur. Buradan da sosial sahibkarlıq fəaliyyətində kollektivist yanaşma ilə yanaşı, sosiomədəni yanaşma da mühüm əhəmiyyət kəsb edir.

İkinci yanaşma kimi nəzərdən keçirəcəyimiz sosiomədəni yanaşmada təşkilatlara müxtəlif səviyyələrdə: müəssisə, region, bütünlükdə cəmiyyət səviyyələrində özü-özünü inkişaf etdirən, davamlı inkişafa çalışan bir sistem kimi baxılır. Sosial-iqtisadi sistemlərin davamlı inkişafının idarə olunmasının effektivliyi, ilk növbədə, bir-biri ilə sıx əlaqədə olan onun altsistemlərinin qarşılıqlı əlaqələrinin səviyyəsi ilə müəyyənləşir ki, bu vaxt hər bir altsistemin özü özünüinkişaf prinsipləri əsasında inkişaf edir. Bu halda idarəetmə özünüidarəetməyə çevrilir. Əgər bu deyilənləri sosial sahibkarlığa aid etsək, onda sosial sahibkarlıq institutunun davamlı inkişafının hakimiyyət iyerarxiyasında bütün maraqlı subyektlərin qarşılıqlı əlaqəsi və əməkdaşlığı nəticəsində baş verməsini göstərə bilərik [1, s. 20-25].

Hakimiyyətin şaquli xətti haqqında danışarkən biz onun iki səviyyəsini qeyd etməliyik: ümumdövlət və bələdiyyə səviyyələri. Ümumdövlət səviyyəsinin özü də iki hissədən ibarətdir: mərkəzi hakimiyyət və regional səviyyə. Belə ki, mərkəzi hakimiyyət ümumdövlət maraqlarından çıxış edərək ölkədəki bütün subyektlər üçün bərabər şərait yaradır (normativ-hüquqi baza, sosial müəssisələrin maddi dəstək sistemi və s.); regional səviyyədə isə müəyyən olunmuş çərçivədə mərkəzi hakimiyyətin qərarları həyata keçirilir. Bələdiyyə səviyyəsində sosial sahibkarlığın subyektləri üçün normal şərait yaradılır ki (məsələn, informasiya və təhsil infrastrukturunun formalaşdırılması, sosial sahibkarlıq sahəsində sosial təşəbbüslərin maliyyələşdirilməsi, sosial sahibkarlıq layihələşdirmələrinin reallaşdırılması sahəsində metodiki dəstək, sosial sahibkarlığın müsbət təcrübəsinin yayılması və s.), bura həm infrastruktur, həm də menecment prinsipləri daxildir. Bu iki sadalanan səvəyyələrdən savayı şəxsi səviyyə haqqında da danışmaq mümkündür ki, bura əhali arasında sahibkarlıq mədəniyyətinin inkişaf etdirilməsi və s. aid etmək mümkündür.

Beləliklə, sosial yönümlü biznesin həyata keçirilməsi üçün vacib şərt məqsədli auditoriya – biznesmenlər və sosial sahibkarlar üçün sahibkarlıq mədəniyyətinin formalaşdırılmasıdır.

Nəhayət, sosial sahibkarlıq sahəsindəki üçüncü yanaşmaya institusional yanaşmanı aid etmək olar. Bu yanaşmanın yaradıcısı Amerika alimi, Nobel mükafatı laureatı Duqlas Nortdur. Onun fikrincə sahibkarlıq fəaliyyətinin fəallaşdırılmasında aparıcı rol institutlara məxsusdur. İnstitutların sahibkarlığa təsirinin dərinliyini başa düşmək üçün ilk əvvəl onların təbiətini və rolunu dərk etmək lazımdır [9, s.1]. Onun fikrincə, institutlar insanlar arasında təkrarlanan qarşılıqlı münasibətləri strukturlaşdıran qaydalar, mexanizmlər və davranış standartlarıdır [7, s.73]. İnstitutlar insanların davranışına təsir göstərir və onların seçimini məhdudlaşdırır. Nort və davamçıları hesab edirlər ki, iqtisadi fəaliyyət institutlar sisteminə - formal və qeyri-formal - əsaslanır və yalnız institutların təsiri müəyyənləşdikdən sonra biz müxtəlif fəaliyyət tiplərini anlaya bilərik [6, s.7-3]. Formal qaydalar çox qısa bir müddətdə dəyişilə biləcəyi halda, qeyri-formal qaydalar adət-ənənələr və davranış kodeksləri ilə bağlı olduğuna görə çox gec dəyişə bilir [8, s.5].

Daha sonra qeyd edək ki, institusionalizm tərəfdarlarının fikrincə, təsərrüfat subyektləri öz fəaliyyətlərində maksimallaşdırma deyil, optimallaşdırma məqsəd və vəzifələrindən çıxış etməlidirlər. Başqa sözlə desək, qərar qəbul edərkən rəhbərlik təkcə öz maraqlarını deyil, həmçinin həmin təşkilatda çalışan əməkdaşlarının da maraqlarını nəzərə almalıdır. Eyni zamanda institusionalizm tərəfdarları ayrılıqda götürülmüş fərdin deyil, bütünlükdə cəmiyyətin maraqlarını üstün tuturlar: subyektlərin maraqlarına iqtisadyyatdakı vəziyyət təsir göstərir, əksinə yox.

İnstitutsionalistlər utilitarist məqsədlərlə fəaliyyət göstərən "rasional insan", fərdin fəaliyyətinin proqnozlaşdırılması prinsipini onun fəaliyyətinə təsir göstərən bütün amilləri – iqtisadi, sosial, siyasi və s. nəzərə almaq mümkün olmadığından qəbul etmirlər. İnstitutların cəmiyyətdə oynadığı əsas rol insanlar arasında sabit qarşılıqlı münasibətlər strukturunu yaratmaqla qeyri-müəyyənliyin azaldılmasından ibarətdir [2, s.21].

Daha sonra institusionalistlərin fikrincə, bir sistem olaraq iqtisadiyyat təkamüldə olan institutların qarşılıqlı əlaqə sistemini təşkil edir ki, bu halda institutun təkamülü iki yolla baş tuta bilər: dövlətin müəyyənləşdirdiyi çərçivələr nəzərə alınmaqla "yuxarıdan" və institutun qeyri-formal tərəfi nəzərə alınmaqla onun özünüinkişafı əsasında [3, s. 21-23].

Yeni institutun formalaşması planlaşdırılan mədəni yeniliyin dəyişilmiş variantını nəzərdə tutur [4, s. 89-90]. İnnovasiyanın yayılmasının uğurlu olması üçün onun yayıldığı məkanın elementlərinə uyğunluğu vacibdir. Əks təqdirdə yeni institutun tətbiqi ya çətinliklərlə qarşılaşacaq, ya da ki o heç fəaliyyət göstərə bilməyəcək.

Azərbaycanda sosial sahibkarlıq institutunun yeni olmasına baxmayaraq, bu istiqamətdə hüquqi, iqtisadi və sosial planda bir sıra zəruri addımlar atılmışdır: uyğun qanunlar qəbul edilmiş və yeniləri hazırlanmaqdadır, xeyriyyəçilik fondları yaradılır, sosial sahibkarlıq subyektlərinin fəaliyyətinə hər cür dəstək göstərilir. Lakin bütün bunlarla yanaşı sosial sahibkarlıq institutunun inkişafına, onun formal və qeyri-formal tərkib hissələrinin bir-birini tamamlamasına yönləmiş işlərin davam etdirilməsi üçün yeni tədbirlərin görülməsinə ehtiyac vardır.

Beləliklə, sosial sahibkarlıq müxtəlif nəzəri mövqelərdən izah oluna bilər. Belə ki, kollektivist yanaşmada o, kollektiv innovativliyi və riskləri öz üzərinə götürən vahid bir sahibkar kimi qiymətləndirilir; sosiomədəni yanaşmada sosial sahibkarlıq subyektə özü-özünü inkişaf etdirməyə, davamlı inkişafa, sahibkarlıq mədəniyyətini formalaşdırmağa çalışan bir sistem kimi götürülür; nəhayət, institusionalist yanaşmada diqqət sahibkarlıq fəaliyyətində institutların inkişafına, onların formal və qeyri-formal tərəflərinin bir-birinə uyğunluğuna yetirilir.

Ədəbiyyat

1. Алексеевский В. С. Управление диссипативными системами экономики и социума : автореф. … д-ра экон. наук. Кострома, 2004, 40 с.

2. Норт Д. Институты, институциональные изменения и функционирование экономики / пер. с англ. А.Н. Нестеренко; предисл. и науч. ред. Б. З. Мильнера. М., 1997.

3. Сафаров С.М. Основы социального предпринимательства. Уч. пособие. Иваново, 2014.

4. Тамбовцев В. Л. Теоретические вопросы институционального проектирования // Вопр. экономики. 1997. № 3.

5. Тарасова О. В. Самоуправление в контексте коллективного предпринимательства. URL: http://tombraider6.narod.ru/lib/mm/molodjozhbuduschee_civilizacii/samoupravlenie_v_kontekste_kollek.html (дата обращения: 17.09.2014).

6. Boettke, J. Peter and Coyne J. Christopher. Chapter 7. Entrepreneurial Behavior and Institutions. Published in Entrepreneurship: The Engine of Growth, Volume 1, Maria Minniti, editor, Praeger Perspectives Series. (Praeger Press), 2006, pp. 119-134.

7. North D. Institutes, ideology and efficiency of economy//from the plan to the market: future of the postcommunistrepublics., Moscow, Russia, 1993.

8. Sautet, Frederic. The role of institutions in entrepreneurship: implications for development policy. February 2005. Mercatus Center. George Mason University.

9. Yashaswini Prasad. The Role and Impact of Institutions on Entrepreneurship: Special Focus on Transition Economies – Russia and China Compared.

10. https://socialentrepreneur.az/bloq/7

Резюме

Мурадов Р. Р.

Научные подходы к социальному предпринимательству

К социальному предпринимательству можно подходить с точки зрения коллективистского, социокультурного и институционалисткого подходов. Таким образом, социальное предпринимательство является областью деятельности, основанной на коллективном предпринимательстве и коллективном самоуправлении. Важной предпосылкой для социально ориентированного бизнеса является формирование предпринимательской культуры для социальных предпринимателей. В институциональном подходе основное внимание уделяется развитию институтов предпринимательства, гармонизации их формальных и неформальных аспектов.

Ключевые слова: *социальное предпринимательство, коллективистский подход, социокультурный подход, институциональный подход.*

Summary

Muradov R.R.

Scientific and Theoretical Approaches to Social Entrepreneurship Activity

Social entrepreneurship can be approached from the point of view of collectivist, sociocultural and institutionalist approaches. So, social entrepreneurship is an area of activity based on collective entrepreneurship and collective self-government. An important prerequisite for a socially oriented business is the formation of an entrepreneurial culture for social entrepreneurs. The institutional approach focuses on the development of entrepreneurship institutions, harmonization of their formal and informal aspects.

Key words: *social entrepreneurship, collectivist approach, sociocultural approach, institutional approach.*

TURİZM BİZNESİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN SOSİAL-İQTİSADİ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Orucəliyeva Bəsti Əli qızı

Sumqayıt Dövlət Universiteti

Bestioruceliyeva@gmal.com

Xülasə: *Məqalədə turizm biznesinin inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmış, bu sahədə mövcud problemlər tədqiq edilmişdir. Turizm biznesinin inkişaf etdirilməsinin sosial-iqtisadi səmərəliliyinin qiymətləndirilməsi üçün göstəricilər sisteminin hazırlanması təklif*

edilmişdir. Həmçinin turizm biznesinin ümumi sosial-iqtisadi səmərəliliyi bir neçə aspektdə nəzərdən keçirilmişdir.

Açar sözlər: *turizm, biznes, səmərəlilik, inkişaf, infrastruktur*

Ölkə iqtisadiyyatının əsas sahələrinə əhəmiyyətli təsir göstərməsi baxımından turizm biznesinin inkişaf etdirilməsi əsas problemlərdən biridir. İqtisadiyyatın qloballaşdığı bir dövrdə turizm biznesinin inkişaf etdirilməsi yalnız iqtisadi baxımdan deyil, həmçinin siyasi cəhətdən də ölkəmiz üçün çox zəruridir. Belə ki, bu gün dünya iqtisadiyyatında baş verən qloballaşma prosesləri və təhlükəsizlik problemlərinin həllində turizm biznesinin özünəməxsus rolu vardır. Turizm biznesi həm də ölkə və xalqları bir-birinə yaxınlaşdırmaqda, həm də beynəlxalq münasibətləri gücləndirməkdə müstəsna rola malikdir. Müasir dünyada turizm bütün əlaqəli infrastrukturun inkişafına birbaşa və dolayı təsir göstərən sosial-iqtisadi fenomen kimi qəbul edilir. Müasir turizm nəqliyyatın, sosial sahənin və xidmət sahəsinin yüksək inkişaf səviyyəsinə əsaslanır və nəticədə onu iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirir.

Turizm sənayesindən büdcə gəlirləri əldə etmək üçün hər hansı bir sivil dövlət turizm potensialını qiymətləndirmək üçün öz ərazilərinin öyrənilməsinə investisiya qoymalı, turizm sənayesinin inkişafı üçün proqramlar hazırlamalı, kurort bölgələrinin və turizm mərkəzlərinin zəruri infrastrukturu üçün layihələr hazırlamalı, məlumat dəstəyi və reklamla məşğul olmalıdır [2].

Turizm iqtisadi inkişafın bir aləti olaraq əhəmiyyətli potensiala sahib olsa da, bütün iqtisadi problemlər üçün başlıca vasitə deyildir. Hökumət, onun inkişafına səbəb ola biləcək xərcləri nəzərə alaraq turizmdən qazancı artırmaq əvəzinə, optimallaşdırmaq üçün çox səy göstərməlidir. Ümumdünya Turizm Təşkilatının tədqiqatları turizm sənayesinin artım meyillərinin gələcəkdə də davam edəcəyini təsdiqləyir [3].

Turizm biznesinin səmərəliliyini təhlil edərkən, təbii potensialın, mədəni, tarixi və digər iqtisadi potensialın istifadə səviyyəsini ortaya qoyan sosial komponent mühüm yer tutur. Turizm fəaliyyətinin sosial-iqtisadi səmərəliliyi biznes mühitinin, sosial-iqtisadi sistemin və resursların formalaşması mühitinin qarşılıqlı təsirindən yaranır. Eyni zamanda, səmərəliliyi qiymətləndirmək üçün əsas göstəricilər formalaşır: məşğulluq artımı, həyat səviyyəsinin yüksəlməsi, əmək haqqının səviyyəsində dəyişiklik, təbii ehtiyatların miqdarının dəyişməsi, onların bərpası üçün kompensasiya, ekoloji vəziyyətin dəyişməsi [4].

Turizmin sosial-iqtisadi səmərəliliyini qiymətləndirmək üçün bir sıra göstəricilərin hazırlanması probleminin mürəkkəbliyini, fikrimizcə, bu spesifik sosial-iqtisadi fenomenə inteqrasiya olunmuş bir yanaşma ilə aradan qaldırmaq olar. Bu metodoloji yanaşma ümumi bir fenomendən özəl göstəricilərə eyni vaxtda keçid ilə iqtisadi potensialın və turizmin fəaliyyətinin xarici mühitini, onlardan istifadənin effektivliyini əhatə etməyə imkan verir. Turizmin sosial və iqtisadi səmərəliliyi yalnız "turizmin davamlı inkişafı" termin ilə əlaqəli şəkildə nəzərdən keçirə bilər.

Turizmin davamlı inkişafı – bu iqtisadi inkişaf modelinin əsas məqsədi turistləri qəbul edən regionun həyat keyfiyyətini yaxşılaşdırmaq, burada turistlərin rahat qalmasını təmin etmək və təbii mühiti qorumaqdır. Bütün şərtlər yerinə yetirildikdə, demək olar ki, bu regionda turizm sabit inkişaf edir. Bu regionda amillərdən biri işləməsə, gəlirlərin artmasına baxmayaraq, turizmin inkişafı müvəqqəti xarakter daşıyacaqdır. Belə olan halda müəyyən bir ərazidə turizm biznesinin sosial və iqtisadi səmərəliliyi barədə danışmağa ehtiyac yoxdur [1].

Turizm biznesinin iqtisadi səmərəliliyi sosial işçilərin ümumi səmərəliliyinin tərkib hissəsidir və müəyyən göstəricilər və meyarlar ilə ifadə edilir. Buna görə turizm biznesinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi problemləri müxtəlif səviyyələrdə müxtəlif meyar və göstəricilərin yaradılması, məqsədlərin iyerarxiyası və onların müvafiq fəaliyyət meyarlarını

müəyyənləşdirən sistemli bir yanaşma əsasında nəzərdən keçirilməlidir. Turizm biznesinin ümumi sosial-iqtisadi effektivliyindəki əlaqələrin səmərəliliyi bir neçə aspektdə nəzərdən keçirilməlidir: sosial və iqtisadi. Bunu nəzərə alaraq, əlaqələrin üç aspektini əhatə edən turizmin sosial və iqtisadi səmərəliliyi konsepsiyası hazırlanmalıdır:

1. Sosial.
2. İqtisadi.
3. Sosial və iqtisadi.

Əlaqələrin səmərəliliyi –bu, turistlərin və istirahət mərkəzlərinin iştirakçıların qarşılıqlı əlaqələndirilməsinin xarakterik xüsusiyyətidir. Bu xarakterik xüsusiyyət qarşılıqlı münasibətlərin sosial və iqtisadi məqsədəuyğunluğunu təsdiqləyir.



Şəkil. Turizm fəaliyyətinin sosial-iqtisadi səmərəliliyi

Əlaqəli səmərəliliyinin iqtisadi aspektinin göstəricilərinə daxildir: regionun ümumi məhsulunda turizm və istirahət mərkəzinin payı, istehsal imkanlarının artırılması, əməliyyat xərclərinin azaldılması, investisiyanın keyfiyyətinin və həcminin artırılması, turist məhsulunun keyfiyyətinin yaxşılaşdırılması, yeni texnologiyaların və məhsulların inkişafına xərclərin azaldılması. Səmərəliliyin sosial aspekti müəssisələrarası münasibətlərin sosial faydalarını xarakterizə edən göstəricilərlə müəyyən edilir. Bunlar müəssisənin fərdi və kollektiv məqsədlərinin uyğunluğu, onların həyata keçirilməsi dərəcəsi, yeniliklərin inkişaf müddətinin azaldılması, yeni bazarlara giriş üçün lazım olan vaxtın azaldılması, uzunmüddətli qarşılıqlı əlaqələr, tərəfdaşlar arasında etimad səviyyəsidir. Həmçinin, qarşılıqlı məsuliyyətlərin yerinə yetirilməsi dərəcəsi, əlaqələrin şəxsiyyət və ədalətliliyi, müəssisələrin öhdəliyi, sadiqliyi və sairdir. Turizmin iqtisadi səmərəliliyi idarəetmə prosesidir, nəticəsi pul, maddi, informasiya xərcləri ilə əldə edilmiş müəyyən bir fayda ilə ifadə olunur. Bu cür səmərəliliyin nəticələri ortaya çıxan xərclərlə müqayisə nəticəsində əldə edilir.

Ədəbiyyat

1. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2010. 606 s.
2. Зорин И.В.Актуальные проблемы туризма. М.: РМАТ, 2006, 212 с.
3. Ильина Е.Н. и др. Основы туристической деятельности. М.: Академия, 2007, 434 с.
4. Максимов В.Ф. Экономическая теория. Концептуальные основы и практика. М.: ЮНИТИ-ДАНА, 2012, 751 с.

Резюме

Оруджалиева Б.А.

Оценка социально-экономической эффективности развития туристического бизнеса

В статье обоснована необходимость развития туристического бизнеса, исследуются существующие проблемы в этой области. Предлагается подготовить систему показателей оценки социально-экономической эффективности развития туристического бизнеса. А также, рассмотрена общая социально-экономическая эффективность туристического бизнеса в нескольких аспектах.

Ключевые слова: *туризм, бизнес, эффективность, развитие, инфраструктура*

Summary

Orujalieva B.A.

Assessment of the Socio-Economic Efficiency of the Tourism Business Development

The article substantiates the need for the development of the tourism business, explores the existing problems in this area. It is proposed to prepare a system of indicators for assessing the socio-economic efficiency of the development of the tourism business. And also, the general socio-economic efficiency of the tourism business in several aspects is considered.

Key words: *tourism, business, efficiency, development, infrastructure*

SUMQAYIT KİMYA SƏNAYESİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU (XXI ƏSRİN ƏVVƏLLƏRİ)

Səmədov Fərman Famil oğlu

Sumqayıt Dövlət Universiteti

Sarvan74.@mail.ru

Xülasə: *Tezisdə XXI əsrin əvvəlində Sumqayıtda kimya sənayesinin tarixi, xüsusilə kimya sənayesinə xarici investisiyaların cəlb edilməsi Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin təşəbbüsü ilə yeni texnologiyaların tətbiqi üçün Yaponiya ilə danışıqlar dan bəhs edilir. Sumqayıt etilen-polietilen zavodunda buxar-generatorunun istismara verilməsi, buxar-generatorunun vacibliyi, Heydər Əliyevin kimya sənayesi ilə əlaqədar Yaponiyaya səfəri, Yaponiyada bağlanan Müqavilə, Azərbaycanda kimya sənayesi üçün yaponlar tərəfindən ekspertlərin öyrədilməsi və Heydər Əliyevin kimya sənayesinə qayğısı tezisin əsas hisslərinin təşkil edir*

Açar sözlər: *Sumqayıt, kimya sənayesi, etilen-propilen, superfosfat, buxar-generator qurğusu*

Azərbaycan Respublikasının prezidenti H.Əliyev qeyd etmişdir ki, Azərbaycanda EP-300 kompleksinin yaranması üçün biz nə qədər zəhmət çəkdik, SSRİ dövlətinə nə qədər müraciətlər

etdik, Azərbaycanın bunun üçün nə qədər böyük imkanları olduğunu sübut etdik. Ancaq o zaman Azərbaycana ikinci dərəcəli münasibət göstərilirdi. Digər tərəfdən də o vaxat SSRİ-nin kimya naziri Kostandov idi. 0, erməni idi və bu işə mane olurdu. Mən SSRİ-nin rəhbərlərinə dəfələrlə müraciət edib SSRİ Nzirlər Soveti sədrinin birinci müavini Tixonovu buraya dəvət etdim. Bizim mütəxəsssislər ona burada izahat verdilər, sübut etdilər, nəhayət biz böyük çətinliklərlə EP-300 qurğusunu aldıq və burada tikildi. Biz bunu Yponiyanın "Niçimen" şirkəti ilə bərabər etmişik. Bu qurğu Azərbaycanın kimya sənayesinin, təkcə EP-300 yox, başqa kimya müəssisələrinin də məhsuldarlığının artırılmasında çox böyük rol oynayacaqdır.[11]

2001-ci il iyulun 7-də Sumqayıt Etilen-polietilen zavodunda buxar generator qurğusunun istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilmişdir. Heydər Əliyev qurğunun istifadəyə verilməsi mərasimində iştitak etmək üçün zavoda gəlmişdir. Binanın girəcəyində lövhədə bu sözlər yazılmışdır. "Buxar generator qurğusu. Gücü buxara görə saatda 480 ton, elektrik enerjisinə görə 32 meqavat olan bu qurğunun tikintisi üçün saziş 1998-ci ildə Heydər Əliyev tərəfindən Yaponiyada imzalanmış, təməli bilavasitə onun tərəfindən 1999-cu ilin martın 24-də qoyulmuş, 2001-ci ilin iyulun 7-də onun iştirakı ilə işə salınmışdır". Dövlətimizin başçısına kompleksin rəmzi açarı təqdim edildi. Sonra prezident buxar generator qurğusunun idarəetmə pultu ilə tanış oldu.[6]

EP-300 kompleksi müasir texnika və texnologiya ilə təmin olunmuşdur. Suyun təmizlənməsindən buxar alınanadək bütün proses komputerlər vasitəsilə avtomatik rejimdə idarə edilirdi. Burada təxminən 3100 işçi calışırdı. Onların hamısına Yapon mütəxəssisləri dərs keçiblər. Burada istehsal ediləcək istilik enerjisi kimya sənayesinin tələbatını indi və gələcəkdə tam ödəyəcəkdir. Qurğuda həm istilik həm də elektrik enerjisi ucuz başa gəlir. Belə ki, bir kilovat-saat elektrik enerjisi 80 manata, bir hekokalori istilik enerjisi isə 33 min manata başa gəlir. Bu indiyədək aldığımız elektrik enerjisi qiymətlərindən iki dəfə yarım ucuz idi. Həm də burada yanacağa qənaət olunur. Müasir texnologiyanın tətbiqi sayəsində bir kolovat-saat elektrik enerjisi istehsalına cəmi 132 qram şərti yanacaq sərf olunur. Bu isə belə stansiyalar üçün çox yüksək göstəricidir. Hazırda bu kompleksin layihə gücünün 65 faizindən istifadə edilir. Yaxın gələcəkdə onun tam gücünə çatdırılması nəzərdə tutulmuşdur.[6]

Sumqayıt Etilen-polietilen zavodunun istifadəyə verilməsi zamanı Yaponiyanın Azərbaycandakı səfiri Tetsua Xirosin çıxışında bildirmişdir ki, artıq bir neçə dəfədir ki, Yaponiyanın iştirakı ilə Azərbaycanda həyata keçirilmiş layihələrin uğurla başa çatdırılmasının şahidi olmuşam. Mən çox şadam ki bu günkü tədbir kimyaçılar şəhəri olan Sumqayıtda keçirilir. Məhz sizin şəhəriniz Azərbaycanda ilk dəfə olaraq Yponiya Beynəlxalq Əməkdaşlıq Bangının krediti hesabına belə bir qurğu yarada bilir. Bu bangın sizin ölkənizlə əməkdaşlığının xüsusi tarixi vardır. Bildiyiniz kimi 1998-ci ildə Azərbaycan Respublikasının prezidenti, zati-aliləri cənab Heydər Əliyev Yaponiyaya səfər etmişdir. Tam məsuliyyətlə deyə bilərəm ki bu səfər ölkələrimiz arasında münasibətlərin dönüş nöqtəsi olmuşdur. Səfər zamanı iki dövlət arasında bir neçə sənəd imzalanmışdır. Razılaşdırmalardan biri də Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının Azərbaycan kredit ayırması haqqında idi. Bu gün bu kreditin Sumqayıtda necə reallaşdığının şahidi oluruq. İnanıram ki, gələcəkdə Yaponiya hökumətinin özəl sektorlarının iştirakı ilə sizin ölkəniz üçün vacib olan hələ neçə-neçə layihə gerçəkləşəcəkdir.[6]

2001-ci ildə Sumqayıt kimya və neft- kimya sənayesində məhsul buraxılışı 262,9 milyard manat olmuşdur ki keçən ilin müvafiq dövünə nisbətən 24.7 faiz azalmışdır və ümumi məhsul buraxılışının 65, 8 faizini təşkil etmişdir.[10]

Sənaye üçün coxsaylı kadrların yetişdirilməsində əsaslı rol oynayan Azərbaycan Sənaye İnstitutu, indiki Sumqayıt Dövlət Universiteti, məhz Heydər Əliyevin Sumqayəta əvəzsiz töhfəsi idi. Həmin illərinsonunda sənayenin yenidən qurulmasının ikinci mərhələsinə başlanması zərurəti meydana gəlmişdir.[4]

Möhtərəm prezident Heydər Əliyevin kimya sahəsinə göstərdiyi qayğı nəticəsində müəssisələr stabil işləyə bilirlər. Yaponiya hökumətinin krediti hesabına istifadəyə verilən buxar generatorunun işə buraxılması ilə ilk növbədə, müəssisələr istilik və elektrik enerjisi ilə təmin olunurlar. Buxar generatoru istifadəyə veriləndə müəyyən problemlər var idi. Həmin sistem bizim sistemə uyğunlaşdırıldıqdan sonra problem aradan qaldırıldı. Hazırda 1 kvt elektrik enerjisinə 129 qram şərti yanacaq, yaxud da bir kalori istiliyə 150 kiloqram şərti yanacaq sərf olunur. Ona görə də enerjini maya dəyəri cox aşağıdır. Bu da bizim məhsulların maya dəyərinin aşağı düşməsinə və məhsulların dünya bazarında rəqabətli olmasına imkan yaradır. Şirkətin məhsullarını demək olar ki, Avopanın bütün ölkələri alırlar. Şirkətin kreditor borcları 2 trilyon manat, debitor borcları isə 550 milyard manat olmuşdur.[1]

2003-cü ilin dekabrı 27-də Sumqayıtda Ü.Hacıbəyov adına "Kimyaçı" mədəniyyət sarayında "Sumqayıt kimyası-XXI əsrdə yeni inkişaf mərhələləri" mövzusunda elmi nəzəri konfrans kecirilmişdir. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Əliyev "Sumqayıtın sosial-iqtisadi inkişafında kimya müəssisələrinin rolu" mövzusunda cıxışı zamanı qeyd etmişdir ki, kimya sənayesinin perspektiv imkanlarına zəmanət verən amillərdən ən əsası ümumilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində baza müəssisə kimi "Etilen-polietilen", 2001-ci ildə isə "Buxar-generator" qurğularının tikilib istismara verilməsi olmuşdur. Məhz bunlar Sumqayıt kimyasının XXI əsrdə inkişafından danışmağa imkan yaradır.

Sumqayıtda 145 min nəfər əmək qabiliyyətli əhali var idi ki, bunlarda 38,6 min nəfər müxtəlif sahələrdə daimi işlə təmin edilmişlər, o cümlədən 12,3 min nəfər sənayedə çalışan insanlardır. Bunlarda 8 min nəfər kimya kompleksində işləyir. Əvvəllər isə bu sahədə işləyənləri sayı 20 min nəfərdən cox olmuşdur. Məhz buna görə də Sumqayıt şəhərinin XXI əsrdə inkişafı "böyük kimyanın" yaradılması ilə bağlıdır. Bu baxımdan yaxın gələcək ücün nəzərdə tutulmuş iqtisadiyyatın inkişafına yönəldilmiş fəaliyyət proqramı 2003-cü il 24 noyabr tarixində Azərbaycan Respublikası prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında müəyyən edilmiş vəzifələrlə üst-üstə düşür.

Bu baxımdan baza müəssisəsi olan "Etilen-polietilen" zavodunun imkanları daha genişdir. "Sintezkauçuk", "Üzvi sintez", "Səthi aktiv maddələr", "Superfosfat", Aşqarlar, Məişət kimyası, qeyri dövlət sektoruna aid olan müəssisələr yaxın vaxt üçün yuxarıda qeyd olunan istiqamətdə öz fəaliyyət proqramlarını hazırlamalı və həyat kecirməlidirlər.[7]

2003-cü ildə "Üzvi sintez" zavodunun kollektivi məhsul istehsalı və satışında yüksək göstəricilərə nail olmuşdur. Proqnoz tapşırığa 118 faiz əməl edən kimyaçılar tapşırıqdan əlavə 5,3 milyard manatlı məhsul istehsal etmişlər. Bu da əvvəlki təsərrufat ili ilə müqayisədə 40 faiz artım deməkdir. 2002-ci ildə 6533 ton propilen oksidi, 3510 ton müxtəlif adda poliefir qətranları, 1353 ton MLSP-R reagenti istehsal edilmişdir. Xalq istehlakı mallarının istehsal həcmi isə 394 milyon manat təşkil etmişdir.[5]

2003-cü il ərzində kimya və neftkimya sənayesində məhsul buraxılışı 359600 mln. Manat olmuşdur ki, keçən ilə nisbətən istehsalın həcmi 20,4 faiz və ya 61000 mln manat artmışdır. Emal sənayesinin ümumi məhsul buraxılışında kimya sənayesi məhsullarının xüsusi çəkisi 67,1 faiz təşkil etmişdir.[3]

2003-cü ilin yekununa görə Sumqayıtın iri müəssisələrinin istehsal həcmi 562,4 milyard manat olmuşdur ki, bu da 2002-ci illə müqyisədə 57 faiz və ya 216,2 milyard manat çoxdur.

Kimya sənayesi kompleksinə daxil olan "Etilen-polietilen", "Üzvi sintez" "Sintezkauçuk" zavodlarında istehsalın artım səviyyəsi daha yüksək olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü ilin noyabrın 17-də Nazirlər Kabinetinin üzvüləri ilə ilk görüşündə dərin məzmunlu nitqi, "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli 4 saylı fərmanı şəhər icra hakimiyyəti, müəssisə,idarə və təşkilatlar üçün yeni, əməli fəaliyyət proqramı olmuşdur. Fərmanın

icrası ilə bağlı " 2004-2008-ci illərdə Sumqayıt şəhərində sosial-iqtisadi sahələdə iqtisadi inkişafın təmin edilməsi proqramı" hazırlanmışdır. Proqrama əsasən şəhərin sənaye müəssisələrində bir çox istehsalatların genişləndirilməsi və yeni istehsalat sahələrinin yaradılması nəzərdə tutulmuşdur. "Etilen-polietlen" zavodunda layihə gücü ildə 120 min ton olan polipropilen istehsalatı, pirokondensatın və ağır qətranın təkrar emalı qurğuları, "Üzvi sintez" zavodunda ammoniyak və karbomid istehsalatları, "Səthi Aktiv Maddələr"zavodunda membran üsulu ilə kauçuk soda və xlor istehsalatı tikilməli, "Sumqayıt Superfosfat" SC ildə 250 min ton superfosfat gübrəsi istehsal olunmalıdır.

Sumqayıtda kimya sənayesinin inkişafı məsələləri 2003-cü ilin dekabr ayında şəhər icra hakimiyyətinin təşəbbüsü ilə"Sumqayıt kimyası-XXI əsrdə, yeni inkişaf mərhələləri" mövzusunda keçirilmiş elmi praktik konfransda öz əksini tapmışdır.[9]

Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər) nəzərdə tutulan tədbirlərin icrası olaraq, "Azərkimiya" Dövlət Şirkəti müssisələrində 2004-cü ildə 201 yeni iş yeri aşılmış, 316 iş yeri bərpa edilmiş, mövsümi olaraq 40 iş yeri, cəmi 557 iş yeri açılmışdır.[2]

1981-ci ildə tikintisinə başlanılan və bu gün kimya sənayesinin flaqmanı rolunu oynayan "EP-300"qurğusunun tikintisini xüsusilə qeyd etmək lazımdır. Keçmiş Sovetlər İttifaqı rəhbərlərinin müxtəlif maneələr yaratmasına baxmayaraq Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti nəticəsində bu ğurğu tikilib istismara verilmişdir.

İnkişaf etmiş xarici dövlətlərin iş adamları dəfələrlə qeyd etmişlər ki, dünyada "EP-300" kimi qurğusu olan dövlətlər iqtisadi cəhətdən bu sahədə qüdrətli dövlət hesab olunurlar. Bu qüdrəti, bu gücü respublikamıza, şəhərimizə məhz Heydər Əliyev bəxş etmişdir. Cənab Heydər Əliyev vaxtilə qurub yaratdığı sənaye sahələrinin inkişafına ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra da xüsusi diqqət yetirirdi.[8]

Aparılmış araşdırmanın nəticəsi olaraq aşağıdakı qənaətə gəlmək olar:

-H.Əliyevi təşəbbüsü və təşkilatçılığı ilə xarici ölkələr xüsusislə də qonşu MDB respublikaları, habelə Yaponiya, İran, Türkiyə, Almaniya Frderativ Respubliksı və digər ölkələrlə əlaqələr yaradılması və iqtisadi və maliyyə xarakterli müqavilələrin bağlanmasının nəticəsi olaraq dünya istehlak bazarının tələblərinə uyğun kimya məhsulları hazırlanmış, çeşidləri artırılmış və Sumqayıt kimya sənayesi sahəsində yeni texnologiyanın tətbiqi istiqamətində mühüm tədbirlər həyata kecirilmişdir;

- Sumqayıt kimya və neftkimya sənayesi üzrə bəzi zavodlarda istehsalın səviyyəsi aşağı düsə bütövlükdə şəhər üzrə kimya və neftkimya sənayesi inkişaf etmişdir;

- Ümumiyyətlə Sumqayıt kimya sənayesinin yenidən qurulmasında və neft-kimya prosesləri üçün əsas xammal bazası rolunu oynayan EP-300 kompleksinin tikilməsi və istismara verilməsində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur;

- Görülən tədbirlərin nəticəsi olaraq qeyd etmək lazımdır ki, 1999-cu ildən etibarən Sumqayıt kimya və neftkimya sənayesinin inkişafında yeni mərhələnin əsası qoyulmuşdur.

Ədəbiyyat

1. "Azərkimya" Dövlət Şirkətində istehsalın həcmi artır. Sumqayıt qəzeti.28 iyun 2003-cü il.

2. Əliyev Ş. "2004-2008-ci illərdə Sumqayıt şəhərində sosial və iqtisadi sahələrdə inkişafın təmin edilməsi proqramı" mövzusunda konfransın materialları (27 aprel 2005-ci il), Sumqayıt qəzeti, 2005-ci il, s.11

3. Əliyev Ş. İqtisadiyyat və həyat junalı, №5-6, Bakı, 2004, s.102

4. Heydər Əliyev və Sumqayıt. Sumqayıt qəzeti. 8 may 2003-cü il.

5. İstehsal həcmi artır. "Üzvi sintez" zavodu. Sumqayıt qəzeti. 14 yanvar 2004-cü il.

6. Sumqayıt Etilen-polietilen zavodunda buxar-generator qurğusu istifadəyə verilmişdir. Sumqayıt qəzeti. 14 iyul 2001-ci il.

7. Sumqayıt kimyası XXI əsrdə. Sumqayıt qəzeti. 31 dekabr 2003-cü il.

8. Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Vaqif Əliyevin çıxışı. Sumqayıt qəzeti. 7 aprel 2004-cü il.

9. Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Vaqif Əliyevin hesabat məruzəsi. Sumqayıt qəzeti. 6 mart 2004-cü il.

10. Sumqayıt şəhər statistika idarəsi. 2001-ci ildə Sumqayıtın sosial-iqtisadi vəziyyəti haqqında statistik məlumat. Sumqayıt qəzeti. 2 mart 2002-ci il.

11. Sumqayıt qəzeti. 14 iyul 2001-ci il.

Резюме

Самедов Ф.Ф.

Роль Гейдара Алиева в развитии сумгайитской химической промышленности (начало XXI века).

В тезисах говорится об истории химической промышленности Сумгаита в первые годы XXI века, особенно о переговорах с Японией для привлечения иностранных инвестиций в химическую промышленность и применении новых технологий по инициативе президента Азербайджанской Республики Гейдара Алиева.

Ввод в эксплуатацию парогенератора на Сумгаитском этилен-полиэтиленовом заводе, важность парогенератора, визит Гейдара Алиева в Японию в связи с химической промышленностью, Соглашение, подписанное в Японии, Организация обучения для химической промышленности в Азербайджане японцами эксперты и забота Гейдара Алиева о химической промышленности.

Ключевые слова: *Сумгаит, химическая промышленность, этилен-пропилен, суперфосфат, паровое-генераторное устройство*

Summary

Samadov F.F.

The Role of Heydar Aliyev in the Development of Sumgayit Chemical Industry (Early XXI Century).

Theses talk about the history of the chemical industry of Sumgait in the early years of the XXI century, especially about negotiations with Japan to attract foreign investment in the chemical industry and application of new technologies at the initiative of the President of the Republic of Azerbaijan HeydarAliyev.

The commissioning of a steam generator at the Sumgayit Ethylene-Polyethylene Plant, the importance of a steam generator, Heydar Aliyev's visit to Japan in connection with the chemical industry, Agreement signed in Japan, The organization of training for the chemical industry in Azerbaijan by Japanese experts and Heydar Aliyev's care for the chemical industry were discussed.

Key words: *Sumgait, chemical industry, ethylene propylene, superphosphate, steam generator*

HOLDİNQLƏRİN YARADILMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI VƏ ONLARIN İQTİSADİYYATDA ROLU

Sultanova R.R.
Milli Aviasiya Akademiyası
rasima-sultanova@bk.ru

Xülasə: *Məqalə holdinqlərin yaradılmasına, onların təşkilati-idarəetmə strukturuna, həmçinin bu növ müəssisələrinin ölkə iqtisadiyyatında roluna, bu sahədə mövcud olan normativ sənədlərə və eləcə də holdinqlərin gələcəkdə öz fəaliyyətini genişləndirməsinin perspektivlərinə həsr olunub.*

Açar sözlər: *islahat, struktur, üfuqi inteqrasiya, idarəetmə sistemi, uyğunlaşma.*

Dünya təsərrüfatının qloballaşma və transmilliləşməsi prosesləri böyük şirkətlərin fəaliyyətində çox mühüm dəyişikliklərə səbəb olur. Çünki hazırda inteqrasiya və diversifikasiya edilmiş korporativ qurumlar qlobal və milli iqtisadiyyatın ən əhəmiyyətli subyektlərindən birinə çevrilir, çünki bu assosiasiyalar bazar istehsalının və satışının əhəmiyyətli bir hissəsini birləşdirir, iqtisadiyyatın inkişafında aparıcı rol oynayır, bazarda inhisarçı və ya oligopololik mövqe tutur və gedən proseslərin ən mühüm iştirakçılarına çevrilir.

Hazırda ölkəmizdə iqtisadiyyatında dövlət sektorunun tənzimlənməsi şəraitində, direktiv idarəetmə metodlarının ləğv edilməsi və əvvəllər mövcud olan iyerarxiya strukturlarının ləğv olunması daxili bazarda dayanıqlı olmaq və beynəlxalq bazarlara daxil olmaq üçün lazım olan bir sıra böyük inteqrasiya edilmiş və diversifikasiyalı korporativ birlikləri formalaşdırılır. Bu baxımdan, müəssisənin bazar idarəetmə prinsipləri əsasında birləşmənin fəaliyyət formalarının və müəssisənin idarəedici strukturlarının rolu artmaqdadır. Belə ən geniş yayılmış və effektiv idarəetmə strukturlarından biri də holdinqdir.

The downward trend in technical capacity in recent years due to the significant depreciation of the equipment used in the agricultural sector of Azerbaijan made it necessary to find opportunities for the modernization of machinery and equipment. Leasing of techniques in the modern stage of development of national economy is one of the main forms of state support of the agrarian sector in the Republic of Azerbaijan. In the early years of independence, due to various objective and subjective factors, leasing relations have not yet developed in our country. However, in accordance with the decree “On additional measures to expand leasing in the agrarian division”, signed by President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev on October 23, 2004, after the Resolution of the Cabinet of Ministers of the Republic of Azerbaijan “On the implementation of the necessary measures for the organization of Agroleasing for Open Joint-Stock Company ”on March 31, 2005, favorable conditions were created for the development of leasing relations in the agrarian sector. According to the Decree No. 413 "On Improving Government Assistance and Agricultural Leasing Activity", signed by President Ilham Aliyev on December 20, 2018, the leasing

development has moved to a new stage. According to the decree, the Agrarian Agency for Crediting and Development (AACD) under the Ministry of Agriculture of the Azerbaijan Republic was determined as the body regulating leasing relations in the Azerbaijan Republic. One of the main activities of the Agency is the promotion of innovative methods and best practices in the agricultural sector, as well as the provision of loans through authorized banks, non-bank credit organizations and leasing companies to support entrepreneurial initiatives. Currently, 23 authorized organizations were selected by AACD to provide technique and breeding animals on preferential terms [2].

It should be noted that, due to limited financial resources of economic entities, the problem of effectively providing agricultural products with machinery and equipment through leasing is of particular importance. The actuality of the problem is that leasing is becoming an integral element of economic relations in the modern agrarian conditions of the country. The formation of leasing relations in the agricultural sector allows to update the composition of machines, combines, tractor and other equipment park. The condition of this park, which needs to be formed and improved through leasing, can effectively influence the total volume of production and productivity in the agricultural sector.

Literature

1. Alexander, Alan A. Managing and Leasing Commercial Properties, 2nd Edition./ Alan A. Alexander, Richard F. Muhlebach – Illinois: Institute of Real Estate Management, - 2016. – 592 p.

2. Fabozzi, F. G. Introduction to Structured Finance./ F.G.Fabozzi, H.Daris, M. Choudhry - New York: Cohn Wiley&Song, -2006. – 400 p.

3. Levkovich, A.O. Formation of the market of leasing services / Levkovich A.O. - M .: Publishing house of business and educational literature, 2014. - 336 p.

4. Nevitt, P.K., Equipment Leasing 4th ed./ P.K.Nevitt, F.G.Fabozzi - New York:John & Sons, -2000. – 523 p.

5. State Program of socio-economic development of the regions of the Republic of Azerbaijan for 2014 - 2018 // Decree of the President of the Republic of Azerbaijan. - Baku: Decree, 2014 - 151 p.

6. The Civil Code of the Republic of Azerbaijan was adopted on December 28, 1999 (as amended on December 3, 2019). - Baku: Law, 2019 - 679 p.

Xülasə

Həsənova N.T.

Aqrar sahədə lizinq əməliyyatlarının istifadəsinin səmərəliliyinin qiymətləndirilməsi

Lizinq əməliyyatları kommersiya banklarının apardığı vasitəçilik əməliyyatlarının bir formasıdır. Lizinq hələ qədimdən məlumdur. Bu cür əməliyyatın mahiyyətini Aristotel belə şərh etmişdir: «Var-dövlət, əksər hallarda, mülkiyyətə sahib olmaq deyil, ondan səmərəli istifadə etməkdir». Lizinq – ingilis sözündən olub, icazə mənasını bildirməklə, ixtisaslaşmış lizinq şirkətinin, firmasının, bank şöbəsinin lizinq alan üçün əmlak olaraq, həmin əmlakın müəyyən müddətə icarəyə verilməsi ilə əlaqədar olaraq əsas vəsaitlərə investisiya qoyuluşunun maliyyələşdirilməsini özündə ehtiva edir.

Açar sözlər: *lizinq, maliyyə lizinqi, icarə, BMUS, qiymətləndirmə.*

Резюме

Гасанова Н.Т.

Оценка эффективности лизинговых операций в аграрном секторе

Следует отметить, что лизинговые операции являются формой посреднических операций коммерческих банков. Лизинг известен с древних времен. Аристотель прокомментировал суть операции следующим образом: «Богатство, в большинстве случаев, заключается не в том, чтобы владеть собственностью, а в том, чтобы эффективно ее использовать». Лизинг - это английское слово, которое означает «аренда» и включает в себя финансирование инвестиций в основной капитал. В связи с арендой имущества, выданного специализированной лизинговой компанией, фирмой, банковским отделом в качестве недвижимости на определенный период времени.

Ключевые слова*: лизинг, финансовый лизинг, аренда, МСБУ, оценка.*

IV BÖLMƏ
İQTİSADİ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ-METODOLOJİ PROBLEMLƏRİ

IV СЕКЦИЯ
ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

IV SECTION
THEORETICAL AND METHODOLOGICAL PROBLEMS OF ECONOMIC SECURITY

AZƏRBAYCANDA MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ ƏSAS PRİORİTETLƏRİ

Abbasov Vahid Hacıbəy oğlu
Bakı Dövlət Universiteti
Həsənzadə Esmira Hüseyn qızı
Bakı Dövlət Universiteti
vahid.abbasov.56@mail.ru

Xülasə: *İqtisadi təhlükəsizlik iqtisadi müstəqilliyin mühüm tərkib elementi kimi dəyərləndirilir. İqtisadi təhlükəsizlik iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman dayanıqlı iqtisadi artım, ictimai ehtiyaclar, yüksək keyfiyyətli idarəçilik, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təmin olunur. İqtisadi təhlükəsizlik problemi dövlətin yaradılması ilə eyni zamanda yaranır və milli təhlükəsizliyin onurğa sistemini təşkil edir. İqtisadi təhlükəsizliyin əsas göstəriciləri kimi ümumi daxili məhsulun artımı, iqtisadiyyatın səmərəli quruluşu və rəqabət qabiliyyəti, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya sürəti və işsizlik norması, idxaldan asılılıq, daxili və xarici borcların səviyyəsi və s. məsələlər şərh olunmuşdur.*

Açar sözlər: *iqtisadi təhlükəsizlik, milli mənafelər, iqtisadi siyasət, milli iqtisadiyyat, milli iqtisadi inkişaf*

Müasir dövrdə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan yeni iqtisadi sistem formalaşmışdır ki, bu da baş verən bir sıra sistem dəyişiklikləri ilə əlaqədar olaraq həyata keçirilən islahatlar nəticəsində ölkənin sosial-iqtisadi həyatında ciddi dəyişikliklərlə müşaiyət olunmaqdadır. Bu dəyişikliklər isə ilk növbədə iqtisadi müstəqilliyin əldə edilməsi ilə əlaqədar olaraq, ölkənin iqtisadi

təhlükəsizliyinin təmin olunması məsələsini ön plana çıxartmışdır. İqtisadi təhlükəsizliyin təmin olunması isə ölkənin iqtisadi sistemində istehsalın və istehlakın elə vəziyyəti başa düşülür ki, cəmiyyətin iqtisadi inkişaf və sosial siyasi stabilliyinin dayanıqlığı xarici təsiedici amillərdən asılı olmayaraq təmin olunur. Iqtisadi təhlükəsizliyin təmin olunması daxili və xarici şəraitdən asılı olmayaraq ölkənin müvafiq resursları və potensialı əhalinin tələbatının müəyyən olunmuş normalardan aşağı olmayaraq ödənilməsini təmin edir.

İqtisadi təhlükəsizliyinin təmin olunması real və proqnozlaşdırılan potensial təhlükənin müəyyənləşməsini, hətta bu təhlükəsizliyin daha səmərəli təmin olunma sisteminin yaradılmasını özündə əks etdirir ki, bu zaman dayanıqlı iqtisadi artım, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təşkil olunur. İqtisadi təhlükəsizlik problemi dövlətin yaradılması ilə eyni vaxtda yaranaraq onun təmin olunmasının konkret meyarları mövcuddur ki, bunlar da iqtisadi maraqlar əsasında müəyyən olunur. İqtisadi təhlükəsizliyin təmin olunması ölkə iqtisadiyyatının inkişafına, cəmiyyətin social-iqtisadi sabitliyinin təmin olunmasına və ölkənin iqtisadi maraqlarının reallaşdırılmasına şərait yaratmalı, ona təsir göstərən mənfi amilləri neytrallaşdırmalıdır. İqtisadi maraqlar isə yalnız iqtisadiyyatın səmərəli fəaliyyət göstərdiyi bir şəraitdə reallaşaraq, iqtisadi təhlükəsizliyin iqtisadi inkişafın səviyyəsindən asılı olan meyarları əks etdirir. Bu meyyarlara hər bir ölkənin resurs potensialı və onun inkişaf etdirmək, daxili və xarici təhlükələrin minimuma endirmək imkanı reallaşdırmaqla yanaşı, suveren iqtisadi siyasətin aparılması, sosial sabitliyi və sosial ziddiyyəti həll etmək və rəqabətliyi təmin etmək kimi iqtisadi qabiliyyətlərin də reallaşdırılmasını tələb erir.

İqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün ilkin zəruri şərtlərdən biri ölkənin sosial-iqtisadi inkişafının dinamikliyinə nail olmaq zəruri hesab oluna bilər. Bu zaman ölkənin iqtisadiyyatının davamlı və dayanıqlı inkişafını təmin etmək tələb olunur ki, nəticədə iqtisadi təhlükəsizlik üçün inkişaf prosesində qarşıya çıxan problemlər vaxtaşırı üzə çıxarılmalı və öz həllini tapmalıdır. Bəzi tətqiqatçıların qeyd etdiyi kimi, əks halda mövcud problemlər sosial iqtisadi inkişafın buxovuna çevrilir və ölkə üçün daim qaynaqlanan təhlükə mənbəyinə çevrilir. Yığım və ivvestisiyalaşma ilə bağlı uzunmüddətli və kompleks inkişaf problemləri mərhələli şəkildə həll olunmaqla, mütəmadi olaraq dəyişkən şəraitlərdən qaynaqlanan və yeniləşən iqtisadi mexanizmlər vasitəsilə təkamüllü inkişafın tələblərinə uyğun şəkildə tənzimlənməli, yeni mərhələyə yönəldilməlidir. (5, s.157). Bunun üçün isə iqtisadi təhlükəsizliyə mənfi təsir göstərə biləcək amilləri aşkara çıxarmaq və proqnozlaşdırmaq üçün ölkənin iqtisadi inkişaf səviyyəsinə dair ümumi daxili məhsulun artımı, iqtisadiyyatın strukturu və rəqabət qabiliyyətliliyi, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya və işsizlik səviyyəsi, idxaldan asılılıq vəziyyəti və s. göstəricilərin əldə edilməsi və bu göstəricilərin kompleks tədqiq edilməsi ilə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün lazımi tədbirlər görülə bilər.

Milli iqtisadi təhlükəsizlik probleminin mahiyyəti və əhəmiyyətini müəyyən etmək üçün iqtisadi ədəbiyyatlarda təxminən 25 göstərici təhlil edilir ki, bunlar arasında ən vacibləri ölkə əhalisinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi, digər ölkələrlə müqayisədə onun dinamikası, ümumi daxili məhsulun tərkibində elmi-tədqiqat işləri və konstruktor-layihə işlərinin payı, beynəlxalq standartlar baxımından yoxsulluq, işsizlik və inflyasiya səviyyəsi, dövlət borcunun ümumi daxili məhsulda xüsusi çəkisi, ərzaq istehlakında idxalın xüsusi çəkisi və digər göstəricilər hesab olunur. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində pul tədavülü qanununun tələblərinə əməl edilməsi, qiymət siyasəti, valyuta məzənnəsi mühüm şərtlərdən biridir ki, bu da müstəqil dövlətin iqtisadı mənafelərinin qorunması istiqamətində ən vacib məsələlərdəndir. İqtisadi mənafelər məhz iqtisadi təhlükəsizlik amilləri vasitəsilə qorunaraq dövlət suverenliyinin və

müstəqil inkişafın qorunub saxlanması, ölkənin dünya əmək bölgüsündə yeri, iqtisadi fəaliyyət sahələrinin ixtisaslaşması və koperasiyalaşması, maliyyə sistemində qiymətli kağızlar bazarının yeri və rolunun müəyyənləşdirilməsi məsələləri ilə birbaşa əlaqədardır.

Milli iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün stabil və balanslaşdırılmış iqtisadi inkişafın əlaqələndirilməsi də vacib komponentlərdən biridir. Belə ki, stabil və balanslaşdırılmış iqtisadi inkişaf daxili və xarici təhlükələrə müqavimət gücünü artırmağa imkan verir, bu da öz növbəsində iqtisadi sistemin səmərəli fəaliyyət göstərməsinin əsas amillərindən birinə çevrilməklə sistemdaxili üfüqi və şaquli iqtisadi əlaqələrin inkişafına şərait yaradır. Qeyd olunan tədbirlərin ardıcıl və mərhələli şəkildə həyata keçirilməsi stabil maliyyə qaynaqlarının formalaşmasına imkan verməklə təkcə milli maraqların qorunması üçün deyil, həm də dövlət idarəçilik sisteminin cəmiyyətdə sosial-siyasi sabitliyinin saxlanması, yerli istehsalçıların mənafelərinin iqtisadı inkişafa uyğun olaraq qorunması və reallaşdırılması mexanizmlərinin təmin olunması ilə müşaiyyət olunur.

Ölkədə iqtisadi təhlükəsizliyin təmin edilməsinə yönəldilmiş iqtisadi inkişaf konsepsiyası istehsal vasitələri və son istehlak əmtəələrini istehsal edən sənaye sahələrinin yaradılması, elmi-texniki nailiyyətlərin bu sahələrə tətbiqini, əhalinin əlverişli məşğulluq səviyyəsinin təmin olunmasını, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi məsələlərinin həllinə yönəldilməklə öz həllini tapmaqdadır. Qeyd olunan məsələlər ölkənin qanunverici və icraedici orqanları tərəfindən milli maraqların təmin olunmasına istiqamətlənmiş iqtisadi metodların və mexanizmlərin vəhdət təşkil etdiyi tədbirlər sistemindən ibarətdir ki, bu da idarəetmə prinsiplərinə görə bir-birindən fərqlənən dövlət və özəl sektorların qarşılıqlı səyinə əsaslanmaqla yürüdülməkdədir.

Ümumi daxili məhsulun strukturu və artım temlərində fərqli mövqelərə malik olan dövlət və özəl sektorların milli maraqlara qarşı real və potensial təhlükələrin aşkar edilməsində, mübarizə tədbirlərinin hazırlanmasında, həyata keçirilməsində biri-birini tamamlayan təşkilati-iqtisadi məsələlər də nəzərdən qaçırılmamalıdır. Bu zaman milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsündə yeri və gələcək mövqelərinin möhkəmləndirilməsi məqsədi ilə sahədaxili kooperasiyalar və sahələrarası inteqrasiyaların fəaliyyətində yeni təşkilati prinsiplərinin reallaşdırılmasına diqqət yetirilməlidir. Bəzi tədqiqatçıların qeyd etdiyi kimi, milli iqtisadi təhlükəsizlik sistemində yüksək effektivliyə o vaxt nail olunur ki, beynəlxalq və regional təhlükəsizlik sistemi qarşılıqlı əlaqədə fəaliyyət göstərmiş olsun (6, səh.85).

Azərbaycanın milli iqtisadi təhlükəsizlik konsepisiyasının əsas elementlərindən biri milli bazarın stabilliyi və dayanıqlığının qorunub saxlanmasından ibarətdir. Bu tədbirlərin həyata keçirilməsi əmtəə və xidmətlər bazarında, əmək bazarında, maliyyə kapitalı bazarında dövlətin ümumi iqtisadi strategiyasının həyata keçirilməsi ilə qaynaqlana bilər. Ümumi iqtisadi strategiya ölkənin milli mənafeyindən irəli gələn məqsədlər və bu məqsədlərdən irəli gələn müxtəlif vəzifələrin həyata keçirildiyi iqtisadi sistemlərdə baş verən mütamadi dəyişikliklərə uyğun olaraq dəqiqləşdirilməlidir. Milli bazarın stabilliyi və dayanıqlığının qorunub saxlanmasında istehsal istehlakı təyinatlı əmtəələr və son istehlak təyinatlı əmtəələr bazarının inkişaf etdirilməsinə ehtiyac duyulmaqdadır. Milli bazarın dayanıqlığının təmin edilməsi ölkə daxilində sahibkarlıq və biznes fəaliyyətlərinin formalaşmasına, yeni iş yerlərinin yaradılmasına, ölkədaxili resurs imkanlardan daha səmərəli istifadə olunmasına, kadr axıcılığının qarşısının alınmasına, istehsal əmtəələrinin ilkin xammal kimi deyil, daha dərin emal olunaraq xarici bazarlara çıxarılmasına, iqtisadi və social səmərəlilik prinsiplərinin reallaşmasına şərait yaradacaqdır ki, bu da müvafiq iqtisadi artım tempinə səbəb olacaqdır.

İqtisadi artım tempinə təsir etməklə milli iqtisadi təhlükəsizliyin vəziyyətini əvvəlcədən müəyyən edən əsas amillərdən biri də iqtisadi sistemdə həyata keçirilən məqsədli investisiya siyasətidir. İnvestisiya siyasətinin həyata keçırılməsində birbaşa və portfel investisiyalarının nisbi hədəflərinin müəyyən olunması vacib məsələlərdəndir. Xüsusilə birbaşa investisiyalaşma hədəflərinin seçilməsində ölkədaxili sahibkarlıq subyektlərinin bazar payında üstünlüyə nail olunmasına çalışılmalıdır ki, buna da qarışıq mülkiyyət növlərinin yaradılması zamanı yerli şirkətlərin və ya dövlətin üstün şərtlərlə iştirakı təminat verə bilər. İnvestisiyalaşma fəaliyyətindəki çoxillik məlumatların təhlili göstərir ki, 2018-ci ildə milli iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş 25,9 mlrd manat investisiyaların 14,0 mlrd manatı, yaxud da 54,5%-i xarici investisiyaların payına düşür. Bu investisiyaların da 49,9 %-ə qədəri birbaşa investisiyalardan ibarətdir və bunun da 23,5%-dən çoxu qeyri-neft sektorunun payına düşür (9). Birbaşa investisiyaların qeyri-neft sektoruna yönəldilməsi istehlak əmtəələri bazarında qiymətlərin səviyyəsinə və bazar payının bölüşdürülməsinə təsir göstərməklə, yerli istehsalçılara münasibətdə inhisarçılıq meyllərinə səbəb olaraq, bazar tarazlığının gözlənilməsinə xidmət etməyəcəkdir.

Məlum olduğu kimi, milli iqtisadiyyatın inkişaf strategiyasında hər şeydən əvvəl dövlətin investisiyalaşma siyasətində mövqeyinin düzgün seçilməsi və bazar payının stabil hədəflərə yönəldilməsi ilə səmərəli iqtisadi siyasətə nail olmaq mümkndür. Birbaşa investisiyalaşmada daxili və xarici investorların ortaq maraqlarının gözlənilməsinə əsaslanmaq şərti ilə həyata keçirilən tənzimləmə tədbirləri ölkədə sosial-iqtisadi münasibətlərin inkişafına təhlükələr yaradan daxili və xarici amillərdən müdafiəni təmin edə bilər. Xarici investisiyaların xüsusi çəkisinin yüksək olduğu və xarici investisiyaların dinamikliyinin durmadan artdığı şəraitdə (Şəkil 1) bu investisiyaların diversifikasiyalaşması məsələlərinə diqqət artırılmalıdır. İnvestisiyalaşma layihələrinin reallaşdırılması zamanı potensial təhlükələrin yer ala biləcəyi sosial-iqtisadi və ekoloji təhlükəsizliyin təmin edilməsinə xüsusi diqqət yetirilməlidir. Buna görə də, layihələrin səmərəliliyinin təhlilinin bütün mərhələlərində ölkənin sosial-iqtisadi, hərbi, ekoloji, demoqrafik və s. təhlükəsizliklərin təmin olunmasını nəzərə almaq və bu layihənin reallaşdırılmasının mümkün ola biləcək mənfi nəticələrini aradan qaldırmaq lazımdır. Yüksək iqtisadi səmərəliliyin təmin olunması üçün milli, regional və fərdi sahibkarlıq subyektlərinin optimal səciyyələndirilməsinə nail olmaq məqsədi ilə investisiyalaşmanın diversifikasiyalaşması da xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün təsərrüfatçılığın bütün səviyyələrində sosial-iqtisadi strategiyaların, milli inkişaf proqramlarının və layihələrinin həm elmi, həm də praktiki əsaslandırılmasına yüksək tələbkarlıqla yanaşılması tələb olunur. İstənilən layihənin reallaşdırılması o zaman məqsədəuyğun olar ki, bundan əldə olunan ictimai mənfəət, bütün digər səviyyələrdə əldə olunan mənfəət normalarından geri qalmayacaq.

Dövlət sektorunun iqtisadi proseslərdə iştirak dərəcəsinə görə ölkələr bir-birindən fərqləndiyinə görə yığım və investisiyalaşma proseslərinin tənzimlənməsində müxtəlif mexanizmlərdən istifadə olunması zəruridir. Yığım və investisiyaların qarşılıqlı şəkildə əlaqələndirilməsi dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən birinə çevrilməklə, dövlət və xüsusi sahibkarlıq sübyektlərinin büdcə-vergi, pul-kredit, qiymət və gömrük mexanizmləri vasitəsi ilə tənzimlənməsini tələb edir. Onu da qeyd edək ki, ölkəmizdə dövlətin iqtisadi siyasətinin xarakterik xüsusiyyətlərindən biri təbii inhisarçılıq sferalarında iştirakının iqtisadi-hüquqi aspektlərinin müəyyənləşdirilməsindən, prioritetlik meyyarlarının seçilməsindən ibartdir.



2010-2018-ci illərdə əhalidən cəlb olunmuş əmanətlərin artım dinamikasında baş verən qeyri-stabil tendensiyalara nəzər salsaq görərik ki, manatla həyata keçirilən yığımların həcmi xarici valyutalara olan nisbi dəyişikliklərə çox həssasdır (Şəkil 2). Məhz bunun nəticəsidir ki, 2015-2016-cı illərdə baş verən devalvasiya nəticəsində əhalidən cəlb olunan əmanətlərin məbləği 9,5 mlyard manatdan 7,3 mlyard manata, yaxud da 23,2 % azalsa da, sonrakı dövrlərdə artım dinamikası müşahidə olunmaqdadır. Yığıma təsir edən stimullaşdırıcı mexanizmlərin və amillərin düzgün seçilməsi iqtisadi fəaliyyət sahələrinə yönəldilən investisiyaların həcminə və strukturuna təsir göstərməklə yanaşı, ölkənin sosial-iqtisadi inkişafının bütün cəhətlərini özündə əks etdirməkdədir.



Milli iqtisadiyyatın inkişaf strategiyası təşkilati və iqtisadi proseslərin obyektivliyinə əsaslanmaqla, elmi cəhətdən əsaslandırılmış kompleks tədbirlərin həyata keçirilməsi kimi başa düşülməlidir.

Bütün bunlar isə yeni iqtisadi sistemlərin formalaşmasını, cəmiyyətin maddi-texniki bazasının və istehsal münasibətlərinin formalaşdırılmasını, makroiqtisadiyyatın sahələrarası proporsiyalarının təkmilləşdirilməsini və inkişaf etdirilməsini əks etdirməklə milli iqtisadiyyatın inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirmək imkanı yaradacaqdır. Milli iqtisadi inkişaf strategiyasının digər reallaşma istiqamətlərindən biri olaraq müxtəlif social qrupların və bütövlükdə cəmiyyətin social-iqtisadi mənafelərinin düzgün əlaqələndirilməsinə nail olunmasıdır.

Ədəbiyyat

1. Маглакемидзе Т. Технологическая безопасность и охрана интеллектуальной собственности в переходной экономике Грузии // Журнал «Финансы и кредит», №9 (123), 2003, с. 76-79.
2. Прохоренко И.Л. Национальная безопасность и баланс. Баланс сил в мировой политике - теория и практика. М.: 1993, с. 70.
3. Медведев В. Проблемы экономической безопасности России // Вопросы экономики, №6, 1997, с. 3.
4. Загашвили В. Национальная экономическая безопасность / Обществ.науки и современность. 1995, №2, с. 15 .
5. Экономическая безопасность, Финансы - Банки. Под редак. академика В.К.Сенрадова, М.: İnfra, 1998, 340 с.
6. Tanrıverdi Əhməd Paşa. Regionların iqtisadi inkişafının dövlət tənzimlənməsinin başlıca problemləri, Bakı: AMEA, 2005, 187 s.
7. Məhərrəmov A., Aslanov H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı: Zərdabi LTD MMC Nəşriyyat poliqrafiya müəssisəsi, 399 s.
8. Heydərov K., İbrahimov T. Gömrük işi – iqtisadi suverenlik və təhlükəsizlik, Bakı: Səda nəşriyyatı, 1999, 178 s.
9. Azərbaycan rəqəmlərdə, Azərbaycan Dölət Statistika Komitəsi, Bakı, 2019, s.403

Резюме

Вахид Аббасов В.Г., Гасанзаде Э.Г.

Основные приоритеты обеспечения национальной экономической безопасности Азербайджана

Экономическая безопасность оцениваются как один главных достижений экономической независимости. Экономическая безопасность считается важной составляющей экономической независимости. Экономическая безопасность - это состояние экономики, в котором устойчивый экономический рост, общественные потребности, высокое качество управления, защита экономических интересов эффективно обеспечиваются на национальном и международном уровнях. Проблема экономической безопасности возникает одновременно с созданием государства и формирует костяк национальной безопасности. Один из основными показательями экономической безопасности были прокомментированы рост валового внутренного продукта, эффективная структура и конкурентоспособность экономики, уровень и качество жизни, низкий уровен инфляции и норм безработицы, зависимость от импорта, внутренние и внешние уровень долгов и пр.

Ключевые слова: *экономическая безопасность, национальные интересы, экономическая политика, национальная экономика, национальное экономическое развитие.*

Summary

Abbasov V.H, Hasanzade E.H.

The Economic Security of the State is the Main Achievement of Independent Azerbaijan

Economic security is rated as one of the main achievements of economic independence. Economic security is considered an important component of economic independence. Economic security is a state of the economy in which sustainable economic growth, social needs, high quality management, protection of economic interests are effectively ensured at the national and international levels. The problem of economic security arises simultaneously with the creation of the state and forms the backbone of national security. One of the main indicators of economic security was commented on the growth of the gross domestic product, the effective structure and competitiveness of the economy, the level and quality of life, low inflation and unemployment rates, dependence on imports, internal and external debt levels, etc.

Key words: *Economic security, the national interest, economic policy, national economy, national economic development*

MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

Abbaszadə M.T.

AMEA-nın İqtisadiyyat İnstitutu

zeynalovamexriban@mail.ru

Xülasə*: Tərtib olunmuş məqalə müasir qloballaşma və inteqrasiya şəraitində milli iqtisadi təhlükəsizliyin qorunması məsələlərinə həsr edilmişdir. Beynəlxalq təcrübə göstərir ki, bu sahədə davamlı tədbirlərin həyata keçirilməsi zəruridir. Dövlət tərəfindən həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət və onun reallaşdırılması mexanizmləri, iqtisadi təhlükəsizlik və rəqabət qabiliyyətlilik məsələləri məqalənin əsas tədqiqat obyekti olmuşdur.*

Açar sözlər: *dünya təsərrüfatı, milli iqtisadi təhlükəsizlik, iqtisadi böhran, maliyyə böhranı, iqtisadi inkişaf, rəqabət qabiliyyətlilik.*

Son illər bütün dünya ölkələrində milli iqtisadi təhlükəsizliyin təmini istiqamtində məqsədəuyğun tədbirlər həyata keçirilməkdədir. Müasir bazar iqtisadiyyatının formalaşdırılması vacib hesab edildiyi kimi zaman keçdikcə iqtisadi sahələrin müdafiə edilməsi, milli dəyərlərə əsaslanan, özünəməxsusluğu, suverenliyi və müstəqilliyini qoruyan, həm də müasir tələbləri də nəzərə alaraq, innovativ şəkildə inkişaf edən bir modelin olması Azərbaycan üçün həlli aktual olan bir məsələ hesab olunur. Nəzərə alaq ki, öz maraqlarına malik olub, ancaq beynəlxalq rəy və təsirləri də nəzərə alan açıq iqtisadi sistemli dövlət olan respublikamızda həm milli iqtisadi təhlükəsizliyi konsepsiyasını reallaşdırmağa, həm də beynəlxalq əlaqələrdən maksimum fayda götürməyə çalışılır. Bu baxımdan milli iqtisadi təhlükəsizliyin təmini xarici-iqtisadi siyasətin prioritetinə çevrilmişdir. Beynəlxalq əlaqələrdə ölkələrin maraqlarının bəzən ziddiyyətli olması münaqişələrin yaranmasına səbəb olduğu kimi, onların düzgün və minimal itkilərlə həlli də dövlətin tənzimləyici xüsusiyyət və bacarığının təzahürüdür. Azərbaycan üçün qisa və uzunmüddətli dövrlərdə yarana biləcək daxili və xarici təhlükələrin müəyyən edilməsi, dünyada bir çox ölkələrin qarşılaşdığı hərbi, ekoloji, informasiya, siyasi və digər təhlükə istiqamətlərinin müəyyən edilməsi zəruridir [1].

Ümumiyyətlə, iqtisadi təhlükəsizlik iqtisadi kateqoriya kimi dövlətin yaranması ilə eyni zamanda yaranır və milli təhlükəsizliyin əsasını təşkil edir. İqtisadi təhlükəsizlik – iqtisadiyyatın elə bir vəziyyətidir ki, bu zaman dayanıqlı iqtisadi artım, iqtisadi-sosial inkişaf dinamikası, ərzaq təhlükəsizliyi təmin olunsun, xarici mühitdən asılılıq, inflyasiya, işsizlik, yoxsulluq hədləri minimum səviyyədə olsun. Qəbul olunmuş normativlərə görə, dövlətin iqtisadi təhlükəsizlik göstəricilərinin əksəriyyəti sırf sosial-iqtisadi münasibətlərlə bağlıdır. Buraya ÜDM-in əsas və adambaşına düşən həcmi, dövlət büdcəsinin vəziyyəti, əhalinin gəlirləri, xarici ticarət dövriyyəsi, o cümlədən idxal-ixrac və digər makroiqtisadi göstəricilərin dinamikası, strukturu, dövlətin xarici borcunun vəziyyəti, dəyişməsi, onun ÜDM-ə nisbəti, tədiyyə balansının vəziyyəti, ölkə valyutasının dünya valyutasına nisbətən dönərliliyi və onun dəyişməsi, inflyasiya səviyyəsi, ölkə iqtisadiyyatının ümumi proseslərə və beynəlxalq maliyyə böhranlarına qarşı həssaslığı, rəqabətqabiliyyətlilik reytinqi və digər bu kimi sosial-iqtisadi kateqoriyaları aid etmək olar [2].

Müasir qloballaşma və güclü inteqrasiya şəraitində ölkə iqtisadiyyatı üçün ən gözlənilməz və qorxulu xarici-iqtisadi təhlükə mənbəyi dünya iqtisadiyyatında baş verən iqtisadi və maliyyə böhranları, ölkə iqtisadiyyatının rəqabətə davamlılığının zəif olmasıdır.

Artıq milli iqtisadiyyatımız qlobal iqtisadiyyata kifayət qədər inteqrasiya olunmuşdur. Qlobal maliyyə böhranı Azərbaycana da öz təsirini göstərmiş, son illərdə iqtisadi artım tempi bri qədər aşağı düşmüşdür.

Ümumiyyətlə, milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyini xarakterizə edən əsas amillərə milli iqtisadiyyatın davamlılığı, rəqabətqabiliyyətliliyi, mövcud potensialdan səmərəli istifadə edilməsi, dinamik və davamlı inkişafı təmin edən digər amil və şərtlər aid edilə bilər. Bununla yanaşı milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təminatı müvafiq struktur siyasətinin reallaşdırılmasını tələb edir. Bu zaman ayrı-ayrı sahələrin və müəssisələrin rəqabətqabiliyyətliliyi və bazarda onun məhsullarına olan tələbat, sahənin və müəssisələrin inkişafının texniki-texnoloji səviyyəsi və nəhayət, sahənin inkişafının investisiya resurs təminatı nəzərə alınmalıdır.



Şəkil. Qlobal Rəqabətlilik Hesabatı üzrə makroiqtisadi stabillik göstəricilərinə görə bəzi postsovet məkanı ölkələrinin mövqeyi (141 ölkə arasında) (2019)

Azərbaycanda son illər makroiqtisadi stabilliyin əldə olunması istiqamətində məqsədəuyğun tədbirlərin həyata keçirilməsinə baxmayaraq, sonuncu beynəlxalq reytinq siyahısında ölkəmizin mövqeyi bu sahədə bir qədər geriləmişdir. Son illəri əhatə edən Qlobal Rəqabətlilik Hesabatında makroiqtisadi stabillik göstəricilərinə görə bəzi postsovet məkanı ölkələrinin mövqeyində bəzi irəliləyişin olmasını görə bilərik (Şəkil 1). Məsələn, Rusiya, Qazaxıstan, Qırğızıstan, Gürcüstan kimi ölkələr makroiqtisadi stabillik göstəricilərinə görə bizim ölkəni qabaqlasalar da, yalnız Ukrayna bizim ölkədən geridə qalmışdır. Məhz buna görə də ölkəmizdə beynəlxalq təcrübə nəzərə alınmaqla makroiqtisadi sahədə daha müasir iqtisadi tədbirlərin həyata keçirilməsi zəruridir [5]. Beynəlxalq təcrübə göstərir ki, hər bir ölkənin milli reallıqlara əsaslanan milli iqtisadiyyatın təhlükəsizlik və reytinq qabiliyyətlilik strategiyasının işlənib hazırlanması vacibdir.

Qeyd edək ki, dünya iqtisadiyyatının müasir qloballaşması və güclü inteqrasiyası şəraitində hər bir ölkənin rəqabətqabiliyyətliyinin qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu qiymətləndirilmə birbaşa və dolayı ola bilər. Birbaşa qiymətləndirilmə dövlətin strateji məqsədlərinin məcmusuna nail olunması məqsədilə milli sərvətin istifadə edilmə dərəcəsinin müəyyən edilməsinə əsaslanır. Milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik dərəcəsinin dolayı qiymətləndirilməsi ümumi milli məhsulun (ÜMM) hər vahidinin istehsalına xərclənən resursların (milli sərvətin elementlərinin) həcminə nəzərən aparıla bilər [3].

Rəqabətqabiliyyətliliyinin həm birbaşa, həm dolayı qiymətləndirilməsi yalnız digər ölkələrin analoji göstəriciləri ilə müqayisədə real əhəmiyyətlidir. Bu zaman isə müqayisə obyektinin seçilməsi problemi ortaya çıxır. Bu problemin həlli üçün dünya təcrübəsinə əsaslanan rəqabətqabiliyyətliliyinə görə ölkələrin reytinqini qiymətləndirməyə imkan verən yeni metodlar işlənib hazırlanmalıdır. [4]. Ümumiyyətlə, ölkəmizdə iqtisadi inkişafın təmin olunması məqsədilə iqtisadi təhlükəsizliyin qorunması istiqamətində dövlət səviyyəsində davamlı tədbirlərin həyata keçirilməsi zəruridir. Məhz bu halda ölkəmizin beynəlxalq hesabatlarda iqtisadi göstəricilər üzrə mövqelərində irəliləyiş əldə etmək mümkündür.

Ədəbiyyat

1. Qasımov F.H. Azərbaycanda innovasiyanın vəziyyəti və onun inkişaf prespektivləri. AMEA-nın Xəbərləri; Elm və İnnovasiya seriyası, №1; Bakı, 2009, s. 94

2. Abdullayev K.N. Müasir innovasiya sektorunun əsas inkişaf tendensiyaları // İnnovasiyalı inkişafın sosial-iqtisadi problemləri (Beynəlxalq elmi-praktik konfransın materialları) AMEA İqtisadiyyat İnstitutu, Bakı: Avropa nəşr., 2010, s. 127

3. Бабашкина А.М. Государственное регулирование национальной экономики. М.: Финансы и Статистика, 2017, 254 с.

4. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие , М.: Наука, 2018, 245 с.

5. www.weforum.org/gcr _Klaus Schwab /The Global Competitiveness Report-2019/ World Economic Forum/Geneva_(Switzerland)

Резюме

Аббасзаде М.Т.

Роль национальной экономической безопасности в экономическом развитии страны

Статья посвящена проблемам зашиты национальной экономической безопасности и ее конкурентоспособности в условиях современной глобализации и интеграции. Международный опыт показывает, что в этой области необходимо принимать устойчивые меры. Основным объектом исследования статьи является социально-

экономическая политика государства по защите национальной безопасности и конкурентоспособности и механизмы ее реализации.

Ключевые слова: *мировое хозяйство, национально-экономическая безопасность, экономический кризис, финансовый кризис, экономическое развитие, конкурентоспособность.*

Summary

Abbaszade M.T.

The Role of National Economic Security in the Economic Development of the Country

The article is devoted to the problems of national economic security under the condition of contemporary globalization and integration. International experience shows that it is necessary to implement sustainable measures in this area. The main object of research article is social economic policy of state and the mechanism of its realization.

Key words: *world economy, national and economic safety, economic crisis, financial crisis, economic development, competitiveness.*

MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Abdullayev Kamran Nurəddin oğlu

AMEA-nın İqtisadiyyat İnstitutu

kamran.abdullayev.1978@mail.ru

Xülasə: *Məqalədə müasir bazar iqtisadiyyatı şəraitində iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas istiqamətlərinə baxılmışdır. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, iqtisadi təhlükəsizliyin qorunması məqsədilə zəruri iqtisadi tədbirlərin həyata keçirilməsi vacibdir. İqtisadi inkişafın və makroiqtisadi sabitliyin təmin olunmasında iqtisadi təhlükəsizlik məsələsi mühüm rol oynayır. Qeyd olunanalarla yanaşı, aparılmış təhlil əsasında mövcud problemlər müəyyənləşdirilmiş, onların aradan qaldırılması üzrə elmi baxımdan əsaslandırılmış istiqamətlər göstərilmişdir.*

Açar sözlər: *inteqrasiya, qloballaşma, iqtisadi təhlükəsizlik, makroiqtisadi göstəricilər, iqtisadi siyasət, iqtisadiyyat*

Müasir qloballaşan dünyada hər bir ölkədə iqtisadi təhlükəsizliyin təmin olunması məsələlərinə daha çox əhəmiyyət verilir. Qeyd edək ki, milli iqtisadi təhlükəsizlik sisteminin formalaşdırılması dövlət müstəqilliyinin qorunmasının əsas şərtlərindən biri hesab olunur. Nəzərə almaq lazımdır ki, hər bir ölkənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi zəruri məsələdir. Milli iqtisadi sahələrin rəqabət qabiliyyəti yüksək olmadıqda ölkənin milli iqtisadi, eləcə də bütövlükdə ümummilli təhlükəsizliyi baxımından müəyyən təhlükələr formalaşır. Ölkəmizin milli iqtisadi təhlükəsizliyinin əsas strateji istiqamətləri müxtəlifdir. Milli iqtisadiyyatın əksər sahələri arasında iqtisadi əlaqələrin zəif olmas bu proseslərə ciddi təsir edir. Müvafiq proses iqtisadi inkişafa mənfi təsir göstərməklə, istehsal xərclərini yüksəldir, inflyasiyanı sürətləndirir, məhsul istehsalına sərf olunan xərcləri artırmaqla milli istehsal məhsullarının rəqabətqabiliyyətliyini azalda bilir. Milli bazarda istehsalın səmərəliliyi əhəmiyyətli dərəcədə aşağı düşdükdə və xarici amillərdən asılılıq yüksəlir ki, bu da milli iqtisadi təhlükəsizliyə ciddi problem yaradır [1].

Ümumiyyətlə, sosial təbəqələşmənin dərinləşməsi probleminə sistemli yanaşma xüsusən əhəmiyyətlidir. Sosial təbəqələşmənin dərinləşməsi makrososial və makroiqtisadi qeyri-sabitliyi müəyyənləşdirir ki, bu da, öz növbəsində iqtisadi inkişafı ləngidir. Nəticədə, milli iqtisadi təhlükəsizlik sistemində bir sıra mürəkkəb problemlər yaranır.

Postsovet məkanı ölkələrində makroiqtisadi sabitliyin təmin olunması, həm də məcmu tələbatların minimum səviyyədə ödənilməsi baxımından xarici amillər daha çox nəzərə alınır.

İnkişaf etmiş ölkələrdə təhlükəli meyillərdən biri də investisiya və innovasiya aktivliyinin kəskin şəkildə azalması hesab olunur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında investisiya aktivliyi digər regional ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir. Bununla belə, yerli və xarici investisiyaların iqtisadiyyatın sahələri arasında səmərəli bölünməsi (əsas yeri ölkədə hələ də neft-qaz sektoru tutur) istiqamətində problemlər hələ də vardır. İnnovasiya sahibkarlığının inkişafı məqsədilə fəal siyasətin aparılması iqtisadi təhlükəsizliyin qorunmasında mühüm şərtdir.

Aparılmış təhlillər onu göstərir ki, Azərbaycanın dünya iqtisadiyyatının xammal-sənaye əlavəsinə çevrilməsinin qarşısının alınması, xarici ölkələrlə idxal üzrə iqtisadi asılılığın azaldılması, ölkənin xarici dövlət borcunun beynəlxalq səviyyədə qəbul olunmuş həddi keçməsinə imkan verilməməsi, kapital ixracının qarşısının alınması və s. iqtisadi təhlükəsizliyin təmin olunmasında çox vacibdir.

Cədvəl.

2018-ci il üzrə postsovet məkanı ölkələrində Ümumi Daxili Məhsulun həcmi (cari qiymətlərlə), milyard ABŞ dolları ilə



İnkişaf etmiş ölkələrdə olduğu kimi, postsovet məkanı ölkələrində də ÜDM-in hər il artımı istiqamətində davamlı olaraq iqtisadi tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasında da milli iqtisadi sahələrin inkişafına xüsusi diqqət ayrılır [4]. Məsələn, 2018-ci ildə Azərbaycanın ÜDM göstəricisi 46.9 mlrd. ABŞ dolları təşkil etmişdir. Bu göstəriciyə görə Azərbaycan 2018-ci ildə Qırğızıstan (8.1 mlrd.), Ermənistan (12.4 mlrd), Moldova (8.3 mlrd.), Tacikistan (7.5 mlrd.), Tükmənistan (42.8 mlrd.) kimi ölkələrdən üstün mövqedə olmuşdur. (Cədvəl 1). Azərbaycan Respublikası ÜDM göstərici üzrə Belarusiya, Qazaxıstan, Rusiya, Özbəkistan, Ukrayna kimi ölkələrdən geri qalmışdır. Qeyd edək ki, ölkəmizdə qeyri-neft sektorunun innovasiyalı inkişafı

üzrə həyata keçirilən davamlı tədbirlər nəticəsində yaxın illərdə ÜDM göstəricisinin artım tempinin müşahidə olunacağı proqnozlaşdırılır. Azərbaycanın ÜDM göstərisinin hər il artırılması iqtisadi təhlükəsizliyimizin qorunmasında mühüm rol oynayır.

Araşdırmalar onu göstərir ki, əksər iqtisadi göstəricilər baxımından Azərbaycan Respublikasında formalaşmış müasir vəziyyəti qənaətbəxş hesab etmək olar. Məhz bu baxımdan milli iqtisadi təhlükəsizliyi təmin etmək üçün iqtisadi məqsədlərin nəzərə alınması və onların həyata keçirilməsi daha vacibdir.

Ümumiyyətlə, iqtisadi təhlükəsizlik əsas iqtisadi kateqoriya olub, milli iqtisadiyyatın davamlı artımı, ictimai tələbatın tam ödənilməsi, düzgün idarəetmə, milli və beynəlxalq səviyyələrdə iqtisadi maraqların təmin olunması məsələlərini özündə ehtiva edir. Eyni zamanda iqtisadi təhlükə dedikdə, şəxsiyyət, cəmiyyət və dövlətin mühüm maraqlarına təsirlər başa düşülür [2].

Bundan başqa iqtisadi təhlükəsizliyin təmini üzrə əsas məsələlərdən biri elə göstəricilər sistemini işləyib hazırlamaqdır ki, milli iqtisadiyyatda yaranan iqtisadi böhran vəziyyətini vaxtında müəyyən edə bilsin. Müvafiq proses metodoloji cəhətdən mürəkkəb hesab olunur. Bu halda iqtisadi təhlükəsizliyin müvafiq göstəricilərinin təsnifatı tələb olunur. Müasir inkişaf etmiş ölkələrdə iqtisadi təhlükəsizliyə və onun çoxsəviyyəli sisteminə təsir edən çoxsaylı amillərlə əlaqədar olaraq bu sahədə müxtəlif göstəricilər mövcuddur. Mövcud iqtisadi göstəricilərin sistemləşdirilməsi sahəsində yaranan problemlər bu məsələnin həllini mürəkkəbləşdirir.

Qeyd edək ki, Azərbaycanda iqtisadi təhlükəsizliyin gücləndirilməsi ölkəmizin iqtisadi maraqlarının daxili və xarici təhlükələrindən qorunmasından, eləcə də, ölkə iqtisadiyyatının sabit inkişafının təmin edilməsindən ibarətdir. İqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas vəzifəsi bu sahədə düzgün iqtisadi istiqamətlərin seçilməsindən, təhlükəsizlik tədbirləri üçün nəzarət tədbirlərinin planlaşdırılmasından və həyata keçirilməsindən və s. ibarətdir.

Müasir dünyada beynəlxalq rəqabətə açıq olan ölkələr, rəqabətlilik üçün bütün resurslardan səmərəli istifadəni təmin edir. Bu zaman bu ölkələrin rəqabət qabiliyyəti yüksəlir. Nəticədə, hər bir ölkədə iqtisadi rəqabətqabiliyyətliliyin təmin olunması açıq iqtisadi şəraitdə iqtisadi subyektlər üçün zəruri tələbata çevrilir [3].

Ümumiyyətlə, aparılmış təhlillər onu göstərir ki, Azərbaycanda da beynəlxalq təcrübə nəzərə alınmaqla iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətində davamlı olaraq məqsədəuyğun iqtisadi siyasətin dövlət səviyyəsində həyata keçirilməsi zəruridir. Məhz bu halda ölkəmizin davamlı iqtisadi inkişafı təmin oluna, milli iqtisadi sahələrin rəqabət qabiliyyəti yüksələ bilər.

Ədəbiyyat

1. Abdullayev K.N. İqtisadi təhlükəsizliyin təmin olunmasında rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması və inkişafı məsələləri // Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi. Beynəlxalq elmi-praktiki konfransın materialları //Azərbaycan Kooperasiya Universiteti, AMEA İqtisadiyyat İnstitutu, Bakı: Kooperasiya nəşr., 2012, s. 241

2. Гордиенко Д.А. Основы экономической безопасности государства. М.: «Финансы и статистика», 2009, 221 с.

3. Экономическая безопасность. Под ред. д.э.н. профессора В.А. Богомолова, Москва, ЮНИТИ, 2010, 295 с.

4. www.stat.gov.az / ÜDM_2018/postsovet ölkələrinin _iqtisadi statistikası/

Резюме
Абдуллев К.Н.
Основные направления обеспечения экономической безопасности в современных экономической условиях

В статье рассмотрены основные направления обеспечения экономической безопасности в современных экономических условиях. Опыт развитых стран показывает, что в целях защиты экономической безопасности важно осуществление необходимых экономических мер. Важную роль в обеспечении экономического развития и макроэкономической стабильности играет вопрос экономической безопасности.

На основе проведенного анализа были определены существующие проблемы, указаны направления по их решению.

Ключевые слова: *интеграция, глобализация, экономическая безопасность, макроэкономические показатели, экономическая политика, экономика*

Summary
Abdullayev K.N.
The Main Directions of Ensuring Economic Security in Modern Economic Conditions

In the article the main directions of ensuring economic security in the conditions of modern market economy are considered. The experience of developed countries shows that it is important to implement the necessary economic measures to protect economic security. Economic security plays an important role in ensuring economic development and macroeconomic stability.

Along with these, the existing problems were identified and on the basis of the analysis scientifically justified directions for their elimination were presented.

Key words: *integration, globalization, economic safety, macroeconomic indicators, economic policy, economy*

QEYRİ-RƏSMİ MƏŞĞULLUĞUN SOSİAL-İQTİSADİ FƏSADLARI

Abdullayeva Rəsmiyyə Sabir qızı
AMEA-nın İqtisadiyyat İnstitutu
resmiyye2002@mail.ru

Xülasə: *Məqalədə Azərbaycanda qeyri-formal məşğulluqla bağlı mövcud vəziyyət qiymətləndirilir. Qeyri-formal məşğulluğu yaradan səbəblər, qeyri-formal məşğulluğun hazırda və gələcəkdə işləyənlərin sosial müdafiəsinə təsirləri araşdırılır. Ümumiyyətlə, qeyri-formal məşğulluğun ölkədəki sosial-iqtisadi inkişafa mənfi təsirləri təhlil edilir. Son illərdə dövlət tərəfindən qeyri-formal məşğulluqla bağlı aparılan islahatlar geniş şəkildə təhlil olunur. Bu islahatların nəticələri şərh olunur. Məqalədə həmçinin ölkəmizdə qeyri-formal məşğulluğun azaldılması istiqamətləri göstərilir.*

Açar sözlər: *əmək qabiliyyətli əhali, sosial müdafiə, məşğulluq, qeyri-formal məşğulluq, pensiya təminatı*

Sosial müdafiənin gücləndirilməsində məşğulluq mühüm yer tutur. Odur ki, hər bir ölkədə məşğulluğun təmin olunması sosial-iqtisadi siyasətin əsas tərkib hissələrindən biridir. Bu, əhalinin

sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, həm də dövlətin sosial yükünün azaldılması deməkdir.

Məşğulluq sahəsində islahatların əsasını qanunvericiliyin yaradılması təşkil edir. Odur ki, müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizdə müvafiq qanunvericilik bazası formalaşdırıldı və bir sıra strategiya və proqramlar qəbul edildi. Dövlətin məşğulluq siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının əsas müddəaları "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə yanaşı, AR Prezidentinin 2005-ci il 26 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "AR-nın Məşğulluq Strategiyası (2006-2015-ci illər)" və AR Prezidentinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "AR-nın Məşğulluq Stategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı" və "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı", "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda öz əksini tapmışdır.

Aparılan islahatlar və Azərbaycan iqtisadiyyatında baş verən müsbət sosial-iqtisadi dəyişikliklər əhalinin məşğulluğuna və əmək bazarına da öz təsirini göstərmişdir. Belə ki, 2005-ci illə müqayisədə 2018-ci ildə ölkəmizdə iqtisadi fəal əhalinin sayı 17,2% artaraq 4380,1min nəfərdən 5133,0 min nəfərə, iqtisadi fəal əhalinin ümumi sayından məşğul olanların sayı isə 20,0% artaraq 4062,3 min nəfərdən 4879,0 min nəfərə çatmışdır. 2005-ci illə müqayisədə 2018-ci ildə iqtisadi fəal əhalinin ümumi sayından məşğul olanların xüsusi çəkisi artmış, işsizlərin xüsusi çəkisi isə azalmış və müvafiq olaraq 95,0 və 5,% təşkil etmişdir.

Aparılan islahatlar və dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində iqtisadiyyatda məşğul olanların mülkiyyət növləri üzrə bölgüsündə də dəyişikliklər baş vermişdir. Əgər 2000-ci ildə iqtisadiyyatda məşğul olanların 34,5%-i dövlət, 65,5%-i qeyri-dövlət sektorunda çalışırdısa, 2018-ci ildə iqtisadiyyatda məşğul olanların 23,7%-i dövlət, 76,3%-i isə qeyri-dövlət sektorunun payına düşmüşdür. Müvafiq ildə emal və mədənçıxarma sənayesində, tikintidə, turistlərin yerləşdirilməsi və ictimai iaşə, ticarət kimi sahələrdə qeyri-dövlət sektorunda çalışanların, təhsil, istirahət, əyləncə və incəsənət, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı kimi sahələrdə dövlət sektorunda çalışanların xüsusi çəkisi daha yüksək olmuşdur.

Qeyri-dövlət sektorunun xüsusi çəkisinin artması ilə yanaşı, bu sektorda qeyri-rəsmi məşğul olanların da sayı yüksəlmişdir. Xüsusilə də, xidmət sektorunda – turizm, ictimai iaşə, ticarət və s. sahələrdə qeyri-rəsmi məşğulların sayı daha çoxdur. Onu da qeyd edək ki, gizli məşğulluğun səviyyəsinin yüksək olması təkcə ölkəmiz üçün xarakterik deyil. Dünya Bankının hesablamalarına görə dünyada parəkəndə satış, tikinti və bu kimi bəzi sahələrdə məşğul olanların 80%-i qeyri-leqal işləyir [1, s. 6].

Ümumiyyətlə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının araşdırmalarına görə dünyada 1 milyard 800 milyondan artıq insan qeyri-rəsmi əmək bazarının iştirakçısıdır. Bu isə dünya üzrə iqtisadi fəal əhalinin 50%-indən çoxdur. Qeyri-rəsmi məşğulluğun 93%-i inkişaf etməkdə olan ölkələrin payına düşür.

Ölkəmizdə isə 2018-ci ildə məşğul əhalinin sayı 4879,0 min nəfər, faktiki sığorta ödəyicilərinin sayı isə 1582 min nəfər olmuşdur. Qanunvericiliyə görə əmək müqaviləsi, xidməti müqavilə ilə çalışanlar, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, torpaq mülkiyyətçiləri daxil olmaqla qanuni əmək və yaxud sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər kəs (ev təsərüfatı subyektləri) məcburi dövlət sosial sığorta ödənişi etməlidir. Deməli, məşğul əhalinin 3297,0 min nəfəri və ya 67,5%-i qeyri-rəsmi əmək bazarının iştirakçısıdır.

Qeyri-rəsmi məşğullar bir sıra sosial təminat hüquqlardan (işsizliyə görə qanunvericiliklə müəyyən olunmuş dövlət təminatını almaq, iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əmək haqqını almaq və ya onun verilməsini tələb etmək, sosial məzuniyyət ala bilmək, pensiya almaq və s.) mərhumdurlar.

Qeyri-rəsmi məşğulluq büdcə gəlirlərinə mənfi təsir göstərməklə yanaşı, Dövlət Sosial Müdafiə Fonduna (DSMF) sosial sığorta ayırmalarının azalmasına və dövlətin sosial yükünün artmasına təsir göstərir. Bunun nəticəsidir ki, DSMF hələ də dövlət büdcəsindən ayrılan transfertlərlə fəaliyyət göstərir. Son illərdə Azərbaycanın dövlət büdcəsindən DSMF-ə transfertlərin həcmi artmışdır. (Diaqram)



Diaqram. Dövlət büdcəsindən Sosial Müdafiə Fonduna ayırmalar

Diaqramdan göründüyü kimi, 2010-cu illə müqayisədə 2019-cu ildə transfertlərin həcmi 2,8 dəfə yüksəlmişdir. Halbuki, Azərbaycanda 2006-cı ildən "bölüşdürücü" pensiya sistemi "yığım" pensiya sistemi ilə əvəzlənmişdir. Yeni sistem, işləyənlərin əmək fəaliyyəti dövründə ödədikləri sosial sığorta haqlarına əsasən pensiya təminatını həyata keçirməlidir. Odur ki, dövlət büdcəsindən edilən transfertlərin həcmi də ildən-ilə azaldılmalı idi. Lakin ölkədə qeyri-rəsmi məşğulluğun xüsusi çəkisinin yüksək olması buna mane olur. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, DSMF-in gəlir və maliyyə imkanlarının artırılmasında məşğul əhalinin sosial sığortaya daha çox cəlb edilməsi əhəmiyyətli rol oynayır [2, s. 158].

Qeyri-rəsmi məşğulluğun artmasını mütəxəssislər əsasən vergi dərəcələrinin yüksək olması ilə əlaqələndirirlər. "Qeyri-rəsmi sektorda iş yerlərinin yaranması və artması müəyyən dərəcədə vergi dərəcələrinin yüksək səviyyədə olması ilə bağlı idi" [3, s.126].

Bu isə təkcə DSMF-ə ayırmaların azalmasına və dövlətin sosial yükünün artmasına deyil, eyni zamanda həmin vətəndaşların pensiyaya çıxdıqdan sonra sosial müdafiəsinə də təsir göstərir. Qeyd etmək lazımdır ki, ölkəmizdə 2019-cu ilə kimi sosial sığorta tarifləri işəgötürənlər üçün 22%, işçilər üçün 3% təşkil edirdi. Bu göstəriciləri bəzi ölkələrin anoloji göstəriciləri ilə müqayisə etsək görərik ki, sosial sığorta tarifləri işçilər və işəgötürənlər üçün müvafiq olaraq Avstraliyada 0 və 5,6%, ABŞ-da 7,1% və 7,6%, İsraildə 7,6 və 5,3%, Çilidə 7,0% və 0, Danimarkada 0 və Yeni Zelandiyada 0-dır. Bundan başqa, ölkəmizlə müqayisədə bir sıra ölkələrdə (İsveçrə, Lüksemburq, Türkiyə, Macarıstan, Polşa, Sloveniya, İsrail, ABŞ, Yaponiya, Finlandiya, Böyük Britaniya, Avstraliya, İslandya, Niderland) işəgötürənlər üçün sosial sığorta tarifləri aşağıdır.

Qeyd olunanlar ğlkədə qeyri-rəsmi məşğulluqla mübarizənin aktuallığını isbatlayır. Qeyri-rəsmi məşğulluqla mübarizə, 2018-ci ildə qəbul olunmuş "Məşğulluq haqqında" Qanunda da öz əksini tapmışdır. Qanunun 5-ci fəsli qeyri-rəsmi məşğulluğa həsr olunmuşdur. Bundan başqa, müvafiq ildə qəbul edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda da qeyri-rəsmi məşğulluğun səviyyəsinin azaldılması hədəf olaraq götürülmüşdür. Belə ki, Strategiyada iqtisadiyyatda rəsmi işləyənlərin qeyri-kənd təsərrüfatı sahəsində ümumi məşğul əhaliyə nisbətini 2030-cu ilədək 80 faizə çatdırmaq qarşıya məqsəd kimi qoyulmuşdur. Qeyd etmək lazımdır ki, 2017-ci ildə müvafiq göstərici 48,1% olmuşdur.

Qeyri-rəsmi məşğulluğun xüsusi çəkisinin azaldılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 noyabr 2018-ci il tarixdə "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununu təsdiq etdi. Bu Qanuna görə məcburi sosial sığorta haqlarında bəzi dəyişikliklər edildi və neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən sığortaolunanların muzdlu işdən aylıq gəlirlərindən məcburi dövlət sosial sığorta haqlarına 2019-cu il yanvarın 1-dən 7 il müddətində güzəştlər nəzərdə tutuldu. Fikrimcə, bu islahat qeyri-formal məşğulluğun səviyyəsinin azaldılmasına müsbət təsir göstərəcəkdir. Bu əsaslı dəyişiklik, ölkədə qeyri-formal məşğulluğun səviyyəsinin aşağı salmaqla yanaşı, eyni zamanda əhalinin sosial müdafiəsinin gücləndirilməsinə gətirib çıxaracaqdır.

Ədəbiyyat

1. Farrel D., Qeyri-rəsmi iqtisadiyyatın gizli təhlükələri//Koalisiya (Azərbaycan iqtisadi islahatlar uğrunda) 2005, №9 (21)

2. Quliyev, C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. – Bakı: Avropa, 2011, 235 s.

3. Əzizova G.A. Azərbaycanın əmək bazarı: problemlər və perspektivlər. Monoqrafiya. Bakı: İqtisad Universitetinin Nəşriyyatı, 2017, 276 s.

Резюме

Абдуллаева Р.С.

Социальное и экономическое влияние неформальной занятости

В статье дается информация о современном состоянии неформальной занятости в Азербайджане. Проводится анализ причин, способствующих возникновению неформальной занятости, а также ее влияние на пенсионное обеспечение. Показываются пути снижения неформальной занятости.

Ключевые слова: *экономически активное население, социальная защита, занятость, неформальная занятость, пенсионное обеспечение*

Summary

Abdullayeva R.S.

The Social-Economical Problems of Non-Formal Employment

In the article the infor mation of the modern situation of the non-formal employment is given in Azerbaijan. It is analyzed the reasons of the non-formal employment and its influence on the social protection of the employed poeple in the future. It is shown the reasons of reduction of the non-formal employment.

***Key words**: labor-abled people, social protection, employment, non-formal employment, pension provision*

BİZNES PROSESLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ ƏSAS EFFEKTİVLİK GÖSTƏRİCİLƏRİNİN (KPI) ANALİZİ

Ağazadə İbrahim Tahir oğlu
Sumqayıt Dövlət Universiteti
aghazadeibrahim@gmail.com

***Xülasə:** Müəssisələrdə biznes proseslərin qiymətləndirilməsi və onlara nəzarət əhəmiyyətli idarəetmə funksiyalarından biri hesab edilir. Biznes proseslərin qiymətləndirilməsi deyərkən, onların effektivliyinin ölçülməsi metodları nəzərdə tutulur. Tezisdə proseslərin qiymətləndirilməsi, effektivliyin ölçülməsi və bu məqsədlə təcrübədə mövcud olan Əsas Effektivlik Göstəriciləri (KPI) sisteminin tətbiqi proseduru araşdırılmışdır.*

***Açar sözlər:** müəssisə, biznes proseslər, KPI, effektivlik*

1. Giriş

Müəssisələrdə biznes proseslərin idarə edilməsi konsepsiyasının əsas elementlərindən biri proseslərin effektivliyinin ölçülməsi və bu qiymətləndirilmə əsasında onların optimallaşdırılmasıdır. Bu baxımdan, proseslərdəki effektivliyə nəzarət və boşluqların müəyyən edilməsinə imkan verən Əsas Effektivlik Göstəriciləri və ya KPİ sisteminin tətbiqi zəruri hesab edilir.

2. Əsas Effektivlik Göstəriciləri sistemi

Sözügedən effektivlik göstəriciləri 20-ci əsrin əvvəllərindən etibarən müxtəlif idarəetmə nəzəriyyələrinin tərkib hissəsi olmuş, daha sonra informasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq müxtəlif sahələrdə tətbiq edilməyə başlanılmışdır.

KPI, "key performance indicators" müəssisənin bugunki və gələcək uğuru üçün kritik hesab edilən təşkilati effektivliyin aspektlərinə yönəldilmiş göstəricilər sistemidir. KPİ bugünki və gələcək vəziyyəti ifadə edən, eyni zamanda dəyişikliklərə təkan verən göstəricilərdir [1, səh.3]. Başqa sözlə desək, KPI effektivliyin ölçülməsi və ona nəzarət üçün istifadə dəyərlər sistemidir. Digər tərəfdən, KPI müəssisə üçün xəbərdarlıq işarəsi rolunu oynayır. Belə ki, müəssisə fəaliyyətlərinin nəticəsi əlverişsiz olduqda, müəssisənin effektivlik göstəriciləri də aşağı olur. Buna uyğun olaraq müəssisədə optimallaşdırma tədbirləri həyata keçirilir.

Bu səbəbdən, əsas effektivlik göstəricilərinin doğru və müəssisə hədəflərinə uyğun olaraq təyin edilməsi kritik fəaliyyət hesab edilir. Bir çox müəlliflər bu göstəricilərin əsas xarakterində *spesifik (dəqiq təyin edilmiş), ölçüləbilən, əlçatan, realistik və müddətə bağlı* olmasımı əsas qayda hesab edir. Bu qaydalar eyni zamanda müəssisə hədəflərinin təyini üçün də istifadə edilir [2, səh.103]. Deməli, təyin edilmiş effektivlik göstəriciləri müəssisənin məqsəd və hədəflərinə, gələcək strategiyasına uyğun olmalıdır. Bu məqsədlə praktikada, əsası R.Kaplan və D.Norton tərəfindən qoyulmuş, "balanslaşdırılmış kart" və ya "balanslaşdırılmış göstəricilər sistemi" (Balanced Scorecard) anlayışından istifadə edilir.

Balanslaşdırılmış göstəricilər sistemi (BSC), müəssisənin missiya və strategiyasını kompleks performans göstəricilər sisteminə çevirən stratejik qiymətləndirmə və idarəetmə sistemi üçün

çərçivə formalaşdırır. BSC müəssisə effektivliyinin dörd istiqamət: maliyyə, müştəri, daxili biznes proseslər, təlim və inkişaf üzrə qiymətləndirilməsini həyata keçirir [3, səh.2]. Sadə şəkildə ifadə etsək, BSC müəssisənin missiya və hədəflərindən yola çıxaraq, buna uyğun olan strategiya və nəticədə strateji hədəflər formalaşdırır. Bu hədəflər işçilər, şöbə - departament və müəssisə üçün göstərilmiş 4 istiqamət üzrə KPI göstəriciləri təyin etməyə imkan verir. Beləliklə, nəzəri hədəflər ölçülə bilən və nəzarət edilməsi mümkün göstəriciləri formalaşdırır. Aşağıdakı cədvəldə göstərilmiş göstəricilər nümunə olaraq istifadə edilə bilər:

Maliyyə	Müştəri	Daxili Biznes Proseslər	Təlim və İnkişaf
Mənfəət	Mütəri məmnuniyyəti	Proses keyfiyyəti	İşçilərin təlim müddəti
Qazanılmış gəlir	Məhsulun təmin edilmə müddəti	Proses dövr müddəti	İşçilərin bilik və bacarıq səviyyəsi

Eyni zamanda, başqa bir yanaşmaya əsasən KPI geri və irəli göstəriciləri şəklində təsvir edilə bilər. Geri göstəriciləri müəssisənin keçmiş fəaliyyəti (səmərəliliyi) irəli göstəricilər isə gələcək effektivliyi barədə məlumat verir.

3. Biznes proseslərin idarə edilməsində KPI konsepsiyası

Biznes proseslərin idarə edilməsinin tərkib hissəsi kimi tətbiq edilən mərhələlərdən biri proseslərin analizi hesab edilir. Bu mərhələ biznes proseslərin optimallaşdırılması üçün bünövrə rolunu oynayır. Onun tərkibinə proses ilə əlaqəli göstəricilərin seçilməsi, innovasiya və yenidən layihələndirmə üçün prioritetlərin müəyyən edilməsi və mövcud vəziyyətin təyin edilməsi daxildir [4, səh.124]. Proseslərin analizi və qiymətləndirilməsi iki istiqamət – keyfiyyət və kəmiyyət üzrə aparıla bilər. Keyfiyyət analizlərinə əlavə dəyər analizi, səbəb-təsir analizi və diaqramları, problemlərin qeydiyyatı sistemi və Pareto analizləri misal göstərilə bilər. Proseslərin kəmiyyət analizlərinə isə performans ölçülməsi ilə əlaqəli riyazi metodlar daxildir [5, səh.185].

Digər tərəfdən isə öncəki bölmədə də qeyd edildiyi kimi, effektivliyin ölçümündə nəzərə alınmalı olan istiqamətlərdən biri də biznes proseslərin formalaşdırılmasında səmərəliliyin təmin edilməsidir. Beləliklə biznes proseslərin kəmiyyət analizlərinin aparılması üçün KPİ - effektivlik göstəricilərindən istifadə edilə bilər.

Bəhs, biznes proseslərin effektivliyi deyərkən nə nəzərdə tutulur? Hansı faktorlar və ölçülər əsas götüürülməldir. Ümumiyyətlə, praktikada biznes proseslərin 3 ölçülü çərçivədə- zaman, xərc və keyfiyyət formalaşdığı bir qayda olaraq qəbul edilir. Lakin, nəzəri olaraq bir biznes prosesin əsas nəticəsinin müştəri üçün dəyər qazandırmaq və ya artırmaq olduğunu qəbul etsək, müştərinin mənimsədiyi dəyəri digər bir ölçü olaraq istifadə edə bilərik.

Biznes proseslərin idarə edilməsində effektivlik ölçümünün həyata keçirilməsi üçün aşağıdakı prosedurun izlənilməsi məqsədəuyğun hesab edilə bilər:

1. Biznes proseslərin xəritələnməsi. Proses modelinin real vəziyyətə uyğun qurulması prosesin tərkib hissəsi olan fəaliyyət, qərar, hadisə və iştirakçıların təyin edilməsinə yardım edəcək. Bu addım KPI sisteminin tətbiqi üçün vacib və lazımi şərt hesab edilir.

2. Biznes prosesin davametmə müddətinin və toplam xərcinin təyin edilməsi. Toplam xərc və zaman biznes prosesin xəritələnmiş modelinə əsasən hesablanır. Bu zaman hər bir fəaliyyətin davametmə müddəti ($\boldsymbol{T_{Fi}}$) və ya xərci ($\boldsymbol{X_{Fi}}$), alternariv fəaliyyətlərin müddəti ($\boldsymbol{T_{Ai}}$) və

xərci ($\boldsymbol{X_{Fi}}$), baş vermə ehtimalı ($\boldsymbol{P_i}$) və paraдel davam edən fəaliyyətlərin müddəti ($\boldsymbol{T_{Pi}}$) və xərci ($\boldsymbol{X_{Pi}}$) nəzərə alınır. Bunu riyazi formul şəklində aşağıdakı kimi ifadə edə bilərik:

Biznes prosesin davametmə müddəti: $\boldsymbol{T} = \sum_{i=1}^{m} \boldsymbol{T_{Fi}} + \sum_{i=1}^{n} \boldsymbol{T_{Ai}} \cdot \boldsymbol{P_i} + \sum_{i=1}^{k} \boldsymbol{max}(\boldsymbol{T_{Pi}})$

Biznes prosesin toplam xərci: $\boldsymbol{X} = \sum_{i=1}^{m} \boldsymbol{X_{Fi}} + \sum_{i=1}^{n} \boldsymbol{X_{Ai}} \cdot \boldsymbol{P_i} + \sum_{i=1}^{k} \boldsymbol{X_{Pi}}$

3. Müştərinin mənimsədiyi dəyərin müəyyən edilməsi. Sadə şəkildə ifadə etsək, bu dəyər biznes prosesin nəticəsinə əsaslanaraq təyin edilə bilər. Biznes prosesin nəticəsinin biznes proses müştərisi üçün (daxili və ya xarici müştəri ola bilər) müsbət və ya mənfi nəticələnə biləcəyini nəzərə alsaq, bu dəyəri aşağıdakı KPI göstəricisi ilə ölçə bilərik:

$$KPI = \frac{Prosesin\ müsbət\ nəticələnmə\ sayı}{Prosesdən\ toplam\ istifadə}$$

4. Biznes prosesin keyfiyyətinin təyin edilməsi. Biznes prosesin keyfiyyəti bəzən onun qazandırdığı dəyərlə qarışdırılır. Biznes prosesin keyfiyyəti sadəcə onun nəticəsi ilə deyil, prosesin özünə məxsus olan xüsusiyyətləri ilə ölçülməlidir. Bu xüsusiyyətlər biznes prosesin yaratdığı məlumat obyektləri, formalaşdırdığı məhsul və ya fəaliyyətin keyfiyyəti ilə ölçülə bilər.

5. Toplam effektivliyin təyin edilməsi. Hər bir göstəricinin toplam performans içərisindəki payı müxtəlif olduğundan, nəticənin hesablanması üçün aşağıdakı ağırlıqlı ortalama üsulundan istifadə edilə bilər:

$$\sum_{i=1}^{n} W_i M_i$$

Burada, M_i hər bir KPI göstəricinin dəyəri, W_i isə bu göstəricinin ağırlığı və ya şirkət üçün əhəmiyyətdir. Ağırlığın təyin edilməsi zaman, xərc və ya keyfiyyət faktorlarından hansının müəssisə üçün saha əhəmiyyətli olmasından asılı olaraq dəyişir.

Bu göstəricilər sisteminin formalaşdırılmasından sonra, müəssisə davamlı olaraq bbiznes proseslərin effektivliyinə nəzarət edərək onlarda olan problem və əksikləri aradan qaldırmaq imkanı əldə edir.

4. Nəticə

Müəssisələrin fəaliyyətinə təsir göstərən daxili və xarici mühit risklərinin təsiri nəticəsində formalaşan yüksək qeyri-müəyyənlik şəraiti biznes proseslərin effektivliyinin ölçülərək artırılması və ona nəzarət probleminin aktuallığını ön plana çıxarır. Belə ki, müəssisənin mənfəətliyi birbaşa olaraq onun tərkibinə daxil olan proseslərin səmərli təşkil edilməsindən asılıdır. Müəssisələrin proseslərin analizinə, proses vaxtlarının və xərclərinin hesablanmasına əhəmiyyət verməməsi, nəticədə sağlam təkmilləşdirmə yollarını müəyyən etməyə maneə olur.

Ədəbiyyat

1. Parmenter, D., (2007), Key Performance Indicators : Developing, Implementing, and Using Winning KPIs, New Jersey, John Wiley & Sons, 236 p.

2. Kerzner, H., (2011), Project Management Metrics, KPIs, and Dashboards: A Guide To Measuring and Monitoring Project Performance, New Jersey, John Wiley & Sons, 372 p.

3. Kaplan, S.R., Norton, P.D., (1996), The Balanced Scorecard: Translating Strategy into Action, Boston, Harvard Business Press, 322 p.

4. Jeston, J., Nelis, J., (2006), Business Process Management: Practical Guidelines to Successful Implementations, Oxford, Elsevier, 438 p.

5. Marlon, D., Marcello, L.R., Jan, M., Hajo, A.R., (2013),Fundamentals of Business Process Management, Berlin, Springer, 399 p.

Резюме

Агазаде И.Т.

Анализ ключевых показателей эффективности (кпи) при оценке бизнес-процесса

Оценка и контроль бизнес-процессов на предприятиях является одной из важных функций управления. Говоря об оценке бизнес-процессов, имеется в виду методы измерения их эффективности. В тезисе рассматривается тема оценки процесса и оценки эффективности, сосредоточив внимание на процедуре применения практической системы ключевых показателей эффективности (КПИ) для этой цели.

Ключевые слова: *предприятия, бизнес процессы, КПИ, эффективность*

Summary

Agazadeh I.T.

Analysis of Key Performance Indicators (KPIs) in Business Process Assessment

Assessment and control of business processes in enterprises is one of the significant management functions. When speaking about assesment of business processes, methods of measuring their effectiveness is being considered. This thesis studies topic of process assessment and performance evaluation by focusing on the procedure for appliying practical system of Key Performance Indicators (KPI) for this purpose.

Key words: *enterprises, business processes, KPI, efficiency*

AZƏRBAYCANDA TRANSMİLLİ BİZNESİN TƏNZİMLƏNMƏSİNİN NORMATİV HÜQUQİ BAZASININ TƏKMİLLƏŞMƏSİ

Allahverdiyeva Muslumat Allahverdi qızı

UNEC

allahverdiyeva_muslumat@mail.ru

Həşimov Huseyn İbrahim oğlu

UNEC

huseyn_hashimov@mail.ru

Hüseynova Səkinə Yusif qızı

UNEC

sekineyaqubqizi@mail.ru

Xülasə: *Transmilli biznesin formalaşması ümumi prinsiplərə əsaslansalar da, bu proses müxtəlif ölkələrdə özünəməxsus bir formada baş verir. Transmilli biznes müxtəlif ölkələrdə iqtisadiyyatın strukturundan, sosial-iqtisadi inkişaf səviyyəsindən, təşkilati-idarəetmə strukturundan, milli-etnik xüsusiyyətlərdən, dövlətin inkişaf səviyyəsindən asılı olaraq fərqlənir. Eyni zamanda sürətli inkişaf edən, təmərküzləşən iri milli şirkətlərin TMŞ kimi reytinqlərdə yer tutmalarına zəmin yaratmaq, bunu əsaslandırmaq dövlətin və iqtisad elminin marağında olan məsələlərdəndir.*

Transmilli biznesin tənzimlənməsi dünya səviyyəsində çox aktualdır. Alimlər TMŞ-in tənzimlənməsinin hüquqi aspektlərini daha çox araşdırmışlar. Bu məqalədə Azərbaycan Respublikasında dövlət səviyyəsində transmilli biznesin tənzimlənməsi üçün görülən və görülməsi vacib olan tədbirlərdən bəhs olunur və tənzimlənmə metodikası təklif olunur.

Açar sözlər: *transmilli biznes, tənzimləmə, normativ –hüquqi aktlar, Azərbaycan, Hasilatın Pay Bölgüsü*

TMŞ-lərin artan iqtisadi və siyasi nüfuzu ilə əlaqədar olaraq, elmi ədəbiyyatlarda TMŞ-i beynəlxalq hüququn subyekti olaraq tanınmasının zəruriliyi müzakirə olunur. Xarici alimlər N. MacDougal, W.Fridman hesab edirlər ki, TMŞ-lər beynəlxalq hüququn subyektləridir. Rus alimlərinin bu barədə fikirləri fərqlidir. [*21,s.13*]. Məsələn, V.A. Romanov və S.V. Chernichenko iddia edir ki, yalnız dövlətlərarası münasibətlərdə iştirak edə biləcək qurumlar beynəlxalq hüququn subyekti ola bilər. Şirkət dövlətə xas olan keyfiyyətlərə malik olmadığından, bu cür münasibətlərdə iştirak etməsi mümkün deyil. [19,s.345] I.I. Lukaşuk da korporasiyalara beynəlxalq hüququn subyekti statusunun verilməsini qeyri-real hesab edir. [18,s.222] Локайчук О.В. görə, iyirmi birinci əsrdə kollektiv qurum olan iri TMŞ-n də hüquqi subyekt kimi tanınmasına səbəb ola biləcək səlahiyyətlərin , funksiyaların artması baş verir. O qeyd edirdi ki, korporasiyalar və dövlətlər arasında bağlanmış müqavilələr əsasında yaradılan "beynəlxalq korporativ hüquq" anlayışını daha əsaslı hesab edirəm. [17,s.234] Beləliklə, elm adamları və praktiklər çox fərqli fikirlər söyləyirlər. Məncə, ən məqbul hesab olunan fikirlər rus alimlərindən V.A. Romanovun, S.V. Chernichenkonun və I.I. Lukaşukun fikirləridir ki, onlar dövlət səlahiyyətlərinin bir hissəsinin TMŞ- ə verməsinin və onları beynəlxalq hüququn tam hüquqlu subyektləri kimi tanıması təklifini tamamilə rədd edirllər. Dövlət, ictimai maraqlar baxımından vergi toplama, sosial müdafiə və əmək hüquqlarının qorunması, ətraf mühitin qorunması, antitrest fəaliyyəti kimi funksiyaları yerinə yetirir. TMŞ-lər isə özəl kapital maraqlarını güdürlər. Onların bütün fəaliyyətləri iqtisadi mənfəət əldə etmək məqsədi daşıyır.

Xüsusi beynəlxalq hüquq sahəsində nüfuzlu mütəxəssis olan Наталуха В.В TMŞ-lərin hüquqi tənzimlənməsinin 3 səviyyəsini müəyyənləşdirir: daxili qanunvericilik, ikitərəfli və çoxtərəfli sazişlər. [20,.s.211]

"Xarici ticarətin sərbəstləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 aprel 1994-cü il tarixli fərmanına əsasən respublikanın ixracat potensialının əsasını təşkil edən strateji əhəmiyyətli malların (neft, neft məhsulları, qara və əlvan metallar, alüminium, bir sıra kimya məhsulları, pambıq mahlıcı və s.) respublikadan bütün hüquqi şəxslər tərəfindən sərbəst ixrac olunmasına icazə verildi.

Tədricən xarici iqtisadi münasibətlərin infrastrukturu və kadr hazırlığının normativ bazası formalaşdı. Xarici ticarətin lisenziyalaşdırılması, kvotaların qoyulması, müxtəlif qeyri-tarif vasitələrinin tətbiqi sistemi ləğv edildi. İndi təsərrüfat subyektləri bazarları və partnyorları özləri sərbəst seçirlər və əməliyyatların nəticələrinə görə müstəqil cavabdehlik daşıyırlar. [1,s.53]

"Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq xarici şirkətlərlə birgə müəssisə, habelə xarici müəssisə də yaradıla bilər. Bu halda birgə və xarici müəssisələr Azərbaycan Respublikasının hüquqi şəxsləri statusuna malik olurlar. Onların təşkilati-hüquqi formaları (səhmdar cəmiyyət, məhdud məsuliyyətli cəmiyyət və s.) müxtəlif ola bilər. Xarici tərəfdaşlar öz paylarını həm nağd pul, həm də məhsul formasında ölkədən çıxara bilərlər.

Qəbul edən ölkənin bir xeyri də ondan ibarətdir ki, xarici ölkələrin qabaqcıl texnologiyaları, texnikası, müasir idarəetmə təcrübəsi ölkəyə gətirilir, idxalı əvəzedən məhsullar istehsal edilir, ixrac potensialı yüksəlir.

Müstəqillik illərində Azərbaycanda çoxsaylı birgə və xarici müəssisələr yaradılmışdır. Cədvəldən göründüyü kimi 2016-cı ildə ölkə üzrə sənaye məhsulunun (neft-qaz sektoru daxil

olmaqla) 67 faizə qədəri birgə və xarici müəssisələrdə istehsal edilmişdir. 2015-ci illə müqayisədə işçilərin sayı azalsa da, məhsul istehsalı 5,3 milyard manat artmışdır. Orada işləyənlərin orta aylıq əmək haqqı 3464 man. olmaqla, sənaye üzrə orta göstəricidən 3,7 dəfə yüksək olmuşdur. Birgə və xarici müəssisələrin sayı 2015-ci illə müqayisədə 1,2 dəfədən çox artmışdır. Birgə və xarici müəssisələrin makroiqtisadi göstəricilərinin intensiv yüksəlməsi Azərbaycanda transmilli biznes üçün əlverişli mühitin olmasını əks etdirir.

Cədvəl

Azərbaycanda birgə və xarici sənaye müəssisələrinin göstəriciləri

№	Göstəricilər	2005	2015	2016
1.	Fəaliyyət göstərən müəssisələrin sayı	206	238	254
2.	Onlarda işləyənlərin sayı, min nəfər	23.6	24.8	23.7
3.	Orta aylıq əmək haqqı, man	688	2594	3464
4.	Məhsulun (işin və xidmətin) həcmi, mln.man	5172	16148	21478
5.	Həmçinin ümumi sənaye məhsulunda xüsusi çəkisi, %-lə	55.6	61.2	66.5

Mənbə: *"Azərbaycanın statistik göstəriciləri", Dövlətstatkom, 2017, s.130-131.*

"Əsrin kontraktı"nda podrad təşkilatının xərclərinin ödənilməsi qaydası da müəyyən edilmişdir (maddə 11.2). Belə ki, hasil edilmiş neftin ümumi həcmindən podrat təşkilatının (Beynəlxalq Əməliyyat Şirkət) istismar xərcləri ödənilir. Xam neftin qalan 50 faizi kapital xərclərinin ödənilməsinə sərf edilir. Yerdə qalan xam neft mənfəət nefti hesab edilir və iştirakçılar arasında rublük hesabata görə bölüşdürülür. İştirakçıların hər biri müstəqil olaraq öz payını sata bilər.

Kontraktın 11.4 saylı bəndinə uyğun olaraq podarat təşkilatına icazə verilir ki, işin əvvəlki rübündə ödənilməmiş cari istismar və kapital xərclərini sonrakı rublərə keçirsin. Özü də bu hüquq kontraktın qüvvədə olduğu 30 il ərzində öz qüvvəsini saxlayır. Bu da "Azərbaycan Respublikasının Vergi Məcəlləsi"ndən fərqli hüquqi normadır. Çünki Məcəllədə göstərilir ki, hüquqi şəxslər belə hüquqdan 3 il müddətinə istifadə edə bilərlər.

"İxrac nəzarəti haqqında" qanuna əsasən ixrac nəzarətinə düşən malların nomenklaturasını (işlərin, xidmətlərin siyahısı) Nazirlər Kabinetinin təklifi əsasında ölkə perzidenti tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə ölkəyə idxal olunan malların 70 faizi hər cür vergi və rüsumlardan azad edilmişdir .

2011-ci ildə qəbul edilən "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" ölkə qanununda yerli istehsal sahələrinə zərər vuran dempinqli idxala gömrük rüsumlarının tətbiqi nəzərdə tutulur.

2017-ci ildə qanuna edilmiş dəyişikliklər imkan verir ki, malın gömrük ərazisinə idxalının artmış həcmi və şərtləri yerli istehsal sahələrinə ciddi zərər vurduqda və ya ciddi zərər vurmaq təhlükəsi yaratdıqda xüsusi, antidempinq və kompensasiya rüsum növləri tətbiq edilsin. Bu rüsum növlərinin formalaşdırılması və tətbiqi qaydası "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanuna uyğun olaraq araşdırma orqanı tərəfindən müəyyən edilir.Bu qanunun müddəalarının yerinə yetirilməsi bir tərəfdən yerli istehsalı müdafiə edirsə, digər tərəfdən daxili istehsalı qoruyur. Çünki bəzi ölkələr malın normal dəyərindən aşağı qiymətə Azərbaycana mal ixrac edirlər.

Azərbaycanın transmilli biznesinin 90 faizdən çoxunu neft-qaz ixracı üzrə əməliyyatlar təşkil etdiyinə görə işdə bu sektorun xarici ticarətinin tənzimlənməsinə əsas yer verilmişdir. 2009-

cu ildə qəbul edilmiş "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" ölkə qanunu məşğul olan podratçıların və subpodratçıların vergi, gömrük və valyuta tənzimlənməsi rejimləri və işçi qüvvəsindən istifadə məsələləri tənzimlənir.

Podratçılar və subpodratçılar ödənişlər üzrə öhdəliklərini yerinə yetirdikdən sonra öz vəsaitlərini xarici valyutada AR-dan sərbəst olaraq kənara keçirmək, orada saxlamaq və istifadə etmək hüququna malikdirlər (Maddə 5).

2014-cü ildə qəbul edilmiş "Gömrük Məcəlləsi"ndə nəzərdə tutulur ki, "Hasilatın pay bölgüsü haqqında", "Əsas boru kəməri haqqında" sazişlərin və bu qəbildən olan digər beynəlxalq müqavilələrin icrası ilə bağlı gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara gömrük ödənişləri həmin sazişlərin müddəalarına uyğun olaraq tətbiq edilir" (Maddə 235).

1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları"na əsasən Azərbaycan Respublikasında bütün rezidentlər və qeyri-rezidentlər idxal-ixrac əməliyyatlarının həyata keçirilməsində sərbəstdirlər və "Gömrük Məcəlləsi"nə, "Gömrük Tarifi haqqında" qanuna, bu "Qaydalar"a və digər normativ hüquqi aktlara uyğun fəaliyyət göstərirlər. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 91 saylı 22 aprel 1998-ci il tarixli qərarına əsasən ixrac olunan mallar, onların növlərindən asılı olmayaraq gömrük ixracı rüsumuna cəlb olunmurdu (Maddə 3).

2016-cı ildə imzalanmış "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında göstərildiyi kimi islahatların yeni mərhələsində Azərbaycanda ixracyönümlü iqtisadi model əsas götürülərək yüksək əlavə dəyər yaradan ixracyönümlü iqtisadiyyata transfermasiya mühüm məqsəd kimi müəyyən olunmuşdur.

2013-cü ildə Azərbaycan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum"una üzv olmuşdur. Vergi məsələləri üzrə xarici ölkələrlə aparılan məlumat mübadiləsinin təkmilləşdirilməsi və beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində Vergilər Nazirliyi tərəfindən tədbirlər həyata keçirilir.

Dövlət başçısının "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmiləşdirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamına uyğun olaraq, Vergilər Nazirliyinin yanında yeni struktur – İdxal-İxrac əməliyyatları üzrə Departament yaradılmışdır.

Nəticə

Beləliklə, hazırda TMŞ-lərin fəaliyyətinin zəruri beynəlxalq-hüquqi nizamlanması mövcud deyildir, vergiqoyma məsələləri isə gələcəkdə əlavə işləmələr və təkmilləşdirmələr tələb edir.

Fikrimizcə, qəbul edən ölkənin milli şirkətlərinin iqtisadi subyekt kimi tənzimlənməsinin həyata keçirməsi, qanunların daha işlək və səlahiyyətli olması, ölkə səviyyəsində şəffaflığın təmin olunması, eyni zamanda respublikanın milli şirkətlərinin transmilli şirkət kimi reytinqlərdə yer alması transmilli biznesin tənzimlənməsində bir balans yarada bilər.

Ədəbiyyat

1. Tofiq Hüseynov,2010, Azərbaycanda investisiyalar, "Elm", , s.51.
2. "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanunu .2014
3."Azərbaycanın statistik göstəriciləri", Dövlətstatkom, 2019
4. Əsrin Kontraktı"1994-cü il

5. Hazirlər Kabinetinin “Gömrük yığımlarının məbləğlıri”nin təsdiq edilməsi haqqında 26 aprel 2016-cı il tarixli 168 saylı qərarı

“Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının qanun,2016-cı il

6. “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında” Azərbaycan Respublikasının Bakı şəhəri, 2 fevral 2009-cu il,№ 766-IIIQ

7.Azərbaycan Respublikasının Vergi Məcəlləsi” 11 iyul 2000-ci il tarixli 905IQ nömrəli Qanunu

8.“İxrac nəzarəti haqqında” Azərbaycan Respublikasının qanun . Bakı şəhəri, 26 oktyabr 2004-cü il, № 772-IIQ

9 .“Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının qanun. Bakı şəhəri, 13 iyun 2013-cü il № 687-IVQ

10. “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının Bakı şəhəri, 31 may 2016-cı il № 261-VQ qanun

11.“İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında” Azərbaycan Respublikasının Bakı şəhəri, 2 fevral 2009-cu il, № 766-IIIQ

12. “Gömrük Məcəlləsi” 24 iyun 2011-ci il tarixli, 164-IVQ nömrəli Qanunu

13 .“Gömrük Tarifi haqqında” Bakı şəhəri, 13 iyun 2013-cü il, № 687-IVQ qanunu

14. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” 91 saylı 22 aprel 1998-ci il tarixli qərarı

15 “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamBakı şəhəri, 18 yanvar 2016-cı il.

16 . “Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmiləşdirilməsi ilə bağlı tədbirlər haqqında” sərəncamı. Bakı şəhəri, 28 iyun 2018-ci il, №260

17. Локайчук О.В. Проблемы правового регулирования деятельности транснациональных корпораций / О.В. Локайчук // Сибирский Юридический Вестник. 2001, № 2, с. 234-243.

18. Лукашук И.И. Демократия, капитал, государство / И.И. Лукашук // Журнал российского права. 2001, №1. с. 222-226.

19. Черниченко С.В. 1999. Теория международного права. В 2-х томах. / С.В. Черниченко. М.: Теория, 1999. т.2, 345 с.

20. Наталуха В.В. 2005.Международный частный бизнес и государство. / В.В. Наталуха. М.: Прогресс, 2005, 356 с.

21. Mac Dougall, G.D.A. "The Benefits and Costs of Private Investikament from Abroad; A Teoretetical Appoad; Economic Record, 1960, Vol.36, 13-35

Резюме

Аллахвердиева М.А., Хашимов Г.И., Гусейнова С.Ю.

Совершенствование нормативно-правовой базы регулирования транснационального бизнеса в Азербайджане

Хотя формирование транснационального бизнеса основано на общих принципах, этот процесс проявляется в определенной форме в разных странах. Транснациональный бизнес различается в зависимости от структуры экономики, уровня социально-экономического развития, организационной и управленческой структуры, национально-

этнических особенностей и уровня развития государства в разных странах. Ученые все чаще изучают правовые аспекты регулирования Транснационального бизнеса. Эта статья посвящена действиям, которые предпринимаются и которые необходимо предпринять для регулирования транснационального бизнеса на государственном уровне в Азербайджанской Республике, и предлагается методология регулирования.

Ключевые слова: *транснациональный бизнес, регулирование, нормативные акты, Азербайджан, разделение продукции.*

Summary

Allahverdiyeva M.A, Hashimov H.İ., Huseynova S.Y.

Improvement of the Regulatory Framework of Regulation of Transnational Business in Azerbaijan

Though formation of the transnational business is based on common principles, this process appears in a specific form in various countries. Transnational business is different depending on the structure of the economy, the level of socio-economic development, organizational and management structure, national-ethnic characteristics, and the level of development of the state in various countries. TNB has both positive and negative impacts on the economy of Azerbaijan. As Azerbaijan's transnational business develops, various problems also arise. The scientists have increasingly investigated the legal aspects of the TNB regulation. This article is dedicated to the actions that are being taken and important to be taken to regulate transnational business at the state level in the Republic of Azerbaijan, and the regulation methodology is proposed.

Key words: *transnational business, regulation, regulator acts, Azerbaijan, Production Sharing*

MİLLİ İQTİSADİYYATIN TƏHLÜKƏSİZLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ GÖMRÜK FƏALİYYƏTİNİN ROLU

Əhmədov Məhəmməd Ələddin oğlu

Sumqayıt Dövlət Universiteti

mehemmed.ehmedov.57@mail.ru

Xülasə: *Azərbaycan Respublikası təxminən iyirmi illik dövr ərzində inzibati amirlik iqtisadiyyatından bazar iqtisadiyatına keçid dövrünü yaşamışdır. Bu dövrdə köhnə iqtisadi mexanizmlər, iqtisadiyyatda yüksək inhisarçılıq ləğv edilmiş və onlar yeni iqtisadi sistemin mexanizmləri ilə əvəz edilmiş, iqtisadiyyat yeni əsaslar üzərində qurulmuşdur. Bazar iqtisadiyyatının formalaşmasında, milli iqtisadiyyatın təhlükəsizliyinin yuksəldilməsində digər amillərlə yanaşı həyata keçirilən gömrük siyasətinin və gömrük orqanlarının da rolu olmuşdur. Məqalə milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsində gömrük fəaliyyətinin roluna həsr olunmuşdur.*

Açar sözlər*: iqtisadi təhlükəsizlik, gömrük fəaliyyəti, səmərəlilik, idxal, ixrac*

Bazar iqtisadiyatına keçid dövrünün ilk illərində müstəqil Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətlə əlaqədar tətbiq edilən gömrük tədbirləri daha çox fiskal funksiyanı yerinə

yetirirdi. Belə ki, həmin dövrdə dövlət büdcəsinin formalaşmasında gömrük ödənişlərinin xüsusi çəkisi çox yüksək idi. Bəzən dövlət büdcəsinin 25%-ni gömrük ödənişləri təşkil edirdi.

Sonrakı illərdə əsasən neft strategiyasının gerçəkləşməsi nəticəsində yüksək iqtisadi artıma nail olan Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında neft amili üstünlük təşkil etməyə başladı. Bu dövrdə gömrük ödənişlərinin ümumi mütləq həcmi artmaqda davam etsə də, dövlət büdcəsinin formalaşmasında gömrük ödənişlərinin xüsusi çəkisi kəskin surətdə azaldı. Yaranmış yeni şəraitdə xarici iqtisadi fəaliyyətlə əlaqədar tətbiq edilən gömrük tədbirləri daha çox tənzimləyici funksiyanı yerinə yetirirdi. Xarici iqtisadi fəaliyyətlə əlaqədar tətbiq edilən gömrük tədbirləri ümumiyyətlə iki əsas funksiyanı: fiskal və tənzimləyici funksiyaları yerinə yetirməsinə baxmayaraq gömrük orqanlarının fəaliyyətinin milli iqtisadiyyata təsiri çox müxtəlifdir. Bu təsiri öyrənmək üçün əmtəələrin idxalı və ixracı nöqteyi-nəzərindən ölkədə istehlak olunan bütün əmtəələri aşagıdakı dörd qrupa ayırmaq olar:

birinci, istehsalı ölkə daxilində təşkil edilmiş və keyfiyyət göstəricilərinə görə yüksək rəqabət qabiliyyətinə malik olan əmtəələr;

ikincisi, hal-hazırda ölkə ərazisində istehsal olunan, keyfiyyət göstəriciləri isə beynəlxalq standartlarla müqayisədə nisbətən aşagı olan, lakin, bu göstəricilərin yaxın perspektivdə yaxşılaşdırılması nəzərdə tutulan əmtəələr;

üçüncüsü, istehsalı hal-hazırda ölkə ərazisində mövcud olmayan, lakin, istehsalının yaxın gələcəkdə təşkil edilməsi nəzərdə tutulan əmtəələr;

dördüncüsü, istehsalı hal-hazırda ölkə ərazisində mövcud olmayan, lakin, heç yaxın gələcəkdə də istehsalının təşkil edilməsi nəzərdə tutulmayan əmtəələr.

Birinci qrupa yüksək texnologiyalar əsasında və yerli xammallar hesabına hazırlanmış, istehsal xərcləri nisbətən aşağı olan, keyfiyyət göstəriciləri isə beynəlxalq standartlara cavab verən əmtəələri aid etmək olar. Xammal və material resurslarını da bu qrupa aid etmək olar. Azərbaycan Respublikasında bu qrupa daxil olan məhsullar arasında mineral məhsullar və əsasən mineral yanacaq, neft və neft məhsulları üstünlük təşkil edir. 2017-ci ildə ixracın strukturunda isə mineral məhsullar (89,8%), bitki mənşəli məhsullar (3,8%), azqiymətli metallar və onlardan hazırlanan məhsullar (1,8%), mirvari, qiymətli daş və metallar onlardan hazırlanan məhsullar (1%), hazır ərzaq məhsulları (0,8%), plastik kütlələr kauçuk, rezin və onlardan hazırlanan məmulatlar (0,7%), toxuculuq materialları və məmulatları (0,6%), kimya sənayesi məhsulları (0,6%) üstünlük təşkil etmişdir.

İxracda üstünlük təşkil edən göstərilən məhsul növləri analoji xarici əmtəələrlə müqayisədə yüksək rəqabət qabiliyyətinə malik olan əmtəələrdir. Azərbaycan iqtisadiyyatının əsas vəzifələrindən biri bu qrupa daxil olan əmtəələrin istehsalını çoxaltmaq və onların ixracının artırılmasını hər vasitə ilə stimullaşdırmaqdır.

İstehsal həcminin daxili istehlak tələbatını ödəmək nöqteyi-nəzərindən birinci qrupa daxil olan əmtəələri iki yarımqrupa ayırmaq olar: birinci yarımqrupa istehsal həcmi daxili istehlak tələbatlarını tam ödəyə bilən əmtəələri; ikinci yarımqrupa isə istehsal həcmi daxili istehlak tələbatlarından aşagı olan əmtəələri aid etmək olar. İstehsal həcmi daxili istehlak tələbatlarını üstələyən əmtəələrə görə nə ixracda, nə də idxalda heç bir məhdudiyyət tədbirlərini tətbiq etmədən bu əmtəələrin istehsalını və ixracını stimullaşdırmaqda davam etmək olar. İstehsal həcmi daxili istehlak tələbatlarından aşagı olan əmtəələrin ixracına məhduduyyətlər qoyulmalı, idxalı isə stimullaşdırılmalıdır[1,126].Hər iki halda tətbiq edilən gömrük tədbirləri tənzimləyici funksiyanı yerinə yetirmiş olur. Gömrük tədbirləri birinci halda ixracın stimullaşdırılmasını, ikinci halda isə idxalın stimullaşdırılmasını təmin edir.

Azərbaycanda istehsalı təşkil olunmuş ikinci qrup əmtəələrdən tikinti məhsulları istehsalını, kimya sənayesi məhsullarını, metallurgiya sənayesi və hazır metal məmulatları istehsalını, kompüter, elektron və optik məhsulları, elektrik avadanlıqları istehsalını, maşın və avadanlıqlar istehsalını, toxuculuq, geyim, dəri məmulatları və ayaqqabı istehsalı sahələrini göstərmək olar.Göstərilən istehsal sahələrində hazırlanan əmtəələrin keyfiyyət göstəriciləri beynəlxalq standartlara cavab vermır. Lakin, bu qrup əmtəələrin istehsalı və eyni zamanda bu əmtəələrin keyfiyyət göstəriciləri də yaxşılaşdırılmalıdır. Bu məqsədlə yüksək məhsuldarlıqlı, istehsal tullantıları isə minimum səviyyədə olan texnologiyalardan istifadə edilməlidir. Lakin, bu yaxın gələcəyin işidir. Nə qədər ki, bu qrup əmtəələrin keyfiyyət göstəriciləri beynəlxalq standartlara cavab vermır, analoji məhsulların idxalına yüksək diqqətlə yanaşılmalıdır. Sözsüz ki, göstərilən qrup əmtəələrin istehsalı müvafiq xarici firmalarda yüksək səviyyədə təşkil edilmişdir. Həmin əmtəələr keyfiyyət göstəriciləri nəzərə alınmaqla idxal olunmalıdır. Lakin, əmtəələrin idxalı yerli istehsalın inkişafına mane olmamalıdır. Azərbaycan əmtəələri üçün milli bazarda əlverişli rəqabət şəraitinin yaradılması məqsədi ilə məhz həmin əmtəələrin idxalına yüksək gömrük rüsumları tətbiq edilməlidir.

Üçüncü və dördüncü qrupa daxil olan əmtəələrin idxalı hər vasitə ilə stimullaşdırmalıdır. Üçüncü və dördüncü qrup əmtəələri təyinatından asılı olaraq iki yarımqrupa ayırmaq olar:

Birinci yarımqrupa gündəlik tələbat mallarını (ərzaq və qeyri-ərzaq məhsulları), əczaçiliq məhsullarını və eləcə də bəzi tikinti materiallarını, istehsal təyinatlı texnologiyaları və avadanlıqları aid etmək olar. Bu əmtəələrin idxalına görə tətbiq edilən gömrük rüsumları yüksək olmamalı, müəyyən mənada simvolik xarakter daşımalıdır. Əksinə, göstərilən əmtəələrin idxalı stimullaşdırmalı və bu istiqamətdə bütün mümkün maneələr ləğv edilməlidir.

İkinci yarımqrupa zinət əşyalarını, antikvar əşyaları, bahalı avtomobilləri, limuzinləri, satış məqsədi ilə idxal olunan texnologiyaları, avadanlıqları və digər bu kimi əmtəələri aid etmək olar. Göstərilən əmtəələrin idxalına görə isə yüksək gömrük rüsumları tətbiq edilə bilər. Belə gömrük rüsumları daha çox fiskal funksiyanı yerinə yetirir.Qeyd etmək lazımdır ki, üçüncü qrup əmtəələrin istehsalı ölkə ərazisində təşkil olunduqca gömrük siyasətində müvafiq dəyişikliklər edilməlidir.

Göstərilən əmtəə qrupları üzrə xarici ticarətdə tətbiq edilən bütün gömrük tənzimləmə vasitələri iki əsas qrupa –iqtisadi və inzibati tənzimləmə vasitələrinə ayırılır. İnzibati gömrük vasitələri, bir qayda olaraq, gömrük tənzimləmə funksiyasını, iqtisadi gömrük vasitələri isə həm fiskal, həm də tənzimləyici funksiyanı yerinə yetirirlər. Tətbiq edilən hər bir gömrük rüsumu özündə fiskal funksiyanı daşıyır. Belə ki, kəmiyyət səviyyəsindən asılı olmayaraq gömrük rüsumları büdcə vasitələrinin artırılmasına xidmət edir. Lakin, bu zaman onlar tənzimləyici funksiyanı da yerinə yetirmiş olurlar. Belə bir şəraitində əsas məsələlərdən biri hansı funksiyaya fiskal, yoxsa tənzimləyici funksiyaya üstünlük verilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir. Fiskal funksiyanın icra olunması büdcə vəsaitlərinin zənginləşdirilməsi, tənzimləyici funksiyaya üstünlük verilməsi isə xarici ticarətdə idxalın və ya ixracın ya stimullaşdirilması, ya da məhdudlaşdırılması deməkdir[2,211].

Xarici iqtisadi fəaliyyətlə əlaqədar gömrük orqanlarının və onların tətbiq etdikləri gömrük tədbirlərinin yerinə yetirdikləri funksiyalardan asılı olmayaraq gömrük fəaliyyətinin milli iqtisadiyyata əsas təsir istiqamətlərindən aşagıdakıları göstərmək olar:

- dövlət büdcə vəsaitlərinin artırılması;
- əmtəənin istehsal həcminin və onun bazar qiymətinin tənzimlənməsi;
- əmtəə ixracının stimullaşdırılması və ya məhdudlaşdırılması;
- əmtəə idxalının stimullaşdırılması və ya məhdudlaşdırılması;

- tranzit əmtəələrin hərəkətinin tənzimlənməsi;
- xarici investisiyaların hərəkəti üçün əlverişli şəraitin yaradılması;
- milli sərvətin xaricə qanunsuz axınının qarşısının alınması;
- valyuta axınının tənzimlənməsi və qanunsuz valyuta axınının qarşısının alınması;
- qaçaqmalçılıq və qanunla qadagan olunmuş malların daşınmasının qarşısının alınması;
- keyfiyyətsiz və ya insan orqanizmi üçün, eləcə də ətraf mühit üçün təhlükəli ola bilən əmtəələrin gömrük sərhəddindən hərəkətinin qarşısının alınması;
- milli iqtisadi təhlükəsizliyin təmin edilməsi.

Milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinin təmin edilməsi məqsədi ilə gömrük fəaliyyətinin iqtisadiyyata göstərilən əsas təsir istiqamətlərinin hər biri ayri-ayrılıqda təhlil edilməlidir.

Ədəbiyyat

1. Əliyev A. Ə. Gömrük işi və dünya iqtisadiyyatının inkişafı. Çaşıoğlu Bakı: Çaşıoğlu, 2003, 240 s.

2. Толкушкин А.В. Таможенное дело: учебник для бакалавриата. М.: 2011, 511 с.

Резюме

Ахмедов М. А.

Роль таможенной деятельности в повышении национальной экономической безопасности

Азербайджанская Республика почти в течение двадцати лет находилась в условиях переходного периода. В этот период старые экономические механизмы, высокая экономическая монополия постепенно были заменены новыми экономическими механизмами, экономика строилась на новой основе. Наряду, с другими факторами в формировании рыночной экономики и повышении национальной экономической безопасности значительную роль сыграла и таможенная деятельность. Статья посвящена роли таможенной деятельности в повышении национальной экономической безопасности.

Ключевые слова: *экономическая безопасность, таможенная деятельность, эффективность, импорт, экспорт.*

Summary

Ahmadov M.A.

Role of the Customs Service in Reducing the Security of the National Economy

The Republic of Azerbaijan has experienced a transition to a market economy for nearly twenty years. During this period the old economic mechanisms, the high monopoly in the economy were abolished and they were replaced by the mechanisms of the new economic system, and the economy was built on new foundations. Customs policy and customs authorities, along with other factors, played a role in the development of the market economy in enhancing the security of the national economy. The article is dedicated to the role of customs in ensuring the security of the national economy.

Key words: *economic security, customs activity, efficiency, import, export.*

İNSAN KAPİTALI İQTİSADİ ARTIMIN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ KİMİ

Əhmədova Təranə Mütəllim qızı
Sumqayıt Dövlət Universiteti
Əzimova Əsli İsa qızı
AMEA-nın Gəncə bölməsi
tarana.7474@mail.ru

Xülasə: *Məqalədə insan kapitalının formalaşması mənbələrinə toxunulmuşdur. Onun milli iqtisadi inkişafda rolu qiymətləndirilmişdir. Həmçinin, insan kapitalı mürəkkəb və intensiv bölgü amili kimi nəzərdən keçirilmişdir.*

Açar sözlər: *insan kapitalı, əmək resursları, innovasiya, təhsil, iqtisadi inkişaf, rəqabət*

Müasir dövrdə insanın inkişafı nəzəri bilikləri üstələməkdədir. Məlumdur ki, elmlər insanların müəyyən problemlərinin həlli istiqamətində inkişaf edir. Lakin, uzun müddətdir nəzəriyyə və praktika arasında müxtəlif problemlərin həlli istiqaməti üzrə mübarizə gedir. İnsan kapitalının qeyd olunan amil üzrə qiymətləndirilməsini aparsaq burada bir cəhəti vurğulamaq lazımdır. Bu da ondan ibarətdir ki, insan kapitalı mövzusunda elmi biliklər ilə insanın inkişafı qarşılıqlı, dialektika vəhdətində reallaşır. Nəzəri biliklər onun inkişafını, insanın yeni inkişaf tələbləri isə elmin yeni metodoloji bazada tədqiqatlarını genişləndirməyi zəruri edir. İnsan kapitalı geniş mənada iqtisadi inkişaf faktorunun, cəmiyyət və ailənin inkişafının intensiv məhsuldarlığı deməkdir. Bura əmək resurslarının təhsil komponenti, biliklər, intellektual və idarəetmə bacarığı və digər faktorlar daxildir ki, bütün bunlar da inkişafın əsas şərti olan insan kapitalının effektiv və səmərəli tətbiqinə şərait yaradır.

Sənaye və elmi-texniki tərəqqi, iqtisadiyyatda texnoloji ukladın və cəmiyyətin dəyişməsi nəzəriyyə və praktika baxımından insan kapitalının inkişafı prizmasından nəzərdən keçirilir. Qeyd olunan proseslərin təhlili göstərir ki, insan kapitalı və onun inkişaf artımı tsikli dünya iqtisadiyyatı və cəmiyyətinin innovasiya dalğasının əsas amili hesab olunur. Sənaye, elmi-texniki, texnoloji inqilabı təhsilli və peşəkarcasına biliklə silahlanan mədəni insanlar həyata keçirir. Müasir mərhələdə iqtisadi nəzəriyyə baxımından qiymətləndirsək, bu o deməkdir ki, müxtəlif dövrdə həyata keçirilən texnoloji inqlablar, innovasiya yenilikləri və idarəetmə bacarıqları insan kapitalı bazası əsasında həyat keçirilmişdir.

İnsan kapitalının inkişaf etdirilməsi və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemlərinin həll edilməsi ölkədə əlverişli biznes mühitinin yaradılmasını, milli iqtisadiyyatın ayrı-ayrı sektorları arasında effektiv koordinasiya sisteminin qurulmasını, habelə bu zaman "Elm-tədqiqat-innovasiya" sisteminin bütün mərhələlərinə klaster yanaşmanı tələb edir. Hər hansı bir ölkədə insan kapitalının kifayət qədər olması onu birbaşa iqtisadi artımın həlledici amilinə çevirmir. Əsas məsələ onun strukturunun və keyfiyyətinin nə dərəcədə milli iqtisadiyyatın quruluşuna, tələblərinə cavab verməsi və onun səmərəli reallaşdırılması üçün əlverişli bazar mühitinin olmasıdır. İnsan kapitalının iqtisadi artımda və rəqabətqabiliyyətinin yüksəldilməsindəki rolunu müəyyənləşdirərkən əsas şərtlərdən biri onun dəyərinin düzgün və obyektiv qiymətləndirilməsi ilə bağlıdır. Dünya təcrübəsində insan kapitalının dəyərini qiymətləndirərkən xərc metodundan, indekslər sistemindən, habelə, konkret olaraq təhsilə, elmə qoyulan investisiyaya görə alınan nəticələr əsas götürülür.

Təhlil göstərir ki, keçid dövrünü yenicə başa vurmuş ölkəmizdə qısa bir zaman kəsiyində insan kapitalının güclü inkişafına nail olmaq onu dünya meyarlarına cavab verən rəqabətqabiliyyətlilik səviyyəsinə yüksəldilməsi mürəkkəb bir problemdir. Yaxın gələcəkdə bu problemi ölkəmizdə həll etmək üçün "Milli iqtisadiyyatın perspektivliyi üzrə strateji yol xəritəsi"ndə təhsil-tədqiqat-innovasiya vəhdətini tətbiq etməklə insan kapitalının inkişaf etdirilməsi başlıca hədəf kimi müəyyənləşdirilmiş və bu problemin həllinin əsas yolları, prioritetləri, imkanları, dəstəkləyici sistemin yaradılması habelə bütünlükdə bu prosesin stimullaşdırılmasının normativ-hüquqi və qanunvericilik bazasının təkmilləşdirilməsinin zəruriyyəti xüsusi vurğulanır [1, səh.84].

İnsan kapitalının inkişafın əsas amili kimi qəbul edilib seçilməsi onunla əlaqəli olan bütün proqram, strategiya və konsepsiyaların hazırlanmasına sistemli və kompleks yanaşmaları zəruri edir. Belə bir yanaşma inkişaf amilinin çox komponentli kimi milli insan kapitalının da mahiyyətini açmağa kömək edəcəkdir. Belə ki, inkişaf etmiş və etməkdə olan ölkələrin ÜDM-də ixtisassız əməyin xüsusi çəkisi olduqca aşağıdır və demək olar ki, texnoloji cəhətdən qabaqcıl ölkələrdə bu az nəzərə çarpır.

ABŞ və aparıcı Avropa ölkələri inkişaflarını insan kapitalı nəzəriyyəsi əsasında müvəffəqiyyətlə təkmilləşdirirlər və özlərinin rəqabətqabiliyyətli milli iqtisadiyyatlarını yaratmağa nail ola bilirlər. Bu ölkələrdə milli sərvətin əsas hissəsini məhz insan kapitalı müəyyən edir. Dünya bankının mütəxəssislərinin hesablamalarına görə bu ölkələrin milli insan kapitalı onların milli sərvətinin 70-80%-dən çoxunu təşkil edir. Onlar milli büdcələrindən insan kapitalına digər və inkişaf etməkdə olan ölkələrlə müqayisədə 2,5-3 dəfədən çox vəsait yönəldirlər. Bütün bunlar onu deməyə əsas verir ki, ölkənin iqtisadi inkişafında həlledici rolu insan kapitalı oynayır [2, səh.418].

İstənilən əmək müasir mərhələdə elm və təhsili (bilikləri) tələb edir ki, bu da öz növbəsində müxtəlif növlü əmək fəaliyyəti və əməyin keyfiyyətinin yüksək saxlanılmasının başlıca şərti kimi çıxış edir. Buna görə də əməyi ixtisaslı və ixtisassız növlərə bölmək təhsilin, xüsusi bacarıq, bilik və yeniliyin fonunda tarixi yanaşmasını iqtisadi nəzəriyyə elmi cəhətdən itirməkdədir. Bunun başlıca səbəbi kimi insan kapitalının xüsusi formada iqtisadi nəzəriyyə elmində özünə yer tutması və əməyin formaları arasında məzmun sadəliyinə gətirməsini göstərmək olar. Rəqabət münasibətləri şəraitində insan kapitalı cəmiyyətin başlıca sərvəti və iqtisadi artımın əsas hərəkətverici qüvvəsi hesab edilir. Çünki elmi-texniki tərəqqinin sürəti, əməyin təşkili və mədəni səviyyəsi, onun məhsuldarlığı, hər şeydən əvvəl, insan kapitalının kəmiyyət və keyfiyyətindən asılıdır. İnkişaf etmiş ölkələrin əksəriyyətində artıq belə bir anlayış qətiləşmişdir ki, insanlar iqtisadiyyat üçün deyil, iqtisadiyyat insanlar üçündür. İndi həmin ölkələrdə iqtisadi artım, onun sürəti, quruluşu və keyfiyyətinə bir məqsəd kimi deyil, insanların həyatının zənginləşməsi, intellektual insan potensialının müntəzəm inkişafı üçün zəruri vasitə kimi baxılır. Təsadüfi deyildir ki, dünyanın inkişaf etmiş əksər ölkələrində başqa istiqamətlərə nisbətən insan kapitalına qoyulan vəsait daha səmərəli hesab edilir [4, səh.206-207].

Məlumat üçün bildirək ki, Dünya Bankının 192 ölkədə apardığı tədqiqatların nəticələri, dünya iqtisadiyyatında baş verən artımın 16%-nin fiziki kapital, 20%-nin təbii resurslar, 64%-nin isə insan kapitalı hesabına baş verdiyini göstərir. Buna görə də tnkişaf etmiş ölkələr hətta iqtisadi böhran şəraitində belə təhsil və elmə ayrılan vəsaitləri nəinki azaltmırlar, əksinə artırırlar. Təsadüfi deyildir ki, dünyanı bürüyən iqtisadi böhran, maliyyə qıtlığı şəraitində Fransa, Almaniya kimi ölkələr elm və təhsilin inkişafına büdcədən əlavə olaraq 20-25 milyard avro vəsait ayırmışlar. İnsan kapitalının iqtisadi kateqoriya kimi üçüncü inkişaf mərhələsində investisiya, insanların bu baxımdan təhlükəsizliyi, effektli elitanın hazırlanması, vətəndaş cəmiyyətinin formalaşması və inkişafı,

institutsional xidmətin səmərəliliyinin artırılması, əhalinin həyat keyfiyyətinin artırılması və kapitalın ölkənin digər regionlarına axını nəzərə alınır.

İnsan kapitalının təməl prinsiplərinə (cəmiyyətin malik olduğu mədəni irs) təhsil, səhiyyə və toplanmış bilik aiddir. Lakin, bu təməl prinsiplərinin zəruriliyi qədər digər elementlər də bilik və innovasiyadan istifadənin səmərəliliyini və artımını təmin edən yüksək səviyyəli mütəxəssisləri, sahibkarlıq resurslarını və s. vacib sayır. Qeyd olunan prinsip və elementlərin hamısı insan kapitalı üçün olduqca vacibdir. Çünki, real praktikada qeyd olunan elementlərdən hər hansısa birinin aşağı keyfiyyətdə təqdim olunması insan kapitalının ümumi keyfiyyətinin ani azalmasına gətirib çıxardacaqdır. Yəni, elementlərdən hər hansısa birinin səmərəliliyinin və keyfiyyətinin aşağı düşməsi mənfi sinergetik (xətti) və multiplikativ effektin zəifləməsi fonunda müşahidə olunacaqdır. Bu isə sağlam rəqabətin inkişafına öz mənfi təsirini göstərəcəkdir.

Son illər Azərbaycanda da insan kapitalı mövzusu getdikcə daha çox aktuallıq kəsb etməyə başlamışdır və onun mahiyyəti, məzmunu haqqında müxtəlif fikirlər, mülahizələr irəli sürülməkdədir. Ancaq təəssüf ki, hələlik Azərbaycanda insan kapitalının formalaşmasına lazımi diqqət yetirilmir.

Təbiidir ki, insan kapitalının formalaşmasında və idarə olunmasında həm iş qüvvəsinin daşıyıcıları, həm işəgötürənlər və həm də, dövlət maraqlı olmalıdır. İnsan kapitalının formalaşması, idarə olunması və inkişafı prosesində meydana çıxan problemləri ayrı-ayrılıqda heç kəs təkbaşına həll edə bilməz. Bu problemlər isə əsasən aşağıdakılardan ibarətdir:

- yüksək, hərtərəfli və mükəmməl bilik verən, eyni zamanda hər kəs üçün əlçatan olan təhsil (ali və peşə hazırlığı) sisteminin mövcud olub-olmaması;
- yüksək, hərtərəfli və mükəmməl biliklərin verilməsində maraqlı olan təhsil sistemi əməkdaşlarının, belə biliklərin alınmasında maraqlı olan tələbə kontingentinin formalaşdırılması;
- kadr hazırlanması ilə məşğul olan və təhsil sisteminə daxil olan bütün strukturların maddi-texniki bazasının, kitabxana fondunun əsaslı şəkildə yenilənməsi;
- təhsilin, elmin, elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsi üçün bu sahələrə dövlət dəstəyinin, qeyd edilən sahələrə ayrılan maliyyə vəsaitinin artırılması;
- yüksək bilik və peşə hazırlığına malik insanların öz potensiallarından səmərəli istifadə etmələri üçün müvafiq iş yerlərinin yaradılması, belə iş yerləri yaradan sahibkarlıq strukturlarına dövlət tərəfindən hərtərəfli (hüquqi, maliyyə, vergi və s.) yardımların göstərilməsi.

Qeyd edilənlərdən göründüyü kimi, insan kapitalının formalaşması və idarə edilməsi prosesində meydana çıxan problemlərin həllində əsas vəzifə dövlətin üzərinə düşür və ölkə iqtisadiyyatının sürətli inkişafı, insanların firavan yaşaması üçün dövlət bu vəzifəni yerinə yetirməlidir.

İnsan kapitalı iqtisadi inkişafın mürəkkəb və intensiv bölgü amilidir. O, canlı iqtisadi orqanizm kimi təcəssüm olunmaqla cəmiyyətin bütün tədbirlərinə sirayət etmiş olur. Qeyd olunanların fonunda söyləyə bilərik ki, insan kapitalı ayrıca olaraq iqtisadi səmərəliliyi, məhsuldarlığı, ÜDM-i zənginləşdirməsi, həyat keyfiyyəti və s. bu kimi iqtisadi göstəriciləri qiymətləndirmə baxımından iqtisadi nəzəriyyə üçün mürəkkəb metodoloji və obyektiv çətinliklər yaradır. Bir çox iqtisadi ədəbiyyat və tədqiqatlarda insan kapitalı termini digər anlayışlarla eyniləşdirilir və ifadə olunur. Bizim fikrimizcə bu düzgün deyildir. Bu baxımdan insan kapitalını ilk öncə insan potensialından fərqləndirmək lazımdır. İlk növbədə onu qeyd etmək lazımdır ki, insan potensialı insan kapitalına nisbətən dar mənada ifadə olunur. O, demək olar ki, insan potensialı indeksi kimi xarakterizə olunur ki, bura da ÜDM, yaşam müddəti və əhalinin savadlılıq göstəriciləri aid edilir. İnsan kapitalı isə kompleks olaraq insan potensialının göstərici və elementlərini də

özündə ehtiva edir. İnsan kapitalının əmək resurslarından da fərqli edən mühüm cəhətlər vardır. Əmək resursları özlüyündə bilavasitə olaraq ixtisaslı və ixtisassız, təhsilli və təhsilsiz bütün əmək növlərini özündə birləşdirir ki, bu da onu insan kapitalına nisbətən məhdud mənada ifadə edir. Belə ki, insan kapitalı ona nisbətən özlüyündə investisiyalı əmək resurslarını, elmli, təhsilli, səhiyyə və təhlükəsizliklə əlaqəli əmək resurslarını, onların həyat keyfiyyətlərini, intellektual potensiallarını və s. nəzəri bir məfhum kimi özünü göstərir [4, səh.509].

Müasir bazar iqtisadiyyatı dövründə isə insan kapitalına investisiya qoyuluşunun əlavə mənbələrinin axtarılması üçün yeni şərait yaranmışdır. İndi artıq insan kapitalının lazımı səviyyədə təkrar istehsalının həyata keçirilməsi üçün dövlət maliyyələşdirilməsi kifayət etmir. Buna görə də bu prosesin xüsusi maliyyələşdirilməsinə tələbat yaranmışdır. Digər bir tərəfdən isə bazar iqtisadiyyatı şəraitində gəlirlərin və istehlakın səviyyəsindəki qeyri-bərabərliyin mövcud olması üzündən fərdlərin qabiliyyət və səbəblərinin dərəcəsindən asılı olaraq insan kapitalı qoyuluşu dairəsinin xüsusi investisiyalaşdırılmasında çətinliklər yaranır. Məqalənin sonunda belə nəticəyə gəlmək olar ki, insan kapitalı iqtisadi artımın ən əhəmiyyətli komponentlərindən biridir. Onun inkişafı bilavasitə iqtisadiyyatın digər sahələrinə təsir göstərərək çox vacib hədəflərin reallaşmasına səbəb ola bilər. Bu həqiqəti göz önündə tutan Azərbaycan Respublikası rəhbərliyi ölkədə insan kapitalının inkişafına xüsusi qayğı göstərməkdə və onun davamlılığını təmin etmək üçün vəsaitlər ayırır. Bu vəsaitləri məqsədyönlü istifadə etməklə Azərbaycanda insan kapitalının inkişafına böyük töhfələr verməklə, onu iqtisadi artımın sürətləndirilməsində əsas vasitəyə çevirmək olar.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 1897 nömrəli Sərəncamı. Bakı, 16 mart 2016.

2. Əlləzov Q.S. İnsan kapitalı və onun müasir iqtisadi inkişafda rolu. İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər" mövzusunda Beynəlxalq elmi konfransının materialları. II hissə. Sumqayıt, 27-28 aprel 2016, 647 s.

3. Məmmədov F.T. İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi. Bakı: Apostrof, 2013, 672 s.

4. Nuriyev Ə.X. İnsan və həyat fəlsəfəsi. Bakı: Çaşıoğli nəşriyyatı, 2005, 264 s.

Резюме

Ахмедова Т.М., Азимова А.И.

Человеческий как капитал является движущая сила экономического роста

В статье затронуты источники формирования человеческого капитала. Оценена ее роль в развитии национальной экономики. Также, человеческий капитал рассмотрен как фактор сложного и интенсивного обмена.

Ключевые слова: *человеческий капитал, трудовые ресурсы, инновации, образование, экономическое развитие, конкуренция*

Summary

Ahmadova T.M., Azimova A.I.

Human as Capital is the Engine of Growth

The article touches upon the sources of human capital formation. Its role in the development of the national economy has been evaluated. Also, human capital is considered as a factor of complex and intensive exchange.

***Key words**: human capital, labor resources, innovations, education, economic development, competition*

DEMOQRAFİK TƏHLÜKƏSİZLİK İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ELEMENTİ KİMİ

Əliyev Teyyub Qəni oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
teyyub-qenioglu@mail.ru
Əliyeva Şəms Teyyub qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
adnsu.nenk73@mail.ru

***Xülasə:** məqalədə göstərilir ki, bütün dünyada cəmiyyətin sosial-iqtisadi və demoqrafik inkişafının uyğunluğu qanunu fəaliyyət göstərir və buna əsasən, əhalinin kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin dinamikası ilə, ÜDM və digər sosial-iqtisadi parametrlərin dinamikası arasında sabit əlaqə mövcud olur. Dövlətin iqtisadi təhlükəsizliyi və demoqrafik vəziyyəti bir-birindən asılıdır, ona görə də bu anlayışlar bir-biri ilə münasibətdə nəzərdən keçirilməli, iqtisadi təhlükəsizlik həm də demoqrafik təhlükəsizliyi əhatə etməlidir. Məqalədə həmçinin Azərbaycanda demoqrafik vəziyyəti xarakterizə edən göstəricilər təhlil edilir və demoqrafik təhlükəsizliyin təmin edilməsinə istiqamətlənmiş təkliflər irəli sürülür.*

***Açar sözlər:** demoqrafik təhlükəsizlik, iqtisadi təhlükəsizlik, demoqrafik siyasət, demoqrafik vəziyyət, təkliflər*

Bəşəriyyətin demək olar ki, bütün tarixi boyu təhlükəsizlik hər bir dövlətin mövcudluğu üçün zəruri şərt kimi nəzərdən keçirilmişdir. Heç olmasa, öz ərazi sərhədlərinin bütövlüyünü təmin etmək və əhalisini qorumaq həmişə ölkənin dayanıqlı inkişafına yönəlmiş strategiyanın ən vacib elementləri olmuşdur. Müasir dünyada nüvə müharibəsinin qarşısının alınması, inkişaf etməkdə olan ölkələrin geridə qalması, qida və enerji problemlərinin həlli, təhlükəli xəstəliklərin aradan qaldırılması, ətraf mühitin çirklənməsi və bir sıra digər problemlər kimi çox sayda problem mövcuddur, lakin bunlar arasında xüsusi yer demoqrafik problemə məxsusdur. O, bəşəriyyətin demək olar ki, bütün qlobal problemlərinin inkişafını müəyyənləşdirir və hər bir ölkənin milli və ona daxil olan iqtisadi təhlükəsizliyinin ən vacib tərkib hissəsidir.

Demoqrafik vəziyyətin göstəriciləri bütövlükdə ölkənin və xüsusilə onun alt sistemlərinin sosial-iqtisadi inkişafı üçün əsas şərtlərdir. Demək olar ki, bütün dünyada cəmiyyətin sosial-iqtisadi və demoqrafik inkişafının uyğunluğu qanunu fəaliyyət göstərir və buna əsasən, əhalinin kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin dinamikası ilə, ÜDM və digər sosial-iqtisadi parametrlərin dinamikası arasında sabit əlaqə mövcud olur. Şübhə yoxdur ki, əhali istənilən ölkənin əsas sərvətidir, onsuz dövlətin həyatı mümkün deyildir. Əhalinin sayının dəyişməsi ölkə ərazisinin mənimsənilmə və inkişaf səviyyəsinə birbaşa təsir göstərir.

Müasir dünyada milli təhlükəsizliyin xarici amilləri hər bir ölkənin, o cümlədən Azərbaycanın, iqtisadi təhlükəsizliyinin təmin edilməsində prioritet hala gəlmişdir, çünki ölkənin iqtisadi inkişaf səviyyəsi onun xarici və daxili risklərdən qorunmasının potensial imkanlarını müəyyənləşdirir. Əlbətdə ki, dövlətin sosial siyasəti iqtisadi təhlükəsizliyin mühüm tərkib hissəsidir, ona görə də, iqtisadi təhlükəsizliyin təmin edilməsi, əhalinin bütün təbəqələri üçün layiqli

və sabit həyat şəraiti tələb edir ki, bu da demoqrafik proseslərə-doğum, ölüm və miqrasiyaya təsir edir.

Dövlətin iqtisadi təhlükəsizliyi və demoqrafik vəziyyəti bir-birindən asılıdır, ona görə də bu anlayışlar bir-biri ilə münasibətdə nəzərdən keçirilməlidir. Beləliklə, iqtisadi təhlükəsizlik həm də demoqrafik təhlükəsizliyi də əhatə etməlidir ki, bundan da məqsəd ölkənin və onun bölgələrinin davamlı demoqrafik inkişafının təmin edilməsidir. Təəssüf ki, dünyada demoqrafiya probleminə kifayət qədər diqqət yetirilmir, halbuki bu məsələ hamının və hər bir insanın həyat səviyyəsinə ciddi təsir göstərir

Məlumdur ki, ölkədə demoqrafik inkişafın idarə edilməsində dövlətin, əhali sakinliyi siyasətinin tərkib hissəsi olan, demoqrafik siyasəti əhəmiyyətli rol oynayır. Bunu nəzərə alaraq əhalinin təbii hərəkətinə təsir göstərmək və müəyyən demoqrafik nəticələrə nail olmaq üçün Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 1999-cu il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası təsdiq edilmiş və həyata keçirilmişdir. Son illərdə demoqrafik proseslərdə yaranan mənfi meylləri aradan qaldırmaq, əhalinin keyfiyyətcə və kəmiyyətcə artımını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının Demoqrafik İnkişafı və Əhali Dövlət Proqramı" (2017-2030-cu illər) qəbul edilmiş və həyata keçirilir.

Son 28 ildə respublikanın əhalisi 36,5% artmışdır. Bununla birlikdə, illər ərzində əhalinin artım tempi əsasən azalmağa doğru meyl etmişdir. Belə ki, 1991-ci ildə respublika əhalisi əvvəlki ilə nisbətən 1,5% artmışdırsa, 2005-ci, 2008-ci, 2010-cu, 2013-cü illərdə 1,3%; 2014 və 2015-ci illərdə -1,2%, 1995-ci , 2009-cu və 2016-cı ildə -1,1%; 2000-ci, 2017-ci,2018-ci və 2019-cu illərdə -1,0% artmışdır.

Ölkədəki demoqrafik vəziyyət döğumun, ölümün, təbii artımın səviyyəsi ilə yanaşı, nikahların, boşanmaların sayı, onlar arasındakı nisbət, eləcə də, əhalinin ömür müddətindən bilavasitə asılıdır. Cədvəl 1-də Azərbaycanda demoqrafik göstəricilərin dinamikası verilmişdir.

Cədvəl 1

Azərbaycanda demoqrafik göstəricilərin dinamikası (əhalinin hər 1000 nəfərinə) [4-9]*

Göstəricilər	İ l l ə r								
	1991	1995	2000	2005	2010	2015	2016	2017	2018
Doğulanlar	26,6	18,9	14,7	16,9	18,5	17,4	16,5	14,8	14,2
Ölənlər	6,3	6,7	5,9	6,2	6,0	5,7	5,9	5,9	5,8
Təbii artım	20,3	12,2	8,8	10,7	12,5	11,7	10,6	8,9	8,4
Nikahların sayı	10,4	5,7	5,0	8,5	8,9	7,2	6,9	6,5	6,4
Boşanmaların sayı	1,5	0,8	0,7	1,1	1,0	1,3	1,4	1,5	1,5
Orta ömür uzunluğu	70,5	69,1	71,8	72,4	73,6	75,2	75,2	75,4	75,8

Qeyd: ADSK-nin məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.*

Göründüyü kimi, 1991-ci ildən etibarən əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı, bəzi illər istisna olmaqla, ilbəil azalmağa doğru meyl etmişdir. Nəticədə, 2018-ci ildə bu göstəricinin səviyyəsi 1991-ci illə müqayisədə 87,3% azalmışdır.

Nəzərdən keçirilən illərdə əhalinin hər 1000 nəfərinə düşən ölənlərin sayının əsasən, az da olsa, azalmağa doğru meyl etməsi müsbət hal kimi qiymətləndirilə bilər. Belə ki, 1991-ci ildə bu göstərici 6,3 nəfər, 2018-ci ildə-5,8 nəfər təşkil etmişdir.

1991-2018-ci illərdə doğulanların sayında baş verən azalmalar əhalinin hər 1000 nəfərinə düşən təbii artımının səviyyəsinə mənfi təsir göstərmişdir:1991-ci ildə bu göstərici 20,3 nəfərə, 1995-ci ildə-12.2 nəfərə (azalma-40,0%), 2000-ci ildə-8,8 nəfərə (1995-ci ilə nisbətən 27,9% azalma) bərabər olmuşdur. 2005-ci və 2010-cu illərdə bu göstəricinin səviyyəsində müəyyən artım baş versə də, 2015-ci ildən etibarən yenidən ilbəil azalma olmuşdur. Nəticədə 2018-ci ildə Azərbaycanda hər 1000 nəfərinə düşən təbii artımın (8,4 nəfər) səviyyəsi 1991-ci illə müqayisədə 2,4 dəfə azalmışdır.

Ölkədəki demoqrafik vəziyyətə nikahların və boşanmaların sayı, onlar arasındakı nisbət də əhəmiyyətli dərəcədə təsir göstərir. Araşdırmalar göstəri ki, 1991-2018-ci illər ərzində, bəzi illər istisna olmaqla, əhalinin hər 1000 nəfərinə düşən nikahların sayında ilbəil azalma baş vermişdir. 1991-ci ildə bu göstərici 10,4-ə bərabər idisə, 2005-ci ildə-8,5, 2010-cu ildə 8,9, 2015-ci ildə-7,2, 2018-ci ildə-6,4 olmuşdur. Nəticədə, 2018-ci ildə Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 1991-ci illə müqayisədə 38,5% azalmışdır.

1991-ci ildə əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı 1,5 olmuş, sonrakı illərdə azalmalar olsa da, 2017 və 2018-ci illərdə artaraq 1991-ci il səviyyəsinə çatmışdır.

Əhalinin orta ömür uzunluğu da, ölkədəki demoqrafik vəziyyətə təsir göstərir. Cədvəl 1-dən göründüyü kimi, son 28 il ərzində Azərbaycanda əhalinin orta ömür uzunluğu ilbəil artmağa doğru meyl etmiş və 2018-ci ildə 75,8 yaş təşkil etmişdir.

Araşdırmalar göstərir ki, son illər Azərbaycanda demoqrfik vəziyyətin mənfiyə doğru meyl etməsinin bir sıra səbəbləri vardır ki, onların da əsasları aşağıdakılar hesab edilə bilər:

- xarici dəstəyin köməyi ilə ölkə ərazisinin 20,0%-nin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan çox vətəndaşımızın qaçqın və köçkün vəziyyətinə düşməsi;
- iqtisadi inkişafda regional disproporsiyaların nəticəsində çox sayda əhalinin rayonlarda iş tapmaması səbəbindən ölkə daxili və xarici miqrasiyası;
- nikaha girmə yaşının həm oğlanlar, həm də qızlar üçün çoxalması;
- işsizlik və iqtisadi çətinliklər, məişət problemləri səbəbindən boşanmaların sayının çoxalması, nikahların, ailədə yeni doğulan uşaqların sayının azalması və s.

Son illər Azərbaycanda doğum nisbətinin azalmasının əsas səbəbi işsizlik və kommunal xərclərin yüksək olması səbəbindən əhalinin böyük hissəsinin yaşayış səviyyəsinin azalması və gələcəyə inamsızlığıdır. Azərbaycannın milli iqtisadiyyatının yanacaq və xammal istiqaməti, yerli müəssisələrin əksəriyyətinin istehsal etdiyi məhsulların aşağı rəqabət qabiliyyəti və s. iqtisadiyyatın daha da inkişafına və yeni iş yerlərinin açılmasına mane olur. Ölkənin müxtəlif bölgələrinin sosial-iqtisadi inkişafında fərqliliyinin artması, yəni bölgələrin sosial-iqtisadi inkişaf səviyyəsində obyektiv şəkildə yaranan fərqlər, istehsal sahələrinin payının azalması ölkə daxilində iqtisadi təhlükəsizlik səviyyəsinin azalmasının nəticəsidir.

İqtisadi fəal əhalinin məşğulluq səviyyəsinin aşağı olması ölkənin həm iqtisadi, həm də demoqrafik təhlükəsizliyini təhdid edən amillərdən biri hesab edilməlidir. Ona görə də, məşğulluq səviyyəsinin artması, işsizliyin azaldılması dövlətin sosial-iqtisadi siyasətinin prioritet sahəsi olmalıdır. Rəsmi rəqəmlər göstərir ki, son illər aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanda məşğulluq səviyyəsinin artması, işsizliyin azaldması meyli müşahidə edilir. Cədvəl 2-də Azərbaycanda məşğulluğun və işsizliyin səviyyəsi və dinamikası göstərilmişdir.

Araşdırmalar göstərir ki, Azərbaycan əhalisinin sayının ilbəil artması ilə yanaşı, iqtisadiyyatda məşğul olanların sayının da ilbəil arması müşahidə olunur və məşğul olanların sayının artım tempi, əhalinin sayının artım tempini üstələyir. Belə ki, əgər 2018-ci ildə Azərbaycan əhalisinin sayı 2005-ci illə müqayisədə 16,7% armışdısa, həmin zaman kəsiyində iqtisadiyyatda

məşğul olanların sayının artım tempi 20,1% təşkil etmişdir. 2005-2018-ci illərdə Azərbaycanda işsizlərin sayı 20,1% azalmışdır. Nəticədə, işsizlik səviyyəsi 2005-ci ildəki 7,3%-dən, 2018-ci ildə 4,9%-ə qədər azalmışdır. Qeyri-rəsmi məlumatlara görə son illərdə 1,5 milyona yaxın Azərbaycan vətəndaşı daha yaxşı iş tapmaq üçün ölkədən getmişdir. Bu onu deməyə əsas verir ki, Azərbaycanda işsizliyin rəsmi nəticəsi ilə real vəziyyəti arasında uyğunsuzluq vardır.

Yuxarıda qeyd edilən müsbət meyllərlə yanaşı, işsizlərə işsiz statusu verilməsi sahəsində mənfi meyllər müşahidə edilir. Belə ki, əgər 2005-ci ildə 317,8 min işsiz insanların yalnız 17,7%-nə işsiz statusu verimişdirsə, 2018-ci ildə 253,8 min işsizin ancaq 7,9%-i bu statusu almışdır.

Azərbaycanda işsizliyə görə müavinət alanların sayı isə həddindən artıq azadır və 2018-ci ildə bütün işsizlərin yalnız 0,4%-nə bərabər olmuşdur.

Cədvəl 2

Azərbaycanda məşğulluğun və işsizliyin səviyyəsi və dinamikası
[8, səh.101-102; 9, səh.85-86]

İllər	Əhalinin sayı (min nəfər)	İqtisadiy-yatda məşğul olanlar (min nəfər)	İşsizlər (min nəfər)	Məşğul əhalinin xüsusi çəkisi %	İşsizliyin səviyyəsi %	İşsiz statusu verilmiş şəxslər		
						nəfər	işsizlərin ümumi sayına görə, %	Işsizliyə görə müavinət alanlar,%
2005	8553,1	4062.3	317.8	92.7	7.3	56343	17.7	1.3
2010	9111,1	4329.1	258.3	64.4	5.6	38966	15.1	0.8
2015	9705,6	4671.6	243.7	95.0	5.0	28877	11.9	0.6
2016	9810,0	4759.9	252.8	95.0	5.0	32972	13.0	0.7
2017	9898,1	4822.1	251.7	95.0	5.0	38481	15.3	0.8
2018	9981,5	4879.3	253.8	95.1	4.9	20088	7.9	0.4

Araşdırmalar göstərir ki, son illər demoqrafik proseslərdə müəyyən geriləmələrin olmasına baxmayaraq hələlik bu geriləmələr Azərbaycanın iqtisadi təhlükəsizliyi üçün heç bir problem yaratmır. Ancaq bu geriləmələrin qarşısının alınması üçün müvafiq tədbirlər görülməsə yaxın gələcəkdə ölkəmizin həm demoqrafik, həm də iqtisadi təhlükəsizliyi sahələrində problemlər yarana bilər. Ölkəmizin demoqrafik və iqtisadi təhlükəsizliyinə maneə yarada biləcək təhdidlərin aradan qaldırılması, əhalinin normal həyat fəaliyyətinin, iqtisadi subyektlərin və sosial sferaya daxil olan sahələrin səmərəli fəaliyyətinin təmin edilməsi, bütün səviyyəli idarə etmə orqanlarının birgə, kompleks fəaliyyətini tələb edir. Bunun üçün, ilk növbədə, demoqrafik proseslərin dövlət tərəfindən səmərəli tənzimlənməsinə mane olan aşağıdakı halların aradan qaldırılması üçün təsirli tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- əmlak sahəsində əhalinin mövcud differensasiya səviyyəsinin minimuma endirilməsi;
- regionların sosial-iqtisadi inkişafındakı mövcud disproporsiyaların aradan qaldırılması, regionların iqtisadi inkişafı üçün səmərəli tədbirlərin həyata keçirilməsi;
- hüquq-mühafizə orqanları sisteminin fəaliyyətinin təkmilləşdirilməsi, korrupsiyanın aradan qaldırılması üçün real tədbirlərin həyata keçirilməsi.

Qeyd edilənlərlə yanaşı, demoqrafiya sahəsində meydana çıxa biləcək problemlərin həlli üçün müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilə bilər. Bu məqsədlə:

- ailə institunun gücləndirilməsinə xüsusi diqqət yetirilməli və dövlətin demoqrafik siyasəti bu istiqamətə yönəldilməlidir;

- ölkənin gələcək iqtisadi inkişafının prioritet layihələri çərçivəsində demoqrafik siyasət konsepsiyası hazırlanmalı və reallaşdırılmalıdır. Maliyyə xərclərinin iqtisadi əsaslandırılması, həmçinin nəzərdən keçirilən layihələrin əsas istiqamətlərinin müəyyənləşdirilməsi üçün bu prosesə geniş mütəxəssis kütləsi, eləcə də, müvafik dövlət orqanlarının işçiləri cəlb edilməlidir;

- dövlət orqanlarının demoqrafik siyasət sahəsində fəaliyyətinə informasiya və analitik dəstək verilməli, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin səmərəli əlaqələndirilməsi metodları işlənməli, seçilmiş layihələrin həyata keçirilməsi ardıcıl şəkildə yaxşılaşdırılmalıdır.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. http://www.e-qanun. az/ alpidata /framework/data/5/f_5277.htm

2.Azərbaycan əhalisi. Statistik məcmuə. ADSK, Bakı, 2017. 134 səh.

3.Azərbaycan əhalisi. Statistik məcmuə. ADSK, Bakı, 2019. 134səh.

4.Azərbaycanın demoqrafik göstəriciləri.Statistik məcmuə. ADSK, Bakı, 2017. 472 səh.

5.Azərbaycanın demoqrafik göstəriciləri.Statistik məcmuə. ADSK, Bakı, 2019. 512 səh.

6.Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2003. 790 səh.

7. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2006. 801 səh.

8.Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2017. 813 səh.

9. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. ADSK, Bakı, 2019. 782səh.

10. Демографическая безопасность: теория, методология, оценка. https:// cyberleninka.ru /article/n/demograficheskaya-bezopasnost-teoriya-metodologiya-otsenka

11. Демографическая ситуация в стране и её влияние на экономическую безопасность Российской Федерации. https://riorpub.com/ru/nauka/conference_article/2119/view

Резюме

Əliyev T.Q., Əliyeva Ş.T.

Демографическая безопасноть как елемент экономической безопасности

В статье отображается, что существует закон гармонизации социально-экономического и демографического развития общества во всем мире, и на основе этого есть тесная связь между динамикой количественных и качественных характеристик населения и динамикой ВВП и другими социально-экономическими параметрами. Экономическая безопасность и демографическая ситуация в каждой стране взаимозависимы, поэтому эти концепции следует рассматривать в соотношении друг друга, а экономическая безопасность также должна охватывать и демографическую безопасность. В статье также анализируются показатели, характеризующие демографическую ситуацию в Азербайджане и приводятся предложения по обеспечению демографической безопасности.

Ключевые слова: *демографическая безопасность, экономическая безопасность, демографическая политика, демографическая ситуация, предложения*

Summary

Aliyev T.Q., Aliyeva SH.Q.

Demographic Safety as an Element Economic Security

The article shows that there is a law of harmonization of the socio-economic and demographic development of society throughout the world, and on the basis of this there is a close relationship between the dynamics of quantitative and qualitative characteristics of the population and the dynamics of GDP and other socio-economic parameters. Economic security and the demographic situation in each country are interdependent, so these concepts should be considered in relation to each other, and economic security should also cover demographic security. The article also analyzes indicators characterizing the demographic situation in Azerbaijan and offers suggestions on ensuring demographic security

Key words: *demographic security, economic security, demographic policy, demographic situation, proposals*

İQTİSADİ TƏHLÜKƏSZLİYİN TƏMİN OLUNMASINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ROLU

Əliyeva A.Ə.

AMEA-nın İdarəetmə Sistemləri İnstitutu

aygunaliyeva@isi.az

Xülasə: *Məqalədə iqtisadi təhlükəsizliyin təmin olunmasında dövlət tənzimlənməsinin roluna baxılmışdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi milli iqtisadiyyatın inkişafının mühüm amilidir. Aparılmış təhlil əsasında əsas problemlər müəyyənləşdirilmiş, eyni zamanda elmi baxımdan əsaslandırılmış nəticələr və təkliflər verilmişdir.*

Açar sözlər: *iqtisadi təhlükəsizlik, makroiqtisadi göstəricilər, iqtisadi siyasət, iqtisadiyyat, rifah iqtisadiyyatı, iqtisadi liberalizm*

Müasir qloballaşan dünyada iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə hər bir dövlətin bu sahədə səmərəli iqtisadi tənzimlənmə proseslərinə xüsusi diqqət yetirməsi daim aktual hesab olunur. Belə ki, iqtisadi inkişafın təmin olunmasında iqtisadi təhlükəsizliyin yüksək səvyyədə qorunması zəruri şərtdir. Beynəlxalq təcrübə onu göstərir ki, bütün dövlətlərin iqtisadiyyatda iştirak payı iqtisadi təhlükəsizlik göstəriciləri ilə təyin olunur. Milli iqtisadiyyatda dövlətin rolunun artması, yaxud da azalmasına isə əksər hallarda birtərəfli dövlət mülkiyyətinin xüsusi çəkisi nəzərə alınmaqla yanaşılır. Bəzən inkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsi prosesi bank sisteminin, əmtəə, fond, valyuta birjalarının, bütün səviyyələrdə büdcələrin, vergilərin və s. vasitəsilə də həyata keçirilə bilər. Ümumiyyətlə, milli iqtisadiyyatın mərkəzləşmiş qaydada tənzimlənməsi prosesi məqsədəuyğun iqtisadi nəticələrin əldə edilməsi məqsədilə reallaşdırılır. Eyni zamanda milli iqtisadi sahələrin fəaliyyətinin dövlət tənzimlənməsi səmərəli iqtisadi siyasətlə də təmin olunur.

Aparılmış təhlillər onu göstərir ki, postsovet məkanı dövlətlərində aşağıdakı meyillər daha çox mövcuddur: son illər bütün iqtisadi sahələr üzrə dövlət mülkiyyətinin xüsusi çəkisi tədricən azalmaqdadır; dövlətin iqtisadi sahələr üzrə investisiya qoyuluşunda və müxtəlif növ sahibkarlıq fəaliyyətində payı da aşağı düşməkdədir; ÜDM-də sosialyönümlü dövlət xərclərinin xüsusi çəkisi artmaqdadır və s.

Nəzərə almaq lazımdır ki, makroiqtisadi göstəricilərin əksəriyyəti yüksək olsa belə, onlar müəyyən olunmuş hədd daxilində deyilsə, onda dövlətin bu sahədə həyata keçirdiyi iqtisadi siyasət səmərəli hesab olunmur [1]. Son illər tərtib olunmuş beynəlxalq reytinq hesabatları üzrə göstəricilərə və daxili ÜDM-in artımının strukturuna əsasən ölkənin hansı qrupa inkişaf etmiş yaxud inkişaf etməkdə olan və s. aid olduğunu müəyyənləşdirmək mümkündür. Beynəlxalq rəqabətlilik üzrə hesabatlarda əhalinin yoxsulluq səviyyəsi, məhsulların rəqabət qabiliyyəti, innovasiya və investisiya fəallığı, xarici borcu, istehsal potensialı, əsas fondların köhnəlməsi, iqtisadiyyatın təhlükəsizlik göstəricilərinin müəyyən olunmuş həddindən kənarlaşması göstəricilərindən də istifadə olunur ki, bunlar da zəruri hesab olunur.

Ümumyyətlə, milli iqtisadiyyatın təhlükəsizliyi ilə təkrar istehsal prosesi arasında qarşılıqlı əlaqə daha güclüdür. Hər bir ölkənin ilk öncə milli iqtisadiyyatda yeni təkrar istehsal modelinə keçməsi məqsədəuyğun şərtdir. Bundan başqa, istehsalda, bölgüdə, mübadilədə və istehlakda əsas istiqamətləri müəyyən etmək zəruridir. Xarici iqtisadi elmi ədəbiyyatlarda iqtisadi siyasət sahəsində müsbət («pozitiv») və normativ («rifah») iqtisadiyyat anlayışlarından istifadə edirlər. "Müsbət" iqtisadiyyat dedikdə dövlət siyasətinin nəticələrinin təhlil olunmasını, "normativ" iqtisadiyyat dedikdə isə konkret dövlət strategiyasının məqsədəuyğunluğu haqqında nəticə çıxarılması nəzərdə tutulur. Qeyd edək ki, "müsbət" iqtisadiyyatda həm də dövlət bölməsinin fəaliyyətinə qiymət verilməsi, "normativ" iqtisadiyyatda isə müxtəlif proqramların nə dərəcədə uğurla yerinə yetirilməsinin qiymətləndirilməsi zəruri hesab edilir [3].

Təhlildən də göründüyü kimi, iqtisadi siyasətin subyektləri mənafelərin daşıyıcıları, ifadəçiləri və icraçıları hesab olunur. Bundan başqa, mənafelərin daşıyıcılarına bir sıra əlamətlərinə (əmlak, gəlir, fəaliyyət növləri, peşələr, sahələr, regionlar üzrə mənafelər) görə bir-birindən fərqlənən sosial qruplar aiddir. Bunlar muzdlu işçilərdən və müəssisə sahiblərindən, fermerlərdən və torpaq mülkiyyətçilərindən, kiçik və iri sahibkarlardan, idarəedicilər və səhmdarlardan, dövlət qulluqçularından və s. ibarətdir. Nəzərdə tutulan qruplardan hər birinin özünün mənafelərinin mövcud olmasını da qeyd etmək lazımdır.

Ümimuyyətlə, milli iqtisadiyyatın dövlət tənzimlənməsi obyektlərinə sahələr, regionlar, habelə ölkənin sosial-iqtisadi həyatını səciyyələndirən şərait, hadisə və şərtlər daxildir. Qeyd edlən iqtisadi sahələrdə müəyyən çətinliklər, ziddiyyətlər yarana bilər. Bu zaman dövlət tənzimlənməsinin köməyilə onlar aradan qaldırılır. Həyata keçirilən milli tədbirlər iqtisadiyyatın normal fəaliyyət göstərməsi və iqtisadi sabitliyin qorunub saxlanmasına tam imkan verir. İqtisadi liberalizm iki başlıca tərkib hissədən: qanunla müdafiə olunan xüsusi mülkiyyət hüququ və qərarların müstəqil qəbul edilməsindən ibarət olan iqtisadi azadlıq deməkdir. Onların arasındakı nisbət müəyyən dövrlə dəyişə bilir [4].

Bütün ölkələrdə, demək olar ki, hər gün dövlətin iqtisadiyyata müdaxiləsi səviyyəsi artmaqdadır. Müasir dünyada iqtisadi istehsal və xidmət sahələri artıq genişlənməyə başlamışdır. Artıq innovativ inkişaf sürətlənmiş, bir sıra yeni innovasiyalı istehsal və xidmət sahələri yaranmağa başlamışdır. Nəticədə, bu proseslər makroiqtisadi proporsiyaların qorunub saxlanmasını, iqtisadi sahələrin əlaqələndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini zəruri etmişdir. Müvafiq olaraq ümumi istehsal və xidmət bazarları üzrə inhisarçı strukturların sayı da artmağa başlamışdır. Belə bir şəraitdə dövlətlər azad rəqabət mühitini təmin etmək üçün antiinhisar qanunvericiliyi işləyib həyata keçirirlər. Məhz sosial siyasətin həyata keçirilməsi üçün də milli iqtisadiyyatın dövlət tənzimlənməsi vacibdir. Beləliklə, dövlətin tənzimləmə siyasətinin zəruriliyi ön plana çıxır. Müasir bazar münasibətləri şəraitində ölkənin iqtisadi təhlükəsizliyinin təmini artıq qaçılmaz olur.

Məsələn, Azərbaycanda son illər iqtisadi təhlükəsizliyin qorunması məqsədilə həyata keçirilən iqtisadi siyasətin aşağıdakı istiqamətlərini göstərmək mümkündür: iqtisadiyyatın sabitləşdirilməsi siyasəti; sosial siyasət; ümumi iqtisadi tarazlıq siyasəti və s. Ümumiyyətlə, milli iqtisadiyyatın sabitləşdirilməsi siyasəti böhran şəraiti üçün səciyyəvidir. Bu siyasət mənfi təbii proseslərin dayandırılmasına, idarəetmənin yaxşılaşdırılmasına, tənəzzülün qarşısının alınmasına yönəldilir [2].

Aparılmış təhlildən də göründüyü kimi, sosial siyasət yüksək inkişaf səviyyəsinə nail olmuş ölkələrdə daha çox nəzərə alınır və milli iqtisadi sahələrlə qarşılıqlı əlaqə təmin olunmaqla həyata keçirilir. Nəzərə almaq lazımdır ki, ümumi iqtisadi tarazlıq siyasəti qiymətlərin sabitləşdirilməsinə nail olunmasına, onun hər il 1%-dən çox artmasına yol verilməməsinə (əslində qiymətlər bu səviyyədən çox da ola bilər) yönəldilir. İnkişaf etmiş ölkələrdə dövlətin iqtisadi siyasəti öz əksini dövlət büdcəsinin strukturunda, məqsədli dövlət proqramlarında, dövlət sifarişlərində, sosial müdafiə parametrlərində, kreditləşdirmə şərtlərində, vergiqoymada, ixrac və idxala dövlət tərəfindən təsiretmədə, xarici və daxili dövlət borcunda və s. tapır ki, bu təcrübənin ölkəmizdə də nəzərə alınması məqsədəuyğundur [4]. Postsovet məkanı ölkələrində isə iqtisadi siyasətin həyata keçirilməsi üçün daha çox aşağıdakı vasitələrdən istifadə edilir: fiskal və pul-kredit alətləri, bir sıra məhsullar üzrə qiymətlərin satiş həddinin müəyyən edilməsi, bəzi fəaliyyət növlərinə qadağa qoyulması və ya məhdudlaşdırılması, indikativ planlaşdırma, müəssisələrdə birbaşa planlaşdırma, ixrac-idxal tariflərindən, gömrük rüsumlarından, əmtəələrin və kapitalın ölkəyə gətirilməsi və ölkədən çıxarılması üçün kvota həddlərinin müəyyənləşdirilməsi və s [3].

Sonda qeyd etmək lazımdır ki, Azərbaycanda iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsini ifadə edən göstəricilərin yaxşılaşdırılması sahəsində dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər, ilk növbədə, makroiqtisadi göstəricilərin dayanıqlılığının təmin olunması istiqamətində olmalıdır. Nəticədə, yaxın illərdə ölkəmizin beynəlxalq reytinq hesabatlarında mövqeyi daha da irəliləyə bilər. Məhz buna görə Azərbaycanda də bu istiqamətdə dövlət səviyyəsində məqsədəuyğun tədbirlərin davamlı olaraq həyata keçirilməsi zəruridir.

Ədəbiyyat

1. Hüseynova A.N. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: Elm və təhsil, 2013, 385 s.

2. Abdullayev K.N. İqtisadi təhlükəsizliyin təmin olunmasında rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması və inkişafı məsələləri // Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi // Beynəlxalq elmi-praktiki konfransın materialları. Azərbaycan Kooperasiya Universiteti, AMEA İqtisadiyyat İnstitutu, Bakı: Kooperasiya nəşr., 2012, 241 s.

3. Гордиенко Д.А. Основы экономической безопасности государства. М.: Финансы и статистика, 2009. 221 с.

4. Экономическая безопасность. Под ред. д.э.н., профессора В.А.Богомолова, М.: ЮНИТИ, 2010, 295 с.

Резюме

Алиева А.А.

Роль государственного регулирования в обеспечении экономической безопасности

В статье рассматривается роль государственного регулирования в обеспечении экономической безопасности. Практика развитых стран показывает, что обеспечение экономической безопасности является важным фактором развития национальной

экономики. На основе исследования выявлены основные проблемы, а также даны научно обоснованные выводы и предложения.

Ключевые слова: *экономическая безопасность, макроэкономические показатели, экономическая политика, экономика, экономика благосостояния, экономический либерализм*

Summary

Aliyeva A.A.

The Role of State Regulation in Ensuring Economic Security

The article considers the role of state regulation in ensuring economic security. The practice of developed countries shows that ensuring economic security is an important factor in the development of the national economy. On the basis of the study, the main problems are identified, and scientific conclusions and suggestions are given.

Key words: *economic safety, macroeconomic indicators, economic policy, economy, well-being economy, economic liberalism*

AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNDƏ XARİCİ ÖLKƏ TƏCRÜBƏSİ

Fərhadi Püstə Oruc qızıakı
Bakı Biznes Universiteti
emin.turant1@gmail.com

Xülasə: *Məqalədə iqtisadiyyatın modernizasiyası, onun məqsəd və vəzifələrinin səmərəli həyata keçirilməsi, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi, Konsepsiyada ixracyönümlü iqtisadi modelin əsas götürülməsi, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft ixracının artımı və s. məsələlər öz əksini tapmışdır. Bundan başqa, məqalədə sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi məsələlərinə baxılmış, bu da ölkəmizin gələcək inkişafı üçün geniş imkanlar açmışdır.*

Açar sözlər: *iqtisadiyyat, kənd təsərrüfatı, aqrar sahə, rəqabət, tənzimləmə, məhsul, keyfiyyət, xarici təcrübə.*

Azərbaycan XX əsrin ikinci yarısından başlayaraq kənd təsərrüfatı ölkəsindən aqrar-sənaye dövlətinə çevrildi və XXI əsrdə neft bumunun təsiri altında yeni sənayeləşmə mərhələsinə qədəm qoydu. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan yeni sənayeləşmə prosesi öz bəhrəsini verməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ili "sənaye ili" elan etməsi sənayenin resurslara deyil, səmərəliliyə əsaslanan inkişaf xəttinin seçilməsinin göstəricisidir. Azərbaycan iqtisadiyyatının modernizasiyası sənayeləşmə və elektronlaşmanın üzərində dayanıb. İqtisadi modernizasiya düşüncə və davranış tərzi, institusional mühit və texnoloji səviyyənin təkmilləşmə prosesidir [1, s. 40].

İqtisadiyyatın modernizasiyası, onun məqsəd və vəzifələrinin səmərəli həyata keçirilməsi üçün ölkədə dövlət başçısının 2012-ci il 29 dekabr tarixli fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiq edilmişdir. Konsepsiyada ixracyönümlü iqtisadi model əsas

götürülmüş, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft ixracının artımı və s. nəzərdə tutulmuşdur.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması ölkəmizdə həyata keçirilən islahatlar bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaratmışdır. Son onillikdə Azərbaycanda makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunmuş, yoxsulluğun azaldılmasında və əhalinin sosial rifahının yüksəldilməsində ciddi uğurlar qazanılmışdır. Bütün bunlarla bərabər, sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi ölkəmizin gələcək inkişafı üçün geniş imkanlar açmışdır [2, s. 359] .

Kənd təsərrüfatı məhsuldar qüvvələrin inkişafı baxımından iqtisadiyyatın geridə qalan və daha sabit sahəsi hesab olunur. Bunu nəzərə alaraq inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı, dövlət tərəfindən himayə olunur və inkişaf etdirilir. Bu zaman əsas vəzifə kənd təsərrüfatında iqtisadi sabitliyi saxlamaqdan, gəlirin dəyişkənliyini və bazar konyunkturasını stabilləşdirməkdən, arzu olunmayan miqrasiya prosesinin qarşısını almaqdan, ərzaq təhlükəsizliyini təmin etməkdən, daxili bazarı qorumaqdan da beynəlxalq əmək bölgüsündə milli istehsalçıların rəqabətqabiliyyətliliyini təmin etməkdən ibarət olur. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatını müdafiə məqsədilə həyata keçirilən tədbirlər məqsədinə görə qruplaşdırılır. Onlardan bəzilərinə nəzər salaq.

1. İstehsalçıların gəlirini müdafiə tədbirləri. Burada istehsalın yenidən təşkil edilməsi ilə əlaqədar və təbii fəlakət nəticəsində dəyən zərərə görə kompensasiya ödənilməsi nəzərdə tutulur.

2. Qiymətə təsir etmək. Bu tədbirlərdə ərzaq bazarına təsir göstərmək məqsədilə həyata keçirilir. Bu zaman kənd təsərrüfatı məhsullarının qiymətlərində köməklik göstərilir, lazımi səviyyədə saxlanması üçün tədbirlər həyata keçirilir və bu məqsədlə kvotalar müəyyən edilir və ərzaq məhsullarının idxalına və ixracına vergi təyin olunur.

3. Xərclərin kompensasiya olunması. Bura istehsal vasitələri - toxum, yem, gübrə və zəhərli maddələr alan məhsul istehsalçılarını subsidiyalaşdırma, həmçinin alınan kredit üzrə faiz ödənişlərini və əmlakın sığortalanması ilə əlaqədar maliyyə köməkliyini nəzərdə tutan tədbirlər daxildir.

4. Bazarın inkişafına təsir etmək. Bu qrup tədbirlər sistemi bazar proqramlarının hazırlanmasına və həyata keçirilməsinə, məhsulların saxlanılmasına və daşınmasına çəkilən xərclərin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulur.

5. İstehsal infrastrukturunun inkişafına təsir etmək. Buraya istehsalın səmərəliliyini artırmaq üçün uzun müddətli tədbirlərin həyata keçirilməsinə büdcə vəsaitinin ayrılmasını, eyni zamanda təsərrüfat əhəmiyyətli binaların tikilməsinə, irriqasiya layihələrinin həyata keçirilməsinə, torpaqların yaxşılaşdırılmasına və fermer təşkilatlarının yaradılmasına köməklik göstərilməsini nəzərdə tutan tədbirlər daxildir.

6. Regional proqramların həyata keçirilməsi. Bu tədbirlərdə istehsalın inkişaf etdirilməsi üçün dövlət proqramlarının həyata keçirilməsi nəzərdə tutulur. Bu cür dövlət köməkliyi üzrə tədbirlər ABŞ-da, Kanadada və Avropa İttifaqına daxil olan ölkələrdə geniş həyata keçirilir.

7. Makroiqtisadi siyasət. Bu tədbirlər sistemi güzəştli vergi siyasətinin həyata keçirilməsini və xarici ticarət fəaliyyətinə köməklik göstərilməsini nəzərdə tutur. Sadalanan sahələr kənd təsərrüfatı ilə bilavasitə əlaqədar deyil, lakin onun səmərəliliyinə ciddi təsir göstərir. ABŞ-da kənd təsərrüfatı istehsalına dövlət köməkliyinin 24 %-ni, Kanadada 21%-ni birbaşa verilən subsidiyalar təşkil edir. Maliyyə yardımının qalan hissəsi dolayı köməkliklərdən ibarətdir. Avropa İttifaqı ölkələrində istehsalçıya göstərilən dolayı köməkliyin məbləği daha yüksəkdir. Büdcə vəsaitinin çox hissəsi qiymətlərin tənzimlənməsinə ayrılır. ABŞ-da qiymətlərin tənzimlənməsinə sərf olunan vəsait

kənd təsərrüfatına ayrılan büdcə vəsaitinin 48%-ni, Kanadada 53%-ni və Avropa İttifaqı ölkələrində isə 91%-ni təşkil edir [5, s. 204].

İnkişaf etmiş, 24 Qərbi Avropa ölkəsinin yaratdığı "İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı"nın hazırladığı metodikaya uyğun olaraq hər il hər məhsul üçün istehsalçıları subsidiyalaşdırma ekvivalenti deyilən göstərici müəyyən olunur. Bu, hər hansı növ məhsul istehsalına dolayı və birbaşa göstərilən maliyyə vəsaitini həmin məhsulun bölməklə hesablanır. Həmin ölkələrdə bütövlükdə məhsulların istehsalına ayrılan subsidiyaların 30-3 %-i buğda, 29-30%-i süd, 21-33%-i mal və buzov əti istehsalına sərf olunur. İnkişaf etmiş Avropa ölkələrində kənd təsərrüfatı istehsalına ayrılan vəsait kənd təsərrüfatından daxil olan ödənişlərdən 9 dəfə, qiymət subsidiyaları da daxil edildikdə isə 18 dəfə çoxdur.

ABŞ-da Kənd Təsərrüfatı Nazirliyinin funksiyası çox müxtəlifdir. Nazirlik hər bir kənd təsərrüfatı məhsullarını təminatlı qiymətlərlə almaq üçün proqram hazırlayır. Həmin qiymətlərlə təsərrüfatlarda səmərəliliyin minimum səviyyəsi təmin olunur. Məhsuldarlıq artdıqda və təklif tələbatdan çox olduqda bazar qiymətlərin səviyyəsi azalır və bu zaman dövlət artıq məhsulları alır və yaxud fermerlərin hesabına uzun müddət saxlayır və ya ixrac etmək üçün tədbirlər görür. Qiymətlər qalxdıqda ehtiyat məhsullar bazara çıxarılır və bununla qiymətlər aşağı salınır. Belə qiymət siyasəti Avropa İttifaqı ölkələrində də aparılır. İnkişaf etmiş bütün ölkələrdə hökumət həm də ifrat istehsala qarşı mübarizə aparır və onu mümkün olan bütün azalmalardan sığortalayır, eyni zamanda əmtəə istehsalçılarının kənddən şəhərə getməsinin qarşısını alır.

ABŞ-da 2002-2008-ci illərdə kənd təsərrüfatının maliyyələşdirilməsi üçün qanun imzalamışdır. Qanunda fermerlərə və ətraf mühitə qayğı göstərmək, istehsalçıları ucuz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etməyə dair müddəalar nəzərdə tutulmuşdur. "Fermerçilik haqqında" qanun fermerlərə külli miqdarda vəsait ayrılmasını nəzərdə tutur. Kənd təsərrüfatı üçün nəzərdə tutulan kompleks yardımın tərkibi üç elementdən ibarətdir:

1. Birbaşa ödənişlər. Yeni qanunla ölkədə tətbiq edilən "birbaşa" ödəniş sistemi saxlanılmış, üstəlik, siyahıya soya və yağlı bitkilər üzrə həmin köməkliyin göstərilməsi də əlavə edilmişdir. Ödənişi hesablamaq üçün bitki məhsullarının əvvəlki qiymətləri olduğu kimi saxlanılmışdır. Ölkədə hər ton məhsula görə bazis qiyməti buğda üçün 16,5-19,4 dollar, qarğıdalı üçün 10,6-11,79 dollar, arpa üçün 9,7-11,4 dollar, soya üçün 15,4-20,1 dollar və yağlı bitki məhsullarının bazis qiyməti hər ton üçün 16,2-22 dollar təşkil edir. Qanunla əkin sahələrinin mütəhərrikliyi prinsipi də olduğu kimi saxlanılmışdır, yəni əvvəlki qanunda nəzərdə tutulduğu halda, torpaq sahəsinin mövcud vəziyyəti qiymətləndirilmədən ona maliyyə yardımı tətbiq edilir.

2. Kreditləşdirmə norması. Yeni qanunla qiymətlərin minimum səviyyəsini təmin etmək üçün kredit norması kənd təsərrüfatı məhsulları istehsalçıları üçün əlverişli həddə müəyyən edilir. Dövlət zəruri hallarda istehsal olunan məhsulları kredit verir və qiymətləri stabilləşdirir. 2002-ci il qanunu ilə qiymətlərin səviyyəsi kreditləşdirmə ilə xeyli yüksəldilmişdir. İndi ölkədə hər ton məhsula görə minimum qiymət səviyyəsi buğda üçün 94,6-110,0 dollar, qarğıdalı üçün 74,2-81,7 dollar, arpa üçün 75,6-91,7 dollar və yağlı bitki məhsullarının hər tonu üçün minimum qiymət səviyyəsi 191,4-209,0 dollar təşkil edir.

3. Mövsümilik əleyhinə məqsədli qiymətlər. 2002-ci il qanunu ilə məqsədli qiymətlər yenidən bərpa olunmuşdur. Bu, mövsümün əvvəlində kənd təsərrüfatı məhsullarına dövlət tərəfindən ilkin qiymətləri təyin etməkdən ibarətdir. Mövcud bazar qiymətləri kredit norması ilə müəyyən edilən məqsədli qiymətlərdən aşağı olduqda fermerlərə fərq ödənilir. Ölkədə mövsümilik əleyhinə hər ton məhsula görə buğda üçün 126,5-148,1 dollar, qarğıdalı üçün 92,3-109 dollar, arpa üçün 100,8-109,5 dollar və yağlı bitki məhsulları üçün 227,9-231 dollar məqsədli qiymət təyin

edilmişdir. Bu qiymətlər mövcud bazar qiymətlərindən xeyli yüksəkdir. Fermerlər üçün nəzərdə tutulan vəsaitin 35 faizi onlara cari payız aylarında, 35 faizi fevral ayında və qalan məbləğ isə ilin axırında satış qurtardıqdan sonra verilir. Mövcud odəniş sisteminə və müəyyən olunan məqsədli qiymətlərə görə Amerika fermerləri praktiki olaraq dünya bazarlarından təcrid olunub. Qanunla müəyyən olunan proqramı həyata keçirilmək üçün 120,3 milyard dollar vəsait ayrılmışdır. Ona 10 il müddətində daha 65 milyard dollar əlavə etmək planlaşdırılmışdır. Maliyyə yardımının üçdə ikisini 10 faiz təşkil edən iri təsərrüfatlar alır [3, s. 71].

ABŞ-da və Avropa İttifaqı ölkələrində şəkər idxalında yüksək rüsum tətbiq edilir. Yaponiyada isə öz fermerlərini düyü, ət, şəkər və taxıl məhsullarına konkret limit qoymaqla mühafizə edir. Burada düyü istehsalı onu qonşu Vyetnamdan və Tailanddan satın almaqdan 3-4 dəfə baha başa gəlir. Amma bu ölkə yerli istehsala üstünlük verir və çəkilən xərcin dövlət tərəfindən ödənilməsi təmin olunur. Dövlətin kənd təsərrüfatına köməyi ölkənin idxal və ixrac vəziyyəti ilə əlaqədardır. İdxalı ixracından çox olan ölkələrdə kənd təsərrüfatına daha çox köməklik göstərilir. Yaponiya kənd təsərrüfatı məhsulları idxal edən ən böyük ölkələrdən biridir. Amerika, Kanada, Avstraliya və Yeni Zelandiya kənd təsərrüfatı məhsulları satan ölkələr kimi tanınır. Bu ölkələrdə hər bir təsərrüfata və əkin sahəsinin hər hektarına görə maliyyə yardımı başqa ölkələrdən xeyli fərqlənir (cədvəl 8).

İnkişaf etmiş ölkələrdə məhsulun keyfiyyətinə nəzarət etmək, onu reklam etmək və elmi axtarışlar aparmaq üçün də vəsait ayrılır. Bu vəsait ABŞ-da və Avropa İttifaqı ölkələrində kənd təsərrüfatına göstərilən ümumi köməyin 1%-ni, Avstriyada 4%-ni, Finlandiya da isə 5%-ni təşkil edir. Dünyanın hər yerində kənd təsərrüfatı aşağı fondveriminə malikdir və həmişə böyük həcmdə kapital qoyuluşları tələb edir. Dünyada mövcud olan təcrübə göstərir ki, dövlət köməyi olmadan kənd təsərrüfatı səmərəli işləyə bilmir. Avropa İttifaqı ölkələrində istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyərində dövlətin göstərdiyi maliyyə köməkliyinin payı 40-50% təşkil edir. ABŞ-da isə fermerlərin əldə etdiyi gəlirin üçdən biri dövlətin hesabına formalaşır. Burada məhsul istehsalçıları 30 adda imtiyazdan istifadə edir. Dövlət tənzimlənməsində ən güclü vasitə güzəştli kreditləşdirmə hesab olunur. Bu öz şəxsi imkanları ilə çətin maliyyələşən təsərrüfatlarda optimal istehsal şəraiti yaratmaq üçün həyata keçirilir.

Cədvəl 1

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatına göstərilən dövlət köməkliyi, ABŞ dolları

Ölkələr	**Hər bir təsərrüfat üçün**	**Bir hektar əkin sahəsinə görə**
Avstraliya	4000	3
Kanada	14000	83
ABŞ	14000	69
Avropa ittifaqı ölkələri	21000	949
Yaponiya	30000	12896
Norveç	36000	2687
İsveçrə	51000	4214

Məsələn, Almaniyada orta və uzun müddətli bank kreditlərinin beşdən biri güzəştli şərtlərlə "Kənd təsərrüfatı, "Gənc fermerlər", "Kəndin yeniləşdirilməsi" və "Kənd təsərrüfatına dövlətin maliyyə köməkliyi" proqramları üzrə verilir. Güzəştli kreditləşmənin əsas prinsipi mövcud faiz dərəcəsini büdcə hesabına kompensasiya etməkdən ibarətdir. Onun tətbiq mexanizmi ayrı-ayrı ölkələrdə formalaşmış şəraitdən asılı olaraq dəyişir. Avstriyada güzəştli kredit dərəcəsi və büdcə kompensasiyası bankın faiz dərəcəsindən asılıdır, Fransada isə təsbit olunmuş güzəşt dərəcəsi tətbiq

edilir, bank dərəcəsi isə yalnız büdcə kompensasiyasının həcminə təsir göstərir. Almaniyada bu iki göstərici dəyişilir. Fransada əlverişli təbii-iqtisadi şəraitdə yerləşən məhsul istehsalçılarına 7-12 il, qalan rayonlarda mövcud olan məhsul istehsalçılarına isə 5-9 il müddətinə 300-6850 min frank məbləğində illik 3,75-8,75%-li 6 növ kredit verilir. Gənc fermerlər üçün borc dərəcəsi 2,75-4% təşkil edir. Büdcə kompensasiyasının həcmi müqavilə üzrə faiz dərəcəsi ilə güzəştli kredit dərəcəsi arasındakı fərqə görə müəyyən edilir. Müqavilə dərəcəsi isə banklar arasında keçirilən müsabiqənin nəticələrinə görə seçilir. Hazırda Fransada müsabiqədən keçən 4 bank üzrə müqavilə dərəcəsi 8,25, 8,60, 9,00 və 9,20% təşkil edir.

Güzəştli kredit növlərinin çoxluğu, onlardan istifadənin dəqiq müəyyən edilməsi və kredit verən bankları azad seçmək imkanı məhsul istehsalçıları üçün əlverişli və səmərəli xidmət növüdür. Avstriyada ölkə üzrə faiz dərəcəsi orta hesabla 9,250%, büdcə kompensasiyası isə 4,625 – 5,920 % və 4,625 – 3,330 % təşkil edir. Güzəştli investisiya krediti 10 il, mexanizasiya vasitələri almaq üçün 6 il müddətinə verilir. Güzəştli kredit kənd təsərrüfatının bütün sahələrinə tətbiq edilir. Məsələn, Avstriyada güzəştli kreditin 40%-i təsərrüfatın təşkilati quruluşunun təkmilləşdirilməsinə, 27%-i yaşayış və istehsal binalarının yenidən qurulmasına, 12%-i faizi kənd təsərrüfatı istehsalının mexanikləşdirilməsinə və 5%-i isə məhsulun ticarətinə təsir göstərmək üçün istifadə olunur. Fransada güzəştli kreditin 70%-i təsərrüfatın abadlaşdırılmasına və müasirləşdirilməsinə xərclənir. Kreditin verilmə şərtləri iqtisadi siyasətin cari tələbatına uyğun olaraq dəyişir. Ən əlverişli kredit rejimi gənc fermerlər, yeniliklər tətbiq edən təsərrüfatlar və kooperativ təşkilatlar üçün yaradılmışdır. Güzəştli kredit vermək üçün dövlət tərəfindən konkret reqlament müəyyən edilmişdir və həmin reqlamentə əsasən təsərrüfat ölçüsünə, dərəcəsinə, gəlirlilik səviyyəsinə, təsərrüfat başçısının yaşına, peşə hazırlığına görə müəyyən edilən meyarlara cavab verməlidir [4, s. 323].

Fransada güzəştli kredit almaq üçün iddiaçıdan fermer olması, iş vaxtının 50%-ni təsərrüfatda işləməsi və əldə etdiyi gəlirin yarıdan çoxunun təsərrüfatdan qazanması tələb olunur. Gənc fermerlər üçün minimum yaş həddi 21, maksimum yaş həddi isə 35 ildir. İddiaçı sahə üzrə peşə ixtisasına malik olmalı və uçot aparmağı bacarmalıdır.

Ayrı-ayrı kredit növləri üzrə şərtlər bir-birindən fərqlənir. Fransada quşçuluğa və 60 başdan çox inəyi olan təsərrüfatların müasirləşdirilməsinə kredit verilmir. Kooperativlər üçün onların üzvlərinin sayı nəzərə alınır. Kreditləşdirmə zamanı fermerlərin ödəniş qabiliyyətli olması da nəzərə alınır. Bu, bank institutları tərəfindən qiymətləndirilən ən vacib göstəricilərdən biridir. Buna görə də adətən zəmanət tələb olunur. Kredit təminatı müəyyən standartlara uyğun olaraq seçilir. Kreditin təminat növünə nisbətən məbləğini cədvəl 9-da verilib. Amerikada uzunmüddətli kredit girov götürməkdə verilir və pulu o məbləğinə görə girov götürülən dəyərin 85%-ni təşkil edir. Kredit ödəmək imkanı olmayan təsərrüfatlara isə borc tələb olunan məbləğin ən azı 97%-nə dövlət zəmanəti ilə verilir. İngiltərədə borc tələb olunan məbləğin 50%-i qədər imkana malik olan fermerlərə verilir.

Cədvəl 2

Hollandiyada kreditin təminat növünə nisbətən məbləği

Təminat növü	**Kreditin məbləği**	**Kreditin müddəti**
Torpaq və onun üzərində olan daşınmaz əmlakın girov qoyulması	Qiymət qoyulan dəyərin 60-80%-i	30-50 il
Avadanlıqlar	Qalıq dəyərin 50%-i	5 il
Mal – qara	Qalıq dəyərin 50%-i	5-10 il
Debitor borcları	Məbləğin 60%-i	Bərpa olunduğu müddət

Kredit sistemində torpağı girov götürülməklə verilən kredit-ipoteka mühüm yer tutur. İpoteka kapitalın dövriyyəsini sürətləndirir və əlavə gəlir götürməsinə imkan verir. Danimarkada kənd təsərrüfatının üzərinə düşən öhdəliklərin 75%-ni kredit təşkilatları tərəfindən maliyyələşdirilən və ipoteka ilə təmin olunan uzunmüddətli kredit təşkil edir. Ölkədə ipoteka krediti xüsusi qanunlarla tənzimlənir və ancaq kənd təsərrüfatı istehsalına xidmət edir. İpoteka kredit fondu Kənd Təsərrüfatı Nazirliyinin nəzarəti altında fəaliyyət göstərir. Kreditin məbləği, adətən, əmlakın dəyərinin 66%-dən çox olmur. Amerikada isə kredit məbləği torpaq sahəsinə qoyulan qiymətin 60 %-ni keçmir. İngiltərədə də ipoteka kreditinin məbləği fermerlərin kredit ödəmək imkanlarına görə müəyyən edilir və çox vaxt girov üçün təklif edilən əmlak dəyərinin 50%-ni təşkil edir. Əmlakın dəyəri bazar qiymətinə görə, yaxud rentanın 20 mislinə görə və ya əmlakın köhnəlməsi nəzərə alınmaqla müəyyən edilir. İpoteka kreditinin ödənilmə müddəti 5 ildən 40 ilə qədərdir. İngiltərədə belə kredit 20-30 il müddətinə verilir və hər il 2 dəfə faiz və sığorta haqqı ödənilir. Ödəniş vaxtında aparılmadıqda borc vaxtından qabaq geri alınır. Borcun vaxtından qabaq ödənilməsinə isə cərimə sanksiyası tətbiq edilir.

Kənd təsərrüfatı krediti Amerikada da geniş tətbiq olunur. Burada uzunmüddətli ipoteka kreditləri federal torpaq bankları tərəfindən verilir. Ortamüddətli kredit bankları da başqa kənd təsərrüfatı müəssisələrinin öhdəliklərini nəzərə almaqla kənd təsərrüfatı müəssisələri kreditləşdirir. Ortamüddətli kredit bankları vəsaitin 95%-ni fermerlərə qısamüddətli kredit vermək üzrə ixtisaslaşdırılmış assosiasiyalara verir. Kooperativ bankları isə yalnız fermerlərin kooperativ təşkilatlarını kreditləşdirir.

Ədəbiyyat

1. Hacıyev Q.B. Azərbaycan Respublikasında aqromarketinqin inkişafına təsir edən bəzi məsələlər haqda // Maliyyə və uçot, 2004, №12, 250 s.

2. Hacıyev Q.B. Azərbaycan Respublikasında aqromarketinqin inkişafı və onun səmərəli təşkilində informasiyanın rolu // Azərbaycan Aqrar elmi, 2004, №4-6, 400s.

3. Xeyirxəbərov İ.M. Ərzaq bazarının marketinq təhlili. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərlər toplusu. Bakı, 2004, 380s.

4. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: Nurlan, Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2004, 504 s.

5. Verdiyev Ə.Ç. Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı: Şirvannəşr, 2000, 258 s.

Резюме

Фархади П.О.

Зарубежный опыт государственного регулирования аграрной сферы

В статье описывается модернизация экономики, эффективное осуществление ее целей и задач, утверждение Концепции развития "Азербайджан 2020: Взгляд в будущее", принятие концепции на основе экспортоориентированной экономической модели, повышение конкурентоспособности и совершенствование структуры экономики, рост не-нефтяного экспорта и др. вопросы. Кроме того, в статье рассмотрены вопросы создания институтов свободной рыночной экономики и утверждения модели экономики, основанной на предпринимательском инициативе, совершенствования экономической и социальной инфраструктуры, что открыло широкие возможности для дальнейшего развития нашей страны.

Ключевые слова: *экономика, сельское хозяйство, аграрная сфера, конкуренция, регулирование, продукт, качество, внешний опыт.*

Summary
Farhadi P.O.
Foreign experience of state regulation of the agricultural sector

In the article, the modernization of the economy, the effective implementation of its goals and objectives, approval of the concept of development "Azerbaijan 2020: vision for the future", taking into account the export oriented economic model in the concept, improving the competitiveness and structure of the economy, the growth of non-oil sector, etc. issues are reflected. In addition, the article considered the establishment of free market economy institutions and establishment of economic model based on entrepreneurship, improvement of economic and social infrastructure, which opened wide opportunities for the future development of our country.

Key words: *economics, agriculture, agrarian sector, competition, regulation, product, quality, foreign experience.*

AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ SİSTEMİ

Hacıyeva Zülfiyyə Elman qızı
Sumqayıt Dövlət Universiteti
zulfiya.haciyeva.2015@mail.ru

Xülasə: *Məlumdur ki, hər bir ölkənin ərzaq təhlükəsizliyi aqrar sahənin inkişafı ilə bağlıdır. Aqrar sahənin inkişafı xeyli dərəcədə dövlət tənzimlənməsi səviyyəsindən asılıdır. Bu baxımdan hazırlanmış tezisin mövzusu aktuallığı ilə seçilir. Məqalədə dövlət tənzimlənməsinin əsas məqsədləri açıqlanmış, həmin məqsədlərin yönəldiyi üç əsas sahə müəyyən edilmiş, aqrar sahənin dövlət tənzimlənməsi tədbirləri nəzərdən keçirilmişdir. Həmçinin, aqrar sahənin dövlət tənzimlənməsinin birbaşa və dolayı metodları haqqında məlumat verilmişdir.*

Açar sözlər: *aqrar sahə, aqrar siyasət, kənd təsərrüfatı, dövlət tənzimlənməsi, məhsul, istehsal*

Aqrar sahə kənd yerlərinin davamlı inkişafı ilə bağlıdır və iqtisadi, ekoloji, sosial, mədəni, demoqrafik, coğrafi və digər amillər də daxil olmaqla müəyyən sosial əlaqələrin bir növüdür. Əlbəttə ki, kənd yerləri yalnız aqrar sahədə davamlı artım, istehsal və sosial infrastrukturun mövcudluğu, resurs potensialından səmərəli istifadə, kənd təsərrüfatının çoxfunksiyalılığı və diversifikasiyası ilə dinamik inkişaf edir.

Aqrar sahənin inkişafının tənzimlənməsi dövlət səviyyəsində onun funksional məqsədini həyata keçirmək üçün hökumət tərəfindən əlverişli kənd şəraitinin iqtisadi, təşkilati, sosial, hüquqi və siyasi dəstəyi, eləcə də kənd əhalisinin keyfiyyətinin və həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş inkişafıdır. Bu, aqrar sektorun dövlət tənzimlənməsində tətbiq olunan və geniş istifadə olunan bir sıra tədbirlərin həyata keçirilməsi ilə həyata keçirilir.

Aqrar-sənaye istehsalının dövlət tənzimlənməsi vəzifələri bu sahə istehsalının sabitləşməsi və inkişafı, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin ərzaq təchizatının yaxşılaşdırılması, kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasındakı iqtisadi bərabərliyi təmin etmək, kənd təsərrüfatı və sənaye işçilərinin gəlir səviyyələrini birləşdirmək, aqrotexnika istehsalında yerli istehsalçıları qorumaqdır.

Ölkənin aqrar sahənin dövlət tənzimlənməsi sistemi iki əsas alt sistemdən ibarətdir: aqrar sahədə bazar mexanizminin dövlət koordinasiyasının alt sistemi və aqrar sahəyə dövlət dəstəyinin alt sistemi.

Aqrar sahədə bazar mexanizminin dövlət koordinasiyası çox əsaslı iyerarxik strukturdur. Əsas elementləri aşağıdakılardır: əmtəə və satınalma müdaxilələri, girov əməliyyatları, istehsal kotaları, qoruyucu və hədəf qiymətləri, topdan ərzaq bazarları sistemi, banklar və birjalar sistemi, informasiya sistemi, hüquqi mexanizm və s.

Ümumiyyətlə, dövlət tənzimlənməsinin məqsədləri üç sahəyə yönəldilə bilər:

- iqtisadiyyatın ümumi vəziyyətindəki dəyişiklikləri ilə əks olunan bir dövlətin və ya bölgənin iqtisadiyyatının inkişafını nəzərdə tutan iqtisadi artımın təmin edilməsi. Bu, istehsalın, əmək məhsuldarlığının artmasını, strukturun gücləndirilməsini nəzərdə tutur;
- əmtəə qiymətlərinin sabitliyinin, hiperinflyasiyanın qarşısının alınmasının, büdcə və xarici ticarətdə gəlir və xərcləri balanslaşdırılmasının, geniş büdcə kəsirlərinin, xarici borcun və ya xarici ticarətdə passiv balansın yaranmasına mane olan iqtisadi sabitliyin təmin edilməsi.
- iqtisadi ədalətin əldə olunması. Bu, ictimai zənginliyin ədalətli paylanması deməkdir, lakin dövlətin iqtisadi funksiyalarının məqsədlərindən biri kimi, o, cəmiyyətin üzvləri arasında gəlirlərin ədalətli bölüşdürülməsini nəzərdə tutur [3].

Dövlətin iqtisadi rolu isə aşağıdakı əsas funksiyalarla təmin edilə bilər:

- iqtisadi qanunvericiliyin inkişafı, bazar iqtisadiyyatının effektiv fəaliyyətinə şərait yaradan hüquqi baza və sosial mühitin təmin edilməsi;
- rəqabətin dəstəklənməsi və bazar mexanizminin qorunması;
- əsasən sosial təminat məqsədi ilə gəlir və maddi yardımların yenidən bölüşdürülməsi
- ehtiyacı olan müxtəlif sosial qrupların təminatı və qorunması;
- milli məhsulun strukturunu dəyişdirmək üçün resursların ayrılmasının tənzimlənməsi;
- iqtisadi şəraitin dəyişməsi kontekstində iqtisadiyyatın sabitləşdirilməsi, eləcə də iqtisadi artımın stimullaşdırılması.

Bütün bu funksiyalar bir tərəfdən bazar iqtisadiyyatının fəaliyyətinin saxlanmasına və asanlaşdırılmasına, digər tərəfdən isə bazar sisteminin hərəkətlərini düzəltməyə və dəyişməyə yönəldilir, o cümlədən onun mənfi tərəflərini neytrallaşdırır.

Hökumətin aqrar sahənin inkişafına tənzimləyici təsir növləri demək olar ki, bütün ölkələrdə ən tanınmış və fəal şəkildə istifadə olunur. Həmin təsir vasitələrinə kreditləri, kompensasiyaları, subsidiyaları, qiymətləri, vergiləri və s. aid etmək olar.

Bütövlükdə, geniş mənada aqrar sahənin dövlət tənzimlənməsi tədbirləri qiymət, tarif və gömrük, kredit, sığorta, büdcə və vergi siyasətini əhatə edən bir sistemə əsaslanır. Optimal birləşmə halında, bu vasitələr aqrar sahədə sinergetik təsir yaradır. Ancaq "tənzimləmə" konsepsiyası tez-tez "dəstək" anlayışı və əksinə əvəz olunur. Bu baxımdan qeyd edək ki, dövlət dəstəyi aqrar sahədə tənzimlənmənin bir hissəsidir, onun vasitələrindən biri kimi çıxış edir və ümumiyyətlə, kənd təsərrüfatı sektorunun və xüsusilə kənd təsərrüfatının inkişafı ilə bir araya gələrək iqtisadi tənzimləmə tədbirləri sistemini təmsil edir [1].

Bu tənzimləmənin əsas prinsipləri arasında ölkənin qida təhlükəsizliyini təmin etmək üçün əsaslardan biri olan rasional əkinçiliyin qorunması; iqtisadi və sosial məqsədlərin birləşməsi; proqrama hədəflənən tənzimləmə; aqrar sahədə və iqtisadiyyatın digər sahələrində qiymət və gəlirlərin bərabərliyinin yaradılması və saxlanması; kənd təsərrüfatı istehsalçılarına zəmanətli dövlət dəstəyi; dövlət tənzimlənməsinin tətbiqinə fərqli yanaşma; dövlət tənzimləməsinin motivasiya yönümlü olması, resursların ən səmərəli istifadəsi və s. qeyd etmək lazımdır.

Aqrar sahənin dövlət tənzimlənməsi üçün birbaşa (inzibati) və dolayı (iqtisadi) tənzimləmə metodları tətbiq olunur.

Birbaşa üsul inzibati və hüquqi tənzimləmədir. Dolayı üsul, dövlətin birbaşa iştirakı olmadan bazar tənzimlənməsinə təsir göstərən bir üsuldur (qiymət tənzimlənməsi, maliyyə, vergi, kredit siyasəti, antiinhisar tənzimlənməsi, proqramların hazırlanması və həyata keçirilməsi, balans metodunun istifadəsi, kənd təsərrüfatı ehtiyaclarının həcminin və quruluşunun müəyyən edilməsi ilə bağlı tənzimləyici metod) [2].

Dövlət aqrar siyasətinin həyata keçirilməsi üçün aşağıdakı tədbirlər görülə bilər:

- kənd təsərrüfatı istehsalçılarına büdcə vəsaitinin verilməsi;
- kənd təsərrüfatı istehsalçıları üçün xüsusi vergi rejimlərinin tətbiqi;
- dövlət və bələdiyyə ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının, xammal və qida məhsullarının alınması, saxlanması, emalı və təchizatı;
- kənd təsərrüfatı məhsullarının, xammal və ərzaq bazarının tənzimlənməsi, o cümlədən gömrük, tarif və qeyri-tarif tənzimlənməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalçıları və kənd təsərrüfatı məhsullarının, xammal və qida bazarının digər iştirakçılarının informasiya dəstəyi ilə yanaşı məsləhətçi yardımı göstərilməsi;
- kənd təsərrüfatı məhsulları, xammal və ərzaq üçün bazarların antiinhisar tənzimlənməsi;
- dövlət aqrar siyasətinin formalaşdırılması və həyata keçirilməsində ictimai təşkilatların iştirakı;
- kənd təsərrüfatı məhsullarının, xammal və qida bazarında əmtəə müdaxilələrinin aparılması, habelə ölkə qanunvericiliyi ilə nəzərdə tutulmuş digər tədbirlər [4].

Ölkə əhalisinin ərzaq məhsulları ilə təmin etmək; kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarının formalaşdırılması və tənzimlənməsi, onun infrastrukturunun inkişafı; kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi; yerli və xarici bazarlarda ölkənin kənd təsərrüfatı istehsalçılarının iqtisadi maraqlarının qorunması; kənd təsərrüfatı sahəsində elmin və innovasiyaların inkişafı; davamlı kənd inkişafı; kənd təsərrüfatına kadr hazırlığı və əlavə peşə təhsili sisteminin təkmilləşdirilməsi dövlət aqrar siyasətinin əsas istiqamətləridir.

Proteksionizm siyasəti ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə, yerli istehsalın inkişafına və səmərəliliyinin stimullaşdırılmasına, aqrar sənaye kompleksinin və milli iqtisadiyyatın digər sahələrindən kənd təsərrüfatına qiymət təzyiqinin yumşaldılmasına yönəlib. Dövlət qorunması, əsasən, idxal kvotalarının yaradılması və ya gömrük tariflərinin tətbiq edilməsi yolu ilə ərzaq idxalını məhdudlaşdırmaqla bağlıdır.

Ölkənin qida təhlükəsizliyi aqrar sahənin inkişafı ilə bağlı strateji məsələlərin həlli ilə birbaşa bağlıdır. Həmin strateji məsələlərə aqrotexnika istehsalına dövlət dəstəyinin gücləndirilməsi, daxili bazarın qorunması; müəssisələrin texniki və texnoloji yenilənməsi, investisiya-innovasiya fəaliyyətinin inkişafı və s. aid etmək olar.

Beləliklə, aqrar sahənin davamlı iqtisadi artımını təmin etmək üçün bazar tənzimləmə və idarəetmə metodlarından istifadə olunmalıdır ki, bu da bilavasitə dövlətin iştirakı ilə həyata keçirilməlidir.

Ədəbiyyat

1. Быстрова Г. Е. Аграрное право. Ульяновск, 2012. 130 с.

2. Паяцов А. Г. Государственное регулирование экономики за рубежом: аграрный аспект. М.: МиД, 2006, 350 с.

3. Сидоренко В.В., Инюкин А.Ф. Государственное регулирование экономики. Краснодар: Мир Кубани, 2015. 678 с

4. Трубилин А.И., Сидоренко В.В., Михайлушкин П.В. Аграрная политика. Краснодар: Просвещение-юг, 2012. 363 с.

Резюме

Гаджиева З.Э.

Система государственного регулирования аграрной отрасли

Известно, что экономическая безопасность каждой страны связана с развитием аграрной отрасли. Развитие аграрной отрасли во многом зависит от уровня государственного регулирования. С этой точки зрения тема представленных тезисов отличается актуальностью. В статье раскрыты основные цели государственного регулирования, определены основные три отрасли, на которые направлены данные цели, рассмотрены меры государственного регулирования аграрной отрасли. Также дана информация о прямых и косвенных методах государственного регулирования аграрной отрасли.

Ключевые слова: *аграрный сектор, аграрная политика, сельское хозяйство, государственное регулирование, продукт, производство*

Summary

Hajiyeva Z.E.

The System of State Regulation of the Agricultural Sector

It is know that the economic security of each country is associated with the development of the agricultural sector. The development of the agricultural industry largely depends on the level of state regulation. From this point of view, the topic of the prepared thesis is relevant. The article reveals the main goals of state regulation, defines the main three sectors for which these goals are directed, and measures of state regulation of the agricultural sector. Also, information is provided on direct and indirect methods of state regulation of the agricultural sector.

Key words: *agrarian sector, agrarian policy, agriculture, state regulation, product, production*

REGİONLARIN İNKİŞAFINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Həsəndost Süsən Rafiq qızı

Sumqayıt Dövlət Universiteti

Pənahova Günay Telman qızı

Sumqayıt Dövlət Universiteti

ilqarosmanov1975@mail.ru

Xülasə: *Məqalədə regionların iqtisadi inkişafı problemləri tədqiq edilmiş, regionun iqtisadi inkişafına təsir növləri müəyyənləşdirilmişdir. Regionun iqtisadi inkişafına təsir göstərən amillərdən biri kimi, onun təhlükəsizliyinin təminatı problemləri araşdırılmışdır. Həmçinin regional iqtisadi təhlükəsizliyin əsas sahələri müəyyən edilmişdir.*

Açar sözlər: *region, iqtisadi inkişaf, təhlükəsizlik, rəqabət, biznes*

Ölkə iqtisadiyyatı milli iqtisadi kompleksin mürəkkəb bir mexanizmidir. Milli iqtisadiyyat mürəkkəb çox səviyyəli bir sistemdir. Onun əsasını ayrı-ayrı sahələr və insan varlığı üçün müəyyən şəraitin yaradılmasını təmin edən maddi malların istehsalına yönəlmiş sosial münasibətlər sistemi təşkil edir. Milli iqtisadiyyatın fəaliyyət göstərməsi və inkişafı ayrı-ayrı regionlar (ərazi-məkan subyektləri) üzərində qurulur.

Regionlar həmişə öz idarəetmə orqanları tərəfindən inzibati sərhədlər ilə dəqiq müəyyənləşdirilmir, lakin mövcud istehsal və sosial potensiala görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də ərazilərindəki sosial-iqtisadi proseslərin fəallaşması müxtəlif yollarla baş verir. İqtisadi sahədə regionalizm iqtisadi fəaliyyətin və idarəetmənin mərkəzsizləşdirilməsinin, yerli özünüidarəetmənin artan rolunun təzahürüdür.

Regionun, şəhərin və ya rayonun, yəni hər səviyyədə yerli hakimiyyət orqanları iki əsas funksiyanı yerinə yetirirlər: əhaliyə və müəssisələrə xidmət göstərmək və tabeçiliyində olan ərazilərin sosial-iqtisadi inkişafını idarə etmək.

Son illərdə şəhərlərin iqtisadi inkişaf problemlərinin həllində cəlb edilmiş qeyri-dövlət xarakterli təşkilatların sayının artması ümumdünya təmaüllüdür. Qeyd edək ki, bu mənfəətsiz təşkilatlar xüsusi biznesə yardım göstərə və onun inkişafına təsir edə bilər. Belə təşkilatlara yerli ticarət-sənaye palataları, regionun marketinqi və ya inkişafı üzrə ixtisaslaşdırılmış agentlikləri daxil etmək olar. İdarəetmənin bu cür təşkilatlarla kooperasiyası bütövlükdə regiona xeyir gətirir [3].

Regional səviyyədə iqtisadi inkişafın idarə edilməsinin əsası aşağıda göstərdiyimiz kimi biznesin ümumi şərtlərinin yaradılmasıdır.

Cədvəl 1.

Regionun iqtisadi inkişafına təsir növləri [1]

Biznesin təşkilinin ümumi şərtləri	İşgüzar aktivliyin tənzimlənməsi	İdarə və biznesin birbaşa kooperasiyası
- nəqliyyat - rabitə -mehmanxanalar - tənəffüs salonları (rekreasiya) - telekommunikasiyalar -regional bazar. İnfrastruktura: - banklar -audit -sığorta -məsləhətlər	- zonalaşdırma - torpaqdan istifadə qaydaları -vergitutma -subsidiyalar -güzəştlər -təminat	- birgə layihələr - qeyi-kommersiya təşkilatları ilə qarşılıqlı fəaliyyət: - ticarət-sənaye palataları - tədris-məsləhət mərkəzləri

Böhran vəziyyətindən çıxmaq üçün regionun iqtisadi inkişafına təsir edən bütün metodların kombinasiyasını nəzərdə tutan məqsədli planlar zəruridir. Bu halda belə proqramların tərtib edilməsinin mühüm istiqaməti onların həyata keçirilməsi ilə əlaqədar nəticə və xərclər balansının təhlili ola bilər.

Regionun iqtisadi inkişafına təsir göstərən amillərdən biri onun təhlükəsizliyidir. Regionun iqtisadi təhlükəsizliyi iqtisadiyyatın hazırkı vəziyyətini, sabitliyi, dayanıqlığı və mütərəqqi inkişafı xarakterizə edən şərtlər və amillərin məcmusudur. Bu tərifdən görünür ki, iqtisadi təhlükəsizliyə təsir edən bir çox amillər var. Məhz, regional iqtisadi təhlükəsizliyin quruluşu böhran və gələcək

inkişaf dövründə onun yaşaması və regional quruluşlarının qorunması üçün zəruri şərtləri təmin edən amillər toplusu kimi təqdim olunur:

- resurs potensialına münasibətdə ölkənin və onun ərazilərinin həyati maraqlarının qorunması;
- sabitləşdirici təsirlərdən daxili toxunulmazlığın və xarici təhlükəsizliyin yaradılması: daxili və dünya bazarlarında regionların rəqabət qabiliyyəti və ölkənin maliyyə vəziyyətinin sabitliyi;
- mədəniyyətli bir insana layiqli həyat şəraiti və tərzi, ictimai proseslərin sabit və normal şəkildə artma ehtimalı [4].

İqtisadi təhlükəsizliyə və onun çox səviyyəli sisteminə təsir edən müxtəlif amillər səbəbindən bu prosesi xarakterizə edən çox sayda müxtəlif göstəricilər və onların formalaşmasına yanaşmalar mövcuddur. Göstəricilər iqtisadi təhlükəsizliyin xüsusiyyətlərini əks etdirir. Tamamilə yerinə düşür ki, regionun inkişafının inteqral göstəricisi kimi müxtəlif ölkələrin inkişafını qiymətləndirmək üçün BMT-nin inkişafı Proqramında tətbiq olunan insanın inkişafı indekslərindən istifadə etmək olar. Regional sosial-iqtisadi təhlükəsizliyi təmin etmək üçün region səviyyəsində qiymətləndirmə sistemi tələb olunur.

Regionun iqtisadi təhlükəsizliyinin göstəricilərinin formalaşdırılması cədvəl 2-də təqdim olunan aşağıdakı fəaliyyət sahələrində həyata keçirilə bilər.

Cədvəl 2.

Müxtəlif sahələr üzrə iqtisadi təhlükəsizlik göstəriciləri [5]

Bazar səviyyəsində	Region səviyyəsində
1. Ərazinin iqtisadiyyatının davamlı genişlənmə qabiliyyəti	
1.1. İnvestisiya təhlükəsizliyi	1.1. İnvestisiya təhlükəsizliyi
1.2. İstehsalat təhlükəsizliyi	1.2. İstehsalat təhlükəsizliyi
1.3. Elmi və texniki təhlükəsizlik	1.3. Mülki təhlükəsizlik
1.4. Xarici iqtisadi təhlükəsizlik	
1.5. Maliyyə təhlükəsizliyi	1.4. Maliyyə təhlükəsizliyi
1.6. Enerji təhlükəsizliyi	1.5. Enerji təhlükəsizliyi
2. Regionda məqbul bir səviyyənin təmin edilməsi	
2.1. Yaşayış səviyyəsi	2.1. Sosial həyat səviyyəsi
2.2. Əmək bazarı	2.2. Əmək bazarı və əmək haqqı
2.3. Demoqrafik təhlükəsizlik	2.3. Demoqrafik təhlükəsizlik
2.4. Hüquq və qaydalar	2.4. Hüquq və qaydalar
2.5. Qida təhlükəsizliyi	2.5. Qida təhlükəsizliyi
3. Ekoloji təhlükəsizlik	
3.1. Ətraf mühitin qorunması	3.1 Zərərli tullantılar

Təhlükələrin və böhran vəziyyətlərinin regional səviyyədə müəyyən edilməsi və zərərsizləşdirilməsi milli təhlükəsizliyə qlobal təhlükələrin riskini əhəmiyyətli dərəcədə azalda bilər. Regionların iqtisadi təhlükəsizliyinin yaxşılaşdırılması üçün mövcud strategiyaların müasir iqtisadi şəraitə uyğun yeni metod, mexanizm və vasitələrə ehtiyacı var. Regionun iqtisadi təhlükəsizlik sisteminə aşağıdakı qruplar daxildir:

Birinci qrup, regionun iqtisadi sahədəki maraqlarıdır. İkinci qrup, regionun iqtisadi təhlükəsizliyinə xarici və daxili təhdidlərin qiymətləndirilməsidir. Üçüncü qrup, iqtisadi siyasətin, institusional dəyişikliklərin və regional iqtisadiyyatın sabitliyini pozan və vahid bazar məkanından

çıxmasına səbəb olan amillərin təsirini aradan qaldıran və ya yüngülləşdirən zəruri mexanizmlərin formalaşdırılmasıdır. Belə vəziyyət, iqtisadi təhlükəsizlik problemlərinin ətraflı öyrənilməsi üçün bu prosesə üzvi inteqrasiyanı təmin edəcək regionun iqtisadi siyasətinin formalaşdırılması üçün metodların yaradılmasını zəruri edir. Dördüncü qrup, regionun iqtisadi təhlükəsizliyinin qorunmasına təşkilati dəstəkdir. İqtisadi təhlükəsizliyin qorunması iqtisadiyyat sahəsində regional maraqlara təhdidlərin müəyyənləşdirilməsi və diaqnozu, onların qarşısını almaq və aradan qaldırmaq üçün tədbirlər hazırlamaq üçün davamlı səylər tələb edir.

Regionun iqtisadi təhlükəsizlik sisteminin bu qruplarını həyata keçirmək üçün müəyyən vasitələrə ehtiyac duyulur. Bu cür vasitələr iqtisadi təhlükəsizliyin və həddi dəyərlərinin göstəricisidir. Bu hədlər iqtisadi sahədə regional maraqları ifadə edir. İqtisadiyyat sahəsində əsas regional milli maraqlar, fikrimizcə, əhalinin rifah halının yaxşılaşdırılması və regional iqtisadiyyatın inteqrasiyası, sənayenin digər regionlarla əməkdaşlığıdır.

Regional maraq dairəsinə əhalinin bütün növ gəlirlərinin artması, yoxsulluq və işsizlik səviyyəsinin azaldılması, təhsil, mədəniyyət, tibb xidmətləri, istilik, elektrik və su təchizatı, nəqliyyat, rabitə və əhali üçün kommunal xidmətlər daxildir.

Regional iqtisadi təhlükəsizlik sahələrinə aşağıdakılar daxildir:

- bütövlükdə ölkənin iqtisadi sabitliyini və müstəqilliyini qorumaq;
- iqtisadi sistemin balansını qorumaq;
- iqtisadi səmərəliliyin, bütövlükdə xalq təsərrüfatının fəaliyyətinin genişlənməsi;
- regionun özünün inkişaf səviyyəsinin artırılması;
- regional səviyyədə yeniliklərin tətbiqi;
- regionda mal və xidmətlərin həcminin artması;
- daxili və xarici regionun rəqabət qabiliyyətinin təmin edilməsi [2].

Həqiqətən, hər bir regionun iqtisadi təhlükəsizliyi ümumilikdə milli təhlükəsizliyin təmin olunmasına təsir göstərir. Regionun iqtisadi təhlükəsizliyinin formalaşması mexanizmini təkmilləşdirmək üçün bizi onun inkişaf istiqamətlərini müəyyənləşdirməliyik:

Birincisi, əhalinin keyfiyyətini və ömrünün uzunluğunu yaxşılaşdırmaq, səhiyyə, təhsil, mənzil və kommunal infrastrukturun səmərəliliyini və rəqabət qabiliyyətini artırmaqla insan kapitalının inkişafı üçün şərait və stimullar yaratmaq.

İkincisi, region iqtisadiyyatının rəqabət üstünlüklərini artırmağa yönəlmiş dövlətin struktur və institusional siyasətinin həyata keçirilməsi əsasında ərazinin yüksək iqtisadi artım templərini təmin etmək.

Üçüncüsü, qarşılıqlı surətdə faydalı regionlararası və beynəlxalq əməkdaşlıq əsasında dəstəkləyən bölgə regionun gələcək inkişafı üçün potensial yaratmaq.

Dördüncüsü, dövlətdə strateji planlaşdırma və regionda sosial-iqtisadi proseslərin tənzimlənməsinin səmərəliliyini artırmaq.

Nəticə olaraq deyə bilərik ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələləri region üçün aktual olaraq qalır.

Ədəbiyyat

1. Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 370 s.

2. Məmmədov N., Bərxudarov M.: İqtisadi təhlükəsizlik. Bakı: İqtisad Universiteti, 2006, 452 s.

3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2009, 415 s.

4. Мельников В.В. Государственное регулирование национальной экономики. М: 2012, 335 с.

5. Осипов В. И. Безопасность России. Правовые, социально-экономические и научно-технические аспекты. Региональные проблемы безопасности с учетом риска возникновения природных и техногенных катастроф. М.: Знание, 2009, 667 с.

Резюме

Гасандост С. Р., Панахова Г.Т.

Оценка роли экономической безопасности в развитии регионов

В статье исследуются проблемы развития экономики регионов. Определены виды влияния на развитие экономики региона. Проблемы обеспечения безопасности рассматриваются как один из факторов, влияющих на развитие экономики региона. А также определены основные сферы региональной экономической безопасности.

Ключевые слова: *туризм, бизнес, эффективность, развитие, инфраструктура*

Summary

Hasandost S. R., Panahova G.T.

Assessment of the Role of Economic Security in the Development of Regions

The article explores the problems of regional economic development. The types of influence on the development of the regional economy are determined. Security issues are considered as one of the factors affecting the development of the regional economy. As well as certain key areas of regional economic security.

Key words: *tourism, business, efficiency, development, infrastructure*

REGİONLARDA MƏŞĞULLUQ VƏ İŞSİZLİYİN TƏMİN OLUNMASINDA ƏMƏK BAZARININ FORMALAŞMASININ ROLU

Həsənova Sevda Əli qızı

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci

sevda.hesenova.73@mail.ru

Xülasə: *Məqalədə regionlarda məşğulluq və işsizliyin təmin olunmasında əmək bazarının mövcud tendensiyaların mövcud vəziyyəti müzakirə olunmuşdur. Həmçinin əmək ehtiyatları, regionların sosial-iqtisadi inkişafı, məşğulluğun təmin edilməsində kadr hazırlığı, əmək miqrasiyası və s. məsələlər araşdırılmışdır. İş təklifi və ona tələbat, eləcə də onların koordinasiya prosesində yaranan əsas problemlər təhlil olunmuşdur. Yekunda təhlildən əldə olunan nəticələr öz əksini tapmışdır.*

Açar sözlər: *Əmək bazarı, əmək ehtiyatları, səmərəlilik, kadr hazırlığı, sosial-iqtisadi inkişaf, məşğulluq, işsizlik.*

Giriş. Məşğulluq bir insanın iş tapmaq və fəaliyyət göstərmək, eyni zamanda bir işdən digərinə uğurlu keçid etmək qabiliyyətidir. Məşğulluq əldə etmək, saxlamaq və dəyişmək imkanı hər kəsin yaşaması və həyatda uğur qazanması üçün zəruridir. Məşğulluq sahəsinin və əmək bazarının inkişafının əsas parametrlərinin perspektiv qiymətləndirilməsi bütövlükdə regionların

sosial-iqtisadi inkişafının proqnozu əsasında verilir. Dinamik və rəqabətədavamlı iqtisadiyyatı təmin etmək üçün əmək bazarı yaxşı işləyən, sürətlə yeni bacarıqlara yiyələnə biləcək yüksək ixtisaslı işçi qüvvəsinin mövcudluğunu zəruri şərt kimi qəbul edilir. Əmək bazarı problemlərinin müəyyənləşdirilməsi məlumatların və təhlilin mövcudluğuna əsaslanmalıdır. Əmək bazarı ictimai bir sistem olmaqla işəgötürənlərin və muzdlu işçilərin maraqlarını uyğunlaşdıran münasibətləri tənzimləyir. Ümumiyyətlə, əmək bazarı əməyin işə götürülməsi, təchizatı ya da onun alqı-satqısı ilə əlaqəli sosial münasibətlər sistemi kimi başa düşülür. Əmək bazarındakı mərkəzi münasibətlər - işləyən işçi qüvvəsinin yaşayış vasitələri üçün mübadiləsinə əsaslanır. Bu cür münasibətlər tələb mexanizmi vasitəsi ilə həyata keçirilir. Dövlət bu prosesdə iştirak edir, minimum əmək haqqını, iş gününün uzunluğu, işsizlik müavinətlərinin miqdarı və digər parametrləri təyin edir.

Təhlil. Əmək bazarı iqtisadiyyatın vacib bir hissəsini təmsil etməklə regionlarda məşğulluğun yaradılması, istehsal və gəlir əldə etməsində böyük rol oynayır. Əmək bazarı məlumat sistemləri məşğulluq və əmək siyasətinin əsasını təmin edir. Məlumat sistemləri daha yaxşı hədəflənmiş siyasətlərin müəyyənləşdirilməsi, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi barədə informasiya verir. Əmək bazarı təhlil edilərkən diqqət ediləcək əsas məqamlara regional məşğulluq, o cümlədən məşğulluq səviyyəsi, məşğulluq nisbətindəki gender boşluğu və özünüməşğulluq formaları haqqında məlumatlar, bölgələr üzrə iş məmnuniyyəti, regional işsizlik, yəni gənclərin işsizliyi və uzunmüddətli işsizlik də daxil olmaqla iki struktur məsələnin təhlili daxildir.

Məşğulluq, işdəki insanların sayını ölçür və iş yerlərinin sayından fərqlənir. Çünki bəzi insanların birdən çox işi vardır. Məşğulluq işçilərdən, öz-özünə işləyənlərdən, ödənişsiz ailə işçilərindən və dövlət tərəfindən dəstəklənən təlim və məşğulluq proqramlarında olan insanlardan ibarətdir. Ödənilməyən ailə işçiləri, rəsmi bir əmək haqqı və ya maaş almayan, lakin bu müəssisənin qazancından faydalanan ailə biznesində işləyən insanlar hesab olunur. Hökumətin dəstəklədiyi təlim və məşğulluq proqramları seriyasına bu proqramlara daxil olanların hamısı aid deyil. Buraya yalnız hər hansı bir iş forması, iş təcrübəsi və ya işlə əlaqədar təlim, işçilərə və ya özünə işləyən seriyalara daxil olmayan insanlar aiddir. Bu proqramlar üzrə heç bir iş təcrübəsi və ya işlə əlaqədar fəaliyyətlə məşğul olmayan insanlar məşğulluq hesablamalarına daxil edilmir. Onlar işsiz və ya iqtisadi cəhətdən fəal deyildir. İş qabiliyyəti ömür boyu davamlı, təcrübə qazanma prosesidir. O, yeni biliklər, məqsədyönlü şəkildə öyrənmə və əmək bazarındakı müxtəlif dəyişikliklər nəticəsində məşğulluq əldə etmək və saxlamaq potensiallarını artırmaq üçün bazara çıxmağa kömək edən bacarıqlardır. Əmək bazarının təhlili regionlarda cari və gələcək bacarıq ehtiyacları haqqında biliklərin yaranmasına, yenilənməsinə və yayılmasına kömək etmək üçün vacib bir məsələdir. Özəl məşğulluq agentlikləri işçilərin iş yerlərinə uyğunlaşdırılmasında və əmək bazarı funksiyalarının təkmilləşdirilməsində getdikcə daha çox rol oynayır. İşçi qüvvəsi və əmək bazarı haqqında məlumat, ölkənin iqtisadiyyatı üçün vacibdir. İşsizliyin təmin olunması istiqamətində formalaşan məqsədli əmək bazarının təşkili üçün vacib olan şərtlərə işgüzar rəqabətə və iqtisadi inkişafa təkan verən ixtisaslı işçi qüvvəsinin yaradılması, karyeranın gücləndirilməsi, iqtisadi imkan və karyera yüksəlişinin təmin edilməsi, işin sürətlə dəyişən mahiyyətinin dərk edilməsi və onun işçi qüvvəsinə necə təsir etməsinin müəyyənləşdirilməsi, işçi qüvvəsi təlimi və təhsil fondlarına səmərəli xərcləmənin idarə edilməsi daxildir [5, s.3].

Əmək bazarı, həm də iş bazarı olaraq, işçilərin təchizatı və işəgötürənlər tərəfindən tələbatın təmin olunduğu əməyə olan tələb və təklifi ifadə edir. Hər hansı bir iqtisadiyyatın əsas tərkib hissəsidir və kapital, mal və xidmətlər bazarları ilə sıx bağlıdır. Makroiqtisadi səviyyədə əmək bazarına tələb və təklif, beynəlxalq bazar dinamikası, habelə immiqrasiya, əhalinin yaşı və təhsil

səviyyəsi kimi amillər əsaslı təsir göstərir. Əmək bazarının makroiqtisadi mənzərəsini təsvir etmək çətin ola bilər, lakin bir neçə məlumat nöqtəsi investorlara, iqtisadçılara və siyasətçilərə onun sağlamlığı haqqında bir fikir verə bilər. Birincisi işsizlikdir. İqtisadi gərginlik dövründə iş tələbi təklifi geridə qoyur, işsizlik artır. Yüksək işsizlik dərəcələri iqtisadi durğunluğu şiddətləndirir, sosial vəziyyətə kömək edir və çox sayda insanı normal həyat sürmək imkanından məhrum edir. Əmək məhsuldarlığı əmək bazarının və iqtisadiyyatın sağlamlığının daha bir vacib nöqtəsidir, o, hər saatda əmək məhsulu istehsalını ölçür. İqtisadiyyatda məhsuldarlıq son illərdə texnologiyanın inkişafı və digər səmərəliliyin artırılması səbəbindən yüksəlmişdir. Makroiqtisadi nəzəriyyəyə görə, əmək haqqının artımının məhsuldarlıq artımından geri qalması, işçi qüvvəsinin təklifin tələbdən üstün olduğunu göstərir. Əmək potensialı bütövlükdə cəmiyyət olaraq həm fərdi şəxslərin, həm də müxtəlif işçi qruplarının bütün əmək imkanlarının məcmusudur. Bir işçinin əmək potensialı onun mənəvi keyfiyyətlərini, əmək fəaliyyətində iştirak imkanlarını, müəyyən şərtlər daxilində müəyyən nəticələr əldə etmək bacarığını, əmək prosesini yaxşılaşdırmaq imkanını əks etdirir [6. s.9].

İqtisadi cəhətdən fəal əhali ictimai faydalı fəaliyyətlə məşğul olanlar da daxil olmaqla gəlir gətirən və işsiz, fəal iş axtaran əhalinin bir hissəsidir. Statistik göstəricilərə əsasən respublika üzrə iqtisadi fəal əhali 2016-cı ildə 233,5 min nəfər, 2017-ci ildə 235,5 min nəfər,2018-ci ildə isə 237,4 min nəfər təşkil etmişdir. İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar 2016-cı ildə 233,5 min nəfər, 2017-ci ildə 235,5 min nəfər, 2018-ci il üzrə də 237,4 min nəfər təşkil etmişdir. Məşğulluq statusu ictimai baxımdan faydalı işlərdə çalışan işçi qüvvəsi üçün müəyyən edilir. Buraya gəlir əldə etmək üçün mal və xidmətlər istehsalına əmək təklif edən insanlar qrupu, birbaşa pul gətirməyən və ya mal və xidmət istehsalı ilə birbaşa əlaqəli olmayan lakin gəlir yaradan ictimai faydalı əməkdə iştirak edən insanlar qrupu daxildir. Birinci qrupa iqtisadiyyatın dövlət sektorunda, kooperativlərdə, özəl sektorlarda çalışan vətəndaşlar, ikinci qrupa isə istehsaldan ayrılmaqla orduda xidmət edən vətəndaşlar və tələbələr daxildir. Regionlarda iqtisadi inkişafın təmin olunması ölkəmizdə son illərdə həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının əsas hədəflərindən hesab olunur. İnkişaf strategiyasının uğurla həyata keçirilməsində regionların sosial-iqtisadi inkişafın təminatı ilə əlaqəli qəbul edilmiş Dövlət Proqramları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) əsaslı əhəmiyyətə malikdir [4, s.2]. Ölkəmizdə uğurla icra olunan bu proqramlar regionlarda investisiya mühitinin yaxşılaşdırılmasına, sahibkarlıq və biznes fəaliyyətinin inkişaf etdirilməsinə, infrastrukturun yaxşılaşdırılmasına, məşğulluğun təmin olunmasına və yoxsulluğun minimuma endirilməsinə imkan yaratmışdır. Hazırda bu imkanlardan çıxış edərək ölkəmizin sosial-iqtisadi həyatında, xüsusilə regionlarda, o cümlədən kənd yerlərində iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu və sosial rifah halının yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi inkişaf gündəliyində ön plana çıxmışdır [1, s.2].

Eyni zamanda əhalinin sosial rifahının yaxşılaşdırılması, məşğulluq istiqamətində səmərəli tədbirlərin icrası məqsədilə ardıcıl olaraq Dövlət Proqramları qəbul edilmişdir. Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Azərbaycan Respublikasının 2011 və 2015-ci illəri əhatə edən Dövlət Proqramı regionlara investisiya axınının artırılmasına, yeni iş yerlərinin yaradılmasına, innovasiya fəallığının artırılmasına, məşğulluğun səviyyəsinin yüksəldilməsinə və səmərəliliyin artırılmasına təkan vermişdir. Qəbul olunmuş proqramlarda əsas məqsəd dünya bazarında yerli istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi, yeni texnologiyalar və innovasiyaların tətbiqi vasitəsilə əmək bazarının inkişaf etdirilməsi, əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun təhsil proqramlarının hazırlanması, təklif edilmiş işçi qüvvəsi ilə mövcud olan iş yerləri arasında balansın təmin edilməsi, məşğulluğun və işsizliyin

düzgün qiymətləndirilməsindən ibarətdir. 2018-ci il 30 oktyabrda Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın da əsas məqsədi əmək bazarında insan kapitalının inkişafı ilə ölkədə məşğulluğun səviyyəsinin yüksəldilməsi və yoxsulluğun azaldılası, sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətində əsaslı tədbirlərin görülməsindən ibarət olmuşdur. Məşğulluq strategiyasının həyata keçirilməsi zamanı ölkəmizdə işsizliyin səviyyəsi azalaraq 7,3 faizdən 5 faizə enmişdir. Həmin dövrdə yoxsulluğun səviyyəsi 29,3 faizdən 4,9 faizə qədər azalmışdır. Əhalinin gəlirləri 5,2 dəfə, minimum əməkhaqqı 3,5 dəfə, orta aylıq nominal əməkhaqqı göstəricisi isə 3,8 dəfə artmışdır [2, s.1]. Dövlət Statistika Komitəsinin məlumatına əsasən Azərbaycan Respublikası üzrə məşğul əhalinin sayı 2017-ci ildə 4822,1 min nəfər, 2018-ci ildə isə 4879,3 min nəfər olmuşdur. Gəncə-Qazax iqtisadi rayonu üzrə bu göstərici 2017-ci ildə 644,3 min nəfər, 2018-ci ildə isə 650,8 min nəfər təşkil etmişdir. Məşğulluq orqanlarında işsizlik statusu verilmiş şəxslər Azərbaycan Respublikası üzrə 2017-ci ildə 38481 nəfər, 2018-ci il üzrə 20088 nəfər olmuşdur. Gəncə-Qazax iqtisadi rayonunda isə bu göstərici 2017-ci ildə 2640 nəfər, 2018-ci ildə isə 1326 nəfər təşkil etmişdir. 2018-ci ildə ölkə üzrə iqtisadi fəal əhalinin sayı 2005-ci illə nisbətdə 753,0 min nəfər artaraq 5133,1 min nəfərə çatmışdır. Onların 4879,3 min nəfəri iqtisadiyyatda məşğul olanlar, 253,8 min nəfərini isə işsiz əhalidir. Respublikamızda son dövrlərdə aparılan iqtisadi islahatların nəticəsində əmək bazarında müsbət göstəricilər əldə olunmuşdur. 2005-ci ildə dövlət sektorunda çalışan əhalinin xüsusi çəkisi iqtisadiyyatda məşğul olan əhalinin ümumi sayının 30,3 faizini təşkil edirdi. 2018-ci ildə isə artıq bu göstərici 23,7 faizə enmişdir, Belə ki, qeyri-dövlət sektorunda işləyənlərin sayı bu dövrdə 1,3 dəfə artmışdır [7].

Rəsmi işsiz statusu almış şəxslərin sayı ölkə ərazisi üzrə 2019-cu ilin yanvar ayının əvvəli üçün 20,1 min nəfər təşkil etmişdir. İşsizlər sırasında qadınların xüsusi şəkisi 2005-ci ildə 51,6 faiz idisə, bu göstərici 2018-ci ildə 37,2 faiz olmuşdur. Rəqabətə davamlı əmək bazarın əsas amillərindən ən vacibi regionlarda əhalinin ixtisası, peşə bacarığı və təhsil səviyyəsi hesab olunur. Regionlar və müxtəlif peşə qrupları üzrə məşğulluğun səviyyəsi bir-birindən fərqlənir. Ölkədə baş verən sosial-iqtisadi dəyişikliklərə, əmək bazarındakı peşə və ixtisaslara olan tələbata uyğun olaraq regionlarda əmək resurslarına olan tələbat da müxtəlif olur. Dövlət Statistika Komitəsinin məlumatına əsasən ölkənin məşğul əhalisinin 30%-dən çoxu müvafiq təhsil səviyyəsinə malikdir.

Nəticə: Bütün qeyd edilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlinir ki, elmi nailiyyətlərə əsaslanan innovasiyaların tətbiqi regionlarda sosial-iqtisadi inkişafa təkan verir. Ölkəmizin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmək üçün insan kapitalının inkişafı, innovativ bilik və bacarıqlara yiyələnən kadrların mövcudluğu əsas şərtdir. Bu baxımdan ölkədə peşə təhsilinin inkişafı istiqamətində Dövlət Proqramları hazırlanıb və həyata keçirilib. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsilinin və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Bu sənəd müasir dövrdə əmək bazarının tələblərini ödəyən ixtisaslı kadr hazırlığı prosesini inkişaf etdirmək məqsədi daşıyır. Strateji Yol Xəritəsində peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strategi baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilmişdir [3, s.3]. Həmçinin peşə təlimi və təhsilinin inkişaf etdirilməsi istiqamətində hədəflər müəyyən olunmuşdur. Əsas hədəflər peşə inkişafı proqramlarının tərtibatı, işəgötürənin peşə təhsili sisteminə inteqrasiyası və maliyyələşdirmə sisteminin yaradılmasıdır. Peşə təhsili müəssisələrində müasir əmək bazarının tələblərinə cavab verən kadrlar hazırlanmalıdır. Çünki hazırda ölkədə mövcud olan işsizlik problemi yalnız iş yerlərinin məhdudluğu ilə bağlı deyil. Bu sahədə mövcud problem işsiz və ya iş axtaranların müasir

əmək bazarının tələblərinə və şərtlərinə cavab verə bilməməsidir. Regionlarda ixtisaslı kadr qıtlığının mövcudluğu məşğulluğun səviyyəsinə mənfi təsirini göstərir. Nəticə etibarilə bu sahəyə diqqət artırılmalıdır. Ölkədə peşə məktəblərində maddi-texniki baza gücləndirilməlidir. Müasir əmək bazarının tələblərini ödəyən ixtisaslara daha çox yer verilməlidir. Peşə təhsili müəssisələri əmək bazarı ilə əlaqəli surətdə fəaliyyət göstərməlidirlər. Kadr hazırlığında qabaqcıl ölkələrin təcrübələrindən istifadə olunmalıdır. Deməli, əmək bazarı daim izlənilməli və monitorinqi aparılmalıdır.

Ədəbiyyat

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Bakı, 29 yanvar 2019-cu il. 184 s.
2. "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası". 11 s.
3. "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. 52 s.
4. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008, 2009-2013, 2014-2018), 151 s.
5. Effective local strategis to boost quality job creation, employment and participation. Report for the G20 Labour and Employment Ministerial Meeting Melbourne, Australi, 10-11 september 2014, 14 p.
6. С. Г. Ермолаева «Рынок труда» учебное пособие, Екатеринбург Издательство Уральского Университета, 2015, 107 ст.
7. https://www.stat.gov.az

Резюме.

Гасанова С.А.

Роль рынка труда в обеспечении занятости и безработицы в регионах

В статье обсуждалось современное состояние рынка труда в сфере занятости и безработицы в регионах. Также были изучены трудовые ресурсы, социально-экономическое развитие регионов, рассмотрены подготовки кадров обучению трудоустройству, трудовая миграция и другие при обеспечении занятости. Были анализированы предложение работы и спрос на нее, а также основные проблемы, возникающие в процессе их координации. В итоге были отражены результаты окончательного анализа.

Ключевые слова: *Рынок труда, трудовые ресурсы, эффективность, обучение персонала, социально-экономическое развитие, занятость, безработица.*

Summary

Hasanova S.A.

The Role of the Labor Market in Ensuring Employment and Unemployment in the Regions

The article deals with the current state of the tendencies of the labor market in the regions to ensure employment and unemployment. Labor resources, socio-economic development of regions, staff training for ensuring employment, labor migration and other issues were also researched. Job offer and demand for it, as well as main problems arising during their coordination process were analyzed. In conclusion, the results of the analysis were reflected.

Key words: *Labor market, labor resources, efficiency, staff training, socio-economic development, employment, unemployment.*

AZƏRBAYCANDA ALİ TƏHSİLİN MÜASİRLƏŞDİRİLMƏSİNİN İQTİSADİ ƏSASLARINA DAİR MÜLAHİZƏLƏR

Kərimov Əyyub Sevdim oğlu
Azərbaycan Texniki Universiteti
kerimoveyyub@mail.ru

Xülasə: *İnkişafın müasir mərhələsində artıq birmənalı şəkildə qəbul olunur ki, ölkələrin inkişafını onun yeraltı və yerüstü sərvətlərinin həcmi deyil, vətəndaşlarının intellektual potensialı, insan qızılı muəyyənləşdirir. İntellektual potensialın reallaşması, insanların hərtərəfli inkişafı və rifahı xeyli dərəcədə cəmiyyətin səviyyəsindən də asılıdır. Hesab edirəm ki, ali təhsil müəssilərimizin rəqabətə qabil, müasir kadrların hazırlamasında ən öyük maniə dünyanın öndə gedən ali məktəblərindəki madi-texniki bazaya, müasir laborotoriyalara malik olmaması, maliyyə imkanlarının zəifliyidir. Ən mühüm çıxış yolu kimi ölkə daxilində uyğun profilli ali məktəblər üçün dövlətin də maliyyə dəstəyi verdiyi müasir tələblərə cavab verən birgə laborotoriya və texnoparkların yaradılmasını, maddi-texniki baza ilə əlaqədar daha çox maliyə tutumlu işlərin həyata keçirilməsində dost ölkələrin müştərək layihələrə cəlb edilməsini təklif edirəm.*

Açar sözlər: *ali təhsil, iqtisadiyyat, maliyyə, təhsil qanunu, strategiya, maddi-texniki baza*

Bəşər cəmiyyətinin inkişaf tarixinin, siyasi rejimlərin mahiyyətinin, inkişaf etmiş dövlətlərin təcrübəsinin təhlili göstərir ki, təhsil, onun səviyyəsi, dəyər yönümləri və prinsipləri adətən mənsub olduğu cəmiyyətə uyğun olur.

Azərbaycanın böyük mütəfəkkiri Əlibəy Hüseynzadə 1904-cü ildə Qahirədə çıxan «Türk» qəzetində yazırdı: «Türk-tatar qövmü tarixin səhifələrində iki dəfə parlamışdır: birinci dəfə qılıncın gücü ilə, bu qəhrəmanlıq dövrü idi; ikinci dəfə isə imanın qüdrəti ilə, bu da din dövrü idi. Bir dəfə də onun parlaması qarşıda durur ki, bu da elm və biliyin gücü ilə baş verəcəkdir. Bu canlı, yaşamaq qabiliyyətinə malik, möhkəm bir xalqın əql dövrü olacaqdır [4,8].

Sivilizasiyanın indiki mərhələsində artıq birmənalı şəkildə qəbul olunur ki, ölkələrin inkişafını onun yeraltı və yerüstü sərvətlərinin həcmi deyil, vətəndaşlarının intellektual potensialı, insan qızılı muəyyənləşdirir. İntellektual potensialın reallaşması, insanların hərtərəfli inkişafı və rifahı xeyli dərəcədə cəmiyyətin səviyyəsindən də asılıdır. Dünya Bankının aparıdığı araşdırmaların nəticələrinə baxdıqda görürük ki, ABŞ-ın milli sərvətinin 76%-ni insan kapitalı, 19%-ni istehsal, 5%-ni isə təbii ehtiyatlar təşkil edir. Avropa ölkələrində insan kapitalı 74, istehsal 24, təbii ehtiyatlar isə yalnız 2% təşkil edir.

Tomos Ceffersonun yazdığı kimi «əgər millət fikirləşirsə ki, sivilizasiyanın hansı bir mərhələsində həm cahil, həm də azad olmaq mümkündür, onda o heç vaxt olmamış və ola bilməyəcək bir şeyi istəyir» [5, 35].

Avropa fəlsəfi-pedaqoji ənənələrində təhsilin vəzifəsinin dərk olunması onun üç əsas cəhətinə əsaslanır: mədəniyyət, cəmiyyət, fərd. Məhz bu əsaslardan çıxış edərək təhsilin kriteriyalarını aşağıdakı kimi müəyyənləşdirmək olar: birincisi təhsil prosesində müəyyən dəyərlər haqqında bilik verilməlidir; ikincisi, öyrətmə metodları başa düşülən, dərk edilən olmalı, yeni bilik yalnız informasiya kimi deyil, dəyərlər kimi qəbul olunmalıdır; üçüncüsü, təhsil prosesində «koqnitiv perspektivlərin», onların həyatın bütöv modelində yerini dərk etməklə bağlıdır. Təhsilin fəlsəfəsindən bəhs edərkən qeyd etmək lazımdır ki, Peter, Popper və Oxir belə bir fikri

əsaslandırırlar ki, təhsilə münasibətdə fərdin məqsədləri ilə açıq cəmiyyətin məqsədlərini konvergensiya etmək lazımdır [5, 9].

Müasir təhsil modeli özünü inkişaf etdirən sistem kimi insan inkişafına təsir edən mexanizm və üsulları işləyib hazırlamalıdır. Onlar elə olmalıdır ki, insan cəmiyyətin inkişafına və yenilənməsinə nəinki maraqlı olsun, həmçinin yaradıcı iştirakçıya cevrilsin.

Təhsildə onun gündən-günə artan, inkişaf edən məqsədlərinin prioritetliyinə üstünlük verilməlidir. Təhsil öyrənənlərin fərdi qabiliyyətlərini və dəyər yönümlərini mütləq nəzərə almalıdır. Öyrətmə və tərbiyə metodlarının seçilməsində şəxsiyyət-fəaliyyət yanaşılmasına əsaslanılmalı, tədris prosesində təlimin daha fəal, məhsuldar, oyrənənləri prosesə qoşan üsullarından istifadə olunmalıdır. Öyrədən-öyrədilən münasibətlərinin əsasında birgə yaradıcılıq ideyası, əməkdaşlıq və sinergiya dayanmalıdır.

İnkişaf edən Respublikamızda bütün digər sahələrdə olduğu kimi təhsil sahəsində də ümumbəşəri və milli-mənəvi dəyərlərimiz gözlənilməklə cəmiyyətin inkişaf ahənginə uyğun əhəmiyyətli işlər görülür. İctimai-siyasi həyatımızın digər sahələrində olduğu kimi milli təhsilimizin də strateji istiqamətlərinin müəyyən edilməsi böyük maarifçi, Ümummilli lider Heydər Əliyev dühasına məxsusdur. O, uzaqgörənliklə islahatlar proqramının işlənib hazırlanması və həyata keçirilməsi vəzifəsini irəli sürdü ki, onun da prinsipial müddəaları təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının iclasındakı nitqində aşağıdakı kimi ifadə edilirdi: «Azərbayjanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanılmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində- Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbayan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik». [1, 247-248]

Akademik R.Mehdiyev müasir mərhələdə təhsilimizin vəzifələrindən bəhs edərək yazır: «Müasir mərhələdə təhsil sisteminin də əsas vəzifəsi yeni tipli cəmiyyətdə yaşamağa və yaratmağa qadir vətəndaş və kadr hazırlamaqdır, elə vətəndaş ki, o cəmiyyətin həyatında fəal iştirak etsin, qlobal dünyagörüşünə malik olsun [3, 586].

Gökəmli filosofumuz S.Xəlilov təhsilin cəmiyyətimizdə prioritetliyini aşağıdakı kini xarakterizə etmişdir:" ...inkişaf xətti elm və təhsildən keçir. Bunlar olmasa, başqa sahələrdəki heç bir uğur ölkənin davamlı iqtisadi inkişafına, eyni zamanda, əhalinin ümumi mədəni səviyyəsinin yüksələn templə artmasına təminat verə bilməz. Bunların hamısının təminatı təhsildən keçir. Təhsilin də daha yüksək səviyyədə, milli mənafeyə uyğun şəkildə qurulmasının öz elmi əsasları var".

Respubliklamızda müstəqilliyimizin ilk illərindən təhsil sahəsində islahatlara start verilmişdir. Hələ 1998-ci ildə isə İslahatlar Proqramının hazırlanması üçün Dövlət Komissiyası yaradılmışdı. 19 iyun 2009-cu ildə ölkə Prezidenti tərəfindən "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Prezident İ. Əliyev İqtisad Universitetinin yeni korpusunun açılış mərasimindəki nitqində dövlətin təhsil siyasətinin strateji hədəflərini göstərmişdir: "...tam əminəm ki, bizim gələcəyimiz təhsillə bağlıdır. Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsindən görürük ki, ölkənin inkişafında ən aparıcı rol oynayan neft-qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır"[2].

Bu gün Azərbayjan təhsil müəssisələri YUNİSEF, YUNEVOK, YUNESKO, KOYKA, Avropa Təhsil Fondu, Avropa İttifaqı və Avropa Şurası kimi sanballı beynəlxalq təşkilatların təhsil probmlemlərini araşdıran qurumları ilə fəal əməkdaşlıq edirlər. Avropa İttifaqının maliyyələşdirdiyi TEMPUS/TASİS, proqra-mlarına Azərbayjanın ali təhsil müəssisələrinin də qoşulması beynəlxalq təşkilatlarla qurulan düzgün siyasətin nəticələrindən biridir. Ümumiyyətlə XXI əsr elmin dünya qanunlarının dərk edilməsindən dünyanın dəyişdirilməsi kimi idrak formasına çevrilməsi ilə səjiyyələnir [6,113].

Ali təhsil müəssələrində keyfiyyətə nail olunması, effektiv idarəetmənin və ayrılan vəsaitlərdən səmərəli istifadənin təmin edilməsi üçün əsas amillərdən biri də ali təhsilin maliyyələşdirilməsində yeni və mütərəqqi mexanizmlərin tətbiq olunmasıdır. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyev siyasətinin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin imzaladığı "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" fərman böyük əhəmiyyət kəsb edir. Ali təhsilin dövlət maliyyələşdirməsinin hazırkı mexanizmi müasir bazar iqtisadiyyatı şəraitində rəqabətin gücləndiyi bir dövrdə tələblərə cavab vermir. Hazırkı zamanda dövlət ali təhsil müəssisələrinin büdcəsi əsasən büdcə və ödənişli təhsil hesabına formalaşdırılır. Qeyd etmək lazımdır ki, ali məktəblərin maliyyələşdirilməsinin bugünkü mexanizmi təhsil sahəsində beynəlxalq və milli səviyyədə rəqabətin gücləndiyi, strateji planlaşdırmanın və maliyyələşdirmənin rolunun artdığı bir zamanda müasir tələblərə cavab vermir.

Qeyd olunanlardan çıxış edərək esab edirəm ki, ali təhsil müəssilərimizin rəqabətə qabil, müasir kadrlaarın hazırlamasında ən öyük maniə dünyanın öndə gedən ali məktəblərindəki madi-texniki bazaya, müasir laborotoriyalara malik olmaması, maliyyə imkanlarının zəifliyidir. Müqayisə üçün qeyd edirəm ki, Harvard Universitetinn ötən ilki büdcəsi 34,5 milyard dollar, Yel Universitetinin büdcəsi 25,4 milyard dollar, Stanford Universitetinin büdcəsi 22,4 milyard dollar, Princeton Universitetinin büdcəsi 22,15 milyard dollardır [8].

Təbii ki, ölkəmizin ali məktəblərinin yaxın illərdə o səviyyəyə çatması qeyri-realdır. Şıxış yolları kimi aşağıdakıları təklif edirəm:

-Ölkə daxilində uyğun profilli ali məktəblər üçün dövlətin də maliyyə dəstəyi verdiyi müasir tələblərə cavab verən birgə laborotoriya və texnoparkların yaradılması;

-Maddi-texniki baza ilə əlaqədar daha çox maliyyə tutumlu işlərin həyata keçirilməsində dost ölkələrin müştərək layihələrə cəlb edilməsi

-Təhsilə zəruri miqdarda maliyyə resurslarının cəlb edilməsi, təhsilin maliyyələşdirilməsinin Ümumi Daxili Məhsula nisbətini 5-6 faizə yüksəldilməsi, nəticəyönümlü vəsait planlaşdırılması və müxtəlif mənbəli maliyyələşdirmə üsullarının bərqərar edilməsi;

-Tərəqqinin digər sahələrinin təhsillə əlaqəli oduğu nəzərə alınaraq vəsaitlərin ayrılmasında, dövlətin və cəmiyyətin hərbir inkişaf proqramında onun proritetliyinin qəbul olunması.

Ədəbiyyat

1. Əliyev H. 25 sentyabr 1998-ci ildə müəllimlərin qurultayındakı nitq. Əliyev H. Təhsil, bilik, məktəb. Bakı, Müəllim, 2006, 386 s.

2. Əliyev İ. Dövlət İqtisad Universitetinin yeni korpusunun açılış mərasimində nitq. “Xalq qəzeti”, 9 oktyabr, 2007-ci il.

3. Mehdiyev. R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. II hissə. Bakı, Şərq-Qərb mətbəəsi, 2007, 671 s.

4. Tağıyev Ə.M., Şükürov A.M. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı: Adiloğlu, 2004, 194 s.

5. Finn Ç., Hengel M., Çenovet E. Demokratiya nədir? Bakı, Elnur-P, 1995, 61s.

6. Şükürov A. Qloballaşma: Mahiyyəti və perspektivləri. Bakı, Adiloğlu, 2001, 171s. www.bilikli.net

7. Булдаков С.К. Социально-философские основания образования. Кострома: Изд-во КГУ им. Н.А.Некрасова, 2000, 290 с.

8. https://www.azerbaycan24.com/bizim-dovlet-budcemiz-12-harvard-universitetinin-budcesi-34-milyard-dollardir/

Резюме

Керимов А.С.

Соображения об экономических основах модернизации высшего образования в Азербайджане

На современном этапе цивилизации уже однозначно признается, что развитие страны определяется не объемом ее подземных и поверхностных ресурсов, а интеллектуальным потенциалом ее граждан - человеческим капиталом. Реализация интеллектуального потенциала, всестороннее развитие и благосостояние людей также во многом зависит от уровня общества. Считаю, что самым большим препятствием в подготовке современных конкурентоспособных кадров наших вузов является отстование материально-технической базы, современных лабораторий от уровней ведущих университетах мира и слабые финансовые ресурсы. В качестве наиболее приемлимого выхода из положении предлагаю создать совместные лаборатории и технопарки, отвечающие современным требованиям для совместного использовании соответствующих профильных ВУЗ-ов страны при финансовой поддержке государства, привлекать дружественные страны к совместным проектам для повышение материально-технической базы ВУЗ-ов.

Ключевые слова: *высшее образование, экономика, финансы, образовательное право, стратегия, материально-техническая база*

Summary

Karimov A.S.

Considerations on the Economic Basis of Modernization of Higher Education in Azerbaijan

At the current stage of civilization, it is already unequivocally accepted that the development of a country is determined not by the volume of its underground and surface resources, but by the intellectual potential of its citizens, human gold. The realization of intellectual potential, the comprehensive development and well-being of people also largely depends on the level of society. Based on the above, I think that the biggest obstacle in the training of competitive, modern personnel of our higher education institutions is the lack of material and technical base, modern laboratories in the world's leading universities, weak financial resources. As the most important way out, I propose to create joint laboratories and technoparks that meet the modern requirements of the state with the financial support of relevant universities in the country, to involve friendly countries in joint projects to carry out more financial work on the material and technical base.

Keywords: *higher education, economics, finance, education law, strategy, material and technical base*

AQRAR SAHƏDƏ TEXNOLOJİ TRANSFERLƏRİN SÜRƏTLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Köçərli Hicran Rafiq qızı
Sumqayıt Dövlət Universiteti
loqman.2005@mail.ru

Xülasə: *Aqrar sahənin inkişafı milli və qlobal səviyyədə həyati əhəmiyyətli problemlərin həllinə xidmət edir. İnnovasiyalı inkişafın xarakteristikaları, o cümlədən innovasiyalı inkişafın tempi çox sayda və müxtəlif xarakterli amillərdən asılıdır. Aqrar sahədə innovativ fəallığın yüksəldilməsinin mühüm vasitələrindən biri səmərəli və sürətli texnoloji transfer sisteminin qurulmasıdır. İnkişaf etmiş ölkələrin əldə etdiyi ən son texnoloji yeniliklərdən bəhrələnməyə imkan verən texnoloji transferlər özlüyündə innovasiyalı inkişafı sürətləndirir. Bu baxımdan məqalədə aqrar sahədə texnoloji transferlər və onların sürətləndirilməsi istiqamətləri ətraflı şəkildə araşdırılmışdır.*

Açar sözlər: *texnoloji transfer, innovasiya, aqrar sahə, səmərəlilik.*

Aqrar sahədə innovativ fəallığın yüksəldilməsinin mühüm vasitələrindən biri səmərəli və sürətli texnoloji transfer sisteminin qurulmasıdır. İnkişaf etmiş ölkələrin əldə etdiyi ən son texnoloji yeniliklərdən bəhrələnməyə imkan verən texnoloji transferlər özlüyündə innovasiyalı inkişafı sürətləndirir. Belə ki, kənarda həyata keçirilmiş tədqiqat və işləmələrin nəticələrini satın almaqla baş verən transfer prosesi innovasiyaların əldə edilməsi müddətini azaltmış olur. Əlbəttə, aralıq formalar da vardır ki, onlara, ilk növbədə, texnoloji əməkdaşlığın fərqli formaları, o cümlədən ortaq tədqiqatları və müştərək müəssisələri nümunə kimi göstərmək mümkündür.

Texnoloji transfer müvafiq mənbələrdə "aparıcı şirkətlərin, elmi-tədqiqat institutları və universitetlərin ideya və biliklərinin transferi vasitəsilə texnoloji innovasiyaların təşviq edilməsi və tətbiqi prosesi kimi" təqdim olunur. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, texnoloji transferlərdə universitetlərin, xüsusilə tədqiqat universitetlərinin rolu artırılmalıdır. Bunun səbəblərinə, zənnimizcə, ilk növbədə aşağıdakılar aid edilməlidir [1]:

- texnoloji transfer mərkəzlərinin məhz universitetlərdə fəaliyyət imkanları daha genişdir. Belə ki, universitetlərdə texnoloji transfer mərkəzlərinin inkubasiya mərkəzləri və texnoparklarla birgə isrehsalla, o cümlədən aqrar istehsalla üzvi vəhdətini təmin etmək mümkündür;
- universitetləri biznesin və elmi ixtiraların kommersiyalaşdırılmasına cəlb etmək üçün vençur qurumların qarşılıqlı faydalı əməkdaşlığı mühitini yaratmaq iqtidarındadır;
- universitetlərdə texnoloji transfer mərkəzlərinin aşağıdakı funksiyaları icra edilir: "kommersiyalaşdırıla bilən ixtiraların üzə çıxarılmasını təşviq etmək, universitetin əqli mülkiyyətinin idarə edilməsi, əqli mülkiyyətin inkişafı və istifadəsi üçün resursların təminatı, lisenziya alanların və ya investorların müəyyən edilməsi, alimlər, firmalar və universitet rəhbərləri arasında vasitəçilik" .

Azərbaycanın kənd təsərrüfatında texnoloji transferlərin, son illər görülən tədbirlərin əhəmiyyətini azaltmadan, özünü inkişaf etdirən sistem əmələ gətirməsi haqqında danışmaq, zənnimizcə, hələ tezdir. Bu baxımdan iki məqama diqqət yetirmək lazımdır. Birinci məqam odur ki, aqrotexnoloji transferlər özlüyündə son illər bir qədər sürətlənmişdir. Bu proses, əsasən müştərək müəssisələrdə müşahidə edilir. İnkişaf edən ölkələrin təcrübəsinə nəzər saldıqda belə bir başlanğıcın təsadüfi olmamasını söyləmək olar. Haqqında bəhs etmək istədiyimiz digər məqam müştərək

müəssisələrdə həyata keçirilən texnoloji transferlərin ölkədaxili yayılması barədə, demək olar ki, ətraflı məlumat yoxdur. Başqa sözlə, böyük ehtimalla açıq innovasiya effektindən danışmaq da hələ tezdir. Arayış üçün bildirək ki, açıq innovasiya konsepsiyasının əsasında duran ideya belə ifadə olunur: sürət əsrində şirkət nə qədər geniş imkanlara malik olsa da öz tədqiqatları ilə kifayətlənə bilməz. İnnovasiyalı inkişaf açıq olmalı, ixtiralar və yeni texnologiyalar satınalınma və ya digər yollarla əldə edilə bilməlidir. Digər tərəfdən, belə bir meyil də müşahidə edilir ki, hətta aparıcı şirkətlər belə əsas fəaliyyətlərində öz texnologiyalarını işləyib hazırlamaqla bərabər, onların digər fəaliyyətlərində yeni texnoloji ehtiyacların ödənilməsində əməkdaşlıq və strateji tərəfdaşlığa üstünlük verməsi tez-tez baş verir.

Zənnimizcə, aqrar sahədə texnoloji innovasiyaların transferinin səmərəliliyini artırmaq, müvafiq prosesləri sürətləndirmək üçün açıq innovasiya konsepsiyasının inkişafının məlum üç formasından (daxilə və xaricə yönəlmiş açıq innovasiya, tərəfdaşdaşlığı nəzərdə tutan açıq innovasiya) birgə istifadə edilməlidir. Xarici ölkələrdə (şirkətlərdə) aparılmış tədqiqat və təcrübələrdən əldə edilmiş bilik bazasının milli aqrar sahədə istifadəsini nəzərdə tutan daxilə yönəlmiş açıq innovasiya yerli aqroiqlim və digər potensialın reallaşdırılmasına xidmət etməlidir. Ölkədə (şirkətdə) əldə edilmiş biliklərin xaricə çıxarılması və orada istifadəsi (xaricə yönəlmiş açıq innovasiya) texnoloji transferdən gəlir əldə etmək məqsədi güdə bilir.

Tərəfdaşdaşlığı nəzərdə tutan açıq innovasiya siyasəti aqrar sahədə daha geniş tətbiq arealına malikdir. Məsələ ondadır ki, aqrar sahədə bilik və texnologiya mübadiləsinin istənilən variantında yerli şəraitə uyğunlaşma müddəti sənayeyə və digər sahələrə nisbətən dəfələrlə böyükdür. Başqa sözlə, digər texnologiyalardan fərqli olaraq, aqrotexnologiyaların transferi prosesində rayonlaşdırma, müxtəlif aqroiqlim şəraitinə malik regionlarda sınaqların keçirilməsi kimi mərhələlər zəruridir.

Aqrotexnoloji biliklərin yayılma sürəti, bir qayda olaraq aqrotexnologiyaların yayılma (transfer) sürətini dəfələrlə üstələyir. Bu fərq xüsusilə postsovet məkanı ölkələrində daha böyükdür. İstifadə edilməmiş imkanların aşkar edilməsi üçün aparılmış tədqiqatlara və haqqında danışılan ölkələrin təcrübəsinə, habelə onlarda tərtib olunmuş proqramların prioritetlərinə nəzər saldıqda demək olar ki, aqrotexnoloji transferlərin sürətləndirilməsi üçün həyata keçirilən tədbirlər həmin fərqin azaldılmasına deyil, sahədə texnoloji yenilənməni intensivləşdirilməsinə yönəldilməlidir.

Texnoloji transferin konseptual baxımdan üfüqi və şaquli transferlər kimi iki forması fərqləndirilir. Məlum olduğu kimi, üfüqi texnoloji transfer dedikdə şirkətlər, sahələr və ölkələr arasında transfer, şaquli texnoloji transfer dedikdə isə fundamental tədqiqatın nəticələrinin kommersiyalaşdırılmaqla tətbiqi nəzərdə tutulur. Əlbəttə bu fərqləndirmə xeyli dərəcədə şərtidir. Odur ki, texnoloji tarnsferlərin sürətləndirilməsi dedikdə konkret istiqmət seçilsə də, əldə edilən səmərənin ümumi olmaq ehtimalı diqqətdən kənarda qalmamalıdır.

Aqrar sahədə texnoloji transferlərin sürətləndirilməsi üzrə əldə edilmiş təcrübədən istifadə hərtərəfli təhlil və uzunmüddətli təcrübi araşdırmalar tələb edir. Zənnimizcə, bu baxımdan Cənubi Koreya təcrübəsi xüsusi diqqətəlayiqdir. Onu da qeyd edək ki, son bir neçə ildə Cənibi Koreayanın aqrar-ərzaq profilli şirkətləri Azərbaycandakı şirkətlərə texnoloji transfer imkanlarını araşdırmış, tərəfdaşlıq əlaqələri inkişaf etdirilmişdir. Həmin ölkənin təcrübəsində texnoloji transferləri sürətləndirmək üçün aşağıdakı istiqamətlərə xüsusi diqqət verilmişdir [2]:

- birbaşa xarici investisiyaların və xarici lisenziya kimi texnoloji transfer mexanizmlərinin formalaşmasının sürətləndirilməsi;
- xarici ekspertlərin fəal surətdə cəlb edilməsi;
- yerli qurumların elmi-tədqiqat və işləmə potensialının gücləndirilməsi.

Aqrotexnologiyaların transferinin sürətini müəyyən edən amillərin təqdim olunan təsnifatı aqrar sahə mütəxəssisləri ilə aparılan sorğular əsasında müəyyən edilmişdir. Haqqında danışılan amillərin fərqli detallaşdırma dərəcəsi ilə təqdim olunmasına səbəb, deyək ki, institusional təminatın gözlənilən strukturunun perspektivlik meyarına necə cavab verəcəyinin ehtimallı xarakteri və ya inkişafın daxili motivlərində aşağıdakı amilləri əks etdirən göstəricilərin zəruri dərəcədə detallaşdırılması zamanı qarşıya çıxan çətinliklərdir: [3]

- rəqabət üstünlüklərinin reallaşma imkanları;
- dövlət dəstəyi amilinin təsirləri;
- aqroiqlim potensialının xarakteristikaları və bir sıra digər amillər.

Aqrar sahədə texnoloji transferlərin sürətləndirilməsi alqoritminin reallaşdırlması zəruru normativ-hüquqi bazanın formalaşdırılmasını, müvafiq hüquqi bazanın çeviklik və səmərəlilik meyarları üzrə təkmilləşdirilməsini tələb edir. Proqram-məqsədli yanaşma sayəsində aqrar sahədə texnoloji transfer proseslərinin sürətləndirilməsi üçün real imkanların mövcudluğu, ABŞ, İsrail, Hollandiya kimi ölkələrin təcrübəsində sübut edilmişdir. Həmin imkanların gerçəkləşdirilməsi yolunda texnoloji, o cümlədən aqrotexnoloji transferlərin təşviqi üçün qəbul edilən qanunvericilik aktları xüsusi qeyd edilməlidir. Məhz həmin normativ-hüquqi aktların yaratdığı əlverişli hüquqi mühit sayəsində elm və təhsil müəssisələrində texnoloji transfer qurumlarının yaradılması təcrübəsi özünü doğrultmuşdur.

Onu da qeyd etmək lazımdır ki, texnoloji transferlərin sürətləndirilməsi üçün ölkədə əqli mülkiyyət hüquqlarının qorunması sistemi təkmilləşdirilməli, beynəxalq standartların səviyyəsi əldə edilməlidir. Əks halda, əqli mülkiyyətdən (o cümlədən aqrotexnologiyalardan) icazəsiz istifadə hallarına rast gəlinməsi qarşı tərəfin transfer prosesinə marağını azalda bilər. Digər tərəfdən, açıq innovasiya siyasətinin prioritetləri də diqqətdən kənarda qalmamalıdır. Göründüyü kimi, innovasiyalı inkişaf, xüsusilə texnoloji transfer mühitində əqli mülkiyyət hüquqlarının qorunması sisteminin inkişafında paradoksal vəziyyət yaranmışdır. Vəziyyətdən çıxış yolu kimi, beynəlxalq təşkilatların bəzi ekspertləri və mütəxəssislər tərəfindən ölkələrin inkişaf səviyyəsinin nəzərə alınması tövsiyə olunur. Bu tövsiyəni zəruri edən səbəb və onun həyata keçirilməsinin reallığa təsiri barədə aşağıdakını söyləyə bilərik.

Müəlliflik hüququnun qorunması sisteminin mükəmməlliyi inkişaf edən ölkələr üçün maneəyə çevrilməməlidir. Onsuz da, rəqəmsal mühitdə informasiyaya, o cümlədən texnoloji yeniliklər barədə informasiyaya kənar müraciətlərin qarşısını tamamilə almaq olmur. Odur ki, aqrar-ərzaq sektorunda açıq innovasiya siyasətinin prioritetləri əsaslandırılarkən ölkələrarası texnoloji inkişafdakı fərqlərin ümumi inkişafa ciddi mənfi təsiri nəzərə alınmalı, onların aradan qaldırılması üçün birgə və davamlı səylər göstərilməlidir.

Aqrar sahədə texnoloji innovasiyaların yayılması və mənimsənilməsinin, habelə texnoloji transferlərin tempinin və əhatə dairəsinin dinamikası daxili inkişaf motivləri ilə bilavasitə bağlıdır. Sivil bazar şəraitində aqrar istehsalın intensivləşdirilməsi və innovasiyalı fəaliyyətə üsütnlük verilməsinin iqtisadi və institusional təşviqinin hər hansı inzibati təsirlərlə əvəzlənməsi yolverilməz və perspektiv baxımından arzuolunmazdır. Müasir rəqabət mübarizəsi şəraitində diqtə olunan şərtlər daxilində yalnız innovasiyalı inkişaf rəqabətqabiliyyətli fəaliyyəti təmin etməyə etibarlı zəmin yaradır.

Bazara rəqabətqabiliyyətli məhsul (xidmət) çıxarmağa imkan verməyən innovasiyalar, bütün digər cəhətlərdən nə qədər cəlbedici olsa da, məlumdur ki, konkret istehsal subyekti üçün maraqlı olmayacaqdır. Azərbaycanda aqrar sahənin intensiv inkişafının dövlət tərəfindən sistemli surətdə dəstəkləndiyi bir şəraitdə də bu belədir. Məqbul rentabelliyi təmin etməyən hər hansı aqrotexnoloji

innovasiyanın tətbiqi perspektivlərinin, yaxın perspektivdə qeyri-müəyyən olaraq qalacağı ehtimalı yüksəkdir. Bir sözlə, aqrar sahədə texnoloji transferlərin intensivliyini şərtləndirən başlıca amil kimi inkişafın daxili motivləşdirilməsinin aktual məsələləri alim və mütəxəssislərin daim diqqət mərkəzində olmalıdır.

Maliyyə infrastrukturunun innovasiya tələblərinə cavab verməsi səviyyəsi texnoloji tarnsferlərin sürətinə ciddi təsir edir. Bilavasitə innovasiya təyinatlı infrastrukturun yaradılması, bu zaman elm-təhsil – istehsal fəaliyyətlərinin bir-birindən qarşılıqlı faydalanması üçün əlverişli mühitin yaradılması haqqında danışılan transfer proseslərinə yönəldilən maliyyə resurslarının miqdarı və strukturu, transferlərin sürətinə, əlbəttə ki, təsirsiz qalmır. İnfrastrukturun innovasiyalı fəaliyyət mühitində istifadəsi əlavə məsrəflər tələb edə bilər. Hətta ən modern infrastruktura malik inkişaf etmiş ölkələrdə də bu belədir. Eyni zamanda onu da qeyd edək ki, aqrar bazarın infrastrukturunda innovasiya amilinin nəzərə alınması institusional təminatdakı dəyişikliklərlə mümkündür ki, bu da zaman tələb edir.

Maliyyələşmənin innovasiyanın və texnoloji transferlərin sürətinə təsiri, araşdırmalardan və mütəxəssis rəylərindən məlum olduğu kimi, elm-istehsal birliklərinin tətbiqi elmi-tədqiqatlara yönəltdiyi vəsaitin miqdarından və startap maliyyələşməsinin əlyetənliyindən asılıdır. Startapların maliyyələşməsi məsələsinə gəldikdə isə bu işdə bir sıra maneələri aradan qaldırmaq lazımdır. İlk növbədə, onu qeyd edək ki, istənilən yenilik kimi texnoloji transferlər də, banklar tərəfindən yüksək riskli sahə hesab edilir. Odur ki, burada bankların yüksək marağından danışmaq çətindir. Maneə yaradan digər məsələ startapların kredit tarixinin olmamasıdır. Sadalanan və digər səbəblərdən haqqında danışılan startaplara maliyyə dəstəyi göstərən xüsusi sistemin yaradılmasına ehtiyac vardır. Böyük əminliklə demək olar ki, startaplar qoyulan vəsaiti məqbul müddət ərzində ödəyə biləcəklər. Onu da qeyd edək ki, perspektivli startaplara işin başlanğıcında zəruri dəstəyin verilməsi üçün mələk investorlara böyük ehtiyac vardır.

Aqrar sahədə texnoloji transferlərin sürətləndirilməsi tədbirlərinin səmərəliliyi xarici tədqiqatların kommersiyalaşdırılması üçün ayrılan maliyyə vəsaitinin məbləği və strukturu, habelə maliyyələşmə rejimindən birbaşa asılıdır. Haqqında danışılan vəsait ünvanlı olmalı və təbii ki, transferin məqsədi, gözlənilən nəticələr və s. hərtərəfli əsaslandırılmalıdır.

Sahədə texnoloji transferlərin zəruri tempinin təmin edilməsi baxımından dövlət-özəl bölmə tərəfdaşlığı layihələri, kifayət qədər mühüm rol oynaya bilər. Həmin tərəfdaşlıq çərçivəsində həyata keçirilən transfer layihələri çərçivəsində özəl sektorun innovasiya fəallığı aşağıdakı vasitələrlə təşviq edilə bilər [4]:

- kredit zəmanəti; texniki yardım; subsidiyalar; birbaşa investisiyalar üçün qrantlar; risk-kapitalı və s.

Aqrar sahədə texnoloji transferlərin sürətləndirilməsi məqsədilə dövlət-özəl bölmə tərəfdaşlığı imkanları müvafiq kadr hazırlığının səmərəliliyinin yüksəldilməsində ifadə oluna bilər.

Aqrar sahədə texnoloji transferlərin sürətləndirilməsi müvafiq institusional təminatın formalaşdırılmasını tələb edir. Həmin təminatın mühüm komponentləri kimi inkubasiya və akselerasiya mərkəzləri xüsusi rola malikdir. Həmin mərkəzlərin oxşar və fərqli cəhətlərini müqayisə etmədən qeyd edək ki, hər iki mərkəzdə aşağıdakılar təklif olunur:

- əsaslandırılmış startaplara nisbətən kiçik vəsait müqabilində fəaliyyət məkanı;
- toxumçuluğa maliyyə yardımı;
- uçot üzrə ilkin xidmətlər;
- hüquqi xidmətlər.

İnkubasiya və akselerasiya mərkəzləri ilə əməkdaşlıq aqrar qurumlara texnoloji transferlər prosesində qarşıya çıxan maneələri aradan qaldırmaqda kömək edir. Bu mərkəzlərin göstərdiyi yardım, texnoloji innovasiya və transfer mühitində fəallığı nəzərəçarpacaq dərəcədə yüksəldə bilir. Hətta haqqında danışılan nəzərəçarpacaq innovasiya fəallığı belə aqrar sahədə çalışan müəssisələrin rəqabət qabiliyyətini dəstəkləmək imkanındadır.

Ədəbiyyat

1. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı: Naşir, 2007, 602 s

2. Abbasov V. H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı: BDU, 2012, 424 s.

3. Aslanzadə İ.A., Tağıyev A.H., İnnovasiya menecmenti, Bakı: AzTU, 2018, 367 s.

4. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, Kooperasiya nəşriyyatı, 2017, 536 s.

Резюме

Кочарли Х.Р.

Направления ускорения технологических трансферов в аграрной сфере

Развитие аграрной сферы служит решению жизненноважных проблем на национальном и глобальном уровнях. Одним из важных средств повышения инновационной активности в аграрной отрасли является создание систем эффективных и ускоренных технологических трансферов. Технологические трансферы, позволяющие использовать последние технологические новшества развитых стран ускоряют инновационное развитие. С этой точки зрения в статье были подробно исследованы технологические трансферы в аграрной сфере и направления их ускорения.

Ключевые слова: *технологический трансфер, инновации, аграрное поле, эффективность.*

Summary

Kocharli H.R.

Direction of Acceleration of Technological Transfers in Agrarian Field

The development of the agrarian sector serves the solution of vital problems at the national and global levels. One of the important means of increasing innovative activity in the agricultural sector is the creation of efficient and accelerated technological transfer systems. Technological transfers allowing the use of the latest technological innovations of developed countries accelerate innovative development. From this point of view, the article examined in detail the technological transfers in the agricultural sector and the directions for their acceleration.

Key words: *technological transfer, innovation, agricultural field, efficiency*

İNSAN KAPİTALININ İQTİSADİ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Qazıyeva Səbinə Tahir qızı

Sumqayıt Dövlət Universiteti

ilqarosmanov1975@mail.ru

Xülasə: *Məqalədə insan kapitalının iqtisadi təhlükəsizliyin təmin olunmasında rolu qiymətləndirilmişdir. Dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək probleminin həll yollarından*

biri kimi insan kapitalından istifadənin səmərəliliyinin artırılmasının zəruriliyi əsaslandırılmışdır. İnsan kapitalı çərçivəsində milli iqtisadi təhlükəsizliyin qeyri-sabitləşdirici amilləri tədqiq edilmiş, insan inkişafı göstəriciləri və onların yaxşılaşdırılmasının ölkənin iqtisadi təhlükəsizliyinə təsiri araşdırılmışıdır. Dövlət səviyyəsində insan kapitalı sahəsində təcili həlli tələb olunan prioritet məsələlər tədqiq edilmişdir.

Açar sözlər: *insan kapitalı, iqtisadi təhlükəsizlik, təhsil, səhiyyə, həyat keyfiyyəti, ÜDM, demoqrafiya, investisiya*

Hər hansı bir sistemin tərkib hissəsi təhlükəsizlik anlayışıdır. Hal-hazırda iqtisadi təhlükəsizliyə dair məsələlər getdikcə daha aktualdır. Məhz dünya ictimaiyyətinin qloballaşma prosesi, siyasi, iqtisadi, sosial və s. əlaqələrin genişlənməsi təhlükəsizlik məsələsinin aktuallaşmasına gətirib çıxarmışdır. Dünya iqtisadiyyatının qloballaşmasının ziddiyyətli nəticələri iqtisadi fəaliyyət üçün daha mürəkkəb şərait yaradır, mümkün bazarlar və resurslar uğrunda mübarizəni sərtləşdirir. Bu vəziyyətdə, dünya maraqlarının qorunması və qlobal dünya iqtisadi məkanında müqayisəli üstünlüklərin həyata keçirilməsi məsələsi dünyanın hər bir ölkələri üçün getdikcə daha vacibdir. Beləliklə, ölkənin iqtisadi təhlükəsizliyi problemlərinin həlli dövlət siyasətinin ən vacib prioritetlərindən biridir və cəmiyyətin səmərəliliyi və sabitliyinə şərait yaradır.

İqtisadi təhlükəsizliyin təmin edilməsi yolu ilə dövlətin müstəqilliyinin, sabitliyin və cəmiyyətin səmərəliliyini təmin etmək olar. Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas problemi insan kapitalı, əhalinin həyat keyfiyyəti, təhsil, səhiyyə, əhalinin mədəniyyəti ilə bağlıdır. İnsan kapitalı intellektual kapitalın həlledici bir hissəsi kimi çıxış edir, biliklərin formalaşması, yaradıcı ideyaların və innovativ texnologiyaların yaradılması, təcrübənin əldə edilməsi üçün əsas yaradır. İqtisadiyyatın intellektual kapital yaratmaq və səmərəli istifadə etmək bacarığı bir millətin iqtisadi gücünü, onun rifahını müəyyən edir. Hər hansı bir dövlətin uğurlu sosial-iqtisadi inkişafı intellektual kapitalın rəqabət qabiliyyətindən, müxtəlif biliklər, ideyalar və məlumatlardan asılıdır. Buna görə də, ən inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının dövlət tənzimlənməsi insan kapitalının geniş yayılmış reproduksiyasına yönəlib [2].

Dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək probleminin həll yollarından biri insan kapitalından istifadənin səmərəliliyini artırmaqdır. Sivilizasiyanın inkişafının bütün mərhələlərində cəmiyyətin maddi və mənəvi həyatının zənginləşdirilməsi insan kapitalının formalaşmasında əsas amillərdən biridir.

İnsan kapitalı çərçivəsində milli iqtisadi təhlükəsizliyin qeyri-sabitləşdirici amilləri aşağıdakılar ola bilər: - demoqrafik göstəricilərin pisləşməsi; - əhalinin sağlamlıq göstəricilərində kəskin pisləşmə; - təhsilin keyfiyyətinin pisləşməsi və ölkənin elmi və texnoloji potensialının dağılması; - cəmiyyətdə sosial fərqliliklərin dərinləşməsi, əhalinin həyat keyfiyyətinin azaldılması.

Müasir dövrdə insan kapitalı potensialından iqtisadi təhlükəsizliyin gücləndirilməsində bir amil kimi istifadə etmək zərurəti bir sıra tədbirləri özündə birləşdirir. Həmin tədbirlər kimi formal və qeyri-rəsmi qurumların fəaliyyət mexanizmlərinin uyğunlaşdırılmasını, ölkənin insan kapitalının formalaşması və inkişafına yönəlmiş dövlət tədbirlərinin həyata keçirilməsini göstərmək olar.

İnsan kapitalının inkişaf səviyyəsinin ölçülməsində, məlum olduğu kimi, insan inkişaf indeksindən (İİİ) istifadə olunur. Bu göstərici həyat keyfiyyətinin qiymətləndirməsinin üç əsas göstəricisinə əsaslanır: təhsil, əhalinin ömür müddəti (uzunömürlülük) və adam başına düşən ÜDM.

Bir çox tədqiqatçıların fikrincə, milli insan kapitalını ciddi iqtisadi çərçivədə müəyyən etmək çox problemlidir. Milli insan kapitalı təhsil və səhiyyə xərclərini ehtiva edir, müəyyən

məhsuldarlıq səviyyəsinin, orta ömür sürətinin, ictimai rifahın qorunmasını təmin edir. Bundan əlavə, mənəvi və dini əsaslar insan kapitalının əsas komponentlərindəndir.

Hal-hazırda ölkəmizin insan kapitalının konsepsiyası çərçivəsində əsas problemləri əhalinin sağlamlıq və demoqrafik göstəricilərin yaxşılaşdırılması, təhsilin keyfiyyətinin, ölkənin elmi və texniki potensialının, əhalinin həyat keyfiyyətinin, mənəvi vəziyyətinin əhəmiyyətli dərəcədə artırılmasıdır. İnsan kapitalının keyfiyyəti müəyyən dərəcədə demoqrafik təhlükəsizliyin tərkib hissəsi kimi nəzərdən keçirilə bilər. Dövlətin iqtisadi təhlükəsizliyinin elementlərindən biri kimi insan kapitalının keyfiyyətinin gücləndirilməsi dövlət səviyyəsində nəzərə alınmalıdır.

Əmək bazarı çərçivəsində ölkənin demoqrafik inkişafında mənfi tendensiyaların təsirini azaltmaq üçün aşağıdakıları təklif edə bilərik:

- əhalinin iqtisadi fəaliyyətinin səviyyəsinin artırılması, işsizliyin azaldılması, iş vaxtının səmərəliliyinin artırılması, əmək qabiliyyətinin artırılması yolu ilə mövcud əmək ehtiyatlarının istifadəsinin və genişləndirilməsinin təkmilləşdirilməsi;
- istehsal sahəsinin modernləşdirilməsi və texnoloji yenilənməsi, kapital-əmək nisbətinin artması, texnoloji yeniliklər, fiziki kapitalın bərpası, həmçinin insan kapitalının inkişafı (kadrların hazırlanması və yenidən hazırlanması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, əhalinin sağlamlığı göstəricilərinin yaxşılaşdırılması).

İnsan kapitalı göstəricilərindəki pozulma probleminin həlli həm özəl sahibkarların mənfəətinin, həm də ölkənin ÜDM-nun artımına səbəb ola bilər. Ancaq sahibkarlar üçün insan kapitalına investisiyalar çox risklidir. Dövlət isə insan kapitalına investisiyanın əsas mənbəyi kimi çıxış etməlidir [1]. Ölkənin iqtisadi təhlükəsizliyini yaxşılaşdırmaqda təhsilin əhəmiyyətini qiymətləndirmək çətindir. Əhalinin yüksək təhsil potensialı ölkədə müxtəlif sosial-iqtisadi dəyişikliklər üçün katalizator ola bilər. Təhsilin keyfiyyəti ölkənin iqtisadi vəziyyətinə, onun iqtisadi təhlükəsizliyinə birbaşa təsir göstərir. Bilik iqtisadiyyatı belə bir beynəlxalq əmək bölgüsü təşkil edir ki, aşağı səviyyəli iş inkişaf etməkdə olan ölkələrin ixtisaslaşması olaraq qalır və yüksək peşəkar mütəxəssislər onların bilik və yaradıcı potensialı sayəsində yüksək gəlir əldə edirlər. Qeyd edək ki, öyrətmə prosesi tələbələrin şəxsi və ictimai əhəmiyyətli məqsədlərinin harmonik birləşməsini təmin etməlidir [4].

Təhsil prosesində xüsusi diqqət şəxsin fiziki inkişafına, sağlam həyat tərzinin qorunmasına yönəldilməlidir. İnsan kapitalı mənfəət dərəcəsinə bənzəyən daxili gəlir dərəcəsinə malikdir. İnsan kapitalının daxili gəlir dərəcəsi faydalar və təlim xərcləri arasındakı nisbət kimi hesablana bilər. Təhsilin müxtəlif növləri və səviyyəsi, təhsil sistemi və s. arasındakı investisiya axınlarının paylanmasında tənzimləyici məhz insan kapitalı hesab olunur. Cəmiyyətdə sosial fərqliliyi düzəltmək və əhalinin həyat səviyyəsinin yüksəldilməsi problemini həll etmək üçün ölkə iqtisadiyyatının müxtəlif sahələrində rəqabətə və daha yüksək ödənişli iş yerlərinin yaradılmasına imkan verən investisiya mühitinin yaxşılaşdırılması lazımdır. Bu, gender bərabərsizliyi problemini həll etmək, pulsuz təhsil və sağlamlıq xidmətlərinin ictimaiyyətə çatdırılması, həmçinin göstərilən xidmətlərin keyfiyyəti və müvafiqliyinə nəzarət baxımından əhəmiyyətlidir [3]. İqtisadi təhlükəsizliyin müəyyənləşdirilmiş problemlərini həll etmək üçün ölkənin inkişafı üçün insan potensialının qorunub saxlanmasına və inkişafına, milli dəyərlərin qorunmasına yönəlmiş demoqrafik, sosial və miqrasiya siyasətlərinin həyata keçirilməsi üçün yaxşı düşünülmüş tədbirlər kompleksi yaradılmalıdır.

Qeyd edək ki, ölkənin sosial-iqtisadi inkişafının ən perspektiv istiqaməti yüksək keyfiyyətli insan kapitalının bərpası üçün effektiv bir sistemin yaradılmasıdır. Təhsil və səhiyyə sahəsində milli layihələr şübhəsiz ki, bu işə öz töhfəsini verəcək, lakin ümumiyyətlə problemi həll etməyəcəklər.

Dövlət səviyyəsində insan kapitalının formalaşması və inkişafı üçün kompleks milli proqram hazırlamaq lazımdır. Bu proqram iqtisadi, təşkilati və inzibati tədbirləri özündə birləşdirməlidir.

Ümumiyyətlə, dövlət səviyyəsində insan kapitalı sahəsində təcili həlli tələb olunan prioritet problemlər aşağıdakılardır:

- ictimai maraqların bölüşdürülməsi mexanizmləri vasitəsilə kasıb və zənginlər arasında olan boşluğu aradan qaldırmaq.
- inkişaf etmiş ölkələrdə olduğu kimi, ÜDM-in strukturunda əmək haqqının payının artırılması, sosial təminat sahəsində daimi islahatlar aparmaq;
- yüksək keyfiyyətli insan kapitalının bərpası ilə əlaqəli milli iqtisadiyyatın sahələrini düzgün dövlət maliyyələşdirməsini təmin etmək;
- insan kapitalının formalaşması və inkişafı üçün təsərrüfat subyektlərinin məsuliyyətinin artırılması.

Fikrimizcə, ölkənin modernləşdirilməsində insan kapitalı əsas amil olmalıdır. Biz bütün sahələrdə insan kapitalının keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmadan ölkədə iqtisadi təhlükəsizliyi lazımi səviyyədə təmin edə bilmərik.

Ədəbiyyat

1. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı, Çap ART nəşriyyatı, 2017, 28 s.

2. Авдеев В.В. Управление персоналом: технология формирования команды. М.: Финансы и статистика. 2014, 544 с.

3. Крутько В.Н., Смирнова Т.М. Человеческий капитал. М.: «Цифровичок», 2012, 227 с.

4. Мызрова К.А., Иванов А.Н., Хаймурзина Н.З. Образовательные сети: методология подхода. Ульяновск, УлГУ, 2013, 177 с.

Резюме

Газыева С.Т.

Оценка роли человеческого капитала в системе экономической безопасности

В статье производится оценка роли человеческого капитала в обеспечении экономической безопасности. Обоснована необходимость повышения эффективности использования человеческого капитала как одного из основных путей решения проблемы экономической безопасности государства. В контексте человеческого капитала анализируются факторы нестабилизации в национальной экономической безопасности, показатели развития человека, а также влияние их улучшения на экономическую безопасность страны. Рассматривается решение приоритетных вопросов в области человеческого фактора на уровне государства.

Ключевые слова: *человеческий капитал, экономическая безопасность, образование, здоровье, качество жизни, ВВП, здоровье, демография, инвестиции*

Summary

Gaziyeva S.T.

Assessment of the Role of Human Capital in the Economic Security System

The article assesses the role of human capital in ensuring economic security. The necessity of increasing the efficiency of using human capital as one of the main ways to solve the problem of economic security of the state is substantiated. In the context of human capital, factors of non-stabilization in national economic security, indicators of human development, as well as the impact

of their improvement on the economic security of the country are analyzed. The author studies the solution of priority issues in the field of the human factor at the state level.

Key words: *human capital, economic security, education, healthcare, quality of life, GDP, demography, investment*

MİLLİ SƏNAYENİN SAHƏ QURULUŞU VƏ ONUN RESTRUKTURİZASİYASI İMKANLARI

Quliyev İbrahim Qədim oğlu
UNEC
Quluzadə Güllü İbrahim qızı
Azərbaycan Kooperasiya Universiteti
i.quliyev68@mail.ru, guluzada1997@gmail.com

Xülasə: *Sənayenin sahə quruluşu onun müxtəlif sektorları arasındakı nisbətləri, həmçinin iqtisadi səmərəliliyin yüksəldilməsində həmin sektorların rolunu əks etdirir. Onun optimallığı sənaye qarşısında qoyulan tələblərə uyğunluğu ilə müəyyən edilir. Sənayenin çoxlu sayda sahələrdən ibarət olması onun dayanıqlı inkişafını təmin edir. Sənayenin sahə quruluşu mövcud resursların bazasında yerli məhsullara olan daxili tələbatı təmin etməlidir.*

Açar sözlər: *sənaye, inkişaf, istehsal, rəqabət, səmərəlilik, investisiya,valyuta, ixrac.*

Məlum olduğu kimi, sənaye ölkə iqtisadiyyatının formalaşmasının və davamlı inkişafının bünövrəsi kimi çıxış edir. Onun sahə quruluşu bütövlükdə ölkə iqtisadiyyatının və eləcə də regionların tarazlı inkişafını şərtlədirən vacib amillərdən biridir. Təkmil sahə quruluşu iqtisadi məsələlərlə yanaşı demoqrafiya, urbanizasiya və məşğulluq kimi sosial məsələlərin həllində əhəmiyyətli rol oynayır. Bu baxımdan kənd təsərrüfatının, həmçinin ardıcıl olaraq yeyinti və yüngül sənaye sahələrinin inkişaf səviyyəsi baxımından digər sahələrdən geri qalması regionlardan iri şəhərlərə işçi qüvvəsinin axınına, regionlarda işsizliyin artımına, həyat səviyyəsinin aşağı düşməsinə və s. səbəb olur.

Sənayenin inkişaf səviyyəsi hər bir ölkənin dayanıqlı iqtisadi inkişafını səciyyələndirir, çünki o, milli iqtisadiyyatın mürəkkəb sahəsi olaraq, cəmiyyətin müxtəlif tərəflərinin inkişafını tələb edir və bu inkişaf səviyyəsindən asılı olaraq da onun rəqabət qabiliyyəti formalaşır.

Azərbaycan iqtisadiyyatının son illərə qədər, demək olar ki, xam neft və qaz ixracından asılılığı yüksək səviyyədə olmuşdur. Dünyanın aparıcı neft şirkətləri ilə bağlanan müqavilələr öz növbəsində müasir Azərbaycanın neft və qaz sənayesinin inkişaf sürətini artırmışdır. Əldə olunan valyuta gəlirlərindən məqsədli istifadə və aparılan genişmiqyaslı islahatlar sənayenin digər sahələrinin də tərəqqisinə səbəb olmuşdur. Yeni istehsal sahələrinin və müasir texnoloji-innovasion müəssisələrin yaradılması qısa müddət ərzində ölkənin Ümumi Daxili Məhsulunun (ÜDM) strukturunda sənaye istehsalının payının getdikcə artmasına gətirib çıxarmışdır.

Azərbaycanda neft gəlirləri qeyri-neft sahələrinin inkişafı üçün maddi baza rolunda çıxış etməklə, onların inkişafına təkan vermişdir. Respublikada yaradılan əlverişli investisiya mühiti və digər islahatlar qeyri-neft sahələrinin daha intensiv inkişafına zəmin yaratmışdır. Qeyri-neft sahələrinin inkişaf etdirilməsi məqsədilə aşağıdakı zəruri tədbirlər həyata keçirilməlidir:

• sənayedə restrukturizasiya proseslərinin sürətləndirilməsi;

• satış bazarı olan, bərpası və yenidən təşkili məqsədəuyğun sayılan sənaye müəssisələrinə dəstək proqramlarının həyata keçirilməsi;

• yüksək texnologiya və kadr potensialına malik müəssisələrdə beynəlxalq standartların tətbiqinin təmin edilməsi;

• bazarda azad rəqabət mühitinin formalaşdırılması;

• investisiyaların təşviqi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi prosesinin sürətləndirilməsi;

• ənənəvi milli sənətkarlıq sahələrinin bərpası və inkişafı;

• elmtutumlu sənaye istehsalının inkişaf etdirilməsi [6,səh.32].

Göstərilən tədbirlərin reallaşdırılması zərurəti dünya bazarında neftin qiymətinin dəyişməsi və devalvasiya proseslərinin baş verməsi zamanı milli sənayenin inkişafında sabitliyin təmin olunmasından irəli gəlir. 2014 və 2015-ci illərdə baş verən iqtisadi proseslər buna əyani sübutdur. Qeyd olunan dövrün sınağından uğurla çıxan ölkələrin təcrübəsindən yaralanmaq lazımdır. Hesab edirik ki, Azərbaycan da həmin ölkələr sırasındadır. Belə ki, son beş ildə qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatı, emal sənayesi və turizmin inkişafına dövlət qayğısı nəticəsində əhəmiyyətli irəliləyişlərə nail olumuşdur. Milli valyutanın məzənnəsinin sabitliyi təmin olunmuş, qeyri-neft sektorunda bir sıra məhsulların (pambıq, barama, tütün, çay, üzüm, fındıq və s.) ixracının əvvəlki illərlə müqaiysədə əhəmiyyətli şəkildə artırılması təmin edilmişdir.

Hazırda dünya iqtisadiyyatı növbəti sınaq qarşısındadır. Bir tərəfdən, neftin düya qiymətlərinin kəskin ucuzlaşması, digər tərəfdən isə, COVİD-19 virusu ilə bağlı külli miqdarda vəsaitin xərclənməsi hətta inkişaf etmiş ölkələrin iqtisadiyyatına təsirsiz ötüşməyəcəkdir. Bu prosesin başa çatması müddətinin qeyri-müəyyənliyi neft ölkələri, o cümlədən Azərbaycan qarşısında bir vəzifəni ön plana çəkir: *"Enerji daşıyıcıları əvəzinə ərzaq"* sindromundan yaxa qurtarmaq. Bu, mahiyyət etibarılə daxili tələbatın daha dolğun ödənilməsi, idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli valyutanın sabitliyi müstəvisində dövlətin iqtisadi qüdrətinin güclənməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi deməkdir.

Göstərilən vəzifələrin uğurla yerinə yetirilməsi milli sənayenin optimal sahə quruluşuna və ərazi təşkilinə söykənir. Bu məqsədlə iqtisadiyyatda aparılan struktur dəyişikliklərin və sənayenin fəaliyyətinin səmərəliliyi yüksəldilməlidir. Dövlətin sənaye siyasətinə uyğun olaraq, perspektivsiz hesab edilən sahələr özəlləşdirilməli və ya onlardan imtina edilməlidir. Bununla yanaşı, öz fəaliyyətini əsasən yerli xammaldan istifadə üzərində quran müəssisələr inkişaf etdirilməlidir. Emal sənayesi daha perspektivlidir. Belə ki, bu sahədə az vəsait qoymaqla daha çox nəticəyə nail olmaq mümkündür. Onun inkişafı isə öz növbəsində xammal istehsal edən sahələrin inkişafına təkan verir. Respublikamızın kifayət qədər xammal ehtiyatlarına malik olmasına baxmayaraq, hələ də bir sıra sənaye məhsullarına olan daxili tələbat idxal hesabına ödənilir. Bu məhsulların ölkə daxilində istehsalının təşkili istiqamətində işlər aparılmalıdır. Mövcud investisiya potensialı sənaye sahələri arasında vacibliyinə görə bölüşdürülməli və sənaye məhsullarının ixracı stimullaşdırılmalıdır.

Son illərdə qəbul edilmiş proqram və konsepsiyalar, o cümlədən "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, makroiqtisadi sabitliyin qorunması, özəl təşəbbüslərin dəstəklənməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi istiqamətlərini özündə birləşdirir. Ardıcıl olaraq, ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmək üçün aşağıdakı iqtisadi amillərin nəzərə alınması zəruri sayılır:

➢ iqtisadiyyatın şaxələndirilməsi, ÜDM-də qeyri-neft sektorunun payının artması

hesabına hasilat sənayesinin xüsusi çəkisinin azaldılması;

- mövcud iqtisadi potensialdan istifadə etməklə regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi;
- xarici bazarlarda yerli istehsal məhsullarının bazar mövqeyinin formalaşdırılması və möhkəmləndirilməsi;
- sosial sahələrin inkişafına diqqətin ayrılması;
- beynəlxalq inteqrasiyanın üstünlüklərindən yararlanmağı təmin edən qabaqlayıcı inkişaf modelinə keçidin təmin olunması [3].

Azərbaycan sənayesinin yüksək inkişaf mərhələsinə çatdırılması məqsədilə onun institusional, infrastruktur təminatının yaxşılaşdırılması, investitisya cəlbediciliyinin yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilir. Bu baxımdan dünya dövlətlərinin uğurlu təcrübələri nəzərə alınaraq, ölkədə müasir sənaye komplekslərinin yaradılmasını xüsusi qeyd etmək olar.

Müasir Azərbaycan sənayesinin sahə quruluşunu "rəqəmlərin dili" ilə ifadə etsək, demək olar ki, ümumi sənaye istehsalında mədənçıxarma və emal sənayesinin xüsusi çəkiləri 2014, 2015 və 2018-ci illərdə uyğun olaraq 68.5% və 25.1%, 62.5% və 29.9%, 73.3% və 22.0% kimi olmuşdur. Tədqiq olunan dövrdə emal sənayesinin payı müəyyən tərəddüdlərlə xarakterizə olunsa da məlum səbəblərdən (digər sahələrin, xüsusilə də hasilat sənayesinin üstün inkişafı) son illərdə yenidən azalmağa başlamışdır. Bu da hələ ki arzu olunan nəticə deyil.

Təbii ki, müasir dövrdə bütün sənaye sahələrinin elmin və texnikanın yeni nailiyyətləri əsasında köklü surətdə yenidən silahlanması vacibdir. Sənaye müəssisəsində yaradılmış istehsal potensialından intensiv istifadə edilməli, istehsalın ahəngdar inkişafına, avadanlıqların maksimum yüklənməsinə və bu əsaslarda hər vahid avadanlıqdan, hər kvadrat metr istehsal sahəsindən məhsul istehsalının həcminin artırılmasına nail olunmalıdır.

Ədəbiyyat

1." Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri". Bakı, 2016.

2. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı". Bakı, 2015.

3. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012.

4. Əliyev S. Azərbaycanda sənaye sahələrinin modernləsdirilməsi problemləri və prespektivləri. Bakı, 2010

5. Həsənov R.T. İqtisadi siyasət: metodologiya və praktika. Bakı: İqtisad Universitetinin nəsriyyatı, 2009.

6. Hüseynov Ə.A. Sənaye müəssisələrinin modernləşdirilməsinin əsas istiqamətləri. Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun elmi əsərləri, № 1. Bakı, 2017.

Резюме

Гулиев И.Г., Гулизаде Г.И.

Отраслевая структура национальной промышленности и возможности его реструктуризации

Отраслевая структура промышленности отражает пропорции ее различных секторов, роль отдельных секторов в повышении экономической эффективности. Его оптимальность определяется соответствием требованиям, предъявляемых

промышленностью. Организация промышленности из больших количеств отраслей обеспечивает ее устойчивое развитие. Отраслевая структура должна обеспечивать внутренние потребности на местные продукты в пределах имеющихся ресурсных возможностей. Представленная статья отражает в себе направления адаптации отраслевой структуры к современным тенденциям развития.

Ключевые слова: *промышленность, развитие, производство, конкуренция, эффективность, инвестиции, валюта, экспорт.*

Summary

Guliev I.G., Gulizade G.I.

Sectoral Structure of National Industry and the Possibility of its Restructuring

The sectoral structure of industry reflects the proportions of its various sectors, the role of individual sectors in increasing economic .Its optimality is determined by its compliance with the requirements of the industry. The organization of the industry in many areas ensures its sustainable development. The sectoral structure of the industry should meet domestic needs with local products within the available resource oppurtunities. The presented article reflects the directions of adapting the industry structure to modern development trends.

Key words: *industry, development, production, competition, efficiency, investment, currency, export.*

YERLİ SOSİAL MÜDAFİƏ PROQRAMLARININ ƏSAS İSTİQAMƏTLƏRİ

Məmmədli Vüqar Əhməd oğlu
Mingəçevir Dövlət Universiteti
maliyeci640@gmail.com

Xülasə: *Sosial siyasətin əsas istiqamətini ailənin gəlirlərinin artırılması təşkil edir. Bu məqsədlə əməkqabiliyyətli şəxslər işə cəlb edilir. Eyni zamanda məcburi tibbi sığorta və məqsədli sosial yardım sistemi tətbiq edilir.*

Açar sözlər: *yaşayış minimumu, minimum istehlak səbəti, yoxsulluq səviyyəsi, icbari tibbi sığorta, ünvanlı sosial yardım*

Sosial müdafiə və sosial inkişaf proqramlarının əsas istiqamətləri hər bir ölkənin sosial siyasəti ilə müəyyən edilir. Sosial siyasət dövlətin və bələdiyyələrin tədbirlər planı olmaqla, əhalinin yaşayış səviyyəsinin formalaşdırılması, insan kapitalının artırılması, sosial xidmətlərin göstərilməsi və sosial infrastrukturun yerli səviyyədə inkişafı sahəsini əhatə edir. Sosial siyasət vətəndaşların əsas konstitusion hüquqlarının reallaşdırılmasıdır. Sosial siyasətin reallaşdırılmasının əsas alətləri, maliyyələşmənin normativlərinin müəyyən edilməsi, standart və proqramların hazırlanması və müvafiq qanunların qəbul edilməsidir. Siyasətə qarşıya qoyulmuş məqsədlərə çatmağa imkan yaradan fəaliyyətin və qərarların qəbul edilməsinə rəhbərlik kimi baxmaq lazımdır. Sosial siyasətin müəyyənləşdirilməsi və aparılması mürəkkəb məsələ kimi qiymətləndirilir. Belə ki, sosial siyasət bütövlükdə cəmiyyətin sosial rifahı və hər bir fərdin həyat səviyyəsi ilə bağlıdır. Sosial problemlər maliyyə vəsaiti kifayət qədər olmadıqda öz həllini tapa bilmir [1]. Sosial sferanın maliyyələşdirilməsinin sabitliyi məqsədilə dövlət və yerli orqanlar arasında cavabdehlik ayırd edilir,

qanunla hər bir büdcə üzrə gəlir bərkidilir, ayrı-ayrı qruplar arasında yaşayış minimumu və transfertin miqdarı müəyyən edilir, işsizlizlərə müavinət verilir.

Sosial müdafiə sisteminin formalaşmasının aşağıdakı mərhələləri vardır:

- Əhalinin məqsədli qruplarının ayrılması, yəni sosial müdafiəyə ehtiyacı olanların müəyyən edilməsi. Buna görə ailə gəlirlərinin təyinolunma kriteriyaları və nəzarət mexanizmi tətbiq edilir;

- Sosial köməyin üsulunu secmək. Bu məqsədlə sosial qruplara köməklər bağlanmalı (aid edilməli);

- Sosial qrupun düzgün müəyyən edilməsi məqsədilə həyat səviyyəsinin qiymətləndirilməsi. Buna görə ailə büdcəsində bütün alınan gəlirlər istər pul, istər natural formada araşdırılmalıdır. Sosial köməyin ünvanını düzgün müəyyən etmək üçün minimum istehlak səbəti müəyyənləşdirilir. Minimum istehlak səbəti zəruri məhsul və xidmətləri birləşdirir;

- Müavinət və güzəştlərin çatdırılması üsullarınnın seçilməsi. Belə ki, pul və natural formada çatdırıla bilər.

Dünya təcrübəsində dövlətin sosial rolunun əsas və aktual aspektlərindən biri yoxsulluq səviyyəsinin aşagı salınmasıdır. İşsizlik, işçi qüvvəsinin qiymətinin və pensiyanın məbləğinin aşağı olması yoxsulluğa səbəb olur. Ailədə himayədə olanların sayının çox olması, davamlı gəliri olmayan, yaşayış yeri olmayanların sayının çox olması yoxsulluq səviyyəsinin artmasına səbəb ola bilir. Sosial sferanın inkişafına dair strateji proqramların hazırlanması və maliyyə mənbəyinin müəyyən edilməsi, sosial xidmətlərin təminatının norma və standartlarının müəyyən edilməsi sosial sahədə dövlət nizamlamasının əsas alətidir.

Ölkəmizdə yerli sosial proqramların əsas istiqamətlərini əmək qabiliyyətli şəxsləri işə cəlbetməklə ailənin gəlirlərini artırmaq, icbari tibbi sığortanın, ünvanlı sosial yardımın tətbiqi və həyat şəraiti çətin olan şəxslərə sosial xidmətlərin göstərilməsi təşkil edir. Sahibkarlığın inkişafına vətəndaşların fəal iştirakına dəstək məqsədilə 2016-cı ildə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Ağentliyinin tabeliyində "Abad" Asan Biznesə Asan dəstək publik hüquqi şəxsi yaradılmışdır. "Abad" mərkəzləri tərəfindən qida məhsullarının istehsalı və sənətkarlıq işində fəaliyyət göstərən ailə biznesinə dəstək layihələri həyata keçirilir. Eyni zamanda həmin ildən aztəminatlı ailələrə ünvanlı sosial yardım verilir.

2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti özünüməşğulluq proqramı üzrə "Öz biznesinə başla" adlı təlimlərə başlayıb. Bir aylıq təlim müddətində müraciət edənlərə biznes-plan qurmaq, kiçik biznesin təşkili və inkişaf etdirilməsi üzrə bilik və bacarıqlar öyrədilir. Hər təlimin yekununda iştirakçıların özünüməşğulluq fəaliyyətinə hazırlıq səviyyələri, onların hazırladıqları biznes-planlar qiymətləndirilir. Qiymətləndirmədə əsas meyar motivasiya, peşəkarlıq, biznes ideyasının reallaşdırılmasına hazırlıqdır. Qiymətləndirmədən müsbət rəy alanlar kiçik ailə təsərrüfatlarının formalaşdırılması üçün mal və materiallarla (aktivlərlə) təmin edilir. Özünüməşğulluq, şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi deməkdir. Belə ki, aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Bu tədbirlər xüsusi proqram əsasında həyata keçirilir [2]. Bu proqramla fərdi təsərrüfatların yaradılması məqsədilə aztəminatlı ailələrə müxtəlif aktivlər verilməklə dəstək olunur. Aktivlər nağd vəsait olmamaqla natura şəklində olur. İştirakçılar biznes plan əsasında xidmət və ya istehsal avadanlıqları ilə təmin edilir. Məhz bu cəhət özünüməşğulluq proqramını digər ölkələrin təcrübəsindən fərqləndirir. Proqram məşğulluqla bərabər digər məqsədlərin həllinə şərait yaradır. Özünüməşğulluq ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşmasına, mikro və kiçik sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılmasına, ictimai

vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına, iqtisadiyyatda inkluzivliyin gücləndirilməsinə istiqamətlənməklə digər sosial tədbirlərdən fərqlənir. Eyni zamanda sosial siyasətin passiv obyekti olan insanları sahibkar olaraq sosial siyasətin subyektinə çevrilmək şəraiti yaradır.

Həyat şəraiti çətin olan şəxslərə sosial xidmətlər dövlət hakimiyyəti orqanları ilə bərabər, bələdiyyələr tərəfindən həyata keçirilir. Qanunvericiliyə əsasən bələdiyyələrin sosial siyasətinin əsasını dövlətin proqramlarında nəzərdə tutulmayan əlavə sosial layihələrin həyata keçirilməsi təşkil edir. Onların təminatları birdəfəlik və mütəmadi ola bilər [3]. Bələdiyyələrin sosial proqramlarının ana xəttini maddi və mənəvi yardıma ehtiyacı olan sosial təbəqəyə əlavə yardım göstərilməsi təşkil edir. Ərazidə olan müəssisələrin həyata keçirdiyi sosial tədbirlərdə əhalinin yaşayış səviyyəsinin yaxşılaşmasına səbəb olur. Müəssisələrin sosial proqramları yerli sosial siyasətin əsas istiqamətidir. Müəssisədə olan sosial fondlar mühüm funksiya yerinə yetirir - motivasiya ilə əmək məhsuldarlığını və ictimai istehsalı artırır. Sosial fondların ölçüsü müəssisələrin maliyyə-təsərrüfat nəticələrindən, yəni qazancından asılıdır. Dünya təcrübəsində müəssisələrin sosial siyasəti iki istiqamətlidir. 1.Müəssisədə işçiyə ancaq əmək haqqı, təsiscilərə isə divident ödənir. 2. Müəssisə işçilərə digər sosial xidmətlər göstərir. Məsələn, uşaq bağcası və tibb məntəqəsi təşkil edir. Rentabelli işləyən müəssisələr: istirahət ocaqları, yeməkxana, idman-sağlamlıq kompleksi inşa edirlər. Müəssisənin sosial tədbirlərinin strukturu kollektiv danışıqlar və sosial partnyorluq əsasında müəyyən edilir [4]. Əmək ödənişinin ölçüsü, işçilərə əlavələrin veriməsi, zərərli və ağır əmək şəraitinə görə əlavələr, yaşayış binalarının tikintisi, sosial-mədəni təyinatlı xidmətlər, pensiyacılara və uşaqlı ailələrə, sosial güzəştlər, tibb xidməti, fiziki tərbiyə, şəxsi sığorta, pul subsidiyası (ev almaq ücün), kadrların hazırlanması sosial partnyorluq əsasında müəyyənləşir. Sosial partnyorluq çərçivəsində müəssisənin sosial proqramlarının hazırlanması aşağıdakıları əhatə edir:

1. İşçilərin əmək şəraitinin təminatı, istirahəti, məişəti, sosial infrastrukturun saxlanması üzrə işəgötürənlərin hüquq və vəzifələrini; 2. İşçilərin yaşayış minimumu əmək haqqı hesabına təminatı üzrə işəgötürənin məsuliyyətini; 3. Kompensasiya və həvəsləndirici ödənişlərin tətbiqini.

Sosial partnyorluqla yanaşı ölkə qanunvericiliyinə əsasən təhlükəsiz əmək şəraitinin yaradılması, eyni zamanda ixtisassız əməyə minimum əməkhaqqının verilməsi işəgötürənlərin vəzifəsidir. Minimum əmək haqqı ixtisassız əməyə və xidmətə görə ən aşağı səviyyədə müəyyənləşdirilmiş bir aylıq sosial normadır. Bazar şəraitində əməyin qiyməti açıq rəqabət əsasında işəgötürənlə əmək qüvvəsini satan arasında formalaşır. Aşağı əməkhaqqı tələbi məhdudlaşdırır, əməyin məhsuldarlığını aşağı salır. Ölkəmizdə minimal əmək haqqının bir ildə 130 manatdan 250 manata çatdırılması, ixtisaslı əməyin qiymətinin əsaslı surətdə artımına səbəb olmuşdur. Ölkəmizdə sosial siyasətin təkmilləşdirilməsi farmasept sənayesinin inkişafı və icbari tibbi sığortanın tətbiqi istiqamətində aparılır.

Dünya təcrübəsində sosial problemlər "uyğunlaşma" və "qoruyucu" metodların birləşməsi ilə həll olunur [5]. Uyğunlaşma metodu ilə əmək qabiliyyətli əhali işlə təmin edilir, əməkhaqqı artırılır, sosial partnyorluq tətbiq edilir. Qoruyucu metodla əlilliyi olan, dövlətin dəstəyi olmadan yaşaya bilməyən şəxslər maliyyə vəsaiti və sosial xidmətlərlə təmin edilirlər. Hesab edirik ki, yerli özünüidarəetmə orqanlarının və müəssisələrin qəbul etdikləri yerli sosial müdafiə və sosial inkişaf proqramları bu metodların tətbiqi ilə həyata keçirilməlidir.

Ədəbiyyat

1. Мамедли В.А. "Особенности финансовой политики муниципалитетов" "Экономика и бизнес". Теория и практика. №10, Новосибирск: 2016, т.73-77.

2. “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli Sərəncamı.

3. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 2 iyul 1999-cu il, № 698-IQ.

4. Бабич А.М., Павлова Л.Н. Государственные и муниципальные финансы. М.: 2002, с. 420-425.

5. Мамедли В. А. Особенности социальной политики муниципалитетов. Теорія та практика сучасної науки та освіти. Матеріали Міжнародної наукової конференції. 29-30 листопада, 2019 р., м.Дніпро.

Резюме

Маммадли В.А.

Основные направления местных программ социальной защиты

Основные направления социальной политики составляют увеличение доходов семей. С этой целью трудоспособные лица привлекаются к работе. Одновременно, применяется обязательное медицинское страхование и адресная социальная помощи.

Ключевые слова: *прожиточный минимум, минимальная потребительская корзина, уровень бедности, обязательное медицинское страхование, адресная социальная помощь.*

Summary

Mammadli V.F.

Main Directions of Local Social Protection Programs

Social policy priorities is to increase family income. Able-bodied persons attracted to this end. At the same time, compulsory health insurance and social assistance is used.

Key words: *subsistence minimum, minimum consumer basket, poverty level, compulsory health insurance, targeted social assistance.*

KƏND TƏSƏRRÜFATI İQTİSADİYYATININ İNKİŞAFINDA DÖVLƏTİN TƏNZİMLƏNMƏ FUNKSİYALARININ GENİŞLƏNDİRİLMƏSİ

Məmmədova Elnarə Məmmədəli qızı

Sumqayıt Dövlət Universiteti

ilqarosmanov1975@mail.ru

Xülasə: *Dövlət tənzimlənməsinin əhatə etdiyi bir çox sahələr mövcuddur. Belə sahələrdən biri kənd təsərrüfatıdır. Kənd təsərrüfatının iqtisadiyyatının inkişafı xeyli dərəcədə dövlət tənzimlənməsi səviyyəsindən asılıdır. Məqalədə kənd təsərrüfatı iqtisadiyyatının dövlət tənzimlənməsinin məqsədi araşdırılmışdır. Kənd təsərrüfatının dövlət tənzimlənməsi funksiyaları haqqında məlumat verilmiş və həmin funksiyaların reallaşdırılması üçün tələb olunan istiqamətlər tədqiq edilmişdir. Azərbaycanda kənd təsərrüfatının istehsalına və kənd yerlərinin davamlı inkişafına dövlət dəstəyinin təmin edildiyi əsas sahələr müəyyən edilmişdir.*

Açar sözlər: *kənd təsərrüfatı, dövlət tənzimlənməsi, ərzaq, istehsal, məhsul, qiymət*

Müasir şəraitdə ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi aktual problemlərdən biridir. Bu sahədə dövlət tənzimlənməsinin rolunun və təsirinin artması vacibdir. Sənayenin xammal ilə, əhalinin qida və ərzaq təhlükəsizliyinin təminatı onun uğurlu inkişafından asılıdır. Kənd təsərrüfatı iqtisadiyyatının inkişafı dövlətin bütün səviyyələrdə (hüquqi, iqtisadi, sosial) aktiv müdaxiləsi olmadan mümkün deyil. Bu, kənd təsərrüfatı iqtisadiyyatının və bütün aqrar-sənaye kompleksinin milli səviyyədə və hər bir regionda inkişafının effektiv dövlət tənzimlənməsinin mövcudluğunu nəzərdə tutur. Bu tələbin yerinə yetirilməsi kənd təsərrüfatı iqtisadiyyatının dövlət tənzimləmə sisteminin daim təkmilləşdirilməsinə ehtiyac duyur.

Bazar iqtisadiyyatında kənd təsərrüfatının inkişafının tənzimlənməsi çox genişdir. Bütün ölkələrdə kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi təmin edilir. Hökumətin kənd təsərrüfatını tənzimlənməsi hərtərəfli tədbirlərin həyata keçirilməsini tələb edir. Kənd təsərrüfatının iqtisadiyyatının bütöv bir inkişafının gedişatı makroiqtisadi tənzimləmədən asılıdır. Kənd təsərrüfatında makroiqtisadi tənzimləmənin ən mühüm komponenti kənd təsərrüfatının strukturunu inkişaf etdirməkdir. Əkinçilik sahəsinin quruluşu prinsipcə, istehsalçıdan istehlakçıya qədər kənd təsərrüfatı məhsullarının tədarükünün bütün mərhələlərini əhatə edir[2]. Kənd təsərrüfatının inkişafında dövlətin iştirakı məsələsi həmişə qızğın müzakirə obyekti olmuşdur. Ancaq aydındır ki, müasir kənd təsərrüfatına dövlətin müdaxiləsi çox vacibdir. Təcrübə göstərir ki, inkişaf etmiş ölkələr kənd təsərrüfatının iqtisadi inkişafına bütün təsir vasitələrini səfərbər edirlər.

Kənd təsərrüfatının dövlət tənzimlənməsinin əsas məqsədi aşağıdakılardır:

- kənd təsərrüfatı məhsulları və istehsalçılarının rəqabət qabiliyyətinin artırılması;
- ərzaq məhsullarının keyfiyyətinin təmin edilməsi;
- kənd yerlərinin davamlı inkişafının təmin edilməsi, kənd əhalisinin məşğulluğu, yaşayış səviyyəsinin yüksəldilməsi, o cümlədən kənd təsərrüfatında çalışan işçilərin mükafatlandırılması;
- kənd təsərrüfatı istehsalında istifadə olunan təbii ehtiyatların mühafizəsi və bərpası;
- kənd təsərrüfatı məhsullarının, xammal və qida məhsullarının yaxşı işləyən bazarının formalaşması, kənd təsərrüfatı istehsalçılarının rentabelliyinin artırılması və bu bazarın infrastrukturunun inkişafının təmin edilməsi;
- əlverişli investisiya mühiti yaratmaq və kənd təsərrüfatına investisiyaların artırılması və s.

Kənd təsərrüfatının dövlət tənzimlənməsinin aşağıdakı funksiyaları mövcuddur:

- effektiv ixtisaslı bazar subyektlərinin yaradılması;
- ərzaq üçün davamlı tələbatın təmin edilməsi və onların təchizatı;
- torpaq, maddi və texniki resurslar, kapital və qida məhsullarının bazarlarını təmin etmək üçün infrastruktur sisteminin yaradılmasını təşviq etmək;
- davamlı inkişaf üçün elmi və kadr dəstəyini təşviq etmək [1].

Azərbaycanda kənd təsərrüfatının dövlətin tənzimləmə funksiyalarını reallaşdırmaq üçün aşağıdakı sahələrə diqqət yetrimək tələb olunur:

1. Tənzimləmənin hüquqi bazasını, hüquqi dəstəyi yaratmaq. Bu funksiya inhisarçı strukturların mənfi təsirinin qarşısını almaq məqsədi daşımalıdır.

2. Bütün kənd təsərrüfatı bazarlarında rəqabət mühitinin formalaşması. Bu, kənd təsərrüfatının yekun gəlirinin bütün vahidlərinin xərclərinə mütənasib olaraq yenidən bölüşdürülməsinə kömək edəcəkdir. Əlavə olaraq, qiymətlərin bərabərsizliyini aradan qaldırmaq üçün enerji, nəqliyyat və kommunikasiya təşkilatlarının fəaliyyətinin tənzimlənməsində dövlətin rolunu gücləndirmək üçün qanunvericilik bazası təkmilləşdirilməlidir.

3. Kənd təsərrüfatında davamlı iqtisadi artımın dəstəklənməsi əmtəə istehsalçılarının bazar şərtlərinə uyğunlaşması üçün şərait yaradır. Bu sahədə dövlət tənzimləməsinin əhəmiyyətli bir

funksiyası qida və kənd təsərrüfatı xammalına sabit bir tələbatın təmin edilməsidir. Dövlət, kənd təsərrüfatı məhsullarının qiyməti sisteminin tənzimlənməsi yolu ilə əhalinin əsas qruplarının gəlirlərinin formalaşmasına təsir göstərərək ümumi ictimai tələbatın formalaşmasına kömək etməlidir.

4. Gömrük tarifləri sisteminin köməyi ilə ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxal olunan bəzi ərzaq məhsullarına vergi dərəcələrinin tətbiq edilməsi məqsədəuyğundur.

5. Xarici investorlar üçün əlverişli bir iqlim yaratmaq, kənd təsərrüfatında birgə müəssisələrin formalaşdırılması, qabaqcıl avadanlıq və texnologiya idxal edərkən xarici borc verənlərin dövlət təminatları sisteminin inkişaf etdirilməsi.

6. Kənd təsərrüfatında qiymətlərin tənzimlənməsi, səmərəli vergi və kredit siyasəti həyata keçirmək.

7. Kənd təsərrüfatında antiinhisar siyasətini həyata keçirmək. Antiinhisar siyasəti, təsərrüfat subyektlərinin inhisar davranışına qarşı mübarizədir.

8. Aqrar-sənaye kompleksinin filiallarının inkişafında mütənasibliyi təmin etmək üçün balans sistemini tətbiq etmək. Bu sistemin tətbiqi kənd təsərrüfatı istehsalının həcmini həmin sahənin maddi-texniki təchizatına, emalı sənayesinin potensialını kənd təsərrüfatı məhsullarının emal həcminə uyğunlaşdıracaqdır.

9. Kənd təsərrüfatı məhsullarına tələbatın həcmi və strukturunu müəyyənləşdirmək üçün adambaşına qida məhsulları və qeyri-ərzaq məhsulları istehlakının rasional istifadəsi tövsiyə olunur. Kənd təsərrüfatı istehsalının planlaşdırılmasında maddi resursların istifadəsi üçün standartlar istifadə olunmalıdır.

Azərbaycanda kənd təsərrüfatının istehsalına və kənd yerlərinin davamlı inkişafına dövlət dəstəyinin təmin edildiyi əsas sahələri aşağıdakı kimi müəyyən edə bilərik:

1) kənd təsərrüfatı istehsalçıları üçün kredit resurslarının mövcudluğunu təmin etmək, kənd təsərrüfatı məhsulları istehsal etmək, onları emal etmək və müvafiq xidmətlər göstərmək;

2) kənd təsərrüfatında risklərin sığortası sisteminin inkişafı;

3) heyvandarlıın inkişafı;

4) elit toxum istehsalının inkişafı;

5) heyvandarlıq məhsulları istehsalının təmin edilməsi;

6) çoxillik əkinlərin yaradılması və onlara qayğı göstərilməsi;

7) kənd təsərrüfatı istehsalçılarının əsas vəsaitlərinin yenilənməsini təmin etmək;

8) torpağın məhsuldarlığını artırmaq üçün tədbirlərin təmin edilməsi;

9) kəndləri birləşdirən yolların tikintisi və saxlanması da daxil olmaqla, kənd yerlərinin davamlı inkişafını təmin etmək;

10) kənd təsərrüfatı istehsalçılarına məsləhət xidmətinin göstərilməsi, kənd təsərrüfatında mütəxəssislərin hazırlanması və yenidən hazırlanması;

11) dövlət aqrar siyasətinin həyata keçirilməsində informasiya dəstəyi.

Qeyd edək ki, regionda kənd yerlərinin davamlı inkişafı üçün əsas prioritetlərin müəyyənləşdirilməsi kəndin çoxsaylı problemlərinə baxmayaraq, dövlət siyasətinin həyata keçirilməsinə, kənd təsərrüfatının inkişafına dair strategiyanın formalaşdırılmasına, sosial-iqtisadi inkişaf tempinin artırılmasına və yaşayış səviyyəsinin yüksəlməsinə şərait yaratmağa kömək edəcəkdir.

Ədəbiyyat

1. Быстрова Г. Е. Аграрное право. Ульяновск, 2012, 130 с.
2. Паяцов А. Г. Государственное регулирование экономики за рубежом: аграрный аспект. М.: МиД, 2006, 350 с.

Резюме

Мамедова Э.М.

Расширение функций государственного регулирования в развитии экономики сельского хозяйство

Существует множество отраслей, охватываемых государственным регулированием. Одна из таких отраслей - сельское хозяйство. Развитие экономики сельского хозяйство во многом зависит от уровня государственного регулирования. В статье исследованы цели государственного регулирования экономики сельского хозяйства. Дана информация о функциях государственного регулирования сельского хозяйства и исследованы направления их реализации. Определены основные отрасли, определяющие государственную поддержку поступательного развития сельских местностей и сельского хозяйства в Азербайджане.

Ключевые слова: *сельское хозяйство, государственное регулирование, продовольствие, производство, продукт, цена*

Summary

Mammadova E.M.

The Expansion of the Functions of State Regulation in the Development of the Agricultural Economy

There are many industries covering government regulation. One such industry is agriculture. The development of the agricultural economy largely depends on the level of state regulation. The article explores the goals of state regulation of the agricultural economy. Information is given on the functions of state regulation of agriculture and the directions of their implementation are researched. The main sectors that determine state support for the ongoing development of rural areas and agriculture in Azerbaijan are identified.

Key words: *agriculture, state regulation, food, production, product, price*

MÜƏSSİSƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİK GÖSTƏRİCİLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məmmədova Elnarə Şəmsi qızı

Sumqayıt Dövlət Universiteti

mamedovaelnara80@gmail.com

Xülasə: *Məqalədə müəssisənin iqtisadi təhlükəsizliyinin funksional məqsədləri və həmin məqsədlərə uyğun qarşıya qoyulan vəzifələr müəyyənləşdirilmişdir. Sənaye müəssisəsinin iqtisadi təhlükəsizliyinin səviyyəsini qiymətləndirmək üçün onun fəaliyyətini hərtərəfli xarakterizə edən meyarlar və göstəricilər sisteminin yaradılmasının zəruriliyi əsaslandırılmışdır. Müəssisənin iqtisadi təhlükəsizliyini xarakterizə edən istehsal, maliyyə-iqtisadi və sosial göstəricilərin hər biri nəzərdən keçirilmişdir.*

Açar sözlər: *müəssisə, iqtisadi təhlükəsizlik, göstərici, istehsal, maliyyə, qiymətləndirmə*

Müəssisənin iqtisadi təhlükəsizliyinin səviyyəsi onun idarə edilməsinin daxili və xarici təhlükələrin qarşısını almağa, ümumi mühitin müəyyən mənfi komponentlərinin zərərli təsirini aradan qaldırmağa nə dərəcədə təsirli olduğuna bağlıdır. Müəssisənin iqtisadi təhlükəsizliyinin əsas məqsədi onun davamlı, maksimum səmərəli işləməsi və gələcək inkişaf üçün yüksək potensialın təmin edilməsidir.

Müəssisənin iqtisadi təhlükəsizliyinin funksional məqsədləri aşağıdakı məqsədlərdən irəli gəlir:

- zəruri korporativ ehtiyatların (kapital, kadr, hüquqlar, informasiya, texnologiya) formalaşdırılması;
- müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin strateji və taktiki planlaşdırılması;
- iqtisadi təhlükəsizliyin funksional komponentlərinə görə taktiki planlaşdırılması;
- iqtisadi təhlükəsizlik səviyyəsinin funksional təhlilinin həyata keçirilməsi.
- müəssisənin yüksək maliyyə səmərəliliyini, sabitliyini və müstəqilliyini təmin etmək;
- texnoloji müstəqilliyi təmin etmək və texniki potensialın yüksək rəqabət qabiliyyətinə nail olmaq;
- yüksək idarəetmənin, təşkilati strukturun optimallığı və səmərəliliyi;
- kadr hazırlığının yüksək səviyyəsi və intellektual potensialı, korporativ elmi-tədqiqat işlərinin səmərəliliyi;
- istehsal fəaliyyətinin nəticələrinin ətraf mühitə dağıdıcı təsirini minimuma endirilməsi;
- müəssisənin hər tərəfli, yüksək keyfiyyətli hüquqi müdafiəsi;
- informasiya sahəsinin, ticarət sirrinin qorunmasını təmin etmək və bütün bölmələrin işi üçün lazımi səviyyədə informasiya dəstəyinə nail olmaq;
- müəssisənin işçilərinin, kapitalının və əmlakının, kommersiya maraqlarının təhlükəsizliyini təmin etmək [2].

Müəssisənin iqtisadi təhlükəsizliyinin yuxarıda göstərilən məqsədlərinin hamısının həyata keçirilməsi əsas məqsədə çatmaq üçün vacibdir.

Müəssisənin iqtisadi təhlükəsizlik sisteminin əsas vəzifələrinə aşağıdakılar daxildir:

- müəssisənin və işçilərin qanuni hüquq və mənafelərinin qorunması;
- məlumatların toplanması, təhlili, qiymətləndirilməsi və müəssisənin inkişafının proqnozlaşdırılması;
- müəssisənin kommersiya sirrini təşkil edən maddi dəyərlərin və məlumatların təhlükəsizliyini təmin etmək;
- müəssisənin iqtisadi fəaliyyət strategiyası və taktikasına dair ən optimal idarəetmə qərarlarını hazırlamaq üçün lazımi məlumatları toplamaq;
- binaların, tikililərin, ərazinin və nəqliyyat vasitələrinin fiziki və texniki qorunması;
- təhlükəsizlik sisteminin səmərəliliyini izləmək, elementlərini təkmilləşdirmək;
- əhalinin və işgüzar tərəfdaşların müəssisəyə olan sədaqətini artırmaq, iqtisadi fəaliyyət planlarının həyata keçirilməsinə töhfə vermək [3].

Müasir dövrdə sənaye müəssisələrinin iqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirmək getdikcə aktuallaşır. Müəssisələrin iqtisadi təhlükəsizliyini cari, taktiki və strateji tərkib hissələrinə ayırmaqla qiymətləndirmək olar. Cari təhlükəsizlik dedikdə, müəyyən bir zamanda müəssisənin fəaliyyətinə mənfi təsir göstərə biləcək təhlükələrin olmaması başa düşülür. Müəssisənin cari təhlükəsizlik səviyyəsi onun ödəmə qabiliyyətinin (maliyyə və iqtisadi vəziyyətinin)

qiymətləndirilməsi kimi müəyyən edilir. Taktiki təhlükəsizlik dedikdə, müəssisə ehtiyatlarından istifadədə müəyyən dərəcədə səmərəlilik əldə olunan, artım qabiliyyətini xarakterizə edən müəssisənin vəziyyəti başa düşülür. Böhran simptomlarının olmaması taktiki təhlükəsizliyin əsas xüsusiyyətidir. Taktiki təhlükəsizlik səviyyəsini təyin edərkən istehsal, texniki, intellektual, kadr və kommersiya komponentlərinin nəzərə alınması məqsədəuyğundur. Strateji təhlükəsizliyin xüsusiyyətləri müəssisənin gələcəkdə daha da inkişaf və işləmə qabiliyyəti ilə təmin edilir. Müəssisənin iqtisadi potensialının səviyyəsi, əsas makroiqtisadi meyillərə uyğunluq dərəcəsi nəzərə alınmaqla müəyyən edilir və strateji böhran əlamətlərinin olmaması ilə xarakterizə olunur. Strateji təhlükəsizlik səviyyəsini bazar, sosial, innovativ-texnoloji, xammal, enerji və ətraf mühit komponentləri əsasında müəyyənləşdirmək olar [1].

Sənaye müəssisəsinin iqtisadi təhlükəsizliyinin səviyyəsini qiymətləndirmək üçün onun fəaliyyətini hərtərəfli xarakterizə edən meyarlar və göstəricilər sistemi yaratmaq lazımdır. Meyar və göstəricilər üzrə təhlükəsizliyin qiymətləndirilməsi sənaye müəssisəsinin bütün sahələrini və xarici mühitdən gələn əsas amilləri əks etdirməlidir (Şəkil)



Şəkil. Sənaye müəssisəsinin iqtisadi təhlükəsizlik səviyyəsinin fəaliyyət istiqamətləri üzrə qiymətləndirilməsi [4]

Ümumiyyətlə, müəssisənin iqtisadi təhlükəsizlik səviyyəsini nisbi göstəricilərə - əmsallara əsaslanaraq 5 mərhələdə qiymətləndirmək olar.

I mərhələ - maddi və texniki təhlükəsizliyin qiymətləndirilməsi;

II mərhələ - təşkilatın maliyyə təhlükəsizliyinin qiymətləndirilməsi;

III mərhələ - təşkilatın kadr təhlükəsizliyinin qiymətləndirilməsi;

IV mərhələ - səmərəliliyin qiymətləndirilməsi;

V mərhələ - təşkilatın iqtisadi təhlükəsizliyinin məcmu əmsal səviyyəsinin qiymətləndirilməsi.

Həmin mərhələlərə uyğun olaraq iqtisadi təhlükəsizlik göstəriciləri sisteminə aşağıdakılar daxildir:

- maddi və texniki təhlükəsizlik göstəriciləri; - kadr təhlükəsizliyinin göstəriciləri; - maliyyə təhlükəsizliyinin göstəriciləri; - müəssisənin səmərəlilik göstəriciləri [5].

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi müəssisələrin həqiqi fəaliyyətlərini göstəricilərlə müqayisə etməklə müəyyən edilir. Bu yanaşmaya görə, onların iqtisadi təhlükəsizliyinin vəziyyəti müəyyən göstəricilər sistemi ilə müəyyənləşdirilməlidir. Onlar müəssisənin sahə xüsusiyyətlərini və iş şəraitini əks etdirməlidirlər. Bunlara istehsal, maliyyə və sosial göstəricilər daxildir (cədvəl).

Cədvəl

Müəssisələrin iqtisadi təhlükəsizlik göstəriciləri [6]

	Göstəricilərin təyinatı	Göstəricilərin adları
1	İstehsal	- istehsal dinamikası (artım tempi)
		- istehsal həcmi
		- ümumi iş həcmində elmi-tədqiqat işlərinin payı
		- tədqiqat və işlənmənin ümumi həcmində tədqiqatın payı
		- istehsal aktivlərinin yenilənmə dərəcəsi
		- istehsal prosesinin sabitliyi
		- məhsulun rəqabət qabiliyyətinin qiymətləndirilməsi
		- texnoloji avadanlıqların yaş quruluşu
2	Maliyyə-iqtisadi	- əmək məhsuldarlığı
		- satışdan gəlir
		- aktiv dövriyyə
		- aktivlərin qaytarılması
		- maliyyə tutumu
		- gəlirlilik
3	Sosial	- əmək haqqının səviyyəsi
		- əmək haqqı borclarının səviyyəsi
		- iş vaxtının itirilməsi
		- kadrların yaşı və ixtisas strukturu

Ümumiyyətlə, hər gün xarici və daxili amillərin təsiri sənaye müəssisələrini təhlükə halına gətirə və bununla da itkilərə və ya ən pis halda iflasa səbəb olacaq yeni fəaliyyət riskləri yarada bilər. Məhz qiymətləndirmə prosesi sayəsində, təhlükəli amillərin müəssisənin fəaliyyətinə və ya onun ayrı-ayrı sahələrinə təsirini vaxtında müəyyənləşdirmək, zərərsizləşdirmək və ya minimuma endirmək mümkündür. Həmçinin, müəssisənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün qiymətləndirmənin icrası təkcə onun fəaliyyətinin dayanıqlığına deyil, həm də maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyini əks etdirən göstəricilərin yaxşılaşdırılmasına şərait yaradar, eyni zamanda ölkə iqtisadiyyatının iqtisadi potensialının artmasına kömək edər.

Ədəbiyyat

1. Yaroçkin İ.V., Buzanova V.Y. Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları. Bakı: 2008, 174 s.

2. Иволга А.Б. Экономическая безопасность и ее составляющие как основа жизнедеятельности корпорации // Молодой ученый. 2012, № 1, с. 113-116.

3. Ковалев В. В. Анализ хозяйственной деятельности предприятия. М.: ООО ТКВелби, 2002. 424 с.

4. Макарова И. В. Статистика в Exce1. М.: Финансы и статистика, 2002, 368 с.

5. Суглобов А.Е. Экономическая безопасность предприятия. М.: ЮНИТИ-ДАНА, 2013, 271 с.

6. Хорев А.И. Управление организационно-экономической устойчивостью хлебопекарных организаций. Воронеж: Центрально-Черноземное книжное издательство, 2002, 201 с.

Резюме

Маммадова Е.Ш.

Оценка показателей экономической безопасности предприятия

В статье определены функциональные цели экономической безопасности предприятия и задачи, соответствующие этим целям. Обоснована необходимость создания критериев систем показателей, всестронное характеризирующие деятельность предприятия, которые используются в оценке уровня экономической безопасности промышленных предприятий. Рассмотрены производственные финансово-экономические и социальные показатели, характеризующие экономическую безопасность предприятия.

Ключевые слова: *предприятие, экономическая безопасность, показатель, производство, финансы, оценка*

Summary

Mammadova E.Sh.

Assessment of Indicators of Economic Security of the Enterprise

The article defines the functional goals of the economic security of the enterprise and the tasks that correspond to these goals. The necessity of creating criteria for systems of weighted indicators characterizing the activities of enterprises that are used to assess the level of economic security of industrial enterprises is substantiated. The production financial, economic and social indicators characterizing the economic security of the enterprise are considered.

Key words: *enterprise, economic security, indicator, production, finance, valuation*

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN GÜCLƏNDİRİLMƏSİNDƏ KLASTER İNSTİTUTUNUN ƏHƏMİYYƏTİNİN TƏHLİLİ VƏ İNKİŞAF PROBLEMLƏRİ

Musayeva Sevda Fərəc qızı

Sumqayıt Dövlət Universiteti

sevda.musayeva83@gmail.com

Xülasə: *Məqalədə iqtisadi təhlükəsizliyin gücləndirilməsində klaster institutunun əhəmiyyətinin təhlili və inkişaf problemləri tədqiq olunmuşdur. Bu məqsədlə klaster institutunun ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasında və iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində əhəmiyyəti təhlil olunmuşdur. Klaster şəbəkəsinin digər iqtisadi fəaliyyət əraziləri və mexanizmləri ilə müqayisədə üstün cəhətləri təhlil edilmişdir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə klasterlərdən istifadənin məhsuldar nəticələrindən yanaşmaqla, klaster institutunun ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində əhəmiyyəti əsaslandırılmışdır. İqtisadi islahatlar şəraitində Azərbaycanda klaster institutunun inkişaf problemlərinin həlli üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

Açar sözlər: *iqtisadi təhlükəsizlik, klaster institutu, klaster şəbəkəsi, klasterlərin səmərəlilik problemlərinin təhlili, klaster institutunun inkişaf problemləri, iqtisadiyyatın diversifikasiyalaşdırılmasında klasterlərin əhəmiyyəti, Azərbaycanda klaster institutunun inkişaf istiqamətləri.*

Müasir dövrdə iqtisadi təhlükəsizliyin gücləndirilməsi və ölkə iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsi problemləri kifayət qədər aktuallığı ilə diqqət mərkəzindədir.

Dünyada baş verən qlobal dəyişikliklər, xüsusilə iqtisadiyyatın yeni artım mənəbələrinin formalaşdırılmasındakı çətinliklər daha məhsuldar iqtisadi mexanizmlərin hazırlanmasını və fəal şəkildə iqtisadi sistemə daxil edilməsini tələb edir. Bu onunla əlaqədardır ki, dünyada iqtisadi proseslərin xüsusiyyətləri dəyişdikcə və yeni çağırışlar ortaya çıxdıqca, mövcud iqtisadi mexanizmlərin maksimum təkmilləşdirilməsi və milli iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılması, çevik, çoxfunksiyalı, daha səmərəli mexanizmlərinin tətbiq olunması problemlərini həll etmək lazım gəlir. İlk növbədə, yüksək texnologiyalar əsasında iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi problemlərinin optimal həlli yollarının tapılması və bunlarla bağlı zəruri tədbirlərin həyata keçirilməsi vəzifəsinin öhdəsindən gəlmək tələb olunur. Bir çox dünya ölkələrində, xüsusilə dünyanın iqtisadi və texnologiyalar cəhətdən inkişaf etmiş ölkələrində həmin problemlərin həll olunmasında klaster institutunun imkanlarından səmərəli istifadə olunması təcrübəsi vardır [1]. Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində, o cümlədən texnologiyalar baxımından yüksək nəticələr əldə etmiş bir qrup ölkələrdə - ABŞ, Böyük Britaniya, Fransa, Niderland, Yaponiya, Cənubi Koreya, Finlandiya və s. ölkələrdə klaster institutundan fəal şəkildə istifadəyə nail olmuşlar, nəticədə rəqabət qabiliyyətli və ixracyönlü sənaye məhsullarının istehsal həcminin artırılması təmin olunmuş, ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi baxımından önəmli addımlar atılmışdır.

Qeyd edək ki, klasterlərin yaradılmasında və klaster institutunun inkişaf etdirilməsində strateji məqsəd - iqtisadi inkişaf proseslərinin səmərəliliyini yüksəltmək, yeni rəqabətqabiliyyətli müəssisələr yaratmaq və məhsullar istehsal etməkdən ibarətdir. Klasterlərin yaradılmasında başlıca prinsiplər və şərtlər kimi zəruri infrastrukturun olması, yaradılacaq müəssisələrin fəaliyyəti üçün infrastrukturun formalaşdırılması, xammal resurslarının təminatı problemlərinə konseptual yanaşmaların təmin olunması, işçi qüvvəsinin və əmək ehtiyatlarının bolluğu və yeni innovatik məhsulların yaradılmasına marağın olmasıdır [2]. Bundan əlavə, klasterlər özündə eyni istiqamətli fəaliyyət növlərini cəmləşdirməklə bərabər, bu sahədə dövlət və özəl strukturları, investisiya və innovasiya birliklərini, istehsal və xidmət müəssisələrini, həmçinin elmi-tədqiqat, ali təhsil və peşə təhsili müəssisələrini birləşdirir. Klasterlərdə müəyyən fəaliyyət istiqamətində geniş şəkildə tədqiqatların aparılması, alınan nəticələrin işlənməsi və fəal şəkildə istehsalata tətbiq edilməsi, müəssisələrin yaradılması, satış və nəqliyyat, logistika infrastrukturunun yaradılmasına ümumi yanaşmalar diqqət çəkir. Klasterdə yer almış investisiya və digər maliyyə fondları investisiya layihələrinin qarşılıqlı şəkildə baxılması, əsaslandırılması və risklərin əsasən daha səmərəli idarə edilməsi mexanizmlərinin formalaşdırılmasına nail olmaq mümkündür. Klasterlər kompleksililik prinsipi əsasında iqtisadi mexanizmlər kimi kifayət qədər bir-birinə oxşar fəaliyyət göstərən, eyni zamanda bir-birilə əlaqəli təsərrüfat – kooperasiya prosesləri olan fəaliyyət istiqamətlərinin formalaşdırılması və təşkili məqsədilə yaradılır. Bu tip klasterlərin əsas məqsədi zəruri infrastrukturun formalaşdırılmasından və inkişaf etdirilməsindən ibarətdir. Yerləşdiyi ərazilərdə iqtisadi resursların mobilizasiyasında və iqtisadi təhlükəsizlik indikatorlarının tələblərinə əməl olunmasında klasterlərdən səmərəli istifadə edilməsi müsbət nəticələr verə bilər. Belə ki, klasterlər vasitəsilə yerləşdikləri ərazilərdə mövcud olan təbii resurslardan, eyni zamanda iqtisadi resurslardan maksimum səmərəli istifadənin təmin olunması, insan kapitalından və iqtisadi resurslardan istifadəyə münbit şəraitin yaradılması, geniş çeşiddə və artan həcmdə rəqabət qabiliyyətli sənaye məhsullarının istehsal edilməsi sayəsində ölkənin iqtisadi gücü artır və iqtisadi təhlükəsizliyinin gücləndirilməsi məqsədilə yeni potensial formalaşdırılır [3]. Bunlardan əlavə, klaster institutu çoxfunksiyalı xüsusiyyətlərə malik olduğundan yeni innovasiyaların işlənməsi və mənimsənilməsində, innovatik inkişafın genişləndirilməsində, innovasiyaların yayılması və

tətbiqində mühüm funksiyaları yerinə yetirir. Klasterlər özündə dövlət, özəl və biznes sahibkarlıq subyektlərini, maliyyə qurumları və kredit təşkilatları, ali təhsil və peşə məktəbləri, investisiya fondlarını və s. qurumları birləşdirməklə formalaşır. Klasterlərinin əsas xüsusiyyətləri - klaster iştirakçılarının ümumi oxşar maraqlarının olması və istehsal olunan məhsulların çeşidinin bir-birindən çox da fərqlənməməsi ilə bağlıdır. Klaster institutunun inkişaf etdirilməsi ilə ölkə iqtisadiyyatının təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynayan sənaye sektorunun inkişaf potensialından səmərəli istifadə üçün əlavə imkanlar formalaşdırılır [4]. Belə ki, klaster institutu bir sıra xüsusiyyətləri ilə iqtisadiyyatın səmərəlilik problemlərinin həlli istiqamətində cəlbedici iqtisadi mexanizmlər kimi qiymətləndirilir. Klaster şəbəkəsi özündə oxşar fəaliyyət növlərini cəmləşdirməklə yanaşı, eyni zamanda iqtisadiyyatın önəmli sahələrində iqtisadi inkişaf proseslərinə təkan verir, dövlət və özəl strukturları, investisiya və innovasiya birliklərini, istehsal və xidmət müəssisələrini, həmçinin elmi-tədqiqat, ali təhsil və peşə təhsili müəssisələrinin imkanlarını səfərbər edir, bütün bu tərəflərin iqtisadi maraqlarını qorumaqla, məhsuldar fəaliyyət mühiti yaradır, yəni iqtisadi prioritetlərin reallaşdırılmasında və hədəflərə çatılmasında əhəmiyyətli funksiyaları yerinə yetirir. Klaster institutu iqtisadiyyatın səmərəliliyinin artırılması və iqtisadi islahatların genişləndirilməsi proseslərində kifayət qədər səmərəlilik nümayiş etdirir. Klasterlər iqtisadiyyatın şaxələndirilməsi və dövrün tələblərinə uyğun şəkildə istehsal infrastrukturunun yaradılması, istehsal sahələrinin inkişaf etdirilməsi, ixrac strukturunun təkmilləşdirilməsi, idxaləvəzedici istehsal sahələrinin yaradılması, ixrac potensialının artırılması tədbirlərində çoxfunksiyalı rol oynayaraq, sahibkarlığın və biznesin inkişafına güclü təkan verir və ölkə iqtisadiyyatının təhlükəsizliyinin artırılması proseslərində məhsuldar mexanzimlər kimi fərqlənirlər [5]. Klasterlər real iqtisadi proseslərdə innovativ funksiyaları ilə mürəkkəb vəzifələrin öhdəsindən gəlməkdə və məqsədli dövlət proqramlarının, investisiya-innovasiya layihələrinin həyata keçirilməsində, həmçinin elmi-texniki yenilikləri istehsala tətbiq olunmasında elm və təhsil müəssisələrinin maraqlarının birləşdirilməsində, istehsal proseslərində yeni məhsulun yaranması və istehsalının reallaşdırılmasında, biliklərin, ideyalar və təşəbbüslərin rəqabətqabiliyyətli mal və məhsullara çevrilməsində, intellektual mülkiyyətin qorunmasında önəmli rol oynayırlar.

Azərbaycanda klaster institutunun inkişaf etdirilməsi prosesləri formalaşma səviyyəsindədir, hələ ki, klasterlər yaradılmamışdır, amma onların təşkilini şərtləndirən mühit formalaşmışdır. Belə ki, qlobal şəraitdə ölkəmizdə klasterlərin iqtisadi inkişaf proseslərinin sürətləndirilməsində əhəmiyyətini şəratləndirən amillər sırasında, əsas etibarı ilə qlobal təzyiqlərə və səmtlərə uyğun şəkildə iqtisadi inkişaf proseslərinə əlavə intensivlik verə biləcək mexanizmlərin hazırlanması və tətbiq olunması, bütün klaster iştirakçılarının maraqlarını özündə əks etdirən fəaliyyət strategiyasının formalaşdırılması, investisiya-innovasiya layihələrinin hazırlanması, iqtisadi inkişaf prosesləri subyektlərinin gəlirlilik və rentabellik prinsipləri əsasında fəaliyyət göstərməsi üçün onlar arasında inteqrativ əlaqələrdən maksimum səmərəli istifadə edilməsi, resurs potensiallarından, xammal ehtiyatlarından, mal və materiallardan istifadə proseslərinin ciddi uçotunun aparılması, işlək idarəetmə və nəzarət mexanizminin yaradılması, dəyər zənciri üzrə rəqabətqabiliyyətli, innovativ məhsulların istehsal olunması, klasterlərin yerləşdikləri ərazilərin iqtisadi fəallığının yüksəldilməsi daha çox diqqət çəkirlər. Bunun üçün, bir sıra problemlərin həll edilməsi və nəzərə alınması vacibdir:

- Ölkədə iqtisadi təhlükəsizlik indikatorlarının əksəriyyətinin adekvatlığının qorunmasında yeni iqtisadi mexanizmlərə və yanaşmalara ehtiyac olduğundan, müasir dövrdə klaster institutunun əhəmiyyəti kompleks və sistemli şəkildə təhlil olunmalı və qiymətləndirilməlidir;

- Qlobal çağırışlar nəzərə alınmaqla, klaster institutunun inkişaf proseslərinin sürətləndirilməsi, mövcud ehtiyatlardan səmərəli istifadə olunması tədbirlərinin görülməsi imkanları təhlil edilməli və ölkə regionları əhatə olunmaqla, məqsədli və iri investisiya-innovasiya layihələri hazırlanaraq həyata keçirilməlidir;

- Uzaq perspektiv inkişaf istiqamətləri və strateji hədəflər əsas götürülməklə, klaster institutunun əhəmiyyəti və çoxfunksiyalı xüsusiyyətləri obyektiv reallıqlar kontekstində qiymətləndirilməli və klaster institutununn inkişaf problemlərinin daha sürətli həlli yollarının müəyyənləşdirilməsi təmin olunmalıdır və s.

Ədəbiyyat

1. Боуш Г.Д. Формирование и развитие промышленных кластеров: теория и методология. Дисс. д-ра экон. наук. Санкт-Петербург, 2012, 434 с.

2. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.

3. Məmmədov R.M. Ölkə regionlarında klasterlərin yaradılması və inkişafı məsələləri. İ.ü.f.d. diss-nın avt-tı. Bakı, 2011, 24 s.

4. Əliyev Ş.T. Milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində sənaye klasterlərinin tətbiqini şərtləndirən amillər // Audit, № 4, 2015, s.73-79.

5. Калинина Е.О. Методы формирования отраслевых инновационных кластеров. Дисс. кандидата экономических наук. Санкт-Петербург, 2010, 203 с.

Резюме

Мусаева С.Ф.

Анализ важности и проблемы развития кластерного института в усилении экономической безопасности

В статье исследована анализ важности и проблемы развития кластерного института в усилении экономической безопасности. С этой целью анализирована важность кластерного института в диверсификации и повышении эффективности экономики страны. Исследованы преимущественные особенности механизмов кластерной сети в экономической системе. Обоснована важность повышения роли кластерного института в усилении экономической безопасности страны в контексте международного опыта. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам в условиях экономических реформ.

Ключевые слова: *экономическая безопасность, кластерный институт, кластерная сеть, анализ проблем эффективности кластеров, проблемы развития кластерного института, важность кластеров в диверсификации экономики, направления развития кластерного института в Азербайджане.*

Summary

Musayeva S.F.

Analysis of the Importance and Problem of Cluster Institution Development in Strengthening of Economic Security

An analysis of the importance and problem of cluster institution development in strengthening of economic security is explored in the article. The importance of the cluster institution in diversifying and improving the efficiency of the economy of the country is analysed for this purpose. The advantageous features of cluster network mechanisms in the economic system are

investigated too. The importance of enhancing the role of the cluster institution in enhancing the economic security of the country in the context of international experience is justified. Recommendations and proposals on the problems under consideration in the context of economic reforms are given in the end of the article.

Key words: *economic security, cluster institute, cluster network, the analysis of problems of efficiency of clusters, problems of development of cluster institute, importance of clusters in diversification of economy, the direction of development of cluster institute in Azerbaijan.*

AZƏRBAYCANDA VƏ DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONUNDA ÜMUMİ DEMOQRAFİK YÜKÜN QİYMƏTLƏNDİRİLMƏSİ

Nəcəfli Svetlana Xalid qızı
AMEA-nın İqtisadiyyat İnstitutu
necefli.lana@mail.ru

Xülasə: *Məqalədə Azərbaycanda 15 yaşadək və 64 yaşdan yuxarı əhalinin sayının 15-64 yaş intervalında olan əhalinin sayına nisbəti qiymətləndirilmişdir. Dağlıq Şirvan iqtisadi rayonu və inzibati rayonlarında şəhər və kənd əhalisinin dinamikası hesablanmışdır ki, bu da mövcud əmək ehtiyatlarından istifadənin vəziyyətini səciyyələndirən əsas göstəricilərdən biridir. Əmək qabiliyyətli əhalinin hansı hissəsinin ictimai istehsala cəlb edilməsinin, eyni zamanda əhalinin 14-64 yaş qrupları ictimai istehsalda müxtəlif sosial qruplara məxsus olan əhalinin iştirakının səviyyəsini əks etdirir.*

Açar sözlər: *əmək potensialı, əmək ehtiyatları, iqtisadi inkişaf, iqtisadiyyat, region, sosial–iqtisadi.*

Giriş

Hər bir ölkədə əmək potensialının quruluşu, həmin ölkədə iqtisadiyyatın (xüsusilə maddi istehsal sahələrinin) formalaşmış quruluşundan asılıdır və əmək potensialının quruluşu ilə iqtisadiyyatın quruluşu arasında birbaşa əlaqə vardır. Deməli, əmək potensialının quruluşunun təkmilləşdirilməsi bilavasitə iqtisadiyyatın quruluşunun təkmilləşdirilməsindən asılıdır. İqtisadiyyatın quruluşunun formalaşması ölkədə məhsuldar qüvvələrin ümumi inkişaf səviyyəsindən asılı olsa da və onunla şərtlənsə də, onun inkişafı və təkmilləşdirilməsi, hər halda, cəmiyyətin məcmu tələbatının təsiri (dəyişməsi) səbəbindən baş verdiyindən əmək qabiliyyətli əhalinin məşğulluq quruluşunun səmərəliliyinin yüksəlməsi əsasında reallaşır.

Ümumi demoqrafik yükün qiymətləndirilməsi göstəriciləri

Ümumi demoqrafik yük göstəricisi – ölkədə 15 yaşadək və 64 yaşdan yuxarı əhalinin sayının 15-64 yaş intervalında olan əhalinin sayına nisbəti ilə qiymətləndirilir. Ölkədə əhalinin ümumi demoqrafik yük göstəricisi – hər 100 nəfər 15-64 yaş intervalında olan əhaliyə neçə nəfər 15 yaşınadək və 64 yaşdan yuxarı yaş intervalında olan əhalinin düşməsinin sayını göstərir. Əmək potensialının formalaşmasında əhalinin yaş qrupları üzrə sayı xüsusi əhəmiyyət daşıyır. Cədvəl 1-dən göründüyü kimi, 2012-2017-ci illərdə ümumi demoqrafik yükün qiymətləndirilməsi göstərilmişdir. Ölkə əhalisinin yaş asılılığının demoqrafik vəziyyəti ilə yanaşı, ölkədə məşğul olmayan əhali qismi və məşğul olan əhali qismi arasında yaranmış sosial-iqtisadi münasibətlərin qiymətləndirilməsi göstəriciləri daxildir.

Azərbaycan Respublikası DSK-nin məlumatları göstərir ki, 2012-2017-ci illərdə ölkədə 15 yaşınadək olan əhalinin sayı hər il orta hesabla 49,430 min nəfər artmış, 2012-ci ildə 2052,5 min nəfərdən 2016-cı ildə 2186,9 min nəfərə çatmışdır. Həmçinin 2012-2017-ci illərdə ölkədə 64 yaşdan yuxarı əhalinin sayı hər il orta hesabla 33,440 nəfər artmış, 2012-ci ildə 531,3 min nəfərdən, 2016-cı ildə 597,5 min nəfərə çatmışdır. Müəyyən edilmişdir ki, 2012-2017-ci illərdə ölkədə 15-64 yaş intervalında əhalinin sayı hər il orta hesabla 67,820 min nəfər artaraq, 2012-ci ildə 6651,3 min nəfərdən 2017-ci ildə 6921,2 min nəfərədək yüksəlmişdir [1].

Cədvəl 1.

Azərbaycan Respublikasının 2012-2016-cı illərdə ümumi demoqrafik yükünün qiymətləndirilməsi göstəriciləri, min nəfərlə

illər	əhalinin sayı	o cümlədən				hər 100 nəfər 15-64 yaş intervalında olan əhalinin ümumi demoqrafik yükü, nəfər
		15 yaşadək və 64 yaşdan yuxarı			15-64 yaş intervalında	
	cəmi	cəmi	Onlardan			
			15 yaşadək	64 yaşdan yuxarı		
1	2	3	4	5	6	7
2012	9235,1	2583,8	2052,5	531,3	6651,3	39
2013	9356,5	2625,3	2087,1	538,2	6731,2	39
2014	9477,1	2672,3	2118,6	553,7	6804,8	39
2015	9593,0	2723,4	2152,7	570,7	6869,6	40
2016	9705,6	2784,4	2186,9	597,5	6921,2	40
2017	9898,1	2786,1	2226,5	601,5	6989,5	40
orta illik artım (+), azalma (-)	*ölkə əhalisi 117,750 min nəfər, P = 117,750t + 9120.2;* *15 yaşadək əhali 49,930 min nəfər, P<15 = 49,930t + 2528,1;* *64 yaşdan yuxarı əhali 33,440 min nəfər, P>64 = 33,440t + 2019,2;* *15-64 yaş intervalında əhali 167,680 min nəfər, P15-64 = 167,680y + 11648,0;* *ümumi demoqrafik yük əmsalı δ orta hesabla 39,0% təşkil etməklə, nisbi stabil qalmışdır.*					

Mənbə: Azərbaycan Respublikası DSK-nin məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib edilmişdiir.

Azərbaycan Respublikasında 2012-2017-ci illərdə 15 yaşadək və 64 yaşdan yuxarı əhalinin sayı ölkə əhalisinin sayında xüsusi çəkisi hər il orta hesabla 0,2% artaraq, 2012-ci ildə 28,0% səviyyəsindən 28,7% səviyyəsinədək artmışdır. Həmçinin ölkədə 2012-2017-ci illərdə 15 – 64 yaş intervalında olan əhalinin ölkə əhalisinin sayında xüsusi çəkisi hər il orta hesabla (-0,2)% azalaraq, 72,0% səviyyəsindən 71,3% səviyyəsinə enmişdir [3.s.40.]

Əmək potensialının quruluşunun formalaşması

Əmək potensialının quruluşunun formalaşması bir sıra amillərin təsiri altında baş verir. Bu amilləri aşağıdakı qruplar üzrə təsnifləşdirmək olar:

a) Demoqrafik amillərə aşağıdakılar daxildir:

1. Ölkə əhalisinin sayı; əhalinin yaş tərkibi; ölkədə orta ömür müddəti;
2. Əhalinin təbii artım səviyyəsi (doğumla ölüm arasındakı nisbət);
3. Əhalinin cins tərkibi (kişilərlə qadınların sayı arasındakı nisbət);
4. Əhalinin ölkənin regionları arasında mexaniki hərəkəti; əhalinin beynəlxalq miqrasiyası.

b) Sosial-iqtisadi amillərə aşağıdakılar aid edilir:

1. Ölkənin məhsuldar qüvvələrinin inkişaf səviyyəsi; xalq təsərrüfatının sahə quruluşu və inkişaf səviyyəsi; əmək ehtiyatlarının regionlar üzrə bölünməsinin mövcud vəziyyəti;

• məhsuldar qüvvələrin ölkənin coğrafi ərazisi (regionları) üzrə yerləşdirilməsinin səmərəlilik səviyyəsi; əmək qabiliyyətli əhalinin təhsil və peşə-ixtisas səviyyəsi;

• dövlətin sosial-iqtisadi siyasəti, ölkədə formalaşmış milli-məşğulluq ənənəsi və əmək vərdişləri.

İstənilən ölkədə əmək potensialının formalaşmış quruluşu və əmək qabiliyyətli əhalinin məşğulluğunun səviyyəsi zaman etibarı ilə sabit deyildir və müxtəlif amillərin təsiri altında daim dəyişikliklərə məruz qalır. Müasir dövrdə əmək potensialının quruluşunun və səviyyəsinin dəyişməsinə təsir edən ən başlıca amil elmi-texniki tərəqqi ilə bağlıdır. Elmi-texniki tərəqqi və onun nəticələrinin istehsalata tətbiqi ictimai əmək bölgüsünün dərinləşməsinə, ictimai istehsalın diferensiallaşmasına, xalq təsərrüfatının strukturunun təkmilləşdirilməsinə, yeni fəaliyyət istiqamətlərinin və növlərinin meydana gəlməsinə səbəb olur. Bu isə, öz növbəsində, həm məşğulluq quruluşunun təkmilləşdirilməsinə, həm də (bəzi hallar istisna olmaqla) məşğulluğun səviyyəsinin yüksəldilməsinə imkan (şərait) yaradır [2].

Məşğul olan əhalinin ölkənin regionları arasında bölünməsi məşğulluğun quruluşuna əsaslı şəkildə təsir etməklə yanaşı, əhalinin ölkə daxili miqrasiyasının səviyyəsinə də təsir göstərir. Belə vəziyyət Dağlıq Şirvan iqtisadi rayonunda da müşahidə edilir. İqtisadi rayonun əlverişli təbii şəraiti əhalinin məskunlaşmasında mühüm rol oynayır. Yuxarıda qeyd edildiyi kimi, onun əhalisinin təbii artım səviyyəsi ölkə üzrə orta göstəricidən yüksəkdir. İqtisadi rayonun tərkibinə daxil olan ayrı-ayrı inzibati rayonlar üzrə də əhalinin sayının və əmək potensialının dinamikası xüsusi maraq doğurur. Cədvəl 1-dən göründüyü kimi, Dağlıq Şirvan iqtisadi rayonunda məskunlaşan əhalinin təqribən yarısı (2010-cu ildə 51,0%-i) İsmayıllı və Şamaxı inzibati rayonlarının ərazisində yaşayır. Əhalinin sayına görə sonrakı yerləri Ağsu (2010-cı ildə 70536 nəfər) və Qobustan (40112 nəfər) inzibati rayonları tutur. 2010-2018-cı illər ərzində Dağlıq Şirvan iqtisadi rayonunun əhalisi ümumilikdə 2,7% artmışdır. Nəzərdən keçirilən illər ərzində bu göstərici İsmayıllı rayonu üzrə 2,5%; Şamaxı rayonu üzrə 2,5%; Ağsu rayonu üzrə 1,1%; Qobustan rayonu üzrə 1,5% təşkil etmişdir [5.səh.26-30].

Cədvəl 2.

Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan inzibati rayonlar üzrə əhalinin dinamikası

illər				Dağlıq Şirvan iqtisadi rayonu üzrə, cəmi:	Ağsu rayonu	İsmayıllı rayonu	Şamaxı rayonu	Qobustan rayonu
2010-cu il	Cəmi, nəfər			283627	70002	79128	91431	40577
	0 cümlədən	Şəhər əhalisi	nəfər	80209	99533	17303	43280	8093
			faiz	28,3	27,9	21,87	47,34	20,23
		Kənd əhalisi	nəfər	192359	50469	61825	48151	31914
			faiz	68,5	72,1	78,1	52,6	20,7

	Kişilər		nəfər	138404	34430	39256	44585	19833
			faiz	48,8	49,6	49,6	48,8	49,6
	Qadınlar		nəfər	142164	35272	39272	46846	20174
			faiz	51,2	50,4	50,4	51,2	51,4
2013-cü il	Cəmi, nəfər			299672	75085	83111	98276	43200
	0 cümlədən	Şəhər əhalisi	nəfər	116147	27064	32030	36051	21002
			faiz	40,7	36	38,5	36	48,6
		Kənd əhalisi	nəfər	183525	48021	52871	60225	22208
			faiz	50,1	50	51	50	50
2015-ci il	Cəmi, nəfər			308200	77300	84900	101200	44800
	0 cümlədən	Şəhər əhalisi	nəfər	105600	21300	27600	47600	9100
			faiz	34,3	27,5	32,5	47	20,3
		Kənd əhalisi	nəfər	202600	56000	57300	53600	35700
			faiz	65,7	72,5	67,5	53	79,7
	Kişilər		nəfər	154000	39000	42090	49600	23410
			faiz	49	50,4	49,5	49	52,2
	Qadınlar		nəfər	154200	39112	42100	49054	23934
			faiz	51	49,6	50,5	51	47,8
2016-cı il	Cəmi, nəfər			311900	78300	85500	102700	45400
	o cümlədən	Şəhər əhalisi	nəfər	108900	21500	29600	48600	9200
			faiz	34,9	27,4	34,6	47,3	20,2
		Kənd əhalisi	nəfər	203000	56800	55900	54100	36200
			faiz	65,1	72,6	65,4	52,7	79,8
	Kişilər		nəfər	157900	39100	43500	51000	24300
			faiz	50,6	49,9	50,8	49,6	53,5
	Qadınlar		nəfər	154000	39200	42000	51700	21100
			faiz	49.4	50,1	49,2	50,4	46,5
2017-ci il	Cəmi, nəfər			315300	79200	86100	103900	46100
	o cümlədən	Şəhər əhalisi	nəfər	108000	21800	27900	48900	9400
			faiz	34,2	27,5	32,4	45,0	20,3
		Kənd əhalisi	nəfər	207300	57400	58200	55000	36700
			faiz	67,8	72,5	67,6	53,0	79,0
	Kişilər		nəfər	158000	39100	30050	47890	2100
			faiz	50,1	49,3	34,9	46,0	45,5
	Qadınlar		nəfər	157300	40100	56056	53075	25100
			faiz	49,9	50,7	65,1	52,0	54,4
2018-ci il	Cəmi nəfər			318600	80100	86700	105100	46700
	o cümlədən	Şəhər əhalisi	nəfər	109000	22000	28100	49400	23600
			faiz	34,2	27,4	32,4	47,0	50,5
		Kənd əhalisi	nəfər	209600	58100	58600	55700	23100
			faiz	65,8	72,6	67,6	53,1	50,0
	Kişilər	Şəhər əhalisi	nəfər	160300	40300	43700	52700	9500
			faiz	50,3	50,3	50,4	50,1	20,3
	Qadınlar	Kənd əhalisi	nəfər	158300	39800	43000	52400	37200
			faiz	49,7	49,7	49,6	50,0	79,5

Mənbə: Azərbaycan Respublikası DSK-nin məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib edilmişdiir.

Regionun 2010-2018-cı illər ərzində şəhər əhalisinin 1,1% azalmış, kənd əhalisinin sayı isə 1,5% artmışdır. Ancaq inzibati rayonlar üzrə şəhər əhalisinin həm mütləq, həm də nisbi say artımında əhəmiyyətli fərqlər vardır. Bu müddət ərzində şəhər əhalisinin sayı ən çox Şamaxı (9,7%) və İsmayıllı (8,4%) rayonlarında, ən az isə Ağsu (3,6%) və Qobustan (2,3%) rayonunda baş vermişdir. Yalnız Qobustan rayonunda şəhər əhalisinin həm mütləq, həm də nisbi sayında azalma müşahidə edilir (nəzərdən keçirilən illər ərzində azalma 2,0% olmuşdur) [4.səh.732-737].

Nəticə

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanda və Dağlıq Şirvan iqtisadi rayonunda o cümlədən ayrı-ayrı inzibati rayonlarında iqtisadiyyatın inkişafını bütün sahələrdə təkmilləşdirməklə, regionun əmək potensialının dinamikasında və quruluşunda baş verən dəyişikliklərin qiymətləndirilməsi və daha səmərəli məşğulluğunun təmin edilməsi üçün kifayət qədər imkanlar mövcuddur. Qeyd edilən istiqamətlərdə iqtisadi əmək potensialının formalaşmasına, ondan daha səmərəli istifadə edilməsinə və məşğulluğun səviyyəsinin yüksəldilməsinə şərait yaradardı.

Ədəbiyyat

1. Azərbaycan Regionları. Azərbaycan Respublikası DSK. Bakı: ElM, 2019.
2 . Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: ElM, 2004.
3. Əyyubov M.R., Nəcəfli S.X. Bülleten / Analitik icmal. AMEA-nın İqtisadiyyat Institutunun Elmi Şura iclasının qərarı ilə çap edilib. Bakı, 2018, s.40.
4. Nəcəfli S.X. Azərbaycan Respublikasında əmək potensialının formalaşması və məşğulluq səviyyəsi. AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda Beynəlxalq elmi konfrans, Bakı, 2019, s.732-737.
5. Наджафли С.Х. Оценка демографической нагрузки занятого населения в Азербайджане и Нагорно-Ширванском экономическом районе. XXIV Международная научно-конференция «Научной диалог». Экономика и менеджмент. Санкт-Петербург, 2019., с.26-30.

Резюме

Наджафли С.Х.

Оценка общей демографической нагрузки в Азербайджане и Нагорном Ширванском экономическом районе

В статье оценивается соотношение населения Азербайджана в возрасте до 15 и населения старше 64 лет к населению в возрасте 15-64 лет. Рассчитана динамика городского и сельского населения в экономических и административных районах горного Ширванского региона и это один из ключевых показателей, характеризующих использование имеющихся трудовых ресурсов. Доля трудоспособного населения в общественном производстве отражает уровень участия населения, принадлежащего к различным социальным группам в возрасте 14-64 лет.

Ключевые слова: *трудовой потенциал, трудовые ресурсы, экономическое развитие, экономика региона, социально-экономический*

Summary
Najafli S.Kh.
Evaluating of the Overall Demographic Burden in Azerbaijan and in the Economic region of Nagorno-Shirvan

The article estimated the ratio of the population of Azerbaijan upto the ages of 15 and older than 64 to the population aged 15-64. Dynamics of urban and rural population in the economic and administrative regions of the mountainous Shirvan region is calculated, which is one of the key indicators characterizing the use of available labor resources. The proportion of able-bodied population in social production reflects the level of participation of the population belonging to different social groups at the same time as those aged 14-64.

Key words: *labor potential, labor resources, economic development, , region, economy, socio-economic.*

AZƏRBAYCANDA KİÇİK SAHİBKARLIĞIN İNKİŞAFI YOLU İLƏ SƏMƏRƏLİ MƏŞĞULLUĞUN TƏMİN EDİLMƏSİ

Nəcəfova Təranə Rüstəm qızı
AMEA-nın İqtisadiyyat İnstitutu
Aqayarova.akifa@yandex.com

Xülasə: *İqtisadi aktiv əhalinin ümumi azalması ilə yanaşı, bazar iqtisadiyyatı şəraitində bir sıra ölkələr artan işsizlik və məşğulluğun azalması kimi kəskin problemlərlə üzləşir. Buna görə, məşğulluq səviyyəsinin artırılmasında əsas amil olan kiçik biznesin inkişafı və işsizliyin azaldılması məsələlərinin tədqiqi günün vacib problemlərindəndir.*

Məqalədə, işsizliyin azaldılması və yeni iş yerlərinin yaradılmasında mühüm əhəmiyyət kəsb edən kiçik sahibkarlığın inkişafı şəraitində məşğulluğun transformasiyasının istiqamətləri araşdırılmışdır.

Açar sözlər: *kiçik sahibkarlıq, məşğulluq, əmək bazarı.*

Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatının qurulması, dövlət sektoru ilə yanaşı fərdi sahibkarlıq iqtisadiyyatının da inkişaf etdirilməsini, yəni kiçik, orta və böyük biznes strukturlarının yaradılmasını nəzərdə tutur. Kiçik biznes sahəsindəki məşğulluq probleminin öyrənilməsi iqtisadi inkişafda yeni meyillərin yaranması, Azərbaycanda sosial və əmək münasibətlərinin dəyişməsi və kiçik biznes sahəsində məşğulluğun genişlənməsi ilə əlaqədardır. Ölkəmizdə fəaliyyət göstərən kiçik müəssisələrdə fərdi sahibkarların və işçilərin sayının artması ilə sosial və əmək münasibətlərinin vacib elementi kimi kiçik biznes sahəsində məşğulluğa maraq artdı.

Kiçik biznes sahəsində məşğulluğun səmərəliliyinin artırılması problemi dövlətdən bu sahənin tənzimlənməsi üçün tədbirlər görməsini tələb edir. Bu baxımdan kiçik biznes sahəsindəki məşğulluq münasibətlərinin məzmunu və onu meydana gətirən amillər, mexanizmlər, xüsusiyyətlər və inkişaf istiqamətləri və nəticədə, bu fenomenin genişlənməsinə kömək edən yol və metodların öyrənilməsinə ehtiyac var.

Məşğulluğun struktur dəyişiklikləri problemi bir çox iqtisadçıların diqqətini cəlb etmişdir. Məsələn, C.M.Keyns, qiymətlərin səviyyəsini, istehsalın miqyasını və məşğulluğun həcmini bir-biri

ilə əlaqələndirirdi. Burada məşğulluq, real sərf edilən iş vaxtı kimi çıxış edir. Keynsin fikrincə, «…qiymətlərin ümumi səviyyəsi, qismən olaraq, istehsalın miqyasından (yəni həmin dövr ərzində texnika və texnologiyanın vəziyyətini nəzərə alaraq) və ümumən - məşğulluğun həcmindən asılıdır» [Антология экономической классики. М.: ЭКОНОВ, Ключ, 1993. С.366]. Keynsin təklif etdiyi metodologiyaya müvafiq olaraq, kiçik sahibkarlıq, bazar rəqabəti vasitəsilə qiymətlərin səviyyəsinə təsir göstərərək, məşğulluğa birbaşa təsir göstərir və onu səmərəli edir. Kiçik sahibkarlıq sisteminə, məşğulluğa təsir göstərən müəyyən obyektiv amillər xasdır. Onlar kiçik sahibkarlığın inkişaf səviyyəsini, yeni iş yerlərinin işsizliyin yumşaldılmasına təsirini və səmərəli məşğulluğun inkişafını müəyyən edir.

Kiçik sahibkarlığın birinci belə xüsusiyyəti - daha az kapital sərf etməklə daha çox iş yeri (iri sahibkarlıqla müqayisədə) yaratmaq qabiliyyətidir. Kapitalın həcmi dəyişməz olduqda əməkhaqqına sərf edilən xərclərin mütləq və nisbi həcmi aşağı düşür. Lakin bəzi sahələrdə kapital həmin texniki əsasda artır və öz artımına proporsional olaraq əlavə iş qüvvəsini cəlb edir [Петрище В.И. Обеспечение эффективной занятости населения путем развития малого предпринимательства. Среднерусский вестник общественных наук. 2015, №3, том 10.]. Belə sahələrə xidmət və ticarət sahələri aiddir. Bu sahələrdə kiçik biznesin payı yüksəkdir. Bundan əlavə, qeyd edək ki, son 20 ildə xidmət sahələrində məşğulluğun səviyyəsi yüksək dərəcədə artmışdır. Xidmət sahəsində məşğul olanların sayı əhəmiyyətli dərəcədə çoxalmışdır. Xidmət sahəsinin sürətlə inkişaf etməsi göstərir ki, ictimai əmək bölgüsü və əmək məhsuldarlığı sahəsində mühüm struktur dəyişiklikləri baş vermişdir.

Kiçik sahibkarlığın ikinci xüsusiyyəti - fəaliyyət göstərən kapitalın daha aşağı texniki və orqanik quruluşudur. Bu, əsasən, iki səbəbdən baş verir. Əvvəla, sərf edilən kapitalın istifadə edilən məcmu həcmi azalır (iri, korporativ sahibkarlıqla müqayisədə). İkinci, iri sahibkarlıqla müqayisədə, kiçik sahibkarlıqda kapitalın hər vahidinə daha çox əmək vahidi düşür. Təbii ki, iri, korporativ sahibkarlıqla müqayisədə. Birinci məqam, kiçik biznesin öz mahiyyətindən irəli gəlir (məsələn, onu müəyyən edən meyarlardan - məşğul olanların sayı və illik dövriyyənin həcmi). İkinci məqam isə - əmtəə və xidmətlərin istehsalı üzrə kiçik və iri biznesin xərc strukturu haqqında statistik məlumatlarla təsdiq olunur.

Kiçik sahibkarlıq daha aşağı orqanik tərkibə malikdir. Daim dəyişərək (kiçik sahibkarlıq müəssisələri tez yaranır, lakin tezliklə də müflis ola bilərlər), inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə kiçik sahibkarlıq biznes sistemi nəinki yaşamaqda davam edir, eləcə də, daim genişlənir.

Kiçik sahibkarlığın üçüncü xüsusiyyəti ondan ibarətdir ki, onun inkişafı əmək bazarına lazımi çeviklik verir və bununla da məşğulluğa təsir göstərir. Çevik əmək bazarının formalaşması iki vəzifəni yerinə yetirməyə imkan verir: istehsalın səmərəliliyinin artırılmasını təmin etmək və iş güvvəsi bazarında gərginliyi əhəmiyyətli dərəcədə yumşaltmaq. Bizim fikrimizcə, belə bazarın bəzi təməl prinsipləri Azərbaycanın regionlarında bazar münasibətlərinin formalaşması şəraitində reallaşdırıla bilər. Çevik əmək bazarı konsepsiyası dövlət, sahibkarlar, həmkarlar ittifaqları və işçilər arasında çoxnövlü və çevik əlaqələrin formalaşmasını nəzərdə tutur. «Çeviklik» prinsipinin tətbiqi, son nəticədə, məcmu xərclərin səmərəliləşdirilməsinə, rəqabətin canlanmasına, istehsalın səmərəliliyinin artmasına, eləcə də bütövlükdə bazar sisteminin dinamizminin dəstəklənməsinə istiqamətlənmişdir. Sözsüz ki, bu aspekt, iqtisadiyyatın islahatlanmasını və əmək bazarının struktur modifikasiyasını yaşayan Azərbaycan üçün də aktualdır. Azərbaycan iqtisadiyyatının düşdüyü böhran şəraitindən çıxış, məşğulluq sahəsində pozitiv dəyişikliklər olmadan mümkün deyil. Nəzərdə tutulan məqsədləri, yalnız, əmək münasibətləri sahəsinə çevik məşğulluq, kiçik

sahibkarlığın inkişafı, o cümlədən özünüməşğulluq prinsiplərinin tətbiqi əsasında həyata keçirtmək olar.

Bazar iqtisadiyyatı - mürəkkəb və dinamik inkişaf edən sistemdir. Bu sistem daxilində bir çox subyektlər fəaliyyət göstərir. Qeyd edək ki, miqyas meyarını əsas götürərək, bazar iqtisadi sistemində fəaliyyət göstərən bütün müəssisələri iki qrupa bölmək olar: 1. iri biznes müəssisələri; 2. kiçik və orta müəssisələr.

Bir çox səbəblərdən, Azərbaycanda kiçik biznesin formalaşması və inkişafı müəyyən çətinliklərlə üzləşir. Statistika Komitəsinin məlumatlarından göründüyü kimi, Azərbaycanda kiçik müəssisələrin inkişafı qeyri-bərabər olmuşdur. Əgər 2016-cı ilə qədər kiçik sahibkarlıq subyektlərinin sayı 192002-yə qədər artmışdırsa (onlardan fiziki şəxslər – fərdi sahibkaların sayı 175167), 2017-ci ildə onların sayı 169982 nəfərə qədər azalmışdır (fiziki şəxslər – fərdi sahibkarların sayı - 150447). Lakin 2018-ci ildə yenidən artım baş vermiş və kiçik sahibkarlıq subyektlərinin sayı 241183 –ə qədər artmışdır (onlardan fiziki şəxslərin – fərdi sahibkaların sayı – 218494 nəfər). [Azərbaycanın statistik göstəriciləri – 2019. Statistik məcmuə, səh.113].

Məşğulluq mövqeyindən kiçik biznesin növbəti xüsusiyyəti, onun, investisiya olunan kapitalın tez qaytarıldığı sahələrdə daha çox inkişaf etməsidir. Burada, kiçik biznesin xüsusiyyəti ondan ibarətdir ki, yaradılmasının ilkin mərhələsində, o, daha çox, ticarət və ictimai iaşə sahələrində inkişaf edir. Belə ki, 2015-ci ildə Azərbaycanda cəmi 17847 kiçik müəssisə fəaliyyət göstərirdi. Onlardan 1235 müəssisə (6,9%) – xarici və ya birgə kapitalla fəaliyyət göstərən müəssisələr idi. Cəmi fəaliyyət göstərən kiçik müəssisələrdə işləyənlərin sayı 87626 nəfər, orta aylıq əməkhaqqı – 302,1 manat təşkil edirdi. Bu müəssisələr tərəfindən istehsal edilən məhsulun (işin və xidmətlərin) həcmi 645016,6 min manat təşkil edirdi.

2018-ci ildə kiçik müəssisələrin sayı 22689 qədər artdı. Onlardan 1765 müəssisə (7,8%) – xarici və ya birgə kapitalla fəaliyyət göstərən müəssisələrdir. Cəmi fəaliyyət göstərən kiçik müəssisələrdə işləyənlərin sayı 133133 nəfər, orta aylıq əməkhaqqı – 354,7 manat təşkil edirdi. Bu müəssisələr tərəfindən istehsal edilən məhsulun (işin və xidmətlərin) həcmi 806180,2 min manat təşkil edirdi [Azərbaycanın statistik göstəriciləri – 2019. Statistik məcmuə, səh.114-117].

2015-ci ildə fəaliyyət göstərən 17847 kiçik müəssisədən ən çoxu - 6781 müəssisə (cəmi fəaliyyət göstərən kiçik müəssisələrin 38,0%) – ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində işləyirdi. Bu müəssisələrdə işləyənlərin sayı 35144 nəfər (cəmi fəaliyyət göstərən kiçik müəssisələrdə çalışanların 26,4%) idi. Həmin müəssisələrdə çalışanların orta aylıq əməkhaqqı – 211,6 manat (cəmi kiçik müəssisələrdə çalışanların əməkhaqqının 70,0%) təşkil edirdi. Bu müəssisələrdə yaradılan məhsul və xidmətlərin həcmi 285098,2 min manat (cəmi kiçik müəssisələrdə yaradılan məhsul və xidmətlərin 44,2%) təşkil etmişdir.

2015-ci ildə işçilərinin çoxluq təşkil etdiyi digər sahə - kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsidir. Burada 1659 müəssisə (cəmi fəaliyyət göstərən kiçik müəssisələrin 9,3%) fəaliyyət göstərir. Bu müəssisələrdə işləyənlərin sayı 4734 nəfər (cəmi fəaliyyət göstərən kiçik müəssisələrdə çalışanların 3,5%) idi. Həmin müəssisələrdə çalışanların orta aylıq əməkhaqqı –171,0 manat (cəmi kiçik müəssisələrdə çalışanların əməkhaqqının 56,6%) təşkil edirdi. Bu müəssisələrdə yaradılan məhsul və xidmətlərin həcmi 36411,4 min manat (cəmi kiçik müəssisələrdə yaradılan məhsul və xidmətlərin 5,6%) təşkil etmişdir.

2018-ci ildə fəaliyyət göstərən kiçik müəssisədən ən çoxu - 6178 müəssisə (cəmi fəaliyyət göstərən kiçik müəssisələrin 27,2%) – yenə də ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində işləyirdi. Bu müəssisələrdə işləyənlərin sayı 55864 nəfər (cəmi fəaliyyət göstərən kiçik müəssisələrdə çalışanların 42,0%) idi. Həmin müəssisələrdə çalışanların orta aylıq əməkhaqqı –

202,7 manat (cəmi kiçik müəssisələrdə çalışanların əməkhaqqının 57,1%) təşkil edirdi. Bu müəssisələrdə yaradılan məhsul və xidmətlərin həcmi 377096,6 min manat (cəmi kiçik müəssisələrdə yaradılan məhsul və xidmətlərin 46,8 %) təşkil etmişdir.

2018-ci ildə işçilərinin çoxluq təşkil etdiyi digər sahə – peşə, elmi və texniki fəaliyyət sahəsidir. Burada 2204 müəssisə (cəmi fəaliyyət göstərən kiçik müəssisələrin 9,7%) fəaliyyət göstərir. Bu müəssisələrdə işləyənlərin sayı 8223 nəfər (cəmi fəaliyyət göstərən kiçik müəssisələrdə çalışanların 6,2%) idi. Həmin müəssisələrdə çalışanların orta aylıq əməkhaqqı – 772,1 manat (cəmi kiçik müəssisələrdə çalışanların əməkhaqqının 217,7%) təşkil edirdi. Bu müəssisələrdə yaradılan məhsul və xidmətlərin həcmi 57478,2 min manat (cəmi kiçik müəssisələrdə yaradılan məhsul və xidmətlərin 7,1%) təşkil etmişdir. [5, s. 114-117].

Azərbaycan Dövlət Statistika Komitəsinin 2020-ci ilin yanvar ayına olan məlumatına görə, 2019-cu ildə yeniyaradılan iş yerlərinin sayı 192017 olmuşdur. Onlardan: yeni yaradılmış müəssisə və təşkilatlarda yaradılan iş yerlərinin sayı 56918; mövcud müəssisə və təşkilatlarda – 50270; fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda – 706; digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) üzrə isə – 84123 yeni iş yeri yaradılmışdır. Yeni yaradılan fərdi sahibkarlıq subyektlərinin sayı isə 2019-cu il üzrə 940905 olmuşdur. Yalnız 2019-cu ilin son IV-cü rübündə 24256 yeni fərdi sahibkarlıq subyekti yaradılmışdır. 2015-2018-ci illər ərzində ölkə iqtisadiyyatında kiçik sahibkarlıq subyektlərinin payı 6,3%-dən 11,5%-ə qədər, yəni 5,2% bəndi artmışdır [4, s.10].

Statistik məlumatlardan göründüyü kimi, 2018-ci ildə kiçik sahibkarlığın əlavə dəyərdə payı 1,7%; kiçik sahibkarlıq sahəsində çalışan işçilərin ümumi iqtisadiyyatda çalışan işçilərin sayında payı 11,5%; əsas kapitala investisiyaların payı - 6,3%; yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyərində kiçik sahibkarlığın payı – 2,7% təşkil etmişdir [4, s.11].

Bizim fikrimizcə, məşğulluğun artırılması ilə əlaqəli məsələlər bilavasitə kiçik biznesin və özəl sahibkarlığın daha da böyük miqyasda inkişafı ilə bağlıdır. Bu sahədə yarana biləcək problemlərin qarşısının alınması üçün, aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- təkcə sosial infrastrukturun deyil, bütövlükdə iqtisadi münasibətlərin inkişafı məqsədi ilə bazar infrastrukturunun genişləndirilməsi üzrə bütün tədbirlər həyata keçirilməlidir. Son illərdə, bu problem diqqət mərkəzində saxlanılsa da, iqtisadi fəaliyyət subyektləri regionlardan mərkəzə doğru can atırlar;

- istehsal sahələrinə kreditlərin verilməsi siyasətində kiçik biznes və özəl sahibkarlığa daha çox diqqət vermək lazımdır, çünki istehsal sahələri yeni iş yerlərinin yaradılması üçün daha böyük imkanlar verir.

Bu tədbirlər əhali məşğulluğunun təmin edilməsi məsələsində kiçik biznes və sahibkarlığın iştirakını daha da gücləndirmək imkanı verir. Bu da, kiçik biznes və özəl sahibkarlığın inkişafını, məhz kənd yerlərində yeni iş yerlərinin yaradılmasını təmin edir ki, bu da gənclər arasında məşğulluq probleminin həllində böyük əhəmiyyət kəsb edir.

Beləliklə, aparılan təhlillər məşğulluq probleminin həllində kiçik sahibkarlığın rolunu üzə çıxartmağa imkan verir. Qeyd etmək lazımdır ki, kiçik sahibkarlıq məşğulluq proseslərinə heç də birmənalı təsir göstərmir, çünki bir tərəfdən, kiçik biznesin genişlənməsi bu sahəyə daha çoxlu sayda məşğul əhali cəlb edir, lakin kiçik biznes subyektləri daxilində baş verən sərt «bazar iqtisadiyyatı» rəqabəti iş yerlərinin bir hissəsinin itirilməsinə gətirib çıxarır. Bundan belə nəticəyə gəlmək olar ki, sabit məşğulluğun artımını dəstəkləyən kiçik biznes sisteminin fəaliyyəti üçün şərait yaratmaq lazımdır.

Ədəbiyyat

1. Антология экономической классики. М.: ЭКОНОВ, Ключ, 1993. с.366
2. Арипов О. А. Значение малого бизнеса и частного предпринимательства в увеличении занятости населения. // Национальный Университет Узбекистана. Сборник республиканской научно-практической конференции на тему: «Пути эффективного использования трудовых ресурсов и увеличения занятости населения в условиях модернизации экономики» С.: часть II, 2015, с. 153.
3. Петрище В.И. Обеспечение эффективной занятости населения путем развития малого предпринимательства. Среднерусский вестник общественных наук. 2015, №3, том 10.
4. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, 2019, s.9-11
5. Azərbaycanın statistik göstəriciləri – 2019. Statistik məcmuə, s.113-117

Резюме

Наджафова Т.Р.

Обеспечение эффективной занятости за счет развития малого предпринимательства

В статье исследуются направления трансформации занятости в условиях развития малого предпринимательства, имеющего важное значение в создании новых рабочих мест и снижения безработицы. Наряду со снижением численности экономически активного населения, в условиях рыночной экономики ряд стран стоят перед такой проблемой, как снижение занятости и рост безработицы. Поэтому изучение вопросов развития малого бизнеса и сокращения безработицы, являющихся ключевым фактором в повышении уровня занятости, является одной из главных проблем современности.

Ключевые слова: *малое предпринимательство, занятость, рынок труда.*

Summary

Nacafova T.R.

Ensuring Effective Employment Through the Development of Small Business

The article examines the direction of the transformation of employment in the conditions of small business development, which is important in creating new jobs and reducing unemployment. Along with the decline in the economically active population, in a market economy a number of countries are facing such a problem as a decline in employment and rising unemployment. Therefore, studying the development of small business and reducing unemployment, which are a key factor in increasing employment, is one of the main problems of our time.

Key words: *small business, employment, labor market.*

REGİONLARIN İQTİSADİ TƏHLÜKƏSİZLİK GÖSTƏRİCİLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Osmanov İlqar Osman oğlu

Sumqayıt Dövlət Universiteti

ilqarosmanov1975@mail.ru

Xülasə: *məqalədə regionların iqtisadi təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi əsaslandırılmışdır. İqtisadi təhlükəsizlik sisteminin mövcud inkişaf mərhələsində bir sıra problemlərin mövcud olduğu qeyd edilmişdir. Regionun iqtisadi təhlükəsizliyinin təmin olunması*

problemlərinin spesifikliyini nəzərə alaraq xüsusi göstəricilər sisteminin hazırlanması təklif edilmişdir. Həmçinin regional iqtisadi təhlükəsizlik göstəriciləri sisteminə qoyulan əsas tələblər müəyyənləşdirilmişdir.

Açar sözlər: *region, iqtisadi təhlükəsizlik, göstərici, qiymətləndirmə, iqtisadiyyat*

Regional iqtisadi təhlükəsizliyin regionun resurs və istehsal potensialından, investisiya cəlbediciliyindən, iqtisadi azadlıq səviyyəsindən, bazar infrastrukturunun inkişafından və ixtisaslı insan resurslarından asılılığı var. Həm də regionun iqtisadi təhlükəsizliyi öz iqtisadi siyasətini formalaşdırmaq və həyata keçirmək qabiliyyəti ilə xarakterizə olunur (təbii ki, bu, ölkənin maraqlarına xələl gətirməməlidir). Dünya təcrübəsi göstərir ki, mərkəzləşdirmə regionların iqtisadi inkişafına, rəqabət üstünlüklərinin artmasına, əhalinin rifah halının yüksəldilməsinə səbəb olur. Beləliklə, iqtisadi təhlükəsizlik sistemində mövcud inkişaf mərhələsində bir sıra problemlər mövcuddur.

Həmin problemlər sırasında ən əsasları aşağıdakılardır:

1. Daxili bazarın xarici iqtisadi vəziyyətdən asılılığı (bu, tətbiq olunan sanksiyalar kontekstində xüsusilə daha çox özünü göstərir);
2. Valyuta riskləri;
3. İqtisadi sistemlərin innovativ əsaslarla inkişafını sürətləndirən qanunvericilik bazasında qüsurların olması;
4. Xarici kapitalın ayrı-ayrı strateji sənaye sahələrinin inkişafına təsiri və s.

Bu problemlərin həlli ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas elementləri kimi regional səviyyədə müvafiq effektiv tədbirlərin görülməsini tələb edir [2].

Beləliklə, iqtisadi inkişafı səmərəli həyata keçirmək üçün regionun iqtisadi təhlükəsizliyinin vəziyyətinə təsir edən daxili və xarici amilləri müəyyən etmək lazımdır.

Regionda iqtisadi təhlükəsizliyin dayanıqlılığını qorumaq və artırmaq üçün təsirli tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi, habelə onun yaxşılaşdırılması üçün davamlı işlər görülməlidir. Dünyadakı son siyasi və iqtisadi hadisələr göstərir ki, hazırda iqtisadi təhlükəsizliyin təmin edilməsi vəzifəsi həm ölkə, həm də region səviyyədə aktuallığını itirmir. Bu vəziyyətdə, xarici və daxili təhdidləri müəyyənləşdirmək üçün iqtisadi təhlükəsizlik sisteminin vəziyyətini hərtərəfli qiymətləndirməyi özündə cəmləşdirən regionların iqtisadi təhlükəsizliyinin səmərəli monitorinqini təşkil etmək lazımdır.

Avropa Yenidənqurma və İnkişaf Bankı ənənəvi olaraq, müxtəlif sahələrdə (real iqtisadiyyat, maliyyə sektoru, ərzaq təchizatı və s.) regional iqtisadiyyatın inkişafını onun güclü və zəif tərəflərini əks etdirən göstəricilərdən istifadə edərək qiymətləndirir. İqtisadi təhlükəsizlik göstəriciləri aşağıdakı fərqləndirici xüsusiyyətlərə malikdir: iqtisadi təhlükəsizlik üçün təhdidləri kəmiyyətcə əks etdirir; yüksək həssaslığa və dəyişkənliyə malikdir; bir-biri ilə kifayət qədər güclü bir şəkildə qarşılıqlı əlaqə qurulur. Regional iqtisadi təhlükəsizliyin təmin edilməsində mühüm olanı onların təsirinin nəticələrini passiv izləməklə deyil, yaranan təhlükələrin qarşısının alınması tədbirləridir. Yaranan təhlükələrin qarşısını almaq üçün qabaqlayıcı tədbirlərin tərtib edilməsi ərazinin təbii ehtiyat potensialının qiymətləndirilməsi meyarlarının dəqiq müəyyənləşdirilməsini tələb edir; iqtisadiyyatın rəqabət qabiliyyəti; regiondakı istehsal aktivlərindən, işçi qüvvəsindən və kapitaldan istifadənin səmərəliliyi səviyyəsi; sosial sabitliyin vəziyyəti və mümkün sosial münaqişələrin qarşısını almaq və həll etmək üçün şərtlər və s [1].

Regionun iqtisadi təhlükəsizliyin təmin olunması problemlərinin spesifikliyini nəzərə alaraq xüsusi göstəricilər sistemini hazırlamaq lazımdır. Bunun üçün regionlara yönəlmiş metodoloji yanaşmaya əsaslanaraq onlar üçün göstəricilərin seçilməsi problemlərini öyrənmək lazımdır.

- regionların iqtisadiyyat və sosial sahəsindəki böhran vəziyyətlərinin qiymətləndirilməsi;
- regional böhran vəziyyətlərinin ölkənin milli təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi;
- regionun sosial-iqtisadi inkişafının prioritet və istiqamətlərinin müəyyənləşdirilməsi;
- regionun iqtisadi təhlükəsizliyini təmin etmək üçün hədəflənmiş proqramların hazırlanması və əsaslandırılması.

Regionda iqtisadi təhlükəsizliyin vəziyyəti xüsusi vasitələrdən istifadə etməklə qiymətləndirilə bilər. Bu vasitələrə göstəricilər, dövlət statistikasında və elmin müxtəlif sahələrində hazırlanan və istifadə olunan qiymətləndirmə meyarları daxildir. Regional sosial-iqtisadi maraqlar, təhdidlər və göstəricilərin həddləri müəyyən bir regionun iqtisadiyyatını və sosial sahəsini, bütövlükdə ölkə üçün bu sahədə müvafiq parametrləri nəzərə almalıdır. Ancaq bir ölkənin və regionların iqtisadi təhlükəsizliyi göstəriciləri eyni ola bilməz. Fərqli elm adamları fərqli meyarlar təklif edirlər [6]. Məsələn, N.M.Muxitov yazır ki, iqtisadi təhlükəsizlik üçün vacib olan göstəricilər deyil, həddlərdir. O, işsizlik səviyyəsini, əhalinin müxtəlif qrupları arasında gəlir fərqini və inflyasiya səviyyəsini qiymətləndirməyi təklif edir [5]. Xarici təhdidləri qiymətləndirmək üçün dövlət borcunun icazə verilən səviyyəsindən, dünya bazarındakı mövqelərindən, milli iqtisadiyyatın və onun ən vacib sektorlarının xarici texnologiyaların, komponentlərin və xammalın idxalından asılılığından istifadə etmək də təklif olunur. Bununla birlikdə, bu qiymətləndirmədə hansı göstəricilərdən istifadə edilməli olduğu və ən başlıcası onların həddinin nə qədər olması da məlum deyil [4].

Bəzi müəlliflərin fikrincə, iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi meyarları və göstəriciləri fərqlidir. İ.A.Lukaseviç qeyd edir ki, "İqtisadi təhlükəsizliyin meyarı onun mahiyyətini əks etdirən ən vacib proseslər baxımından iqtisadiyyatın vəziyyətini qiymətləndirməkdir. Belə qiymətləndirməyə aşağıdakılar daxildir: resurs potensialı və inkişaf imkanları; resursların istifadəsinin səmərəliliyi və ən inkişaf etmiş və qabaqcıl ölkələrdəki səviyyəyə, habelə xarici və daxili xarakterli təhdidlərin minimuma endirildiyi səviyyəyə uyğunluğu; iqtisadiyyatın rəqabət qabiliyyəti; regionun və iqtisadi məkanın bütövlüyü; suverenlik, müstəqillik və xarici təhdidlərə, sosial sabitliyə və sosial münaqişələrin qarşısının alınması və həll edilməsi şərtlərinə qarşı çıxma imkanı"[4]. Regionun iqtisadi təhlükəsizliyinə təhdidlərin monitorinqi zamanı sosial-iqtisadi inkişafın demək olar ki, bütün tərəflərini xarakterizə edən geniş analitik göstəricilərdən istifadə olunmalıdır. Q.V.Savitskaya demoqrafik təhlükəsizliyin, həyat səviyyəsinin və əmək bazarının təhlükəsizlik göstəricilərini regiondakı iqtisadi təhlükəsizliyin əsas göstəriciləri kimi qəbul edilməsini təklif edir. Ancaq bu qruplara hansı göstəricilər daxil edilməlidir, o müəyyənləşdirilmir [7].

İqtisadi təhlükəsizlik göstəricilərinin həddinin icazə verilən həddi aşması regionun sosial və iqtisadi təhlükəsizliyinə təhdidlərin artdığını göstərir [3].

Fikrimizcə, təklif olunan bəzi göstəricilər regionda iqtisadi təhlükəsizlik göstəriciləri sisteminin inkişafı üçün əsas götürülə bilər, məsələn: adambaşına düşən ÜDM; onun ÜDM-də faizlə xüsusi çəkisi, ömür uzunluğu, işsizlik səviyyəsi, daxili istehlakda idxalın payı, əhalinin müxtəlif qruplarının gəlirləri arasındakı fərq və s.

Regional iqtisadi təhlükəsizlik göstəriciləri sisteminə qoyulan əsas tələblərə aşağıdakılar daxildir:

- iqtisadi təhlükəsizlik göstəricilərinin dövlət və bələdiyyə orqanlarının səlahiyyətlərində istifadə edilməsi;

- iqtisadi təhlükəsizlik göstəricilərinin ölkədə mövcud mühasibat, statistika və proqnozlaşdırma sistemi ilə uyğunluğu;

- ölkənin, sənayenin və regionun iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından birmənalı qiymətləndirməyə imkan verən kifayət qədər spesifiklik və əminlik dərəcəsi;

- regionun təhlükəsizliyinə təhdid səviyyəsini təsir edən amilləri izləmək və proqnozlaşdırma bacarığı.

Əhalinin əksəriyyəti üçün məqbul olan təhlükəsizlik göstəriciləri sisteminə daxildir:

- iqtisadiyyatın genişlənmiş təkrar istehsal rejimində işləmə qabiliyyəti;

- iqtisadiyyatın tələb olunan səviyyədə istehsal oluna biləcəyi ən vacib məhsul növlərinin idxalından kritik asılılığın sərhədləri;

- strateji ehtiyatlara dövlət nəzarəti;

- maliyyə sisteminin sabitliyi;

- elmi və innovativ potensialın qorunması;

- regionlarda iqtisadi birliyin qorunması;

- bazar iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün iqtisadi proseslərin lazımi səviyyədə dövlət tənzimlənməsinin təmin edilməsi.

Regionun iqtisadi təhlükəsizliyi üçün indikatorların hədləri çox vacibdir. Göstəricilərin uyğunsuzluğu dağıdıcı tənzimlənməmiş proseslərin başlanmasına səbəb olacaq hədd dəyərləridir.

Bu gün regionlarda iqtisadi təhlükəsizlik göstəricilərindən istifadə edərək iqtisadiyyatın və cəmiyyətin obyektiv və hərtərəfli monitorinqi tələb edilir ki, bu da ilk növbədə iqtisadi göstəricilərin ən vacib qruplarının həqiqi monitorinqi, təhlili və proqnozlaşdırılması, habelə təhdidlərə qarşı xüsusi hazırlanmış mexanizmlərin tətbiq edilməsini əhatə edir.

Regionun iqtisadi təhlükəsizliyik göstəricilərinin təhlili aşağıdakı sahələri əhatə edir:

- iqtisadiyyatın vəziyyətinin makroiqtisadi göstəriciləri (ümumi istehsal, adambaşına düşən ÜDM və s.);

- demoqrafiya, həyat səviyyəsi və keyfiyyəti (doğum və ölüm nisbəti, ömür uzunluğu, xəstələnmə; yaşayış minimumu ilə müqayisədə orta və minimum əmək haqqı və pensiyalar; əhalinin ayrı-ayrı təbəqələri arasındakı gəlir fərqi; zəruri ərzaq növlərinin istehlakı);

- məşğulluğun dinamikası;

- istehsalın dinamikası, ehtiyatların mövcudluğu;

- maliyyə-büdcə və kredit sisteminin vəziyyəti, ən vacib dövlət ehtiyacları üçün maliyyə mənbələrinin mövcudluğu, nizam-intizam, subsidiyalar, zərərlərin ödənilməsi;

- dövlət hakimiyyəti sisteminin səmərəliliyi, hüquqi və inzibati tənzimləmə mexanizmləri.

Regionlardakı vəziyyətin təhlili gələcək təhlükəsizliyi müəyyənləşdirməyə və keyfiyyətcə qiymətləndirməyə, habelə vəziyyətin sabitləşdirilməsi üçün bir sıra proqram xarakterli tədbirlərin həyata keçirilməsinə imkan verəcək iqtisadi təhlükəsizliyin bir sıra göstəricilərinə əsaslanmalıdır.

Regionların iqtisadi təhlükəsizliyi üçün meyarlar və parametrlər sisteminin inkişafı aşağıdakı ümumi metodoloji xüsusiyyətlərin istifadəsinə əsaslanmalıdır:

- birincisi, mürəkkəblik, tədqiqat obyektinin bütün aspektlərinin təhlilinin nəzərə alınması ehtiyacı;

- ikincisi, bir sıra qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq nəzərə alınmaqla ardıcıllıq;

- üçüncüsü, dəyişkənlik, böhrandan çıxmaq üçün bir neçə variantın müəyyənləşdirilməsi və əsaslandırılması;

- dördüncüsü, iqtisadi təhlükəsizliyin qeyd-şərtsiz əhali və regiondakı iqtisadiyyatın dolanışıq səviyyəsinin qiymətləndirilməsində mühüm element kimi çıxış etməsi;

- beşincisi, böhran vəziyyətinin yaranmasının qarşısını almaq üçün müvafiq tədbirlərin müəyyənləşdirilməsi və həyata keçirilməsi.

Beləliklə, aparılan tədqiqatlar nəticəsində regoinun iqtisadi təhlükəsizliyinin həddləri ilə göstəricilər sistemi müəyyən edilmişdir ki, onların istifadəsi yüksək risk nöqtələrini müəyyənləşdirməyə imkan verir.

Ədəbiyyat

1. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı: Gənclik, 2009. 400 s.

2. Qafaraov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı: Elm, 2004, 325 s.

3. Колмыкова Т.С. Инвестиционный анализ. М.: ИНФРА-М, 2010, 204 с.

4. Лукасевич И.А. Инвестиции. ИНФРА-М, 2011. 413 с.

5. Мухитов Н.М. Формирование национальной системы экономической безопасности в условиях глобализации: дис.канд. экон. наук. М., 2006, 167 с.

6. Подшиваленко Г.П. Инвестиции. М.: КНОРУС, 2014, 200 с.

7. Савицкая Г.В. Анализ хозяйственной деятельности предприятия. М.: ИНФРА-М, 2011, 536 с.

Резюме

Османов И.О.

Оценка показателей экономической безопасности регионов

В статье обоснована необходимость обеспечения экономической безопасности регионов. Отмечен ряд проблем в системе обеспечения экономической безопасности. Предлагается подготовка системы показателей обеспечения экономической безопасности регионов. А также определены основные требования к системе показателей региональной экономической безопасности

Ключевые слова: *регион, экономическая безопасность, показатель, оценка, экономика*

Summary

Osmanov İ.O.

Assessment of Indicators of Regional Economic Security

The article substantiates the need to ensure the economic security of the regions. The existing number of problems in the system of ensuring economic security is noted. The preparation of a system of indicators to ensure the economic security of the regions is being offered. It also defines the basic requirements for a system of indicators of regional economic security

Key words: *region, economic security, indicator, estimation, economy*

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ

Rüstəmova Gülbəs Rəsul qızı
Sumqayıt Dövlət Universiteti
rrufet1979@mail.ru

Xülasə: *İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir. İqtisadi təhlükəsizlyin təmin edilməsində maliyyə sabitliyi, iqtisadi inkişaf mühüm rol oynayır. İqtisadi təhlükəsizlik təhdidlərinin aşkara çıxarılması və onların nəticələrinin proqnozlaşdırılması ölkənin makroiqtisadi göstəriciləri vasitəsilə həyata keçirilir.*

Açar sözlər: *iqtisadi təhlükəsizlik, təhlükəsizlik təhdidləri, iqtisadi təhlükəsizlik konsepsiyası, milli iqtisadiyyat, makroiqtisadi göstəricilər*

İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi olub, ölkə iqtisadiyyatının beynəlxalq aləmdə milli mənafeləri qoruya bilən, sosial yönümlü siyasətin ölkənin müdafiə qabiliyyətini lazımi səviyyədə saxlamasına imkan yaradan vəziyyət başa düşülür. İqtisadi təhlükəsizliyin təmin edilməsində maliyyə sabitliyi, maliyyə sisteminin dayanıqlığı, iqtisadi inkişaf və onun səmərəliliyi mühüm rol oynayır. Məlumdur ki, qloballaşma dövründə xarici investorlar, beynəlxalq təşkilatlar başqa ölkələrə maraqsız kömək etmir. Bu yardımların arxasında müxtəlif mənafelər durur. Ona görə də hər bir xarici yardımı qəbul edərkən ölkənin milli mənafeyini iqtisadi təhlükəsizlik baxımından qiymətləndirməsi vacibdir. Dövlətin öz müstəqilliyini qoruyub saxlaması baxımından iqtisadi təhlükəsizlik vacib şərtdir. Ölkədə iqtisadi təhlükəsizlik strategiyası istehsal və elmi-texniki inkişaf səviyyəsinin saxlanılmasına, əhalinin yoxsulluq səviyyəsinin azaldılmasına, əhalinin ayrı-ayrı qrupları və digər millətlər arasında mübahisələrin aradan qaldırılmasına istiqamətlənməlidir. Bu sahədə dövlət strategiyası qanunverici, icraedici, məhkəmə hakimiyyəti, ictimai və s. birliklər sistemi vasitəsilə həyata keçirilir [1. s. 654].

İqtisadi təhlükəsizlik sahəsində dövlətin əsas prioriteti qısa və uzun müddətdə dövlətin sosial-iqtisadi vəziyyətinin dayanıqlı inkişafını sarsıdan amilləri müəyyənləşdirməkdən ibarətdir. Daha sonra proqram tərtib edib həmin amillərin təsirini azaltmaq və yox etmək məqsədilə iqtisadi siyasəti formalaşdırmaqdır. İqtisadi təhlükəsizliyin konsepsiyasının təmin edilməsi zamanı qarşıya qoyulan məqsəd və vəzifələrə nail olmaq üçün konkret proqramların işlənib hazırlanma bazası nəzərdən keçirilir. İqtisadi siyasəti reallaşdırarkən milli iqtisadi təhlükəsizliyə təsir edən problemlər sırasında ölkə iqtisadiyyatına birbaşa deyil, dolayı yolla təsir edənləri də nəzərə almaq mütləqdir. Belə təhlükələrə milli məhsulun rəqabət qabiliyyətliyinin aşağı olması, ixracın xammal yönümlü olması, texnologiyaların idxaldan asılı olması, kapitalın ölkədən kənara axını, xarici borcun yüksək olması, ölkə iqtisadiyyatının xarici kreditlərdən asılı olması, milli valyuta məzənnəsinin tez-tez kəskin dəyişməsini aid etmək olar. Bunlar daxili və xarici təhlükələr kimi iqtisadi ədəbiyyatda təsnifləşdirilir.

İqtisadi təhlükəsizlik təhdidlərinin aşkara çıxarılması və onların nəticələrinin proqnozlaşdırılması ölkənin makroiqtisadi göstəriciləri vasitəsilə həyata keçirilir ki, bunlara adambaşına düşən nominal və real ÜDM, ÜDM-də əmək haqqının xüsusi çəkisi, orta aylıq əmək haqqı, əhalinin mənzillə təminatı, ölkədə geniş təkrar istehsalın həyata keçirilməsinin təmin edilməsi, daxili istehlakda idxalın payı, emaledici sənayenin ÜDM-də xüsusi çəkisi, inflyasiya, işsizliyin səviyyəsi, ÜDM-in illik artımı, sənaye istehsalının artım sürəti, istehlak mallarının qiymət

indeksi, dövlət borcu, idxal və ixracın saldosu, milli valyuta məzənnəsi və paritet alıcılıq qabiliyyəti, kölgə iqtisadiyyatının xüsusi çəkisi və s. aid etmək olar [2. s. 113].

Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ökənin iqtisadi təhlükəsizliyi sahəsində bir sıra addımlar atmışdır. Müxtəlif sahələri əhatə edən qanunlar qəbul edilmiş, ölkənin qanunvericilik bazası möhkəmləndirilmişdir. Ölkəmiz dünya iqtisadi sitemində layiqli yer tutmaq üçün həm demoqrafiya sahəsində, həm sosial sahədə iqtisadi təhlükəsizlik tədbirləri həyata keçirərək demoqrafik potensialın artırılmasına nail olmuşdur. Bununla yanaşı əhalinin gəlirlərə görə diferensasiyasının da azaldılması, həyat səviyyəsinin yaxşılaşdırılması, yaşayış minimumu da təmin olunmuşdur. Ölkəmizdə istehal, elmi-texniki, innovasiya sahəsində, büdcə-vergi sahəsində, ekoloji sahədə, regional iqtisadi inkişaf sahəsində, dövlət idarəçiliyi sahəsində də iqtisadi təhlükəsizliyə nail olmaq istiqamətində xeyli işlər görülmüşdür.

İqtisadi təhlükəsizliyin təmin edilməsi və təhdidlərin azaldılmasında investisiya amilinin mühüm əhəmiyyəti nəzərə alınaraq, dövlət investisiya proqramı qəbul edilmişdir. Proqramın əsas məqsədi ölkə iqtisadiyyatının xüsusilə qeyri-neft sektorunun dinamik inkişafına, əhalinin iqtisadi və sosial təminatının yaxşılaşdırılmasına, regionların inkişafına, ölkənin iqtisadi təhlükəsizlyinin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli şəkildə həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Respublikanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında əsas prinsiplər kimi konstitusiyaya və onun qanunlarına riayət olunması, iqtisadi təhlükəsizliyin vahid dövlət siyasətinə əsaslanması müstəsna rola malik olmuşdur. İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlət orqanları arasında səlahiyyətlərin dəqiq müəyyən edilməsi və onların fəaliyyətinin əlaqələndirilməsi, beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya, insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması da əsas prinsip kimi çıxış etmişdir.

İqtisadiyyatın aparıcı sahəsi olan sənayedə mədənçıxarma sənayesi, emal sənayesi, elektrik enerjisi, qaz və suyun istehsalı daxil olmaqla ÜDM son illərdə əvvəlki illərlə müqayisədə xeyli artmışdır. Tikinti, xidmət, nəqliyyat, rabitənin də ÜDM-də paylarının artması müşahidə olunur. Dövlətin xarici borcunun ÜDM-də xüsusi çəkisi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən aşağıdır. Ölkənin xarici borcu iqtisadi təhlükəsizliyin təmin edilməsində vacib şərt olduğundan borc 10 il müddətinə götürülürsə, ÜDM-un 50 %-dən artıq olmamalıdır. Eyni zamanda milli sərvətin 5%-ni, bir illik büdcənin isə 20 %-ni üstələməməlidir.

2019-cu il tarixinə Azərbaycanın xarici dövlət borcu 8 milyard 920 milyon ABŞ dolları (15 milyard 164,1 milyon manat) olmuş, xarici dövlət borcunun ÜDM-ə nisbəti 19% təşkil etmişdir. Qeyd edilənlər bir daha göstərir ki, müstəqillik illərində ölkədə aparılan iqtisadi islahatlar dövlətimizin milli maraqlarına, müstəqilliyinə maneə yarada biləcək təhdidlərə qarşı əsaslı şəkildə həyata keçirilmiş və bu uğurlu təhlükəsizlik konsepsiyası davam etməkdədir.

Ədəbiyyat

1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov M.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Dərslik. Bakı, 2006, 834 s.

2. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Metodik vəsait. Bakı, 2011, 120 s.

Резюме
Рустамова Г. Р.
Проблемы обеспечения экономической безопасности

Экономическая безопасность является неотъемлемой частью национальной безопасности. Финансовая стабильность и экономическое развитие играют важную роль в обеспечении экономической безопасности. Выявление угроз экономической безопасности и прогнозирование их последствий осуществляется по макроэкономическим показателям страны.

Ключевые слова: *экономическая безопасность, концепция экономической безопасности, угрозы безопасности, национальная экономика, макроэкономические показатели*

Summary
Rustamova G.R.
Issues of Ensuring Ecocnomic Security

Economic security is an integral part of national security. Financial stability and economic development play an important role in ensuring economic security. Identifikation of economic security threats and forecasting of their consequences is carried out through the countrys macroeconomic indicators.

Key words: *economic security, economic security concept, security threats, national economy, macroeconomic indicators*

MƏŞĞULLUĞUN İNKİŞAFI - İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ƏSASIDIR

Seyidova Sevda Məmməd qızı
AMEA-nın İqtisadiyyat İnstitutu
aqayarova.akifa@yandex.ru

